*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

---

*Regional iqtisadi və sosial araşdırmalar institutu*

**Ə.X.Nuriyev**

# AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAF VƏ MODERNLƏŞMƏ SİYASƏTİNİN KONSEPTUAL ƏSASLARI

Azərbaycan Respublikasının Prezidenti yanındaDövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının 27 mart 2013-cü il tarixli 5 saylı qərarı ilə nəşr olunur

Bakı-2013

28105

Elm və təhsil Mərkəzi
„Təfəkkür" Universiteti
Kitabxana

**Elmi redaktorlar:** Akademik **Z.Ə.Səmədzadə**
i.e.d., prof. **İ.H.Alıyev,**
Dövlət qulluğu müşaviri **C.D.Qocayev**

**Rəyçilər:** i.e.d., prof. **Ə.C.Muradov,**
i.e.d., prof. **H.B.Allahverdiyev**
k/t e.n.dos.**İ.A.İbrahimov**

**N-89. Əli Xudu oğlu Nuriyev.** Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı-«*AVROPA*».2013-422səh.

Kitabı öz məzmununa görə dörd hissəyə ayırmaq olar. Birinci hissədə demokratik cəmiyyətin üç əsas formalaşma və inkişaf dövrü müəyyənləşdirilir, müasir dövrdə demokratik cəmiyyətin inkişafında əmələ gəlmiş yeni xüsusiyyətlər (qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, qlobal informasiya cəmiyyətinin formalaşması) aşkara çıxarılır. İkinci və üçüncü hissələrdə demokratik cəmiyyətin ayrı-ayrı inkişaf dövrlərində (XX əsrin 70-80-ci illərində və müstəqillik illərində) ümummili lider Heydər Əliyevin və onun layiqli varisi İlham Əliyevin sosial-iqtisadi siyasəti qarşılıqlı əlaqədə, üzvi vəhdət halında mərhələ-mərhələ təhlil olunur, bu siyasətlərin müvəffəqiyyətlərinin əsas səbəbləri aşkara çıxarılır. Dördüncü hissədə yeni dövrdə Azərbaycanda iqtisadiyyatın innovasiya yönümlü inkişaf strategiyası və onun həyata keçirilməsinin iki əsas mərhələsi və məqsədli proqram mərhələləri əsaslandırılır. Cəmiyyətin innovasiya yönümlü inkişafı və modernləşməsi üçün elmin, təhsilin və iqtisadiyyatın inteqrasiyasının, gənclərin kreativ inkişafının, milli mənəvi-əxlaqi dəyərlərin qorunmasının vacibliyi və yolları əsaslandırılır.

Kitab geniş oxucu kütləsi, birinci növbədə isə elmi tədqiqat, təhsil, dövlət və bələdiyyə idarəetməsi sahəsində çalışanlar üçün nəzərdə tutulmuşdur.

N $\frac{4702060106\text{-}11}{8032\text{-}2013}$ *Qrifli nəşr*

© «*AVROPA*» *nəşriyyatı-2013*

Kitab anadan olmasının **90** illik yubileyini böyük iftixar və minnətdarlıq hissi ilə qeyd etdiyimiz Azərbaycan xalqının ümummilli lideri **Heydər Əliyevin** əbədiyaşar xatirəsinə ithaf olunur.



"Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım yalnız sizə-bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi, yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yanız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

*Azərbaycan xalqının ümummilli lideri*
*Heydər Əliyev*



1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altında qoymuşdu. Ölkədə xaos anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması-bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi.

1993-cü ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu. Ölkəmizdə sabitlik yarandı və Azərbaycanda inkişaf dövrü başlandı. Ona görə biz tam əminliklə və qətiyyətlə deyirik: Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, müstəqil Azərbaycanın qurucusudur. Bu gün Azərbaycan onun qoyduğu yolla gedərək inkişaf edir...

Ölkə qarşısında duran vəzifələr icra edilir. Bir daha demək istəyirəm ki, 1990-cı illərdə düzgün müəyyən edilmiş istiqamət bugünkü reallıqlara gətirib çıxarmışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və yeni formalarla zənginləşdirilir.

*Azərbaycan Respublikasının Prezidenti*
***İlham Əliyev***

## Mündəricat

Giriş......9

**I HİSSƏ. DEMOKRATİK CƏMİYYƏTİN ƏSAS İNKİŞAF DÖVRLƏRİ VƏ BU DÖVRLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ**

I.1. Cəmiyyətin inkişafını dövrlərə (mərhələlərə) bölməyin zəruriliyi və obyektiv əsasları......15

I.2. Demokratik cəmiyyətə keçid dövrü və onun sosial-iqtisadi inkişaf siyasəti......28

I.3. Demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünün sosial-iqtisadi inkişaf siyasəti......34

I.4. Qlobal informasiya cəmiyyətinin formalaşması və inkişaf dövrü: əsas xüsusiyyətləri və problemləri......41

I.5. Qlobal informasiya cəmiyyətinin əsas inkişaf yolu: sənayeləşmə və modernləşmə......65

**II HİSSƏ. XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ VƏ AZƏRBAYCANIN DEMOKRATİK CƏMİYYƏTƏ KEÇİD DÖVRÜNDƏ HEYDƏR ƏLİYEVİN SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİ**

**II.1.** Heydər Əliyev siyasətinin ona həmişəyaşarlıq bəxş edən əsas keyfiyyətləri......83

**II.2.** XX əsrin 70-80-ci illərində Heydər Əliyevin sosial-iqtisadi inkişaf siyasəti: əsas nəticələr və onun Azərbaycanın müstəqil inkişafı üçün əhəmiyyəti......92

**II.3.** Müsətəqillik dövründə Heydər Əliyevin demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid siyasəti: 1993-2003-cü illər......112

**II.3.1.** Respublikanı dərin, hərtərəfli böhrandan çıxarmaq, bazar iqtisadiyyatının və dünya iqtisadiyyatına inteqrasiyanın əsaslarını yaratmaq siyasəti: 1993-1996/1997-ci illər......113

**II.3.2.** Qısa və orta müddətli məqsədli proqramlarla bazar iqtisadiyyatının əsaslarını möhkəmləndirmək və iqtisadiyyatın bütün sahələrində davamlı inkişafa nail olmaq siyasəti: 1997-2002-ci illər......125

**II.3.3.** Azad sektoru, qeyri-neft sektorunu inkişaf etdirmək və yoxsulluğu azaltmaq siyasəti: 2003-2005-ci illər....................**132**
**II.4.** 1997-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi inki şafının yekunları:sosial-iqtisadi inkişafı sürətləndirmək və məqsədli proqramlarla idarəetməni təkmilləşdirmək zərurəti.........**142**

**III HİSSƏ. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEVİN SİYASƏTİNİN DAVAM VƏ İNKİŞAF ETDİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ**

**FƏSİL 1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək siyasəti Heydər Əliyev siyasətinin davamı və yeni formalarda inkişafıdır......160**

**1.1.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək və Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək siyasəti..........................**160**

**1.2.** Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər): regionlarda qeyri-neft sektorunun inkişafı, yoxsulluğun və işsizliyin azalmasında yeni mühüm mərhələ...................................................................**172**

**1.2.1.**Dünyada analoqu olmayan, bəzən yerinə yetirilməsinə şübhə ilə yanaşılan Dövlət Proqramı.......................................**172**

**1.2.2.**Dövlət Proqramının məqsəd və vəzifələri, iqtisadiyyatın müxtəlif sahələrinin nəzərdə tutulan inkişaf istiqamətləri.......**180**

**1.3.** Azərbaycanda xüsusi iqtisadi zonaların yaranması və fəaliyyəti istiqamətində hazırlıq işləri.........................................**197**

**FƏSİL 2. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının (2004-2008-ci illər) yerinə yetirilməsi tədbirləri və onların ümumi nəticələri**

**2.1.** Dövlət Proqramının yerinə yetirilməsi tədbirləri və onların maliyyə təminatı...............................................................**210**

**2.2.** Dövlət Proqramının yerinə yetirilməsi yekunları: iqtisadi sahədə keçid dövrünün başa çatması....................................**237**

**2.3.** Sosial-iqtisadi inkişafın və investisiya siyasətinin yeni prioritetlərinin yaranması..............................................................**254**

**FƏSİL 3. Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı**
3.1. Dövlət proqramının məqsəd və vəzifələri, birinci proqramla ümumi və fərqli cəhətləri............262
3.2. 2009-2012-ci illərdə Dövlət Proqramının yerinə yetirilməsinin ümumi sosial və iqtisadi yekunları............278
3.3. Keçid dövrünün başa çatmasının əsas əlamətləri............283
3.4. İstehsalın strukturunda və ərazi təşkilində yeni dövrün başlanmasını göstərən əsas əlamətlər............291

**IV HİSSƏ. AZƏRBAYCANDA DEMOKRATİK CƏMİYYƏTİN YÜKSƏK SƏVİYYƏDƏ İNKİŞAFI VƏ MODERNLƏŞMƏSİ DÖVRÜNÜN SİYASƏTİ**
**FƏSİL4. Yeni dövrün strategiyası: mahiyyəti, reallaşdırılması şərtləri, mərhələləri və vasitələri............306**
4.1. Yeni dövrün strategiyası və onun reallaşmasının ən mühüm şərtləri: sənayeləşmə və modernləşmə............306
4.2. Yeni dövrün sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması mərhələləri............317
4.3. İqtisadiyyatın çoxşaxəli, innovasiya yönümlü inkişafı və modernləşməsi istiqamətləri............336
4.4. Dövlət büdcəsinə vergi daxilolmalarında başlanmış mütərəqqi meyillər və onların perspektiv inkişaf istiqamətləri............363
**FƏSİL 5. Elmin və təhsilin inkişafı, milli mənəvi-əxlaqi dəyərlərin mühafizəsi**
5.1. Elmin inkişafı və elmi tədqiqat işlərinin nəticələrindən səmərəli istifadə............374
5.2. Gənc nəslin təhsilinin və yaradıcı fəallığının yüksəlməsi modernləşmənin mühüm vasitəsi kimi............397
5.3. Tərbiyənin inkişafı və milli mənəvi-əxlaqi dəyərlərin mühafizəsi............407

NƏTİCƏ............415

# GİRİŞ

Respublikamız demokratik cəmiyyət quruculuğu, iqtisadi-siyasi islahatlar və bazar iqtisadiyyatının inkişafı istiqamətində sürətlə irəliləyir, müasirləşir, dünyada özünün layiqli yerini tutur. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının (2004-2008-ci illər və 2009-2013-cü illərin birinci dörd ili),digər sahəvi proqramların müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində ölkəmiz iqtisadiyyatın bütün sahələrinin inkişafında, dünya iqtisadiyyatına inteqrasiya olunması, neft strategiyasının həyata keçirilməsində, işsizliyin, yoxsulluğun azaldılması və həyat səviyyəsinin yüksəlməsi sahəsində böyük uğurlar qazanmışdır.Nəticədə Azərbaycanda demokratik cəmiyyət quruculuğu, bazar iqtisadiyyatı öz inkişafının bütöv bir dövrünü başa vurmuş və keyfiyyətcə yeni dövrə daxil olmuşdur. Respublikamız iqtisadiyyatın çoxşaxəli inkişafı, səmərəliliyinin artması, məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəlməsi, cəmiyyət həyatının bütün sahələrinin modernləşməsi, əhalinin həyat səviyyəsinin yüksəlməsi və bütün bu sahələrdə dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə çatmaq istiqamətində sürətlə inkişaf edir. Onun nailiyyətləri dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən təsdiq olunur.

Biz müasir Azərbaycan və onun böyük nailiyyətləri haqqında düşünəndə dərhal gözlərimiz qarşısına ümummilli liderimiz Heydər Əliyev, Prezident İlham Əliyev və onların yeritdiyi siyasət gəlir. Heydər Əliyev dahi şəxsiyyətə, müdrik insana, görkəmli dövlət xadiminə, dünya miqyaslı siyasi liderə xas bütün keyfiyyətləri özündə birləşdirmişdi və bütün bu keyfiyyətlər birinci növbədə onun XX əsrin 70-80-ci illərində və müstəqilliyin ilk 10 ilində

yeritdiyi siyasətdə, o cümlədən də iqtisadi siyasətdə özünü göstərmiş, ən çətin vaxtlarda Azərbaycanın hərtərəfli inkişafına, müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsinə xidmət etmişdir.

İlham Əliyev Prezidentliyi dövründə Heydər Əliyev siyasətinə sadiqliyini öz fəaliyyətinin bütün sahələrində göstərmiş, onun siyasətində Heydər Əliyev siyasəti yaşamış, davam etmiş və yeni formalarda zənginləşmişdir. Bu isə o deməkdir ki, Heydər Əliyev siyasətinə xas olan bütün keyfiyyətlər İlham Əliyevin prezidentliyi dövründə də qorunub saxlanmış, yaradıcılıqla davam və inkişaf etdirilmişdir. Bununla da o sübut etmişdir ki, Heydər Əliyev siyasətinin layiqli varisidir. Atanın övladına "Mən ona özüm qədər inanıram"deyib xalqın tarixi taleyinə rəhbərlik etməyi ona həvalə etməsi heç də təsadüfi olmayıb, uzun müddətli müşahidənin, götür-qoy etmənin qanuni nəticəsi olmuşdur. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan demokratik cəmiyyətə keçid dövrü vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmiş, dünyanın sürətlə inkişaf edən nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.

Bu günlərdə Azərbaycan xalqı, Heydər Əliyev dühasından bəhrələnən bütün insanlar onun anadan olmasının 90 illik yubileyini böyük razılıq və minnətdarlıq hissilə qeyd edirlər. Bugünlərdə Heydər Əliyev siyasəti, onun Azərbaycan xalqı qarşısında tarixi xidmətləri, bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməsinin verdiyi bəhrələr, dəyişən və müasirləşən Azərbaycan, onun həyatının bütün sahələri hər kəsin gözü qarşısından gəlib keçir. Mən də öz yaradıcılığımın əsas hissəsini Heydər Əliyev siyasətinin, onun Prezident İlham Əliyev tərəfindən davam və yeni formalarda inkişaf etdirilməsinin

elmi əsaslarının təhlili və təbliğinə həsr etmiş bir elm adamı kimi bu sahədə öz tədqiqatlarımın bir hissəsini ümumiləşdirmək və çap etdirmək qərarına gəldim. Heydər Əliyevin və İlham Əliyevin siyasətinə, dövlət başçısı və siyasi lider kimi fəaliyyətinə çoxsaylı əsərlər həsr edilmişdir və bundan sonra da həsr ediləcəkdir. Biz də bu əsəri onlardan biri hesab etməklə, burada Heydər Əliyevin və İlham Əliyevin iqtisadi (sosial-iqtisadi inkişaf) siyasətini qarşılıqlı əlaqədə, vahid bir amalı olan siyasətin ayrı-ayrı mərhələləri kimi, lakin sıx vəhdətdə, bir tam halında təhlil etməyə çalışmışıq.

Mündəricatdan göründüyü kimi əsər dörd hissədən və beş fəsildən ibarətdir. I hissədə elmi ədəbiyyatda ilk dəfə olaraq cəmiyyətin inkişafını dövrlərə (mərhələlərə) bölməyin elmi əsaslarını açmağa cəhd göstərilir. Demokratik cəmiyyətin ən böyük inkişaf dövrləri, onların siyasəti və strategiyası, o cümlədən müasir qloballaşma dövründə inkişaf etmiş demokratik dövlətlərin sosial-iqtisadi inkişaf strategiyası və siyasətinin əsas istiqamətləri və xüsusiyyətləri açıqlanır. Bu hissədə tədqiqatın əsas məqsədi Azərbaycanın daxil olduğu yeni dövrün xüsusiyyətlərini açmaq üçün elmi-nəzəri baza yaratmaqdır.

Bəzən müəyyən edilən mərhələnin çox qısa müddətli olmasını əsas tutaraq ona (mərhələnin müddətinə) şübhə ilə yanaşanlar, razılaşmayanlar da olur. Amma bu mərhələlərin bir sıra hallarda hadisələrin gedişindən asılı olaraq qısa müddətli olması obyektiv xarakterli həqiqətdir.

Yaddan çıxarmaq olmaz ki, cəmiyyətin inkişafında müəyyən dövrlər, mərhələlər bizdən asılı olmayaraq obyektiv proses kimi yaranır və mövcud olur. Bu dövrləri, mərhələləri biz müəyyən etmirik, onlar obyektiv olaraq cəmiyyətin

inkişafı gedişində yaranır. Elmin vəzifəsi bu dövrləri, mərhələləri düzgün aşkara çıxarmaq, həmin dövrlərdə hadisələrin vəziyyətini, inkişaf meyillərini düzgün qiymətləndirmək və bununla da gələcək inkişafa, tərəqqiyə düzgün istiqamət verməkdir. Burada isə alimlərin, siyasət və təsərrüfat adamlarının baxışlarında, mövqelərində fərqlər olması labüddür.

II hissədə XX əsrin 70-80-ci illərində və müstəqil Azərbaycanın demokratik cəmiyyətə keçid dövrünün 10 ili ərzində xalqımızın ümummilli lideri Heydər Əliyevin iqtisadi siyasəti, bu siyasətin mərhələləri, məqsəd və vəzifələri, Heydər Əliyevə və Azərbaycan xalqına uğurlar gətirməsinin səbəbləri şərh olunur. Bu fəsildə həmçinin Heydər Əliyevin keçid dövrünün ilk illərində Respublikamızın düşdüyü dərin, hərtərəfli böhrandan çıxması, müstəqil, demokratik dövlət quruculuğu, neft strategiyası, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirdiyi tədbirlərin ətraflı şərhi verilmişdir.

III hissədə (I-III fəsillərdə) 2004-2012-ci illərdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla davam və inkişaf etdirilməsinin elmi əsasları, xüsusiyyətləri və nəticələri şərh olunur. Bu iqtisadi (sosial-iqtisadi) siyasətlər arasında varislik, ardıcıllıq aşkara çıxarılır, uğurlarının səbəblərini müəyyən etməyə cəhd göstərilir.

Bu fəsillərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının (2004-2008 və 2009-2013-cü illər) yerinə yetirilməsi nəticəsində cəmiyyətimizdə əmələ gəlmiş keyfiyyət dəyişikliklərinin, əvvəlcə, iqtisadi sahədə, sonra isə bütövlükdə keçid dövrünün

başa çatmasının əsas əlamətlərinin, istehsalın strukturu və ərazi təşkilində baş vermiş keyfiyyət dəyişikliklərinin şərhinə də geniş yer verilmişdir.

IV hissədə (IV-V fəsillərdə) Azərbaycanın demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və modernləşməsi dövrünə daxil olduğu əsaslandırılır, yeni dövrün strategiyası və onun reallaşması mərhələləri müəyyənləşdirilir. İqtisadiyyatın innovasiya yönümlü inkişafı cəmiyyətin modernləşməsinin daxili tərkib hissəsi kimi əsaslandırılır, bu proseslərə maliyyə-vergi siyasətinin müsbət təsirinin artırılması üçün həyata keçirilməsi vacib olan sahə və region əhəmiyyətli tədbirlər göstərilir. IV hissənin V fəsli elmin inkişafı, elmi-tədqiqatların təşkilinin təkmilləşməsi, onun nəticələrindən səmərəli istifadə, təhsilin, tərbiyənin inkişafı, milli mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və inkişafı məsələlərinə həsr olunmuşdur.

Əsəri yazarkən ümummilli liderimiz Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi hər iki dövrdə çıxışları, nitqləri, qəbul etdiyi proqramlar və digər rəsmi sənədlər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkiaşfın sürətləndirilməsi tədbirləri haqqında 24 noyabr 2003-cü il tarixli fərmanı", Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki tarixi nitqi, AMEA-nın 2011-ci ildə elmi-təşkilati fəaliyyətinə aid hesabatı zamanı giriş və yekun nitqləri, Azərbaycanın dövlət müstəqilliyinin 20-ci il dönümü ilə əlaqədar çıxışı, "Azərbaycan 2020: gələcəyə baxış" sosial-iqtisadi inkişaf konsepsiyasının hazırlanması haqqında sərəncamı və digər çoxsaylı çıxışları, nitqləri, Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-

2008və 2009-2013-cü illər), Respublika Nazirlər Kabinetinin regional inkişaf üzrə Dövlət proqramlarının yerinə yetirilməsinə aid illik hesabatları və digər rəsmi dövlət sənədləri əldə rəhbər tutulmuşdur.

Azərbaycanın perspektiv inkişaf strategiyası və Respublika Prezidenti İlham Əliyevin bu strategiyanı reallaşdırmaq üçün həyata keçirdiyi tədbirlər dünyada baş verən qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının geniş inkişafı, qlobal informasiya cəmiyyətinin formalaşması tələblərini nəzərə almaqla şərh olunur.

Eyni zamanda Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı, infrastruktur sahələrinin və bütövlükdə cəmiyyətin modernləşməsilə əlaqədar məsələlər şərh edilərkən əsasən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son illərdə bu sahələrə aid nəşr olunmuş əsərlərinə istinad edilmişdir.

Kitab birinci növbədə Heydər Əliyev və İlham Əliyev iqtisadi (sosial-iqtisadi) siyasətini öyrənənlər, sonra iqtisadi nəzəriyyə, fəlsəfə, regional iqtisadiyyat və idarəetmə sahəsində çalışan tədqiqatçı alimlər, bu sahələrdə təhsil alan tələbələr, magistrlar və müəllimlər üçün nəzərdə tutulur. Bundan eyni zamanda idarəetmə sistemində çalışan işçilər də eyni dərəcədə faydalana bilərlər.

# *I HİSSƏ. DEMOKRATİK CƏMİYYƏTİN ƏSAS İNKİŞAF DÖVRLƏRİ VƏ BU DÖVRLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ*

## 1.1.Cəmiyyətin inkişafını dövrlərə (mərhələlərə) bölməyin zəruriliyi və obyektiv əsasları

Bu mövzuya müraciət etməyimiz heç də təsadüfi olmayıb, bir çox obyektiv səbəblərlə əlaqədardır. **Əvvələ**, hər bir cəmiyyətin yaranması və inkişafının müəyyən dövrlərdən, onların daxilində isə mərhələlərdən keçməsi çoxdan məlum həqiqətdir. İctimai hadisə və proseslərin tədqiqinə tarixi səpgidə yanaşmaq, başqa sözlə məntiqi təfəkkürün (insan düşüncəsinin) mərhələ-mərhələ tarixi inkişafın izinə düşməsi, hadisələrin onların yaranması, inkişafı və mövcud vəziyyətinin mərhələ-mərhələ öyrənilməsinin vacibliyi ictimai elmlərin klassikləri tərəfindən çoxdan göstərilmişdir. Bunun vacibliyini nəzərə alaraq dövlət xadimləri, dahi şəxsiyyətlər həmişə öz siyasətlərində hər dövrün, mərhələnin xüsusiyyətlərini nəzərə almışlar və yenə alırlar.

Bu gün də bu obyektiv həqiqət qüvvədə qalır və elmi tədqiqat zamanı bu prinsipə əməl edilməsi fikrimizcə xüsusi aktuallıq kəsb edir.

**İkincisi**, Azərbaycanda artıq keçid dövrü başa çatmışdır. İndi Azərbaycan obyektiv olaraq öz inkişafının sonrakı-ikinci dövrünə daxil olur. Bu dövrün xüsusiyyətlərini düzgün açmaq və perspektiv inkişafın istiqamətlərini düzgün müəyyən etmək üçün istər-istəməz keçilmiş yola həm Azərbaycanın, həm də digər dövlətlərin timsalında nəzər salmaq lazım gəlir: Demokratik cəmiyyət öz inkişafında

hansı dövrləri, mərhələləri keçib, indi hansı dövrə daxil olub. Demokratik cəmiyyətin formalaşması və inkişafında mühüm dövrlərdən biri olan keçid dövründə demokratik cəmiyyətdə nəyə nail olunur, bizim ölkədə nəyə nail olunub və bu baxımdan yaxın dövrdə ölkəmiz nə etməli, hansı istiqamətlərdə inkişaf etməlidir.

Əgər cəmiyyətin inkişafına mərhələ-mərhələ yanaşmaq lazımdırsa, onda bu mərhələləri necə müəyyən etmək olar?

**Üçüncüsü**, son illərdə nəşr edilmiş əsərlərdə müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişafı, islahatların aparılmasını haqlı olaraq bir sıra mərhələlərə ayırırlar. Lakin bu mərhələlərə, onların müddətinə münasibətdə fikir ayrılıqları var. Bu mərhələlərin nisbətən az vaxtı, bəzən isə nisbətən çox vaxtı əhatə etdiyini göstərirlər. Onda istər-istəməz belə bir sual meydana çıxır: İnkişaf dövrlərini, mərhələləri hansı prinsiplər əsasında, necə müəyyən etmək olar. Qeyd etməyi vacib bilirik ki, cəmiyyətin, ictimai hadisələrin inkişafına mərhələ-mərhələ yanaşmaq təcrübəsi çoxdan məlum olsa da, hər dövrün, mərhələnin özünəməxsus xüsusiyyətləri olduğu hamı tərəfindən qəbul olunmuş olsa da cəmiyyətin, ictimai-iqtisadi hadisələrin inkişafını dövrlərə, mərhələlərə ayırmanın elmi əsasları, prinsipləri demək olar ki, açılmamışdır.

Mərhələlərin necə, hansı prinsiplər əsasında müəyyən edilməsi bir qayda olaraq tədqiqatçıların şəxsi mülahizələrinə əsaslanmışdır və indi də belədir. Nəticədə bu məsələdə mövqe ayrılıqlarının olması, hətta bu məsələdə səhvlərə yol verilməsi labüddür. Bu məsələyə münasibətdə bizim mövqeyimizlə hamını razılaşacağı fikrindən də tamamilə uzağıq. Eyni zamanda belə hesab edirik ki, həmin

məsələlərə aydınlıq gətirilməsi cəmiyyətin müasir inkişaf dövrünün xüsusiyyətlərini açmaq, sosial-iqtisadi inkişaf siyasətini düzgün müəyyən etmək üçün mühüm əhəmiyyət kəsb edir. Beləliklə, qarşıya belə bir sual çıxır : Sosial-iqtisadi inkişafla əlaqədar ictimai hadisə və proseslərin inkişaf dövrlərini,mərhələləri necə müəyyən etmək lazımdır ki, burada obyektiv həqiqət öz yerini tapsın, fikir və mövqe ayrılıqları mümkün qədər aradan qalxsın.

Məsələyə belə yanaşmanın başqa bir mühüm səbəbi ondan ibarətdir ki, hazırda dünyada baş verən köklü dəyişikliklərin, qloballaşmanın verdiyi nəticələri və cəmiyyətin inkişafı qarşısına qoyduğu vəzifələri yalnız əvvəlki dövrlərdə yerinə yetirilmiş vəzifələrlə sıx əlaqə şəraitində kifayət qədər düzgün qiymətləndirmək və yerinə yetirmək olar.

Ümumiyyətlə, hazırda inkişaf etmiş demokratik dövlətlər (misal üçün ABŞ, Yaponiya, inkişaf etmiş Avropa dövlətləri və.i.a.) öz inkişafının hansı dövrünü, mərhələsini yaşayır, demokratik cəmiyyət quruculuğu yoluna yeni keçmiş dövlətlər hansı inkişaf dövrünü yaşayır, inkişaf etmiş demokratik ölkələrdə həyata keçirilən modernləşmə (müasirləşmə) ilə MDB ölkələrində (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan, Tacikistan və i.a)həyata keçirilən modernləşmə arasında nə kimi ümumi cəhətlər və fərqlər var. Qloballaşma ilə əlaqədar demokratik dövlətlərin funksiyalarında, özünüidarəetmə ilə dövlət idarəetməsi arasında münasibətlərdə nə kimi dəyişikliklər baş verir, nə kimi oxşar cəhətlər və prinsipal fərqlər var. Fikrimizcə bu suallara düzgün cavab verilməsi ölkəmizin gələcək 20-30 ildə inkişaf strategiyasını, prioritetlərini düzgün müəyyən etmək üçün mühüm əhəmiyyət kəsb edə bilər.



28105

Elm və Təhsil Mərkəzi
"Təfəkkür" Universiteti
Kitabxana

Ölkəmizin hərtərəfli inkişafı və modernləşməsinin əsas istiqamətləri möhtərəm prezident İlham Əliyev tərəfindən dəqiq müəyyənləşdirilmişdir. Həmin istiqamətlərin elmi əsaslarının işlənib hazırlanması isə elmin vəzifəsidir.

Ölkənin sosial-iqtisadi inkişaf strategiyasını (siyasətini) müəyyən edərkən, hər dövrün, mərhələnin xüsusiyyətlərinin öyrənilməsi və nəzərə alınması, həmin dövrü (mərhələni) yenidən yaşamaq üçün deyil, bu dövrün daxilində gələcək inkişafın səmərəli toxumunu, cücərtilərini tapmaq və gələcək inkişafın xüsusiyyətlərini və istiqamətlərini düzgün müəyyənləşdirmək üçün lazımdır. Son illərdə bəzən müəyyən edilən mərhələnin çox qısa müddətli olmasına şübhə ilə yanaşanlar, razılaşmayanlar da olur. Amma bu mərhələlərin bir sıra hallarda hadisələrin gedişindən, xarakterindən asılı olaraq qısa müddətli olması obyektiv həqiqətdir. Yaddan çıxartmaq olmaz ki, cəmiyyətin inkişafında müəyyən dövrlər, mərhələlər bizdən asılı olmayaraq obyektiv proses kimi yaranır və mövcud olur. Burada isə belə bir cəhəti nəzərə almaq xüsusilə vacibdir ki, cəmiyyətin inkişaf dövrini (mərhələlərini) biz müəyyən etmirik. Onlar obyektiv olaraq cəmiyyətin inkişafı gedişində yaranır. Cəmiyyətin inkişaf dövrünü (mərhələlərini) həmin vaxtlar baş verən ictimai hadisələr, yerinə yetirilən vəzifələr, onların təsir dairəsi, yerinə yetirilməsi müddətləri müəyyən edir. Məhz cəmiyyətdə baş verən hadisələr, görülən böyük işlərin tələb etdiyi vaxtlar bir-birindən əsaslı surətdə fərqləndiyinə görə cəmiyyətin inkişaf dövrləri, mərhələləri də əhatə etdiyi vaxtın miqdarına, illərin sayına görə bir-birindən az-çox fərqlənir. Elmin vəzifəsi bu ictimai xarakterli hadisələrin, görülən işlərin, baş verən dəyişikliklərin müddətini düzgün müəyyən etmək, onları

başqalarından ayırmaq və bütün əlamət və nəticələrini düzgün qiymətləndirməklə dövrü (mərhələni) müəyyən etməkdir. Həmin dövrlərdəki hadisələrin vəziyyətini, inkişaf meyillərini düzgün qiymətləndirmək və bununla da gələcək inkişafa, tərəqqiyə düzgün istiqamət verməkdir. Burda isə alimlərin, siyasət və təsərrüfat adamları baxışlarında, mövqelərində fərqlər olması labüddür.

Nəhayət, ***dördüncü*** mühüm səbəb müasir dövrdə qloballaşan dünyada gedən ziddiyyətli proseslərin (maliyyə böhranı, ekoloji böhran, müxtəlif xarakterli təhlükəsizlik problemləri,dövlətlərarası münasibətlərdə baş verən dəyişikliklər, əhalinin demokratik seçimlər uğrunda mübarizəsinin genişlənməsi, hakimiyyət çevrilişləri və i.a.) şərhi zamanı məntiqi təfəkkürün tarixi inkişafın izinə düşməsinin vacibliyinin,bu hadisə və proseslər arasındakı sıx əlaqələrin nəzərə alınmaması,bu hadisə və proseslərin ayrı-ayrılıqda şərhidir. Bu hadisə və prosesləri kompleks halında özündə birləşdirən cəmiyyətin özünün bir tam halında tarixi inkişafının ardıcıllıqla mərhələ-mərhələ tədqiqi və hər mərhələnin xüsusiyyətlərinin aşkara çıxarılması isə diqqətdən kənarda qalır. Beləliklə, cəmiyyətin inkişafının tədqiqinin və bu zaman tədqiqatda məntiqi təfəkkürün tarixi inkişafın izinə düşməsinin vacibliyi kifayət qədər nəzərə alınmır. Demokratik cəmiyyət öz inkişafında hansı dövrlərdən, mərhələlərdən keçmiş, hər mərhələdə (dövrdə) hansı xüsusiyyətlər kəsb etmiş, hazırki dövrün əsas səciyyəvi xüsusiyyətləri hansılardır, təşkil və idarəetmə baxımından cəmiyyətin qarşısına hansı yeni vəzifələr çıxmışdır?

Cəmiyyətin inkişafına mərhələ-mərhələ yanaşmağın başqa bir mühüm səbəbi ondan ibarətdir ki, hazırda istər postsovet məkanında olan ölkələrdə, istərsə də inkişaf et-

miş kapitalist ölkələrində elm demokratik cəmiyyətə, onun dövlətinə və idarəetmə sisteminə, daimi bir cəmiyyət, daimi bir dövlət və daimi bir idarəetmə sistemi kimi yanaşır. Nəticədə bu sistemin mövcudluğu şəraitində ortaya çıxmış müxtəlif problemləri həll etmək üçün yollar axtarırlar. Kapitalizmin inkişafının müasir mərhələsində mövcud idarəetmə sisteminin, mülkiyyət, bölgü, mübadilə və istehlak münasibətlərinin köhnəlməsi, yararsızlığı ilə əlaqədar qarşıya çıxmış problemləri diqqətdən kənarda saxlayırlar. Başqa sözlə, belə bir sual cavabsız qalır ki, kapitalizm indi öz inkişafının hansı dövrünü yaşayır, bu dövr 30-40 il bundan əvvəlkinə nisbətən hansı xüsusiyyətlərə malikdir, onun idarəetmə və tənzimləmə sistemini, ölkələrarası münasibətlərin təşkilinin mövcud formalarını mütərəqqi hesab etmək olarmı?

Bizim cəmiyyətin inkişaf dövrlərinin və mərhələlərinin müəyyən edilməsinə yanaşmaq metodumuz belədir: Dövr cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verməsi, cəmiyyətin bütün sahələrdə yeni keyfiyyət halına keçməsi üçün tələb olunan vaxtdır, çoxsaylı illərdir. Mərhələ adətən dövrün (deyək ki, keçid dövrünün) bir hissəsini əhatə edir. Mərhələnin aid olduğu dövrün çox və ya az hissəsini əhatə etməsi həmin mərhələdə hansı vəzifənin yerinə yetirilməsindən asılıdır. İnkişaf dövrü dedikdə biz üç məfhumun inkişaf dövrünü (mərhələsini) qarışdırmamalıyıq.

1. Cəmiyyətə xas olan hər hansı bir sahə, hadisə və prosesin inkişafında əsaslı dəyişikliklər baş verməsi dövrü;

2. Bir-birilə sıx əlaqədə olan bir çox hadisə və proseslərin məcmuunda əsaslı dəyişikliklər baş verməsi dövrü;
3. Cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişkliklər baş verməsi, cəmiyyətin bütövlükdə bir keyfiyyət halından digərinə keçməsi dövrü.

Əgər müəyyən etdiyimiz inkişaf, dəyişmə mərhələsi cəmiyyət həyatının hər hansı bir sahəsinə, hər hansı bir ictimai hadisə və prosesə (iqtisadiyyat sahələri, işsizlik, yoxsulluq məsələləri, maliyyə təminatı, əmək haqqı, investisiya, dövlətçiliyin, siyasi sabitliyin təmin edilməsi və i.a. problemlərindən hər hansı birinin həllinə) aiddirsə, onda bu mərhələ baş verən hadisələrin xarakterindən asılı olaraq kifayət qədər az müddətli ola bilər. Azərbaycanın 1988-ci ildən 1996-cı ilə qədər olan dövrü o qədər mürəkkəb və ziddiyyətlidir ki, bu dövrdə həm iqtisadi, həm də siyasi və sosial sahələrdə müxtəlif dəyişmə və inkişaf mərhələləri müəyyən etmək olar. Məsələn, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev çox haqlı olaraq 1988-1993-cü illəri ölkəmizdə formal dövlətçilik dövrü, o cümlədən 1991-ci ilin axırlarından 1993-cü ilin ortalarına qədər olan dövrü formal müstəqil dövlətçilik dövrü kimi səciyyələndirir.[1] Beləliklə, dövlətçiliyin mövcudluğu baxımından 1988-1995-ci illərdə Azərbaycanın keçdiyi yolu 3 mərhələyə ayırmaq olar:
1) 1988-1991-ci il oktyabr ayının 18-ə qədər olan dövr - Sovet ittifaqı tərkibində formal dövlətçilik mərhələsi;
2) 1991-ci il 18 oktyabrdan 1993-cü ilin ortalarına qədər

---

[1] Ramiz Mehdiyev. Modernləşmə xətti yenə də gündəlikdədir // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. №2(22), 2008-ci il, səh. 114-115.

olan dövr - formal müstəqil dövlətçilik mərhələsi;

3) 1993-cü ilin ortalarından 1995-ci ilin axırlarına qədər olan dövr - siyasi sabitliyin təmin edilməsi, dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsi mərhələsi.

Başqa bir misal: 1905-ci il inqilabının Rusiyada fəhlə sinfinin siyasi məfkurəsinə güclü təsir etdiyi hamıya çoxdan məlumdur. Məhz bu inqilab o vaxt deyildiyi kimi demək olar ki, Rusiyada fəhlə sinfinin inqilabı hərəkatını 100 il irəlilətmişdir. Beləliklə qısa müddətli olan 1905-ci il inqilabını Rusiyada inqilabı hərəkatın inkişafında nəinki bir mərhələ, hətta bir dövr kimi qiymətləndirmək olar. Lakin Rusiyanın iqtisadiyyatının, yaxud siyasi sisteminin inkişafında bu inqilab nə xüsusi bir dövr, nə də mərhələ kimi qiymətləndirilə bilməz. Çünki heç birində elə bir dəyişiklik baş vermirdi. Bu sahələrdə əsaslı dəyişikliyin baş verməsi üçün nisbətən uzun müddət lazımdır. Yəni bu inqilab yalnız fəhlə sinfinin siyasi şüurunun inkişafında bir mərhələ kimi qiymətləndirilə bilər. Müəyyən bir sahədə hər hansı bir əsaslı dəyişikliyin tədricən, yaxud qısa müddətə baş verməsi ehtimalı həmişə var.

Eyni zamanda bir-birilə qarşılıqlı əlaqədə olan bir çox hadisə və proseslərin məcmuunun (sosial sferanın inkişafı, yaxud işsizliyin və yoxsulluğun azaldılması, aqrar sənaye kompleksinin inkişafı və i.a.) inkişafında əsaslı dəyişikliklər baş verməsi üçün tələb olunan müddət də hər hansı bir ictimai hadisə və proseslərdə əsaslı dəyişiklik baş verməsi üçün tələb olunan vaxtdan çox olur. Tarixi təcrübə göstərir ki, sosial problemləri, o cümlədən işsizlik və yoxsulluq probleminin həllində, aqrar-sənaye kompleksinin inkişafında əsaslı irəliləyişə nail olmaq, ölkənin investisiya mühi-

tini əsaslı surətdə yaxşılaşdırmaq və i.a. üçün 10-15 il və bəzən daha çox müddət tələb olunur.

Eyni zamanda istər ayrı-ayrı sahə, hadisə və proseslərdə, istərsə də onların bir-birilə qarşılıqlı əlaqədə olan məcmuunda əsaslı dəyişikliklər baş verməsi müddəti cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklər baş verməsi, cəmiyyətin bir keyfiyyət halından digər keyfiyyət halına keçməsi üçün tələb olunan müddətin daxili tərkib hissəsidir, cəmiyyətdə əsaslı dəyişikliklər baş verməsinin mühüm şərtidir. Lakin onların müddəti cəmiyyətdə əsaslı dəyişikliklər baş verməsi müddətinə nisbətən azdır və bəzən daha çox azdır.

Cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verməsi, cəmiyyətin öz həyatının bütün sahələrində (istehsal, bölgü, mübadilə, istehlak, mənimsəmə) yeni keyfiyyət halına keçməsi üçün lazım olan müddəti dəyişikliyin inqilabi yolla, yoxsa tədricən baş verməsindən asılı olaraq kifayət qədər uzun (40-50) və hətta çox uzun 100-150 il və daha çox ola bilər. Məsələyə bu baxımdan (cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verməsi, cəmiyyətin bir keyfiyyət halından başqa keyfiyyət halına keçməsi baxımından) yanaşaraq belə ***hesab edirik ki, dünyada demokratik cəmiyyət öz formalaşma və inkişafında iki böyük dövrdən keçib və üçüncü dövrə keçid prosesindədir:***

1.Bütün sahələrdə (iqtisadi, siyasi, sosial,maddi-texniki, həyat tərzi, mənəvi-psixoloji durum) demokratik cəmiyyətin əsaslarının yaradılması, ona xas olan istehsal, bölgü, mübadilə və istehlak münasibətlərinin hökmüranlığının təmin edilməsi dövrü. ***Bu dövrü adətən keçid dövrü adlan-***

*dırırlar.* İqtisadi, tarixi və fəlsəfi xarakterli ədəbiyyatlarda bu dövrün xarakterik əlamətləri kifayət qədər açılmışdır.

2. Cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrü. Demokratik cəmiyyətin keçdiyi inkişaf yoluna nəzər salaraq demək olar ki, bu dövrdə cəmiyyətin keçid dövründə yaranmış iqtisadi, siyasi, sosial, maddi-texniki əsasları inkişaf edir və təkmilləşir, demokratik cəmiyyətin inkişaf üçün malik olduğu bütün potensial üzrə çıxarılır və istifadə olunur. Bu dövrün sonu cəmiyyətin hərtərəfli inkişafı və zənginləşməsində, bir cəmiyyət kimi nəyə qadir olduğunu göstərməsində öz ifadəsini tapır. Həmin cəmiyyətin malik olduğu dövlət həmin dövrün inkişaf etmiş dövlətləri sırasına daxil olur.

3.Qloballaşmanın,informasiya-kommunikasiya texnologiyalarının tələbləri, təsiri altında inkişaf etmiş cəmiyyətin bütün sahələrdə modernləşməsi və daha yüksək səviyyədə inkişafı-açıq qlobal informasiya cəmiyyətinin formalaşması dövrüdür. Bu dövrdə mövcud cəmiyyətin bütün mütərəqqi cəhətlərilə yanaşı çatışmazlıqları, mənfi cəhətləri də daha aydın formada üzə çıxır. Cəmiyyət həyatının bütün sahələrində modernləşmə aparmaq, ortaya çıxan ziddiyyətləri aradan qaldırmaq üçün cəmiyyət həyatının bütün sahələrinə dövlətin əvvəlki dövrdə olduğuna nisbətən daha geniş müdaxilə etməsi obyektiv zərurətə çevrilir. Hazırda mövcud olan iqtisadi və fəlsəfi ədəbiyyatlarda demokratik cəmiyyətin inkişaf dövrlərinə bölünməsi və hər bir dövrün problemlərinin həlli yollarına münasibətdə bizim mövqeyimizlə mövcud mövqelər arasında əsaslı fərqlər var. Filosoflar və iqtisadi nəzəriyyə sahəsində çalışan xarici ölkə alimləri demokratik cəmiyyəti və ümumiyyətlə cəmiyyətin inkişaf dövrlərini müəyyən edərkən

iqtisadiyyatın hansı sahəsinin cəmiyyətin inkişafında aparıcı rol oynamasını əldə rəhbər tuturlar. Bu baxımdan demokrtik cəmiyyətin inkişafını sənaye və postsənaye dövrlərinə bölürlər: demokratik cəmiyyətin əvvəlki inkişaf dövrünü sənaye, müasir dövrünü postsənaye dövrü kimi səciyyələndirirlər.Amerika alimləri D.Böll (Gələcək postsənaye cəmiyyəti, Nyu-York-1973) və E.Toffler (Üçüncü dalğa, M-2010) öz əsərlərində məhz bu mövqedən çıxış edirlər.

Bu məsələyə bir qədər başqa formada yanaşmaqla ümumiyyətlə bəşəriyyətin inkişafını sənaye cəmiyyətindən əvvəlki mərhələ (kənd təsərrüfatı və ya aqrar mərhələ), sənaye cəmiyyəti və postsənaye cəmiyyəti mərhələlərinə bölənlər də vardır. Fikrimizcə, cəmiyyətin inkişaf dövrlərinə belə yanaşma iqtisadi baxımdan düzgün olsa da, bütövlükdə cəmiyyətin inkişafı qarşısında duran yeni vəzifələrin müəyyənləşdirilməsi baxımından natamam xarakter daşıyır.[1]

Cəmiyyətin inkişaf dövrlərinin yalnız iqtisadiyyatın hansı sahəsinin aparıcı rol oynamasını nəzərə almaqla müəyyənləşdirilməsi birtərəfli xarakter daşıyır, hər bir böyük dövrdə cəmiyyətin siyasi sistemində, idarəetmə, bölgü və istehlak formalarında baş verən dəyişiklikləri nəzərə almır. Lakin praktiki həyatda hər bir dövrdə iqtisadiyyatla bərabər siyasi sistemdə, ayrı-ayrı əhali qruplarının cəmiyyətdəki mövqeyində, gəlirlərin əhali qrupları (siniflər) ***arasında bölgüsündə***, cəmiyyətin idarə olunması sistemində əsaslı dəyişikliklər baş verir. Bunları nəzərə almadan cə-

---

[1] Bu barədə ətraflı məlumat üçün bax: Ramiz Mehdiyev. XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. №2 (38), 2012, səh. 114-152

miyyətin inkişafının ən böyük dövrlərinin mahiyyətini başa düşmək və müasir dövrün problemlərini həll etmək mümkün deyil. Adətən iqtisadiyyatın hansı sahəsinin aparıcı rol oynaması baxımından bəşəriyyətin inkişafını aşağıdakı dövrlərə bölürlər:

| | |
|---|---|
| I **Demokratik cəmiyyətə qədər olan dövr** | - *kənd təsərrüfatı və ya aqrar cəmiyyət dövrü* |
| II **Demokratik cəmiyyətin formlaşma və inkişaf dövrləri:** | |
| 1. **Demokratik cəmiyyətə keçid dövrü** | - *aqrar-sənaye cəmiyyəti dövrü* |
| 2. **Demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrü** | - *sənaye cəmiyyəti dövrü* |
| 3. **Qlobal informasiya cəmiyyəti dövrü** | - *Postsənaye və ya informasiya-kommunikasiya texnologiyaları dövrü* |

Demokratik cəmiyyətin formalaşması və inkişafının müxtəlif dövrlərinin (1-ci, 2-ci və 3-cü dövrlərin) bir-birindən xüsusi sərhədlərlə ayrıldığını demək düzgün olmazdı. Hər bir dövr özündən əvvəlki dövrün içərisində yetişir və

müəyyən zaman kəsiyindən sonra özünəməxsus fərdi xüsusiyyətlər kəsb etməklə o birindən ayrılır. Bu baxımdan demokratik cəmiyyətin inkişafının birinci və ikinci dövrü bir-birindən fərqlənsə də onların ümumi iqtisadi əsası vardır, hər iki dövr demokratik cəmiyyətin istehsal, bölgü, mübadilə və istehlak, sahəsində xüsusiyyətlərini özündə cəmləşdirir. Əsas fərq ondan ibarətdir ki, demokratik cəmiyyətin öz əsasları üzərində inkişafı dövründə yaranan keyfiyyətlər üçüncü dövrdə daha da inkişaf edir, kəmiyyətcə artır və nəticədə yeni keyfiyyət halına keçir. ***Demokratik cəmiyyətin inkişafının birinci və ikinci dövrünün müddətinin uzunluğuna həmin dövrdə cəmiyyətin inkişafı və idarə olunması vəziyyətindən irəli gələn konkret amillər də təsir göstərir.*** Hər bir dövrün nə qədər davam etməsi dövlətin öz ölkəsində gedən prosesləri, yaranmış real vəziyyəti nə dərəcədə düzgün dərk etməsi, müxtəlif sahələrdə (idarəetmə, tənzimləmə, planlaşdırma, işsizliyin ləğvi) gördüyü tədbirlərdən asılı olur. Eyni zamanda ayrı-ayrı cəmiyyətlərin inkişafının müvafiq dövrlərində inkişafı təmin emək üçün görülməsi vacib olan tədbirlər öz xarakterinə və formalarına görə bir-birindən əsaslı surətdə fərqlənir. Misal üçün demokratik cəmiyyətin inkişafının 2-ci dövrünün nə qədər davam etməsi dünyada gedən qloballaşma proseslərindən, iri, böyük dövlətlərarası münasibətlərdən xüsusilə asılıdır. Bu bir həqiqətdir ki, dünya sosializm sisteminin dağılması, SSRİ-nin süqutu və burdan ayrılıb müstəqillik əldə edən bir çox respublikaların, dövlətlərin demokratik inkişaf yolunu seçməsi demokratik cəmiyyətin inkişafında 3-cü dövrün müddətini uzadır. Bu baxımdan inkişaf etmiş super demokratik dövlətlərdə cəmiyyətin

inkişafının 3-cü dövrünün hələ uzun zaman davam edəcəyini göstərir.

## 1.2 Demokratik cəmiyyətə keçid dövrü və onun sosial-iqtisadi inkişaf siyasəti

Azərbaycan demokratik cəmiyyət quruculuğunun ilkin böyük dövrünü - keçid dövrünü başa vurmuş və ikinci dövrə daxil olmuşdur. Ona görə də bu iki dövrü ətraflı nəzərdən keçirmək vacibdir.

Keçid dövrü öz mahiyyətinə görə mövcud cəmiyyətin bütün sahələrində (iqtisadi, siyasi, hüquqi, sosial, mənəvi-əxlaqi) əsaslarının yenidən qurulması (əsasən ləğv edilməsi), yeni demokratik cəmiyyətin adı çəkilən bütün sahələrdə əsaslarının yaradılması, hərtərəfli inkişafa başlamaq üçün hazırlanması dövrüdür. Təbiidir ki, keçid dövründə həyata keçirilən əsaslı dəyişikliklər cəmiyyət həyatının bütün sahələrini əhatə edir və buna görə də keçid dövrünün müddəti nisbətən uzun olur. Keçid dövrü bütün cəmiyyət formalarına xasdır.

Başqa sözlə, bütün cəmiyyət formalarının birindən o birinə keçidi müəyyən dövr tələb edir. Bu dövrdə mövcud cəmiyyət həyatın bütün sahələrində tədricən və ya sürətlə öz yerini yeni cəmiyyətə verir, başqa sözlə, mövcud cəmiyyətə aid olan bütün münasibətlər (istehsal, bölgü, mübadilə, istehlak münasibətləri,həyat tərzi, mənəvi-etik münasibətlər) tamamilə yenisilə əvəz edildiyinə görə keçid dövrü uzun müddəti, bəzən hətta 200-300 illik, bəzən isə qısa, deyək ki, 20-30 illlik müddəti əhatə edə bilər. Bu dövr ləğv olunan və yeni yaranan cəmiyyətlərin hansı iqtisadi münasibətlərə və mülkiyyət formalarına istinad etməsindən

asılıdır. Başqa sözlə, bu dövrün uzunluğunu əsasən mövcud cəmiyyətlə yeni yaranan cəmiyyət arasında mülkiyyət, istehsal, bölgü, mübadilə və istehlak formalarında olan fərqlər müəyyən edir. Bu fərqlər nə qədər böyükdürsə, kəskin və ya əsaslıdırsa, keçid dövrü bir o qədər inqilabi, kəskin və bəzən qısa xarakter daşıya bilər. Əksinə, əgər bunların arasında oxşarlıq varsa, yeni cəmiyyətə xas olan münasibətlər mövcud cəmiyyətə xas olan münasibətlərin inkişafının davamı və yeni keyfiyyət halına keçməsinin məhsulu kimi yaranırsa onda keçid dövrü nisbətən uzun dövrü əhatə etməklə tədrici xarakter daşıya bilər. Əlbəttə, keçid dövrünün uzunluğuna beynəlxalq şərait, dövlətlərarası münasibətlərin mövcud durumu, hakimiyyət strukturlarının mövcud cəmiyyətin yenisilə əvəz edilməsinə razılığı, təşəbbüskarlığı, yeni yaranan cəmiyyətin mövcud cəmiyyətlə nə dərəcədə əlaqədar olması və digər bu xarakterli amillər də təsir göstərir.

Tarixi təcrübə göstərir ki, məhz bu baxımdan kapitalizmdən keçmiş sosializmə və əksinə sosializmin süqutundan sonra demokratik cəmiyyətə (kapitalizmə) keçid öz müddətinə, xarakterinə və bu keçidi təmin etmək üçün həlli vacib olan məsələlərin xarakterinə görə əvvəlki cəmiyyətlərin (ibtidai icma, quldarlıq, feodalizm və kapitalizm) birindən o birinə keçid dövründən tamamilə fərqlənir. Belə ki, əvvəlki cəmiyyət formalarının hamısı eyni tipli olduğundan bunların birindən o birinə keçid tədrici xarakter daşımaqla əsrlərlə ölçülən uzun dövrü əhatə edirdi. Başqa sözlə, yeni cəmiyyətin bütün atributları mövcud cəmiyyətin içərisində tədricən yaranır və inkişaf edirdi. Mövcud cəmiyyətin içərisində yaranmaqda olan yeni münasibətlər, təsərrüfat formaları müəyyən səviyyəyə gəlib çatandan

sonra qəbul edilən qanunlar, normativ-hüquqi aktlar yeni cəmiyyətə keçilmiş olduğunu rəsmiləşdirir. Yaxud yeni cəmiyyəti təmsil edən qüvvələr tərəfindən təşkil olunan inqilablar bu keçidi rəsmiləşdirən qanunların, digər normativ-hüquqi aktların qəbulu, bəzən dövlət çevrilişi, hakimiyyətin dəyişməsilə nəticələnir və keçid dövrünün başa çatdığını rəsmiləşdirirdi. Məsələn, kapitalizmin klassik ölkəsi olan İngiltərədə feodalizmdən kapitalizmə keçid ilkin kapital yığımı ilə müşayət olunmaqla XV əsrin son rübündən XVIII əsrin axırlarına qədər olan uzun bir dövrü əhatə etmişdir.[1] Qərbi Avropa ölkələrində kapitalist istehsal, bölgü, mübadilə və istehlak münasibətlərinin xarakterik forması kimi kapitalist manifakturaları XVI əsrin ortalarından yaranmağa başlamış və müxtəlif təsərrüfat sahələrində XIX əsrin 60-cı illərinə qədər davam edərək uzun bir dövrü əhatə etmişdir.

Fransada 1848-ci il burjua inqilabı, Rusiyada 1861-ci il aqrar islahatı, Almaniyada 1860-cı illərdə təhkimçiliyin ləğvi ilə bağlı aparılan islahatlar demokratik cəmiyyətə (kapitalizmə) keçid dövrünün başa çatmasının ifadəsi idi.

Lakin kapitalizm ilə sosializm istehsal, mülkiyyət, bölgü, mübadilə, istehlak və digər münasibətlər sahəsində bir-birini inkar edən cəmiyyətlərdir. Deməli, nə sosializm kapitalist münasibətlərinin inkişafı, nə də kapitalizm sosialist münasibətlərinin inkişafı məhsulu kimi, biri o birinin içərisində yaranıb inkişaf edə bilməz. Bunların biri iqtisadi münasibətlərin bütün sahələrində o birini inkar etmək, o

---

[1] Ayrı-ayrı ölkələrdə bu dövr haqqında məlumat əldə etmək üçün bax: Крупнейшие монополии мира. Краткий справочник. Издв. политической литературы. М.1968; Страны мира. Издв. политической литературы. М.1989 г. və i.a.

birinə xas münasibətləri aradan qaldırmağın məhsulu kimi meydana gəlir.

Bütün cəmiyyət formalarının (ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm, sosializm və ya əksinə sosializm-kapitalizm) birindən o birinə keçid dövrü adətən mövcud cəmiyyətə xas olan münasibətlərlə yeni cəmiyyətə xas olan münasibətlərin (istehsal, bölgü, mülkiyyət, mübadilə, istehlak, mənəvi - əxlaqi, siyasi düşüncə və həyat tərzi sahəsində) yanaşı mövcud olması və onlar arasında az-çox mübarizə getməsilə səciyyələnir. Bu səbəbdən keçid dövrünün ziddiyyətli olması, bu dövrdə keçmişin həsrətilə yaşayanların, gələcəyə kifayət qədər inanmayanların, yeni cəmiyyətdə tez varlanmağa çalışanların, məsuliyyətsizliyin, öz vəzifəsindən sui istifadə edənlərin, narazılıqların, dağıntıların, uzun illər formalaşmış əxlaqi keyfiyyətlərdən uzaqlaşmaq hallarının mövcud olması mümkündür. Dünya dövlətlərinin inteqrasiyası və qloballaşma sürətlə baş verdiyi, böyük dövlətlər bir çox sahələrdə (həyat tərzi, mənəvi-əxlaqi, iqtisadi-siyasi sahələrdə) demokratik inkişaf yoluna yeni çıxan dövlətlərə təsir göstərməyə çalışdığı hazırki şəraitdə keçid dövründə tərəddüdlərin, ziddiyyətlərin, müxtəlif xarakterli çatışmazlıqların mövcud olması da təbii haldır.

Lakin bütün çətinliklərə, tərəddüdlərə, dağıntılara baxmayaraq tədricən, əksər hallarda isə sürətlə əvvəlki cəmiyyətə xas olan bütün münasibət formaları öz yerini yeni cəmiyyətə xas olan münasibətlərə verir. Yeni cəmiyyətə xas olan münasibətlər, həyat tərzi hökmran, dönməz və müəyyənedici xarakter daşıyanda keçid dövrü başa çatır.

Keçid dövrü cəmiyyət həyatının müxtəlif sahələrində (iqtisadi, hüquqi, siyasi, sosial və i.a.) əksər hallarda müx-

təlif vaxtlarda, nadir hallarda isə nisbətən eyni vaxtda başa çatır. Müxtəlif sahələrdə keçid dövrünün nə dərəcədə eyni vaxtda başa çatması bu dövrün başlanğıcında ölkənin iqtisadi vəziyyətindən, hakim qüvvələrin yeritdiyi siyasətdən-iqtisadi və sosial siyasətin nə dərəcədə bir-birini tamamlamasından, müxtəlif sahələrdə keçidin təmin edilməsi üzrə görülən tədbirlərin nə dərəcədə düzgün əlaqələndirilməsindən asılıdır. Hər halda əksər hallarda iqtisadi münasibətlərin yenidən qurulması sahəsində keçid dövrü siyasi, sosial və mədəni sahələrdə keçid dövrünü qabaqlayır və həmin sahələrdə keçidi təmin etmək üçün iqtisadi əsaslar yaradır.

Fikrimizcə, iqtisadi münasibətlər, o cümlədən mülkiyyət münasibətləri sahəsində demokratik cəmiyyətə, yaxud bir cəmiyyət formasından digər cəmiyyətə keçid dövrünün başa çatması üçün ən azı aşağıdakılar təmin olunmalıdır:

- Əvvəlki cəmiyyətə (məs. feodalizmə) xas olan mülkiyyət formalarının hökmranlığından yeni cəmiyyətə (misal üçün demokratik cəmiyyətə) xas olan mülkiyyət formalarının hökmranlığına keçidin təmin olunması;
- yeni cəmiyyətin tələblərinə uyğun maddi - texniki bazanın yaradılması;
- iqtisadiyyatın bütün sahələrində bazar münasibətlərinə və dayanıqlı inkişafa keçidin təmin olunması;
- istehsal, bölgü, mübadilə və istehlak, işlə təminat, investisiya təminatı sahələrində bazar münasibətlərinin hökmran xarakter daşıması;
- nisbətən az miqdar sahibkarların əlində istehsal və xidmət müəssisələrinin təşkili və inkişafı üçün vacib olan kifayət qədər pul kütləsinin, maliyyə vəsaitinin toplanması;

- iqtisadiyyatın inkişafında aparıcı rol oynayan sahibkarlara, xüsusilə kiçik və orta sahibkarlara himayədarlıq etmək üçün (müxtəlif kreditlər vermək, müxtəlif birdəfəlik və ya təkrar olunan yardımlar göstərmək, şərikli müəssisələr tikmək və s.) dövlətin əlində kifayət qədər maliyyə vəsaitinin toplanması;

- sahibkarların, dövlət strukturlarının qarşılıqlı əlaqədə normal iqtisadi fəaliyyəti üçün vacib olan müvafiq normativ hüquqi bazanın formalaşması, qanunların, qərar və sərəncamların mövcud olması;

- ölkədə iqtisadiyyatın inkişafının iqtisadi mexanizmlərinin normal fəaliyyətilə əlverişli sahibkarlıq və investisiya mühitinin formalaşmış olması;

- əhalinin bazar münasibətləri şəraitində yaşamağa və işləməyə vərdiş etməsi, bazar münasibətlərinin dönməzliyinə inanması;

- əhalinin dövlətin bazar münasibətlərinin inkişafına yönəlmiş siyasətini və onun həyata keçməsi üçün tədbirlərini dəstəkləməsi;

- istehsal və xidmət prosesini təşkil etməyi və həyata keçirməyi bacaran fəhlə və mühəndis-texniki işçilər ordusunun formalaşması, onların demokratik cəmiyyətin həyat və fəaliyyət prinsipləri əsasında işləməyə və yaşamağa vərdiş etməsi;

- ölkə daxilində siyasi mühitin sağlam və sabit olması;

- elmin, təhsilin inkişafı, bu sahələrin tənzim və idarə olunmasında müvafiq təşkilatlarla dövlət arasında münasibətlərin yeni cəmiyyətin tələblərinə uyğun yenidən qurulması, bu sahələrin normal fəaliyyətinin təmin edilməsi;

- ailə münasibətlərinin, qadın azadlığının demokratik cəmiyyətin tələblərinə uyğun yenidən qurulması;

- dövlətin beynəlxalq miqyasda artıq oturuşmuş, öz inkişaf yolunu seçmiş və bu yolla irəliləmək imkanı olan dövlət kimi qəbul edilməsi və i.a.

Fikrimizcə, bu şərtlərin hamısı və ya böyük əksəriyyəti təmin edilmiş olduqda demokratik cəmiyyətdə keçid dövrünün başa çatmış olduğunu qəbul etmək olar. Bu şərtlərə yenilərinin əlavə olunması və ya hansı şərtinsə başqa şərtlərlə birləşdirilməsi, yaxud hər hansı birinin yerinə yetirilmiş olmaması istisna edilmir. Eyni zamanda yaxın keçmişdə SSRİ-nın tərkibinə daxil olmuş, hazırda müstəqil dövlətlərdə iqtisadi sahədə keçid dövrünün və ümumiyyətlə keçid dövrünün müxtəlif müddəti əhatə etməsi qanunauyğun haldır. Çünki, bu müddət hər bir ölkənin keçid dövrünün əvvəlində mövcud şəraitindən, burada isə keçid dövrünün əvvəlində məhsuldar qüvvələrin inkişafı səviyyəsindən, iqtisadiyyatın vəziyyətindən, ölkənin siyasi şəraitindən, özəlləşdirmənin gedişindən və əhatə dairəsindən, ölkənin investisiya mühitinin nə dərəcədə əlverişli olmasından, dövlətin daxili sosial-iqtisadi inkişaf siyasətindən, maliyyə imkanlarından və i.a. asılıdır. Bu baxımdan hər bir ölkədə keçid dövrünün özünəməxsus çətinlikləri və xüsusiyyətləri vardır. Bu çətinliklər və xüsusiyyətlər keçid dövrünün müddətinə və xarakterinə özünün təsirini göstərmişdir və yenə göstərir.

## 1.3 Demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünün sosial-iqtisadi inkişaf siyasəti

Kapitalizmin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrü bu gün inkişaf etmiş hesab

olunan ABŞ, İngiltərə, Yaponiya, Fransa kimi dövlətlərdə müxtəlif illərdə (vaxtlarda) başlamış və ayrı-ayrı ölkələrdə 80-90 ildən -150 və bəzən daha çox illərə qədər uzun bir müddəti əhatə etmişdir. Əksər ölkələrdə isə təqribən XIX əsrin ortalarından başlamış XX əsrin axırlarına qədər olan təqribən bir əsr yarımlıq dövrü əhatə etmişdir. Bu müddət ərzində öz əsasları üzərində inkişaf edən və təkmilləşən kapitalizm bəşəriyyətin inkişafına böyük təkan vermiş, necə deyərlər, yerin altından böyük inkişaf qüvvələrini aşkara çıxarmış və istifadəyə vermişdir. Həmin dövrdə dövlətlərarası inteqrasiya güclənmiş və hərtərəfli xarakter almışdır. Demokratik cəmiyyətin üstünlükləri, mütərəqqi cəhətlərilə yanaşı çatışmazlıqları, ziddiyyətli cəhətləri özünü daha kəskin surətdə göstərməyə başlamışdır. Kapitalizm iqtisadiyyata primitiv əmək alətlərinin tətbiqindən görünməmiş sürətlə yüksək texnika-texnologiya tətbiqinə keçdi. Elmin və texnikanın tərəqqisini birləşdirdi. Elmi-texniki tərəqqi birinci növbədə təbiətdən, təbii resurslardan istifadəni intensivləşdirdi. Yüksək mənfəət götürmək məqsədilə təbiətin üzərinə sözün həqiqi mənasında hücuma keçildi. ***Yeni əmək alətlərinin tətbiqindən tədricən maşınların tətbiqinə, sonra istehsal sahələrinin kompleks mexanikləşməsinə, daha sonra istehsalın bu və ya digər prosesinin, istehsal bölmələrinin, ayrı-ayrı sexlərin və nəhayət bütöv müəssisələrin avtomatlaşmasına keçildi.*** Elmi-texniki tərəqqinin inkişaf tarixinə nəzər salanda açıq-aşkar görünür ki, dünyanın inkişaf etmiş dövlətlərində avtomatlaşdırma artıq XX əsrin 70-ci illərindən başlayaraq, 80-ci illərdə və 90-cı illərin birinci yarısında texniki-texnoloji proseslərdə hökmran xarakter daşıyırdı. XX əsrin 80-ci illərinin axırlarında dünyada təbii resursların illik hasilatı

özünun ən yüksək səviyyəsinə çatdı. Öz dövrünə görə müasir texnika-texnologiya əsasında güclü sənayeləşmə həyata keçirildi, ölkələrin sənayesinin əksər hissəsini özündə cəmləşdirən sənaye şəhərləri (sənaye mərkəzləri) formalaşdı. Demokratik cəmiyyətin həyatının bütün sahələrində, istehsalın, istehsal və sosial infrastrukturun, elmin, təhsilin inkişafında o dövr üçün misilsiz nailiyyətlər qazanıldı. Bununla yanaşı kapitalizmə xas olan bütün ziddiyyətlər (işsizlik, yoxsulluq, ərzaq təhlükəsi, ekoloji təhlükə və i.a.), xüsusilə əməyin ictimai xarakterilə mənimsəmənin xüsusi xarakteri arasında hələ sadə əmtəə istehsalı dövrünə xas olan ziddiyyət kapitalizm dövründə tədricən daha da kəskinləşib özünün mənfi nəticələrini verməyə başladı. Ən böyük mənfi nəticələr öz ifadəsini cəmiyyətə böyük iqtisadi və sosial zərər vuran iqtisadi böhranlarda tapdı. Bu prosesi tarixi səpkidə bir qədər geniş formada nəzərdən keçirək.

Məlumdur ki, indi demokratik cəmiyyət kimi qəbul etdiyimiz kapitalizm cəmiyyətində iqtisadiyyatın inkişafının hərəkətverici qüvvəsi yüksək mənfəət götürməkdir. Bu məqsədə çatmaq imkanından asılı olaraq demokratik cəmiyyətdə kapital iqtisadiyyatın müxtəlif sahələrinə, az mənfəət vəd edən bir sahədən o biri sahəyə axır. Kapital sahibləri öz kapitallarını qoyduqları sahədə daha çox əmtəələr istehsal etməyə, xidmətlər göstərməyə çalışırlar. Lakin bu əmtəələr satılmış olduğu, xidmətlərin haqqı ödənildiyi şəraitdə kapitalistlər yüksək və ya ümumiyyətlə mənfəət götürmək məqsədinə çata bilərlər. Əmtəələrin satılması, xidmətlərin dəyərinin ödənilməsi imkanını isə əhalinin alıcılıq qabiliyyəti, başqa sözlə tədiyyə qabiliyyətli tələbi müəyyən edir. Lakin bu da məlumdur ki, demokratik

cəmiyyətdə əhalinin tədiyyə qabiliyyəti tələbi əksər hallarda istehsalın və xidmət sahələrinin inkişafından geri qalır. Demokratik cəmiyyətin inkişafının müxtəlif mərhələlərində bu gerilik arta və ya azala bilər. Lakin bütövlükdə məsələnin mahiyyəti dəyişməz olaraq qalır. Nəticədə istehsal olunan əmtəə kütləsi, göstərilən xidmətin miqdarı və artım sürəti əhalinin tədiyyə qabiliyyətli tələbindən artıq olur və *ifrat istehsal böhranı baş verir.* Əmtəənin bir hissəsi satılmır. Kapitalistlər əmtəənin istehsal həcmini aşağı salır və ya istehsal dayandırılır, ölkədə istehsalın ümumi həcmi aşağı düşür. Bu proses əmtəə təklifi ilə əhalinin tədiyyə qabiliyyətli istehlak tələbi tarazlaşana qədər davam edir. Sonra durğunluq, canlanma və yüksəliş dövrü başlayır. Kapitalist istehsalı inkişaf edir və bu proses yeni böhran baş verənə qədər davam edir. Sonra yüksəliş dövrü yeni böhranla əvəz olunur. Bütün bunların əsası hələ sadə əmtəə istehsalından başlanır.

Çünki sadə əmtəə istehsalçısının əməyinin heç də həmişə bir-birinə uyğun gəlməyən ikili xarakteri vardır: xüsusi və ictimai xarakteri. Əməyin xüsusi xarakteri ilə (istehsalı, alqını və satqını nə vaxt, harada həyata keçirmək, nə istehsal etmək, necə istehsal etmək və satmaq hər kəsin öz işidir) onun nəticələrinin ictimai xarakteri (əmtəəni hər kəs özü üçün deyil, cəmiyyət üçün, istehlakçılar üçün istehsal edir) arasında ziddiyyət vardır. Belə ki, əmtəə istehsalı hər kəsin xüsusi işi olsa da bu işin nəticəsi, yəni istehsal olunmuş əmtəə, istehlakçıların tələbatına uyğun olmalı və alınıb istehlak edilməlidir. Sadə əmtəə istehsalında olan bu ziddiyyət böhranın baş verməsi üçün formal imkan yaradırdı. Çünki məhz sadə əmtəə istehsalında əmtəə istehsalı ilə onun satışı zaman və məkan etibarı ilə ayrı-

lır. İstehsal olunmuş əmtəələrin bir hissəsinin tələbatdan artıq olması, tələbata uyğun olmaması və bu səbəbdən vaxtında satılmaması ehtimalı və deməli nəticə etibarı ilə istehsalın ixtisar olunması və ya dayandırılması ehtimalı vardır. Əhəmiyyətli cəhət bundadır ki, əmtəənin ifrat istehsal böhranı ilə maliyyə böhranının (əmtəə satılmadığına görə təkrar istehsalın başa çatmaması və əmtəə istehsalçısının pul əldə etməməsi, maliyyə çatışmamazlığı yaradır) eyni vaxta baş verməsi ehtimalı da vardır. Bu ehtimal məhz demokratik cəmiyyət olan kapitalizmdə real həqiqətə çevrilir. Çünki sadə əmtəə istehsalında əməyin xüsusi xarakteri ilə onun nəticələrinin ictimai xarakteri arasındakı ziddiyyət demokratik cəmiyyətdə böyüyərək istehsalın ictimai xarakterilə mənimsəmənin xüsusi xarakteri arasında demokratik cəmiyyətin əsas ziddiyyətinə və ifrat istehsal böhranlarının labüd şərtinə çevrilir. Demokkratik cəmiyyətin ilk dövrlərindən başlayaraq elm, texnika sürətlə inkişaf edir. Bu da labüd olaraq kapitalın üzvi quruluşunun yüksəlməsinə, təmərküzləşməsi və mərkəzləşməsinə səbəb olur.

Nəticədə əvvəlki dövrlərdə olduğuna nisbətən daha böyük istehsal, infrastruktura (xidmət) müəssisələri yaranır və onlarda minlərlə insan işləyir. *Deməli istehsal prosesi getdikcə özünün xüsusi xarakterini itirir və daha çox ictimai xarakter alır. Bu və ya digər əmtəənin istehsalı, geniş miqyaslı xidmət göstərilməsi daha xüsusi iş deyil, ictimai işə - çoxsaylı insanların əməyinə çevrilir.* Lakin istehsalın, xidmətin nəticələrinin mənimsənilməsinin xüsusi xarakteri qalır və birinci növbədə kapital sahiblərinin yüksək mənfəət götürmək məqsədinə xidmət edir. Doğrudur, ayrı-ayrı kapital sahibləri və dövlət əhalinin həyat səviyyəsini yüksəltmək üçün müntəzəm olaraq tədbirlər həyata keçirirlər.

Lakin bu tədbirlər istehsalın əsas məqsədinin xüsusi xarakter daşımasını dəyişmir. Nəticədə əhalinin gəlirləri və tədiyyə qabiliyyətli tələbi istehsalın inkişafına, əmtəə və xidmətlər kütləsinə nisbətən ləng artır, istehsal olunmuş əmtəə və xidmətlərin bir hissəsi satılmır və ifrat istehsal böhranı baş verir. İstehsalın həcmi artdıqca, demokratik cəmiyyətə xas olan ziddiyyət də (əməyin ictimai xarakterilə mənimsəmənin xüsusi xarakteri arasında ziddiyyət) kəskinləşdi, əhalinin istehlak tələbi ilə əmtəə və xidmətlər təklifi arasında uyğunsuzluq getdikcə özünü daha geniş miqyasda göstərməyə başladı ki, bu da öz ifadəsini tez-tez baş verən və getdikcə daha geniş olub dünyanın əksər inkişaf etmiş ölkələrini əhatə edən iqtisadi böhranlarda tapır.

Bu böhrana həm də onunla şərait yaradılır ki, demokratik cəmiyyətin varlığının bütün XVIII-XIX əsrləri ərzində ayrı-ayrı müəssisələrdə mənfəət götürmək naminə istehsal planlaşdırılır və tənzimlənirdi. Lakin cəmiyyət miqyasında bu istehsal və xidmət sahələri qarşılıqlı əlaqədə və bütövlükdə planlaşdırılmırdı. Keçən XX əsr ərzində isə ayrı-ayrı sahələrin, regionların inkişafına aid məqsədli proqramlar hazırlanıb tətbiq olunsa da, ölkə miqyaslı təsərrüfat fəaliyyətinin bütün sahələrini əhatə edən və yerinə yetirilməsi dövlət səviyyəsində məcburi olan planlar hələlik hazırlanıb tətbiq olunmurdu (tövsiyə xarakterli strateji planlar müstəsna olmaqla) və bu gün də əslində belədir. Nəticədə iqtisadiyyatın daha çox mənfəət verən bir və ya bir neçə sahəsi inkişaf edir, başqa bir vacib sahəsi isə geri qalır. Bu da iqtisadiyyatda disproporsionallığı gücləndirir, ifrat istehsal və maliyyə çatışmazlığı böhranının baş verməsini reallığa çevirir. Bu səbəblərdən demokratik cəmiy-

yətdə ilk ifrat istehsal böhranı 1825-ci ildə klassik demokratik ölkə olan İngiltərədə baş verdi.

Sonralar ölkələr arasında ticarət-iqtisadi əlaqələr genişləndiyindən, istehsal və kapital təmərküzləşdiyindən iqtisadi böhran da genişləndi. 1836-cı il böhranı İngiltərə ilə yanaşı ABŞ-da da baş verdi. Daha sonrakı illərdə iqtisadi böhran ayrı-ayrı ölkələrin sərhədlərindən çıxaraq eyni vaxtda bir çox ölkələri əhatə etdi.

XIX əsrin ortalarından başlayaraq iqtisadi böhranlar qlobal - dünya iqtisadi böhranı xarakterini aldı. İlk belə ən böyük böhran 1844-1848-ci illərdə baş verdi. Bu böhran dünyanın sənayecə inkişaf etmiş dövlətlərinin demək olar ki, hamısını əhatə etdi.

1929-1933-cü illərdə ABŞ iqtisadiyyatı o vaxta qədərki tarixində ən böyük və dərin iqtisadi böhrana düşdü. Dövlətin qətiyyətli tədbirləri (bankları milliləşdirmək, mənfəət vergisini aşağı salmaq, iri müəssisələri özəlləşdirmək, maliyyə yardımı göstərmək, məqsədli regional inkişaf proqramları hazırlamaq və həyata keçirmək və i.a.) nəticəsində böhranlar aradan qaldırılmış, müvəqqəti də olsa iqtisadiyyatın inkişafına sabit xarakter verilmişdir.

XX əsrin sonrakı illərində də müəyyən fasilələrlə kapitalist iqtisadiyyatında dəfələrlə (xüsusilə 1973-1975, 1980-1981, 1986-1987, 1997-1998) dərin iqtisadi böhranlar baş vermiş, istehsalın həcmi kəskin surətdə aşağı düşmüş (ayrı-ayrı ölkələrin təcrübəsində 7-8%-dən 18-20%-dək), işsizlik kəskin surətdə artmışdır.

*Bütün bunlar onu göstərir ki, iqtisadi böhranlar demokratik cəmiyyətin öz təbiətindən irəli gəlir, onun iqtisadiyyatının bir növ təbii tənzimləmə vasitəsidir və vaxtaşırı baş verməsi labüddür. O, bir tərəfdən demokratik cə-*

*miyyətin iqtisadiyyatının inkişafına zərbə vurur, məhsuldar qüvvələrin bir hissəsini dağıdır, digər tərəfdən sonrakı dövrdə iqtisadiyyatın inkişafı üçün yeni ehtiyat mənbələrini aşkara çıxarır və yeni keyfiyyətli inkişafa təkan verir.*

İqtisadi böhranlar kiçik və orta sahibkarların bir hissəsinin müflisləşməsinə, əksinə iri sahibkarların maliyyə imkanlarının artmasına səbəb olur. Nəticədə hələ XIX əsrin əvvəllərindən iqtisadiyyatın müxtəlif sahələrində iri inhisarlar və inhisar rəqabəti kapitalist iqtisadiyyatında hökmran mövqe tutmağa başlamışdı.[1] Sonrakı illərdə xüsusilə, 1929-1933-cü illərdə dünya iqtisadi böhranından sonrakı dövrdə inkişaf etmiş ölkələrin iqtisadiyyatında iri inhisarların rolu daha da artmışdır, demokratik cəmiyyətə xas olan ziddiyyətlər əvvəlki dövrdə olduğuna nisbətən daha da kəskinləşmişdir.

## 1.4. Qlobal informasiya cəmiyyətinin formalaşması və inkişaf dövrü: əsas xüsusiyyətləri və problemləri

XX əsrin 80-ci illərinə *qədər* ***təbiətdən hasil olunan resursların artırılması və onun emalının dərinləşməsi çoxsaylı əmək qabiliyyətli əhalinin təsərrüfat fəaliyyətinə cəlb edilməsi iqtisadi artımın, bunun vasitəsilə bütövlükdə sosial-iqtisadi inkişafın başlıca mənbəyi idi. İqtisadi artım bütövlükdə təbiətdən asılı vəziyyətdə idi.*** XX əsrin 80-ci illərinin axırları və 90-cı illərin əvvəllərindən başlayaraq qloballaşma və informasiya-kommunikasiya texnologiyalarının inkişafı daha geniş vüsət aldı və demokratik cəmiy-

[1] Ətraflı məlumat üçün bax: Крупнейшие монополии мира. Краткий справочник. M.1968, 219 səh.

yətin inkişafının əsas amillərinə çevrilməyə başladı. Dövlətlərarası qarşılıqlı əlaqə və asılılıq artdı. İnformasiya texnologiyaları insan həyat və fəaliyyətinin bütün sahələrində tətbiq olunmağa başladı. Eyni zamanda 80-ci illərdən başlayaraq təbii resursların hasilatının artım tempi aşağı düşməyə başladı və onlardan səmərəli istifadə sosial-iqtisadi inkişafın daha mühüm amilinə çevrildi. Məhz 80-ci illərin axırları və 90-cı illərin əvvəllərinə qədər yeni məhsul alınmasının mənbəyi təbiətin verdiyi müxtəlif xammalın, təbii sərvətin, materialın (neft, qaz, meşə materialları, filiz, kənd təsərrüfatı məhsulu və i.a.) emalının dərinləşməsi hesabına baş verirdi.

Statistik rəqəmlərin təhlili göstərir ki, 1980-ci illərin ortalarından başlayaraq sənayenin inkişafının əsasını təşkil edən təbii resursların (neft, qaz, kömür, dəmir filizi, meşə materialı, habelə, polad, çuqun istehsalı və i.a.) istehsalı ya azalır, ya da əksər sahələrdə hasilatın orta illik artımı aşağı düşməyə başlayır. Sənayedə istifadəsi texniki və iqtisadi baxımdan əlverişli olan təbii resurs mənbələri tükənməyə başlayır.

***Ümumiyyətlə, təbii imkanlar tükənməz deyil və bunlar gec-tez özünün məhdud olduğunu cəmiyyət qarşısında kəskin formada qoymalıdır və bu obyektiv proses artıq 80-ci illərin ortalarından başlanmışdır.***

***Təbii resurslardan istifadənin artımı 1960-1980-ci illərdə xüsusilə intensiv xarakter daşımışdır.*** Sonrakı illərdə hasilatın və ya istehsalın həcmi ya azalmış, ya da artımı aşağı düşmüşdür. Bunu aşağıdakı rəqəmlərdən də görmək olar.

Cədvəl №1

**Dünyada itsehsal və ya hasilatın miqdarı[1]**

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1970 | 1980 | 1985 | 1987 | 1988 |
| Elektrik enerjisi istehsalı, trln., kvt.s. | 5,1 | 8,3 | 9,8 | 10,6 | 11,0 |
| Neft hasilatı, mln.ton | 2282 | 2978 | 2654 | 2786 | 2825 |
| Polad istehsalı, mln.ton | 598 | 719 | 722 | 737 | 779 |
| Kəsilmiş ağac, mln. $m^3$ | 406 | 448 | 465 | 503 | 503 |
| Şəkər çuğunduru istehsalı,mln.ton | 224 | 264 | 283 | 300 | 292 |

Göründüyü kimi 1980-ci ilə nisbətən 1985-ci ildə neft hasilatı, polad istehsalı, kəsilmiş ağacların miqdarı azalmışdır, elektrik enerjisi istehsalının orta illk artımı aşağı düşmüşdür.

***Təbii resursların, xammalın daha dərin emalı hesabına yeni-yeni məhsullar alınması imkanları da (artıq hər bir təbii resursun, xammalın demək olar ki, bütün emal mərhələləri mənimsənilmişdir) məhdudlaşmışdır. Tədricən mövcud məhsulların yeni texnoloji əsas üzərində kombinasiyası əsasında yeni məhsullar alınması, insanın yaradıcı aktivliyinin inkişafı demokratik cəmiyyətin inkişafında əsas mənbələrdən birinə çevrilir.***

İnkişaf etmiş ölkələrdə ümumi daxili məhsul istehsalında sənayenin xüsusi çəkisi azalmağa meyilli olmuşdu.

---

[1] Народное хозяйство СССР в 1989 г. Статистический ежегодник. М.1990.Стр. 687

Eyni zamanda ÜDM istehsalında ticarətin, xidmət sahələrinin, nəqliyyat və rabitənin xüsusi çəkisi 80-ci illərin əvvəllərindən daha sürətlə artmağa başladı. ABŞ-da ÜDM-in 1980-ci ildə 64%-i, 1987-ci ildə 69%-i xidmət sahələrinin payına düşürdü.

80-ci illərin axırlarından inhisarların mövqe və məqsədlərində də müvafiq dəyişikliklər əmələ gəlmişdir. Materiallarla tanışlıq belə qənaətə gəlməyə əsas verir ki, XIX əsrin əvvəllərindən təqribən 80-ci illərin axırlarına qədər inhisarçı kapitalizmin yaranmasının əsas məqsədi iqtisadi böhranlardan, rəqabət mübarizəsində özünü müdafiə etmək və yüksək inhisar mənfəətini təmin etmək idi. Lakin XX əsrin 30-cu illərindən, xüsusilə də 60-cı illərindən başlayaraq tədricən bu məqsəd daha iddialı oldu. ***Dünya bazarlarını ələ keçirmək, mövcud olduqları ölkənin xarici və daxili siyasətini öz iradələrinə tabe etmək və bununla da dünyada hökmüranlıq etmək əsas məqsədə çevrildi. Dünyanın təbii resursları tükəndikcə və informsiya-kommunikasiya texnologiyaları inkişaf etdikcə dünyada hökmüranlıq etmək iddiaları daha da inkişaf edir və dövlət siyasətinə təsir göstərir.***

Qloballaşma şəraitində demokratik cəmiyyətin xüsusiyyətləri dəyişilir. Hər bir ölkənin dünyada baş verən yeniliklərlə tanış olmaq imkanı yaranır. Keçmiş dövrdə formalaşan iqtisadiyyat indi yalnız öz ölkəsinin deyil, həm də dünyanın qabaqcıl ölkələrinin texnologiyasına əsaslanır. İqtisadiyyat özəlləşdirilərkən yaranan yeni müəssisələr özündə təkcə milli texniki-texnoloji yenilikləri deyil, həm də əksər hallarda dünyanın qabaqcıl elmi yeniliklərini, texnika və texnologiyasını birləşdirir. Beləliklə də, bütün ölkələrin iqtisadiyyatı az-çox qarşılıqlı əlaqədə inkişaf edir.

Hər hansı ölkədə baş vermiş hər hansı yenilik (texniki, texnoloji, idarəetmə) çox çəkmir ki, başqa ölkələr tərəfindən mənimsənilir.

Dünya sosializm sisteminin dağılması demokratik cəmiyyətin öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olması üçün yaranmaqda olan obyektiv şəraiti gücləndirdi. Demokratik inkişaf yoluna yeni daxil olan ölkələrə, inkişaf etmiş demokratik dövlətlərin kapital axını, siyasi və iqtisadi təsiri gücləndi. İnkişaf etmiş demokratik dövlətlərdə iqtisadiyyatın inkişafında son illər daha da kəskinləşən struktur dəyişiklikləri başlandı. Nəticəsi dünyanı sarsıdan və aparıcı dövlətlərin qüvvələrinin birləşdirilməsini tələb edən dünya maliyyə bönranları baş verdi. Böhrandan on trilyonlarla dəyən zərər, on minlərlə müəssisələrin bağlanması, demokratik dövlətlərin birlikdə gördüyü geniş miqyaslı tədbirlər onu göstərir ki, demokratik cəmiyyətin **XX** ***əsrin 50-60-cı illərində formalaşmış hazırki iqtisadi münasibətlər və ona müvafiq idarəetmə sistemi nə həmin dövlətlərin, nə də dünyanın inkişafının hazırki vəziyyətinin qarşıya qoyduğu tələblərə cavab vermir.Bu münasibətlərin yenidən qurulması vacibdir. İndi dünya ölkələri "inkişaf etmiş cəmiyyət" in modernləşdirilməsi, qloballaşma və inteqrasiyanın inkişafın həlledici amilinə çevrilməsi mərhələsinə daxil olmuşdur.***

Təbiəti intensiv istismar etmək yolu ilə istehsalı genişləndirmək və varlanmaq imkanları məhdudlaşmışdır. Eyni zamanda insan fəaliyyəti sahələrinə, istehsala tətbiq olunan texnika-texnologiya kütləvi halda dəyişib bütün cəmiyyət fəaliyyətinin əsaslarını əhatə etmişdir və bu proses tədricən daha da genişlənir. Hər iki qlobal dəyişiklik insanların idarə olunmasının da onların yeni texniki-texnoloji vəziy-

yətinə uyğun dəyişməsini və yeni şəraitə uyğunlaşmasını obyektiv zərurətə çevirir.

Qloballaşma dövründə cəmiyyətin ziddiyyətlərinin kəskinləşməsi, təbii resursların məhdudlaşması və elmin-texnologiyanın yüksək səviyyədə inkişafı məhsuldar qüvvələrin əsası olan, təsərrüfat fəaliyyətini həyata keçirən və onun nəticələrini mənimsəyən bir subyekt kimi insanın qarşısına təbiətin imkanlarından çox öz imkanlarından daha geniş miqyasda istifadə etmək vəzifəsini qoyur. Nəticədə ayrı-ayrı inkişaf etmiş ölkələrdə istehsalın inkişafının ağırlıq mərkəzi xammal-material resurslarından çox insanın öz qabiliyyətinin inkişafı və ondan səmərəli istifadənin üzərinə keçməyə başlayır. Eyni zamanda elmi-texniki tərəqqi, yeni, sürətli və tutumlu nəqliyyat növlərinin inkişafı ölkələr arasında əlaqələrin, inteqrasiya proseslərinin daha da inkişafına şərait yaradır.

Demokratik cəmiyyətin öz əsasları üzərində inkişafı dövründə elmi-texniki tərəqqi birinci növbədə təbiətdən, təbii resurslardan istifadəni genişləndirmək, asanlaşdırmaq və intensivləşdirmək məqsədinə xidmət edirdi.

Burada son məqsəd izafi dəyər əldə etmək və varlanmaq idi. Qloballaşma dövründə insan elmi-texniki tərəqqinin təsir obyektinə çevrilir. İstehsalın inkişafında, gəlirlərin, varlanmağın artmasında insanın rolu artır. Başqa sözlə, elmi-texniki tərəqqi insana, onun qabiliyyətinə və bu qabiliyyətdən istifadəyə təsir edir, onun qarşısına yeni, daha əsaslı tələblər qoyur.

Demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövründə, xüsusilə onun 50-ci illərdən sonrakı dövründə cəmiyyət üzvlərinin normal faydalı fəaliyyəti üçün ümumi hazırlıq və mühən-

dis-texniki bilik tələb olunurdu. Qlobal informasiya cəmiyyəti dövründə insandan əvvəlki dövrdə olduğuna nisbətən daha yüksək texniki biliklə yanaşı, həm də yüksək informasiyaya malik olmaq və bu informasiyadan çevik, vaxtında və düzgün istifadə etmək tələb olunur.

Qloballaşma cəmiyyətin informasiyalaşması prosesini gücləndirir, yeni qlobal informasıyalı yaşayış və fəaliyyət mühitinin formalaşmasına gətirib çıxarır. Beynəlxalq aləmə daxil olmaq üçün imkanlar artır. Bu imkanların istifadəsi elmin və təhsilin inkişaf səviyyəsindən, ölkədə yeni texnika və texnologiyaların tətbiqindən, yeni elmi biliklərin, ixtisasların mənimsənilməsindən asılı olur.

Dünya sosialst təsərrüfat sisteminin dağılması, həmin sistemdən ayrılan respublikaların demokratik inkişaf yoluna keçməsi dövlətlər arasında təsərrüfat fəaliyyətinin bütün sahələrində inteqrasiyanın sürətli inkişafına,qloballaşmanın genişlənməsinə güclü təsir göstərmişdir.

Bu dövrdə informasiyanın inkişafı dünyada gedən inteqrasiya, qarşılıqlı əlaqə və asılılıq proseslərini nəzərə almaqla cəmiyyətin modernləşdirilməsi, ictimai münasibətlərin və idarəetmə sisteminin modernləşdirilməsi üçün başlıca amildir. Bu mənada XXI əsr informasiya əsridir deyənlər haqlıdırlar. Bu cəmiyyətdə zəngin informasiyaya malik olmaq, həm də bu informasiyaların məkan dairəsinin kifayət qədər geniş olması insan fəaliyyətinin geniş mənada tələbata uyğunluğunu müəyyən edən əsəs amillərdən birinə çevrilir. Bu cəmiyyətdə həmçinin geniş informasiya hər bir dövlətdə fəaliyyət obyektini daha ətraflı öyrənmək, düzgün idarəetmə metodları seçmək və düzgün qərarlar qəbul etmək üçün vacib şərtə çevrilir. Eyni zamanda insanların istifadə etdiyi informsiya mənbələri zənginləşdikcə,

informasiya potensialı artdıqca (informsiya mənbələri bir-birindən asılı vəziyyətə düşür, geniş informasiya əldə etmək imkanı hamıya eyni dərəcədə müəssər olmur) ondan istifadə çətinləşir. ***Eyni zamanda informasiyanın doğru olmaması halları ortaya çıxır, ona dövlət səviyəsində nəzarətin, informasiyaya görə məsuliyyətin artırılması məsələsi də ortaya çıxır.***

Müasir dünyada gedən inteqrasiya prosesləri, qloballaşma (iqtisadiyyat, elm, texnika-texnologiya, mədəniyyət, təhsil və i.a. sahələrdə qarşılıqlı əlaqə və asılılığın artması), bir tərəfdən xalqların informasiya bazalarını bir-birinə yaxınlaşdırır, hər hansı ölkədə əldə edilmiş nailiyyətləri nisbətən tezliklə əksər ölkələrin nailiyyətlərinə çevirməklə bütün dünyada inkişafa, tərəqqiyə yol açır. Hazırki dövrdə də radio və televiziya, beynəlxalq icmalçılar öz gündəlik proqramında bu məsələnin şərhinə bu və ya digər dərəcədə yer verir. Bu məsələyə aid hər kəs öz düşündüklərini bildirir. İnformasiya texnologiyaları, internet digər tərəfdən hər hansı ölkədəki nailiyyəti əksər ölkələrin eyni zamanda mənimsəməsinə şərait yaratmaqla xalqlar, ölkələr arasındakı inkişaf fərqlərini azaldır. Hər bir xalq özünün tarixi kökündən, milli xüsusiyyətlərindən qidalanaraq dünyanın ümumi iqtisadi, siyasi, mədəni və i.a. inkişafına özünün tarixi keçmişi, iqtisadiyyatı, fəlsəfi görüşü, mədəniyyəti, elmi və təhsili ilə daxil olur. Burada oxşar cəhətlər digər xalqlar tərəfindən də bu və ya digər formada qəbul olunur. Bu proseslərdə hər hansı dövlətin, xalqın aktivlik səviyyəsi, öz nailiyyətlərinin təbliğ edilməsi səviyyəsi, onun dünya iqtisadiyyatı və mədəniyyətində mövqeyini müəyyən edir və ya ona təsir göstərir. Bu milli imkanlar, xüsusiyyətlər qloballaşma tələblərinə nə qədər zəif uyğunlaş-

dırılır və istifadə olunursa ölkə bu qloballaşma proseslərindən daha çox asılı vəziyyətə düşür, xalq özünəməxsus qabiliyyəti, talantı reallaşdıra bilmir.

Kompyüterləşmə,informasiya-kommunikasiya texnologiyalarının inkişafı ölkələr arasında inteqrasiyanın güclənməsi, dünyada olan yeniliklərin bütün dövlətlər və xalqlar tərəfindən sürətlə mənimsənilməsinə şərait yaradır.

Beləliklə, informasiya cəmiyyətinin formalaşmasının mahiyyəti ondadır ki, informasiya, onun genişliyi, düzgünlüyü, vaxtında əldə olunması inkişafın, tərəqqinin vasitəsinə, başlıcası isə mənbəyinə çevrilir. İnkişaf üçün maliyyə vəsaitinə, müəyyən maddi resurslara, təşkilatçılıq qabiliyyətinə malik olmaq nə qədər vacibdirsə, lazımi tələblərə cavab verən informasiya da eyni dərəcədə vacibdir. Həm də informasiya cəmiyyətdəki mövqeyindən asılı olmayaraq ictimai faydalı fəaliyyət göstərən hər kəs üçün, onun fəaliyyətinin əhəmiyyətindən, təsir dairəsindən asılı olaraq eyni dərəcədə vacibdir. Zira bu cəmiyyətdə informasiya almaq imkanı dünyəvi, demokratik və inkişaf üçün həlledici şərt xarakteri daşıyır.

Bu cəmiyyətin orta texniki bilikli insanı hər hansı bir ərazidə yaşamaqla dünyanın hər yerindən informasiya ala bilər. Çünki bu cəmiyyətdə informasiya almaq imkanı da ölkələrin inkişaf və müasirləşmə səviyyəsindən asılı olaraq yaradılmışdır və ya yaradılmaqdadır. Digər şərtlərin bərabərliyi şəraitində o dövlət, o təşkilat, o adam daha böyük nailiyyət qazana bilər ki, o digərinə nisbətən daha geniş, düzgün informasiyaya malik olsun. Nəticədə informasiya inkişafın, tərəqqinin həlledici amillərindən birinə çevrilmişdir.

Qloballaşma və informasiya-kommunikasiya texnologiyalarının inkişafı kapitalizmin cığırdaşı olan iqtisadi böhranların kəskinləşməsinə, genişlənməsinə və yeni formalarda təzahür etməsinə şərait yaradır. Dünya sosializm sisteminin ləğv olunması və vahid kapitalist təsərrüfatı sisteminin formalaşması prosesində ortaya çıxan obyektiv və subyektiv səbəblər də böhranının yeni keyfiyyətlə ortaya çıxmağına şərait yaratdı. 2007-ci ildə ABŞ-da maliyyə böhranı başlandıqdan sonra maliyyə böhranı haqqında müxtəlif mətbuat səhifələrində yazılanlara tez-tez rast gəlinməyə başlandı.

Dünya maliyyə böhranı adı altında biz nəyi başa düşməliyik, bu təsadüfi, yoxsa qanunauyğun bir haldır, bütün ölkələri, yoxsa yalnız inkişaf etmiş ölkələri əhatə etmişdir. İnkişaf etmiş dövlətlər, misal üçün ABŞ bu böhranı qısa müddətə aradan qaldıra biləcəkmi? Qlobal informasiya cəmiyyəti dövründə demokratik cəmiyyətin əvvəlki dövrünə xas olan zidiyyətlər, iqtisadi böhranlar aradan qalxmır, əksinə daha kəskin, uzun müddətli və iqtisadi, sosial cəhətdən daha təhlükəli xarakter alır. Ona görə hazırda maliyyə iqtisadi böhran formasında təzahür edən ifrat istehsal böhranları bütün ictimaiyyətin diqqət mərkəzindədir. Fikrimizcə, bütün bu suallara elmi və əsaslandırılmış cavab vermək üçün çox ciddi əsaslı tədqiqatlar aparmaq, demokratik cəmiyyətin hazırkı inkişaf mərhələsinin xüsusiyyətlərini, qanunauyğunluqlarını aşkara çıxarmaq və bu maliyyə böhranını da həmin qanunauyğunluqların daxili tərkib hissəsi kimi izah etmək daha düzgün olardı.

Biz isə indiyə qədər bildiklərimizi, bizə öyrədilmiş olanları və mövcud reallıqları əsas götürərək öz mülahizələrimizi bildirməyə çalışacağıq.

Təbiidir ki, ABŞ-da başlanmış və tədricən genişlənərək çoxsaylı ölkələrə yayılmış dünya maliyyə böhranı da demokratik cəmiyyətə (kapitalizmə) xas olan iqtisadi böhranların kapitalizmin müasir qloballaşma mərhələsinə xas olan yeni formasıdır. Lakin indiki maliyyə böhranı özünün baş vermə səbəblərinə, əhatə dairəsinə və xarakterinə görə əvvəlki iqtisadi böhranlardan tamamilə fərqlənir. *Əvvəlkilərdən fərqli olaraq indiki maliyyə böhranı dünyada qloballaşma sürətlə inkişaf etdiyi, dünya sosializm sistemi dağılmış olduğu və sosializm sistemindən ayrılan ölkələrin demokratik inkişaf yolunu seçdiyi bir şəraitdə baş verir.* Bu əsas cəhət indiki böhrana əvvəlki dövrlərdə olduğundan fərqlənən tamamilə yeni xüsusiyyətlər verir. Əvvəlki iqtisadi böhranlar ifrat istehsal böhranları idi. Istehsal olunan əmtəələr satılmır, bu səbəbdən təkrar istehsalı davam etdirmək üçün maliyyə vəsaiti çatmırdı, müəssisələr bağlanır, kütləvi işsizlik baş verirdi. Hazırki maliyyə böhranı 2007-ci ilin yazından əvvəlcə ABŞ-da, onun ardınca inkişaf etmiş digər kapitalist dövlətlərində baş vermişdir. Böhran öz ifadəsini istehsalın artım tempinin aşağı düşməsində, real sektorda maliyyə çatışmamazlığı yaranmasında, maliyyə çatışmamazlığı üzündən ipoteka bazarında tədiyyə qabiliyyətli tələbin aşağı düşməsində və ipoteka kreditləşməsi sistemində böhran yaranmasında, bankların vəsaitinin azalması və bir çox bankların müflisləşməsində, vətəndaşların əmanətlərinin qaytarılmamaq təhlükəsi altında olmasında, müəssisələr arasında istehsal-satış əlaqələrinin kəsilməsi, ixtisarlar getməsi və işsizlik yaranmasında tapır.

Beləliklə, əvvəlki böhranlar üçün ifrat əmtəə istehsalı və məhsulun satılmaması hazırkı böhran üçün real sektorda maliyyə çatışmamazlığı üzündən əmtəə istehsalının aşağı

düşməsi xarakterikdir. Əvvəlki böhranların əsas nəticələrindən biri olan (maliyyə çatışmamazlığı) hazırkı böhran üçün səbəbdir. Başqa mühüm fərqlər: 2007-ci ildə ABŞ-da başlanan böhranın əvvəlki böhranlara nisbətən daha çox ölkələri əhatə etməsi; dünya miqyasında daha uzun müddət davam etməsi; cəmiyyət həyatının bütün sahələrinə təsir göstərməsi; daha çox iqtisadi və sosial xarakterli itkilərə səbəb olması; bu böhrandan çıxmağın daha çox xərc və əsaslı tədbirlər görməyi tələb etməsidir.

Amerikada və Asiya qitəsinin bir çox ölkələrində iqtisadi vəziyyət sabitləşməyə meyilli olduğu 2010-cu ildən başlayaraq Avropa qitəsi ölkələrində böhran daha da kəskinləşdi. Yunanıstan, İspaniya, İtaliya, Portuqaliya, Fransa və xüsusilə 2011-ci ildən başlayaraq Almaniyada maliyyə-iqtisadi böhran daha da kəskinləşdi, sosial və iqtisadi vəziyyət ağırlaşdı.

2012-ci ilin son üç ayında və 2013-cü ilin yanvar-mart aylarında internetdə, mətbuat səhifələrində, televiziyada Avropanın inkişaf etmiş ölkələrində sosial-iqtisadi, sosial-siyasi vəziyyətə aid verilən məlumatlar yuxarıda qeyd etdiklərimizi tamamilə təsdiq edir. Avropanın qədim tarixə malik inkişaf etmiş ölkələrində daxili ümumi məhsul istehsalı bir qayda olaraq azalırdı. Son beş ildə Avropada cihazqayırma, metallurgiya böhran vəziyyətindədir. Bu sahələrin məhsuluna son 5 ildə tələbat 25% azalmışdır. Almaniyada 2012-ci ilin son rübündə ÜDM istehsalı 1,2% azalmışdır. Müəssisələrin, bankların, onların filiallarının bağlanması nəticəsində İtaliyada son 4 ildə 330 min nəfər iş yerini itirmişdir. Almaniyada işsizlərin sayının 2013-cü ildə 60 min nəfərə çatacağı gözlənilir. Məlumdur ki, dövlət borcu ölkədə istehsal olunan ÜDM 60%-ə çatanda dövlət təhlükə

qarşısında qalır. Halbuki, Avropa ölkələrində dövlət borcu ÜDM-in 80-87%-i həddində, Yunanıstanda, İspaniya və Portuqaliyada bundan da çoxdur-100-128% həddindədir. Bu ölkələrdə böyük işsizlər ordusu yaranmışdır. 2012-ci ilin noyabr-dekabr aylarında işsizlik İspaniyada 26,6%, Yunanıstanda 26%, (1,1 mln. nəfər) Portuqaliyada 25% olmuşdur. 2013-cü ilin fevral ayınd Fransada işsizlərin sayı 3710 min nəfərə çatmışdır. Bu son 15 ildə ən yüksək göstəricidir. Ümumiyyətlə, Avropanın aparıcı ölkələrində 2012-ci ilin dekabr ayında işsizlik orta hesabla 18%-ə, Avropa ittifaqında işsizlərin sayı 26 mln. nəfərə çatmışdır, 3 mln. əhali yoxsulluq həddində yaşayır. Xüsusilə gənclərin hər iki nəfərindən biri işsiz olmuşdur. Ali məktəblərdə təhsil haqqı artır, təhsil alanların sayı azalır, təhsilin keyfiyyəti aşağı düşür. Nəticədə əmək haqqının aşağı düşməsinə, vergilərin, təhsil, səhiyyə xərclərinin artmasına, işsizliyə qarşı kütləvi etiraz aksiyaları, tətillər, nümayişlər geniş vüsət almışdır. Tarixdə ilk dəfə olaraq həmkarlar konfederasiyasının rəhbərliyilə Avropanın 23 ölkəsində eyni zamanda tətil olmuşdur. Almaniyada 2013-cü ilin fevral ayının sonunda tətilçilərin sayı 1,3 mln. nəfərə çatmışdı və bunun 300 min nəfəri dövlət sektorunun işçiləri olmuşlar. Beləliklə, maliyyə-iqtisadi böhran, durğunluq siyasi böhrana çevrilmiş, hakimiyyətə, siyasi sistemə qarşı etimadsızlıq, narazılıq artırmışdır. Eyni zamanda işsizlik dünya miqyasında da artır. 2011-ci ildə dünyada işsizlərin sayı 197 mln.nəfərə çatırdı. 2012-ci ildə daha 4 mln. nəfər artaraq 200 mln. nəfərdən çox olmuşdur.

Buna görə də hazırkı böhranın baş verməsi səbəbləri üzərində bir qədər geniş dayanmaq vacibdir.

Məlumdur ki, XX əsrin 20-ci illərindən 80-ci illərin axırlarınadək dünya kapitalizm və sosializm sistemi arasında kəskin mübarizə gedirdi. Kapitalist ölkələrinin həmin sistemə sadiq olan və onun inkişafını istəyən görkəmli alimləri (M.Fridman, U.Xoudri, Y.Şumpeter, E.Xansen, D.M.Keyns və onun davamçıları) demokratik (kapitalizm) cəmiyyətini qoruyub saxlamaq və irəliyə doğru inkişaf etdirməyin yollarını göstərirdilər. Eyni zamanda Sovet alimləri də öz növbəsində sosializmi qoruyub saxlamaq və inkişaf etdirmək yollarını təhlil edir və mümkün təklifləri irəli sürürdülər. XX əsrin 80-ci illərinin ikinci yarısından sosializm cəmiyyəti zəiflədi. Istər-istəməz həm elmi, həm də praktiki sahədə sosializmdən imtina və demokratik inkişaf yoluna meyil özünü göstərməyə başladı. Sovetlər İttifaqı dağılandan, sosialist dövlətləri demokratik inkişaf yoluna daxil olandan etibarən onların demokratik cəmiyyətə meylliliyi demokratik quruluşun müsbət cəhətlərini öyrənmək və istifadə etmək istiqamətində daha da gücləndi. **Əvvəla,** müstəqilliyin ilk illərindən başlayaraq obyektiv və subyektiv amillərin təsiri altında sarsıntılara məruz qalmış, dağılmış iqtisadiyyatlarını bazar münasibətlərinin tələblərinə uyğun yenidən qurmaq üçün demokratik inkişaf yoluna yeni daxil olmuş ölkələr də inkişaf etmiş demokratik ölkələrlə mədəni-iqtisadi əlaqələrə girməyə və onlardan müxtəlif maliyyə-kredit yardımları almağa can atırdılar. Təbiidir ki, elm, elmi-tədqiqat işləri də həmin istiqamətə yönəldi və demokratik cəmiyyətin müsbət cəhətlərini öyrənmək və onun hər bir respublikanın öz şəraitinə uyğun istifadə yollarını müəyyənləşdirmək bu ölkələrdə aparılan elmi-tədqiqat işlərinin (xüsusilə iqtisadi xarakterli) əsas istiqamətlərinə çevrildi.

Eyni zamanda inkişaf etmiş demokratik dövlətlərin özləri də buna can atırdılar və yenə can atırlar. Başqa sözlə, yaxınlaşma meyli qarşılıqlı idi. *Keçmiş sosialist ölkələrində öz mövqelərini möhkəmlətmək və yüksək mənfəət götürmək məqsədi ilə inkişaf etmiş demokratik dövlətlər bu yola yenicə qədəm qoymuş dövlətlərə kredit verir, maliyyə yardımı göstərir, yüksək ixtisaslı kadr hazırlayır və digər kömək göstərirlər.* Demokratik dövlətlər nəinki bu prosesdə iştirak edir, dəstəkləyir, başlıcası öz milli sahibkarlarına maliyyə yardımı edir, onların qarşısına çıxan çətinlikləri dəf etməyə kömək edir. Bu maliyyə vəsaitlərinin böyük əksəriyyəti isə daha çox və tez mənfəət verən istehsal və sosial infrastruktura sahələrinə yönəldilir. Külli miqdarda pulu olan, dövlətə məxsus banklar dövlətin təşəbbüsü ilə özəlləşdirilirdi ki, onlar xarici bazarlara sərbəst, maneəsiz çıxa bilsinlər. Eyni zamanda real sektorun aparıcı sahələrində (sənaye, kənd təsərrüfatı, istehsal xarakterli tikinti) olan kapitalın bir hissəsi də dövlətin dəstəyi ilə xarici ölkələrə axır ki, bir tərəfdən yüksək mənfəət götürsün, digər tərəfdən inkişaf etmiş dövlətlərin gənc demokratik dövlətlərdə iqtisadi dayaqları möhkəmlənsin, onların sosial-iqtisadi həyatlarına təsir dairəsi genişlənsin. Demokratik inkişaf yoluna yeni qədəm qoymuş ölkələr də bu ölkələrdə infrastruktur sahələrinin inkişafına ehtiyac olduğuna, bu sahələrdə mənfəətin əldə edilməsi nisbətən az zaman kəsiyində mümkün olduğuna görə bu sahələrin üstün sürətlə inkişafını normal hal kimi qəbul edirlər. Bütün bunlar isə, istər-istəməz inkişaf etmiş demokratik ölkələrin özlərinin daxilində iqtisadiyyatın, xüsusilə real sektorun inkişafına ayrılan maliyyə vəsaitlərinin azalması, iqtisadiyyatın zəif-

ləməsi və maliyyə çatışmazlığının yaranmasına gətirib çıxaran mühüm səbəblərdən birinə çevrilir.

**İkinci mühüm** səbəb dünya sosializm sistemi dağılandan sonra ABŞ-ın öz xarici siyasətini zor işlətmək üzərində qurması, sürətlə silahlanmanı və başqa ölkələrə hərbi müdaxiləni genişləndirməsi və digər qeyri-məhsuldar xərcləri artırmasıdır. ABŞ-ın Əfqanıstana və İraqa qarşı hərbi müdaxilələrini, İran İslam Respublikasına və digər ölkələrə qarşı hərbi yolla təsir göstərmək siyasətini yada salmaq kifayətdir. Bütün bunlar hərbi sənaye kompleksinin üstün inkişafını təmin etmək üçün çəkilən xərcləri və digər qeyri-məhsuldar xərcləri, dövlətin daxili borclarını fantastik sürətlə artırmaqla maliyyə çatışmazlıqlarının yaranmasında mühüm rol oynamış və iqtisadiyyatın real sektorunun inkişafına mənfi təsir etmişdir. Belə bir faktı göstərmək kifayətdir ki, Stokholm Beynəlxalq Təhlükəsizlik İnstitutunun (SİPRİ) hesablamalarına görə 2007-ci ildə dünya hərbi xərclərinin yarısı ABŞ-ın payına düşmüşdür. Eyni zamanda ABŞ hökumətinin borcları 2009-cu ilin yanvar ayına 10 trilyon dollara çatmışdır ki, bu da ABŞ-da istehsal olunan ÜDM-in təqribən 77%-nə qədər təşkil edir. Digər inkişaf etmiş demokratk dövlətlərin (İngiltərə, Yaponiya, Almaniya, və i.a.) borcları da son illərdə artmışdır.

**Üçüncü** qlobal təsirli səbəb bütün cəmiyyətdə ifrat istehlakçılıq meyllərinin güclənməsidir. Adətən cəmiyyətin əsasən istehsal yönümlü, yoxsa həm istehsal – istehlak yönümlü və ya *istehlakçı cəmiyyət* olması ölkə iqtisadiyyatının real sektorunda və digər sahələrdə (maliyyə bazarında, infrastruktura sahələrində) istehsal olunan məhsulun ÜDM-də xüsusi çəki nisbətilə müəyyən olunur. Müstəqillik illərində keçmiş sosialist ölkələrinin maliyyə bazarından,

xüsusilə infrastruktur sahələrindən daxil olan gəlirlərin ÜDM-də xüsusi çəkisi Sovet dövründə olduğuna nisbətən xeyli yüksəlmişdir və ya yüksəlməyə meyillidir. İnkişaf etmiş demokratik dövlətlərdə isə ÜDM-də real sektorun xüsusi çəkisi nisbətən yox, ümumiyyətlə aşağıdır və bu meyil davam edir. ABŞ - da real sektorun məhsulunun ÜDM-də xüsusi çəkisi xüsusilə aşağı olub, demək olar ki, 15-20% arasında tərəddüd edir. Əgər real sektorun bütün iqtisadiyyatın əsası oldugunu və yeni dəyərin başlıca olaraq bu sahədə yarandığını nəzərə alsaq, onda demək olar ki, bu ölkənin iqtisadiyyatı öz həqiqi təməlindən ayrılmaqdadır. Digər inkişaf etmiş demokratik ölkələrdə də real sektorun inkişafına diqqət nisbətən azalmışdır.

Unutmaq olmaz ki, bütün xidmət sahələrinin, təhsilin, elmin, səhiyyə, əhaliyə xidmət edən yol şəbəkəsinin inkişafı real sektorun inkişafı, burda istehsal olunan ÜDM-in və mənfəətin kəmiyyəti ilə əlaqədardır. Burda istehsal olunan mənfəətin bir hissəsi sahənin özündə, digər hissəsi ticarət, bank və digər sahələrdə göstərilən xidmətin müqabilində mənimsənilir. Bu səbəbdən real sektora birinci növbədə diqqət göstərilməməsi, gec-tez bütün ölkənin maliyyə münasibətlərində ciddi çətinliklər yaradacaq, Sovet İttifaqı dağılandan, sovet valyutası aradan çıxandan sonra Amerika dollarının mövqeyinin dünya maliyyə bazarında həddən artıq möhkəmlənməsi maliyyə bazarından gəlirlərin artmasına və real sektora diqqətin azalmasına, kapitalizm cəmiyyətində istehlakçılıq meyillərinin güclənməsinə xeyli təsir etmişdir. Belə bir fakt diqqəti cəlb edir ki, 2007-ci ildə dünyada istehsal olunan məhsulun 22%-i, istehlak olunan məhsul və xidmətlərin 40%-ə qədəri ABŞ-ın payına düşmüşdür.

***Eyni zamanda insanların yaratdığı bəşəri nemətlərə onun mənafeyi baxımından yanaşma meyli azalmış, istehlak imkanları axıradək istifadə olunmamış məhsulların istehlak dövriyyəsindən çıxarılması, enerji, əmək xərclərinin bir hissəsi istifadə olunmadan məhsulların yararsız hesab olunub atılması halları artmışdır. Beləliklə, son illərdə demokratik cəmiyyətdə maddi həyat nemətlərinin istehsalında məhdudlaşma olmuş, istehlakında israfçılıq meyilləri güclənmiş, iqtisadiyyata, istehlaka münasibətdə ümumbəşəri düşüncə arxa plana keçmişdir.***

*Əgər qısa formada izah etmək mümkün olsa, onda demək olar ki, bugünkü dünya maliyyə böhranı bir sıra ümumi məlum səbəblərlə yanaşı, əsasən inkişaf etmiş demokratik dövlətlərin, xüsusilə ABŞ-ın XX əsrin 80-ci illərində və XXI əsrin keçən illərində yeritdiyi daxili və xarici siyasətin, xüsusilə keçmiş sosialist ölkələrinə qarşı yeritdikləri elmi-texniki, iqtisadi əməkdaşlıq, kapital ixracı və struktur siyasətinin qanuni mənfi nəticəsidir.*

Məhz 80-ci illərdə və XXI əsrin əvvəllərindən başlayaraq inkişaf etmiş demokratik dövlətlərin sürətlə silahlanma, hərbi əməliyyatlar və başqa ölkələrə hərbi müdaxilələrlə əlaqədar qeyri-məhsuldar xərcləri sürətlə artdı. Eyni zamanda, sosializmin dağılmasından özlərinin daha çox bəhrələnmək mənafeyini, xüsusilə də bir qrup dövlət inhisarçı kapitalistlərin tez və yüksək mənfəət götürməsi, demokratik inkişaf yoluna yeni daxil olunmuş ölkələrdə öz mövqelərini möhkəmlətmək mənafeyini əsas götürərək öz kapitallarının əsas hissəsini, demokratik inkişaf yoluna yeni daxil olmuş ölkələrdə infrastruktur sahələrinin sürətli inkişafına, yanacaq-enerji resurslarının mənimsənilməsinə,

informasiya texnologiyalarının geniş yayılmasına yönəldirlər. Nəticədə istər həmin ölkələrin özündə, istərsə də yeni demokratik dövlətlərdə real sektorun inkişafına diqqət nisbətən azaldı, həmin sahələrin maliyyə təminatı aşağı düşdü. Real sektorda (sənaye, kənd təsərrüfatı, istehsal xarakterli tikinti və i.a.) geniş təkrar istehsal prinsipləri pozuldu, yola salınmış, satılmış əmtəələrin dəyərini ödəmək, real sektorda istehsalı genişləndirmək üçün maliyyə vəsaitində çatışmazlıq yaranmağa, bu da öz növbəsində infrastruktur sahələrinin məhsuluna da tələbatı azaltmağa və onların da inkişafına mane olmağa başladı. Beləliklə real sektorda başlanan maliyyə böhranı müəyyən dərəcədə iqtisadiyyatın başqa sahələrinə də keçərək ümumi xarakter almağa başladı.

Sürətlə inkişaf edən qloballaşma, təkrar istehsal prosesində baş verən bu böhranı ayrı-ayrı inkişaf etmiş ölkələrin ərazisindən çıxarır, ona dünyəvi xarakter verir və dərinləşdirir.

***Bu maliyyə böhranının kapitalizm dünyasında əvvəllər baş vermiş iqtisadi böhranlara nisbətən özünəməxsus bir sıra fərqli xüsusiyyətləri var.***

**Əvvəla,** "dünya maliyyə böhranı" adı verilmiş bu iqtisadi böhran əvvəllər baş verənlərə nisbətən daha dərin və əhatəlidir. Dünyanın demək olar ki, bütün inkişaf etmiş demokratik dövlətlərini və onların daxilində iqtisadiyyatın əksər sahələrini əhatə etmişdir. Həm də bu böhran müəyyən fasilələrlə daha uzun müddət davam etmişdir və Avropada 2013-cü ilin aprel ayına olan məlumata görə yenə də davam edirdi. Dünyanın inkişaf etmiş ABŞ, İngiltərə, Fransa, Yaponiya, son vaxtlar Almaniya, İspaniya, Fransa kimi dövlətləri bu böhrandan daha çox zərər çəkmişlər. Bir çox dövlətlərdə böhran olmasa da ÜDM-in

artım süræti kəskin surətdə aşağı düşmüşdür. 2008-ci ilin təsərrüfat nəticələrini nəzərə almaqla aparılan təqribi hesablamalara görə bu böhrandan dünya iqtisadiyyatına dəyən zərər 11 trilyon dollardan çoxdur. Bu böhranın əvvəlki 3 ilində ən çox zərəri ABŞ, İngiltərə, Yaponiya-başqa sözlə Afrika və Asiya qitəsində olan bir çox ölkələr çəkmişdilər. 2007-2009-cu illərdə ödəmə qabiliyyətini itirməkdən banklar 1,0 trilyon ABŞ dolları həcmində itkiyə məruz qalmışlar. Bunun 60%-i ABŞ banklarının payına düşmüşdür. Ümumiyyətlə, 2007-ci ildə ABŞ-da maliyyə iqtisadi böhranın başlamasından 2012-ci iln sonuna qədər 445 bank müflisləşdiyini bildirmişdir. Ən iri şirkətlər 10 minlərlə işçiləri ixtisar etmək məcburiyyətində qalmışdı. Böhranın nəticələri ciddi olmaqla bir çox ölkələrdə sosial gərginliyə səbəb olmuşdur. Böhran MDB ölkələrində də iqtisadiyyatın vəziyyətinə mənfi təsir etmişdi. 2008-2009-cu illərdə ÜDM-in həcmi Ermənistanda 30% azalmışdı. Ümumiyyətlə, qlobal iqtisadi böhrandan ən çox əziyyət çəkmiş MDB ölkəsi Ermənistan, Moldova, Rusiya və Ukrayna olmuşdur. 2008-ci ilə nisbətən 2009-cu ildə ÜDM Ermənistanda 14,2%, Moldovada 6,5%, Ukraynada 5,1%, Rusiyada 7,9% azalmışdır.[1] Bununla yanaşı MDB ölkələrində xarici ticarət dövriyyəsi, xarici kapitalın bu ölkələrə axımı-kəskin surətdə azalmışdı. Daxili tələbatın, əmək haqqının səviyyəsi aşağı düşmüş, işsizlik artmışdır.

**İkincisi,** əvvəlkilər sırf iqtisadi xarakter daşıyan ifrat istehsal böhranları idi. İstehsalla əhalinin istehlak tələbi bir və ya bir çox ölkədə kifayət qədər düzgün əlaqələndirilmədiyindən, istehsal edilən əmtəə kütləsi alıcılıq qabiliy-

---

[1] Ədalət Muradov, Allahverən Hüseynov. Dünya iqtisadiyyatının inkişaf perspektivləri. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. №2 (34), 2011

yətindən çox olduğundan, əmtəələr tələbata uyğun olmadığından baş verirdi. Məhsul satış mərhələsini keçə bilmədiyindən, istehsalçılar həm də maliyyə çatışmazlıqları ilə üzləşirdilər. Lakin əsas səbəb əmtəənin satılmaması olduğuna görə maliyyə çatışmamazlığı diqqəti o qədər də cəlb etmirdi. Həm də əmtəə gec-tez satılandan sonra, dövlətin müəyyən qədər tənzimləyici yardımı ilə bu böhran nisbətən qısa müddətdə aradan qaldırıldı. *Hazırkı maliyyə böhranı isə, fikrimizcə, məlum səbəblərlə yanaşı, həm də iqtisadiyyatın inkişafında proporsionallığın pozulması ,(real sektorun inkişafının digər sahələrə nisbətən geri qalması) iqtisadiyyatın bir çox mühüm sahələrinin maliyyə çatışmamazlığı üzündən zəifləməsi, durğunluq və geriləmə vəziyyətinə düşməsi nəticəsində baş vermişdir.*

*Dünya maliyyə böhranının həm elmi və həm də praktiki baxımdan bir çox ibrət dərsləri vardır.* Onların təhlili və ümumiləşdirilməsi olduqca vacibdir. Biz isə bunlardan bir neçəsini xüsusi olaraq qeyd etmək istərdik:

**Əvvəla,** bu böhran onu göstərir ki, demokratik cəmiyyətin dövlət idarəetmə sistemi və buna müvafiq xarici siyasəti tarixən xalqların sosial-iqtisadi inkişafında mütərəqqi rol oynamış, bəşəriyyəti böyük iqtisadi, siyasi və mədəni tərəqqiyə çatdırmış olmasına baxmayaraq onun hazırkı vəziyyəti dünyada gedən qloballaşma proseslərinin qarşıya qoyduğu tələblərə kifayət qədər cavab vermir və təkmilləşməsinə ehtiyac yaranmışdır. Belə ki, hazırkı demokratik idarəetmə sistemi və xarici siyasətin əsasları dünyada bir-birinə zidd iki sistem (kapitalizm və sosializm sistemi) mövcud olduğu dövrdə yaranmışdır. Hazırda isə dünyada vahid iqtisadi və siyasi sistem formalaşır. Dövlətlər arasında mədəni-iqtisadi, informasiya, əmək və i.a. əlaqələri

dəyişir, qarşılıqlı əlaqə və asılılıq müxtəlif istiqamətlərdə və sürətlə inkişaf edir. Hər hansı nisbətən böyük ölkənin, xüsusilə nəhəng ölkələrin həyatında baş verən əsaslı iqtisadi, siyasi, mədəni və i.a. hadisə mütləq əksər ölkələrə öz təsirini göstərir. Bütün bunlar onu deməyə əsas verir ki, *dünyada vahid iqtisadi və siyasi sistem formalaşdığına görə onun idarə olunması sisteminin təkmilləşməsinə, dövlətlərarası münasibətlərin getdikcə daha çox demokratik prinsiplər üzərində qurulmasına ciddi ehtiyac yaranmaqdadır.*

**İkincisi,** inkişaf etmiş demokratik dövlətlərdə iqtisadiyyatın, iqtisadi və sosial həyatın tənzim və idarə olunması sisteminin əsasları XX əsrin 20-30-cu illərində formalaşmışdır və sonralar xeyli təkmilləşsə də, hazırkı vəziyyətində məhsuldar qüvvələri lazımi sürətlə inkişaf etdirməyə, iqtisadiyyatın müxtəlif sahələrinin proporsional inkişafını təmin etməyə kifayət qədər qadir deyil və onun təkmilləşməsinə ciddi ehtiyac yaranmışdır. Hazırda kapitalın əsas hissəsinin ayrı-ayrı ölkələrin, o cümlədən bir qrup milyarderlərin əlində cəmlənməsi (BMT-nin məlumatına görə 3 milyarderin sərəncam verdiyi kapitalın həcmi 48 kasıb ölkənin ÜDM-dən çoxdur), güclü fond birjaları və külli miqdarda pulu olan bankların dövlətin maliyyə-kredit siyasətinə güclü təsir göstərməsi, bəzən isə, bu siyasəti müəyyən etməsi də *hazırkı vaxtda ayrı-ayrı demokratik dövlətlərin daxilində idarəetmə sisteminin əhəmiyyətli dərəcədə təkmilləşməsini tələb edir, dövlətin iqtisadiyyatının həlledici həlqələri, təbii sərvətlər və onlardan istifadə üzərində güclü və istiqamətverici təsir dairəsi olmalıdır. Dövlətin özəlləşdirməyə müəyyən hədd qoyması, iri bankların və*

*iqtisadiyyatın əsas halqələrini öz əlində və ya təsir dairəsində saxlaması daha məqsədəuyğun olardı.*

**Üçüncüsü,** elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən, böyük zəhmət tələb edən əsaslı tədqiqatlara, xüsusilə ictimai elmlər sahəsinə maraq azalmışdır. Elmi tədqiqatlara, xüsusilə iqtisadiyyat sahəsində dövlət sifarişləri yox dərəcəsindədir. ***İqtisadiyyat sahəsində tədqiqat işləri konkret nəticələr əldə edilməsinə yönəlmiş, fundamental xarakterli tədqiqatlar azalmışdır. Nəticədə cəmiyyətin ümumi ictimai-siyasi inkişafı texniki, informasiya-kommunikasiya texnologiyalarının inkişafından geri qalır.*** Elmdə özünü təbliğ, konfransbazlıq, xarici ölkələrlə elmi əlaqələr yaratmaq, formal əməkdaşlıq etmək meyilləri həddən artıq artmışdır. İqtisadçıların, filosofların və digər ictimai elm nümayəndələrinin deyil, texniki-texnoloji,informasiya-kommunikasiya xarakterli elmlərin dövlət siyasətinə təsiri güclənmişdir. Bunun son nəticəsi iqtisadi siyasətdə, idarəetmə sistemində səhvlərə yol verilməsi, dövlətin böhranlı vəziyyətə təsir göstərmə imkanlarının məhdudlaşmasıdır.

**Dördüncüsü,** dünyada hansısa dövlətin *mütləq hökmranlıq etməsi* və dünya hadisələrinin gedişini müəyyən etməsi vaxtı keçmişdir. Dünyanın idarə olunması və bəşəriyyət üçün təhlükə törədən aclıq, yoxsulluq, savadsızlıq, işsizlik, xəstəlik, təbii fəlakət, ekoloji təhlükə və enerji çatışmazlığı təhlükəsi problemləri kimi *maliyyə böhranı problemini də yalnız dövlətlərin birgə səyilə və hamısının birlikdə mənafeyini nəzərə almaqla həll etmək olar.*

**Beşinci,** kapitalizm cəmiyyətində israfçılıq meyillərinin, real sektorun inkişafından çox müxtəlif qeyri-istehsal fəaliyyətindən, xidmət fəaliyyətindən gəlir götürmək meyl-

lərinin artması, böhrandan çıxmaq üçün çəkilən külli miqdarda xərclər, inkişaf etmiş kapitalist ölkələrində istehsalın həcminin çox ləng artması və ya artmaması kapitalist iqtisadiyyatında durğunluq, çürümə meyillərinin gücləndiyini göstərir.

**Altıncı,** maliyyə-iqtisadi böhranlar, istehsalın həcminin artmaması, bir çox müəssisələrin bağlanması inkişaf etmiş kapitalist ölkələrində sosial vəziyyəti, siyasi şəraiti ağırlaşdırmış, işsizliyi, yoxsulluğu artırmış, hökümətin iqtisadi, sosial, maliyyə siyasətinə qarşı narazılığı, etirazları gücləndirmişdir.

Tədricən belə bir obyektiv həqiqət özünü göstərir ki, siyasi və idarəetmə sisteminin istehsal, bölgü və mübadilə sisteminin mövcud vəziyyətində demokratik cəmiyyət bəşəriyyətin inkişafında özünün mütərəqqilik missiyasını bitirməkdədir. O ya bütün sahələri əsaslı surətdə yenidən qurmalı, mövcud ictimai-iqtisadi münasibətlər sistemini tamamilə təkmilləşdirməli, ya da demək olar ki, fasiləsiz davam edən iqtisadi, siyasi və sosial böhranlarla bəşəriyyətin inkişafı qarşısında ciddi maneələr yaratmalıdır.

Böhranın səbəblərini elmi surətdə izah etmək və elmi cəhətdən əsaslandırılmış çıxış yolları göstərmək üçün müasir dünyada baş verən proseslərin qanunauyğunluqları ətraflı təhlil olunmalı və ümumiləşdirilməlidir. Bu vəzifə isə filosofların, iqtisadi nəzəriyyə və makroiqtisadiyyat sahəsində çalışan alimlərin birgə səyi nəticəsində yerinə yetirilə bilər. İndi həm demokratik dövlətlərin, həm də xalqların mənafeyi bunu tələb edir.

## 1.5.Qlobal informasiya cəmiyyətinin əsas inkişaf yolu: sənayeləşmə və modernləşmə[1]

Qlobal informasiya cəmiyətinin formalaşması məsələlərinin tədqiqilə məşğul olan alimlər adətən bu cəmiyyətin müasir problemlərinin həllinin başlıca vasitəsi kimi modernləşməni irəli sürürlər.

Hazırda Azərbaycan dünya iqtisadiyyatına hərtərəfli inteqrasiya olunmaq, informasiya-kommunikasiya texnologiyalarını inkişaf etdirmək, son nəticədə səmərəli qlobal informasiya cəmiyyətini formalaşdırmaq yolunu seçmişdir. Heç də təsadüfi deyil ki, 2013-cü il Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları ili elan olunmuşdur. Odur ki, modernləşmənin nəzəri-metodoloji məsələlərinin geniş təhlili Azərbaycan şəraitində həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir.

Modernləşmənin Azərbaycan reallığı ilə əlaqədar nəzəri məsələlərinin tədqiqi üçün biz Azərbaycan Respublikasının Prezident Administirasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son vaxtlar bu problemə aid çap olunmuş əsərlərinə müraciət edirik. Bu heç də təsadüfi deyil.

İstər keçid dövrünün, istərsə də daxil olduğumuz yeni dövrün sosial-iqtisadi inkişaf strategiyasının müəyyənləşdirilməsində, hər dövrün mahiyyətinin, xüsusiyyətlərinin və vəzifələrinin açılmasında akademik Ramiz Mehdiyevin əsərləri bir qayda olaraq mühüm rol oynamışdır və yenə

---

[1] Bu paraqraf akademik Ramiz Mehdiyevin "Modernləşmə xətti yenə gündəlikdədir". Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. Jurnal №2 (22), 2008 ; "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" (Dövlət idarəçiliyi: nəzriyyə və təcrübə, №2, 2011, səh.135-167) və "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" (həmin jurnal №2, (38), 2012 səh.114-152) əsərlərinə istinad etməklə yazılmışdır.

oynayır. Bu əsərlərdə verilən ideyalar, irəli sürülən konseptual xarakterli fikirlər adətən daxil olduğumuz dövrü qabaqlayır və bu dövrdə qarşıda duran vəzifələri yerinə yetirmək, inkişafın əsas hədəf və istiqamətlərini müəyyən etmək üçün istiqamətverici xarakter daşıyır. Bu əsərlər həm də elmi qüvvələrin, düşünən beyinlərin fəaliyyətini əsasən hansı istiqamətə yönəltməyin vacib olduğunu göstərir və bununla da elmi qüvvələri həlli vacib olan məsələlərin ətrafında səfərbər etmək məqsədi güdür. Bu baxımdan "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" və "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində" əsərləri xüsusilə diqqəti cəlb edir. Bu əsərlər müəllifin əvvəlki illərdə modernləşməyə, demokratikləşməyə aid yazdığı əsərlərin ümumiləşdirilməsi və Respublikamızda, dünyada son illərdə baş verən yenilikləri nəzərə almaqla ideya baxımından zənginləşdirilməsi məhsulu kimi meydana gəlmişdir. Bu əsərlər birinci növbədə diqqəti cəmiyyətin inkişafı və modernləşməsinin bütün məsələlərinə kompleks halda konseptual yanaşma ilə cəlb edir. "XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində" əsərində hər bir elm adamı öz yaradıcılığının innovativ istiqamətinə aid yeni material, ideya tapa bilər. Bu baxımdan da, fikrimizcə, akademik Ramiz Mehdiyevin bu əsəri modernləşməyə aid problemlərin praktiki həllindən çox, bu problemləri həll etmək üçün nəzəri-metodoloji istiqaməti müəyyən edir, problemin həlli yolları haqqında düşünmək üçün qiymətli material verir. Digər tərəfdən bu əsərdə modernləşməyə keçidlə əlaqədar təhlili verilən bütün nəzəri-metodoloji xarakterli məsələlər Azərbaycana da aiddir. Azərbaycanda modernləşmə ilə əlaqədar qarşıya çıxan praktiki məsələlərin həllinə istiqamət vermək, yardımçı olmaq məqsədi güdür.

Akademik Ramiz Mehdiyev özünün bu məqsədini ifadə edərək yazır: "Bizim fəaliyyət xəttimiz təkcə bir siyasi iqtisadi strukturdan digərinə keçid istəyinin rəmzi olmayıb, həm də moderndən postmodernə, sənaye dünyasından postsənaye dünyasına transformasiya arzusunun təcəssümü idi." [1]

Beləliklə, bu əsərin ideya istiqamətlərinə istinad edərək modernləşməyə aid bir çox məsələlərin qısa şərhini verməyə çalışacağıq.

Öncə belə bir cəhət nəzərdə saxlanılmalıdır ki, modernləşmə və qlobal informasiya cəmiyyətinin (açıq cəmiyyətin) formalaşması bir-biri üçün şərt olan proseslərdir. Birinin inkişafı üçün yaranan tələbatın o birinin inkişafından yarandığını nəzərə almaq lazımdır. Bunların təhlili daim paralel və sıx əlaqədə aparılmalıdır.

Digər bir məsələ informasiya cəmiyyəti və modernləşmənin ictimai mahiyyətinin açılmasıdır. Modernləşmənin yaranma tarixi kifayət qədər çox olsa da və onun ayrı-ayrı cəhətləri haqqında kifayət qədər yazılmış olsa da, onun mahiyyəti elmi baxımdan kifayət qədər açılmamışdır. Bu ilk baxşda sadə görünə bilər. Lakin onun mahiyyətinin düzgün açılması müasir cəmiyyətin idarə olunmasının təşkili və sosial-iqtisadi inkişaf məsələlərinin həlli üçün mühüm əhəmiyyət kəsb edir.

***Fikrimizcə, modernləşmə cəmiyyətin həyat və fəaliyyətinin bütün sahələrinə mütərəqqi innovasiyaların tətbiqi yolu ilə onun əsaslı surətdə yeniləşməsi, əvvəlki dövrə xas olan və həmin dövrdə yeni yüksək hesab olunan keyfiyyətlərdən yeni dövrə xas olan yeni daha yüksək keyfiy-***

---

[1] Ramiz Mehdiyev: "XXI əsrdə Azrbaycan ideyası kreativ millət kontekstində", Dövlət İdarəçiliyi: nəzriyyə və təcrübə jurnalı №2 (38), 2012, səh.114

*yətlərə keçid prossesidir.* Modernləşmənin bütün məsələlərinin dərk olunması üçün fikrimizcə aşağıdakıların birinci növbədə nəzərə alınması vacibdir: əvvəla yeni, modern keyfiyyətlər mövcud olan keyfiyyətlərin ləğv edilməsi nəticəsi kimi deyil, həmin keyfiyyətlərin inkişafı, təkmilləşməsi və nəticə etibarı ilə yeni keyfiyyət halına keçməsi (modernləşməsi) məhsulu kimi meydana gəlir. Beləliklə, cəmiyyətin əvvəlki sənaye dövrünə xas olan modern keyfiyyətlər yeni postsənaye dövrünün tələblərinə uyğun modernləşir.

İkincisi, sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid-postmodernləşmə-çoxcəhətli, mürəkkəb bir proses olub cəmiyyət həyatının bütün sahələrində (iqtisadi, siyasi, sosial,mənəvi-psixoloji),insanların fəaliyyətində, davranışda, düşüncə tərzində, təhsildə, idarəetmə sistemində əsaslı və mütərəqqi dəyişiklikləri (innovasiyaları) nəzərdə tutur. O, iqtisadiyyat, cəmiyyət, siyasət, mədəniyyət, ekologiya, şüur səviyyəsi, dünyagörüşü və sivil cəmiyyətin əxlaq kodeksinin müddəalarının fərd tərəfindən mənimsənilmə dərəcəsi və s. sahələrə aiddir. Modernləşmə bir dəfəlik proses deyil, böyük təşkilatçılıq işi və vaxt tələb edən mürəkkəb bir prosesdir.

Üçüncüsü, modernləşmə bir və ya bir neçə ölkə üçün deyil, bütün dünya üçün xarakterikdir, başqa sözlə informasiya cəmiyyətinin formalaşması və modernləşmə dünyəvi obyektiv prosesdir. Hər bir ölkənin ayrılıqda və eyni zamanda dünya ölkələrinin hamısının birlikdə səylərinin əlaqələndirilməsi yolu ilə bu proses həm dünya, həm də ayrı-ayrı ölkələr üçün müsbət nəticələr verə bilər.

Cəmiyyətin modernləşməsinin iqtisadi əsası və mühüm istiqaməti iqtisadiyyatın modernləşməsi və rəqabət qabiliy-

yətinin artırılmasıdır. Millətin modernləşməsi kimi iqtisadiyyatın modernləşməsi və rəqabət qabiliyyətinin artırılması da zamanın tələbidir. Modernləşmə iqtisadi cəhətdən sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçiddir. Cəmiyyət tədricən inkişaf edərək aqrar cəmiyyətə, sonra arqar cəmiyyətdən keyfiyyətcə yeni olan sənaye cəmiyyətinə keçmiş, XIX əsrin ortalarından XX əsrin 70-80-ci illərinə qədər zəngin təbii resursları istehsal dövriyyəsinə cəlb edərək qabaqcıl texnika-texnologiyanın tətbiqinə əsaslanan güclü sənaye yaratmışdır. Sənayeləşmə dövründə tətbiq edilən texnika, texnologiya təbiətin resurslarının hasilatı və emalına, emalın dərinləşməsi hesabına yeni-yeni məhsulların alınmasına xidmət edirdi. Bu dövr bir növ cəmiyyətin təbiət üzərinə hücuma keçməsi, onun təbii imkanlarının intensiv olaraq istehsal dövriyyəsinə cəlb olunması və istifadəsilə səciyyələnirdi.

Lakin XX əsrin 60-cı illərindən, xüsusilə 70-80-ci illərdən təbii resursların tükənməsi özünü göstərməyə və istehsal sahəsində avtomatlaşdırma geniş tətbiq olunmağa başlamışdır. Nəticədə istehsal prosesinin idarə olunmasında, fəhlələrin dünya görüşündə, mədəni- texniki səviyyəsində köklü dəyişikliklər baş verməyə başladı. İnsanların istehsal prosesində tutduğu mövqe dəyişməyə başladı. Beləliklə, sənaye cəmiyyətinin postsənaye cəmiyyətinə, yaxud postmodern cəmiyyətə transformasiyası başlandı. Ümumiyyətlə, Amerika iqtisadçıları D.Böll ("Gələcək postsənaye cəmiyyəti". Nyu-York, 1973), E.Toffler (Üçüncü dalğa, M.2010), S.Hantinqton bəşəriyyətin inkişafını sənaye cəmiyyətindən əvvəlki mərhələ, sənaye cəmiyyəti və postsənaye cəmiyyəti mərhələlərinə bölürlər. Iqtisadiyyatın modernləşməsi onda texniki-texnoloji, rəqabət qabi-

liyyətliliyin artması, innovasiya yönümlü sahələrin üstün sürətlə inkişafı istiqamətində köklü dəyişikliklər baş verməsini, aqrar sahənin inkişafına, ərzaq təhlükəsizliyi probleminə dövlətin münasibətinin dəyişməsi və həmin problemin həllində məsuliyyətinin artırılmasını və i.a. nəzərdə tutur. Sənayeləşmə dövründən fərqli olaraq postsənaye dövründə daxili ümumi məhsulda və xalq təsərrüfatında işləyənlərin sayında sənayenin payı azalır, digər sahələrin, xüsusilə xidmət sahələrinin payı isə artır.

Postsənaye dünyasında (müasir dünyada) baş verən qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və dövlətlərarası inteqrasiya prosesləri özünün şəksiz müsbət cəhətlərilə yanaşı hər bir millət üçün, xüsusilə nisbətən az sayda əhalisi, nisbətən kiçik ərazisi olan dövlətlər üçün təhlükə də törədir. Bir sözlə, qloballaşma öz müsbət və mənfi cəhətlərilə bütövlükdə millətə qarşı yönəlmişdir. Ondan zərər çəkən də, bu proseslərə qarşı hazırlıqlı olub, ondan faydalanan, inkişafa və tərəqqiyə nail olan da məhz bütövlükdə millətdir. Məhz bu mənada akademik Ramiz Mehdiyev haqlı olaraq yazır: "Baş verən qlobal dəyişikliklər millətdən mütəşəkkil olmağı, dünyada öz mövcudluğunu qorumağı, dövlətin rəqabət qabiliyyətini təmin edəcək yollar, metodlar, vasitələr axtarmağı tələb edir. Bu hədəflərin lokomativi rolunda millət özü, onun intellektual səviyyəsi və yaradıcı qabiliyyəti çıxış edir". Beləliklə, modernləşmə birinci növbədə millətin (və hər bir insanın) özünün modernləşməsini, yeni keyfiyyət halına keçməsini, öz inkişaf səviyyəsinə görə dəyişən dünyanın tələblərinə uyğunlaşmasını və ondan özünün inkişafı mənafeyinə istifadə etməsini obyektiv zərurətə çevirir. Əks təqdirdə millətin mövcudluğu, müstəqilliyi dünyada gedən

qloballaşmanın qurbanına çevrilə bilər. ***Belə şəraitdə insanın özünü, öz amal və imkanlarını dərk etməsi və düzgün qiymətləndirməyi bacarması onun həyatda öz layiqli yerini tutması üçün olduqca vacibdir. İnsanın özünü dərk etməsinin birinci şərti isə əmək və təhsildir. Məhz bu ikisinin vəhdəti insanın özünü dərk etməsinə, özünün qabiliyyətini, cəmiyyətdəki yerini dərk etməsinə kömək edir və bununla da onun fəaliyyətinə istiqamət verir.*** Bu gün dünyada modernləşmə prosesləri getdiyi bir vaxtda insanın özünü dərk etməsində təhsilin rolu artır. Çünki cəmiyyət müasirləşir və bu müasirləşməni görmək, onun iştirakçısı olmaq üçün təhsilli olmaq, dünyanın gedişini dərk etmək lazımdır. Qloballaşma və informasiya-kommunikasiya texnologiyalarının inikşafı təhsilə tələbatı xüsusilə artırır.

***Özünü dərk etmək üçün insanların erkən əmək tərbiyəsi, vaxtında öz qabiliyyətinə uyğun işlə təmin olunması vacib məsələdir.*** Heç də təsadüfi deyil ki, klassiklər insanı müəyyən mənada əməyin yaratdığını göstərirlər. Qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, modernləşmə bəşəriyyətin tarixi inkişaf yolunun növbəti mərhələsi olmaqla, obyektiv, qarşısı alınmaz, həm də mütərəqqi cəhətləri çox olan bir prosesdir. Lakin bu proses ümumiyyətlə, əməyə deyil, müəyyən hazırlıq tələb edən əməyə, xüsusilə də yüksək ixtisaslı əməyə tələbatı artırır. Bununla belə bütün əmək qabiliyyətli insanların işlə təmin edilməsi məsələsini gündəlikdən çıxara bilmir. Məlumdur ki, insan bütün maddi və mənəvi nemətlərin istehsalçısı, yaradıcısıdır (əlbəttə burada təbiətin oynadığı ümumi rolu nəzərə almaqla). Eyni zamanda insan bütün maddi və mənəvi nemətlərin son istehlakçısıdır. Lakin bu

nemətləri istehlak etmək hüququna hər bir insan onun istehsalında, yaradılmasında iştirakından asılı olaraq sahib olur və ya olmalıdır.

Beləliklə, bu obyektiv proses təkcə xüsusi iqtisadi mənafe baxımından deyil, ümumbəşəri baxımdan-insanların işləmək və istehlak etmək hüququnun təmin edilməsi baxımından qiymətləndirilməlidir.

Lakin informasiya-kommunikasiya texnologiyalarının inkişafı, modernləşmə dövlət idrəetmə və tənzimləməsinin hazırki vəziyyətində əsasən xüsusi iqtisadi mənafelər baxımından qiymətləndirilir və nəticədə minlərlə insanın işsizliyinə səbəb olur. Bütün bunlar son illərdə Avropa ölkələrində və ümumiyyətlə, dünyada işsizlər ordusunun yaranmasında özünü aydın göstərir. Görünür, modernləşmənin tələblərini nəzərə almaqla cəmiyyətdə idarəetmə sistemi, əməyin təşkili, işlə təminat məsələləri təkcə xüsusi iqtisadi mənafeni deyil, həm də ümumi mənafeni nəzərə almaqla təkmilləşdirilməlidir. Bu gün Avropada yaranmış böhranlı vəziyyətin, əmək qabiliyyətli əhalinin 20-26 %-nin işsiz olmasının əsas səbəblərindən birini də bunda axtarmaq lazımdır. Belə şəraitdə insan özünü dərk edib, cəmiyyətdə yerini tapa bilməz.

Cəmiyyətin modernləşdirildiyi şəraitdə innovasiya yönümlü iqtisadiyyatın formalaşmasının əsas icraçısının kimlər olmasının müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, qloballaşmanın, informasiya cəmiyyətinin formalaşmasının təhlükəsi bütövlükdə millətə qarşı yönəldiyindən modernləşmənin ümumi subyekti elə millətin özü, iqtisadi dəyərlərin yaranmasında iştirak edən bütün insanlardır. Lakin modernləşmədə heç də bütün əhali eyni dərəcədə iştirak etmir. Kreativlik baxımından millətin özünü bir

neçə qrupa ayırmaq olar.

Ramiz Mehdiyev haqlı olaraq göstərir ki, modernləşmənin aparıcı qüvvəsini kreativ zümrə təşkil edir. ***Kreativ zümrənin*** əsas hissəsini bilavasitə yaradıcılıqla məşğul olan insanlar təşkil edir. Bunların əsas funksiyası yeni kreativ məzmun, texnologiya-texnika, ideya, dizayn yaratmaq olan elm və incəsənət, təhsil, musiqi və əyləncə sənayesi sahəsində çalışan insanlar təşkil edir. Yaradıcı zümrənin super kreativ özəyinə alim və mühəndislər, universitet professorları, şair və yazıçılar, rəssamlar, aktyorlar, dizayner və arxitektorlar, eləcə də müasir cəmiyyətin intellektual elitası: publisistlər, redaktorlar, tanınmış mədəniyyət xadimləri, analitik mərkəzlərin ekspertləri, şərhçilər və baxışları ictimai rəyi formalaşdıran digər insanlar daxildir.

Peşəsindən asılı olmayaraq yaradıcılıq prosesi bu insanların-proqramistlərin, mühəndislərin, arxitektorların və ya kinorejissorların ömrünə hakim kəsilir.

Kreativ zümrəyə həmçinin yaradıcılıqla məşğul olan əsas zümrənin fəaliyyətinə bilavasitə şərait yaradan insanlar-yüksək texnologiyalardan istifadə edən maliyyə, hüquq və səhiyyə, biznesin idarə olunması kimi bir sıra sahələrdə çalışan kreativ mütəxəssislərin böyük bir qrupu daxildir. Bu insanlar kompleks biliklərdən istifadə edərək spesifik problemlərin yaradıcı həllində iştirak edirlər.

Yaradıcılıq imkanlarını və cəmiyyət üçün digər müsbət keyfiyyətlərini nəzərə alaraq dünyanın əksər inkişaf etmiş ölkələrində dövlət başçıları öz ölkəsinin gələcəyi haqqında düşünərkən ümidlərini kreativ elitaya, xüsusilə onun aparıcı həlqəsinə bağlayırlar. Belə hesab edilir ki, cəmiyyətin inkişafının yeni postsənaye dövründə, yaxud

informasiya cəmiyyətində kreativ qüvvənin güclü olması ölkənin inkişafının və rəqabət üstünlüyünun təmin edilməsinin başlıca yoludur. Eyni zamanda sosial-iqtisadi inkişaf səviyyəsini, investisiya mühitini, rəqabət qabiliyyətliliyi qiymətləndirərkən beynəlxalq təşkilatlar kreativ qüvvənin inkişaf vəziyyətini nəzərə alır, demokratik cəmiyyətin gələcəyini məhz kreativ qüvvənin gələcəyilə bağlayırlar. Kreativ qüvvə həm cəmiyyəti dəyişmək, inkişaf etdirmək, həm də yerdə qalan yeknəsək icraçıları, sadə zəhmət adamlarını öz ətrafında birləşdirmək, səfərbər etmək və öz arxasınca aparmaq qabiliyyətinə malikdir. Sənaye dövründə dəyişiklikləri həyata keçirmiş ənənəvi insan qruplarından və təbəqələrindən fərqli olaraq kreativ qüvvələr öz tərkibinə, ifadə etdiyi maraq dairəsinə görə müxtəlif peşə sahiblərini, müxtəlif nəsillərin nümayəndələrini, müxtəlif dini etiqad nümayəndələrini özündə birləşdirir.Onların yaradıcı fəaliyyətinin hərəkətverici qüvvəsi ictimai maraq, bütövlükdə ölkənin mənafeyinə töhfə vermək, inkişafa, tərəqqiyə yardımçı olmaqdır.

Beləliklə, kreativ qüvvələrin cəmiyyətdəki roluna, cəmiyyət üzvlərinə münasibətlərinə, ideya, əxlaq, mənafe cəhətdən yanaşdıqda onların cəmiyyəti mütəşəkkilliyə, konstruktivizmə cəlb etmək potensialına malik olması aydın görünür. Ramiz Mehdiyev bunu nəzərdə tutaraq yazır ki, kreativ qüvvələr dünyada sosial inkişafın alternativsiz variantı olan sosial inteqrasiya və konsalidasiya, kreativ modernləşmə məqsədləri naminə kütlələri öz arxasınca aparma şərtlərini özündə ehtiva edir. Lakin bu fikrin real həyatda öz ifadəsini tapması-kreativ zümrənin cəmiyyətin sosial birliyinin təminatçısına çevrilməsi üçün dövlət biznes qurumları və vətəndaşlar arasında maraqlar balan-

sını tapmaq və onu təmin etmək üçün tədbirlər sistemi hazırlayıb həyata keçirilməlidir. Görünür, bütün bu keyfiyyətlərini nəzərə alaraq akademik Ramiz Mehdiyev yazır ki, kreativ insanlar millətin tərkibində nə qədər çox olarsa, kreativ zümrə nə qədər tez cəmiyyətin aparıcı qüvvəsinə çevrilərsə, millətin birləşməsi üçün də bir o qədər tez real şərait yaranır. Bu baxımdan "Kreativ zümrənin mövcudluğu bütün subyektləri harmonik qarşılıqlı əlaqədə və birbirindən asılılıqda olan XXI əsr cəmiyyətinin qurulmasının mühüm şərtidir. Cəmiyyətin kreativ islahatlar dövrünə daxil olması, kreativ qüvvələrin cəmiyyəti öz arxasınca aparmaq qabiliyyətinə malik olması hipoteziya deyil, tədricən əksəriyyət tərəfindən qəbul edilməkdə olan nəzəriyyə və real həyatda öz yerini tapmaqda olan praktikadır. Belə ki, cəmiyyətin kreativ islahatlar dövrünə daxil olması artıq elmi ictimaiyyət və əksər dövlət strukturları, siyasi strukturlar tərəfindən qəbul edilmişdir. Elmi tədqiqat işlərində, dövlət siyasətində yaradıcı təfəkkürə, kreativ qüvvələrə istinad olunması halları artır. Kreativ zümrənin mövcudluğu şəraitində kapital, təbii resurslar, əmək ehtiyatları, iqtisadi resurslar içərisində bilik daha mühüm rol oynamağa başlamış, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi kreativliyin rolu artmışdır".

Millətin tərkibində kreativ insanların sayının artmasının, onların yaradıcı fəaliyyətinin genişlənməsinin mühüm vasitələrindən biri informasiya kommunikasiya texnologiyalarının inkişafı və vətəndaşların gündəlik fəaliyyətində tətbiq edilməsidir. Əslində informasiya-kommunikasiya texnologiyalarının inkişafı postsənaye dövrünün simasını müəyyən edən və əvvəlki dövrdən fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Məhz informasiya-kommuni-

kasiya texnologiyalarının müasir cəmiyyət həyatında çox mühüm rol oynadığını nəzərə alaraq postsənaye dövrünün nəzəri metodoloji, fəlsəfi məsələlərinin tədqiqilə məşğul olan alimlər demokratik cəmiyyətin inkişafının yeni postsənaye dövrünü "informasiya cəmiyyəti"-açıq cəmiyyət adlandırmışlar (Zbiqnev Bjezinski, Frensis Fukyana və Daniel Böle). Artıq elmi ictimaiyyətdə bu sahə cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən mühüm infrastruktur sahəsi kimi qəbul edilmişdir. İnformasiya-kommunikasiya texnologiyaları bütün istehsal və xidmət sahələrinin daxili tərkib hissəsinə çevrilmişdir. Cəmiyyətin inkişafının tale yüklü qərarlarının qəbul edilməsində, insanların sosial həyatında və əmək fəaliyyətində informasiya-kommunikasiya texnologiyaları həlledici vasitəyə çevrilir. Dünyanın inkişaf etmiş dövlətləri bu sahənin inkişafına külli miqdarda maddi və maliyyə vəsaitləri sərf edirlər. Bunun əsas səbəbi informasiya-kommunikasiya texnologiyalarının yalnız cəmiyyət həyatında, iqtisadiyyatın inkişafında oynadığı rolda deyil, həm də iqtisadiyyatın səmərəli sahələrindən biri olmaqla iqtisadi artıma müsbət təsir etməsi və yüksək mənfəət verən təsərrüfat sahəsi olmasıdır.

Cəmiyyət həyatının bütün sahələrini modernləşdirmək, lazımi səviyyəyə çatdırmaq böyük təşkilatçılıq işi, maliyyə vəsaiti və vaxt tələb edir. Bu vəzifələr modernləşmə dövründə eynilə Respublikamızın qarşısına da çıxır.

Dünyanın inkişaf etmiş ölkələrində informasiya-kommunikasiya texnologiyalarının inkişafına yönəldilən maddi-maliyyə vəsaitləri və bu sahədən əldə olunan gəlirlər ilbəil artmaqdadır.İnformasiya-kommunikasiya texnologiyalarına yönəldilən investisiyanın sənayenin inkişafına yönəl-

dilən eyni miqdar investisiyaya nisbətən daha çox gəlir gətirdiyi artıq bu sahədə çalışan mütəxəssislər tərəfindən də etiraf olunmaqdadır.

Beləliklə, kreativlik, modernləşmə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə məhsul istehsalına, iqtisadi artıma təsir göstərən ən mühüm amilə çevrilir. Burada sərf olunan əlavə əmək və kapital daha çox səmərə verir, məhsuldarlığı daha çox artırır.

Kreativ insanlardan yenilikləri, texnologiyaları, ideyaları mümkün qədər tez mənimsəmək, vaxtlı-vaxtında optimal qərarlar qəbul etmək, öz ideya-təklif və tövsiyyələrini ehtiyac və ya tələb olunan yerlərə ötürmək tələb olunur. Lakin lazımi yardım, şərait olmadan bunları etmək mümkün deyil. Beləliklə, kreativlik, modernləşmə,informasiya-kommunikasiya texnologiyalarının inkişafı və praktikada geniş miqyasda istifadə olunması üçün əlverişli şərait lazımdır. Bu şəraitin təminatçısı isə müvafiq qurumlar və dövlətdir. Əlbəttə, bu sahədə mövqelər müxtəlif ola bilər. Hər halda bu dünyada gedən obyektiv proseselərlə yanaşı ölkənin vəziyyətindən də asılıdır.

Eyni zamanda kreativlik üçün ölkədə demokratik quruluşun mövcud olması da vacib deyil. Əsas şərt, fikrimizcə, modernləşmə üçün kifayət qədər maliyyə-iqtisadi imkanın, düzgün müstəqil siyasətin və böyük təşkilati qüvvənin (dövlətin dəstəkləməsi və təşkilatçılıq missiyasını öz üzərinə götürməsi) mövcud olmasıdır. Ramiz Mehdiyev Çin, Koreya Respublikası, Çili, Sinqapur, Malayziya dövlətlərinin müxtəlif siyasi şəraitə malik olmasına baxmayaraq 70-80-ci illərdən həyata keçirilən innovativ tədbirlər

nəticəsində yüksək inkişafa nail olduqlarını qeyd edir.[1]

Modernləşmənin mütləq xarici ideyalara, texnologiyalara əsaslanması fikri də inkar olunur. Akademik Ramiz Mehdiyev haqlı olaraq xüsusi vurğulayır ki, Sinqapur və Malayziyanın nümunəsi sübut edir ki, modernləşmənin ölkənin əsas milli dəyərlərinə və nailiyyətlərinə bağlı olması daha səmərəli və perspektivlidir. O yazır: "Modernləşmənin xarici-texnoloji nailiyyətlərin, özgə ideya və konsepsiyaların sadəcə tətbiqi olması fikrindən uzaqlaşmaq lazımdır. Hər bir dövlətin əsas nailiyyəti insan kapitalıdır və bu kapitalın hazırlanması da birinci növbədə həmin dövlətin yerli şəraiti nəzərə alınmaqla apardığı siyasətin məhsulu kimi formalaşır. Məhz buna görə də modernləşmə milli kadrlara, milli kreativ zümrəyə arxalanmalıdır. Modernləşmənin inkişafına təsir göstərən amillər hər bir ölkədə diqqətlə öyrənilməli, hər bir amilin təsir dərəcəsi və istiqamətləri müəyyənləşdirilməli və nəzərə alınmalıdır". Akademik Ramiz Mehdiyev kreativ iqtisadiyyatın inkişafına aşağıdakı amillərin təsir etdiyini göstərir: tələb, istehsal olunan məhsulun çoxçeşidliliyi, istehlakçıların gəlirlərinin səviyyəsi, biliklərin səmərəli tətbiqi üçün zəruri infrastruktur yaratmaq bacarığı, müvafiq vərdişlərin olması, ictimai sektorun inkişaf səviyyəsi, ictimai və dövlət təsisatlarının münasibəti, intellektual kapital, iri kommersiya qurumlarının, innovativ ali məktəblərin mövcudluğu.

Universitetlər təhsilin və istedadların inkişafının hərəkətverici qüvvəsidir. Bu intellektual kapitalın artırılması, innovasiyalar və yeni texnologiyalarla sıx bağlıdır. Təsadüfi deyil ki, israillilərin 45%-i universitet təhsili almışdır.

---

[1] Yenə orda , səh.124

Bu dünyada ən yüksək göstəricidir. Tayvanda məktəb məzunlarının 30%-dən çoxu universitet kolleclərinə daxil olur.

Dünya təcrübəsi göstərir ki, iri kommersiya strukturları kreativ biliklərin, ideyaların iqtisadiyyatın potensialına çevrilməsində mühüm rol oynayır. Lakin kiçik və orta firmalar da kreativ ideyaların hazırlanması və tətbiqində əhəmiyyətli rol oynaya bilər. "XXI əsrdə o ölkə lider olacaqdır ki, innovasiyaları həyata keçirir və özəl sektorda yeni ideyaların istehsalını daha səmərəli dəstəkləyir....Bununla yanaşı bütün ali təhsilli şəxslərdən kreativlik gözləmək olmaz. Kreativ şəxsiyyət çox güman ki, xüsusi sosial-psixoloji tipdir".[1] Fikrimizcə, kreativliyin əsas hissəsi mövcud şəraitdən yaransa da, onun bir hissəsi təbii keyfiyyətdir. Belə adamlar iradəli, dözümlü, mübariz, məqsədyönlü və fəal olmalıdırlar və yəqin ki, belə də olur. Cəmiyyətin inkişafını istəmək, cəmiyyətlə birlikdə inkişaf etmək, cəmiyətin inkişafı naminə öz ideyalarını reallaşdırmaq arzusu bu insanların fitrətən daxili tələbatıdır və bu tələbat az-çox ödənildikdə onlar rahatlıq tapırlar.

Belə adamları süni surətdə artırmaq olmaz. Cəmiyyətdə təhsil səviyyəsini yüksəltmək, insanları yeniyetmə çağlarında yaradıcı əməyə alışdırmaq, yaradıcı əməyi digər əmək formalarından fərqləndirmək və vaxtında stimullaşdırmaq, kreativ elitanı artırmağın və onların yaradıcı əməyini cəmiyyətin, çalışdığı kollektivin mənafeyinə yönəltməyin əsas yolu ola bilər.

Modernləşmə elitasının nümayəndələri yaradıcılıq qabiliyyəti, yaradıcılıq fəhminə malik olan, çətin şəraitdə

---

[1] Yenə orda, səh.123

belə düzgün qərarlar qəbul etməyi bacaran, daim yenilik axtarışında olub öz üzərində işləməyi bacaran insanlardır. "Əhalinin məhz bu hissəsi müasir dövrdə cəmiyyətin inkişafının və rifahının təməli ola bilər.[1] Bu zümrə ümumi maraqların hakimiyyət maraqları ilə üst-üstə düşdüyü mühitdə modernləşmənin, cəmiyyətin səmərəli inkişafının real subyekti ola bilər.

"Qlobal informasiya cəmiyyəti", yaxud açıq cəmiyyət bir və ya bir necə ölkə üçün deyil, bütün dünya üçün xarakterikdir. Sənaye cəmiyyətinin özünə məxsus təsisatları, siyasi sistemi və dövlət tənzimləmə sistemi olduğu kimi burada da özünəməxsus sosial və siyasi sistemlər formalaşmalıdır. Lakin hələlik bu problem diqqəti kifayət qədər cəlb etmir.

Akademik Ramiz Mehdiyev akademik Nikita Moiseyevə (Rusiya) istinad edərək informasiya cəmiyyətini belə xarakterizə edir: "İnformasiya cəmiyyəti-ümumi planetar sistem olub, bəşər övladının sonrakı mövcudluğu üçün tədricən yeni ictimai nöqtələri tapmağa imkan verən özünü inkişaf qabiliyyətinə malikdir. Lakin informasiya cəmiyyətinin müasir planetar cəmiyyətə alternativ olması üçün o təkcə kompüter texnikasının və rabitə vasitələrinin bütün nailiyyətlərinə əsaslanmayıb, həm də öz ictimai təsisatlarının strukturunu çox cəhətdən dəyişməlidir.[2]

O daha sonra İnformasiya cəmiyyətinin bərqərar olması-bifurkasiya-sivilizasiyanın əsaslarının və ictimai münasibətlərinin sosial təbiətinin keyfiyyətcə dəyişməsi xarakteri daşıyacağını qeyd edir. Fikrimizcə, bu növ yanaşma bizim yuxarıda qeyd etdiklərimizə uyğun olub demokratik

---

[1] Yenə orda, səh.123
[2] Yenə orda, səh.135

cəmiyyətin inkişafının yeni dövrünün (informasiya cəmiyyətinin) təkcə texniki, texnoloji və iqtisadi məsələlərində deyil, həm də siyasi və sosial sistemə xas olan məsələlərində əmələ gəlməsi vacib olan dəyişikliklərin (təkmilləşdirmələrin) şərh edilməsinin vacibliyini göstərir. Bu məsələ həm də ona görə vacibdir ki, demokratik cəmiyyətə aid aparılmış tədqiqatlarda bu cəmiyyətin inkişaf dövrlərini yalnız iqtisadiyyatın hansı sahəsinin (Aqrar-kənd təsərrüfatı, sənaye, post sənaye və ya xidmət sahələrinin (informasiya-kommunikasiya texnologiyalarının) bəşəriyyətin inkişafında aparıcı rol oynaması baxımından səciyyələndirirlər. Hər dövrdə cəmiyyətin siyasi və idarəetmə sistemində, sosial sferada baş vermiş əsaslı dəyişiklikləri nəzərə almırlar. Bu baxımdan informasiya-kommunikasiya texnologiyalarının inkişafı nəticəsində cəmiyyətin siyasi təsisatlarında, idarəetmə, bölgü və mənimsəmə sistemində, sosial sistemdə baş verə bilməsi vacib olan dəyişiklikləri də nəzərə almaq vacibdir. Bu istiqamətdə akademik Moiseyev irəliyə doğru çox mühüm bir addım atmışdır və bu addımın bu gün Qərbi Avropa ölkələrində yaranmış böhranlı vəziyyətin aradan qaldırılması üçün də əhəmiyyəti vardır.

Postsənaye dövründə təkcə savadlı, bacarıqlı mütəxəssislərə malik olmaq dünyada qabaqcıl mövqe tutmaq üçün kifayət etmir. Kifayət qədər maliyyə imkanları, mütərəqqi elmi və texniki yeniliklər irəli sürən və onu reallaşdırmağa qabil olan dövlətlər dünyada qabaqcıl mövqe, bazarlarda layiqli yer tuturlar.

Kreativ zümrənin formalaşması cəmiyyətin, iqtisadiyyatın modernləşməsinin, əhalinin əmək aktivliyinin artmasının mühüm şərtidir. Burada ikili cəhət özünü göstərir: bir tərəfdə intellektual əməklə məşğul olanlar (alim, mü-

həndis, arxitektor, dizayner və i.a.) qrupu formalaşır. Burada isə texniki-texnoloji yenilikləri, informasiya-kommunikasiya texnologiyalarını yaradanlar öndə gedirlər. Onlar iqtisadiyyatın inkişaf istiqamətinə güclü surətdə təsir edir. Bu elmi texniki-texnoloji yenilikləri yaradanlar və onu praktikada yaradıcı formada reallaşdıranlar cəmiyyətin kreativ zümrəsini təşkil edir. Bu kreativ zümrənin əhali içərisində xüsusi çəkisi, nüfuzu, cəmiyyətə təsir dairəsi artdıqca bütövlükdə xalqın, millətin yaradıcı qabiliyyəti də yüksəlir.

Modernləşmənin əsas təşəbbüskarı, subyekti, sifarişçisi və təşkiltçısı dövlətdir. Burada istehsal kollektivləri, elm və təhsil işçiləri və i.a. əsas icraçı rolunu yerinə yetirirlər. Məhz dövlətin təşkilatçılığı, təşəbbüsü ilə dünyanın bir çox dövlətlərində innovasiyalı inkişaf müvəffəqiyyətlə həyata keçirilir. MDB üzvü olan gənc müstəqil dövlətlərdən Qazaxıstan developmentalizm modernləşmə (dövlətin təşəbbüsü və təşkilatçılığına əsaslanan modernləşmə konsepsiyasına qoşulmuş və dövlət modernləşmə siyasətinin ətrafında və dövlət aparatının rəhbərliyi altında siyasi təşkilatlar, elm-təhsil nümayəndələri səylərini birləşdirmişlər ki, bu da müsbət nəticələr verir. Ümumiyyətlə, modernləşmə sahəsində dövlətin təşəbbüskralığı, sifarişi o halda müsbət nəticələr verir ki, bu səylər yaradıcı qüvvələrin (alimlərin, yaradıcı gənclərin, layihə işçiləri, təhsil işçiləri, sahibkarların və i.a.) təşəbbüskarlığı və imkan olan hallarda subyekti kimi fəaliyyəti ilə birləşdirilsin. Beləliklə, modernləşmə sahəsində dövlət və digər yaradıcı qüvvələr bu işdə eyni dərəcədə maraqları olan tərəf müqabilinə çevrilsinlər.

# *II HİSSƏ. XX ƏSRİN 70-80-ci İLLƏRİNDƏ VƏ AZƏRBAYCANIN DEMOKRATİK CƏMİYYƏTƏ KEÇİD DÖVRÜNDƏ HEYDƏR ƏLİYEVİN İQTİSADİ İNKİŞAF SİYASƏTİ*

## II.1. Heydər Əliyev siyasətinin ona həmişəyaşarlıq bəxş edən əsas keyfiyyətləri

Heydər Əliyev siyasəti, onun tarixi nailiyyətləri haqqında çox yazılmış, müdrik fikirlər irəli sürülmüşdür. Şübhə yoxdur ki, bundan sonra da yazılacaq, fikirlər söyləniləcəkdir. Hər dəfə bu siyasətə uğurlar qazandıran yeni keyfiyyətlər aşkara çıxarılacaqdır.

Ulu öndərin anadan olmasının 90 illik yubileyi bir azərbaycanlı ziyalı, bir vətəndaş, alim kimi mənim üçün də çox əlamətdardır. Keçən 40 ildən artıq müddətdə (istər 70-80-ci illərdə, itərsə də sonrakı illərdə) biz nisbətən yaşlı nəsil Heydər Əliyev siyasətinin cahanşümul qələbələr qazanmasının şahidi olmuşuq. Eyni zamanda xüsusilə, Respublikamızın müstəqilliyi illərində öz yaradıcılığımın əsas hissəsini ölkəmizdə yeridilmiş sosial-iqtisadi inkişaf siyasətinin elmi təhlilinə, əldə etdiyimiz nailiyyətlərin təbliğinə həsr etmiş bir vətəndaş, bir alim kimi qəti qənaətim belədir ki, Heydər Əliyevin Respublikamıza rəhbərliyi dövründə əldə etdiyimiz böyük nailiyyətlərin də, onun özünün dünya miqyasında nadir şəxsiyyət, görkəmli dövlət xadimi, siyasi lider kimi tanınmasının və qəbul edilməsinin də əsas mənbəyi onun yeritdiyi siyasət olmuşdur.

Müasir dövrdə Heydər Əliyev siyasətini yeni formalarda davam və inkişaf etdirmək onun layiqli varisi Prezident İlham Əliyevə də böyük müvəffəqiyyət qazandır-

mışdır. Bu siyasət ölkəmizin ildən-ilə sürətli inkişafına səbəb olur və dünyanın inkişaf etmiş dövlətləri arasında öz layiqli yerini tutmasına doğru aparır.

İstər-istəməz qarşıya belə bir sual çıxır: Heydər Əliyev siyasəti hansı keyfiyyətlərə malikdir ki, o bu keyfiyyətləri ilə ən çətin anlarda xalqı, ölkəni düşdüyü çətin vəziyyətlərdən xilas etmiş, böyük inkişaf yoluna çıxartmış və bununla da Heydər Əliyevə və onun siyasətinə ölməzlik, əbədi yaşamaq hüququ qazandırmışdır. Ümumiyyətlə, sahibinə qələbələr qazandırıb, hörmət, nüfuz gətirən siyasət hansı keyfiyyətlərə malik olmalıdır?

Əlbəttə, bu suallara ətraflı və əsaslandırılmış cavablar vermək üçün geniş tədqiqat aparmaq vacibdir. Biz isə imkanımız daxilində bu keyfiyyətlərin bu əsərdə nəzərə çarpan əsas bildiyimiz bir çoxunu ümumi nəzəri-metodoloji səpkidə şərh etməyə və ümumiləşdirməyə çalışacığıq. ***Eyni zamanda qeyd etməyi vacib bilirik ki, bu sualların ən aydın və düzgün cavabları Heydər Əliyevin siyasətində öz əksini tapmışdır. Əgər bu cavabları qısa formada ifadə etmək mümkün olsa, onda mən deyərdim: öz xalqını sevmək, onun bütün sahələrdə inkişafına xidmət etmək arzusu, istəyi və bu arzunun, istəyin siyasətin bütün cəhətlərində öz ifadəsini tapması Heydər Əliyev siyasətinə böyük uğurlar qazandıran ən mühüm keyfiyyətlərdir.***

Adətən dövlət başçılarının, görkəmli siyasi liderlərin bütün insani keyfiyyətləri, onları geniş miqyaslı fəaliyyətə sövq edən arzu və istəkləri özlərinin siyasətində təzahür edir. Onlar siyasətdən cəmiyyətlə bağlı öz amal, istək və arzularını həyata keçirmək üçün qüdrətli bir vasitə kimi istifadə edirlər. Lakin siyasətin düzgünlüyünü müəyyən edən hakim siyasətçi özü deyil, zamandır, tarixdir. O həm

siyasətin müəyyən edilməsinə hökm verir, həm də icrasının düzgünlüyünə aid son qərarı qəbul edir. Beləliklə, son nəticədə dövlət başçısının, siyasi liderin bu siyasətində ifadə olunan arzuları, istəkləri ya zamanın sınaqlarından keçərək öz düzgünlüyünə haqq qazandırır, cəmiyyətin tərəqqisinə, inkişafına nail olunur, onun müəllifi isə nüfuz, müvəffəqiyyət qazanır, ya da zaman, tarix bu siyasəti qəbul etmir, siyasətçi özü də məğlub olub, siyasətin həyat səhnəsini tərk etməli olur.

Bugünlərdə anadan olmasının 90 illik yubileyini Azərbaycan xalqının böyük fərəh və minnətdarlıq hissilə qeyd etdiyi ümummilli liderimiz Heydər Əliyevin insani keyfiyyətlərinə, həyat amallarına və siyasətinə bir vəhdət halında yanaşdıqda onun ulu Tanrının xalqımıza, bütün türk dünyasına bəxş etdiyi nadir şəxsiyyət, xalqını, dövlətini və vətənini hədsiz dərəcədə sevən, ömrünün mənasını onlara sədaqətlə xidmətdə görən və bunu öz siyasətində həyata keçirən müdrik bir insan, dünya miqyaslı bir dövlət xadimi və siyasi lider kimi böyüklüyü daha aydın görünür. Bu xüsusiyyətlərin bir-birini qarşılıqlı surətdə tamamlaması dərhal diqqəti cəlb edir. Heydər Əliyevin şəxsiyyətinin, həyat və fəaliyyətinin əhəmiyyəti, təsir dairəsi onun özünün yaşadığı dövrdən və Azərbaycanın sərhədlərindən çox-çox kənara çıxır, daha böyük və əhatəli əhəmiyyət kəsb edir.

Onun həyatı və fəaliyyəti narahatlıq, axtarış, vətənə, xalqa bağlılıq, işgüzarlıq, cəsarətlilik, dözümlülük, fədakarlıq, təşəbbüskarlıq, uzaqgörənlik, qayğıkeşlik və tələbkarlığın bir insanda üzvü surətdə birləşməsinin parlaq nümunəsidir. Heydər Əliyevin bütün bu insani keyfiyyətləri, xalqa bağlılığı və xalqa xidmət etmək istəyi onun

həm XX əsrin 70-80-ci illərində, həm də müstəqillik illərində yeritdiyi siyasətdə təzahür etmişdir.

Əgər siyasətin dövlət başçılarının, hökmüdarların, görkəmli siyasi liderlərin cəmiyyətlə bağlı öz arzu, istək və amallarını həyata keçirmək vasitəsi olması fikrilə razılaşsaq, onda bu amalların, istək və arzuların reallığının, xalqın istək və arzuları ilə üst-üstə düşməsinin siyasətin düzgünlüyünün və qələbələr qazandırmasının ilkin şərti olduğunu və bu cəhətdən Heydər Əliyevin əvəzsiz bir siyasətçi olduğunu qəbul etməliyik.

Heydər Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan onun ürəyidir, canıdır, azərbaycanlı olması ilə fəxr edir. Öz xalqının istək və arzularına, Azərbaycanın tərəqqisinə xidmət etmək onun əsas amalıdır. Azərbaycanın müstəqilliyi, müstəqil inkişafı üçün mübarizədə heç kimdən, heç nədən qorxmur, əgər tələb olunarsa, Azərbaycanın müstəqilliyi, müstəqil inkişafı uğrunda mübarizədə bütün həyatını, hətta övladlarını belə qurban verməyə hazırdır. Lakin onun görkəmli bir dövlət xadimi, siyasi lider kimi amalları ömrünün son vaxtlarında-2003-cü il oktyabr ayının birində Azərbaycan xalqına müraciətində öz ifadəsini daha aydın tapmışdır. Bu, bizim fikrimizcə, onun xalqımıza son müraciəti olmaqdan başqa, həm də ölkəni, xalqı idarə etmək məsuliyyətini öz üzərinə götürmək istəyənlərə bir növ vəsiyyəti, məsləhəti və müraciəti idi. Heydər Əliyev üzünü bütün ömrünü həsr etmiş olduğu xalqına tutaraq demişdir: "Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım

yalnız sizə-bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi, yalnız müdrik və qədirbilən xalqımdan almışım. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yanız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Beləliklə, öz xalqını istəmək, ona xidmət etmək, ən çətin anlarda ona sadiq olmaq və ona arxalanmaq, siyasətdə xalqın istək və arzularını ifadə etmək siyasətin düzgünlüyünün və qələbəni təmin etməsinin çox vacib və ümumi şərtidir. Bu keyfiyyət Heydər Əliyev siyasətində çox güclü surətdə təzahür etmişdir.

Lakin burada bir sual meydana çıxır: siz xalqı, vətəni sevirsiniz, ona arxalanırsınız, siyasətiniz də xalqın istəyinə, mənafeyinə uyğundur. Bəs vətən, xalq necə, sizi başa düşür, sevir, inanır və arxalanırmı?

Heydər Əliyev siyasətinin ona uğurlar qazandıran ***ikinci mühüm xüsusiyyəti*** öz siyasətinin doğruluğuna, cəmiyyətin mənafeyinə yönəlmiş olmasına xalqı inandırmaq və onun icrası üçün səfərbər etmək qabiliyyətinə malik olmasıdır.

Heydər Əliyev hamıdan və hər kəsdən yaxşı başa düşürdü ki, xalqı sevmək olar, ölkənin, xalqın inkişafı üçün real məqsəd və vəzifələr qarşıya qoymaq, xalqın mənafeyinə yönəlmiş planlar, proqramlar qəbul etmək olar. Planı, proqramı, ideyanı, siyasəti yuxarılar və onların sərəncamında olan mütəxəssislər, elmi qüvvələr hazırlayır. Onun icraçısı isə xalqdır, ixtisaslı, ixtisassız sadə zəhmət adamlarıdır. Əgər xalq dövlətin, rəhbərin siyasətini, məqsəd və vəzifələrini, plan və proqramlarını dərk etmir, dəstəkləmir

və onun icrası üçün şüurlu surətdə səfərbər olunmursa, həmin planlar, proqramlar kağız üzərində qalıb sonda rəhbərə də, xalqa da ziyan verən bir sənədə çevriləcək, rəhbərin xalq qarşısında öz nüfuzunu itirməsinə səbəb olacaqdır.

Heydər Əliyev siyasətinin reallaşması üçün belə bir həqiqət əldə rəhbər tutulur ki, siyasət xalqın, millətin fəaliyyətini onun qarşısında duran problemlərin həllinə səfərbər etmək məqsədi güdür. Odur ki, siyasətin kütlə üçün aydın, başadüşülən, səfərbəredici olması və kütləyə çatdırılması olduqca vacibdir və onun həyata keçirilməsinin ən vacib şərtidir. Məhz bu səbəbdən Heydər Əliyev tez-tez Respublikanın rayonlarına, şəhərlərinə səfərlər edir, rayon rəhbərlərini, təsərrüfat işçilərini bir araya gətirərək zona müşavirələrində müzakirələr keçirirdi. Bu tədbirlərdə regionda olan problemlər aşkara çıxarılır və onların həlli üçün lazımi təşkilati, maliyyə-iqtisadi tədbirlər həyata keçirilirdi. Heydər Əliyev bu səfərlər zamanı sadə zəhmət adamları ilə görüşür, onların həyat, əmək və məişət şəraitilə tanış olur. Bütün bunlardan çıxarılan nəticələr sonrakı dövrdə düzgün siyasətin formalaşması və həyata keçirilməsində mühüm rol oynayırdı.

Heydər Əliyev siyasətinin ***üçüncü mühüm cəhəti*** bu siyasətin öz mayasını və ideya istiqamətini obyektiv reallıqdan olması, hərtərəfli təhlil əsasında obyektiv reallığın bütün çalarlarının dərindən dərk olunmasına və obyektiv qiymətləndirilməsinə əsaslanması, həmin real şəraitin məqsədyönlü surətdə dəyişdirilməsinə yönəlməsidir. Başqa sözlə, hər hansı şəraitdə, hər hansı mərhələdə öz siyasətini, onun məqsəd və vəzifələrini müəyyən etmək üçün əvvəlcə keçilmiş yola nəzər salır, yaranmış vəziyyəti, daxili və xarici şəraiti, əldə olunmuş nailiyyətləri və ya uğursuz-

luqları, onların səbəblərini ətraflı təhlil edir, obyektiv nəticələr çıxarılır, yaranmış vəziyyət obyektiv qiymətləndirilir, sonra qarşıda duran vəzifələr və onların yerinə yetirilməsi yolları müəyyənləşdirilir. Bu baxımdan istər 70-80-ci illərdə, istərsə də müstəqillik illərində keçilən yolda Heydər Əliyev siyasətinin qarşılaşdığı çətinlikləri də hər bir konkret şəraitdə mövcud vəziyyəti obyektiv qiymətləndirmək, düzgün qərarlar qəbul etmək və müvafiq icra mexanizmləri seçməklə hər cür çətinliyə qalib gələrək əldə etdiyi böyük nailiyyətləri də görməməyə haqqımız yoxdur.

Heydər Əliyev siyasətinin, ona qələbələr gətirən ***dördüncü mühüm xüsusiyyəti*** onun çevik xarakter daşımasıdır. Bu siyasət bir tərəfdən özünün başlandığı vaxt mövcud olan şəraitin tələbatından yaranır, həmin şəraitə uyğunlaşır, digər tərəfdən bu şəraiti məqsədyönlü surətdə dəyişməyə yönəlir. Şərait dəyişdikcə, siyasət də dəyişir və yeni şəraitin tələblərinə uyğunlaşır. Şəraitin dəyişdiyini, qarşıya yeni vəzifələr çıxdığını hamıdan, hər kəsdən yaxşı görərək, özü də mərhələ-mərhələ dəyişir və yeni şəraitin tələblərinə uyğunlaşır, qarşıya çıxan yeni vəzifələrin yerinə yetirilməsini öz siyasətinin hədəfinə çevirir.

***Heydər Əliyev siyasətinə uğurlar qazandıran ən mühüm keyfiyyətlərdən biri onun siyasətinin Azərbaycanın böyük inkişaf imkanlarına malik olunmasına möhkəm inam üzərində qurulmasıdır.*** Hələ 70-80-ci illərdə o, İttifaq hökumətinin yaratdığı maliyyə-iqtisadi məhdudiyyətlərə baxmayaraq Respublikamızın əlverişli coğrafi mövqeyinin, kifayət qədər kadr, elmi-texniki potensialının, təbii resurslarının, əlverişli torpaq-iqlim şəraitinin olmasını perspektiv inkişafın mühüm amilləri kimi qiymətləndirirdi.

***Heydər Əliyev siyasətinin başqa mühüm xüsusiyyəti***

daxili və xarici siyasətin vəhdətdə götürülməsi, düzgün əlaqələndirilməsi, əlverişli xarici mühitdən ölkənin daxili problemlərinin həlli üçün səmərəli istifadə olunmasıdır.

***Heydər Əliyev siyasəti elmə əsaslanırdı.*** 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir az sonra o, AMEA-nın görkəmli alimlərilə görüşmüş, alimlərin əməyinin təşkilinin təkmilləşməsi, elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması, samballı, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələrin hazırlanması və təcrübədə istifadə olunmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur. Alimlərin yaradıcı düşüncələrindən istifadə etmək üçün Heydər Əliyevin rəhbərliyi dövründə alimlərin böyük əksəriyyəti müxtəlif dövlət əhəmiyyətli komissiyalara cəlb olunur, iqtisadiyyatın planlaşdırılmasında, dövlət siyasətinin, məqsədli Dövlət Proqramlarının hazırlanmasında fəal iştirak edirdilər.

- ***Heydər Əliyevin iqtisadi siyasəti*** hər kəsin, xüsusilə dövlət məmurlarının, partiya işçilərinin öz vəzifə borclarının, dövlət plan tapşırıqlarının, tapşırılan hər hansı işin yerinə yetirilməsi üçün məsuliyyət daşıması, hesabatlılıq, cavabdehlik prinsipi üzərində qurulmuşdu.

- ***Heydər Əliyev siyasəti qarşıya aydın, elmi cəhətdən*** əsaslandırılmış uzun və qısa müddətli məqsədlər qoyması və onun reallaşması üçün müvafiq düzgün üsul və vasitələr seçməsilə diqqəti cəlb edir. Strateji məqsədləri dəyişmədən konkret cari məqsəd və vəzifələr dəyişir və mövcud şəraitin tələblərinə uyğunlaşdırılır.

- ***Heydər Əliyev siyasəti qarşıya qoyulan vəzifə və*** məqsədlərin ardıcıllığı, bir-birini qarşılıqlı surətdə tamamlaması, mürəkkəb hadisə və proseslər içərisində həlledici

həlqənin tapılması və onun inkişafının ön plana çəkilməsilə bütövlükdə ölkə miqyasında iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı ilə əlaqədar problemlərin həllinə şərait yaratmaq qabiliyyətilə diqqəti cəlb edir. Belə bir cəhəti xatırlamaq kifayətdir ki, Heydər Əliyev 1969-cu ildə Azərb. KP MK-nın birinci katibi işlədiyi dövrdə Respublkanın iqtisadiyyatını tənəzzüldən çıxarmaq üçün qeyri-neft sektorunun sürətli və səmərəli inikşafını ön plana çəkmişdi. Müstəqillik bərpa olunandan sonra Respublikaya rəhbərlik edərkən bütünlükdə iqtisadiyatı böhrandan çıxarmaq və bazar iqtisadiyyatına keçmək üçün neft hasilatının artması və neft sənayesinin inkişafını ön plana çəkmişdir.

- ***Heydər Əliyev siyasəti əvvəldən sonadək*** ümumxalq mənafeyinin milli mənafe ilə sıx əlaqədə müdafiəsinə və reallaşdırılmasına yönəldilmişdir. Bu səbəbdən əhalinin böyük əksəriyyətinin bu siyasəti müdafiə edəcəyinə möhkəm inam üzərində qurulur. Bu inam onun rəhbər olduğu bütün illərdə özünü doğrultmuşdur. Belə ki, vaxtında təşkiledici, səfərbəredici və tənzimləyici tədbirlər həyata keçirməklə bu mənafelərin reallaşmasına nail olunurdu.

- ***Heydər Əliyev siyasətinin uğurlar qazanmasında*** varislik prinsipinə əməl olunması, hadisə və proseslərə tarixi səpkidə yanaşılması, keçmişdə əldə olunmuş nailiyyətlərə hörmətlə yanaşılması və digər bu xarakterli amillər də mühüm rol oynamışdır.

## II.2. XX əsrin 70-80-ci illərində Heydər Əliyevin iqtisadi inkişaf siyasəti: əsas nəticələri və onun Azərbaycanın müstəqil inkişafı üçün əhəmiyyəti

Siyasət zamanın tələbindən yarandığına görə zaman dəyişdikcə siyasət də, onun həyata keçirilməsinin üsul və vasitələri də dəyişir, yeni forma və məzmun alır. Heydər Əliyevin müxtəlif illərdə Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasət də belədir. Zaman keçdikcə bu siyasət dəyişmiş, öz qarşısına yeni məqsəd və vəzifələr qoymuş, bunların icrası üçün yeni üsul və vasitələrdən istifadə olunmuşdur. Lakin bu siyasət ayrı-ayrı zaman kəsiyində nə qədər dəyişsə, yeni forma və məzmun alsa da Heydər Əliyevin 70-80-ci illərdəki iqtisadi siyasətinin amalları onun təməlində müstəsna yer tutur və gələcəkdə də tutacaqdır.

Heydər Əliyev rəhbər vəzifələr tutduğu bütün dövrlərdə öz xalqına ləyaqətlə xidmət etmək nümunəsi və yüksək təşkilatçılıq qabiliyyətinə malik olduğunu göstərmişdir. Lakin onun böyük təsərrüf təşkilatçısı, siyasi lider və dövlət xadimi olması, xalqı öz ətrafında birləşdirmək sahəsində fitri istedadı məhz Azərb. KP MK-nın rəhbəri olduğu 70-80-ci illərdə özünü bütün aydınlığı ilə göstərmişdir.

Keçən əsrin 70-80-ci illərində bu böyük insan ardıcıl olaraq Respublikamızın sürətli sosial-iqtisadi inkişafı, xüsusilə də iqtisadiyyatın sürətli inkişafı və səmərəli yerləşdirilməsi siyasətini yeritmiş, şəhər və kəndlərin inkişafına böyük qayğı göstərmişdir.

70-80-ci illərdə Heydər Əliyevin iqtisadi siyasətinin ana xəttini qeyri-neft sektorunun çoxşaxəli, sürətli və səmərəli inkişafı təşkil etmiş, eyni zamanda həmin sahələrə aid müəssisələr əsasən perspektivli kiçik və orta şəhərlərdə

yerləşdirilmişdir. Məlumdur ki, qeyri-neft sektorunun çoxşaxəli, səmərəli inkişaf etdirilməsi, emal sənayesinə aid müəssisələrin kiçik və orta şəhərlərdə yerləşdirilməsi müasir dövrdə Respublikamızda iqtisadi siyasətin prioritet istiqamətini təşkil edir. Odur ki, müasir dövrdə ümummilli liderimizin 70-80-ci illərdəki iqtisadi siyasətinin, bu siyasəti reallaşdırmaq üçün istifadə etdiyi üsul və vasitələrin öyrənilməsi həm nəzəri-metodoloji, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Azərbaycanın zəngin təbii sərvətləri, əlverişli torpaq-iqlim şəraiti Asiya və Avropa qitələri arasında əlverişli coğrafi mövqeyi, bütün təsərrüfat sahələrində işləməyə meyilli əməksevər əhalisi hələ uzaq keçmişdə burada iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusilə sənayenin yaranması və inkişafına səbəb olmuşdur. Lakin müxtəlif dövrlərdə Azərbaycan iqtisadiyyatının inkişafı müxtəlif səviyyələrdə olmuşdur. Bəzən yaranmış əlverişli şəraitdən asılı olaraq iqtisadiyyat sürətlə inkişaf etmiş, səmərəliliyi artmışdır, bəzən əksinə inkiaşaf sürəti zəifləmiş, tənəzzül, durğunluq dövrü olmuşdur.

1969-cu il iyul ayının 14-də - Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildiyi vaxt Respublikamız iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində idi. Əvvəlki illərdə öz nefti ilə SSRİ iqtisadiyyatında liderlik mövqeyinə malik olmuş Respublika bu mövqeyini itirdikdən sonra SSRİ hökumətinin diqqətindən kənarda qalmışdı. İqtisadiyyatın digər sahələrinin (qeyri-neft sektorunun) inkişafına keçid lazımi səviyyədə və sürətlə təmin edilmədiyindən onun bütün sahələrində inkişaf sürəti kəskin suratdə aşağı düşmüşdü. Sənayenin strukturunda enerji, fond və xammal tutumlu sahələr üstünlük

təşkil etdiyindən və texniki bazası köhnə olduğundan səmərəliliyi aşağı idi.

Nəticədə Azərbaycan milli gəlirin artım sürətinə və adambaşına düşən milli gəlirə görə SSRİ-nin orta göstəricisindən (1960-cı ilə nisbətən 1970-ci ildə SSRİ-də milli gəlir 2,0 dəfə, müttəfiq respublikaların bir çoxunda 2,2-dən 2,4 dəfəyə qədər, Azərbaycanda isə, 1,6 dəfə artmışdır) geri qalır, bu göstəricilərə görə müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. İqtisadiyyatın əsas sahələri olan sənaye və kənd təsərrüfatında bu gerilik özünü daha qabarıq surətdə göstərirdi. 1960-1969-cu illərdə Respublikada ümumi sənaye məhsulu 78% artmışdı və bu göstəriciyə görə müttəfiq respublikalar arasında axırıncı yer tuturdu. 1966-1969-cu illərdə bu gerilik daha da artmışdı (bu müddətdə sənaye məhsulu SSRİ-də orta hesabla 39%, Azərbaycanda 26% artmışdı). Azərbaycanın bəzi iqtisadi rayonlarında 60-cı illərin birinci yarısında sənayenin inkişafı demək olar ki, dayanmışdı. Misal üçün, 1960-cı ilə nisbətən 1965-ci ildə SSRİ-də sənaye məhsulu 65%, Azərbaycanda 41%, Naxçıvan MR-də isə cəmi 8% artmışdı.[1]

---

[1] Bu paraqrafı yazmaq üçün istifadə edilmiş əsas mənbələr: H.Ə.Əliyev. Sov KP MK iyul (1970-ci il) plenumu. Azərbaycan SSR-də kənd təsərrüfatını daha da inkişaf etdirmək vəzifələri. Bakı-1970 (1970-ci il avqustun 11-də Azərbaycan KP MK pleniumunda Azərb. KP MK-nın birinci katibi Heydər Əliyevin məruzəsi); 1976-80-ci illərdə Respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-sı təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində Sov. İKP MK-nın qərarlarını yerinə yetirmək sahəsində Respublika partiya təşkilatının vəzifələri haqqında Azərb. KP MK-nın 1976-cı il oktyabrın 18-də keçirilmiş plenumunun materialları, Azərnəşr 1976; Народное хозяйство Азербайджанской ССР в 1970 г. стат.ежегодник. Аз. гос. издательство, Баку 1971г.; Народное хозяйство Азербайджанской ССР в 1985 г. Статистический ежегодник. Баку-1986 г.; Народное хозяйство Азербайджанской ССР в 1987 г. , Аз. гос. Издательство, Баку 1988г.;

SSRİ rəhbərliyinin o vaxt etiraf etdiyi kimi, bu göstərici müttəfiq və muxtar milli dövlət qurumları arasında ən aşağı göstərici idi. Respublikamızda bir çox İttifaq əhəmiyyətli müəssisələrin vaxtında tikilib istifadəyə verilməməsi, ildən-ilə keçirilməsi adət halını almışdı. Şirvan (Əli Bayramlı )şəhərindəki Avropada ilk və ən böyük açıq tipli istilik elektrik stansiyası, pambıq çiyidindən yağ çəkmə zavodu, Gəncə Alüminium Zavodu və i.a. bunlara misal ola bilər. Sənayedə tarixən yaranmış və 60-cı illərdə daha da kəskinləşmiş əsas çatışmazlıq onda idi ki, Azərbaycanda bir qayda olaraq çox fond və kapital tutumlu, lakin az fond verimli sənaye sahələri inkişaf edirdi. Zənnimcə, belə bir faktı göstərmək kifayətdir ki, 1969-cu ildə Azərbaycanda sənayenin əsas istehsal fondlarının 70 %-i, istehsal olunan məhsulun isə cəmi 40%-ə qədəri yanacaq-energetika, metallurgiya və kimya sənayesi sahələrinin, o cümlədən sənaye məhsulunun 22%-ni verən yanacaq sənayesi sənayeyə bütün kapital qoyuluşunun 50%-ni özündə cəmləşdirmişdi.

Kənd təsərrüfatında gerilik daha çox özünü göstərirdi. Taxıl, pambıq, üzüm, kartof, bostan-tərəvəz məhsulları istehsalında məhsuldarlıq müttəfiq respublikaların çoxundan geri qalırdı. Bir çox əsas kənd təsərrüfatı məhsulunun istehsal həcmi, həm də məhsuldarlıq 1969-cu ildə 1960-cı ilə nisbətən azalmışdı. Məhsuldarlıq – taxıl istehsalında 10,4 sentnerdən 9,5 sentnerə, pambıq 16,6-dan 15,1 sentnerə, cəmi pambıq istehsalı 366 min tondan 299 min tona düşmüşdü. İstehsal olunan məhsulların keyfiyyəti aşağı idi.

---

Azərbaycanın sənaye müəssisələrinin 90 %-ə qədəri İttifaq əhəmiyyətli olmasına baxmayaraq, buraxılan məhsulun təqribən bir faizə qədəri keyfiyyət nişanı almışdı.

Məhsuldar qüvvələrin yerləşməsinin yaxşılaşması sahəsində xeyli müvəffəqiyyət qazanılmasına baxmayaraq regionların əksəriyyətində sənayenin nisbətən sürətli inkişafı kifayət qədər təmin edilmirdi, nəticədə Abşeron iqtisadi rayonunun respublika sənaye məhsulu istehsalında xüsusi çəkisi 55 il ərzində cəmi 18,6% azalaraq 1913-cü ildəki 91,4%-dən 72,8%-ə düşmüşdü. Bakı şəhəri sənaye məhsulunun ərazi təmərküzləşməsinə görə dünyada nadir şəhərlərdən biri olaraq qalırdı. Neft sənayesi sənayeyə kapital qoyuluşunun əsas hissəsini özünə cəlb etməklə iqtisadiyyatın digər sahələrində maliyyə çatışmamazlığı yaradır, nəticə etibarı ilə qeyri neft sektorunun inkişafını ləngidən amillərdən birinə çevrilmişdi. Neft maşınqayırması və neft emalı zavodlarının maddi-texniki bazası köhnə idi, 30-40-cı illərdən qalmış texnologiya əsasında işləyirdi, neftin emalından sayca nisbətən az məhsullar alınırdı və keyfiyyəti aşağı idi. Neftayırma qurğuları fiziki və mənəvi cəhətdən köhnəlmişdi, açıq rəngli neft məhsulları istehsalı az, keyfiyyəti aşağı idi.

Beləliklə, ölkə iqtisadiyyatının bütün sahələrində gerilik yaranmışdı, Respublikanın SSRİ iqtisadiyyatında mövqeyi itirilmişdi, əmək intizamı zəifləmiş, dövlət plan tapşırıqlarının yerinə yetirilməsi qarşısında məsuliyyət hissi azalmışdı. Inzibati rayonlarda və kəndlərdə işsizlik artmaqda idi. Respublikada istehsalın sürətli və səmərəli inkişafı üçün böyük imkanların olmasına əhalinin inamı azalmışdı.

Respublikada yaranmış sosial-iqtisadi durum Heydər Əliyevin təşəbbüsü ilə və rəhbərliyi altında hərtərəfli təhlil olundu. Respublikanın imkanlarını və mənafeyini nəzərə almaqla geriliyin səbəbləri aşkara çıxarıldı. Onların aradan qaldırılması, iqtisadiyyatın hərtərəfli inkişafı və əhalinin həyat səviyyəsinin yüksəlməsi üçün əvvəlki dövrlərdə olduğundan tamamilə fərqlənən, prinsip etibarilə yeni inkişaf strategiyası və müvafiq proqramlar işlənib hazırlandı və onların mərhələ-mərhələ yerinə yetirilməsi yolları müəyyənləşdirildi.

Aparılan təhlil göstərir ki, 1970-1985-ci illərdə qarşıya qoyulan vəzifələrin xarakteri baxımından iki mərhələ bir-birindən xeyli fərqlənir:

1970-1975-ci illəri əhatə edən ***birinci mərhələdə*** iqtisadiyyatın bütün sahələrində mövcud potensialı hərəkətə gətirmək və ondan səmərəli istifadə etməklə məhsul istehsalının artım sürətindəki geriliyi aradan qaldırmaq və bütövlükdə sosial-iqtisadi inkişafı sürətləndirmək vəzifəsi qarşıya qoyuldu.

1976-1985-ci illəri əhatə edən ***ikinci mərhələdə*** iqtisadiyyatın bütün sahələrini səmərəli və kompleks inkişaf etdirmək, strukturunda Azərbaycanın ittifaq əmək bölgüsündə geniş iştirakını təmin edəcək sahələrin və ya bütövlükdə iqtisadiyyatın inkişafına müsbət təsir edən mütərəqqi sahələrin üstün inkişafı istiqamətində dəyişikliklər edilməsi, neft maşınqayırması və neft emalının yeni texniki baza üzərinə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi strateji vəzifəsi qarşıya qoyuldu.

Qarşıya qoyulmuş strateji vəzifələri, proqram və planları yerinə yetirmək üçün hər iki mərhələdə Azərbaycan Kommunist Partiyası Heydər Əliyevin rəhbərliyi altında

misilsiz təşəbbüskarlıq, yorulmadan müntəzəm fəaliyyət göstərirdi. Bu mərhələlər bir-birindən xeyli fərqlənsə də, onlarda ümumi cəhətlər də vardı. Belə ki, hər iki mərhələdə və ümumiyyətlə 70-80-ci illərdə bu böyük insan ardıcıl olaraq ölkəmizin sürətlisosial-iqtisadi inkişafı, xüsusilə də iqtisadiyyatın sürətli inkişafı və səmərəli yerləşməsi, məhsulun keyfiyyətinin yüksəlməsi siyasətini yeritmiş, şəhər və kəndlərin inkişafına böyük qayğı göstərmişdir. Hər iki mərhələdə Heydər Əliyev siyasətinin ana xəttini qeyri-neft sektorunun sürətli inkişafı və həmin sahələrə aid müəssisələrin əsasən kiçik və orta şəhərlərdə yerləşməsi təşkil etmişdir.

Əmək intizamının möhkəmlənməsi, dövlət plan tapşırıqlarının yerinə yetirilməsinin vacibliyi, bunun üçün məsuliyyət hissinin artırılması, elmi-tədqiqat işlərinin, xüsusilə Respublika Elmlər Akademiyası alimlərinin əməyinin təşkilinin təkmilləşməsi və sanballı, elmi cəhətdən əsaslandırılmış təkliflərinin istifadə olunması, məhsulun keyfiyyətinin yüksəlməsi üçün tədbirlər görülməsi məsələləri ön plana çəkilirdi. Heydər Əliyev tez-tez rayonlara səfərlər edir, müşavirələr keçirir, məsləhətləşir, iqtisadiyyatın inkişafına, dövlət plan tapşırıqlarının yerinə yetirilməsinə mane olan səbəbləri aşkara çıxarır və onların vaxtında aradan qaldırılması üçün tədbirlər görürdü.

Qarşıda duran strateji vəzifələrin yerinə yetirilməsinə etibarlı təşkilati və maliyyə təminatı yaratmaq üçün Heydər Əliyevin təkidli təşəbbüsü və tələbilə Azərbaycan hökuməti SSRİ hökumətinə dəfələrlə təşəbbüs və təkliflərlə müraciət etmişdir. Azərbaycan rəhbəri Heydər Əliyevin təkidi və təşəbbüsü ilə SSRİ hökuməti Respublika xalq təsərrüfatını bütövlükdə və onun ayrı-ayrı sahələrinin inkişafını

nəzərdə tutan beş xüsusi qərar ("Xəzər dənizində neft çıxarmanı genişləndirmək haqqında" SSRİ Nazirlər Sovetinin 1974-cü il 19 iyul tarixli qərarı, "1976-1980-ci illərdə və sonrakı dövrdə Respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsi təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində" Sov. İKP MK-nın 1976-cı il qərarı, "Azərbaycan SSRİ-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1979-cu il 22 fevral tarixli qərarı və i.a.) qəbul etmişdir. Bu qərarlarda Azərbaycan xalq təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafının bütün əsas məsələləri öz əksini tapırdı. Eyni zamanda bu məsələlərin həlli üçün İttifaq hökuməti tərəfindən əlavə vəsait ayrılırdı. Buna misal olaraq neft sənayesini göstərmək olar. 1969-cu ildə Heydər Əliyev Azərbaycanın rəhbəri təyin edildikdən sonra ilk dəfə olaraq o zaman mövcud olan müstəqilliyin imkan verdiyi dərəcədə neft strategiyası ***Respublika iqtisadiyyatının səmərəli inkişafı və əhalinin rifahının yüksəlməsi mənafeyini nəzərə almaqla işlənib hazırlandı.*** Onun qarşısına iki qrup əsas vəzifə qoyulmuşdu:

1. Neft hasilatının texniki bazasını təkmilləşdirmək, hasilatın azalmasının qarşısını almaq və sabitləşdirmək;

2. Neft emalının texniki bazasını tamamilə yenidən qurmaq, texnologiyasını müasirləşdirmək, emalı dərinləşdirmək və yeni neft məhsulları almaq, neft məhsullarının keyfiyyətini yüksəltmək və istehsalın səmərəliliyini artırmaq.

Neft sənayesində yenidənqurma işləri və sənayedə struktur dəyişiklikləri etmək böyük kapital qoyuluşu tələb

edirdi. Odur ki, strategiyada neft *sənayesinə kapital qoyuluşunu azaltmadan Respublika iqtisadiyyatına ümumi kapital qoyuluşunun artmasına nail olmaq, bu yolla qeyri-neft sektoruna kapital qoyuluşunu artırmaq və onun sürətli inkişafını və strukturunun mütərəqqi istiqamətdə təkmilləşməsi üçün maliyyə təminatı yaratmaq mühüm vəzifə kimi müəyyənləşdirilmişdi.* Bu məqsəd üçün Heydər Əliyevin təşəbbüsü və böyük məqsədyönlü fəaliyyəti nəticəsində Sov. İKP MK "1976-1980-ci illərdə və sonrakı dövrdə Respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticəsi barəsində" qərarında Azərbaycan sənayesinin inkişafı üçün ayrılan əsaslı vəsait qoyuluşu və maddi-texniki təchizatın miqdarı onuncu beşillikdə planda nəzərdə tutulduğuna nisbətən böyük məbləğdə artırılmışdı. Həm də ilk dəfə olaraq neftlə əlaqədar sahələrə qoyulması nəzərdə tutulan vəsait ayrıca göstərilmişdir. Məsələn: neft avadanlıqları istehsalına əsaslı vəsait qoyuluşu əlavə olaraq 83 milyon rubl artırıldı. Ümumiyyətlə, 1976-1980-ci illərdə 36 milyon rubl, sonrakı beşillikdə 121 milyon rubl dəyərində olan qurğuların işə salınması nəzərdə tutulurdu. Neftayırma sənayesinin inkişafı üçün əvvəl nəzərdə tutulmuş 162,3 milyon rubla əlavə olaraq 85 milyon rubl vəsait ayrılmışdır və i.a. Ümumiyyətlə neft sənayesinə ayrılan əsaslı vəsait 2,0 milyard rubla çatdırılmışdı.

Neft sənayesinə qoyulan vəsaitin artırılması və dövlət planında ayrılıqda göstərilməsi bir tərəfdən qeyri neft sektoruna yönəldilən vəsaiti artırmağa və onu daha sürətlə inkişaf etdirməyə, digər tərəfdən neft sənayesinin özündə

respublika iqtisadiyyatının mənafeyini nəzərə almaqla əsaslı tədbirlər həyata keçirməyə imkan verirdi.

Neft sənayesinin qeyri-neft sektorunun inkişafı ilə qarşılıqlı əlaqəsinin genişlənməsi, neft emalı və neft-maşınqayırma sənayesinin qeyri-neft sektorunun tələbatının ödənməsinə daha çox xidmət göstərməsi, qeyri-neft sektorunun tələbatını ödəyən məhsullar istehsal etməsi xətti həyata keçirilirdi.

Heydər Əliyev Azərbaycan KP MK-nın 1976-cı il oktyabr plenumunda özünəməxsus qətiyyətlə bir daha qeyd etmişdir ki, hər bir müəssisə, baş idarə və nazirlik əslində texniki tərəqqinin mübariz qərargahına çevrilməli, istehsalın texniki səviyyəsi və məhsulun keyfiyyəti üçün tam məsuliyyət daşımalıdır.

Bütün Regionlarımızdan xarici bazarlara daha çox və rəqabət qabiliyyətli məhsul çıxarmaq istədiyimiz müasir dövrdə bu göstərişlər yenə də öz aktuallığı ilə diqqəti cəlb edir.

Heydər Əliyev xalq təsərrüfatının artan tələbatını ödəmək üçün yüksək ixtisaslı, peşəkar ali təhsilli mütəxəssislərin və fəhlə kadrların hazırlanması və istifadəsi istiqamətində geniş miqyaslı siyasi və təşkilati iş aparırdı. Azərbaycanın daxilində kadr hazırlığına böyük diqqət və qayğı göstərməklə yanaşı SSRİ-nin başqa respublikalarında olan qabaqcıl ali məktəblərinə hər il orta hesabla 800 nəfərdən artıq azərbaycanlı müxtəlif ixtisaslar üzrə ali təhsil almağa göndərilirdi. 1969-cu ildə SSRİ şəhərlərində cəmi 47 nəfər azərbaycanlı ali təhsil alırdı. Artıq 1981-ci ildə SSRİ şəhərlərinin (Moskva, Leninqrad, Kiyev, Minsk, Daşkənd və i.a.) qabaqcıl ali məktəblərində müxtəlif ixtisas üzrə 3600-dən çox azərbaycanlı gənclər təhsil alırdı. Bu tələbələrin

əksəriyyəti ali təhsil alandan sonra Azərbaycanın xalq təsərrüfatının müxtəlif sahələrində müvəffəqiyyətlə çalışır və onun inkişafına öz töhfələrini verirdilər.

Heydər Əliyevin yorulmaz, fasiləsiz və məqsədyönlü fəaliyyəti, həyata keçirdiyi tədbirlər, onun təşəbbüsü və təkidi ilə mərkəzi hökumət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 1970-1985-ci illər cəmiyyət həyatının bütün sahələrində (iqtisadi, mədəni, sosial, siyasi) yüksəliş və tərəqqi illəri oldu. Azərbaycan iqtisadiyyatı bütün öz varlığı tarixində ən yüksək inkişaf səviyyəsinə çatdı. Başlıcası isə Azərbaycan ittifaq əmək bölgüsündə öz layiqli yerini tutdu. Elektrik enerjisi, neft-mədən avadanlıqları, kimya sənayesinin bir çox məhsulları, üzüm şərabı, meyvə-tərəvəz konservi, pambıq mahlıcı, ipək sap, yaşıl çay, xalça və xalça məmulatları, mineral sular, fermentləşmiş tütün və i.a. istehsalına görə keçmiş İttifaq əmək bölgüsündə mühüm yer tuturdu. Respublikada iqtisadiyyatın bütün sahələri sürətlə inkişaf etdirildi, artım sürətinə görə o, SSRİ respublikaları arasında qabaqcıl mövqeyə çıxdı.

1970-1982-ci illərdə Respublikamızın iqtisadiyyatının inkişaf etməsinə əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuşdu, o cümlədən 213 yeni sənaye müəssisəsi istismara verilmişdi.

Bakıda Məişət kondisionerləri zavodu, "Ozon" Elmi-istehsalat Birliyi, Elektron Hesablama Maşınları Zavodu, Dərin Özüllər Zavodu, Tikiş və Ayaqqabı fabrikləri, Şirvanda (Əli Bayramlıda) Məişət Cihazları Zavodu, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj fabriki, Gəncə Əlvan Metal Emalı Zavodu, Naxçıvan Şüşə qablar zavodu, Mingəçevirdə Azərbaycan DRES, Yevlaxda yunun ilkin emalı fabriki və digər şəhərlərdə tikilən onlarla iri sənaye müəs-

sisələri, elektrotexnika, cihazqayırma, radiotexnika zavodları, pambıqtəmizləmə, çay emalı müəssisələri, şərabçılıq və meyvə-tərəvəz konserv istehsalı zavodları məhz Heydər Əliyevin müntəzəm apardığı təşkilatçılıq işinin məhsulu idi.

Məhz görülmüş əsaslı tədbirlərin, əmək intizamının möhkəmlənməsi, dövlət plan tapşırıqlarının yerinə yetirilməsi üçün məsuliyyət hissinin artırılması nəticəsi olaraq Respublikamızda Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün illərdə iqtisadiyyatın bütün sahələri surətlə inkişaf etmişdir. Artıq 1970-75-ci illərdə Azərbaycan iqtisadiyyatın bütün sahələrinin inkişaf sürətinə görə İttifaq respublikaları arasında ən qabaqcıl mövqeyə çıxmışdı. 1970-75-ci illərdə Respublikamızda məcmuu məhsul 44%, milli gəlir 39%, sənaye məhsulu 50%, kənd təsərrüfatı məhsulu 34% artmışdı. Heydər Əliyevin bilavasitə Azərbaycana rəhbərlik etdiyi 7 ildə də iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı davam etmişdi. 1970-1982-ci illərdə Azərbaycan hər il müttəfiq respublikalar arasında sosializm yarışının qalibi olmuşdur. Sənayedə əmək məhsuldarlığının yüksəlməsi, istehsalın səmərəliliyinin artması üçün onun texniki tərəqqinin istiqamətlərini müəyyən edən maşınqayırma, elektrotexnika, kimya, elektroenergetika kimi sahələri daha sürətlə inkişaf etdirilirdi. Digər tərəfdən sənayedə yeni texnika və texnologiyanın tətbiqinə dövlət tərəfindən xüsusi qayğı göstərilirdi. Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır.

Sənaye məhsulu 2,7 dəfə, sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmışdı.1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Belə ki, 1970-ci ilə nisbətən 1985-ci ildə Respublikanın sənaye məhsulu 2,9 dəfə artmışdı ki, bu da SSRİ-nin müvafiq orta göstəricisindən (2,14) və Belarusiya qismən müstəsna olmaqla (3,0 dəfə) bütün digər respublikaların göstəricilərindən yüksək idi.

Respublikada kənd təsərrüfatı və onun xam malını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Pambıq, meyvə, tərəvəz istehsalı iki dəfədən, üzüm, tütün, barama, yaşıl çay yarpağı istehsalı 2-5 dəfə artmışdı. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1481, (1984-cü ildə 2126 min tona), pambıq istehsalı müvafiq olaraq 299 min tondan 831,2 min tona, tərəvəz 410 min tondan 850 min tona çatmışdı. Bu kənd təsərrüfatı məhsulları istehsalı sahəsində Azərbaycan müttəfiq respublikalar arasında qabaqcıl mövqeyə malik oldu, o cümlədən üzüm və müxtəlif növ şərab istehsalına görə Respublikamiz müttəfiq respublikalar arasında birinci yeri tuturdu. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu. 1970-1982-ci illərdə milli gəlir 2,5 dəfə, adambaşına isə 2,0 dəfə artmışdı. Bu göstəriciyə görə Azərbaycan müttəfiq respublikalar arasında qabaqcıl mövqe tuturdu. Bütün bunların nəticəsi idi ki, Rusiya ilə yanaşı, Azərbaycan da ittifaq büdcəsindən dotasiya almadan öz iqtisadiyyatını sürətlə və mənfəətlə inkişaf etdirirdi.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının bütün sahələrini kompleks inkişaf etdirmək siyasəti xırda və orta şəhərlərin sürətlə inkişafı və onların müvafiq iqtisadi rayonların və respublikanın mədəni-iqtisadi həyatında rolunun əsaslı şəkildə yüksəlməsinə səbəb oldu. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən bir ay sonra onun siyasətinə müvafiq olaraq və başqa respublikalarda şəhərlərin inkişafı üçün görülən tədbirləri nəzərə almaqla Dövlət Plan Komitəsində Respublikamızın müvafiq ixtisaslı alimlərini cəlb etməklə xüsusi bir Rayonlaşdırma Komissiyası yaradıldı. Komissiya Respublikanın perspektivli xırda və orta şəhərlərini (Qazax, Mingəçevir, Ağdam, Yevlax, Göyçay, Şəki, Xankəndi, Beyləqan, Naxçıvan, Şirvan (Əlibayramlı), Salyan, Şəmkir, Xaçmaz, Lənkəran) müəyyənləşdirdi. Sonra mədəni-iqtisadi cəhətdən onların təsir dairəsində olan inzibati rayonlar və şəhərləri nəzərə almaqla 13 müvəqqəti iqtisadi rayondan ibarət şəbəkə hazırladı. Respublikanın istehsal potensialını hərəkətə gətirmək və ondan səmərəli istifadə etmək üçün IX-X beşilliklər dövründə müxtəlif maliyyə mənbələri hesabına Respublikada 230-dan çox müstəqil balansda olan istehsal müəssisəsi işə salınmışdı. Bunun da 70 faizdən çoxu Abşerondan kənar iqtisadi rayonların payına düşürdü. Abşerondan kənar iqtisadi rayonlarda sənaye başlıca olaraq kiçik və orta şəhərlərdə təmərküzləşir və bu şəhərlərin sənaye məhsulu istehsalında xüsusi çəkisi artırdı. Sənayenin müxtəlif sahələrinə və kənd təsərrüfatı xammalının emalına aid nisbətən böyük müəssisələr, həmçinin maşınqayırma, elektrotexnika, energetika obyektləri başlıca olaraq bu şəhərlərdə tikilir və onlarda sənaye istehsalı Respublikinın orta göstəricisinə nisbətən sürətlə inkişaf edirdi. Azərbay-

canın o zamankı sənaye xəritəsində çox mühüm yer tutan Şirvan Məişət cihazları zavodu, Sumqayıt kompressor zavodu, Üst trikotaj fabriki, Gəncə Əlvan metal emalı zavodu, Naxçıvan şüşə qabları zavodu, Elektrotexnika zavodu, Xalça kombinatı, Mingəçevirdə Azərbaycan DRİES kimi mühüm sənaye müəssisələri tikilirdi ki, bu da İttifaq hökumətinin Azərbaycan da daxil olmaqla bir sıra müttəfiq respublikaları başlıca olaraq xammal mənbəyi kimi saxlamağa yönəlmiş siyasətindən milli mənafelərə uyğun istifadə etməyə imkan verirdi: Astara və Lənkəranda çay fabrikləri, Kəlbəcərdə "İstisu" mineral su zavodu, Yevlaxda Yunun ilkin emalı fabriki, Sumqayıtda İp əyirmə fabriki, onlarla konserv, şərabçılıq zavodları, habelə digər şəhərlərdə onlarla maşınqayırma, yüngül və yeyinti sənaye müəssisələri məhz o illərdə tikilmişdir.

Sənayenin mütərəqqi sahələrinə aid böyük şəhərlərdə olan müəssisələrin filialları perspektivli kiçik şəhərlərdə açılırdı. Belə ki, Qazax, Şəmkir, Naxçıvan, Şirvan, Horadiz, Xankəndi, Quba, Lənkəran şəhərlərində maşınqayırma müəssisələrinin 12 filialı açılmışdı. Nəticədə həm iqtisadi rayonlarda, həm də onların xırda və orta şəhərlərində sahəvi və ərazi istehsal kompleksləri formalaşırdı. Abşeronda 14, Kür-Arazda 12, Gəncə-Qazaxda 11, Naxçıvan MR-də 10, Dağlıq Şirvanda 7 sənaye sahəsi, o cümlədən yuxarıda göstərilən xırda və orta şəhərlərin hər birində 3-5 sənaye sahəsi fəaliyyət göstərirdi*. Bütün bunların nəticəsində iqtisadi rayonların və şəhərlərin sənaye məhsulu istehsalında mövqeyi dəyişirdi. Sənaye məhsulu istehsalında Abşeron iqtisadi rayonunun xüsusi çəkisi 1969-cu ildəki 72,8 faiz-

* Burada və bu paraqrafın qalan hissəsində müəllif tərəfindən 70-80-ci illərdə aparılan tədqiqatlara istinad edilir.

dən 1988-ci ildə 59,8 faizə, Gəncə-Qazax iqtisadi rayonunun xüsusi çəkisi 8,9 faizdən 8,2 faizə düşmüşdür. Buna müvafiq olaraq digər rayonların xüsusi çəkisi 1970-ci ildəki 19,9 faizdən 32 faizə qalxdı. Gəncə, Mingəçevir, Naxçıvan, Şəki, Xankəndi, Şirvan, Yevlax, Xaçmaz və Lənkəran şəhərlərinin Azərbaycanın sənaye məhsulu istehsalında xüsusi çəkisi 1969-cu ilə nisbətən hələ 1983-cü ildə 3 dəfə artaraq 9-10 faizdən 29,4 faizə çatmışdı. Bu şəhərlərin hər birində yerli əhəmiyyətli sənaye sahələrilə yanaşı respublika və ittifaq əhəmiyyətli sənaye sahələri yaranmış və inkişaf etmişdi. Sənayenin sürətli inkişafı nəticəsində xırda şəhərlərin əhalisi də sürətlə artır, onların kateqoriyası və regionların sosial-iqtisadi inkişafında rolu dəyişirdi. 1970-1988-ci illərdə respublikanın şəhər əhalisi 49,7 faiz, o cümlədən böyük şəhərlərin əhalisi 45 faiz artdığı halda kiçik və orta şəhərlərin əhalisi 68,3 faiz artmışdır. Bu müddət ərzində respublikada 5 kiçik şəhər (Mingəçevir, Şirvan, Şəki, Naxçıvan, Xankəndi) orta şəhər (əhalisi 50 000 nəfər və ondan çox) kateqoriyasına keçmişdir. Ən başlıcası yuxarıda adı çəkilən şəhərlər yerləşdikləri regionun sosial-iqtisadi həyatında mühüm rol oynamaqla regional mədəni-iqtisadi mərkəz şəhərlər funksiyasını müəyyən səviyyədə icra etməyə başlamışdılar və bu rol fasiləsiz olaraq artırdı.

Bu şəhərlər daxil olduqları iqtisadi rayonun ümumi sənaye məhsulu istehsalında həlledici yer tutmaq və rayonda olan əsas sənaye sahələrini özündə cəmləşdirməklə yerlərdə ərazi-istehsal kompleksinin sürətlə formalaşmasını təmin edirdilər. 1985-ci ildə Gəncə iqtisadi rayonunda istehsal olunan sənaye məhsulunun 76,3 və sənaye işçilərinin 84,3 faizi Gəncə şəhərinin, Şəki iqtisadi rayonunda

müvafiq olaraq 63,6 və 72 faizi Şəki şəhərinin, Naxçıvan MR-də Naxçıvan şəhəri 80,8 və 76,5 faiz, Mil-Qarabağda Mingəçevir 44,1 və 61,6 faiz, Şirvan 49,7 və 43,9 faiz, Qazax iqtisadi rayonunda Şəmkir 54,4 və 47,5 faiz və s. payına düşürdü. Beləliklə bu şəhərlərin sənayesi nəticə etibarı ilə respublika iqtisadi rayonlarının sənayesinin qarşılıqlı əlaqədə vahid təsərrüfat kompleksi kimi inkişafını təmin edirdi. Eyni zamanda Respublikanın iqtisadi rayonlarında, xüsusilə də kiçik və orta şəhərlərdə sənayenin Abşeron iqtisadi rayonuna, o cümlədən Bakı şəhərində olduğuna nisbətən sürətli inkişafı nəticəsində Abşeron iqtisadi rayonunun sənaye məhsulu istehsalında xüsusi çəkisi 1969-cu ildəki 72,8%-dən, 59,6%-ə, o cümlədən Bakı şəhərinin xüsusi çəkisi 49,1%-ə düşmüşdür.

Adı çəkilən şəhərlərin iqtisadiyyatı özünün yüksək mənfəətli olması, istehsal olunan məhsulun isə keyfiyyətliliyi ilə diqqəti cəlb edirdi. 1969-cu ildə bütün müəssisələrin 90 faizə qədəri ittifaq əhəmiyyətli olmasına baxmayaraq onların məhsulunun bir faizi, 1975-ci ildə 2,2 faiz keyfiyyət nişanı almışdısa, görülən tədbirlər, kadr hazırlığı, yeni texnika və texnologiyanın tətbiqi nəticəsində sonrakı illərdə keyfiyyət nişanlı məhsulun xüsusi çəkisi artdı və 1980-ci ildə 30,3 faizə, 1985-ci ildə 46,4 faizə çatdı. Bu İttifaqın (müvafiq olaraq 29,8 və 44,7%) o cümlədən 7 müttəfiq respublikanın orta göstəricisindən yüksək idi. Əhəmiyyətli burasıdır ki, Azərbaycanın mədəni-iqtisadi mərkəz xarakterli bir çox şəhərlərində keyfiyyət nişanlı məhsulun xüsusi çəkisi, həm respublikanın orta göstəricisindən, həm də Bakı şəhərinin göstəricisindən yüksək idi. Məsələn, 1986-cı ildə Azərbaycanda keyfiyyət nişanlı məhsulun xüsusi çəkisi orta hesabla 43,8 faiz, Bakı şəhərində

46,3 faiz olduğu halda, Mingəçevir şəhərində 50,2 faiz, Naxçıvan MR-da 56,8 faiz, Gəncə şəhərində 86,9 faiz təşkil etmişdir. Azərbaycanın məhsullarına həm daxili, həm də xarici bazarlarda tələbat artmışdı.

Nəhayət regional mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin üstün inkişafı əmək ehtiyatlarından istifadənin regional problemlərinin həllində, kəndin əmək qabiliyyətli əhalisinin məşğulluq səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdı. Belə bir fakt maraqlıdır ki, 1985-ci ildə Naxçıvan MR-də sənayedə işləyənlərin 47,1 faizi, tikintidə işləyənlərin 71 faizi, Ağdam şəhərində müvafiq olaraq 80 və 87 faiz, Şirvan şəhəri sənayesində işləyənlərin 30,6 faizi kənddə yaşayanlar idi. Bu proses kənd əhalisinin işlə təminatında və Bakı şəhərinə işçi qüvvəsi axıcılığının azaldılması və qarşısının alınmasında müstəsna rol oynayırdı.

1970-1985-ci illərdə Heydər Əliyev iqtisadi siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatının inkişafında əldə olunmuş nailiyyətlər, toplanmış istehsal potensialı və təcrübə müstəqillik illərində Respublika iqtisadiyyatının inkişafı və dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynamışdır və yenə oynayır: bu baxımdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1970-1985-ci illər) iqtisadiyyatın, elmin, mədəniyyətin, təhsilin inkişafı sahəsində əldə olunmuş nailiyyətlər olmasaydı Azərbaycan müstəqilliyin birinci 5-6 ilində üzləşdiyi ağır vəziyyətdən çıxa bilməzdi. Sovet İtifaqı dövründə müttəfiq respublikalar vahid dövlətin daxili tərkib hissələri idilər. Onların iqtisadiyatının bütün sahələri bir-biriylə qarşılıqlı əlaqədə işləyir və bütövlükdə ölkə təsərrüfatının və əhalinin tələbatının ödənilməsində iştirak edirdilər. İttifaq dağılandan, qarşılıqlı

əlaqələr kəsiləndən sonra hər bir respublika özünün tələbatını öz imkanları hesabına ödəməyə başladı. Məhz belə şəraitdə Heydər Əliyevin rəhbərliyi atında 70-80-ci illərdə yaranmış istehsal və infrastruktur sahələrin, xüsusilə onun respublika və region əhəmiyyətli sahələri gənc müstəqil dövlətimizin tələbatının az-çox ödənilməsində müstəsna rol oynayırdı.

Bununla yanaşı 70-80-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında yaranmış istehsal potensialı bir çox digər cəhətdən də müstəqillik dövründə mühüm əhəmiyyət kəsb etdi.

**Əvvəla**, məhz Heydər Əliyevin rəhbərliyi altında Respublikamızın tarixində ilk dəfə olaraq onun iqtisadiyyatının hərtərəfli və yüksək inkişafı üçün çox böyük istehsal potensialına malik olduğu aşkara çıxdı. Təsadüfi deyil ki, SSRİ-nin dağılması ərəfəsində müstəqil yaşamaq, özözünü yaşatmaq imkanı olması baxımından Azərbaycan RSFSR və Ukrayna ilə yanaşı tutulurdu. Eyni zamanda o zaman aşkara çıxarılmış həmin potensialla tanışlıq bu gün də hər kəsdə Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün böyük imkanlar olduğuna əminlik yaradır.

**İkincisi**, 1970-1985-ci illərdə yaranmış istehsal potensialı 80-ci illərin ortalarından başlayaraq təqribən 10 il ərzində xeyli dağılmasına, zəifləməsinə baxmayaraq müstəqillik illərində, xüsusilə hazırkı dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyinin, fasiləsiz artan və genişlənən xarici iqtisadi əlaqələrinin təmin olunmasında mühüm rol oynamış və yenə oynayır. O zaman inkişaf etmiş və İttifaq əmək bölgüsündə mühüm yer tutmuş sahələr (metallurgiya, neft maşınqayırması, bir çox kimya məhsulları, üzüm şərabı, meyvə-tərəvəz konservləri,

pambıq mahlıcı və i.a.). Hazırda və yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatının inkişafının və ərazi təşkilinin təkmilləşməsinin əsas istiqamətlərini təşkil edəcəkdir.

**Üçüncüsü**, Heydər Əliyevin dəstəyilə o zaman xaricdə təhsil alan tələbələrin bir hissəsi hazırda xarici ölkələrdə müxtəlif müəssisə və təşkilatlarda müvəffəqiyyətlə işləyirlər, yaxud Azərbaycanda işləyir, təhsil aldığı ölkələrlə mədəni-iqtisadi əlaqələr qururlar. Beləliklə, həmin ixtisaslı kadrlar Azərbaycanın xarici ölkələrlə inteqrasiyasında, Azərbaycan həqiqətlərinin xarici ölkələrə yayılmasında, xaricdə Azərbaycan diasporunun formalaşması və sahibkarlığın inkişafında mühüm rol oynayırlar.

**Dördüncüsü**, 1970-1985-ci illərdə iqtisadiyyatın və bütövlükdə ölkənin idarə edilməsi sahəsində indi getdikcə genişlənən və özünə yeni-yeni tərəfdarlar, əməkdaşlar cəlb edən "Heydər Əliyev idarəetmə məktəbi" yarandı. Bu məktəb xalqını, vətənini hədsiz dərəcədə sevmək, ona təmənnasız xidmət etmək istəyi, tələbkarlıq və məsuliyyət hissi üzərində qurulmuşdur. Bu məktəbdə yetişmiş, zəngin təcrübə toplamış kadrlar hazırda dövlət idarəçiliyi sahəsində ümummilli lider Heydər Əliyevin kursunu müvəffəqiyyətlə davam və inkişaf etdirirlər.

**Nəhayət, beşincisi** və həm də əsası 1970-1985-ci illərdə Heydər Əliyevin xırda və orta şəhərlərin üstün sürətlə inkişafı, regional mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin ətraf ərazilərin əmək ehtiyatlarından istifadədə rolunun artırılması siyasəti, bu sahədə toplanmış təcrübə son illər Azərbaycan Prezidenti İlham Əliyevin regional siyasətində müvəffəqiyyətlə və yeni formalarda həyata keçirilir. Regional mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərdə sənayenin üstün sürətlə inkişafının təmin edilməsi bir

çox regional problemlərin həlli və xüsusilə Bakı şəhərinə işçi qüvvəsi axıcılığını azaltmaq üçün mühüm əhəmiyyət kəsb edər.

## II.3. Müstəqillik dövründə Heydər Əliyevin demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid siasəti: 1993-2003-cü illər

***Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini götürmüşdür.***

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli Lideri***

70-80-ci illərdə olduğu kimi müstəqilliyin ilk 10 ili ərzində də Heydər Əliyev siyasətinin obyektiv reallığı əks etdirməsi və çevikliyi, ümumi strateji məqsəd və vəzifələri dəyişmədən ölkənin vəziyyətindən asılı olaraq ön plana çəkilən cari və taktiki məqsəd və vəzifələrin tez-tez dəyişməsində öz ifadəsini tapmışdır. Bu baxımdan müstəqilliyin Heydər Əliyev hakimiyyətdə olduğu ilk 10 il ərzində aparılan sosial-iqtisadi inkişaf siyasətini onun ön plana çəkilən konkret məqsəd və vəzifələrini nəzərə almaqla üç mərhələyə ayırmaq olar:

1. 1993-1996/97-ci illər- Respublikanı dərin, hərtərəfli böhrandan çıxarmaq, bazar iqtisadiyyatına keçidin və dünya iqtisadiyyatına inteqrasiyanın əsaslarını yaratmaq;

2. 1997/98-2002-ci illər- qısa və orta müddətli proqramlarla bazar iqtisadiyyatının əsaslarını möhkəmlətmək və iqtisadiyyatın bütün sahələrinin davamlı inkişafına nail olmaq;
3. 2003-2005-ci illər- azad sektoru, qeyri neft sektorunu inkişaf etdirmək və yoxsulluğu azaltmaq.

Bu mərhələlərin hər birində müstəqilliyin qorunub saxlanması, möhkəmlənməsi və sosial-iqtisadi inkişaf üçün həlledici əhəmiyyət kəsb edən bir neçə vəzifənin qarşıya qoyulması və həlli ön plana çəkilir.

## II.3.1. Respublikanı dərin, hərtərəfli böhrandan çıxarmaq,bazar iqtisadiyyatının və dünya iqtisadiyyatına inteqrasiyanın əsaslarını yaratmaq siyasəti: 1993-1996/1997-ci illər

1993-cü ilin ortalarında Azərbaycan xalqının xahişi, təkidli tələbi ilə Heydər Əliyev Respublikamızda hakimiyyət kürsüsünə sahib olanda onun keçən əsrin 70-80-ci illərində böyük zəhmət, təşkilatçılıq işi hesabına yüksək səviyyədə inkişafına nail olduğu iqtisadiyyat dağılmış, siyasi, mənəvi böhran, kəskinləşməkdə olan işsizlik və yoxsulluq Respublikamızı müstəqilliyini itirmək təhlükəsilə üz-üzə qoymuşdur.

Məlum obyektiv və subyektiv səbəblər nəticəsində 1986-1987-ci illərdən başlayaraq Azərbaycan iqtisadiyyatı tədricən sarsıntılara məruz qalmışdır. 1990-cı ildən iqtisadiyyatın tənəzzülü sürətlənmişdir. 1989-cu ilə nisbətən 1990-cı ildə sənaye məhsulunun həcmi 94,5%, o cümlədən yüngül sənaye 93,5%, ərzaq məzsulları istehsalı 96%,

heyvandarlıq məhsullarının satın alınması 76% təşkil edirdi.[1] Müstəqilliyin ilk illərindən (1991-ci ildən) başlayaraq iqtisadiyyat tamamilə dağılmışdır. Belə bir faktı göstərmək kifayətdir ki, iqtisadiyyat artıq tənəzzüldən çıxmış olduğu 1996-cı ildə istehsal edilən sənaye məhsulu 1990-cı illə müqayisədə MDB məkanında orta hesabla 50%, o cümlədən Belarusda 62 %, Türkmənistanda 73%, Özbəkistanda 100, 9 % olduğu halda Azərbaycanda cəmi 31 % təşkil edirdi. Respublikanın bir çox şəhər və rayonlarında iqtisadiyyat daha böyük dağıntıya məruz qalmışdı. 1990-cı illə müqayisədə 1996-cı ildə sənaye məhsulu istehsalı Bakı şəhərində 2,1 dəfə Sumqayıt şəhərində 5,5, Naxçıvanda 12,1 dəfə, Gəncədə14,4 dəfə azalmışdı, Lənkəranda 5 və Şəkidə 3 % sənaye məhsulu istehsal olunurdu. İqtisadiyyatın başqa sahələrində vəziyyət heç də bundan yaxşı deyildi.

Sovet dövründə Respublikada olan müəssisələrin 90%-ə qədəri ittifaq əhəmiyyətli idi və İttifaqın tələbatının ödənilməsinə xidmət edirdi. Müstəqillik əldə ediləndə ittifaq hökuməti dağıldığından bu əlaqələr pozuldu, bazarlar itirildi və müəssisələrin fəaliyyəti dayandı və qarşılıqlı borcları 11 mlrd dolları keçdi. Müstəqil balansda olan sənaye müəssisələrinin məhsul istehsalı 1990-cı illə müqayisədə 3,6 dəfə azalmışdı. Ərzaq məhsullarının 75-80%-i kənardan gətirilirdi və ciddi ərzaq təhlükəsi yaranmışdı.Nəticədə müəssisələrin və bütövlükdə ölkənin investisiya imkanları tamamilə tükənmişdi.

---

[1]Bu və sonrakı rəqəmlər üzrə mənbələr: 1990-cı ildə Azərbaycan SSR-nin sosial-iqtisadi inkişafı. Bakı-Baku-1991. (Azərbaycan SSR Xalq deputatına); Azərbaycanın statistik göstəriciləri, 1997. Azərbaycan Dövlət statistika komitəsi, Bakı-1998

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20%-nin işğal olunması, bir milyon nəfərə qədər əhalinin doğma yurdundan didərgin düşməsi, müharibə xərcləri, çoxlu insan tələfatı, ölkədəki siyasi, sosial və iqtisadi vəziyyəti daha da ağırlaşdırırdı. Əhalinin yarıdan çox hissəsi yoxsulluq həddində yaşayırdı. Başlıca çətinlikdən biri də onda idi ki, Respublikada olan gərgin siyasi şəraiti və investisiya mühitinin olmadığını görən xarici sərmayəçilər iqtisadiyyat sahələrinə, xüsusilə inzibati rayonlarda, kiçik və orta şəhərlərdə qeyri neft sektoruna vəsait qoymaq istəmirdilər.

Vəziyyət dövlətçilik və qanunçuluq sahəsində daha acınacaqlı idi. Belə ki, respublikada siyasi sabitlik tamamilə pozulmuşdur, həqiqətdə ölkənin gələcək taleyinə cavab vermək məsuliyyətini öz üzərinə götürməyi bacaran bir dövlət qurumu yox idi.

Ölkə sözün həqiqi mənasında vətəndaş müharibəsi vəziyyətinə düşmüş, parçalanmaq və müstəqilliyini tamamilə itirmək təhlükəsilə üz-üzə dayanmışdı. Xalq ölkənin müstəqil yaşaya bilməsinə inamını itirməkdə idi.

Azərbaycanın uzun müddət sosializm şəraitində totalitar rejimdə olmasını, böyük dövlətlərin onun həyatına müdaxilə etmək və onu özündən asılı vəziyyətə salmaq istəyinin keçid dövrünun ilk illərində gücləndiyini də nəzərə almaq lazımdır. Bütün bu əlverişsiz şərait Azərbaycanı keçid dövründə, xüsusilə onun ilk illərində müxtəlif siyasi, iqtisadi, sosial və mənəvi psixoloji çətinliklərlə üzləşdirmiş və müstəqilliyinin ilk illərində öz problemlərinin həllində hər kəsin öhdəsindən gələ bilmədiyi çətinliklər yaratmışdı.

Bu barədə Respublika prezidenti İlham Əliyev demişdir: “1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində

Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altında qoymuşdur. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması – bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi". [1]

Eyni zamanda bütün çətinliklərə baxmayaraq Respublikanın əlverişli coğrafi mövqeyi, kifayət qədər elmi-texniki və kadr potensialı, zəngin təbii ehtiyatları, əlverişli iqlim şəraiti var.

Ölkə bütün bu mürəkkəb şəraiti görən, həlli vacib vəzifələri ön plana çəkməyi, imkanları səfərbərliyə almağı, xalqı öz qarşısında duran vəzifələri yerinə yetirmək üçün səfərbər etməyi, güclü demokratik dövlət qurmağı bacaran güclü siyasi liderə, güclü dövlət xadiminə möhtac idi.

Xalqın, xüsusilə onun qabaqcıl, dəstəsi olan ziyalıların təkidli tələbilə hakimiyyətə gələn Heydər Əliyev bu missiyanı öz üzərinə götürdü. O, hakimiyyətə gəldiyi ilk 2 ildə (1993-1994-cü illər) ölkədə hakimiyyət boşluğunun aradan qaldırılması, xalqın öz dövlətinə inamının bərpa olunması, dövlətçiliyin qorunub saxlanması və möhkəmlənməsi, iqtisadiyyatın sabitləşdirilməsi və bazar iqtisadiyyatına keçməsi üçün əsas istiqamətləri müəyyənləşdirdi.

***Bu müstəqilliyin gələcək taleyini müəyyən edən çox məsuliyyətli bir dövr idi. Prezident İlham Əliyev bu barə-***

---

[1] Dünya azərbaycanlılarının III qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə №3 (35) 2011, səh.42

*də demişdir: "Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur.Düzgün istiqamət seçilmişdir. Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparılmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Bir daha demək istəyirəm ki, 1990-cı illərdə düzgün müəyyən edilmiş istiqamət bugünkü reallıqlara gətirib çıxarmışdır".* [1]

1993-cü ilin ortalarından başlayaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin istər ölkə miqyasında, istərsə də respublikadaxili regionlar miqyasında hər iki istiqamətdə yeritdiyi çevik və məqsədyönlü siyasət, gördüyü tədbirlər nəticəsində qarşıya çıxan çətinliklər mərhələ-mərhələ aradan qaldırılmışdır.

Heydər Əliyev özü bütün bu problemləri həll etmək üçün seçdiyi strateji istiqamət barədə demişdir: "Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ölkədə demokratik, hüquqi, svilizasiyalı dövlət qurmaq və Respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini götürmüşdür". Bu prinsiplərə sadiq qalmış, ümummilli liderimiz Heydər Əliyev dövlət müstəqilliyimizin 10 ili ərzində ölkəni düşdüyü dərin böhrandan çıxartmaq və bütün sahələrdə inki-

[1] Yenə orda. Səh.43

şafı təmin etmək üçün aşağıdakı istiqamətlərdə əsaslı tədbirlər həyata keçirmişdir:

1) ölkədə siyasi sabitliyi bərpa etmək, dövlətçiliyi qoruyub saxlamaq və möhkəmləndirmək; demokratik, hüquqi, sivilizasiyalı, dövlət qurmaq və inkişaf etdirmək;

2) Respublika iqtisadiyyatını düşdüyü dərin böhrandan çıxmaq, islahatlar aparmaq, bazar iqtisadiyyatına keçmək və onu sürətlə inkişaf etdirmək;

3) Respublikanın iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, xarici investisiyanı və qabaqcıl elmi-texniki-texnoloji, təhsil və mədəniyyət yeniliklərini, istehsal təcrübəsini ölkəmizə cəlb etmək.

Hər üç istiqamətdə qarşıya çıxan problemlər və onların həlli sahəsində əldə etdiyimiz nailiyyətlər, iqtisadiyyatın sabitləşməsi meyilləri, Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin Dünya Azərbaycanlılarının Birinci Qurultayındakı məruzəsində, yaradıcısı və sədri olduğu Yeni Azərbaycan Partiyasının II Qurultayındakı, Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının (2003-2005-ci illər) təqdimatına həsr olunmuş Ümummilli Konfransdakı proqram xarakterli tarixi nitqlərində, milli sahibkarlarla görüşdə verdiyi proqram xarakterli məsləhətlər və qarşıya qoyduğu vəzifələrdə özünün geniş əksini tapmışdır.

Heydər Əliyev 1993-95-ci illərdə birinci növbədə ölkədə siyasi sabitliyi təmin etmək, vətəndaş müharibəsinə son qoymaq, milli dövlətçiliyi qoruyub saxlamaq və möhkəmlətmək, vətəndaş həmrəyliyini təmin etmək üçün təxirəsalınmaz tədbirlər gördü.

Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə, hakimiyyətlə xalqın birliyinə qarşı yönəlmiş, pozucu, separatçı

qüvvələr zərərsizləşdirildi. 1993-cü ilin iyul ayında Gəncə şəhərindəki gərginlik və vətəndaş müharibəsinin davam etməsi təhlükəsini, Lənkəran-Astara zonasında Azərbaycanı parçalamaq cəhdlərinin qarşısını almaq üçün qətiyyətli tədbirlər görüldü. Ümummilli liderin 1993-cü il avqust ayının 23-də televiziya ilə xalqa müraciəti Azərbaycanın ərazi bütövlüyünə, dövlətçiliyinə, müstəqilliyinə qarşı yönəlmiş qüvvələrə qarşı mübarizəyə xalqın səfərbər edilməsində, xalqımızın bu sahədəki siyasətini dəstəklənməsində mühüm rol oynadı.

1993-cü il noyabr ayının 17-də Heydər Əliyevin təşəbbüsü ilə Respublikada olan siyasi partiya və təşkilatların rəhbərlərilə görüş keçirildi və burda Respublikanın əsas ümummilli problemləri müzakirə edildi. Bu görüş Heydər Əliyev hakimiyyətinin Azərbaycanın ümummilli problemlərinin həlli yolunda ölkənin bütün siyasi qüvvələrilə səmərəli dialoqun aparılmasına, silahlı vətəndaş qarşıdurmasının aradan qaldırılmasına və vətəndaş həmrəyliyinin əldə olunmasına hazırlığını nümayiş etdirən siyasi iradənin təzahürü idi.[1] Ölkədə demokratik prinsiplərin tətbiqi genişləndi, çoxpartiyalı siyasi sistem formalaşdı, söz və mətbuat azadlığı, dini inam azadlığı təmin edildi, senzura ləğv olundu, vətəndaşların cinsindən və milliyyətindən asılı olmayaraq hüquq bərabərliyinin təmin edilməsi istiqamətində normativ-hüquqi və təşkilati xarakterli tədbirlər görüldü.

1994-cü ilin may ayının 12-də Ermənistanla bağlanmış müqavilə ilə Qarabağda atəşkəsə nail olunması milyard

---

[1] Əli Həsənov. Heydər Əliyev və Azərbaycanın ictimai-siyasi həyatı 1993-2001-ci illərdə. Dövlət İdarəçilik Akademiyasında «Suverenlik, demokratiya, dövlət idarəçiliyi» mövzusunda keçirilmiş elmi sessiyanın materialları. Bakı-2002, səh. 9.

manatlarla müharibə xərclərinə və çoxsaylı insan qırğınına son qoydu. Xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi və gərgin əməyi sayəsində dünyada ən demokratik konstitusiyalardan biri olan Azərbaycan Respublikasının Konstitusiyasının 1995-ci il noyabr ayının 12-də qəbul edilməsi (həmin il noyabrın 27-də qüvvəyə minmişdir) Azərbaycanda demokratik cəmiyyət quruculuğu və qanunvericiliyin inkişafında müstəsna rol oynadı və yenə oynayır.

Nəticədə artıq 1995-ci ilin axırlarında Azərbaycanda siyasi sabitlik təmin olunmuş, milli müstəqillik qorunub saxlanmış və möhkəmləndirilmişdi, Respublikada demokratik, hüquqi və dünyəvi dövlət qurmağın əsası olan yeni demokratik Konstitusiya qəbul olunmuşdu.

Ümummilli liderin özünün dediyi kimi indi bu möhkəm siyasi təməl üzərində iqtisadiyyatı dirçəltmək, bazar münasibətlərinə keçdi və dünya iqtisadiyyatına inteqrasiyanı tədricən həyata keçirmək olardı.

1994-cü ildən başlayaraq ölkənin bazar iqtisadiyyatına keçməsi üçün əvvəldən aparılmağa başlanmış hazırlıq işləri intensiv şəkildə davam etdirildi.

Ölkənin maliyyə imkanları tamamilə məhdud olduğu, xarici investorlar ölkə iqtisadiyyatına vəsait qoymaq istəmədiyi, kəskin ərzaq təhlükəsi yarandığı bir şəraitdə kənddə elə bir siyasət yeritmək lazım idi ki, yerli məhdud investisiya hesabına kənd təsərrüfatını dirçəltmək mümkün olsun. Kəndlilər, xırda ticarət və xidmət işçiləri bazar münasibətləri şəraitində yaşamağa və işləməyə alışsınlar. Bunun əsas yolu torpağın kiçik və orta müəssisələrin birinci növbədə özəlləşdirilməsi, torpağın öz sahiblərinə-kəndlilərə qaytarılması oldu. Birinci növbədə torpağın özəlləşdiril-

məsinin normativ-hüquqi bazası formalaşdırıldı. Bunun üçün 1991-1995-ci illərdə Milli Məclis tərəfindən bilavasitə aqrar sahə ilə, torpağın özəlləşdirilməsilə bağlı olan qanunlar: "Torpaq məcəlləsi", "Mülkiyyət haqqında", "İcarə haqqında", "Aqrar islahatların əsas istiqamətləri haqqında", "Kəndli (fermer) təsərrüfatları haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Torpaq vergisi haqqında", "Kolxoz və sovxozların islahatı haqqında" və i.a. qəbul edildi. Bu və digər müvafiq qanunlar əsasında torpağın özəlləşdirilməsi həyata keçirildi.

Torpağın kəndlilərə verilməsi onların özünün məhdud vəsaiti hesabına əhalinin tələbatını ödəyən kənd təsərrüfatının və xidmət sahələrinin inkişafına şərait yaratdı.

Kəndlilər yerli tələbatı ödəyən məhsullar (taxıl, ət, süd, yumurta, meyvə, tərəvəz və i.a.) istehsal etməklə ərzaq təhlükəsinin aradan qalxmasına kömək etdi. Eyni zamanda 1995-ci ildə "1995-1998-ci illərdə Dövlət Mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı" qəbul edildi. Torpaqla bərabər müxtəlif tabelikdə olan kiçik və orta istehsal və xidmət müəssisələrinin özəlləşdirilməsinə başlandı. Özəlləşdirmədən daxil olan maliyyə vəsaiti yerli istehsal və xidmət müəssisələrinin dirçəldilməsində mühüm rol oynadı. Lakin bütün bunlar iqtisadiyyatın bərpası, bazar iqtisadiyyatına keçməsi və inkişafı üçün yalnız başlanğıc idi və ölkənin inkişafında əsaslı dönüş yarada bilməzdi.

Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına bağlayan, xarici investisiyanın qabaqcıl texnika-texnologiyanın Azərbaycan iqtisadiyyatına cəlb edilməsini və investisiya çatışmazlığının aradan qaldırılmasını təmin edən əsaslı tədbirlər görmək lazım gəlirdi. İqtisadiyyatın qabaqcıl sahəsini tapmaq və onun inkişaf imkanlarından istifadə edərək

onun bütün sahələrini bərpa və inkişaf etdirmək, xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etmək, daxili investisiya imkanlarını genişləndirmək ümdə vəzifə kimi qarşıya çıxırdı. Azərbaycanda belə bir sahə ancaq neft sənayesi ola bilərdi.

Çünki, neft sənayesi iqtisadiyyatın başqa sahələrinə nisbətən az dağıntıya məruz qalmışdı. Azərbaycanda neft hasilatı və emalı sahəsində zəngin təcrübə, kadr potensialı toplanmışdı. Təsadüfi deyil ki, Sovet dövründə Bakı şəhəri SSRİ-nin Neft Akademiyası adlanırdı. Dünya ölkələrinin neftə və neft məhsullarına olan tələbatı artırdı və bura kapital qoymağa maraqlı idilər. Neft həm miqdarına, həm də əhəmiyyətinə görə Azərbaycanın dünya bazarına çıxara biləcəyi ən böyük resursu idi. Bunun satışından daxil olan gəlirlər hesabına Azərbaycan iqtisadiyyatını qeyri neft sektorunu dirçəldə, digər iqtisadi və sosial problemlərini həll edə bilərdi.

Beləliklə, neft iqtisadiyyatın bütün sahələrinin inkişafını, dünya iqtisadiyyatına inteqrasiyasını və ölkənin müstəqilliyini təmin etməyin qarantı kimi mühüm əhəmiyyət kəsb edə bilərdi. Bütün bunları nəzərə alaraq Heydər Əliyev artıq 1993-1994-cü illərdə ölkənin müstəqil inkişafının başlıca qarantı kimi özünün neft strategiyasını müəyyənləşdirdi.

Bu strategiyanın mahiyyəti Azərbaycanın zəngin neft-qaz ehtiyatlarını xarici kapitalın, qabaqcıl xarici texnika və texnologiyanın köməyilə hasil etmək, xarici bazarlarda satmaq və bundan gələn gəlir hesabına Respublikada iqtisadiyyatın bütün sahələrini böhrandan çıxartmaq, qeyri neft sektorunun sürətli inkişafına nail olmaq, işsizlik və yoxsulluq problemlərini həll etməkdən ibarət idi. 1994-cü il

sentyabrın 20-də 8 dövlətin 12 şirkətinin daxil olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətilə (ABƏŞ) Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) arasında "Əsrin neft müqaviləsi" adını almış Hasilatın pay bölgüsü sazişinin imzalanması və 1995-ci il oktyabr ayında ilkin neft layihəsinə sanksiya verilməsilə bu strategiya fəaliyyətə başladı.

Bu istiqamətdə başqa tədbirlər də həyata keçirildi. Beynəlxalq banklarla bağlanmış maliyyə-kredit xarakterli müqavilələr, Əsrin müqaviləsindən sonra bağlanmış neft müqavilələri, bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişafı istiqamətində qəbul olunmuş qanunlar, Prezidentin fərmanları və i.a. normativ hüquqi sənədlər iqtisadiyyatın böhrandan çıxması və bazar iqtisadiyyatına keçiddə mühüm rol oynadı. Nəticədə 1996-1997-ci illərdə iqtisadiyyatın bütün sahələri böhrandan çıxdı, sabitləşdi, kiçik və orta sahibkarlar təbəqəsi formalaşmağa başladı, bütün makroiqtisadi göstəricilərdə artım başlandı, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olunmağa başladı, həyat səviyyəsinin aşağı düşməsinin, işsizliyin, yoxsulluğun, inflyasiyanın artmasının qarşısı alındı. Belə bir faktı göstərmək kifayətdir ki, 1996-cı ilə nisbətən 1997-ci ildə ÜDM 105,8%, sənaye məhsulu 100,3%, kapital qoyuluşu 167, əmtəə dövriyyəsi 114,9% və əmtəə ixracı 123,8% təşkil edirdi.[1] Ölkə iqtisadiyyatı sahibkarlarının milli konfederasiyasının yaradılması və fəaliyyəti də sahibkarlığın inkişafını tənzimləməyə və bu yolda qarşıya çıxan problemləri həll etməyə xeyli kömək göstərmişdi və yenə göstərir.

---

[1] Azərbaycanın statistik göstəriciləri.1997, ADSK.Bakı-1998

Əhalinin həyat səviyyəsinin göstəricilərində artım meyilləri başlanmışdı. Belə ki, 1995-ci ildən başlayaraq hər il əvvəlki ilə nisbətən əhalinin pul gəlirləri, əhaliyə pullu xidmətlər (1996-cı ildən başlayaraq), əmək haqqı sürətlə artırıldı.

1995-ci ildə sosial-iqtisadi inkişafın bütün əsas göstəriciləri əvvəlki ilə nisbətən azaldığı halda, 1996-cı ildə yalnız sənaye məhsulu istehsalı əvvəlki ilə nisbətən 6,7% azalmış, qalan bütün əsas göstəricilər artmış,1997-ci ildə sənaye məhsulu da əvvəlki ilə nisbətən artmışdır.

Artıq 1997-ci ildə ümumi daxili məhsul, sənaye və kənd təsərrüfatı məhsulu, əmtəə dövriyyəsi, kapital qoyuluşu, əhaliyə pullu xidmət və digər bu xarakterli göstəricilər sabit sürətlə artmağa başlamışdır. 1996-cı ilə nisbətən 1997-ci ildə bir çox əsas sənaye məhsulları (mineral sular, spirtsiz içkilər, sintetik qətranlar, plastik kütlələr, məişət soyuducuları) istehsalı artmışdır. Xidmət sahələrində özəl sektorun xüsusi çəkisi sənayedəkinə nisbətən yüksək olmuşdu. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının iqtisadi, hüquqi və təşkilati əsasları yaranmışdı. Məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 51%-ə, sənayedə isə 25%-ə çatmışdır. Respublikanın əsas sənaye şəhərlərində (Bakı, Mingəçevir, Gəncə, Lənkəran və i.a.) sənaye istehsalı həcminin sabitləşməsi meyli başlamışdır. Ölkə iqtisadiyyatı bütövlükdə və onun bir çox sahələri davamlı inkişaf yoluna düşmüşdür.

## II.3.2. Qısa və orta müddətli məqsədli proqramlarla bazar iqtisadiyyatının əsaslarını möhkəmləndirmək və iqtisadiyyatın bütün sahələrində davamlı inkişafa nail olmaq siyasəti: 1997-2002-ci illər

Yuxarıda göstərdiyimiz kimi 1997-ci ilə qədər Respublikamızda bazar iqtisadiyyatına keçidin və dünya iqtisadiyyatına inteqrasiyanın yalnız əsasları yaranmışdır. Məhsul istehsalında özəl sektorun xüsusi çəkisi ancaq 50%-ə, sənayedə isə daha az – 25%-ə çatırdı. Beləliklə bazar iqtisadiyyatına keçidi davam etdirmək lazım gəlirdi. Eyni vəziyyət iqtisadiyyatın böhrandan çıxması vəziyyətində də müşahidə olunurdu. Belə ki, 1996/97-ci illərdə iqtisadiyyat bütövlükdə böhrandan çıxıb daxili ümumi məhsul artmağa başlasa da onun bir çox əsas sahələrində istehsal həcmi hələ artmır, aşağı düşmə zəif də olsa davam edirdi. Yaxud sabitləşmə meyli yenicə başlanırdı. Belə ki, neft hasilatı (1995-ci ildə 9,2 mln. ton , 1996/97-ci illərdə 9,1 mln. ton, təbii qaz hasilatı 1995-ci ildə 6,6 mlrd.$m^3$, 1996-cı ildə 6,3, 1997-ci ildə 6,0 mlrd. $m^3$) hələ tam sabitləşməmişdir. Bir çox mühüm ərzaq məhsulları (ət, makaron, müxtəlif konservlər, balıq, üzlü süd və qənnadı məhsulları və i.a.), əksər yüngül sənaye məhsulları, toxuculuq məmulatları istehsalı və i.a. az da olsa azalmaqda davam edirdi. Başlıcası isə qeyri neft sektorunda zərərlə işləyən müəssisə və təşkilatların xüsusi çəkisi yüksək idi. Sənaye müəssisələrinin və təşkilatlarının 1990-cı ildə 9%-i, 1995-ci ildə 14,3 və 1997-ci ildə 40%-i zərərlə işləyirdi. Kənd təsərrüfatı müəssisə və təşkilatlarının 1990-cı ildə 7 %-i, 1995-ci ildə 45,9 və 1997-ci ildə 75,9%-i, o cümlədən kənd təsərrüfatı istehsal müəssisələrinin müvafiq olaraq 7,9; 47 və 64,4%-i zərərlə

işləyirdi. Tikinti, nəqliyyat və ticarət müəssisələrində də eyni vəziyyət müşahidə olunurdu.[1]

Beləliklə, özəlləşdirməni davam etdirmək, bazar iqtisadyyatının əsaslarını möhkəmlətmək, iqtisadiyyatın əksər sahələrinin davamlı inkişafını təmin etmək, müəssisələrin təsərrüfat fəaliyyətinin mənfəətliliyini imkan daxilində artırmaq növbəti mərhələnin strateji vəzifələri kimi qarşıya çıxırdı.

Sosial-iqtisadi inkişafın 1997/98-2001-ci illəri əhatə edən bu mərhələsi iqtisadiyyata dövlətin qısa və orta müddətli proqram xarakterli tənzimləmə müdaxiləsinin başlanması, onun bütün sahələrində, iqtisadiyyatın sürətli inkişaf yoluna çıxması üçün zəmin hazırlanması ilə səciyyələnir. Belə ki, respublikada başlanmış sabit inkişaf prosesi, investisiya imkanlarının genişlənməsi və digər keyfiyyət dəyişiklikləri iqtisadiyyatın dövlət tənzimlənməsinin inkişafı üçün əlverişli şərait yaradır. ***Dünya praktikasında davamlı inkişaf prosesinin başlanmasının özü qeyri-sabit, birbaşa dövlət müdaxiləsi nisbətən aşağı səviyyədə olan iqtisadiyyatdan dövlət tərəfindən geniş miqyasda tənzim və idarə olunan iqtisadiyyata keçid mərhələsinin başlanğıcı kimi diqqəti cəlb edir.*** Bu mərhələdə iqtisadiyyatın bütün sahələrinin inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə dövlətin təsir dairəsi genişlənir. İnkişaf səviyyəsi geri qalan, necə deyərlər, «problemli regionların» inkişafına dövlət xüsusi qayğı göstərir. Başlıcası isə sabit sürətlə inkişaf edən iqtisadiyyatın qarşısına böyük strateji məqsədlər qoymaq və sosial-iqtisadi inkişafa məqsədyönlü xarakter vermək imkanları genişlənir. ***Belə şəraitdə qısa və orta***

---

[1] Yenə orda.

***müddətli regional və sahə miqyaslı məqsədli proqramların işlənib hazırlanması, proqnozlaşdırma, onlardan dövlət qurumları səviyyəsində istifadə olunması, iqtisadiyyat sahələrinin və regionların inkişafına müxtəlif maliyyə yardımlarının göstərilməsi yolu ilə ölkənin sosial-iqtisadi inkişafına məqsədyönlü xarakter vermək dövlətin sosial və iqtisadi siyasətinin əsas istiqamətlərinə çevrilir.*** 1997-1998-ci illərdə Respublikamızda belə bir iqtisadiyyata, iqtisadi münasibətləri tənzim və idarəetmə sisteminə keçid mərhələsi başlanır. Qarşıda duran əsas vəzifələrdən biri iqtisadiyyatın və iqtisadi münasibətlər sisteminin yeni inkişaf mərhələsinə keçməsi ilə əlaqədar müsbət dəyişiklikləri düzgün qiymətləndirmək, idarəetmədə baş verməli olan keyfiyyət dəyişikliklərini düzgün görmək və onlardan istifadə etmək idi.

Bu strateji vəzifələri yerinə yetirmək üçün dövlət ilk dəfə olaraq idarəetmənin təşkilati mexanizmi kimi qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin qısa və orta müddətli məqsədli inkişaf proqramlarını hazırladı və icrasını təmin etdi. Bu məqsədlə "Azərbaycan Respublikasında iqtisadi yüksəliş və struktur yenidən qurması üzrə orta müddətli proqram", "Dövlət sektoruna investisiya qoyuluşunun orta müddətli proqramı", "1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa kömək Dövlət proqramı", "2002-2005-ci illərdə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək proqramı" və digər proqramlar qəbul edilir, sahibkarlığın inkişafına maliyyə-kredit dəstəyi vermək üçün "Sahibkarlara Kömək Milli fondu" təsis olunur, Kiçik və Orta sahibkarlığın inkişafı agentliyi yaradılır və i.a.

Bu illərdə Respublikada neft hasilatı və ixracı artırdı;

nefti ixrac etmək üçün Bakı-Novorossiyski Neft kəmərinin Azərbaycana aid hissəsi yenidən quruldu (1996-cı ildə), 1999-cu ildə Bakı-Supsa neft kəməri çəkildi. Neft ixracından daxil olan gəlirlərdən istifadə etmək qaydaları müəyyənləşdirildi. 1999-cu il 25 dekabrda Neft fondu təsis edildi, 2000-ci ildə bu fonddan qeyri-neft sektorunun inkişafında istifadə etmək qaydaları (əsasnaməsi) təsdiq edildi.

Bu proqramların yerinə yetirilməsi və sahibkarlığın inkişafı ilə bağlı digər çoxsaylı tədbirlərin görülməsi nəticəsində inzibati rayonlar və şəhərlər iqtisadiyyatın sabit sürətlə davamlı inkişafı mərhələsinə daxil olmuş, onların maliyyə imkanları da xeyli artmışdır.

Görülən məqsədli proqram xarakterli tədbirlər 2000-ci ildən başlayaraq iqtisadiyyatın bütün sahələrində nisbətən sürətli inkişafa səbəb oldu. Azərbaycanın sənaye məhsulu özündən əvvəlki ilə nisbətən 1997-ci ildə 0,3% artdığı halda, 1998-ci ildə bu göstərici 2,2%, 1999-cu ildə 2,3% və 2000-ci ildə 6,9% olmuşdur. Sənayedə özəl bölmənin xüsusi çəkisi 1998-ci ildəki 25%-dən 2000-ci ildə 43%-ə çatmışdır. Sənayenin əvvəllər dərin böhrana düşmüş metallurgiya, maşınqayırma, yüngül sənaye kimi sahələrində əvvəlki illərə nisbətən nəzərə çarpacaq inkişaf olmuş, ÜDM, ümumi kapital qoyuluşu, kənd təsərrüfatı məhsulu, ixrac-idxal sürətlə artmağa başlamışdır. Bununla da iqtisadiyyatın inkişafı üçün daha böyük məqsədli proqramların hazırlanması və tətbiqinə əlverişli şərait yaranır.

Nəticədə regional inkişaf siyasətini daha da aktivləşdirmək, rayonların və şəhərlərin inkişafının tənzim olunması sahəsində qarşıya daha geniş, kompleks xarakterli məqsədlər qoymaq və onun yerinə yetirilməsini təmin etmək üçün

real şərait yaranmışdır.

Qeyd etmək vacibdir ki, 2001-2002-ci illərdə nisbətən sürətli və davamlı inkişaf meylləri iqtisadiyyatın bütün əsas sahələrini əhatə etdiyinə görə dövlətin iqtisadiyyatın inkişafını proqram məqsədli tənzimləmə vasitə və metodları da əvvəlki illərə nisbətən daha geniş və müntəzəm xarakter almışdır. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)» bunun əyani sübutudur (17 avqust 2002-ci ildə qəbul edilmişdir). Respublika Prezidentinin fərmanında göstərildiyi kimi proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, maliyyə köməyi mexanizminin dərinləşməsi, ***sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda onların inkişafına əlverişli şərait yaradılması əsasında kiçik və orta sahibkarlığın inkişafını təmin etməkdən ibarətdir.***

***Qeyd etmək lazımdır ki, bu proqramda ilk dəfə olaraq regionlarda qeyri neft sektorunun və sahibkarlığın inkişafına şərait yaratmaq və beləliklə regionları inkişaf etdirmək məsələsi ayrıca qeyd olunur. Nəticədə bu proqram 2002-ci ildən başlayaraq neft sektoru ilə yanaşı qeyri neft sektorunun, o cümlədən qeyri neft sənayesinin inkişafına da diqqət verilməyə başlandığını göstərən çox mühüm dövlət sənədi oldu.***

Proqramın maliyyə mənbələri də əvvəlki proqramlarda olduğuna nisbətən xeyli genişlənmiş və çoxmənbəli xarakter almışdır: dövlət büdcə təsisatları üzrə ayırmalar, Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti, əhalinin məşğulluğu üzrə dövlət vəsaiti, məqsədli layihələr, xarici investisiyalar, bələdiyyələrin vəsaiti, əhalidən könüllü daxil olan

vəsaitlər, beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə köməyi.

Proqramın yerinə yetirilməsi nəticəsində sahibkarlıq fəaliyyətinin, iqtisadi fəaliyyətin inkişafına və regional strukturun təkmilləşməsinə nail olmaq nəzərdə tutulurdu. Bununla yanaşı, 2001-ci ildə «2002-2005-ci illərdə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək» məqsədilə dövlət proqramı qəbul edilmiş və Respublika Prezidenti tərəfindən onu təsdiq edən sərəncam imzalanmışdır və i.a. Bütün bunlar onu göstərir ki, 1997-2001-ci illər Respublikada iqtisadiyyatın sabit sürətlə davamlı inkişafı onun dövlət tənzim və idarə olunmasının genişlənməsi və proqram məqsədli tənzimləmə vasitələrinin geniş tətbiqi ilə müşayiət olunur.

Bu proqramlar və digər belə əsaslı tədbirlər yaxın keçmişdə iqtisadiyyatı yüksək inkişaf səviyyəsi ilə fərqlənən, hazırda isə düşdüyü böhrandan öz qüvvəsi ilə çıxıb sabit sürətlə davamlı inkişafı təmin edə bilməyən şəhər və rayonların, eləcə də iqtisadiyyatın inkişafı üçün geniş imkanları olan aqrar rayonların inkişafına dövlətin birbaşa və dolayı iqtisadi metodlarla geniş müdaxiləsinin başlandığını aydın göstərir. Regional siyasəti aktivləşdirmək, rayon və şəhərlərin inkişafına yardım göstərmək məsələsi Respublika Prezidentinin həmişə diqqət mərkəzində olmuş və yenə də qalır. 2002-ci ildə Respublika Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin rayonlarımızda qaçqın və məcburi köçkünlərə mənzil tikintisi üçün Neft Fondundan 76 milyon dollar vəsait ayırması, Gəncə və Şəki şəhərlərinə, Naxçıvan Muxtar Respublikasına işgüzar səfərləri zamanı gördüyü tədbirlər, Naxçıvan, Gəncə, Şəki şəhərlərində qısa müddətdə müasir olimpiya kompleksləri-

nin tikilib istifadəyə verilməsi, Naxçıvan MR-də təbii sərvətlərdən səmərəli istifadə etmək, elm, sosial və istehsal infrastrukturunu inkişaf etdirmək üçün görülən tədbirlər, Gəncə şəhərinin öz əvvəlki simasını qaytarması üçün xeyli tədbirlərin müəyyənləşdirilməsi, 3,0 mln AZN büdcə vəsaiti, 600 min AZN güzəştli kredit verilməsinin nəzərdə tutulması, Şəki şəhərində ipək kombinatının öz fəaliyyətini bərpası üçün 300 min AZN faizsiz kredit və 100 min AZN maliyyə yardımı ayrılması Respublika Prezidentinin təşəbbüsü və himayədarlığı ilə aktiv regional siyasətin həyata keçirilməsinə başlanmasının əyani sübutudur. Mingəçevir, Sumqayıt, Şirvan, Neftçala, Salyan, Lənkəran şəhərlərində istehsal və xidmət sahələrinə müxtəlif mənbələrdən investisiya qoyulması nəzərdə tutulurdu.

Beləliklə, 1997-ci ildən başlayaraq görülən proqram xarakterli tədbirlər 2001-2002-ci illərdə daha da geniş vüsət almış və özünün müsbət nəticələrini vermişdir: makroiqtisadi göstəricilərin artımı sürətlənmiş, bazar iqtisadiyyatına keçid istiqamətində əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdir. İstehsal və xidmət sahələrində bazar münasibətləri hökmran mövqe tutmuşdur. İqtisadiyyatın digər sahələrinə investisiya qoyuluşu imkanları genişlənmiş, ÜDM, sənaye və kənd təsərrüfatı məhsulu istehsalının artımı sürətlənmişdir. Özəl sektor ÜDM istehsalında həlledici mövqe tutmuşdur. Onun xüsusi çəkisi 1995-ci ildəki 32,3%-dən 2000-ci ildə 69%-ə, 2002-ci ildə 72%-ə çatmışdır.[1] Ticarətdə, kənd təsərrüfatı məhsulu istehsalında özəl sektorun xüsusi çəkisi daha yüksək idi. Dövlətin, müəssisələrin maliyyə imkanları nisbətən genişlənmiş, kapital qoyuluşunda

---

[1]Bu və sonrakı rəqəmlər üzrə bax: Azərbaycanın statistik göstəriciləri. ARDSK, "Səda" nəşriyyatı, Bakı 2001, 2002, 2003-cü illər

respublikadaxili mənbələrin rolu artmışdır. Azərbaycan iqtisadiyyatı əsas vəsait qoyuluşunun artım sürətinə görə MDB ölkələri arasında birinci yeri tuturdu. 2002-ci ildə əsas kapitala yatırılmış investisiyalar 2001-ci ilə nisbətən 1,82 dəfə artmışdı. İnflyasiya 2-3% səviyyəsinə enmişdi. Bütövlükdə iqtisadiyyata orta illik investisiya qoyuluşu artaraq elə səviyyəyə çatmışdı (10292,8 milyard manat) ki, bununla iqtisadiyyatın inkişafı ilə əlaqədar daha ciddi vəzifələr yerinə yetirmək və iqtisadiyyatın neftlə yanaşı digər sahələrinin inkişafını da nisbətən sürətləndirmək olardı.

### II.3.3. Azad sektoru, qeyri-neft sektorunu inkişaf etdirmək və yoxsulluğu azaltmaq siyasəti: 2003-2005-ci illər

***Neft sektorundan böyük gəlirlər gözlənilir. Bu, Azərbaycanın milli sərvətidir. Azərbaycanın ən vacib sahələrində bu sərvətdən istifadə oluna bilər...***

***Ancaq eyni zamanda, Azərbaycanın qeyri-neft sektorunda çox böyük imkanlarımız vardır. Azad sektorda, iqtisadiyyatın neftə aid olmayan başqa sektorlarında böyük imkanlarımız vardır. Bu imkanların hamısından istifadə olunması və nəticədə iqtisadiyyatın inkişafının, xalqın rifah halının yaxşılaşdırılmasının təmin edilməsi bizim vəzifəmizdir. Sizə bildirmək istəyirəm ki, bunun üçün bizim real imkanlarımız da yaranıbdır. Biz indiyə qədər apardığımız işlər nəticəsində həm xeyli uğurlar əldə etmişik, həm də gələcək illər üçün çox tutarlı əsas yaratmışıq.***

***Əgər biz 1994-1995-ci illərdə, demək olar ki, boş yerdə, dağılmış iqtisadiyyat şəraitində Azərbaycanın inkişafını təmin etməyə başladıqsa, bilirsiniz ki, indi böyük bir bünövrə üzərində dururuq. Bu bünövrə də Azərbaycanın bugünkü müstəqilliyi, azadlığı, Azərbaycanın müstəqil,demokratik, dünyəvi, hüquqi dövlət qurması, Azərbaycanın Konstitusiyasıdır. Yenə də deyirəm, indi Azərbaycanın güclü iqtisadiyyatı var. Biz bu möhkəm təməl üzərində dururuq və buradan gələcəyə doğru irəliləyirik. Bax, bu yolda bizim əsas vəzifələrimizdən biri yoxsulluğun azaldılmasıdır.***

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*«Azərbaycan Respublikasında yoxsulluğun Azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» nın təqdimatına həsr olunmuş Ümummilli Konfransdakı nitqindən.*[1]

Respublika Prezidenti Heydər Əliyev «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimatına həsr olunmuş Ümummilli Konfransdakı nitqində son illərdə iqtisadi və sosial sahədə əldə olunmuş müsbət nəticələri ümumiləşdirərək demişdir: «...Azərbaycan 1990-cı illərin əvvəllərindəki ağır vəziyyətdən çıxaraq ardıcıl surətdə inkişaf etmiş və artıq 2000-ci ildən sonra bu inkişaf daha da sürətli olmuşdur, ölkəmiz irəli gedir. Respublikamızın həm iqtisadiyyatını, həm də xalqın güzəranını çox yaxşı gələcək gözləyir. Biz bunu indiyə qədər gördüyümüz işlərin əsasında təmin etmişik və gələcəkdə görəcə-

---

[1] "Dirçəliş-XXI əsr" jurnalı, №70, dekabr, 2003, səh.203-204

yimiz işlər bunların hamısını tamamlayacaqdır».[1]

İqtisadiyyatımızın böyük gələcəyinə inam həm də onunla izah oluna bilər ki, yuxarıda göstərdiyimiz müsbət inkişaf meyilləri təkcə ümumrespublika və sahələr miqyasında deyil, həm də region miqyasında, ayrı-ayrı şəhər və rayonlarda baş verirdi. Məhsuldar qüvvələrin Respublika daxilində yerləşməsi sahəsində müsbət meyillər özünü göstərir. Respublikanın bütün əsas sənaye şəhərlərində sənaye-istehsal həcminin aşağı düşməsinin qarşısı alınmış və artım meyilləri başlanmışdı. Bakı şəhərində 1997-ci, Lənkəranda 1998-ci, Gəncədə və Şirvan şəhərində 1999-cu, Naxçıvan, Mingəçevir və Sumqayıt şəhərlərində 2000-ci ildən başlayaraq istehsalın həcmi əvvəlki ilə nisbətən artmışdır. Kənd rayonlarının demək olar ki, hamısında kənd təsərrüfatı məhsulu istehsalı son illərdə sabit sürətlə artmaqdadır. Beləliklə, bazar münasibətləri əsasında sabit sürətlə inkişaf iqtisadiyyatın bütün əsas sahələrini və əksər inzibati rayon və şəhərləri əhatə etməklə ümumi xarakter daşıyırdı.

*Bütün bu müsbət dəyişikliklər də öz növbəsində Azərbaycan iqtisadiyyatının inkişafında və bazar münasibətlərinə keçid prosesində keyfiyyətcə yeni mərhələnin başlanmış olduğunu göstərir. Azərbaycanda iqtisadi münasibətlərin yenidən qurulması prosesi başa çatmaqdadır. İqtisadiyyat bazar münasibətləri əsasında müxtəlif mülkiyyət formaları üzərində sürətlə və davamlı inkişaf mərhələsinə*

---

[1] «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimatına həsr olunmuş Ümummilli Konfransda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. «Dirçəliş-XXI əsr», 2002 oktyabr, №56, səh.53-59.

*daxil olmuşdur.*[1]

İndi bizim qarşımızda iqtisadiyyatın və iqtisadi münasibətlər sisteminin yeni inkişaf mərhələsinə keçməsilə əlaqədar müsbət dəyişiklikləri düzgün qiymətləndirmək və Respublikanın daha uğurlu gələcəyi naminə istifadə etmək kimi ümumi bir vəzifə dururdu.

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin milli və xarici sahibkarlarla görüşdə, «Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimat mərasimində, Yeni Azərbaycan Partiyasının yaradılmasının X-cu il dönümü ilə əlaqədar təntənəli toplantıdakı nitqində, Naxçıvan, Şəki və Gəncə şəhərlərinə işgüzar səfərləri zamanı etdiyi məruzə və nitqlərdə Respublika iqtisadiyyatında son illərdə baş verən keyfiyyət dəyişiklikləri aşkara çıxarıldı. Eyni zamanda, yaxın illərdə onun inkişaf strategiyası, məqsəd və vəzifələri müəyyənləşdirildi. Bu çıxış və nitqlərdə belə bir fikir əsaslandırıldı ki, indi neft sektoru ilə yanaşı, qeyri-neft sektorunu da sürətlə və bütün sahələrdə inkişaf etdirmək, regionlarımızın geniş imkanlarından istifadə etmək üçün əlverişli şərait yaranmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bunu nəzərdə tutaraq «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)»nın təqdimat mərasimindəki nitqində demişdir: «...Bazar iqtisadiyyatı getdikcə inkişaf etməli, genişlənməli və Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə etməlidir... Neft Fondu Azərbaycanın iqtisadi vəziyyətinin təminatçısıdır. Ancaq eyni zamanda Azərbay-

---

[1] Ə.X. Nuriyev. Regional iqtisadiyyatın dövlət tənzimlənməsi yeni inkişaf mərhələsində. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı, №1, 2003. səh.101.

canın qeyri-neft sektorunda da çox böyük imkanlarımız vardır. Azad sektorda, iqtisadiyyatın neftə aid olmayan başqa sektorlarında böyük imkanlarımız vardır. Bu imkanlarımızın hamısından istifadə olunması və nəticədə iqtisadiyyatın inkişafının, xalqın rifah halının yaxşılaşmasının təmin edilməsi bizim vəzifəmizdir».[1] Heydər Əliyevin proqram xarakterli bu göstərişi Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişaf strategiyasını müəyyən etməyə əsas verir.

Bunu əldə rəhbər tutaraq və Azərbaycan iqtisadiyyatında baş verən müsbət meyilləri nəzərə alaraq biz hələ 2003-cü ilin əvvəlində belə hesab etmişik ki, yaxın 5-8 il üçün Respublika iqtisadiyyatının inkişafı qarşısında duran əsas strateji vəzifə neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna daxil olan əsas istehsal (maşınqayırma, kimya, metallurgiya, aqrar-sənaye kompleksinin ixtisaslaşmış sahələri) və xidmət sahələrinin (enerji, qaz və su təchizatı, səhiyyə, təhsil, yol şəbəkəsi və i.a.) dirçəldilməsi və sabit inkişafı əsasında iqtisadiyyatın hazırkı sabit və sürətli artım tempini qoruyub saxlamaq hesabına yoxsulluğu azaltmaq və sonra tamamilə aradan qaldırmaq, həyat səviyyəsini yüksəltməkdən ibarətdir.[2] Bu strateji vəzifə əvvəllər qarşıya qoyulmuş

---

1 «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimatına həsr olunmuş Ümummilli Konfransda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. «Dirçəliş-XXI əsr», 2002 oktyabr, №56. səh.58-59.

2 Bu strateji xətti biz xalqımızın ümummilli lideri Heydər Əliyevin məlum nitqindən az sonra müəyyən etmişik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il fərmanında və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»nda verilmiş inkişaf strategiyası bizim ölkə iqtisadiyyatının perspektiv inkişaf strategiyasına münasibətdə mövqeyimizin ümumdövlət mənafe və mövqeyilə tam üst-üstə düşdüyünü göstərdi. (Bax: Ə.X.Nuriyev. Regional iqtisa-

strateji vəzifələrdən özünün genişliyinə və iqtisadiyyatın bütün sahələrini əhatə etməsinə görə xeyli fərqlənir.

İndiyə qədər ölkədə ən çox neft sektorunun inkişafına fikir verilir, xarici investisiya da başlıca olaraq həmin sahəyə cəlb olunurdu. Eyni zamanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün Azərbaycanın zəngin imkanları olduğunu da hamımız başa düşürük, sadəcə olaraq əhalinin ümumi güzəranının aşağı olması, xarici investorların qeyri-neft sektoruna kifayət qədər maraq göstərməməsi, milli sahibkarların maliyyə imkanlarının məhdud olması, daxili və xarici bazarın məhdudluğu qeyri-neft sektoruna kifayət qədər investisiya cəlb olunmasına mane olurdu. 2002-2003-cü illərdə bu maneələr qismən aradan qalxmış, investisiya imkanları xeyli genişlənmiş, aktiv regional siyasət yeridilməsi, qeyri-neft sektorunda iqtisadiyyatın əsas sahələrinin tərəqqisi və əhalinin həyat səviyyəsinin yüksəlməsi üçün əlverişli şərait yaranmışdı.

Azərbaycanda bu əlverişli şəraitdən istifadə edərək aktiv regional siyasət yeridilməsi və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında «Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı 2003-2005-ci illər» [1] çox mühüm rol oynamışdır.

Bu proqram öz mahiyyətinə görə Respublika rayon və şəhərlərinin inkişafı, yoxsulluğun və işsizliyin azaldılması, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün respublikanın və beynəlxalq təşkilatların səylərinin birləşdirilməsi və istifadəsində ən mühüm mərhələ, ən irimiqyaslı tədbir-

---

diyyatın dövlət tənzimlənməsi yeni inkişaf mərhələsində. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı, №1, 2003, səh.102.)

[1] Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005). Bakı, «QAPP-POLİQRAF» Korporasiyası, 2003. 288 s.

dir. 25 oktyabr 2002-ci ildə proqramın təqdimatına həsr olunmuş Ümummilli Konfransda Respublika Prezidenti Heydər Əliyev geniş nitq söyləyərək proqramın məramını, əhəmiyyətini və görülməli olan işləri ətraflı açıqlamışdır. Proqram 3 il müddətinə (2003-2005-ci illər) müzakirələrin nəticələrinin nəzərə alınması və təkmilləşdirmələr aparılması şərtilə qəbul olunmuşdur.

***Əvvəla***, bu proqram 2004-cü ilə qədər dövlət tərəfindən hazırlanan iqtisadiyyatın inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən proqramlar içərisində ən mühümüdür, ümummilli xarakter daşıyan və yerinə yetirildiyi təqdirdə Azərbaycanın sosial-iqtisadi inkişafına güclü təsir göstərə bilən mühüm sənəddir. Həmin sənədin hazırlanması üçün müvafiq təşkilatlar, xüsusilə İqtisadi İnkişaf Nazirliyi, Dünya Bankının Azərbaycan nümayəndəliyi, Sosial Texnologiyalar Mərkəzi tərəfindən xeyli iş görülmüşdü. Lakin nəzərdə tutulurdu ki, proqram özünün yerinə yetirilməsi gedişində daim təkmilləşəcək və yeni-yeni tədbirlərin hazırlanması və tətbiqi ilə tamamlanacaqdır.

Proqramın icrası üçün qeyri-neft sektorunda istehsal və xidmət sahələrinin inkişafına 3 milyard ABŞ dolları həcmində vəsait qoyulması nəzərdə tutulurdu. Bu həmin müddətdə Azərbaycan iqtisadiyyatının bütün sahələrinə qoyulması proqnozlaşdırılan investisiyanın 30%-nə bərabərdir. Proqramın böyüklüyü haqqında aydın təsəvvür yaratmaq üçün öncə belə bir cəhətə diqqəti cəlb etmək istərdik ki, dünya praktikasında ölkə iqtisadiyyatına qoyulması proqnozlaşdırılan vəsaitin belə böyük hissəsinin bir proqramın icrasına yönəldilməsinin nəzərdə tutulması nadir hallarda təsadüf olunan hadisədir.

***İkincisi***, bu proqram dünyanın 70-dən çox ölkəsində, o

cümlədən MDB ölkələrində yoxsulluğu azaltmaq və iqtisadi inkişafı təmin etmək üçün görülən proqram xarakterli, geniş miqyasli işlərin daxili tərkib hissəsidir. Artıq dünyanın mütərəqqi adamları və təşkilatları belə bir mövqeni dərk edirlər ki, yoxsulluq – əhalinin böyük bir hissəsinin ehtiyac içərisində yaşaması XX-XXI əsrlərdə bəşəriyyətin faciəsidir və onu aradan qaldırmaq üçün birgə səylər göstərilməsi vacibdir. Bu baxımdan bu proqram Azərbaycan dövlətinin beynəlxalq təşkilatlara qoşulması və bu təşkilatların investisiya imkanlarından geniş miqyasda istifadə etməklə yoxsulluğun azaldılması üçün onlarla birlikdə fəaliyyət göstərməsi formasıdır.

*Üçüncüsü,* bu proqram öz mahiyyətinə görə indiyə qədər qeyri-neft sektorunun inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində Respublikada görülən işlərin, əldə olunmuş nailiyyətlərin qanuni nəticəsi və davamıdır. İndiyə qədər dövlətimiz iqtisadiyyatın qeyri-neft sektorunun bu və ya digər sahəsini, sahibkarlığı inkişaf etdirmək, bu və ya digər qrup əhalini yoxsulluqdan qorumaq, həyat səviyyəsini yüksəltmək üçün vaxtaşırı bir sıra tədbirlər görmüş, proqramlar qəbul etmişdir. Bunların yerinə yetirilməsi nəticəsində biz iqtisadiyyatın bütün sahələrində, bütün rayon və şəhərlərimizdə təsərrüfat quruculuğu ilə bağlı potensialı hərəkətə gətirmiş, yoxsulluğun azaldılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində nəzərə çarpacaq və bir sıra hallarda böyük nailiyyətlər əldə etmişik. İndi başlıca vəzifə: 1. hərəkətə gətirilmiş bu potensialdan Respublikanın bütün istehsal və xidmət sahələrində, bütün inzibati rayon və şəhərlərdə istifadəni genişləndirməkdən; 2. islahatları davam etdirmək, nailiyyətləri möhkəmlətmək, bu əsasda sabit və sürət-

li sosial-iqtisadi inkişafı təmin etməkdən;

3. Sonuncunun əsasında isə yoxsulluğu azaltmaq, əhalinin bütün təbəqələrinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir. İndi yoxsulluğu, onu doğuran səbəbləri aradan qaldırmaq, ölkədə sabit sosial-iqtisadi inkişafı təmin etmək, həyat səviyyəsini yüksəltmək üçün bütün ərazilərdə və təsərrüfat sahələrində uzunmüddətli kütləvi iş aparılması vacib bir vəzifə kimi qarşıda dururdu.

***Dördüncü,*** proqramda Azərbaycanda yoxsulluq probleminə, onun azaldılması yollarına geniş mənada, kompleks yanaşılır. Yoxsulluğu azaltmaq üçün yalnız əhalinin gəlirlərinin artırılması, ərzaq məhsullarına tələbatın ödənilməsi deyil, həm də əhalinin həyat və fəaliyyət şəraitini yaxşılaşdırmaq, sonra isə yoxsulluğun azaldılması vasitəsi kimi onu doğuran səbəblərin aradan qaldırılması, Azərbaycanın ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. Yoxsulluq probleminə belə yanaşma strateji baxımdan düzgün və əhəmiyyətlidir. Belə ki, Azərbaycanda yoxsulluq problemi istehsal və xidmət sahələrinin dərin böhrana düşməsi, işsizliyin, yarım-işsizliyin mövcud olması və geniş vüsət almasından, əhalinin əmək haqqları və digər gəlir mənbələrinin nisbətən aşağı olmasından irəli gəlmişdir. Deməli yoxsulluğu azaltmaq üçün onu doğuran səbəbləri aradan qaldırmaq, öncə yeni iş yerləri açmaq üçün istehsal və xidmət sahələrini inkişaf etdirmək, sudan, torpaqdan, yerli təbii resurs və əmək potensialından səmərəli istifadə etmək lazımdır. Haqlı olaraq bu cəhət proqramda ön plana çəkilmişdi. Beynəlxalq təşkilatlarla birlikdə respublikanın rayon və şəhərlərində yeni suvarma sistemlərinin yaradılması, yolların təmiri və çəkilməsi, elektrik stansiyası, xəstəxana, məktəb, digər infrastruktur

obyektlərinin inşası, bu əsasda çoxsaylı iş yerlərinin açılması nəzərdə tutulurdu.

Eyni zamanda respublika regionlarında, xüsusilə aqrar və aqrar-sənaye regionlarında - dağlıq, dağətəyi inzibati rayonlarda sahibkarlığın inkişafına şərait yaratmaq, onların vergi yükünü azaltmaq məqsədilə 2003-cü ildən başlayaraq mənfəətdən vergi dərəcələrini aşağı salmaq, müxtəlif inkişaf səviyyəsinə malik şəhər və inzibati rayonlara müxtəlif vergi dərəcələri tətbiq etmək nəzərdə tutulurdu. Belə ki, mənfəətdən vergi dərəcəsi Bakı şəhərində 27%-dən 25%-ə qədər, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naxçıvan kimi respublika tabeli sənaye üstünlük təşkil edən regional mədəni-iqtisadi mərkəz şəhərlərdə 20%, digər aqrar-sənaye mərkəz xarakterli rayon və şəhərlərdə 15%, iqtisadiyyatı nisbətən zəif olan dağ rayonlarında 10% nəzərdə tutulurdu.

Mənfəətdən vergi dərəcələrinin aşağı salınmaqla rayon və şəhərlər üzrə diferensiallaşdırılması Azərbaycanda Abşerondan kənar iqtisadi rayonların inkişafına şərait yaradan yeni, çox mühüm bir tədbir idi. Respublikanın milli sahibkarları və elmi ictimaiyyəti tərəfindən bu məsələnin diqqətlə öyrənilməsi bu gün də öz aktuallığını saxlayır.

Lakin Dünya Bankı və başqa beynəlxalq maliyyə-kredit təşkilatlarının dəstək verməməsi səbəbindən regionların inkişafı üçün mühüm əhəmiyyət kəsb edən bu tədbir axıradək həyata keçirilmədi.

Qaçqın və məcburi köçkünlərin güzəranını yaxşılaşdırmaq üçün yaşayış binalarının, xəstəxanaların, məktəblərin tikintisinin davam etdirilməsi, bu və ya digər bu tipli tədbirlərə proqrama uyğun olaraq 3 milyard dollar, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə isə cəmi 10 mil-

yard dollar vəsait xərclənməsi nəzərdə tutulurdu. Bütün bu tədbirlərin həyata keçirilməsi Azərbaycanda yoxsulluğun azalmasına, sonrakı illərdə isə tamamilə aşağı salınmasına gətirib çıxarmalı idi.

Yuxarıda göstərdiyimiz kimi, «Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» ümummilli inkişaf proqramı kimi qəbul edilmişdi. Eyni zamanda proqram regionların inkişafı ilə sıx bağlı olub, respublikanın bütün rayon və şəhərlərində yoxsulluğu azaltmaq və iqtisadi inkişafı təmin etmək üçün tədbirlər görülməsini, yeni istehsal, xidmət sahələrinin yaradılmasını, sosial və istehsal infrastruktura sahələrinin inkişafını nəzərdə tuturdu.

Lakin amansız ölüm Heydər Əliyevə öz strateji xəttini həyata keçirməyə imkan vermədi.

Ümummilli liderimiz vəfat etdiyi vaxt onun siyasətinin bütün keyfiyyətlərini, amallarını başa düşən, müstəqillik illərində əldə olunmuş müsbət nə varsa hamısını qoruyub saxlaya və inkişaf etdirə bilən rəhbərə böyük ehtiyac yarandı. Heydər Əliyev özü belə rəhbər kimi İlham Əliyevi görürdü.

## II.4. 1997-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişafının yekunları: sosial-iqtisadi inkişafı sürətləndirmək və məqsədli proqramlarla idarəetməni təkmilləşdirmək zərurəti

«Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)» Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində çox mühüm rol oynadı

Onun qarşıya qoyduğu vəzifələr 2003-cü ildə müvəffəqiyyətlə yerinə yetirildi. 2004-cü ildə də onun müvəffəqiyyətlə yerinə yetirilməsi davam edirdi. Lakin 2001-2003-cü illərdə sosial-iqtisadi inkişafda baş verən mütərəqqi meyillər, daxili investisiya imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsi, eyni zamanda yoxsulluğu və işsizliyi daha sürətlə aradan qaldırmaq mənafeyi qeyri-neft sektorunun «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda nəzərdə tutulduğuna nisbətən daha sürətlə inkişaf etdirilməsi vəzifəsini qarşıya qoyurdu. Bu isə öz növbəsində sosial-iqtisadi inkişafın strategiyasında müəyyən dəyişikliklər edilməsini, yeni proqramlar qəbulunu və onların yerinə yetirilməsinin üsul və vasitələrinin təkmilləşməsini tələb edirdi. Bunun iki qrup səbəbləri var:

Birinci qrup səbəb odur ki, Azərbaycan iqtisadiyyatı 2001-ci ildən başlayaraq bütün sahələrdə tədricən sürətlə davamlı inkişaf etməyə başlamış və indi inkişaf üçün yeni imkanlar, mütərəqqi xüsusiyyətlər yaranmışdı. Bu meyillər Azərbaycanda qeyri-neft sektorunun və deməli Abşerondan kənar iqtisadi rayonların daha sürətlə inkişafı üçün real imkan yarandığını göstərirdi. Bu xüsusiyyətlər aşağıdakılarda ifadə olunur:

***1) Artıq 2003-cü ilin sonunda ölkəmizdə iqtisadi münasibətlərin yenidən qurulması prosesi həlledici mərhələyə daxil olmuşdu və bazar münasibətləri bütün sahələrdə hökmran xarakter daşımağa başlamışdır.*** Torpağın özəlləşdirilməsi başa çatmaq üzrə idi. Özəlləşdirilməsi nəzərdə tutulan 1395 min hektar torpağın artıq 1391 min hektarı (99,4%) özəl mülkiyyətçilərə verilmişdi. Hər ailəyə 1,6 hektar torpaq sahəsi verilmiş - kəndlilər müstəqil yaşamağı, sahibkarlığı, bazar mühitində işləməyi öyrəniblər. İqtisa-

diyyatın qalan sahələrində də özəlləşdirmə əsasən başa çatıb, bazar münasibətləri bərqərar olmuşdu. Məhsul istehsalının kənd təsərrüfatında 99%-dən çoxu, sənayedə 54%-i, nəqliyyatda 70%-ə qədəri özəl bölmənin payına düşür; özəl bölmə ümumdaxili məhsul istehsalında həlledici yer tuturdu (73 %);

2) İqtisadiyyatın ***dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində əsaslı müvəffəqiyyətlər qazanılmışdı.*** Xarici ticarət dövriyyəsi 1996-2003-cü illərdə 2,8 dəfə artmış, ölkənin xarici ticarət əlaqələri və onun ikitərəfli xarakteri genişlənmişdi. 2000-ci ildən sonra bir qayda olaraq xarici ticarət dövriyyəsi müsbət saldo ilə başa çatırdı;

3) Respublikada həm ümumi daxili məhsul istehsalı, həm də neft sektoru ilə yanaşı iqtisadiyyatın bütün əsas sahələrində davamlı sürətli inkişaf başlanmışdı. Məhsul istehsalı sürətlə artmaqdadır. 1996-2003-cü illərdə ÜDM 1,9 dəfə (87%), kənd təsərrüfatı məhsulu istehsalı 1,6 dəfə, sənaye məhsulu 25%, yükdaşıma 2,6 dəfə artmışdı. Ümumi daxili məhsul istehsalının 2001-2003-cü illərdə orta illik artım sürəti 10%, o cümlədən 2003-cü ildə 11,2% olmuşdu. 2004-cü ildən başlayaraq iqtisadiyyatın inkişafının daha da sürətlənməsi gözlənilirdi. 2004-cü ilin birinci rübündə ÜDM 10,6 % artmışdı. Bu göstərici istər MDB üzvü olan ölkələrin, istərsə də inkişaf etməkdə olan ölkələrin həmin dövr üçün orta göstəricilərindən yüksək idi;

İstehsalın ərazi təşkilində də xeyli müsbət dəyişikliklər baş vermiş, Bakı şəhəri və Abşeron iqtisadi rayonu ilə bərabər başqa iqtisadi rayonlarda da, inzibati rayonlar və şəhərlərdə də iqtisadiyyat az-çox sürətlə inkişafa başlamışdı. ***Başqa sözlə, nisbətən sürətlə davamlı inkişaf həm bütövlükdə Respublikada ümumi daxili məhsul istehsalını,***

*həm ayrı-ayrı mühüm təsərrüfat sahələrini və həm də şəhər və inzibati rayonları əhatə etməklə ümumi xarakter daşıyırdı;*

4) Respublikamızın investisiya imkanları genişlənmiş, dövlətin iqtisadiyyatı tənzimləmə və idarəetməsinin iqtisadi mexanizmləri əhəmiyyətli dərəcədə güclənmişdi. 2003-cü ildə ölkə iqtisadiyyatına və sosial sferanın inkişafına bütün mənbələrdən təqribən 3,9 milyard dollardan çox investisiya qoyulmuşdur ki, bu da 2002-ci ilin müvafiq dövrünə nisbətən 72,1% çoxdur. Müstəqillik illərində iqtisadiyyata 16 milyard dollar investisiya qoyulmuşdu. Bundan 27%-i daxili və 73%-i xarici investisiyanın payına düşürdü. Xarici investisiya qoyuluşu sürətlə artırdı. Bü göstərici 1995-ci ildə 450 milyon dollar olduğu halda, 2003-cü ildə bu rəqəm 7,1 dəfə artaraq 3,2 milyard dollara çatmışdı. İqtisadiyyata investisiya qoyuluşunun 2004-cü ildə də sürətlə artacağı gözlənilirdi. Belə ki, 2004-cü ilin birinci rübündə (keçən ilin müvafiq dövrünə nisbətən investisiya qoyuluşu 1,7 dəfə artmışdı) investisiya qoyuluşunun ümumi həcmi elə səviyyəyə çatmışdı ki, bundan neft sektoru ilə yanaşı qeyri-neft sektoruna da kifayət qədər vəsait ayırmaq olardı. 1997-ci ildə cəmi 9,1 mln. ton neft, 6,0 mlrd. $m^3$ təbii qaz çıxarıldığı halda bu göstəricilər neft hasilatı üzrə 2005-ci ildə 15,4 mln. tona çatmışdı. Buna müvafiq olaraq neft-qazdan gəlirlər artırdı və yaxın illərdə daha da artacağı gözlənilirdi. Dövlət büdcəsinin, SKMF-nın maliyyə vəsaitləri, əhalinin pul gəlirləri artırdı. Neft fondundan, dövlət büdcəsindən iqtisadiyyatın inkişafına daha çox vəsait ayrılırdı. SKMF-dən kiçik və orta sahibkarlara verilən güzəştli kreditlərin miqdarı ildən-ilə artırdı. Zərərlə işləyən müəssisələrin sayı azalır və onların iqtisadiyyata investisiya

qoymaq imkanları genişlənirdi. Neft-qaz hasilatının və ondan gələn gəlirlərin artacağı gözlənilirdi.

Əhalinin həyat səviyyəsi yüksəlirdi. 2003-cü ilin axırına əhalinin orta aylıq əmək haqqı 76 Azn manata yaxın olmuşdur. Yeni iş yerlərinin açılması istiqamətində geniş iş aparılır. Əhalinin banklardakı əmanətləri, pensiya təminatı yaxşılaşdı. 2003-cü ilin oktyabr ayında Azərbaycan banklarında əhalinin əmanətlərinin orta məbləği 100 milyon dollardan çox olmuş, yoxsulluğun, işsizliyin səviyyəsi aşağı düşməyə başlamışdı. İnflyasiya 2-3%-ə düşmüşdü. Yaxın beş ildə iqtisadiyyata və sosial sferaya bütün mənbələrdən 16,8 milyard dollar investisiya qoymaq proqnozlaşdırılırdı ki, bu da əvvəlki doqquz ildə (1995-2003 illərdə) müvafiq sahələrə qoyulmuş investisiyadan xeyli çoxdur. ***Bununla da indi neft sektoru ilə yanaşı qeyri-neft sektorunu da sürətlə və bütün sahələrdə inkişaf etdirmək üçün əlverişli şərait yaranmışdı.*** Məhz bu səbəbdən ümummilli lider Heydər Əliyevin qeyri-neft sektorunda mövcud olan böyük imkanların hamısından istifadə etməklə iqtisadiyyatın inkişafının təmin edilməsi haqqında göstərişinin daha sürətlə yerinə yetirilməsi üçün real imkan yaranmışdı. Qeyri-neft sektorunun inkişafı üçün mövcud olan şərait və imkanlar isə başlıca olaraq Respublikanın Abşerondan kənar iqtisadi rayonlarında cəmlənmişdir. Beləliklə, Abşerondan kənar iqtisadi rayonlarımızın qeyri-neft sektoru hesabına daha sürətlə inkişafı imkanları formalaşmışdı.

Eyni zamanda Abşerondan kənar regionların daha sürətlə inkişafına böyük ehtiyac da yaranmışdı. Bunun ***səbəbləri*** regionlarımızın tarixi inkişaf xüsusiyyətləri və 2003-cü ilə olan vəziyyətilə əlaqədardır.

Azərbaycanın bütün regionlarında iqtisadiyyatın inkişa-

fı üçün böyük imkanlar olduğu yaxşı məlumdur. Keçən əsrlərdə, xüsusilə XX əsrin 70-80-ci illərində ümummili lider Heydər Əliyevin rəhbərliyi altında Abşeronla yanaşı, digər regionlarımızın da geniş imkanlarından istifadə etməklə onlarda məhsuldar qüvvələrin yerləşməsi və inkişafının yaxşılaşması üçün çox iş görülmüşdür. Bakı şəhərinin sənayesini, sosial və istehsal infrastrukturunu sürətlə inkişaf etdirməklə bərabər, respublikanın bütün digər regionlarında sənaye-istehsal potensialı dəfələrlə artmışdır. Lakin, Sovet İttifaqı dövründə əsasən mərkəzi dövlətin mənafeyini nəzərə almaqla aparılan regional siyasət, ilk beşilliklərdən başlayaraq Respublikanın xalq təsərrüfatının inkişafı üçün nəzərdə tutulmuş kapital qoyuluşunun təqribən 50%-nin yanacaq-energetika sənayesinin inkişafına yönəldilməsi və bu sahələrin də əsasən Abşeron iqtisadi rayonunda cəmlənməsinə, bununla da iqtisadiyyatın birtərəfli və qeyri-təkmil ərazi strukturunun formalaşmasına gətirib çıxarmış, bir çox respublikadaxili iqtisadi rayonların zəngin imkanlarından istifadə edilməsini və yeni müvafiq sənaye müəssisələrinin təşkilini məhdudlaşdırmışdır.

Sovetlər İttifaqı dövründə planlaşdırma, idarəetmə, fondlaşdırma və investisiya qoyuluşu sahəsində regional siyasət həddən artıq mərkəzləşdirilmiş və İttifaqın mənafeyinə tabe edilmişdi. İttifaq dövləti ərazisi, əhalisi nisbətən az olan respublikaları planlaşdırma və idarəetmə baxımından vahid region kimi götürürdü. Bu respublikaların daxilində yalnız o iqtisadi rayonlar, həm də müstəsna hallarda ayrıca göstərilirdi ki, orada İttifaq əhəmiyyətli istehsal sahələri və müəssisələr yerləşmiş olsun. Belə şəraitdə regionlara kapital qoyuluşunda müəyyən məhdudiyyət yaranır, bəzən inkişafına böyük imkanlar olan respublikadaxili regionlar

üçün əlavə maliyyə vəsaiti, elmi-texniki potensial almaq ya mümkün olmur, ya da çətinləşir və məhdudlaşırdı. Nəticədə əvvəllər zəif inkişaf etmiş regionlar yenə inkişafdan qalır, ya da inkişafı məhdudlaşdırılırdı.

O zaman istehsalın yerləşməsi və məhsuldar qüvvələrin ərazi təşkilinə yalnız İttifaqın mənafeyini nəzərə almaqla yanaşılması da geri qalmış iqtisadi rayonların inkişafını məhdudlaşdırırdı. Məlumdur ki, o dövrün iqtisadiyyatında belə bir prinsip hökm sürürdü: hər bir respublika vahid İttifaq dövlətinin daxili tərkib hissəsidir. Yerli şəraitə uyğun olaraq, respublika və İttifaq planında nəzərdə tutulan respublikadaxili iqtisadi rayon, şəhər ən ucuz başa gələn məhsulların istehsalı üzrə ixtisaslaşmalı və özünə lazım olan məhsulu da İttifaqın başqa respublikalarından almalıdır. Belə vəziyyət özlüyündə həm İttifaq miqyasında perspektivli hesab olunan respublikadaxili iqtisadi rayonda (regionda), həm də bütövlükdə respublikada ixtisaslaşmış sahələrin inkişafına səbəb olur, lakin köməkçi, xidmətedici, habelə respublika əhalisinin tələbatının ödənilməsinə yönəldilən xidmət sahələrinin inkişafına mane olurdu.

Beləliklə, Sovetlər İttifaqı dövründə regional siyasət, buna müvafiq olaraq respublika və onun regionlarında təsərrüfat quruluşunun formalaşması heç də yerli ehtiyatlardan səmərəli istifadə olunması, regionların kompleks inkişafı və ***onların sosial-iqtisadi problemlərinin həllinin sürətləndirilməsi mənafeyinə deyil, mərkəzi dövlətin həmin respublikalara, regionlara yuxarıdan istədikləri kimi müəyyən etdikləri funksiyalara uyğunlaşmasına xidmət etmişdir***. Bu hal Azərbaycan Respublikası üçün daha çox səciyyəvi olmuşdur. Məhsuldar qüvvələrin və xüsusilə sənayenin yüksək səviyyədə ərazi təmərküzləşməsi həm so-

sialist inqilabına qədər, həm də sovetlər hakimiyyəti dövründə Azərbaycanda Abşeron iqtisadi rayonunda özünü daha kəskin surətdə göstərmişdir. Sənayenin yerləşməsi, xırda və orta şəhərlərin inkişafı istiqamətində bir sıra irəliləyişlər baş vermiş, yeni sənaye mərkəzləri yaranmışdır. Nəticədə Abşeron iqtisadi rayonunun sənaye məhsulu istehsalında xüsusi çəkisi 1913-cü ildəki 92,4 faizdən 1989-cu ildə 59,7 faizə düşmüşdür. Bu xüsusi çəki əvvəlkinə nisbətən 1,54 dəfə aşağı olsa da, ərazi və əhalisinə, istehsal potensialına görə Azərbaycana nisbətən yaxın olan respublikaların müvafiq göstəricilərilə müqayisədə çox yüksəkdir. Sosializm dövründə elə ilk beşilliklərdən başlayaraq respublikanın xalq təsərrüfatının inkişafı üçün nəzərdə tutulmuş kapital qoyuluşunun böyük əksəriyyətinin neft-qaz çıxarma sənayesi və bilavasitə onunla əlaqədar sahələrin inkişafına yönəldilməsi və bu sahələrin də əsasən Bakı şəhərində cəmlənməsi nəinki iqtisadiyyatın birtərəfli sahə, həm də daha çox qeyri-təkmil, səmərəsiz ərazi strukturunun formalaşmasına gətirib çıxarmışdır. İlk növbədə respublikada zəngin yerli xammalın istifadəsinin ancaq ilkin emal səviyyəsində saxlanılması, hazır məhsul istehsalı üçün xammal emalının sonrakı mərhələsinin başqa regionlarda həyata keçirilməsi praktikası bu qeyri-mütənasibliyi xüsusilə dərinləşdirmiş, istehsal potensialı onsuz da zəif olan rayonlarda yaranması üçün real imkanlar olan müvafiq sənaye sahələrinin inkişafını məhdudlaşdırmışdır. Bütün bunların nəticəsində Azərbaycan keçmiş müttəfiq respublikalar arasında ərazisində istehsalın, xidmət sferasının, bütövlükdə məhsuldar qüvvələrin ən qeyri-bərabər şəkildə yerləşdiyi, respublikadaxili iqtisadi rayonları və zonaları arasında kəskin sosial-iqtisadi inkişaf fərqlərinin möv-

cud olduğu və məhsuldar qüvvələri ən çox paytaxt şəhərində cəmlənən demək olar ki, yeganə respublikadır. Məsələn, əgər 1990-cı ildə Ukraynanın sənaye potensialının cəmi 6,0 faizi, Qazaxıstanın 4,2 faizi, Türkmənistanın 1,0 faizi, Belorusiyanın 14,5 faizi, Özbəkistanın 17,5 faizi, Gürcüstanın 31,0 faizi onların paytaxtlarında cəmlənmişdirsə, Azərbaycan Respublikasında bu göstərici keçmiş Sovet İttifaqında ən yüksək - 49,7 faiz, Sumqayıt şəhərilə birlikdə təqribən 59,7 faiz təşkil etmişdir.

***Nəticə etibarı ilə Respublikanın Şəki-Zaqatala, Dağlıq Şirvan, Kəlbəcər-Laçın, Lənkəran-Astara, Quba-Xaçmaz kimi iqtisadi rayonları və Naxçıvan MR-da məhsuldar qüvvələrin daha sürətlə inkişafı məsələsi 80-ci illərin axırlarınadək yenə gündəlikdə dururdu.***

Müstəqillik illərində bu meylin necə davam etdiyini təhlil edərkən bazar iqtisadiyyatına keçid dövrünün öz təbiətindən irəli gələn və bu dövrü yaşayan bütün ölkələrdə az-çox təzahür edən uyğunsuzluqları da bura əlavə etmək lazımdır. Belə ki, nisbətən ucuz ixtisaslı işçi qüvvəsi, inkişaf etmiş nəqliyyat şəbəkəsi və əlverişli istehlak bazarının mövcudluğu, dövlətin iqtisadiyyatı iqtisadi metodlarla tənzimləmək imkanının məhdudluğu adətən keçid dövründə əksər ölkələrdə məhsuldar qüvvələrin böyük şəhərlərdə təmərküzləşməsini gücləndirir.

Buna aid çox misallar göstərmək olar. 1970-ci ildə İranda bütün sənaye məhsulunun (neft hasilatını nəzərə almadan) 60 %-i, nəqliyyat vasitələrinin 70%-i, istehlak olunan elektrik enerjisinin 50%-i, ölkənin paytaxtı Tehran şəhərində cəmlənmişdi.[1] Müstəqilliyin ilk illərində Rusiyanın

[1] Z.Z.Abdullayev, H.M.Ağasi. Müasir İran. Bakı, Azərnəşr-1979

sənaye məhsulu istehsalında, müəssisələrin, o cümlədən bankların sayında, kredit verilməsində, vergi toplanmasında və i.a. Moskva, Sankt-Peterburq, Omsk və digər böyük şəhərlərin xüsusi çəkisi artmışdır. 1997-ci ildə Rusiyada kredit verən bankların 41,2%-i, müəssisələrin 19,2%-i, toplanmış verginin 28%-i Moskva şəhərinin payına düşürdü.

Bu meyil məlum obyektiv və subyektiv səbəblərə görə özünü yenə göstərir. Nəticədə Abşeron iqtisadi rayonunun respublika iqtisadiyyatının ayrı-ayrı sahələrində xüsusi çəkisi 2000-2002-ci illərdə azalmamış, hətta xeyli artmışdı. Sənaye məhsulu istehsalı, investisiya qoyuluşu, birgə müəssisələrin tikintisi, vergi toplanması sahəsində bu xüsusi çəki bir qayda olaraq 80%-dan yuxarı idi, bəzi hallarda 85-90%-ə çatırdı.

Misal üçün, 1995-ci illə müqayisədə 2000-ci ildə Abşeron iqtisadi rayonunun xüsusi çəkisi sənaye məhsulu istehsalında 72%-dən 87,7%-ə, investisiya qoyuluşunda 76,8%-dən 81,7%-ə, mənzil tikintisində 13,3%-dən 37%-ə qalxmışdır. Vergi toplanması, birgə müəssisələr tikintisi sahəsində də bu meyil nəzərə çarpırdı.

Burada belə bir mühüm cəhəti də nəzərə almaq vacibdir ki, 80-ci illərin axırı və 90-cı illərin birinci yarısında ***Azərbaycanın iqtisadiyyatı bütövlükdə keçmiş müttəfiq respublikalarda olduğuna nisbətən (Gürcüstan müstəsna olmaqla) daha dərin böhrana düşmüşdü.***

Azərbaycanın daxilində isə Abşeron iqtisadi rayonu ilə başqa iqtisadi rayonlar arasında belə kəskin fərqlər vardı, ***başqa sözlə digər iqtisadi rayonlar Abşeron iqtisadi rayonuna nisbətən daha dərin böhrana düşmüşdü.*** Beləliklə, bu şəhərlərdə və Azərbaycanın əksər inzibati rayonlarında iqtisadiyyat sözün əsl mənasında tamamilə məhv olmaq

təhlükəsi qarşısında qalmışdı. Həm də başlıca təhlükə ondan yaranırdı ki, maliyyə vəsaiti yox idi, xarici investorlar keçid dövrünün ilk illərində bir qayda olaraq böyük şəhərlərə meyllidirlər və kiçik, orta şəhərlərə vəsait qoymaqdan çəkinirlər. Başlıca çətinliklərdən biri də onda idi ki, bu ərazilərin iqtisadiyyatının 87-90%-i ixtisaslaşmış kənd təsərrüfatı (üzüm, barama, meyvə, çay, pambıq, tütün) və onun xammalını emal edən sahələr idi. Onların alıcıları keçmiş SSRİ respublikaları idi. İndi onlarla əlaqələr kəsilmişdi. Ciddi ərzaq təhlükəsi yaranmışdı. Əhalinin istehlak etdiyi ərzaq və qeyri-ərzaq məhsullarının əsas hissəsi başqa ölkələrdən gətirilirdi.

***Beləliklə, müstəqilliyin əvvəlki illərində kənddə elə bir sosial-iqtisadi siyasət yeritmək lazım idi ki, iqtisadiyyatı əsasən yerli məhdud həcmdə investisiya hesabına dirçəltmək mümkün olsun, yəni iqtisadiyyatın dirçəldilməsi çox investisiya tələb etməsin, ərzaq təhlükəsi yerli imkanlar hesabına, minimum vəsait sərf etməklə aradan qalxsın, kənddə bazar münasibətlərinin inkişafına kömək etsin, kəndlilər bazar münasibətləri şəraitində işləməyə və yaşamağa alışsınlar, bazar infrastrukturu inkişaf etsin, yaxın gələcəkdə xarici investisiyaları kənd rayonlarına cəlb etmək üçün şərait yaransın.***

Belə bir şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyev vəziyyətdən çıxmaq üçün yeganə düzgün yol tapdı: keçmiş müttəfiq respublikalar arasında birinci olaraq aqrar islahatı keçirdi, torpağın böyük bir hissəsini öz sahiblərinə qaytardı. Beləliklə, eyni zamanda ərzaq probleminin həllinə və həm də rayonların əhalisində olan maddi və maliyyə vəsaitindən istehsalın inkişafı üçün istifadə etməyə və digər yuxarıda göstərilən problemləri həll etməyə şərait yarandı.

*Torpağı özəlləşdirməklə başlıca olaraq nisbətən az kapital qoyuluşu tələb edən və əsasən yerlərdə əhalinin məhdud maliyyə vəsaiti hesabına və onun tələbatını ödəyən sahələri inkişaf etdirmək üçün şərait yarandı.* Heyvandarlıq məhsulları, taxıl, meyvə-tərəvəz, kartof istehsalının artırılması həm çox zəruri ərzaq məhsullarına tələbatı ödədi, həm də eyni zamanda zəruri kapital qoyuluşuna tələbatı nisbətən azaltdı. Başlıcası isə ölkənin xaricdən ərzaq asılılığını azaltdı və eyni zamanda iqtisadiyyatın Abşerondan kənar iqtisadi rayonlarda inkişafına şərait yaratdı.

Müstəqilliyin keçən illərində aqrar sahənin inkişafı bu prinsiplər üzərində qurulmuşdu. Aqrar sahə üstünlük təşkil edən regionlarımızda sosial-iqtisadi inkişafın nəticələrinə də bu baxımdan müsbət qiymət vermək olar.

Eyni zamanda bu hələ rayonların istehsal potensialını müəyyən edən ixtisaslaşmış sahələrin inkişafı demək deyildi. Respublikanın ənənəvi ixtisaslaşmış aqrar-sənaye sahələrində (pambıqçılıq-pambıqtəmizləmə, baramaçılıq-ipəkçilik, üzümçülük-şərabçılıq, çayçılıq-çayqablaşdırma, meyvə-tərəvəz konservi) müəyyən qədər canlanma olsa da, bütövlükdə bu sahələrin bərpası və dirçəlişi ləng gedirdi. Regionlar (respublikadaxili iqtisadi rayonlar) daxilində və regionlar arasında uzun illər ərzində bərqərar olmuş istehsal-iqtisadi və mədəni əlaqələr ya zəifləmiş, ya da kəsilmişdir. Beləliklə, əksər regionların ənənəvi istehsal potensialından istifadə səviyyəsi aşağıdır. Yerli təbii sərvətlərdən istifadəyə əsaslanan hasilat sənayesi ona müvafiq emal sənayesindən sürətlə inkişaf edir, kənd təsərrüfatı xammalını emal edən sənaye sahələrinin daha surətlə inkişafına ehtiyac vardır.

Məlumdur ki, hər bir dövlətin dünya iqtisadi sisteminə

inteqrasiyasında onun özünün təbii və əmək resursları, elmi-texniki potensialı, investisiya imkanları mühüm rol oynayır. Bu cəhətdən Azərbaycan Cənubi Qafqazda mühüm yer tutur. Onun bir çox əsas sahələrdə mövcud potensialı Ermənistan və Gürcüstanın birlikdə müvafiq göstəricilərindən yüksəkdir. Misal üçün, 2001-ci ildə Cənubi Qafqazda istehsal olunan ümumi daxili məhsulun 52,0 %-i (hazırda 70%-dən çox), məşğul əhalinin 54%-i, sənaye məhsulunun 70,8%-i, əsas kapitala investisiya qoyuluşunun 73,8%-i, nəqliyyatın yük dövriyyəsinin 71,3%-i[1] və i.a. Azərbaycanın payına düşmüşdür. Azərbaycanın təbii ehtiyatlara görə çox zəngin olduğu da məlumdur. Bütün bunların əksər hissəsi isə respublikanın Abşerondan kənar iqtisadi rayonlarında cəmlənmişdir. Azərbaycanın gələcək inkişafı və sosial problemlərini necə həll etməsi imkanları da əsasən Abşerondan kənar iqtisadi rayonların inkişafından asılı olacaqdır.

Beləliklə, regionlarda sosial-iqtisadi inkişafda əsaslı dönüş yarada bilən ixtisaslaşmış aqrar-sənaye sahələrinin inkişafı, zəngin təbii resurslarından istifadə etməklə regionalların inkişafını təmin etmək məsələsi "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nda kifayət qədər nəzərə alınmamışdır. Başlıcası regionlarda qeyri-neft sektorunun inkişafı üçün əlverişli investisiya mühiti yaratmaq lazım idi. Bunun üçün regionlarda istehsal və sosial infrastrukturun strateji baxımdan ən vacib sahələrinin inkişafında əsaslı dönüş yaratmaq tələb olunurdu ki, bu da proqramda öz əksini kifayət qədər tapmamışdı. Həmin

---

[1] Rəqəmlər «Статистический ежегодник южно-Кавказских стран», Армения, Азербайджан, Грузия. Изд-во «SADA», 2002, kitabında verilmiş məlumatlar əsasında müəllif tərəfindən hesablanmışdır.

proqramın müddəti qısa (üç il) olduğundan nisbətən uzun müddət yerinə yetirilə bilən bu vəzifələri həmin proqramda nəzərdə tutmaq da mümkün deyildi.

Eyni zamanda 2003-cü ilə qədər görülmüş tədbirlər nəticəsində yoxsulluğun, işsizliyin artmasının qarşısı alınsa, həyat səviyyəsində müəyyən dərəcədə irəliləyiş meyilləri başlasa da, bütövlükdə yoxsulluq (2002-ci ildə 46,7%, 2003-cü ildə 44, 7%), işsizlik səviyyəsi çox yüksək idi, həyat səviyyəsi yenə çox aşağı olaraq qalırdı. Azərbaycanın xarici ölkələrdən ərzaq asılılığı yüksək idi (60-70%).

Bunlarla yanaşı 2003-cü ilə qədər Azərbaycan regionlarında müasir infrastruktur sahələri də zəif inkişaf etmişdi. Belə vəziyyət regionların investisiya mühitini ağırlaşdırır, onların inkişafına, yeni iş yerlərinin açılmasına böyük imkanlar olan qeyri-neft sektoru sahələrinə xarici investisiyanı cəlb etmək qabiliyyətini aşağı salırdı.

Beləliklə, bir tərəfdə keçən illərdə həyata keçirilmiş proqramlar, neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər, artmaqda olan geniş maliyyə-investisiya və başqa imkanlar, digər tərəfdə təxirə salınmadan həlli vacib olan yoxsulluq, işsizlik, ərzaq təhlükəsi kimi kəskin problemlər dururdu. "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)" Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji sosial-iqtisadi inkişaf xəttinin həyata keçirilməsində mühüm mərhələdir. Eyni zamanda yerinə yetirilməsi gedişində proqramda dəyişikliklər edilməsi, təkmilləşdirmələr aparılması da dünya praktikasında həmişə təsadüf olunan bir hadisədir. Respublikamızda 2002-2003-cü illərdə sosial-iqtisadi inkişafın yekunları, artmaqda olan investisiya imkanları göstərdi ki, ölkəmizdə qeyri-neft sektorunu

inkişaf etdirmək, işsizliyi və yoxsulluğu azaltmaq siyasətini xeyli təkmilləşdirməyə, iqtisadi rayon və şəhərlər üzrə konkretləşməyə, yaranmış yeni imkanlardan səmərli istifadəyə ehtiyac yaranmışdır.

İndi bu imkanlardan səmərəli istifadəni yoxsulluq, işsizlik, ərzaq təhlükəsizliyi problemlərinin əsaslı surətdə həlli ilə daha sıx əlaqələndirməyi nəzərdə tutan yeni sosial-iqtisadi inkişaf strategiyası və onun reallaşması mexanizmlərini işləyib hazırlamaq və ardıcıl olaraq həyata keçirmək vəzifəsi qarşıya çıxırdı

Bunlarla yanaşı yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramında kifayət qədər nəzərə alınmamış, təkmilləşməyə ehtiyacı olan başqa məsələlər də vardı.

Əvvəla, qeyri-neft sektorunun inkişafı üçün imkanlar, eyni zamanda sosial xarakterli problemlər əsasən Abşerondan kənar iqtisadi rayonlardadır. Bu rayonlarda inkişafın istiqamət və vəzifələrini, onlarda görülməli olan tədbirləri konkretləşdirmək, rayonların inkişafına diqqəti daha da artırmaq lazım gəlir.

***Proqramın yerinə yetirilməsi üçün ayrılmış investisiyanın istifadəsi mümkün olan sosial və istehsal obyektlərinin, işlərin adlı siyahısının işlənib hazırlanaraq rayon və şəhər icra hakimiyyəti orqanlarına, bələdiyyələrə verilməsinin məqsədəuyğunluğu haqqında təkliflər də vardı. Qeyd olunurdu ki, bu siyahını hazırlamaqda məqsəd o deyil ki, orada göstərilənlərin hamısı bir rayonda və ya şəhərdə həyata keçirilsin. Məqsəd ondan ibarətdir ki, investisiyanı sərf etmək üçün vacib sahələri müəyyən etməkdə icra hakimiyyəti orqanlarına, bələdiyyələrə, təşkilatlara kömək göstərilsin, istiqamət verilsin. Hər rayon və***

***şəhərdə siyahıda verilənlərdən hansına imkan varsa, hansı sahələr respublikada proqramın yerinə yetirilməsi tələblərinə uyğundursa, o sahələrə aid obyektlər, müəssisələr tikilsin və işlər görülsün.***[1]

İkincisi, ölkənin 2002-2003-cü illərdə inkişafı gedişi göstərdi ki, Azərbaycanın investisiya imkanları, dövlətin iqtisadiyyatın inkişafına təsir imkanları «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda nəzərdə tutulduğuna nisbətən xeyli genişdir. Bu imkanlardan səmərəli istifadə etməklə daha böyük iqtisadi, sosial vəzifələr yerinə yetirmək və sosial-iqtisadi inkişafı sürətləndirmək olar.

Üçüncüsü, regionların inkişafı və sosial-iqtisadi inkişafın sürətlənməsi üçün cavabdeh olan, məsuliyyət daşıyan təşkilatları, dövlət strukturlarını müəyyən etmək, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün yerli icra hakimiyyəti, özünüidarə orqanlarının, habelə müvafiq yuxarı icra orqanlarının işgüzarlığını və məsuliyyətini artırmaq lazımdır.

Dördüncüsü və başlıcası Bakı şəhərindən kənar rayon və şəhərlərin sürətli inkişafı işsizliyin, yoxsulluğun azaldılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsinə çevrilməlidir.

Bütün bunları reallaşdırmaq üçün indiyə qədər həyata keçirilənlərə nisbətən daha böyük, iqtisadiyyatın və sosial sferanın bütün sahələrini əhatə edən ***tədbirlər görməyə, proqram qəbul etməyə ehtiyac vardır.***

***Beləliklə, «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf***

---

[1] Ə.X.Nuriyev. Regional iqtisadiyyatın dövlət tənzim və idarə olunması yeni inkişaf mərhələsində. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı, №1, 2003, səh.112.

*üzrə Dövlət Proqramı»nda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsini təxirə salmadan, əksinə həmin vəzifələrin daha sürətlə yerinə yetirilməsinə əlverişli şərait yaradan və nisbətən uzun müddətli yeni sosial-iqtisadi inkişaf strategiyası və məqsədli proqramlar işləyib hazırlamaq, mövcud proqramda olduğuna nisbətən daha əsaslı tədbirlər həyata keçirilməsi hesabına sosial-iqtisadi inkişafın sürətləndirilməsini təmin etmək lazım gəlirdi.*

# III HİSSƏ. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEVİN SİYASƏTİNİN DAVAM VƏ İNKİŞAF ETDİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

***İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.***

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

***Bu gün Heydər Əliyevin siyasəti Azərbaycanda yaşayır, davam etdirilir və yeni formalarda zənginləşir.***

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

İlham Əliyev keçən 10 ilə yaxın müddət ərzində daim Heydər Əliyev siyasətinə sadiq qalmış, onu yaradıcılıqla davam və inkişaf etdirərək obyektiv reallığı, ölkəmizdə və dünyada baş verən iqtisadi, siyasi, sosial dəyişiklikləri nəzərə alan ardıcıl siyasət yeritmiş və hər mərhələyə aid qarşıda duran vəzifələrin yerinə yetirilməsinə yönəlmiş tədbirlər həyata keçirərək ölkəmizin öz həyatının bütün sahələrində böyük uğurlar qazanmasını təmin etmişdir. Əgər İlham Əliyevin Prezidentliyi dövründə ölkəmizdə baş verən hadisələrə, köklü dəyişikliklərə nəzər salsaq bu deyilənlərin həqiqət olduğuna bir daha inam hasil edərik.

# I FƏSİL. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək siyasəti Heydər Əliyev siyasətinin davamı və yeni formalarda inkişafıdır

## 1.1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək və Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək siyasəti

***Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu, onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir.***

***Hazırda Azərbaycanın regional inkişafına dair çox geniş fərman hazırlanır. Əminəm ki, bu fərman imzalanandan sonra bu istiqamətdə də müsbət nəticələri görəcəyik. Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyildir. Azərbaycanın hər bir regionu inkişaf etməlidir, hər bir bölgəsi inkişaf etməlidir. Əlbəttə, biz bu məsələyə böyük diqqət göstərməliyik.***[1]

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*2003-cü il noyabrın 17-də Nazirlər Kabinetinin iclas zalında Respublika hökumətinin ölkəmizdə prezident seçki-*

[1] «Dirçəliş - XXI əsr» jurnalı, №69, noyabr, 2003, s.9

*lərindən sonra ilk iclasında «Biz müstəqil Azərbaycanı son on ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirəcəyik» mövzusunda nitqindən.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli Fərmanı onun fəaliyyətinin ilk dövründə qəbul edilmişdir. Bu fərman Azərbaycanda sosial-iqtisadi inkişafı sürətləndirmək strategiyasını, bu strategiyanı həyata keçirmək üçün hökumətin, maliyyə-kredit-vergi təşkilatlarının və sahibkarlığın birgə fəaliyyətinin təşkili tədbirlərini müəyyən etdi. Bu fərman digər tərəfdən ölkəni məqsədli proqramlarla idarəetmədə təkmilləşdirmələr aparılmasının mühüm vasitəsi kimi, bir Prezident kimi İlham Əliyevin fəaliyyətinin strateji məqsəd və vəzifələrinin proqramı kimi diqqəti cəlb edir.

Fərmanda 1997-ci ildən sonrakı illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın təhlili verilir və qiymətləndirilir. Sosial-iqtisadi inkişafı sürətləndirməyin vacibliyi və mümkünlüyü əsaslandırılır. Bunun üçün qeyri-neft sektorunun sürətli inkişafı vəzifəsi qarşıya qoyulur. Bununla da İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətinə sadiqliyini, Heydər Əliyevin «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimat mərasimində müəyyən etdiyi «...qeyri-neft sektorunda mövcud olan böyük imkanların hamısından istifadə etməklə iqtisadiyyatın inkişafını və xalqın rifah halının yaxşılaşmasını təmin etmək» vəzifəsini yeni şəraitin tələblərinə uyğun olaraq yerinə yetirməyə başladığını bildirir. Bu məqsədlə fərmanda Respublika Nazirlər Kabinetinə bir vəzifə olaraq tapşırılır: «İqtisadiyyatın hərtərəfli tərəqqisi-

nə nail olmaq məqsədilə qeyri-neft sektorunun sürətli inkişafını təmin edən işlər görsün, bu sahədə investisiyaların cəlb edilməsinin stimullaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirsin».[1]

Fərmanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi və qeyri-neft sektorunun inkişafının uzunmüddətli strategiyası və bunun yerinə yetirilməsi üçün vacib olan fəaliyyət istiqamətləri də müəyyənləşdirilmişdir. Bu strategiyalar iqtisadiyyatın hərtərəfli inkişafı və Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi, yoxsulluğun tamamilə azaldılması, işsizliyin, xüsusilə gənclərin işsizliyinin ləğv edilməsindən ibarətdir. Bu strategiyalar reallaşdırılması vasitəsi sosial-iqtisadi inkişafın sürətləndirilməsi, qeyri-neft sektorunun sürətli inkişafı üçün iqtisadi, sosial, təşkilati-texniki, maliyyə-kredit xarakterli tədbirlər kompleksi həyata keçirməkdir. Fikrimizcə, bu strateji inkişaf xətti 10 ilə qədər bir müddəti əhatə etməklə Azərbaycanın hərtərəfli sosial-iqtisadi inkişafı və əhalinin yüksək həyat səviyyəsinin təmin edilməsində çox mühüm bir mərhələ olacaqdır.

Bu fərmanda sosial-iqtisadi inkişafı sürətləndirmək və Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək üçün qeyri-neft sektorunun, istehsal və sosial infrastruktura sahələrinin inkişafına üstünlük verilir ki, bu da Abşerondan kənar iqtisadi rayonlarımızın inkişafına diqqətin artırılması deməkdir. Çünki, bütün bu sahələrin inkişafı üçün mövcud olan şərait və imkanlar da, ehtiyac da başlıca olaraq Respublikanın Abşerondan kənar iqtisadi rayonlarında cəmlənmişdir.

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli fərmanı. «Respublika» qəzeti, 25 noyabr 2003-cü il.

Fərman mətbuatda dərc edildiyi gündən Respublika ziyalılarının, geniş ictimaiyyətin və bütövlükdə xalqımızın diqqət mərkəzində olmuşdur. Bu heç də təsadüfi olmayıb onunla əlaqədardır ki, haqqında danışdığımız fərman respublikamızda olan bütün müəssisə və təşkilatların, bizim hamımızın, bütövlükdə xalqımızın həyati mənafeyilə bağlıdır. Bu baxımdan bu fərman iqtisadi və sosial həyatımızın bütün əsas sahələrində məqsədli proqramlar işlənib hazırlanması və həyata keçirilməsi vasitəsilə uzun müddət ***Respublikanın hərtərəfli inkişafını nəzərdə tutan ümumi fəaliyyət proqramıdır.*** Fərmanda qeyri-neft sektorunun sürətli inkişafı, investisiyanın artırılması, regionların sosial-iqtisadi inkişafı, yeni iş yerlərinin açılması, işsizliyin azaldılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və i.a. kimi bir-birilə sıx surətdə əlaqədar olan mühüm vəzifələr qarşıya qoyulur. Bu vəzifələr kompleks xarakter daşıyır və bir-birini qarşılıqlı surətdə tamamlayır ki, bu da həmin vəzifələrin real olduğunu göstərir. Başqa sözlə, bütün böyük proqramlarda olan ən vacib və onun yerinə yetirilməsini real edən cəhətlər bu fərmanda vardır.

Hər bir proqramda olduğu kimi, bu fərmanda da ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsi üçün məsuliyyət daşıyan yuxarı orqanlar, lazım olan investisiyaların mənbələri, görülməsi vacib olan tədbirlər və onların subyektləri öz əksini çox aydın tapmışdır. Məhz bu səbəblərə görə Respublika Prezidentinin fərmanı xalqımızın uzun müddətli ümumi fəaliyyət proqramıdır. Bu proqramın yerinə yetirilməsi üçün ayrı-ayrı sahədə xüsusi inkişaf proqramlarının hazırlanması və digər təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi vacib vəzifə kimi qarşıya qoyulur.

Bu fərmanın əsas xarakterik xüsusiyyətlərindən biri də

burada varislik prinsipinə ciddi əməl olunmasıdır. Fərmanda indiyə qədər ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş müsbət nəticələr qısa və aydın formada ümumiləşdirilir, hamısına obyektiv qiymət verilir, qarşıya yeni vəzifələr qoyarkən bu nailiyyətlərə istinad olunur. ***Fərmanda ölkəmizdə 1997-ci ildən sonrakı dövrdə iqtisadiyyatın, sahibkarlığın inkişafı, dövlət büdcəsinin kəsirinin və inflyasiyanın kəskin sürətdə azalması, makroiqtisadi göstəricilərin artmasında yüksək nəticələr əldə olunması, əhalinin həyat səviyyəsinin yüksəlməsi sahəsində əldə olunan nailiyyətlər ətraflı təhlil olunur. Başqa sözlə, Fərman bazar iqtisadiyyatına keçid, dünya iqtisadi sistemine inteqrasiya və iqtisadiyyatın sosial yönümdə inkişafı sahəsində ölkəmizdə 2004-cü ilə qədər müsbət nə əldə olunubsa ona əsaslanır və bütün bu sahələrin yaxın gələcəkdə keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsi üçün proqram xarakterli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.***

***Fərmanda göstərilir ki, indiyə qədər qazanılmış bütün bu nailiyyətlər mövcud imkanlardan daha səmərəli istifadə etməklə Azərbaycanın iqtisadi cəhətdən daha güclü dövlətə çevrilməsi, dünya iqtisadi sistemində özünə layiqli yer tutması, ölkədə sosial problemlərin yüksək səviyyədə həlli və əhalinin güzəranının yaxşılaşması üçün etibarlı zəmin yaratmışdır. Fərmanda məhz bu etibarlı zəmindən istifadə etməklə sosial-iqtisadi inkişafı sürətləndirmək, hərtərəfli inkişafı təmin etmək üçün tədbirlər müəyyənləşdirilmişdir.***

Bu fərmanın əsas xarakterik cəhətlərindən biri də iqtisadiyyatın inkişafına 1997-ci ildən başlanmış proqram məqsədli dövlət müdaxiləsinin bütün sahələrdə genişləndiril-

məsi və onun tənzimlənmə vasitələrinin daha da təkmilləşdirilməsidir. Fərmanda Nazirlər Kabinetinin aidiyyatı olan müvafiq təşkilatlarla birlikdə ölkədə sosial-iqtisadi inkişafın davam etdirilməsinə nəzarəti artırması, bu sahədə qarşıya çıxan problemləri vaxtında həll etməsi və görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə ildə iki dəfə məlumat verilməsi vacib sayılır.

Heç şübhəsiz, Respublika Nazirlər Kabineti sosial-iqtisadi inkişafın müxtəlif sahələrinə həmişə bu və ya digər formada nəzarət etmiş və qarşıya çıxan problemlərin həllini az-çox təmin etmişdir. ***Fərmana əsasən, Nazirlər Kabinetinin sosial-iqtisadi inkişafa nəzərdə tutulan nəzarətinin əvvəlki dövrdəkindən əsas fərqli cəhəti onun bütün sahələri əhatə etməsidir, bütün müvafiq sahələrə kompleks halda nəzarətdir, bu sahədə onun məsuliyyətinin artırılmasıdır. Qeyd etməyi vacib bilirik ki, bu fərman Prezidentin İcra Aparatı ilə Nazirlər Kabinetinin müvafiq strukturları arasında işgüzar əlaqələrin, birgə fəal təşkilati və idarəetmə fəaliyyətinin genişlənməsinə, fərmanın yerinə yetirilməsini təmin etməli olan təşkilatların məsuliyyət hissinin artmasına əlverişli şərait yaratmışdır və bu gün də yaradır.***

Yuxarıda göstərdiyimiz kimi fərmanda məqsədli proqramlar hazırlanması və tətbiqi müasir mərhələdə sosial-iqtisadi inkişafı dövlət tənzim və idarəetməsinin başlıca vasitəsi kimi irəli sürülür. ***Eyni zamanda fərmanda müvafiq təşkilatlara, bizə xatırladılır ki, proqramlar qəbul etmək sosial-iqtisadi inkişafın ilkin zəmini, başlanğıcıdır, əsas məsələ onun icrasını təmin etməkdir.*** Bu baxımdan iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dair son illərdə qəbul olunmuş 10-dək dövlət proqramlarının: «Azərbaycan

Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər)», «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf (2003-2005-ci illər üçün)», «Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı» və i.a. proqramların icrası vəziyyətinin araşdırılması, bu proqramlarda nəzərdə tutulmuş tədbirlərin vaxtında, tam həcmdə yerinə yetirilməsinin təmin edilməsi üçün tədbirlər görülməsi Nazirlər Kabinetinin, aidiyyatı olan digər təşkilatların qarşısına mühüm bir vəzifə kimi qoyulur. İqtisadi İnkişaf Nazirliyinə tapşırılır ki, sahibkarlığın inkişafı ilə bağlı əvvəllər qəbul edilmiş qərarların icrasını sürətləndirsin, bu işdə qarşıya çıxan maneələrin aradan qaldırılması üçün qanunvericiliyə uyğun olaraq tədbirlər görsün. Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə sahibkarlığın maliyyə resurslarına olan ehtiyacını daha dolğun ödəmək məqsədilə verilən kreditlərə görə girov qoyulmasını təkmilləşdirmək üçün təkliflər versin.

Fərmanda ölkəmizdə sosial problemlərin həllinə, işsizliyin tədricən ləğv edilməsinə xüsusi diqqət yetirilir. Respublikamızda işsizliyin azaldılması, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılması, şəhər və rayonlarımızda yeni iş yerlərinin açılması üçün geniş tədbirlər kompleksini həyata keçirmək və 2004-2008-ci illərdə 600 min nəfərlik yeni iş yeri açmaq nəzərdə tutulurdu. Yeni iş yerlərinin iqtisadiyyatın bütün əsas sahələrində, xüsusilə də sənayenin qeyri-neft sektorunda, o cümlədən kənd təsərrüfatı xammalını emal edən sahələrdə, kənd təsərrüfatının ixtisaslaşmış sahələrində, əhaliyə və istehsala xidmət sahələrində açılması nəzərdə tutulurdu. Bununla əlaqədar olaraq Respublikamızda işsizlərin sayının dəqiqləşdirilməsi, işsizlik statusu verilməsi qaydalarının dəqiqləşdirilməsi,

normativ-hüquqi bazasının təkmilləşdirilməsi, iqtisadiyyatımızın tələbatını nəzərə almaqla kadr hazırlığının gücləndirilməsi məsələləri qarşıya çıxır.

Sosial sahədə mövcud problemləri həll etmək üçün məcburi köçkün və qaçqınların həyat və fəaliyyət şəraitinin, pensiya təminatının yaxşılaşmasına, əmək haqqı, təqaüd sisteminin təkmilləşməsinə, həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş proqram xarakterli tədbirlərin görülməsi nəzərdə tutulur. ***Sosial sahədə fərmanın əvvəlki dövrlərdən fərqlənən ən mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada həyat səviyyəsinin yüksəldilməsi məsələsi ölkədə sosial-iqtisadi inkişafın nəticələrilə əvvəlki illərdə olduğuna nisbətən daha sıx əlaqələndirilir. Məsələ belə qoyulur: yaşayış səviyyəsini yüksəltmək, əmək haqqını və pensiya təminatını yaxşılaşdırmaq üçün iqtisadiyyatda daha yüksək müsbət nəticələrə nail olmaq lazımdır.*** Fərmanda göstərilir: «Respublika Nazirlər Kabineti müvafiq təşkilatlarla birlikdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə əmək haqqı və təqaüd sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq işlər aparsın və ***2004-cü ilin birinci yarısının nəticələrinə görə onların artırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin».***

Fərmanda regionların sürətli inkişafının vacibliyi, yolları və məqsədi ayrıca göstərilir. Ümumiyyətlə, son 15-18 ildə Respublikanın Abşerondan kənar regionlarının sürətli inkişafı məsələsi ilk dəfədir ki, Nazirlər Kabinetinin birinci iclasında və bu fərmanda olduğu kimi kəskin qoyulur. Fərmanda deyilir: ***«Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyatı olan təşkilatlarla birlikdə regionların yerli resursları və digər amilləri nəzərə almaqla onların***

***sosial-iqtisadi inkişafı məqsədilə müvafiq dövlət proqramının layihəsini bir ay müddətinə hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin».***[1]

Azərbaycan regionlarının enerji potensialından səmərəli istifadə və enerji təminatının möhkəmlənməsi üçün fərmanın müstəsna əhəmiyyəti vardır. Fərmanda dünya təcrübəsində olan alternativ enerji mənbələrindən (günəş, külək, termal sular enerjisindən, kiçik su elektrostansiyalarından) ölkədə istifadə etmək və onları inkişaf etdirmək məqsədilə müvafiq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək mühüm vəzifə kimi Nazirlər Kabinetinin qarşısına qoyulur. Əlbəttə, hazırda Azərbaycanın enerji təminatında elə ciddi problemlər yoxdur. Həm də adət etdiyimiz yanacaq-enerji növləri də kifayət qədərdir. Lakin unutmaq olmaz ki, Azərbaycanın enerjiyə olan tələbatı yaxın illərdə xeyli artacaqdır. Digər tərəfdən Azərbaycanda alternativ enerji mənbələri (xüsusilə günəş, külək, su, termal sular) kifayət qədərdir və onlardan hələlik az istifadə olunur. Digər tərəfdən onlar Abşerondan kənar iqtisadi rayonlarımızda daha çox var və bunlardan istifadə rayonların iqtisadiyyatına müsbət təsir edə bilər.

Fərmanda kənd təsərrüfatında islahatın ikinci mərhələsinə başlamaq və bunun üçün lazım olan tədbirlər görülməsini sürətləndirmək nəzərdə tutulurdu.

Kənd təsərrüfatının Abşerondan kənar regionların inkişafında müstəsna rol oynaması yaxşı məlumdur. Odur ki,

---

[1] Məlum olduğu kimi, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş, 13 fevralda mərkəzi qəzetlərdə dərc olunmuşdur. Bu paraqrafdan sonra biz həmin proqramın və həyata keçirilməsi nəzərdə tutulan regional inkişaf strategiyasının geniş təhlilini verməyə çalışacağıq.

fərmanda kənd təsərrüfatı sahələrini inkişaf etdirməklə yanaşı,onun texnika ilə təchizatının yaxşılaşdırılması, maddi-texniki təminatının möhkəmlənməsi, kənd əhalisinin istehsal və həyat şəraitinin yaxşılaşdırılması, əməyin məhsuldarlığının artırılması məsələləri ön plana çəkilir. Eyni zamanda rayonlarda texniki servis mərkəzlərinin təşkili, fermerlərin texnika ilə daha böyük həcmdə təmin olunması, aqrar sahəyə bank xidmətinin yaxşılaşması, toxumçuluq bazasının inkişaf etdirilməsi vəzifələri qarşıya qoyulur. Bütün bunlar və digər belə tədbirlər kənd təsərrüfatının sürətli inkişafını təmin etməlidir.

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində məhsul birbaşa istehlak üçün istehsal olunur, onun keyfiyyəti yüksək olmalı və alıcıların tələbatını ödəməlidir. Buna görə də keyfiyyət məsələsi daim diqqət mərkəzində olur. Azərbaycanda indiyə qədər böhranın qarşısını almaq, ərzaq probleminin yumşaldılması, sabit inkişafın təmin olunması kimi məsələlər ön plana keçdiyindən keyfiyyət məsələsi dövlət tərəfindən kəskin qoyulmurdu, bir növ satıcılarla alıcıların könüllü işinə çevrilmişdi. Lakin nəzərə almaq lazımdır ki, məhsulun keyfiyyəti və dünya standartlarına uyğunluğu məsələsi dövlətin xarici bazarda özünə layiq yer tutması, daxili bazarın qorunması, yüksək mənfəət əldə edilməsi məsələsidir. İndi ölkə iqtisadiyyatı bütün sahələrdə sürətlə inkişaf edir, ölkənin dünya iqtisadi sisteminə inteqrasiya prosesi güclənmiş, əhalinin həyat səviyyəsi və tələbatı yüksəlmişdir. Belə şəraitdə məhsulun, işin keyfiyyətinin yüksəldilməsi problemi öz kəskinliyi ilə qarşıya çıxmışdır. Odur ki, fərmanda «...müəssisələrdə beynəlxalq standartlara cavab verən məhsul istehsalını və onların dünya bazarına ixracını stimullaşdıran müvafiq tədbirlər görülməsi...» qar-

şıya mühüm vəzifə kimi qoyulur. Azərbaycanda yaxın gələcəkdə nisbətən sürətlə inkişafı və məhsulunun ixracı nəzərdə tutulan pambıq, üzüm, çay, meyvə-tərəvəz, barama, tütün emalı ilə əlaqədar sahələrin məhsullarının keyfiyyətinin yüksəlməsinə diqqəti artırmaq lazım gəlir. Fikrimizcə, əhalinin istehlak tələbinin, alıcılıq qabiliyyətinin, ***bazarın konyukturunun, müvafiq məhsulların xarici bazara çıxış imkanlarının və digər məsələlərin öyrənilməsilə əlaqədar elmi-tədqiqat işlərini məqsədyönlü formada genişləndirmək, bəlkə də müvafiq elmi-tədqiqat mərkəzi yaratmaq məqsədəuyğun olardı.***

Məlumdur ki, dərman ləvazimatlarının istehsalı üçün Respublikanın bütün regionlarında geniş imkanlar vardır. Naxçıvan MR, Gəncə-Qazax, Lənkəran-Astara, Kür-Araz, Şəki-Zaqatala rayonları dərman bitkilərilə zəngindir. Prezident fərmanı bizim diqqətimizi bu məsələyə cəlb edərək göstərir ki, əhalinin sağlamlığını qorumaq məqsədilə yüksək keyfiyyətli məhsul və dərman ləvazimatının istehsalını, idxalını təmin edən tədbirlər (keyfiyyətə nəzarətin maddi-texniki bazasının gücləndirilməsi də daxil olmaqla) görülsün.

Fərmanın əsas məğzi sosial-iqtisadi inkişafa dövlətin idarəetmə təsirini gücləndirmək yolu ilə onu sürətləndirməkdən ibarətdir. Buna görə də fərmanda dövlət idarəetmə strukturlarının, Nazirlər Kabineti, yerli icra hakimiyyəti orqanlarının sosial-iqtisadi inkişaf sahəsində fəaliyyətinin gücləndirilməsi və bunun üçün onların təşkilati quruluşu və idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi məsələsi qarşıya qoyulur. İcra hakimiyyəti orqanlarında ərazi idarəetmə işinin yaxşılaşdırılması, səmərəliliyinin artırılması, bu hakimiyyət orqanları işçilərinin onlara həvalə edilmiş ərazidə

sosial-iqtisadi problemlərin həllində məsuliyyətinin artırılması zəruri sayılır. Bunun üçün bir sıra icra hakimiyyəti orqanlarında vəzifə və səlahiyyətlərin, idarə aparatlarında məsuliyyət hissinin artırılması, nizam-intizamın gücləndirilməsi, icra hakimiyyəti orqanlarının vətəndaşlarla işlərinin yaxşılaşdırılması, onların ərizə və şikayətlərinə vaxtında, müntəzəm baxılması, haqlı tələblərinin həll edilməsi üçün zəruri tədbirlər görülməsi vacib sayılır.

***Əlbəttə, fərmanda regionların inkişafı ilə bağlı irəli sürülən məsələlər, qarşıya qoyulan vəzifələr bizim göstərdiklərimizdən çox genişdir, respublikamızın sosial-iqtisadi həyatının və ərazi idarəetməsinin bütün əsas sahələrini əhatə edir. Əsas vəzifəmiz ondan ibarətdir ki, Respublika Prezidenti İlham Əliyevin fərmanında və Respublika Nazirlər Kabinetinin ilk iclasında çıxışında qarşıya qoyulan məqsəd və vəzifələr, görülməsi vacib olan tədbirlər düzgün dərk olunsun və həyata keçirilməsi üçün qüvvələr səfərbərliyə alınsın.***

***Beləliklə, Prezident fərmanında irəli sürülən hazırkı regional siyasət Abşerondan kənar respublikadaxili regionların potensialından xarici investisiya ilə qarşılıqlı əlaqədə daha geniş miqyasda və səmərəli istifadə etməklə bir tərəfdən, iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafını, digər tərəfdən regionların xarici bazarla əlaqələrinin inkişafını, daxili tələbatın ödənilməsi səviyyəsinin yüksəldilməsini və bu əsasda işsizliyin, yoxsulluğun tamamilə azaldılmasını və imkan daxilində aradan qaldırılmasını nəzərdə tutur.*** Ən aparıcı sahə kimi yanacaq-enerji sektoru yenə üstün inkişaf etməlidir, eyni zamanda o, qeyri-neft sektorunun inkişafı vasitəsinə çevrilir. Nəticə etibarı ilə iqtisadiyyatın tarazlı inkişafı neft sektoru ilə qeyri-neft

sektoru və Abşeron rayonu ilə digər iqtisadi rayonlar, eyni zamanda dağ və aran rayonları arasında tarazlı inkişafı təmin edilməsidir.

## 1.2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər): regionlarda qeyri-neft sektorunun inkişafında, yoxsulluğun və işsizliyin azaldılmasında yeni mühüm mərhələ

### 1.2.1. Dünyada analoqu olmayan, bəzən yerinə yetirilməsinə şübhə ilə yanaşılan Dövlət Proqramı

«Azərbaycan Respublikası regionlarının sosial–iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» Respublika Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərmanında qarşıya qoyduğu strateji vəzifələrin yerinə yetirilməsi mənafeyinə uyğun olaraq qəbul edilmişdir. Bu proqram 2004-cü il fevral ayının 11-də Respublika Prezidenti cənab İlham Əliyevin fərmanı ilə təsdiq olunmuş və icrasına başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin dəfələrlə qeyd etdiyi kimi, bu proqram «Azərbaycanın hərtərəfli sosial-iqtisadi inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi» strategiyasının həyata keçirilməsində və qeyri-neft sektorunda olan imkanlardan səmərəli istifadə edilməsində çox mühüm mərhələdir.

Ümumiyyətlə, bu proqram Azərbaycan iqtisadiyyatının inkişafında və proqramlarla idarəetmə təcrübəsində müstəsna yer tutur. Proqramın hazırlanmasının təşəbbüskarı və icrasının təşkilatçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özü bu barədə demişdir: "Müasir dövrdə ölkəmizin sürətli inkişafına nail olmaq üçün kifayət

qədər geniş proqramlar icra edilir. Bu proqraların içində əlbəttə ki, ən önəmlisi və ən vacibi 2004-cü ildə qəbul edilmiş "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Bu proqramın qəbul edilməsindən sonra ölkəmizin bölgələri çox sürətlə inkişaf etməyə başlamışdır.[1]

Elə bu səbəbdəndir ki, mətbuatda dərc edildiyi vaxtdan bu proqram Respublika ictimaiyyətinin, nazirliklərin, aşağı və orta pillə icra hakimiyyəti orqanlarının, elmi ictimaiyyətin, sahibkarların, onun yerinə yetirilməsində mənafeyi, marağı olan bütün təşkilatların və insanların diqqət mərkəzində olmuşdur. Hər bir nazirlik, komitə, elmi-tədqiqat, tədris müəssisələri, icra hakimiyyəti orqanları, bələdiyyələr bu proqramdan irəli gələn vəzifələrini müəyyən edir və onların yerinə yetirilməsi üçün tədbirlər, planlar, proqramlar işləyib hazırladı.

Proqramda öncə müstəqillik illərində, xüsusilə də 1997-2003-cü illərdə Azərbaycanda iqtisadiyyatın inkişafı, bazar iqtisadiyyatına keçid istiqamətində əldə edilmiş nailiyyətlər təhlil olunur və qiymətləndirilir: ümumi nəticə belədir ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, maliyyə imkanları genişlənmişdir və qarşıya daha əsaslı vəzifələr qoymaq, sosial problemləri daha əsaslı surətdə həll etmək imkanı yaranmışdır. Eyni zamanda ölkənin həyatında həll edilməmiş problemlər də var. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərinin Bakı şəhərində tarixən üstün cəmlənməsi prosesi yenə davam edir, digər regionlarda isə çox istehsal müəssisələri, sosial

---

[1] Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin giriş nitqi. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 1(37) 2012-ci il, səh.69

və iqtisadi xarakterli xidmət obyektləri işləmir, belə vəziyyətin nəticəsi olaraq rayonlardan paytaxta əhali axını sürətlənmişdir. Bu hal rayonların inkişafını ləngidir, respublikanın sosial-iqtisadi inkişafını və məhsul ixrac imkanlarını məhdudlaşdırır, Bakı şəhərində ekoloji vəziyyət ağırlaşır, əhalinin ərzaq məhsulları və xidmət sahələrilə təminatında çətinliklər yaranır, əhalinin müstəqilliyimizin bəhrələrinə müsbət münasibətini zəiflədir.

Heydər Əliyevin "Yoxsulluğun azaldılması və iqtisadi inkiaşf üzrə Dövlət Proqramı" kimi bu proqram da məhz bu problemlərin həllinə yönəlmişdir. Fərq ondadır ki, burada problem daha geniş miqyasda qoyulmuş və həlli üçün daha geniş miqyaslı təşkilati-iqtisadi tədbirlər müəyyənləşdirilmişdir.

Bütün bunları biz heç də elə-belə yada salmırıq. Bunlar birinci növbədə Heydər Əliyevin sosial-iqtisadi inkişaf siyasəti ilə Prezident İlham Əliyevin Dövlət Proqramında ifadə olunan regional siyasət və sosial-iqtisadi inkişaf strategiyası arasında nə qədər böyük varislik, nə qədər böyük ardıcıllıq, qarşılıqlı tamamlama olduğunu, həm də «Bu gün Heydər Əliyevin siyasəti Azərbaycanda yaşayır, davam etdirilir və yeni formalarda zənginləşir» deyən Prezident İlham Əliyevin nə qədər haqlı olduğunu əyani surətdə göstərir. Başqa sözlə «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» Heydər Əliyevin regional siyasətinin davamı, hələ «Əsrin müqaviləsi»ni imzalayarkən yerinə yetirilməsini arzu etdiyi strateji məqsədlərin, Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramında (2003-2005-ci illər) qeyri-neft sektorunun inkişafı sahəsində qarşıya qoyduğu strateji vəzifələrin yerinə yetirilməsinin təşkilati formasıdır.

Lakin bu proqram, xüsusilə ilk vaxtlarda hamı tərəfindən eyni dərəcədə birmənalı qəbul olunmurdu. Belə ki, Dövlət Proqramı qəbul edildiyi ilk dövrdə onun qısa müddətdə tələsik hazırlandığını, elmi qüvvələrin kifayət qədər iştirak etmədiyini iddia edərək onun reallığına, xüsusilə 600 min yeni iş yeri açılmasının mümkünlüyünə şübhə ilə baxanlar da vardı.

Prezident İlham Əliyev həmin konfransdakı giriş nitqində Proqramın qəbul edildiyi ilk vaxtlarda bəzilərinin onun reallığına olan şübhəli münasibətlərini xatırlayaraq demişdir: "Proqramın qəbul edliməsi 2004-cü ilə təsadüf edir. Ancaq Proqram haqqında mən ondan əvvəlki illərdə də fikirləşirdim və 2003-cü ilin prezident seçkiləri ərəfəsində bildirmişdim ki, əgər xalq mənə etimad göstərərsə, qəbul edilmiş proqramlar nəticəsində beş il ərzində, yəni 2008-ci ilə qədər ölkəmizdə 600 minə qədər yeni iş yeri açılacaqdır. O vaxt bəziləri bu rəqəmlərə inanmırdı, bəziləri buna şübhə ilə yanaşırdı. Ancaq mən bilirdim ki, bunu etmək mümükündür. Çox şadam ki, qısa müddət ərzində, yəni ondan da az dövrdə, təxminən dörd il ərzində 600 min yeni iş yeri yaradılmışdır. [1]

Qeyd etməyi vacib bilirik ki, 600 min yeni iş yerinin açılacağına şübhə ilə yanaşılmasına əhalinin bütün təbəqələri, o cümlədən ziyalılar arasında da təsadüf olunurdu. Görünür, o zaman Respublikamızda yoxsulluğun, işsizliyin yüksək səviyyədə olması, ***Prezidentin gəncliyi, ən başlıcası qəbul edilən proqramın dünyada analoqunun olmaması və hamı tərəfindən hələ tam dərk olunmaması da bəzi hallarda onun reallığına şübhə ilə yanaşılmasına səbəb***

---

[1] Yenə orada, səh.69

*olurdu.*

Bəlkə də elə bu səbəbdən o zaman elmi ictimaiyyətdə proqrama, onun reallaşma imkanlarına ehtiyatla yanaşanlar az deyildi. Proqramın elmi təhlili ilə əlaqədar yazılara da demək olar ki, təsadüf olunmurdu.

***Proqram nəşr olunandan sonra onun ilk elmi təhlilini verən bir müəllif kimi mən özüm də belə tərəddüdlü düşüncələrlə rastaşırdım. 2004-cü ilin may ayında Regional siyasət və idarəetməyə həsr etdiyim əsərdə bu barədə yazmışdım: "Məndən tez-tez soruşurlar: Siz regionşünas alimsiniz, ömrünüzün xeyli hissəsini bu problemin tədqiqinə həsr etmisiniz.*** Deyin görək «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)» kimi nəhəng proqramı 5 il müddətinə yerinə yetirmək mümkündürmü? Xüsusilə, 5 ildə 600 min yeni iş yeri acmaq olarmı?

Deyirəm: Dövlət Proqramının qəbul edilməsinin özü bütün xalqımız kimi alimlərin də fəaliyyətinə məqsədyönlü istiqamət verən mühüm hadisədir. Başlıcası isə, bu Proqram möhkəm varislik prinsipinə əsaslanır. Əvvəllər ümummilli liderimiz Heydər Əliyevin regionların inkişafı sahəsində gördüyü müsbət işlərin qanuni nəticəsi və davamıdır, mütləq yerinə yetiriləcəyinə əminəm. Deyirlər bir beş illikdə 600 min yeni iş yeri açmaq Azərbaycanın tarixində görünməyib. Deyirəm, əlbəttə, Azərbaycanda heç bir beş illikdə 300 mindən artıq yeni iş yeri açılmamışdır. İndi 350-400 min yeni iş yeri açsaq – elə bu misilsiz müvəffəqiyyətdir. Əminəm ki, Proqramda qarşıya qoyulan başqa vəzifələri artıqlaması ilə yerinə yetirmək hesabına bu sahədə mümkün olan kəsri də aradan qaldırmaq olar. Eyni zamanda buna da əminəm ki, bütün imkanlar səfər-

bərliyə alındığı şəraitdə 600 min yeni iş yeri açmaq mümkün olacaqdır". [1]

Proqramı yerinə yetirmək üçün görülməsi nəzərdə tutulan tədbirlərin xronoloji ardıcıllığı, sonrakı illərdə proqramın yerinə yetirilməsinin gedişi onu göstərdi ki, bu dövlət proqramı uzun müddət üzərində düşünülmüş, götür-qoy olunmuş, bu səbəbdən nisbətən qısa müddətə hazırlanmış, proqram məqsədləri ilə strateji plan vəzifələrini özündə birləşdirən və icrası mümükün olan mühüm dövlət sənədidir.

Eyni zamanda Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) bir çox xüsusiyyətlərinə görə əslində dünyada analoqu olmayan bir proqramdır.Azərbaycan hökumətinin sosial-iqtisadi inkişafı proqramlarla idarəetməsi təcrübəsində tamamilə yeni bir mərhələ olmaqla bu proqram özündə bir çox fərqli xüsusiyyətləri birləşdirirdi.

**Əvvəla,** bu proqram öz mahiyyətinə görə iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sahibkarlığın ayrı-ayrı formalarının sahəvi proqramlarla idarə olunmasından ayrı-ayrı regionların və bütövlükdə Respublika iqtisadiyyatının vahid proqramla idarə olunmasına keçiddir.

Bundan əvvəlki proqramların yerinə yetirilməsi gedişi göstərdi ki, ayrı-ayrı sahələrin inkişafı və ya hər hansı iri miqyaslı problemlərin həlli üçün qəbul edilmiş bu proqramlar Respublikanın sosial-iqtisadi inkişafında mühüm rol oynasa da iqtisadiyyatın bütün sahələrinin qarşılıqlı əlaqədə gələcək inkişafı üçün kifayət etmir. Bu proqramların özünü əlaqələndirən və bütövlükdə respublika iqtisadiyya-

---

[1] Bax: Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, "Elm"-2004, səh.342-343

tının inkişafı mənafeyinə yönəldən xalq təsərrüfatı miqyaslı ümumi strateji planların və məqsədli proqramların işlənib hazırlanması və tətbiqinə ciddi ehtiyac vardır.

***Beləliklə, «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sahibkarlığın ayrı-ayrı formalarının inkişafının proqramlar vasitəsilə idarə olunmasından bütövlükdə respublika iqtisadiyyatının və regionların sosial-iqtisadi inkişafının vahid strateji plan və məqsədli proqram vasitəsilə idarə olunmasına keçiddir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramından sonra qəbul edilən bütün digər proqramlar və onun yerinə yetirilməsinə köməkçi vasitə kimi qəbul edilir.***

**İkincisi,** səmərəli dövlət idarəetməsi baxımından bu proqramın mühüm xüsusiyyətlərdən biri də strateji plan və məqsədli proqram vəzifələrinin bir-birilə paralel və qarşılıqlı əlaqədə verilməsidir. O sahələrin ki, inkişafı təmin edilməlidir, dövlət onun icrasına məsuliyyət daşıyan subyektləri də göstərir. O sahələr ki yaxın illərdə inkişaf etdiriləcək, dövlət həmin sahənin inkişafına göstərilən təşəbbüsləri dəstəkləyirdi. Həmin dəstəklənən sahələrin inkişafı artıq 2009-2013-cü illərə aid proqramda nəzərdə tutulmuşdur.

***Üçüncüsü,*** bu proqram regionların, şəhər və rayonların inkişaf istiqamətlərinə aid tədbirlər müəyyən etməklə ayrı-ayrı regionların, şəhərlərin xüsusi inkişaf proqramlarını hazırlamaq üçün şərait yaratdı. Hazırda bir çox şəhər və rayonların sosial-iqtisadi inkişaf proqramları hazırlanır.

***Dördüncüsü*** və başlıcası bu proqram adi orta müddətli sosial-iqtisadi inkişaf proqramına xas olan xüsusiy-

yətlərlə (Respublika iqtisadiyyatı bütün sahələrdə böhrandan çıxmış olduğu, sabit sürətlə davamlı inkişafa başladığı, neft strategiyası sürətlə reallaşdırıldığı və neft gəlirləri sürətlə artdığı bir vaxtda qəbul olunmuşdu) orta müddətli fövqəladə proqrama xas olan xüsusiyyətləri (Respublikada işsizliyin, yoxsulluğun səviyyəsi yüksək idi, ərzaq təhlükəsi yenə qalırdı və bunu aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər görülməsini nəzərdə tuturdu) özündə birləşdirən, kompleks xarakterli vəzifələr qarşıya qoyan və onun yerinə yetirilməsi üçün təcili tədbirlər görülməsini nəzərdə tutan fövqəladə xarakterli Dövlət Proqramı idi.

Dövlət Proqramı Azərbaycanda sosial-iqtisadi inkişafın tənzim və idarə olunmasının dünyanın inkişaf etmiş demokratik dövlətlərində mövcud idarəetmə formalarına milli ***xüsusiyyətlərimizi və mövcud şəraiti nəzərə almaq şərtilə uyğunlaşdığını göstərir.***

Məlumdur ki, demokratik dövlətlərin əksəriyyətində içərisində məqsədli proqramlar olan məsləhət xarakterli strateji inkişaf planları işlənib hazırlanır və praktikada istifadə olunur. Məsələn, Fransada 1947-1998-ci illərdə dövlətin müdaxiləsilə 12 strateji plan, Yaponiyada 1955-ci ildən başlayaraq 10-dan çox 5 və 7 illik plan işlənib hazırlanmışdır. Başqa demokratik ölkələrdə də buna bənzər təcrübə çoxdur. Lakin dünya praktikasında çoxdan sübut olunmuşdur ki, belə plan və proqramlar yalnız əməli işlə möhkəmləndirildikdə real olur və əsasən yerinə yetirilir.

Buna görə də Prezident fərmanında, eləcə də Dövlət Proqramında müvafiq təşkilatlara, icraçılara xatırladılır ki, proqramlar qəbul etmək sosial-iqtisadi inkişafın ilkin zəmini, başlanğıcıdır, əsas məsələ onun icrasını təmin etməkdir.

## 1.2.2. Dövlət Proqramının məqsəd və vəzifələri, iqtisadiyyatın müxtəlif sahələrinin nəzərdə tutulan inkişaf istiqamətləri

*Dövlət Proqramının əsas məqsədi «Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artmasına və ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaqdır».*[1]

***Beləliklə, proqramda qarşıya kompleks xarakterli məqsəd qoyulur və buna müvafiq olaraq, bu proqram birinci növbədə çoxcəhətliliyi ilə diqqəti cəlb edir.*** Bizim iqtisadi, sosial, mədəni həyatımızın elə bir sahəsi yoxdur ki, bu proqramda öz əksini ***tapmamış olsun.*** Bütövlükdə respublika ilə bərabər, onun ayrı-ayrı inzibati-ərazi vahidləri və iqtisadi-coğrafi regionlar miqyasında konkret vəzifələr qarşıya qoyulur və həlli istiqamətləri əsaslandırılır. Sabit və davamlı inkişafı təmin etmək üçün ***46 respublika miqyaslı tədbir - inkişaf istiqaməti*** və respublikadaxili iqtisadi rayonların kompleks sosial-iqtisadi inkişafını təmin etmək üçün 668 region miqyaslı tədbir həyata keçirmək proqnozlaşdırılıb. ***Dövlət Proqramı Azərbaycanın regionlarının bütövlükdə, xüsusilə Bakı şəhərindən kənar ərazilərin in-***

---

[1] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), Bakı, «Nurlan», 2004, səh.7.

***kişafını nəzərdə tutan regional siyasətdə və regionların inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır.***

Hazırkı regional siyasətin ən mühüm xüsusiyyəti inkişaf səviyyəsindən asılı olaraq və mövcud potensialdan səmərəli istifadə etmək üçün ***rayonlar qrupuna diferensial formada yanaşılması,*** mövcud imkanlar ilə müqayisədə iqtisadiyyatı geri qalmış rayonların daha sürətlə inkişafının nəzərdə tutulmasıdır. Bu onda ifadə olunur ki, ***əvvəla,*** Azərbaycanın Abşerondan kənar iqtisadi rayonlarının Bakı şəhərinə nisbətən sürətlə inkişafı nəzərdə tutulur. Bu, bütövlükdə qeyri-neft sektorunun sürətli inkişafı nəticəsində təmin edilməlidir.

***İkincisi,*** Bakıdan kənar iqtisadi rayonların içərisində 80-ci illərin axırlarında iqtisadiyyatının inkişaf səviyyəsi böyük təbii resurslarına, işçi qüvvəsi potensialına nisbətən aşağı olan və 90-cı illərin əvvəllərində daha çox dağıntıya məruz qalmış Şəki-Zaqatala, Lənkəran-Astara, Quba-Xaçmaz, Naxçıvan MR və Dağlıq Şirvan iqtisadi rayonlarının daha sürətlə və kompleks inkişafı nəzərdə tutulur. İnkişafı nəzərdə tutulan və dəstəklənən 668 tədbirin 303-ü (43,4%-i) bu iqtisadi rayonların payına düşür.

***Üçüncüsü,*** sürətli inkişafı nəzərdə tutulan Bakıdan kənar iqtisadi rayonlarda dağlıq və dağətəyi inzibati rayonların daha sürətlə inkişafı nəzərdə tutulur. Proqramda Daşkəsən, Gədəbəy, Lerik, Yardımlı, Qusar, Dəvəçi, Xızı inzibati rayonlarında geniş mədəni-quruculuq işlərilə bərabər istehsal sahələrinin sürətlə inkişafının nəzərdə tutulduğu aydın müşahidə olunur.

Dövlətin investisiya siyasətini də dağlıq və dağətəyi rayonların üstün inkişafına yönəltmək nəzərdə tutulur. Belə ki, Dövlət Proqramında 2004-2008-ci illərdə dövlət investi-

siyasının əsasən regionların infrastruktur və kommunal xidməti müəssisələrinin, sosial obyektlərin tikintisinə yönəltmək istiqaməti seçildiyi halda dağlıq və dağətəyi rayonlarda dövlət investisiyasının ***birinci növbədə istehsal sahələrinin bərpasına, sonra infrastruktur və kommunal müəssisələrinin, sosial obyektlərin bərpası və tikintisinə yönəltmək məqsədəuyğun sayılır.***

Proqramda yaxın beş ildə investisiya qoyuluşu 16,8 milyard ABŞ dolları həcmində proqnozlaşdırılmışdı ki, bunun da təqribən 60%-i Bakı şəhərindən kənar şəhər və rayonların payına düşür. Bakı şəhəri ilə Respublikanın digər bölgələri arasında investisiyanın belə bölgüsü Azərbaycanın həyatında az təsadüf oluna bilən hadisədir və qeyri-neft sektorunun sürətli inkişafının nəzərdə tutulması və bunun da əsasən Bakı şəhərindən kənar bölgələrimizdə yerləşməsi ilə əlaqədardır. Nəticə etibarilə Bakı şəhərinin inkişaf sürəti ilə digər rayon və şəhərlərin inkişaf sürəti arasında nisbət dəyişəcək, onların Bakı şəhərinə nisbətən daha sürətli inkişafı üçün real şərait yaranacaqdır.

***Yaddan çıxarmaq olmaz ki, işsizlik və yarım işsizlik də, yoxsulluq da başlıca*** olaraq Azərbaycanın Abşerondan kənar iqtisadi rayonlarındadır. Bu rayonların əmək qabiliyyətli əhalisinin bir hissəsi həmin rayonlarda daimi pasport qeydiyyatında olsa da, Bakı şəhərində işləyir. Halbuki elə həmin rayonların özündə investisiya qoyuluşu şəraitində aqrar-sənaye kompleksi, infrastruktura sahələrində yeni iş yerləri açmaq üçün geniş imkanlar vardır. Lakin burada bir qayda olaraq kənd rayonları, xüsusilə sərhədyanı rayonlar və kəndlər ön plana çəkilməlidir. Rayonların son illərdə sosial-iqtisadi inkişaf göstəricilərini nəzərdən keçirdikdə elə inzibati rayonlara rast gəlirik ki, orada sənayeyə aid bir

dənə də olsun obyekt yoxdur. Sərhəd və dağ rayonlarının sosial-iqtisadi inkişafının aşağı olması əhalinin yaşadığı rayona bağlılığına mane olur, ölkədə ərzaq və iqtisadi təhlükənin mənbəyinə çevrilir.

Biz proqramı reallaşdırarkən sərhədyanı və dağlıq rayonların, kəndlərin iqtisadi və ərzaq təhlükəsizliyi, həyat səviyyəsinin yüksəldilməsi, sabaha inam hissinin gücləndirilməsi, əhalinin daimi məskunlaşmasına şərait yaranması kimi amilləri nəzərə almalıyıq. ***Regionların hərtərəfli inkişafını təmin etmək üçün Dövlət Proqramında istehsal və xidmət sahələrinin inkişafı bir növ növbələşdirilir.*** Bu cəhətdən proqramda sosial-iqtisadi inkişaf üçün yerinə yetirilməsi vacib sayılan tədbirləri iki qrupa bölmək olar:

I. Yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər və bununla bağlı siyasət;

II. Yerinə yetirilməsi dövlət tərəfindən dəstəklənən tədbirlər və bununla bağlı siyasət.

***I qrup*** - 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda dövlətin köməyilə inkişafı nəzərdə tutulan sahələr və görülməli olan tədbirləri, onlarla bağlı dövlət siyasətini əhatə edir. Bunlar elə istehsal və xidmət sahələri kompleksidir ki, onlar keçmişdə inkişaf etmişdi, hazırda bərpası və inkişafı nisbətən tez və ucuz başa gələ bilər, yaxud da inkişafı olduqca vacibdir.

Bunlar aşağıdakılardır:

1. Respublikada tarixən, xüsusilə 70-80-ci illərdə inkişafında zəngin təcrübə toplanmış, məhsul ixracatında mühüm rol oynamış, hazırda isə zəif olan ağır sənaye sahələri (qara və əlvan metallurgiya, maşınqayırma, kimya, neftkimya, energetika, neft-qaz hasilatı) müəssisələrinin işə salınması;

2. İxtisaslaşmış kənd təsərrüfatı və onların xammalını emal edən sahələrin (baramaçılıq-ipəkçilik, çayçılıq-çay emalı, pambıqçılıq-pambıq təmizləmə, tütün-tütün emalı, meyvəçilik və meyvə-tərəvəz konserv istehsalı) inkişaf etdirilməsi;

3. İstehsala və əhaliyə xidmət edən infrastruktur sahələrinin kompleks inkişafı:

1) Elektrik enerjisi, qaz və istilik təchizat sisteminin yenidən qurulması və inkişafı;
2) Yaşayış məntəqələri və təsərrüfat sahələrinin, su təchizatı sisteminin yenidən qurulması, inkişafı, kanalizasiya şəbəkəsinin yenidən qurulması və inkişafı;
3) Magistral yolların, rayonlararası və yaşayış məntəqələri daxili şosse yollarının əsaslı təmiri, yeni yollar çəkilməsi, dəmir yolu və su yollarının bir hissəsinin yenidən qurulması və inkişafı;

4. İdman kompleksləri tikintisi, turizmin, sanatoriya-kurort təsərrüfatının imkan olan bütün rayonlarda kütləvi halda inkişafı. Quba-Xaçmaz, Lənkəran-Astara, Gəncə-Qazax, Şəki-Zaqatala, Dağlıq Şirvan, Abşeron iqtisadi rayonlarında çoxsaylı kurort-sanatoriya-turizm, istirahət-turizm ocaqlarının yaradılması. Lənkəran, Masallı, Siyəzən-Dəvəçi (Xəzər dənizi sahili), Ağsu, Şəki-Zaqatala istiqamətində turist düşərgələrinin təşkili.

Məsələyə belə yanaşdıqda Dövlət Proqramında yaxın keçmişdə baş vermiş inkişafla hazırki inkişaf arasında varislik prinsipinə hərtərəfli əməl olunduğunu görürük. Bu baxımdan Dövlət Proqramında öncə yaxın keçmişdə istehsal və xidmət sahələrində yaranmış potensialdan səmərəli istifadə etmək hesabına regionları sürətlə inkişaf etdirmək bir vəzifə kimi qarşıya qoyulur.

***II qrup*** - yaxın perspektivdə respublikada istehsalın yeni strukturda inkişafına şərait yaratmaq məqsədilə mövcud təbii sərvət və imkanlardan istifadə etməklə yeni istehsal və xidmət sahələrinin işə salınmasının dəstəklənməsidir.

II qrup elə vacib istehsal və xidmət sahələridir ki, onların inkişafı dövlət tərəfindən dəstəklənir, lakin hələlik vacib dövlət vəzifəsi kimi qarşıya qoyulmur. Bunlar da iki qrupa bölünə bilər: ***Birincisi elə sahələrdir ki,*** onlar respublikanın yerli imkanlarından səmərəli istifadə etmək, xarici bazara keyfiyyətli məhsul çıxarmaq mənafeyinə uyğundur, ən başlıcası da odur ki, onlar yaxın keçmişdə respublikada güclü inkişaf etmişdi, onların inkişafı sahəsində respublikada zəngin təcrübə toplanmışdır, ixtisaslı kadr potensialı var, lakin hazırda bu sahələr dağıntıya məruz qalmışdır və bərpası nisbətən uzun vaxt və maliyyə vəsaiti tələb edir. Dövlət bu sahələrin inkişafını dəstəkləyir və onların yaxın illərdə inkişafına zəmin yaradır. Məsələn: Cəlilabad, Ağsu, Qobustan, İsmayıllı, Şamaxı rayonlarında üzümçülük-şərabçılığın inkişafının; Salyan-Neftçala, Siyəzən, Əli-Bayramlı-Salyan zonasında neft-qaz hasilatının dövlət tərəfindən dəstəklənməsi və i.a.

***İkincisi elə sahələrdir ki,*** onlar yeni təbii ehtiyat və imkanlardan istifadə etməklə yeni istehsal və xidmət sahələrinin yaranmasını, iqtisadiyyatda struktur dəyişikliklərinin baş verməsini və i.a. nəzərdə tutur: Naxçıvanda kimya sənayesinin yaradılması, duz istehsalının geniş miqyasda mənimsənilməsi, Filizçayın mənimsənilməsi, Şəkidə efir yağı bitkisi istehsalı və emalının təşkili, Lənkəranda dəniz limanı tikintisi və i.a. Bunların yerinə yetirilməsi Proqramda göstərilən müddətdən xeyli kənara çıxa bilər və beləliklə, proqramda əslində yaxın 10 ildə görülməsi nəzərdə tutulan

tədbirlər öz əksini tapmışdır.

Proqramı diqqətlə nəzərdən keçirəndə, biz burada 5 il müddətinə deyil, gələcəkdə bir qədər təkmilləşdirmələr aparılmaqla daha uzun müddətə inkişaf istiqamətlərinin müəyyən edildiyini görə bilərik. Belə ki, yuxarıda göstərilən dörd qrup sahənin inkişafı bir növ konkret vəzifə kimi qarşıya qoyulur. Proqramın cari beşillikdə yerinə yetirilməsi də əsasən onların yerinə yetirilməsindən asılı olacaqdır. Beşinci qrup vəzifələrin yerinə yetirilməsi daha çətindir. Əlavə vaxt, vəsait və hazırlıq tələb edir. Dövlət onların inkişafını dəstəkləyir, gələcək dövrdə onların inkişafının konkret vəzifə kimi qarşıya qoyulmasına şərait yaradır.

Beləliklə, növbəti proqramda inkişafı dəstəklənən sahələrin gələn beşillikdə sürətli inkişafı bir vəzifə kimi qarşıya qoyulacaqdır. Nəhayət, proqramda nəzərdə tutulan inkişaf istiqamətlərinə əsaslanaraq belə bir qənaətə gəlmək olar ki, indi mövcud olan iqtisadi, siyasi və sosial şərait qaldığı təqdirdə Azərbaycanın qeyri-neft sektorunda ümumi daxili məhsul istehsalı 2006-2008-cı illərdə daha sürətlə arta bilər.

Bu proqram iqtisadiyyatın bütün sahələrində qarşıya qoyulmuş vəzifə və məqsədlərin nəhəngliyinə görə diqqəti cəlb edir.

Proqrama əsasən 2004-2008-ci illər Respublikamızda məhsuldar qüvvələrin inkişafı və ərazi təşkilinin təkmilləşdirilməsində, əhaliyə və istehsala xidmət sahələrinin yenidən qurulması və inkişafında, işsizliyin azaldılması və həyat səviyyəsinin yüksəldilməsində, fiziki, mənəvi-əxlaqi cəhətdən sağlam və fəal həyat tərzinin təmin edilməsində əsaslı dönüş və tərəqqi illəri olacaqdır.

Proqramda beş il müddətində 600 min iş yeri açmaq nə-

zərdə tutulurdu ki, bu da işsizlik probleminin həllində çox mühüm mərhələ olacaq. Bu 2003-cü ilə nisbətən 2008-ci ildə ölkə iqtisadiyyatında işləyənlərin ümumi sayının 16-17% artırılması deməkdir. Bu artım sürəti XX əsrdə ölkənin inkişafının hər hansı dövründə olduğuna nisbətən çox yüksəkdir. Belə bir faktı xatırlamaq yerinə düşər ki, iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi 1971-1985-ci illərdə xalq təsərrüfatında işləyən fəhlələrin, qulluqçuların və kolxozçuların sayı 814 min nəfər və ya hər beşillikdə orta hesabla 272 min nəfər artmışdır. Hər halda bu beşillikdə həmin rəqəmin azı iki dəfə çox olması nəzərdə tutulur.

Dövlət Proqramına əsasən, kənddə istehsal və xidmət sahələrində 10 minlərlə iş yerlərinin açılması nəzərdə tutulur ki, bu da kənddən şəhərə işçi qüvvəsi axınının qarşısını əhəmiyyətli dərəcədə almalıdır.

Adətən Sovetlər İttifaqı dövründə müvəffəqiyyətli inkişaf illərində bir beşillikdə milli gəlirin 30-50% arasında artmasına adət edilmişdi.

Proqrama əsasən, 2008-ci ildə 2003-cü ilə nisbətən ümumi daxili məhsul istehsalı 2,3 dəfə artaraq 76,3 trilyon manata (15,26 mlrd.Azn) çatmalı, ümumi daxili məhsulun adam başına düşən həcmi 1578 ABŞ dolları olmaqla 2003-cü ilə nisbətən azı 2,1-2,2 dəfə artması nəzərdə tutulurdu. Qeyd etməyi lazım bilirik ki, bu artım göstəriciləri də çox yüksək olub 70-ci illərdə iki beşillik ərzində əldə etdiyimiz göstəricilərlə müqayisə oluna bilər. Xatırladaq ki, 1971-1980-ci illərdə Azərbaycanda milli gəlir 204 %, sənaye məhsulu 220%, kənd təsərrüfatı məhsulu 202 % artmışdır. Proqramda bazar münasibətlərinin inkişaf etdirilməsi və məhsul istehsalında özəl sektorun xüsusi çəkisinin 2003-cü ildəki 73%-dən 85%-ə çatdırılması nəzərdə tutulur. Belə-

liklə də, ÜDM istehsalında xüsusi sektorun xüsusi çəkisinə görə Azərbaycanın dünyanın qabaqcıl dövlətlərində olan səviyyəyə (80-85%) gəlib çatması nəzərdə tutulur. Eyni zamanda respublikamızda neft sektorunun mövcudluğunu və bu sahədə dövlət sektorunun mövcud olmasının zəruriliyini və Azərbaycan xalqının XX əsrdə adətən dövlətin rolunun böyük olması şəraitində fəaliyyət göstərdiyini əsas götürərək demək olar ki, 2008-ci ildə Azərbaycanda ÜDM istehsalında özəl bölmənin xüsusi çəkisi optimal səviyyəyə yaxınlaşacaq. ***Sonrakı illərdə özəl bölmənin inkişafı sahəsində əsas vəzifə onun iqtisadiyyatın inkişafında aparıcı rolunu qoruyub saxlamaq və möhkəmləndirməkdən ibarət olacaqdır.***

Proqramda nəzərdə tutulan əsas məsələlərdən biri kənd təsərrüfatının inkişafıdır. Proqramda kənd təsərrüfatında məhsul istehsalının hər hansı digər beşillik dövründə olduğuna nisbətən sürətli inkişafı və ümumi daxili məhsul istehsalının 62,5%, hər il orta hesabla 10,5% artacağı gözlənilir. Kənd təsərrüfatı işçilərinə kömək məqsədilə iqtisadi rayonlarda servis mərkəzləri, damazlıq heyvan və toxumçuluq bazalarının yaradılması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında məhsulun artım sürəti əvvəlki dövrlərdə olduğuna nisbətən sürətli olsa da, xidmət sahələrinə nisbətən aşağı sürətli olacaq. Buna görə də ümumi daxili məhsul istehsalında, kənd təsərrüfatı məhsulunun xüsusi çəkisinin aşağı düşməsi, sənaye və digər sahə məhsullarının xüsusi çəkisinin artması gözlənilir. Eyni zamanda nəzərə almaq lazımdır ki, Azərbaycanda taxıl, meyvə-tərəvəz, ət-süd, yumurta məhsulları istehsalı mövcud alıcılıq qabiliyyəti nəzərə alınmaqla əhalinin tələbatını ödəmək səviyyəsinə yaxınlaşır. Yaxın beş ildə əhalinin sayının 9-

10% arta biləcəyini nəzərə alsaq həmin məhsulların artım sürətinin də kifayət qədər yüksək olduğunu etiraf etməliyik.

Eyni zamanda proqramda investisiyanın, əmək haqqının və digər pul gəlirlərinin artması sahəsində ciddi irəliləyişlər olması nəzərdə tutulur. İnvestisiya qoyuluşunun sürətlə artması, kütləvi sürətdə yeni iş yerlərinin açılması, əmək haqqının, pensiya və müavinətlərin də ardıcıl olaraq artmasına şərait yaradacaq. Ümumiyyətlə orta aylıq əmək haqqının 3,1 dəfə artması nəzərdə tutulur.

Beləliklə, proqramda həqiqətən nəhəng vəzifələr qarşıya qoyulur. Onda sual olunur: Bu vəzifələr realdırmı? Onların yerinə yetirilməsi mümkündürmü?

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *«Mənim tərəfimdən bu sahəyə aid imzalanmış fərmanlar icra olunacaq, Azərbaycanda regional proqramlar həyata keçiriləcək, iqtisadiyyatımızın gələcək inkişafı təmin ediləcəkdir. Əlbəttə, bütün bunlara nail olmaq üçün, ilk növbədə, sahibkarlara gərək lazımi şərait yaradılsın. Əgər biz qarşımızda böyük vəzifələr qoyuruqsa, yoxsulluqla mübarizə aparmaq, yeni iş yerlərinin açılmasına nail olmaq istəyiriksə, mütləq və mütləq dövlətlə özəl sektor çiyin-çiyinə işləməli, fəaliyyət göstərməli, bir-birinə kömək etməlidir, bir-birinə zərbələr vurmamalıdır».*[1]

Biz də birmənalı surətdə belə hesab edirik ki, bu vəzifələr realdır, Azərbaycan iqtisadiyyatının indiki vəziyyətinə və tarixi keçmişinə istinad edir, imkanlar səfərbərliyə

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində «Azərbaycanın uğurlu gələcəyi sahibkarlığın, regionların inkişafı ilə bağlıdır» mövzusunda giriş nitqindən, «Dirçəliş - XXI əsr», 2004 fevral, № 72, səh.32.

alınarsa tamamilə və artıqlaması ilə yerinə yetirilə bilər. Ümumi səbəb odur ki, bu proqram güclü varislik prinsipinə əsaslanır.

***Əvvəla,*** proqram qəbul edildikdən sonra ölkəmizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş mədəni-quruculuq işləri, istehsal və sosial infrastrukturanın inkişafı istiqamətində işlər daha geniş vüsət almışdır. Hər gün mətbuatda, radio və televiziyada Şəki, Əlibayramlı, Yevlax, Gəncə, Sumqayıt, Naxçıvan, Lənkəran və i.a. şəhərlərdə və rayonlarda geniş tikinti-quruculuq, abadlıq işləri görülməsi, onlarla yeni iş yerlərinin açılması haqda yeni-yeni sevindirici məlumatlar alırıq. Bunlar bizdə proqramın yerinə yetirilməsinə inam hissini gücləndirir.

***İkincisi,*** bu proqram son illərdə iqtisadiyyatın inkişafında və əhalinin həyat səviyyəsinin yüksəlməsi sahəsində əldə olunmuş nailiyyətlərə söykənir, onların qorunub saxlanması və möhkəmləndirilməsi məqsədini güdür. 1998-2003-cü illərdə Azərbaycanda ümumi daxili məhsul istehsalı orta hesabla 10%-dən çox, 2003-cü ildə 11,2% artmışdır. Ümumi daxili məhsul istehsalının 2003-cü ilə nisbətən 2008-ci ildə 2,3 dəfə artması üçün onun hər il özündən əvvəlki ilə nisbətən 12-13% artması tələb olunur ki, bu da tamamilə real vəzifədir. Bunu real edən əsas amil 2000-ci ildən sonra kapital qoyuluşunda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləridir. 2003-2004-cü illərdə investisiya imkanları hətta 1999-2000-ci illərə nisbətən çox artmışdır. Son iki ildə isə daha sürətlə artır. 2003-cü ildə xarici investisiya qoyuluşu 3,2 milyard dollar olmaqla 2002-ci ilə nisbətən 79,2% artmışdır. 2004-cü ilin birinci rübündə əsaslı investisiya qoyuluşu 2003-cü ilin birinci rübünə nisbətən 1,7 dəfə artmışdır. Bütün bunlar yaxın beş

il ərzində investisiyanın 16,8 milyard dollardan çox olacağını ehtimal etməyə əsas verirdi. Həm də investisiyanın hər il əvvəlki ilə nisbətən daha çox hissəsi istehsal təyinatlı obyektlərə yönəlir. 2003-cü ildə bütün mənbələrdən investisiyanın 91,8%-i istehsal təyinatlı obyektlərə cəmi 8,2% qeyri-istehsal təyinatlı obyektlərə qoyulmuşdur.

İnvestisiya qoyuluşunda ümümi daxili məhsul istehsalında sənaye daha əsas yer tutmağa başlamışdı. 2003-cü ildə istehsal təyinatlı obyektlərə qoyulan investisiyanın 79,7%-i sənayenin, 1,0%-i kənd təsərrüfatının, 8,7%-i nəqliyyatın, 5,5%-i tikintinin payına düşmüşdür. Bunlar real sektorun ümumi daxili məhsulun artmasında rolunun artmasını və bununla da ÜDM-in daha çox artmasını təmin edəcəyini düşünməyə əsas verirdi.

***Üçüncüsü,*** proqramda irəli sürülən vəzifələr son illərdə yerinə yetirilmiş vəzifələrin, iqtisadiyyatın inkişafında əldə edilmiş nailiyyətlərin məntiqi davamıdır. Ümumi daxili məhsulun, investisiya qoyuluşunun artması, onun strukturu, regionların inkişafı elə səviyyəyə çatmışdır ki, indi iqtisadiyyatın inkişafı sahəsində qarşıya daha böyük vəzifələr qoymaq olar və qoyulmuşdur. Proqramda iqtisadiyyatın əsas sahələrinin ixtisaslaşma istiqamətləri müəyyən edilərkən hər bir regionun imkanları, ***keçmişdə ixtisaslaşma sahəsində toplanmış təcrübədən və istehsal potensialından mümkün qədər qısa vaxtda səmərəli istifadə etməklə yeni iş yerləri açmaq, məhsul istehsalını artırmaq və regionların dünya bazarına məhsul çıxarması imkanını artırmaq mənafeyi ön plana çəkilmişdir.*** Bunları nəzərə almaqla regionlarda dövlətin sürətli inkişafına kömək göstərməli olduğu və dəstək verdiyi sahələr müəyyən edilmişdir.

Keçmişdə toplanmış və son illər istifadəyə verilmiş po-

tensialdan səmərəli istifadə etmək, xarici bazara məhsul çıxarılmasını artırmaq, mümkün qədər tez yeni iş yerləri açmaq və əhalinin həyat səviyyəsini yüksəltmək respublikanın bütün regionlarında sosial-iqtisadi inkişaf istiqamətlərini müəyyən edərkən əsas prinsiplər kimi götürülmüşdür. Bu baxımdan bir çox ixtisaslaşmış istehsal sahələrinin proqramda nəzərdə tutulan inkişaf istiqaməti ölkəmizdə və onun hər bir regionunda 70-80-ci illərdə inkişaf istiqamətlərinin bu və ya digər dərəcədə, yeni keyfiyyətdə bərpasıdır. Deməli, iqtisadiyyatın əsas sahələrində həmin dövrdə əldə olunmuş istehsal potensialından (ixtisaslı işçi qüvvəsi, əsas fondlar, xidmət sahələri və i.a.) istifadə olunması nəzərdə tutulur.

Bu sahələrə aid müəssisələrin çoxunun istehsal korpusu, inzibati binası, müəssisəyə giriş-çıxış yolları, daxili yolu, işçilərə xidmət obyektləri, kifayət qədər ixtisaslı işçi qüvvəsi və i.a. vardır. Bunlara ya az xərc çəkiləcək, ya da xərc çəkilməyəcək. Bu kadr hazırlığı, müəssisələrin tikintisi və ya yenidən qurulmasının sürətlə, nisbətən tez və ucuz başa gəlməsinə şərait yaradır. Əgər hazırda mövcud olan işgüzarlıq əhval-ruhiyyəsini, investisiya mühitini yaxşılaşdırmaq üçün görülən tədbirləri nəzərə alsaq, demək olar ki, respublikada proqramda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün tam əlverişli imkan vardır və proqram yerinə yetiriləcəkdir.

Eyni zamanda əgər proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi təmin edilərsə, ÜDM istehsalının 2005-cı ildən başlayaraq daha çox arta biləcəyi ehtimal olunurdu. Eyni fikri yeni iş yerlərinin açılması haqqında da demək olar. Belə bir mülahizə də vardır ki, 600 min iş yeri açmaq çoxlu vəsait və vaxt tələb edir. Bir beşillikdə buna

nail olmaq çətindir. Nəzərə almaq lazımdır ki, yeni iş yerlərinin xeyli hissəsi keçmişdə tikilmiş, indi fəaliyyət göstərməyən, yaxud çox aşağı səviyyədə işləyən ixtisaslaşmış böyük istehsal müəssisələrinin (qara və əlvan metallurgiya, kimya, toxuculuq, maşınqayırma, ipəkçilik və i.a.), istehsal və sosial infrastruktura sahələrinin yeni əsaslarla bərpası və yenilərinin işə salınması hesabına olacaqdır.

Proqramda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün bir çox tədbirlər kompleksinin həyata keçirilməsi vacib sayılır. Əvvəla, iqtisadiyyatın dövlət tənzimlənməsilə bağlı mövcud siyasətin davam etdirilməsi nəzərdə tutulur. Bu baxımdan öncə respublikada əlverişli investisiya mühitinin qorunub saxlanması və inkişafı siyasətinin davam etdirilməsi vacib sayılır. İnflyasiyanın, milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanması, vergilərin sayının azaldılması, dərəcələrinin respublikanın şəraitini nəzərə almaqla optimal səviyyədə saxlanması vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalına tətbiq edilən güzəştlərin müddətinin uzadılması, yeni iş yerləri yaradılmasının stimullaşdırılması, gömrük dərəcələrinin optimal səviyyədə saxlanması, xarici borclardan səmərəli istifadə olunması siyasəti davam etdiriləcəkdir. Qiymət, tarif siyasəti əhalinin həyat səviyyəsinin yüksəlməsi, ödəmə qabiliyyətinin vəziyyəti nəzərə alınmaqla formalaşacaqdır.

İkinci, nəzərdə tutulur ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət vəsaiti əsasən infrastruktura sahələrinin inşasına yönəldiləcəkdir. Aqrar-sənaye kompleksi müəssisələrinə və dağlıq rayonlarda istehsalın inkişafına dövlətin maliyyə xarakterli yardım göstərməsi, mikrokredit banklarının yaradılmasının dəstəklənməsi, məhsulun daxili bazarda satışına şərait yaradılması vacib hesab olunur.

Üçüncü, düzgün xarici iqtisadi siyasət vasitəsilə istehsal olunmuş məhsulların xarici bazarlarda satılması, daxili bazarın haqsız rəqabətdən qorunması üçün şərait yaradılacaq, standartlarımızın beynəlxalq standartlara uyğunlaşması prosesi davam etdiriləcəkdir. Rayonlarda mövcud olan potensial kadrlar üçün işçilərin peşə hazırlığı mərkəzlərinin yaradılması, dövlət-sahibkarlar dialoqunun genişləndirilməsi vacib sayılır.

Makroiqtisadi inkişafı təmin etmək üçün dövlət miqyaslı tədbirlər kompleksini həyata keçirmək nəzərdə tutulur: qanunvericilik bazasının möhkəmləndirilməsi, qanun layihəsinin hazırlanması, o cümlədən xüsusi iqtisadi zona yaradılması, məşğulluq strategiyasının hazırlanması, iri və orta müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi, Şimal, Cənub və Qərb istiqamətində, ***Bakı şəhəri ətrafında böyük gömrük terminalı və sərbəst gömrük zonalarının yaradılması, dağlıq rayonların inkişafına yönəldilmiş tədbirlər kopmleksinin hazırlanması nəzərdə tutulurdu.*** Bütövlükdə Azərbaycandan fərqli olaraq onun dağ və dağətəyi rayonlarında istehsal sahələrinin, yeni müəssisələrin tikintisində dövlətin maliyyə vəsaitindən istifadə olunmasının artırılması, dağ rayonlarının inkişafına yönəldilmiş tədbirlər kompleksinin hazırlanması, istehlak mallarının keyfiyyətinə nəzarət üçün müasir laboratoriyaların yaradılması nəzərdə tutulur. Kənddə maşın, ehtiyat hissələri, anbarlar, bitki mühafizə preparatlarının, toxum topdan satış şəbəkəsinin yaradılması vacib sayılır.

Proqramda onun yerinə yetirilməsi üçün maliyyə təminatı məsələsinə xüsusi yer ayrılmışdır. Beynəlxalq miqyasda milli proqramların yerinə yetirilməsi üçün vacib olan əsas maliyyə mənbələri nəzərə alınmışdır. Bunlar aşağıda-

kılardır:

- Xarici və yerli sahibkarların vəsaiti;
- Azərbaycan Respublikasının dövlət büdcəsi;
- Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu;
- Büdcədənkənar dövlət fondları;
- Kommersiya banklarının və bank olmayan kredit təşkilatlarının kreditləri;
- Beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaiti;
- Qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlər.

Hər bir regionun maliyyə mənbəyində fərqli cəhətlər var. Məsələn: regionların inkişafında mühüm rol oynayan Azərbaycan Respublikası dövlət büdcəsindən, Sahibkarlığa Kömək Milli Fondundan müxtəlif regionlara müxtəlif miqdarda vəsait ayrıla bilər. Başqa maliyyə mənbələrinin də müxtəlif regionlarda rolu müxtəlif olacaqdır. Eyni zamanda ayrı-ayrı regionların xüsusiyyətlərindən asılı olaraq maliyyə mənbələrinin sayı arta və ya azala bilər.

Proqramın yerinə yetirilməsində və regional siyasətin inikişafında Respublika Prezidentinin «Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi mexanizminin təkmilləşdirilməsi haqqında» Fərmanının (4 may 2004-ci ildə verilmişdir) mühüm əhəmiyyəti vardır. Fərmana əsasən Fondun vəsaitinin formalaşması və istifadəsinə bir sıra dəyişikliklər edilmişdir. Belə ki, mövcud qaydalardan fərqli olaraq fərmanda Fondun vəsaitinin istifadəsi üzrə Müsabiqə Komissiyası tərkibinə ölkəmizdə sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərən xarici maliyyə-kredit təşkilatlarının nümayəndələrinin

də daxil olması məqsədəuyğun hesab edilir. Bundan başqa, fonddan ayrılan vəsaitlərin daha çox Bakı şəhərindən kənar regionlarda yerləşdirilməsini təmin etmək məqsədilə fondun vəsaitinin yerləşdirilməsinə müvəkkil kommersiya bankları ilə yanaşı qeyri-bank kredit təşkilatlarının da cəlb edilməsi nəzərdə tutulur. Bütün bunlar xarici və milli sahibkarların, habelə qeyri bank-kredit təşkilatlarının maliyyə imkanlarından, təşəbbüskarlıq, təşkilatçılıq işindən birlikdə istifadə etməklə regionlarda ümumi sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcəkdir.

Bunlarla yanaşı, büdcədən sahibkarlığın inkişafına ayrılmış vəsaitin istifadə edilməmiş hissəsi əvvəllər yenidən büdcəyə qaytarılırdı. Yeni qaydaya əsasən müvəkkil kredit təşkilatları tərəfindən qaytarılan kredit vəsaitləri və digər daxilolmalar büdcəyə köçürülməyərək fondun hesabında saxlanılacaq və gələn il yenidən kreditləşməyə yönəldiləcəkdir. Bu da kreditləşmə prosesini fasiləsiz olaraq həyata keçirməyə və büdcədən ayrılan vəsaitlərdən daha səmərəli istifadə etməyə imkan verəcəkdir.

Fərmana əsasən kənd təsərrüfatına mikrokreditlərin verilməsi mexanizmi də müəyyən qədər sadələşdirilir. Belə ki, indiyə qədər bütün kreditlər eyni qayda ilə verilirdi. Bu qaydalar kiçik sahibkarlığın həmin kreditdən istifadə imkanını məhdudlaşdırırdı. İndi isə belə müvəkkil kredit təşkilatlarının hesabına əvvəlcədən dövlət büdcəsindən 200 milyon manat ehtiyat vəsaiti köçürülür və beləliklə də müvəkkil kredit banklarının büdcəyə müraciətinə ehtiyac qalmır və bu da mikrokreditin fasiləsiz olaraq verilməsi imkanlarını artırır. Bundan başqa müvəkkil kredit banklarına (təşkilatlarına) kreditə görə verilən faizlər təqribən 2 dəfə artırılıb 6%-ə çatdırılmışdır. Əksinə, onlardan büdcəyə

kreditlərə görə alınan faizlər aşağı salınmış və təqribən 1% təşkil edir. Bu müvəkkil təşkilatların fəaliyyətinin stimullaşdırılmasında mühüm rol oynayacaqdır.

Nəhayət proqramda nəzərdə tutulan hər bir tədbirin yerinə yetirilməsi üçün məsuliyyət daşıyan, cavabdeh olan aşağı və yuxarı dövlət strukturları, yerli icra hakimiyyəti və özünüidarə orqanları müəyyənləşdirilmiş və aydın göstərilmişdir.

## 1.3. Azərbaycanda xüsusi iqtisadi zonaların yaranması və fəaliyyəti istiqamətində hazırlıq işləri

Respublikamızda son illər bazar münasibətlərinin formalaşması istiqamətində görülmüş tədbirlər, qəbul edilmiş çoxsaylı qanunlar, normativ sənədlər və dövlət sərəncamları, geniş miqyaslı aparılan özəlləşdirmə, kifayət qədər milli sahibkarların yetişməsi, xarici ölkələrlə birgə təsərrüfatçılıq formalarının inkişafı, xarici investisiyaların artması və i.a. onun açıq iqtisadiyyat yolu ilə irəlilədiyini göstərir. Bu yol xarici investisiyanın, elmi-texniki potensialın, yüksək ixtisaslı kadrların, qabaqcıl təcrübə və texnologiyanın istifadəsinin respublikanın bu sahələrdə öz daxili imkanlarının istifadəsilə sıx əlaqələndirilməsini və bu əsasda milli iqtisadiyyatın səmərəli inkişafı və xarici bazara yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsul çıxarılmasını nəzərdə tutur.

Respublikamızda investisiya imkanları nisbətən məhdud, əsas istehsal fondları və mövcud istehsal texnologiyasının xeyli hissəsi köhnə olduğu və başqa obyektiv çətinliklərlə üzləşdiyimiz yaxın keçmişdə olduğu kimi hazırkı şəraitdə də bazar iqtisadiyyatına keçidlə əlaqədar əldə edil-

miş müvəffəqiyyətlərin möhkəmləndirilməsi mənafeyi Azərbaycanın dünya iqtisadiyyatına daha geniş və hərtərəfli inteqrasiyasını və bu məqsədlə güzəştli təsərrüfat fəaliyyəti zonalarından (XİZ, AİZ) respublikanın şəraitinə uyğun gələnin yaradılması və fəaliyyətini tələb edir.

Bu istiqamətdə görülməsi vacib olan işləri hazırkı dövrün xüsusiyyətlərini nəzərə almaqla üç qrupa bölmək olar:

1. Nəzəri-metodoloji səpkidə tədqiqatlar aparılması və respublikada güzəştli təsərrüfat fəaliyyəti zonalarının (XİZ, AİZ) yaranmasının elmi-metodoloji əsaslarının müəyyən edilməsi;

2. Həmin işlərin nəticələrini və respublikanın real şəraitini nəzərə alaraq xüsusi qanunların, normativ-hüquqi sənədlərin, sərəncamların qəbul edilməsi;

3. Respublikanın bu və ya digər regionlarında XİZ, AİZ-nın bu və ya digər formasının yaradılması, fəaliyyətilə əlaqədar təşkilati, idarəetmə istiqamətində konkret işlər görülməsi;

Hazırda respublikamızda bu istiqamətlərdə xeyli işlər görülmüşdür. Belə ki, müstəqillik illərində respublika mətbuatında AİZ, XİZ-lar haqqında xeyli yazılar çap olunmuş, iqtisadi rayonlarımızın əksəriyyətində XİZ-ların yaranması və fəaliyyəti üçün əlverişli imkan olduğu xeyli dərəcədə əsaslandırılmış, əksəriyyət tərəfindən etiraf edilmiş, hətta Sumqayıt regionunda bu problemin həlli istiqamətində bir sıra elmi və praktiki xarakterli işlər görülmüşdür.

XX əsrin 90-cı illərinin axırları – XXI əsrin ilk keçən illərində çap olunan elmi əsərlərdə Azərbaycanın Bakı-Sumqayıt, Gəncə-Qazax, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara iqtisadi rayonlarında və Naxçıvan MR-da Azad İqtisadi Zona (AİZ), Xüsusi İqtisadi Zona (XİZ)

yaranması üçün geniş imkanlar olduğu əsaslandırılmışdır.

Bu imkanlar onunla izah olunur ki, respublikanın adı çəkilən regionlarında aşağıdakılar var:

a) Əlverişli coğrafi mövqe, beynəlxalq əhəmiyyətli nəqliyyat şəbəkəsi (dəmiryol, hava, su, avtomobil yolları, bir neçə rayonun ərazisindən keçən neft-qaz kəmərləri, telekommunikasiya şəbəkəsi və i.a.);

b) Kifayət qədər zəngin təbii ehtiyatlar və imkanlar, məhsuldar torpaq sahələri, əlverişli təbii-iqlim şəraiti, zəngin təbii sərvətlər, mineral-xammal ehtiyatları;

c) Müəyyən qədər inkişaf etmiş sənaye, əsasən müasir texniki-texnoloji bazaya malik olan sənaye müəssisələri, digər istehsal və sosial infrastruktura sahələri;

d) Sabit ictimai-siyasi şərait, kifayət qədər əlverişli investisiya mühiti;

e) Bazar münasibətlərinə keçidlə əlaqədar islahatların kifayət qədər aparılmış olması (xarici sahibkarlarla birgə iş təcrübəsinin toplanması, mülkiyyətin özəlləşdirilməsi, ümumi daxili məhsul istehsalında xüsusi bölmənin həlledici yer tutması, müəssisələrin müstəqil xarici bazarlara çıxış təcrübəsinin olması, qiymətlərin və xarici iqtisadi əlaqələrin liberallaşdırılması və i.a.)

Xüsusi (azad) İqtisadi Zona yaratmaq üçün ən çox Naxçıvan Muxtar Respublikasının, Sumqayıt, Bakı, Gəncə şəhərlərinin adı çəkilir. Adətən, belə halda Çinin, Rusiyanın, Türkiyənin, Ukrayna, Qazaxıstan, ABŞ və digər dövlətlərin təcrübəsindən istifadə etmək məsləhət bilinir. Azərbaycanın Sədərək, Culfa, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında sərhədyanı ticarət zonaları, Sumqayıt, Bakı, Gəncə şəhərlərində azad sahibkarlıq və azad ticarət zonaları yaratmaq təklif olunur.

Azərbaycan şəraitində AİZ, XİZ-ın idarə olunmasının təşkilati formaları və xüsusiyyətləri haqqında müəyyən ideyalar irəli sürülmüşdür.

90-cı illərin ikinci yarısında belə bir fikir formalaşmışdır ki, Sumqayıt şəhərində Xüsusi İqtisadi Zona yaradılmalı və o, mürəkkəb funksiyalar icra etməlidir (istehsal, ixrac, elmi-texniki inkişaf, ətraf mühitin mühafizəsi və i.a.). XİZ-i idarə etmək üçün Prezidentin İcra Aparatına tabe olan Agentlik (İdarəetmə Şurası) yaradılır. Agentliyin tərkibində istehsalın inkişafını təmin edən «İstehsal» konsorsiumu, elmi-texniki inkişafı təmin edən «Elmi-texniki inkişaf» konsorsiumu və ətraf mühitin mühafizəsilə əlaqədar məsələləri idarə edən «Ekologiya» konsorsiumu yaradılır.[1]

Əlbəttə, AİZ (XİZ)-in təsərrüfat fəaliyyətinin təşkili və idarə edilməsinə dair digər maraqlı ideyalar da olmuşdur. Misal üçün, Bakı şəhərində XİZ yaradılarsa, burda təsərrüfat idarəçiliyi və inzibati idarəçilik funksiyalarının bir-birindən ayrılıqda fəaliyyət göstərməsi məqsədəuyğun hesab olunur. Təsərrüfat idarəçiliyi funksiyası müstəqil fəaliyyət göstərən xüsusi təsərrüfat orqanları, inzibati funksiyalar isə təsərrüfatçılıq funksiyalarından azad olmuş yerli dövlət orqanları tərəfindən yerinə yetirilir.

Yerli dövlət orqanları təsərrüfat funksiyalarından azad olduğuna görə onların inzibati sahədə funksiyaları yuxarı dövlət orqanlarının səlahiyyətində olan funksiyalar hesabına genişlənə bilər.[2]

---

[1] Q.O.Kərimov. Azad iqtisadi zonaların yaradılması, fəaliyyəti və inkişafı problemləri. Bakı-1998. səh.84.

[2] F.Ə.Axundov, N.M. Nərimanov, R.A. Quliyev. Azərbaycanda xarici kapital. Bakı, Elm-1998. səh.120.

Görülmüş bir sıra elmi-metodoloji xarakterli işlərə baxmayaraq, 2004-cü ilədək respublikamızda AİZ, XİZ yaradılması (sərhədyanı bazarlar istisna olmaqla) istiqamətində elə bir praktiki iş görülməmişdir. Bu iş bütövlükdə özünün başlanğıc mərhələsində dayandırılmış, təşəbbüs xarakteri daşımış, bu sahədə ümumdövlət səviyyəsində əsaslı elmi-metodoloji və təşkilati tədbirlər görülməmişdir. Bunun bir səbəbi odur ki, respublikada açıq iqtisadi sistemə keçid özünün müsbət cəhətlərilə bərabər, xüsusən ilk illərdə bir sıra dağıdıcı nəticələr də vermişdir. Bu, özünü ölkənin daxili istehsal potensialının bir çox sənaye, ixtisaslaşmış kənd təsərrüfatı sahələrində müəyyən dərəcədə, bir sıra müəssisə və sahələrdə tamamilə itirilməsində, mövcud istehsalın quruluşunun birtərəfli və əsasən xammal xarakteri daşımasında, idxal və ixracın strukturunun az səmərəli olmasında, qeyri-ərzaq sənaye malları üzrə daxili bazarın əsasən itirilmiş olmasında göstərir. Görünür ki, belə vəziyyəti nəzərə alaraq dünya iqtisadi sisteminə inteqrasiyada əsas diqqət xarici investisiyalı müəssisələr tikintisinə, xarici kreditlərdən geniş istifadəyə, elmi-texniki əməkdaşlığa və s. verilir.

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»nda Azərbaycan Respublikasında makroiqtisadi sabitliyi və davamlı inkişafı təmin etmək üçün görülməsi nəzərdə tutulan tədbirlər içərisində ***«Qanunvericilik bazasının təkmilləşməsi, o cümlədən ölkədə xüsusi iqtisadi zonaların yaradılması, investisiya fəaliyyətinin genişləndirilməsi, antiinhisar və digər iqtisadi münasibətləri tənzimləyən, regionların inkişafını stimullaşdıran qanun layihələrinin hazırlanma-***

sı»nın vacibliyi ayrıca göstərilir.[1] Proqramda həmçinin Azərbaycan Respublikasının Şimal, Cənub və Qərb istiqamətlərində, habelə Bakı şəhəri ətrafında böyük gömrük terminalının və sərbəst gömrük zonalarının yaradılması nəzərdə tutulur.

İndi xüsusi iqtisadi zonaların, gömrük terminalı və gömrük zonasının yaradılması üçün Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində çox mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il mart ayının 6-da «Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında» 558 saylı xüsusi fərman imzalamışdır.[2] Fərmanda, beynəlxalq təcrübəyə istinad edərək göstərilir: «müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərdən daha geniş və səmərəli istifadəyə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olunur». Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkənin iqtisadi inkişafına güclü təsir imkanına malikdir. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyası üçün əlverişli şərait yaranmışdır. Hazırda Azərbaycan sosial-iqtisadi inkişafın yeni mərhələsindədir. Bununla əlaqədar ölkədə qəbul edilmiş strateji proqramların və layihələrin həyata keçirilməsində, prioritet iqtisadi və sosial vəzifələrin həllində xüsusi iqtisadi zonalar mühüm

---

[1] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), Bakı, «Nurlar», 2004, səh.36.

[2] Ətraflı məlumat üçün bax: Azərbaycan Respublikasının qanunvericilik toplusu №3, 31 mart 2007-ci il, Azərbaycan Respublikası Prezidentinin nəşri, səh. 579-580; eləcə də «Respublika» qəzeti. 07.03.2007-ci il.

rol oynaya bilər. Ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şərait yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, rəqabət qabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq məqsədilə Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması məqsədəuyğun hesab edilir. Fərmanda xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətilə əlaqədar dövlət siyasətinin həyata keçirilməsi (İqtisadi İnkişaf Nazirliyi), xüsusi iqtisadi zonalar haqqında qanun layihəsinin hazırlanması (Nazirlər Kabineti), xüsusi iqtisadi zonaların yaradılmasının prioritet istiqamətlərinə dair təkliflər, habelə xüsusi iqtisadi zonalar barədə əsasnamə layihəsinin hazırlanması, güzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflər, gömrük nəzarəti, gömrük məntəqələrinin fəaliyyəti, malların sənədləşdirilməsi, fiziki şəxslərin zonaya buraxılmasının sadələşdirilmiş qaydalarının layihəsinin hazırlanıb bir ay müddətinə Respublika Prezidentinə təqdim olunması bir vəzifə kimi Nazirlər Kabinetinin qarşısına qoyuldu.

Prezidentin bu fərmanının icrası üçün Respublikanın elm və təhsil müəssisələrində müzakirələr aparıldı, İqtisadi İnkişaf Nazirliyində, Milli Məclisdə müvafiq komissiyalarda müvafiq hazırlıq işləri görüldü. 2009-cu ilin fevral ayında Milli Məclis «Azərbaycan Respublikasında Xüsusi İqtisadi Zonaların yaradılması haqqında» qanun qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il aprel ayının 14-də «Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında» 791-III Q. Saylı fərman imzaladı. Bununla da 14 aprel

2009-cu il tarixdən «Azərbaycan Respublikasında Xüsusi İqtisadi Zonaların yaradılması haqqında» qanun qüvvəyə mindi.[1]

21 maddədən ibarət olan bu qanunda Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması, fəaliyyəti və idarə olunması, habelə burada hüquqi, iqtisadi və təşkilati münasibətlərin tənzimlənməsi qaydaları öz əksini tapmışdır. Bu qanunun ayrı-ayrı maddələrində ardıcıl olaraq aşağıdakılar şərh olunur: XİZ-in yaradılması ilə əlaqədar işlədilən anlayışlar, XİZ-in yaradılmasının məqsədi, bu sahədə qanunvericilik, sahibkarlıq fəaliyyəti, XİZ-in ərazisinin müəyyənləşdirilməsi, maliyyələşdirilməsi, ləğv edilməsi, idarə olunması və inkişafı qaydaları; səlahiyyətli orqanın funksiyaları, XİZ-in administrasiyasının funksiyaları, operatorun hüquq və vəzifələri, XİZ-in rezidentlərinin fəaliyyəti və onlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, XİZ-ə torpaq sahələrinin ayrılması və onlardan istifadə, XİZ-ə dövlət nəzarəti, gömrük rejimi, vergi rejimi, valyuta və əmək münasibətlərinin tənzimlənməsi, XİZ-in rezidentlərinə dövlət təminatları və bu qanunun tələblərinin pozulmasına görə məsuliyyət məsələləri.

Qanuna əsasən zonanın yaradılmasının məqsədi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında rəqabət qabiliyyətli yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə Azərbaycan Respublikasında sahibkarlığın və bütövlükdə iqtisadiyyatın inkişafını sürətləndirməkdir. Qanunun birinci maddəsində göstərilir ki, XİZ-in rezidentləri Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq dövlət qeydiyyatına alınmış, bu zonanın qeydiyyat

---

[1] Azərbaycan Respublikasının qanunvericilik toplusu. Azərbaycan Respublikası Prezidentinin nəşri №6, 30 iyun 2009-cu il, səh.1242-1256.

şəhadətnaməsini almış hüquqi və fiziki şəxslərdir. XİZ-in yaradılması və fəaliyyəti sahəsində səlahiyyətli orqan bu zonanın yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanıdır. XİZ-in administrasiyası zonanın ərazisində yerli icra hakimiyyət orqanı tərəfindən yaradılmış yerli qurum, operatoru bu ərazidə yaradılmış böyük təcrübəyə malik şirkət, idarə etmək üçün səlahiyyətli orqanla operator arasında bağlanmış sazişdir. Xüsusi iqtisadi zona bu zonanın administrasiyası və müsabiqə yolu ilə seçilmiş operator tərəfindən müqavilə şərtlərini nəzərə almaqla idarə olunur. XİZ-in yaradılması haqqında qərar müvafiq icra hakimiyyət orqanı tərəfindən qəbul edilir. XİZ-in ərazisi, infrastruktur sahələri, işçi qüvvəsi və maliyyə imkanlarının mövcudluğundan asılı olaraq müəyyən edilir. Xüsusi İqtisadi Zonada fəaliyyət Azərbaycan Respublikasının Konstitusiyası, bu qanun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və bunlara uyğun digər normativ-hüquqi aktlar əsasında tənzimlənir.

Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması haqqında Prezidentin bu fərmanı elmi ictimaiyyətin, praktiki işçilərin, vətəndaşların da qarşısına bir sıra yeni vəzifələr qoyur.

Elmi-tədqiqat işlərində və tədris prosesində bu məsələyə diqqəti müəyyən dərəcədə artırmaq lazımdır.

Eyni zamanda respublikanın əksər regionlarında AİZ yaradılmasına imkan olsa da, onları eyni vaxtda reallaşdırmaq nə mümkün, nə də məqsədəuyğun deyil. Bu proses bir və ya iki regionda paralel və ya müəyyən fasilədən sonra ardıcıl həyata keçirilə bilər. Belə halda hansı regiona üstünlük vermək lazımdır? Bu sual sadə olsa da ciddidir və düz-

gün həlli respublika üçün heç də az əhəmiyyət kəsb etmir.

Mövcud təcrübənin təhlili göstərir ki, Azərbaycanda AİZ, XİZ-lər iki istiqamətdə yaradıla bilər:

1. Dövlət təşəbbüsü və proqramı əsasında;
2. Bazar özünütənzimləmə və təşkili formasında bir çox firmaların dövlət tərəfindən dəstəklənən təşəbbüsü ilə.

Necə və kimin təşəbbüsü ilə yaranmasından asılı olaraq AİZ, XİZ-lər xüsusi və dövlət maliyyələşməsini əlaqələndirmək əsasında həyata keçirilsə daha məqsədəuyğun olar.

Azərbaycanda bu məsələnin yerli şəraitə uyğun düzgün həlli də vacibdir. Dövlətin investisiya imkanlarının məhdud olduğunu nəzərə alaraq xüsusi sahibkarların təşəbbüslərini müdafiə etmək və onlara kömək göstərmək vacibdir.

AİZ, XİZ-lərin yaranması sahəsində dünya təcrübəsini öyrənmək, ümumiləşdirmək və uyğun gələnindən istifadə etmək vacibdir. Belə bir suala konkret və aydın cavab verilməlidir: Azərbaycanın hansı regionunun hansı hissəsində hansı formada AİZ, XİZ yaratmaq məqsədəuyğundur?

İndi başlıca vəzifə fikrimizcə, bu məsələyə dövlət miqyasında münasibət bildirmək, müvafiq qanun və digər normativ sənədlər qəbul etmək məsələsidir. XİZ-in kimin təşəbbüsü, proqramı əsasında yaranması (yerli icra hakimiyyət orqanının təşəbbüsü və proqramı, yoxsa, bazar özünü tənzimləmə və təşkili formasında bir çox xarici və milli firmaların dövlət tərəfindən dəstəklənən təşəbbüsü ilə) və inkişafının mümkünlüyünün müəyyən edilməsi, çoxsaylı regionlar içərisində ən əlverişli imkanı olanların əsaslandırılması, azad iqtisadi zonaların hansı formasına (ixrac yönümlü istehsal, texnika-texnologiya tətbiqi zonası, servis, kompleks fəaliyyət zonası, azad ticarət zonası və i.a.) üstünlük verilməsi və i.a. məsələlərin həlli durur.

Eyni zamanda Azərbaycan xüsusi iqtisadi zona yaranması məsələsini qarşıya qoyarkən hazırkı vəziyyətlə əlaqədar bir çox məsələləri, o cümlədən milli iqtisadiyyatımızın dirçəlişi və inkişafının yenicə başlanmasını, milli sahibkarlarımızın təcrübəsinin və maliyyə imkanlarının nisbətən məhdudluğunu, iqtisadiyyatımızın hazırki strukturunda olan uyğunsuzluqları nəzərə almalıdır. Eyni zamanda yerli şəraiti və beynəlxalq tələbləri nəzərə almaqla müvafiq qanun və digər hüquqi-normativ sənədlərin hazırlanması və tətbiqinin zəruriliyini, ərazimizin 20%-dən çoxunun işğal olunduğunu və əslində müharibə vəziyyətində olduğumuzu da nəzərə almaq lazımdır. Əks təqdirdə xüsusi iqtisadi zonalar güclü mənfi nəticələr verə bilər. Problemin müsbət həlli üçün Azərbaycan iqtisadiyyatının xüsusi iqtisadi zona yaradılmasında iştirak edəcək dövlətlərin iqtisadiyyatı ilə sıx əlaqədə olması, qanunçuluqda oxşarlıq, habelə Azərbaycana qonşu dövlətlərlə olan münasibətlərimizin vəziyyəti və i.a. nəzərə alınmalıdır. Xüsusi iqtisadi zona yaradılması və fəaliyyətində dövlətin iştirakı, sahibkarlara kömək göstərməsi məsələlərinin də lazımi səviyyədə həll olunması; milli sahibkarların qanunçuluğu, respublikanın və ya regionun xüsusiyyətlərini dərindən bilməsi, vətənpərvərliyi, təşəbbüskarlığı, işgüzarlığı xüsusi iqtisadi zonaların müvəffəqiyyəti üçün vacibdir. Ona nail olmaq lazımdır ki, xüsusi iqtisadi zonanın təşkilində yerli sahibkarlar müşahidəçi deyil, xarici sahibkarları öz arxasınca apara bilən və milli mənafeləri müdafiə etməyi bacaran bələdçi rolunu oynaya bilsinlər. Respublikada xüsusi iqtisadi zona yaradılması ilə əlaqədar başqa çətinlikləri də aradan qaldırmaq, bir sıra problem məsələləri həll etmək lazım gəlir. Respublikanın əksər regionlarında XİZ-in yaranmasına əlverişli

imkan olması barədə fikrin qəbul edildiyi hazırki dövrdə hər regionun xüsusiyyətlərini, imkanlarını düzgün müəyyənləşdirmək, daha əlverişli imkanı olan regionu seçmək, sonra bir sıra elmi, təşkilati və idarəetmə məsələlərini həll etmək, XİZ-in yaradılması və idarə olunması formalarını, dövlətin bütün bu prosesdə iştirakı yollarını müəyyən etmək lazım gəlir.

Azərbaycan Respublikası iqtisadiyyatının bütövlükdə, eləcə də ayrı-ayrı regionlar üzrə dirçəlişi və inkişafı üçün xarici kapitaldan, elmi-texniki potensialdan, qabaqcıl texnologiyadan birgə istifadənin başqa formalarını (birgə müəssisələr təşkili, kredit alınması, elmi-texniki əməkdaşlıq və i.a.) da genişləndirmək və inkişaf etdirmək, imkan olan hallarda bu formalardan istifadə olunmasına diqqət verilməsi zəruridir.

Azərbaycanda baramaçılıq-ipəkçilik, üzümçülük-şərabçılıq, meyvə-tərəvəz-konserv istehsalı, zeytunçuluq-zeytun yağı istehsal kompleksi, cins heyvanlar, xüsusilə qaramal yetişdirilməsi, bitkilərdən dərmanlar alınması üçün istifadə olunmamış böyük imkanlar var. Xarici və milli sahibkarların diqqətini bu sahələrdə birgə müəssisələr təşkilinə cəlb etmək vacibdir. Az tullantılı və tullantısız texnika-texnologiya tətbiq etməklə respublikanın tikinti materialları, duz, mərmər, dolomit, dəmir filizi, alüminium ehtiyatlarından kompleks istifadə etmək və xarici bazara müxtəlif növ keyfiyyətli məhsullarla çıxmaq üçün birgə müəssisələrin təşkilini sürətləndirmək məsələləri də bu cəhətdən böyük maraq doğurur.

Azərbaycan Respublikasının sərhədyanı rayonlarında azad ticarət fəaliyyətinin təşkili istiqamətində müəyyən təcrübə toplanmışdır. İndi başlıca vəzifə həmin təcrübəni

lil etmək, nöqsanları, çətinlikləri aşkara çıxarıb aradan qaldırmaq, azad ticarətin inkişafı mümkün olan sərhədyanı əraziləri müəyyənləşdirmək və burada mövcud olan imkanlardan istifadə etməkdir. Naxçıvan MR-da, Xaçmaz-Qusar, Lənkəran-Astara, Zaqatala-Balakən, Beyləqan-İmişli-Biləsuvar, Qazax-Ağstafa regionlarında, başqa sərhədyanı ərazilərdə azad ticarət zonalarının yaranması və fəaliyyət imkanlarının nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Azad ticarət zonalarında ticarətlə məşğul olan əhalinin dövlət mənafeyinə, qanunçuluğa riayət edilməsi ruhunda tərbiyə olunması vacibdir.

Naxçıvan MR-də azad ticarət zonasının yaranmasına diqqətlə yanaşılması xüsusilə vacibdir. Bu baxımdan hazırda Culfa şəhərində, Şərur rayonunun Şahtaxtı kəndi yaxınlığında, Sədərəkdə zəif fəaliyyət göstərən sərhədyanı bazarları azad ticarət zonası kimi formalaşdırmaq və genişləndirmək, mümkün halda yeni ticarət zonaları təşkil etmək olar. Bu zonalarda və onlara yaxın ərazilərdə xarici sahibkarlarla, birinci növbədə Türkiyə və İran sahibkarları ilə şərikli istehsal və ticarət müəssisələrinin təşkili indiki şəraitdə Naxçıvan iqtisadiyyatının və onun xarici iqtisadi əlaqələrinin sabit sürətlə inkişafında mühüm rol oynaya bilər.

# II FƏSİL. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ (2004-2008-Cİ İLLƏR) YERİNƏ YETİRİLMƏSİ TƏDBİRLƏRİ VƏ ONLARIN ÜMUMİ NƏTİCƏLƏRİ

## 2.1. Dövlət Proqramının yerinə yetirilməsi tədbirləri və onların maliyyə təminatı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) müvəffəqiyyətlə yerinə yetirilmişdir. İndi Dövlət Proqramının reallığına «o qısa müddətdə hazırlanmışdır, kifayət qədər elmi qüvvəyə istinad edilməmişdir» deyə şübhə ilə yanaşıldığı vaxt arxada qalmışdır. Bunu proqramda nəzərdə tutulan bütün əsas vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi, bəzi mühüm sahələrdə isə inkişaf göstəricilərinin proqramda nəzərdə tutulduğundan yüksək olması sübut edir.[1] Belə ki, ÜDM-in ümumi artım sürəti, adambaşına ÜDM istehsalı, yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması kimi ən mühüm proqram vəzifələri artıqlaması ilə yerinə yetirilmiş, istehsal və sosial infrastruktura sahələri əsaslı surətdə yenidən qurulmuş və inkişaf etdirilmiş, kənd təsərrüfatı və sənayenin inkişafında ciddi müvəffəqiyyət qazanılmış, yeni məktəblər, mehmanxanalar, idman komplek-

---

[1] Bu fəslin yazılması üçün Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin «Regional inkişafın üç ili: nailiyyətlər və perspektivlər» Bakı 2007. məcmuəsindən, dövri mətbuatda rayon və şəhərlərin sosial-iqtisadi inkişafı yekunlarına aid verilmiş materiallardan, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"ndan, (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi; Azərbaycanın statistik göstəriciləri -2012; Azərbaycan Regionları-2012 məcmuələrindən istifadə edilmişdir.

sləri, turist düşərgələri kompleksi, aeroportlar tikilmişdir. Respublika və yerli əhəmiyyətli yeni yollar çəkilmiş, mövcud yollar əsaslı surətdə təmir olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının I mərhələsi müvəffəqiyyətlə yerinə yetirilmiş və ikinci mərhələ müvəffəqiyyətlə yerinə yetirilməkdədir.

Qeyri-neft sektorunun yaxın keçmişdə inkişaf etmiş və respublika iqtisadiyyatında mühüm rol oynamış bir çox ixtisaslaşmış sahələrinin (maşınqayırma, metallurgiya, dağmədən, üzümçülük-şərabçılıq, çayçılıq-çay emalı, baramaçılıq-ipəkçilik pambıqçılıq və pambıq emalı və i.a.) yaxın gələcəkdə bərpası və sürətli inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Ümumiyyətlə, keçən 5 il ərzində Azərbaycanda və onun regionlarında istehsal və sosial infrastrukturun inkişafında böyük nailiyyətlər qazanılmış, xalq istehlak malları və ərzaq məhsulları istehsalı xeyli inkişaf etmiş, iqtisadiyyatın bütün sahələrinin yaxın gələcəkdə kompleks inkişafının etibarlı təməli qoyulmuşdur. Bütün bu müvəffəqiyyətlər özözünə yaranmamış, dövlət və hökumət xəttilə yeridilən düzgün regional siyasətin, Respublika Prezidenti cənab İlham Əliyevin apardığı böyük və müntəzəm təşkilatçılıq işinin qanuni nəticəsi kimi mümkün olmuşdur.

Respublika rəhbərliyi, proqramın təşkilatçıları aydın başa düşürlər ki, elmi cəhətdən əsaslandırılmış, real proqramlar qəbul etmək yalnız başlanğıcdır. Əsas məsələ onun yerinə yetirilməsini təmin etmək və bunun üçün bütün vacib tədbirləri görməkdir. Məhz buna görə də Dövlət Proqramının hazırlanması dövründə və ondan dərhal sonra, proqramda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini təmin etmək üçün iqtisadi islahatların dərinləşməsi və

təkmilləşməsi, makroiqtisadi sabitliyin qorunub saxlanması və davamlı inkişafın təmin edilməsinin normativ-hüquqi bazasının möhkəmlənməsi istiqamətində mühüm tədbirlər həyata keçirildi. Eyni zamanda kiçik və orta sahibkarlığın, aqrar sektorun, istehsal və sosial infrastrukturun inkişafı və maliyyə təminatının yaxşılaşması, işsizliyin, yoxsulluğun azaldılması, dağ rayonlarının sosial-iqtisadi inkişafına yönəlmiş müxtəlif təşkilati, iqtisadi, sosial və maliyyə xarakterli tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Bu tədbirlər çox müxtəlif olub, Azərbaycanın və onun regionlarının həyat və fəaliyyətinin bütün sahələrini əhatə edir. Onların hamısını göstərmək bizim imkanımız xaricindədir. Odur ki, bu tədbirlərdən ümumi xarakter daşıyan və ümumiyyətlə respublika miqyaslı regional proqramların yerinə yetirilməsi üçün vacib olan və deməli gələcəkdə yeni proqramların (misal üçün, regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının) icrası üçün də bu və ya digər formada təkrar olunacaq əsas tədbirlər üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

1. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin regionlara mütəmadi səfərləri və bununla bağlı həyata keçirilən tədbirlər Dövlət Proqramının yerinə yetirilməsində, sürətli sosial-iqtisadi inkişafın təmin edilməsində müstəsna təşkiledici və tənzimləyici rol oynamışdır. Şübhə yox ki, gələcək illərdə də belə olacaqdır. Belə bir faktı göstərmək kifayətdir ki, 2004-2008-ci illərdə Prezident İlham Əliyev Azərbaycanın bütün iqtisadi rayonlarına səfərlər etmiş və bu səfərlərdə onlarla inzibati rayon və şəhərin sosial-iqtisadi həyatı ilə tanış olmuş, mövcud problemləri həll etmək üçün tədbirlər müəyyənləşdirmişdir.

***Proqramda qarşıya qoyulan vəzifələrin böyüklüyünü***

***və bu sahədə özünün məsuliyyətini hamıdan yaxşı və tamamilə dərk etmək, eyni zamanda özünü xalqın rifahının yaxşılaşmasına həsr etmək və xalqla təmasda olmaq istəyi, fikrimizcə Prezidentin respublika regionlarına mütəmadi səfərlərinin əsas hərəkətverici qüvvəsidir.***

Bu səfərlərin nəticəsi olaraq Prezident proqramın yerinə yetirilməsi gedişini daim nəzarətdə saxlamış, qarşıya çıxan çətinlikləri vaxtında dəf etmək üçün tədbirlər görmüşdür. Bu səfərlər zamanı Prezident yerlərdə proqramın yerinə yetirilməsi gedişilə ətraflı tanış olmuş, müzakirələr keçirmiş, müvəffəqiyyətləri yüksək qiymətləndirməklə yanaşı, proqramın yerinə yetirilməsi gedişində qarşıya çıxan problemləri də öz gözlərilə görmüş, onların səbəblərini müəyyənləşdirmiş və aradan qaldırılması üçün konkret tapşırıqlar, sərəncamlar vermək, cari kömək göstərməklə yanaşı, ayrı-ayrı inzibati rayonlar üzrə əlavə tədbirlər görülməsi üçün sərəncamlar, fərmanlar vermişdir.

Yalnız 2005-2008-cı illərdə Respublika Prezidenti ayrı-ayrı regionların (bölgələrin) inkişafına dair tədbirlərlə bağlı 8 xüsusi sərəncam imzalamışdır.

Prezident 3.VIII.2005-ci ildə 935 №-li «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər haqqında» sərəncam imzalamışdır. Sərəncama əsasən, Azərbaycan Respublikası regionlarının, o cümlədən Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətlənməsinə dair tədbirlər planı təsdiq olunmuşdur. Tədbirlər Planında «Aqrolizinq» ASC-nin bazalarının yaradılması, turizmin inkişafı, infrastruktur təminatının daha da yaxşılaşması üçün müvafiq tədbirlər görülməsi, o cümlədən Siyəzən Kondensator və Böyük Həmyə Şərab Emalı zavodunun fəaliyyətinin

bərpası nəzərdə tutulmuşdur. Sonrakı dövrdə bu proses ayrı-ayrı regionlar üzrə davam etdirilmişdir: Ölkə Prezidenti 25 avqust 2005-ci ildə 972 №-li sərəncamı ilə Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının, 14 sentyabr 2005-ci ildə 1001 №-li sərəncamla Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının, 14 oktyabr 2005-ci ildə 1044 №li sərəncamla Şirvan (Əli-Bayramlı) şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Salyan, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının; 2006-cı il 24 mart tarixli 1369 saylı sərəncamı ilə Ağdam, Bərdə və Tərtər rayonlarının, 2006-cı il 01 iyun tarixli 1489 saylı sərəncamı ilə Şəki şəhərinin, Balakən, Qazax, Zaqatala rayonlarının sosial-iqtisadi inkişafının sürətləndməsinə dair əlavə tədbirlər planını təsdiq etmişdir. Bunlarla yanaşı 2006-cı ildə Daşkəsən şəhərinin, Ağsu, Ucar, Zərdab rayonlarının sosial-iqtisadi inkişafının sürətlənməsilə əlaqədar tədbirlər planı, 2006-cı il 27 fevral 1338 saylı sərəncamı ilə Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətlənməsinə dair tədbirlər proqramı və i.a. təsdiq edilmiş və müvəffəqiyyətlə icra olunmuşdur. Həmçinin Prezidentin respublikamızın rayon və şəhərlərinə səfərləri zamanı, yeni müəssisələrin açılışı, yeni körpülərin, tunellərin, mühüm iqtisadi və ya sosial obyektlərin təməlqoyma mərasimlərində iştirakı və çıxışları zamanı aidiyyatı olan icra strukturlarına, nazirliklərə verdiyi tapşırıqlar, tövsiyələr Dövlət Proqramının yerinə yetirilməsi gedişinə təsir göstərən mühüm amillərdəndir.

2. Dövlət Proqramının yerinə yetirilməsinə təsir göstərən ən mühüm təşkilati-iqtisadi tədbirlərdən biri ***ölkəmizdə sosial-iqtisadi inkişafın yekunlarına aid respublika hökumətinin 3; 6; 9 aylıq və illik hesabatlarının Prezi-***

***dentin sədrliyilə dinlənilməsi və müzakirəsidir.*** Bu müzakirələrdə Prezident İlham Əliyevin proqram xarakterli nitqləri, çıxışları qarşıda duran vəzifələrin və onların yerinə yetirilməsi istiqamətlərinin, yollarının müəyyən edilməsində, sosial-iqtisadi inkişafımızda əmələ gəlmiş yeni mütərəqqi meyllərin aşkara çıxarılmasında mühüm rol oynayır.

Bununla yanaşı hər ilin I rübündə (əsasən fevral ayında) keçən ildə «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)» yerinə yetirilməsi yekunlarına həsr edilmiş ümumrespublika konfransları keçirilmişdir. Bu konfranslarda ayrı-ayrı nazirliklərin, şirkətlərin, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri hesabat xarakterli məruzələr etmiş, görülmüş işlər, görülməsi nəzərdə tutulan tədbirlər, həlli üçün dövlət köməyinə ehtiyac olan problemlər haqqında məlumat vermiş və fikir mübadiləsi etmişlər. Adətən konfransın sonunda Prezident İlham Əliyev yekun nitqi söyləmiş, cari ildə qarşıda duran vəzifələri yerinə yetirmək üçün bütün maliyyə mənbələrindən səmərəli istifadə etməyin və sosial-iqtisadi inkişafın strateji istiqamətlərinə daha çox diqqət yetirməyin vacibliyini göstərmişdir.

Eyni zamanda hər il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatında Dövlət Proqramının yerinə yetirilməsi gedişi ətraflı müzakirə edilmiş və müvafiq təkliflər verilmişdir. Respublika Prezidenti İlham Əliyevin Yaponiyaya rəsmi səfəri zamanı Tokioda Azərbaycan-Yaponiya iqtisadi forumunda nitqində; Astara, Şəki, Xaçmaz, Naxçıvan modul tipli istilik elektrik stansiyalarının açılış mərasimlərində və bu xarakterli tədbirlərdə nitq və çıxışlarında Azərbaycanın son illərdə sosial-iqtisadi inkişafının təhlili verilmişdir.

Respublika Prezidenti yuxarıda göstərilən və burada öz əksini tapmış bir çox digər nitq və çıxışlarında Dövlət Statistika Komitəsinin zəngin məlumatlarına və ölkəmizdə yaranmış real şəraitə istinad edərək 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafın səviyyəsinə qiymət vermiş, iqtisadiyyatda baş verən yeni mütərəqqi meylləri aşkara çıxarmış və onların gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

3. Başqa bir mühüm tədbirlər kompleksi proqramın reallaşmasını təmin etmək üçün onun normativ-hüquqi bazasının möhkəmlənməsi istiqamətində yeni qanunların, fərmanların, sərəncamların qəbul edilməsi, mövcud olanların təkmilləşdirilməsi, onlara dəyişikliklər və əlavələr edilməsidir. 2004-2008-ci illərdə İqtisadi İnkişaf Nazirliyi və müvafiq dövlət orqanları tərəfindən bir tərəfdən iqtisadi islahatların hüquqi bazasını təkmilləşdirmək və onları beynəlxalq tələblərə uyğunlaşdırmaq üçün, digər tərəfdən, regionların davamlı inkişafını tənzim və təmin etməklə az-çox əlaqədar olan yeni qanunlar layihəsi hazırlanmış və onlar tədricən müzakirə və qəbul edilmişdir.

2004-2008-ci illərdə «Xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyətinin tənzimlənməsi haqqında», «Ünvanlı dövlət sosial yardımı haqqında», «Yaşayış minimumu haqqında», «Sosial müavinətlər haqqında», «Elektron imza və elektron sənəd haqqında», «Elektron ticarət haqqında, investisiya fəaliyyəti barədə» və i.a. qanunların qəbul edilməsi, lizinqlə bağlı «Mülki Məcəlləyə əlavə və dəyişikliklər edilməsi haqqında», «Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında», Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları olmuşdur. Bununla yanaşı keçən 2007-2009-

cu illərdə dövlət investisiya proqramı, kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında, «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanları, Tarif (qiymət) Şurasının Əsasnaməsi, «Tənzimlənən qiymət haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və i.a. hüquqi aktlar hazırlanmış və qəbul edilmişdir.

Dövlət Proqramının yerinə yetirilməsinin normativ-hüquqi bazasını təkmilləşdirmək istiqamətində tədbirlər 2007-2008-ci illərdə də davam etdirilmişdir. Yalnız 2007-ci ildə iqtisadi inkişaf Nazirliyi tərəfindən 18 normativ-hüquqi akt, 2008-ci ildə 26 normativ hüquqi akt ya hazırlanmış, ya da mövcud olanlarda əlavə və dəyişikliklər edilmişdir.

(«İxrac məqsədli Neft-qaz fəaliyyətinə dair xüsusi iqtisadi rejimin tətbiqi haqqında», ticarət fəaliyyətinin tənzimlənməsi haqqında və i.a)

4. Digər mühüm tədbirlər kompleksi sahə miqyaslı yeni proqramların hazırlanması və icrasına başlanmasıdır: «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı», «2005-2015-ci illərdə yanacaq-enerji kompleksinin inkişafına dair Dövlət Proqramı», «Azərbaycan Respublikasında Milli ödəniş sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı», ölkə Prezidentinin sərəncamı ilə (27.02.2006-cı ildə) «Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Proqram», «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaş-

dırılmasına dair kompleks tədbirlər planı (2006-2010-cu illər)» qəbul edilmiş və bu məsələ ilə bağlı dövlət başçısının yanında müşavirə keçirilmişdir.

Bunlarla yanaşı ötən dövr ərzində İqtisadi İnkişaf Nazirliyi tərəfindən ölkənin, o cümlədən regionların inkişafının sürətləndirilməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına yönəldilən yeni dövlət proqramları hazırlanmış, onlardan bir neçəsi, o cümlədən «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı», "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı Dövlət Proqramı (2008-2013-cü illər)" və digər proqramlar hazırlanmış və Prezidentin sərəncamı ilə təsdiq edilmişdir.

Respublikada makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsinə yönəldilən, eyni zamanda regionların inkişafı ilə bilavasitə və ya dolayı yolla əlaqədar olan müxtəlif normativ-hüquqi və təşkilati-iqtisadi xarakterli tədbirlər də həyata keçirilmişdir: BMT-nin və BƏT-in ekspertlərinin iştirakı ilə Azərbaycan reallığını nəzərə alan «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)» işlənib hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 26.10.2005-ci il tarixli 1068 nömrəli sərəncamı ilə təsdiq edilmişdir. Eyni zamanda bu strategiyanı həyata keçirmək üçün lazımi proqram və tədbirlər hazırlanmışdır.

5. Dövlət Proqramında nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi və sahibkarlığın inkişafına maliyyə təminatı yaratmaq üçün xarici bank və təşkilatlarla birgə müxtəlif layihələr, tədbirlər həyata keçirilmişdir. Əlavə maliyyə

mənbələrinin aşkara çıxarılması ilə əlaqədar təkliflər toplanmış, bu təkliflərin əsas hissəsi müzakirə olunub, məqbul bilinənlər dövlət büdcəsində və dövlət investisiya siyasətində nəzərə alınmışdır. Eyni zamanda Proqramın icrasına xarici maliyyə mənbələrinin cəlb edilməsi üçün tədbirlər görülmüşdür. 2004-2005-ci illərdə 40-a yaxın beynəlxalq və xarici təşkilata əməkdaşlığın genişlənməsinə dair müraciətlər edilmişdir.

Respublika İqtisadi İnkişaf Nazirliyi və İslam inkişaf Bankının təşkilatçılığı ilə keçirilmiş Beynəlxalq ***investisiya*** konfransında təqdim olunmuş layihələrdən seçilmiş 33 layihə üzrə və digər konkret istiqamətlərdə əməkdaşlığın həyata keçirilməsi məqsədilə BMT-nin müvafiq təşkilatları, Türkiyə, Səudiyyə Ərəbistanı, Avstriya, Almaniya, İsrail, İran və digər ölkələrin təşkilatları və investorlarına aidiyyatı olan sahələr üzrə layihələr təklif edilmişdir. Eyni zamanda Avropa İttifaqının TASİS proqramı, BMT-nin İnkişaf Proqramı, ABŞ-ın USAİD, Türkiyənin TİKA, Almaniyanın GTZ və s. təşkilatları ilə birgə maliyyə-kredit əməkdaşlığı davam etdirilmişdir. Keçirilmiş ikitərəfli görüşlər nəticəsində investorlarla yerli sahibkarlar arasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan 8,0 razılaşma əldə edilmişdir. Regionların inkişafına maliyyə təminatının artırılmasında yuxarıda göstərdiyimiz beynəlxalq maliyyə qrumları aktiv iştirak etmişdir. Belə ki, 2004-2008-ci illərdə Dünya İnkişaf Bankı 15 layihə üzrə Azərbaycan hökuməti ilə 720 milyon ABŞ dolları və 112,76 milyon SDR, Avropa Yenidənqurma və İnkişaf Bankı 3 layihə üzrə 348 milyon ABŞ doları həcmində, Asiya İnkişaf Bankı 5 layihə üzrə 37, 6 milyon SDR və 249 milyon ABŞ dolları, İslam İnkişaf Bankı 5 layihə üzrə 14 milyon islam dinarı və 115,5

milyon ABŞ dolları, Səudiyyə İnkişaf Fondu 2 layihə üzrə 116,3 milyon Səudiyyə realı həcmində, Almaniya KFW Bankı 3 layihə üzrə 70,9 milyon avro həcmində kreditlər ayırmışdılar. Bu kreditlər əsasən Azərbaycan regionlarında elektrik stansiyaları və elektrik şəbəkələrinin, magistral avtomobil yollarının tikintisinə, su təchizatı və kanalizasiya sisteminin inkişafına, məcburi köçkünlər üçün sosial obyektlərin tikintisinə, kənd təsərrüfatının inkişafının kreditləşməsinə və i.a. sərf olunmuşdur. Eyni zamanda bu sahələrə əsaslı vəsait qoyuluşu üçün dövlət büdcəsindən, Dövlət Neft Fondundan da mütəmadi olaraq maliyyə vəsaiti ayrılmışdır. Bir çox digər maliyyə qurumları tərəfindən də kreditlər ayrılmışdır. Avropa Komissiyasının TACİS proqramı çərçivəsində dəyəri 3,5 mln. avro olan Azərbaycanda regional iqtisadi inkişafa dəstək layihəsi üzrə Şəki və Aran iqtisadi rayonlarında 23 inzibati rayon və şəhərdə 104 tədbir (dəyirmi masa, biznes forum və i.a.) keçirilmişdir.

6. Məlumdur ki, kiçik və orta sahibkarlığın inkişafı və onlara maliyyə təminatı yaradılması Dövlət Proqramının mərkəzi məsələsidir. Buna görə də 2004-2008-cı illərdə regionlarda kiçik və orta sahibkarlığın inkişafı və maliyyə-kredit təminatının möhkəmlənməsi tədbirlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

Xarici və beynəlxalq maliyyə-kredit qurumları ilə kiçik sahibkarlığın maliyyələşməsi sahəsində əməkdaşlığın genişlənməsi nəticəsində Azərbaycan Mikromaliyyələşdirmə Bankı yaradılmış, 2005-ci ildən başlayaraq onun fəaliyyəti və kredit imkanları daha da genişlənmiş, qısa müddətdə bir neçə yeni filialları açılmışdır.

Qara dəniz Ticarət və İnkişaf Bankının Azərbaycan Beynəlxalq Bankına açdığı kredit çərçivəsində kiçik və or-

ta sahibkarlıq subyektlərinə 3 ilədək sənədli əməliyyatlar vasitəsilə 7 layihə üzrə 7,9 mln. ABŞ dolları həcmində kredit verilmişdir, İslam İnkişaf Bankının özəl sektorun inkişafı korporasiyasının Azərbaycan Beynəlxalq Bankına açdığı kredit xətti çərçivəsində kiçik və orta sahibkarlıq subyektlərinə 1 layihə üzrə 2,0 mln. ABŞ dolları məbləğində 6 ilədək müddətə kredit verilmişdir. Eyni zamanda sahibkarların maliyyə təminatının yüksəlməsi məqsədilə təkcə 2005-ci il ərzində müxtəlif regionlar üzrə 18 kredit yarmarkası təşkil edilmişdir.

2004-2008-ci illərdə 6991 sahibkarlıq subyektinə SKMF-dan 323,4 mln manat kredit verilmişdir. SKMF vəsaiti hesabına 68236 yeni iş yeri yaradılmışdır. Verilmiş kreditlərin 70,4%-i (227,7 mln. manat) Bakı şəhərindən kənar regionların payına düşür və bu hesaba təqribən 54,332 min yeni iş yeri yaradılmışdır. Bütün kreditin 141,8 mln.manatı sənaye məhsulu istehsalı, 141,7 mln. manatı kənd təsərrüfat məhsulu istehsalı və emalının (beləliklə 283,5 mln. man və ya 87,1%-i) sənaye və kənd təsərrüfatının payına düşür.

«Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 01 mart 2005-ci il tarixli 206 saylı fərmanına əsasən «Sahibkarlığa Kömək Milli fondunun (SKMF) fəaliyyəti xeyli təkmilləşdirilmişdir. İqtisadiyyatın dinamik, tarazlı inkişafı, sahibkarlığa dövlət maliyyə dəstəyinin artırılması məqsədilə bu fondun statusunun və onun vəsaitinin istifadəsi qaydalarının təkmilləşməsi ilə bağlı tədbirlər 2006-ci il 28 dekabr tarixdə Prezident fərmanı ilə təsdiq edilmişdir. Fondun idarə edilməsi üçün Müşahidə Şurası yaradılmışdır. Bu Şura fondun fəaliyyətinə nəzarət edir, vəsaitlərin sosial-iqtisadi inkişafın öncül istiqamət-

lərində yerləşməsini, əsasnamədə nəzərdə tutulan digər tədbirlərin həyata keçməsini təmin edir. Müşahidə Şurasının qərarı ilə ölkənin regionlarında mühüm əhəmiyyət kəsb edən iri layihələrin maliyyələşməsinə 3,0 milyon manat vəsait ayrılmasına icazə verilir.

Müvəkkil bankların layihə çərçivəsində cəlb etdikləri vəsaitlər onların məcmu kapitallarının 150%-ə qədərini təşkil edə bilər. Böyük və iri həcmli layihələrin maliyyələşməsi zamanı bu məhdudiyyət müvəkkil kredit təşkilatlarının məcmu kapitallarının 200%-nə dək artırıla bilər. Kreditlərdən daxil olan vəsaitlər Fondun əsasnaməsində nəzərdə tutulmuş vəzifə və funksiyaların icrasına yönəldilir. Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən lisenziya verilmiş bütün banklar və bank olmayan kredit təşkilatları müvəkkil kredit təşkilatı qismində kredit verilməsində iştirak edə bilərlər. SKMF-nin fəaliyyətini təkmilləşdirmək üçün digər tədbirlər də müəyyənləşdirmişdir və onların da təkmilləşdirilməsi işi davam etdirilir.

Beynəlxalq banklar tərəfindən verilmiş kreditlərin bir hissəsi də kiçik və orta sahibkarların maliyyələşməsində istifadə olunmuşdur.

Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin genişlənməsi də regionların sosial-iqtisadi inkişafına yönəldilmiş layihələrin maliyyə təminatının artırılmasında əhəmiyyətli rol oynamışdır.

7. Regionlarda təsərrüfat sahələrinin kreditlə təminatını yaxşılaşdırmaq üçün bankların regionlarda filial şəbəkəsi genişləndirilir. Bankların bütün regionları əhatə etməsi siyasəti yeridilir. Bu məqsəd üçün 2005-ci ildə Mərkəzi Bank (Milli Bank) tərəfindən 40 bank filialının açılmasına icazə verilmişdir. Bunun da 18-i Bakı şəhərindən kənar

regionların payına düşür. Ümumiyyətlə, 2004-2008-ci illərdə 90 yeni bank filialı və bank şöbəsi fəaliyyətə başlamışdır. Bunlardan 40 filial və şöbə regionlarda yerləşir. Ümumilikdə ölkə üzrə 01 yanvar 2009-cu il tarixə Respublikada 567 bank filialı fəaliyyət göstərir ki, bu da 2008-ci ildə olduğuna (485) nisbətən 8,2 faiz çoxdur. Alternativ maliyyə mənbəyi kimi bank olmayan kredit təşkilatlarının fəaliyyətinin genişlənməsi üçün tədbirlər görülmüşdür. 2009-cu il yanvar ayının 01-də Respublikamızda 94 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. Bunlardan 75-i kredit ittifaqlardır ki, onların da 71-i regionlarda yerləşir. Bunlarla yanaşı Respublikada müxtəlif xarakterli digər bank olmayan kredit təşkilatları da fəaliyyət göstərir. Dövlət bankı bütün bu təşkilatlar tərəfindən kredit yarmarkalarının təşkilini dəstəkləyir. 2008-ci ildə SKMF tərəfindən regionlarda fəaliyyət göstərən 797 subyektə 87,8 milyon manat güzəştli kredit vəsaiti verilmişdir. Maliyyələşən layihələr üzrə 9065 yeni iş yeri açılmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində ölkədə fəaliyyət göstərən müxtəlif xarici və beynəlxalq kredit təşkilatlarının da regional şəbəkəsi genişlənmişdir. Bütün bunlar regionlarda əhalinin, müəssisə və təşkilatların müvəqqəti sərbəstləşən pul vəsaitlərini səfərbərliyə almağa, iqtisadiyyatın maliyyə-kredit təminatını xeyli yaxşılaşdırmağa və keçən illərdə Dövlət Proqramını yerinə yetirməyə kömək etmişdir.

8. Özəlləşmə prosesinin sürətlənməsi, orta və iri müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi və onların səhmlərinin satışı istiqamətində tədbirlər həyata keçirilmişdir. 2005-ci ilin yekunlarına görə 1715 müəssisə, torpaq sahəsi, istifadəsiz qeyri-yaşayış sahəsinin özəlləşməsinə sərəncam

verilmişdir. Bunların 598-i (35%-i), o cümlədən 578 kiçik müəssisənin 369-u (64%-i) regionların payına düşür. Dövlət müəssisəsi bazasında səhmdar cəmiyyətlərin yaradılması prosesi davam edir. 10 dövlət müəssisəsi bazasında 10 səhmdar cəmiyyət yaranmışdır. Onlardan «Qəbələ sənaye istehsal», «Şəki-İpək», «Mingəçevir texniki-rezin», «Mingəçevir regenerat» və «Oğuz şərab səhmdar cəmiyyət»lərinin səhmlərinin satışı üzrə keçirilmiş investisiya müsabiqələrinin qaliblərilə alqı-satqı müqavilələri bağlanmışdır. Keçirilmiş pul (təkcə 2005-ci ildə 52 pul hərracı keçirilmiş və burda 102 səhmdar cəmiyyətinin səhmləri satılmışdır), və çek hərraclarında (3 ixtisaslaşmış çek hərracı keçirilmişdir) çeklər satılmış, 128 səhmdar cəmiyyətinin səhmləri özəlləşdirilmişdir. Bütün bunlar yeni sahibkarlar nəslinin yaranması və inkişafına müsbət təsir etmişdir. 2007-2008-ci illərdə dövlət müəssisələrinin səhmdar cəmiyyətinə çevrilməsi istiqamətində işlər davam etdirilmişdir. Müvafiq müəssisələrin ləğv edilməsi əsasında «Qazanbulaq mədəni-məişət», «Ağsu sənaye inşaat», «Salyan inşaat materialları», «Sabirabad inşaatsənaye», «Tovuz nəqliyyat», «Bərdə yun», «Dəvəçi süd», zavodunun bazasında «Dəvəçi yeyinti istehsalat», Bakı şəhəri 2 saylı ev tikmə kombinatının bazasında «Bakı inşaat-2» səhmdar cəmiyyətləri yaradılmışdır. Bunlarla yanaşı Respublikanın bir çox digər şəhər və rayonlarında da müxtəlif səhmdar cəmiyyətləri yaradılmış, bütövlükdə 120 səhmdar cəmiyyətinin səhmləri özələşdirilmişdir.

9. Azərbaycanın mövcud investisiya imkanlarını müəyyən etmək, milli və xarici sahibkarları bu imkanlar haqqında məlumatlandırmaq və perspektivdə regionlarımıza əlavə investisiyaların cəlb olunmasını təmin etmək üçün komp-

leks tədbirlər, hazırlıq işləri həyata keçirilmişdir. Bu məqsəd üçün regionlarda fəaliyyət göstərən sahibkarlardan yeni istehsal müəssisələrinin yaradılması və ya mövcud istehsalatın genişləndirilməsi istiqamətində investisiya layihələrinin hazırlanması üçün məlumatlar toplanmış və müvafiq kataloq hazırlanmışdır.

10. Kənd təsərrüfatının müxtəlif və əsasən ixtisaslaşmış sahələrini (pambıqçılıq, çayçılıq, üzümçülük, zeytunçuluq, heyvandarlıq) və eləcə də yüngül sənaye, yeyinti məhsullarının istehsalı, tikinti materiallarının istehsalı kimi mühüm sahələri əhatə edən icmallar hazırlanmış və ingilis dilinə tərcümə olunmuşdur. Hər bir icmala bu sahədə fəaliyyət göstərən müəssisələrin siyahısı və ünvanları əlavə olunmuşdur. İcmallar İqtisadi İnkişaf Nazirliyinin internet səhifəsində yerləşdirilmişdir. Bununla yanaşı bir sıra xarici ölkələrdə (Çin, Almaniya, Küveyt və Rusiyada (Sankt-Peterburq şəhəri) biznes-forumlar keçirilmişdir. Göstərilən tədbirlərdə Azərbaycanın investisiya imkanları, sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş nəticələr, əlverişli investisiya mühitinin formalaşmış olması barədə iştirakçılara geniş məlumat verilmiş, yeni investisiya layihələri nümayiş etdirilmiş və təqdim olunmuşdur.

11. Dövlət investisiyalarının regionlarda istehsal müəssisələrinin bərpasına, infrastruktur təminatının yaxşılaşmasına və sosial obyektlərin inşasına yönəlməsi istiqamətində tədbirlər görülür. Bu məqsədlə müxtəlif illər üçün tələb olunan maliyyə vəsaitilə bağlı təkliflər hazırlanmış və həmin illər üçün dövlət büdcəsinin layihəsinin hazırlanması zamanı nəzərə alınmışdır.

Respublika iqtisadiyyatının dövlətin iştirakı nəzərdə tutulan prioritet sahələrinin inkişafına investisiya qoyuluşuna

dair «2006-2009-cu illər üzrə Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı» hazırlanmışdır. Proqram sənaye, kənd təsərrüfatı və infrastruktur, xüsusilə sosial infrastruktur sahələrinin inkişafı ilə bağlı olan və maliyyələşməsində dövlətin iştirak etdiyi layihələri əhatə edir. Bu proqram dövlətin iştirak etdiyi investisiya sahələrinin çevik idarə olunmasını nəzərdə tuturdu. Belə ki, yerinə yetirilməsi yekunları hər il müzakirə olunaraq və növbəti üç ilin prioritet vəzifələrinə uyğun olaraq proqramda dəyişikliklər edilmişdir. Proqrama daxil edilən layihələr iqtisadiyyatın hazırda prioritet hesab olunan sahələrinə aiddir. Bununla yanaşı dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu, xərcləri müəyyən edilərkən həmin proqramın maliyyələşməsinə yönəldilən vəsait ayrılması da nəzərdə tutulur.

2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət proqramına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin «İnvestisiya fəaliyyətinin genişlənməsilə bağlı əlavə tədbirlər haqqında» 2006-ci il 30 mart tarixli 1395 nömrəli sərəncamına əsasən yaradılmış «Azərbaycan Dövlət İnvestisiya Şirkəti (ASC) dövlətin və özəl müəssisələrin paycısı kimi çıxış edərək, regionlarda sahibkarlığın, xüsusilə istehsal sahələrində sahibkarlığın inkişafına (Bakıda yeni süd emalı zavodunun, Masazırda qida duzunun istehsalı zavodunun, Qaradağda neft və qaz terminalının tikintisi, Qaradağ sement zavodunda yeni texnologiyaların tətbiqi, Göyçay süd emalı zavodunun yenidən qurulması və i.a.) 55 milyon manat həcmində investisiya qoymuşdur.

12. Azərbaycan Respublikasının investisiya xəritəsi hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinin saytında yerləşdirilmişdir. Xəritədə Azərbaycan Respublikasının şəhər və rayonları haqqında (ərazisi, əhalisi, aqrar-sənaye potensialı

və i.a.) məlumatlar, mövcud müəssisələr, maliyyələşməsi mümkün olan investisiya layihələri haqqında məlumatlar verilmişdir.

2010-cu ildə İqtisadi İnkişaf Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu tərəfindən Azərbaycanda iqtisadi rayonların sosial-iqtisadi pasportları hazırlanmışdır. Burada xarici ölkələrin təcrübəsini nəzərə almaqla iqtisadi rayonlara dair məlumatlar daha geniş miqyasda öz əksini tapmışdır.[1]

13.Vergi dərəcələrinin optimal həddədək azaldılması və bu hesaba sahibkarlığın inkişafına müsbət təsir göstərilməsi üçün «Vergi məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Fərman qəbul edilmiş, «Dövlət vergi orqanlarına vergi ödəyicilərinin qeydiyyatının aparılmasına dair metodiki göstəriş», Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Eyni zamanda «Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında» 2005-ci ilin 31 yanvarında qərar qəbul etmişdir. Bunun nəticəsində hüquqi şəxslərin mənfəət vergisi 25%-dən 24 %-ə, 2006-cı il yanvar ayında verilmiş əlavə təklifləri də nəzərə almaqla 24%-dən 22%-ə endirilmişdir. Fiziki şəxslərin aylıq və illik gəlirlərinə vergilərin hesablaması qaydası onların mənafeyini və ölkədə baş vermiş yenilikləri nəzərə almaqla təkmilləşdirilmişdir. Bununla yanaşı kənd təsərrüfatına əvvəllər verilmiş vergi tətillərinin tətbiqi daha 5 il müddətinə uzadılmışdır. Qanuna görə hüquqi şəxslər mənfəət, ƏDV, əmlak vergilərindən, fiziki şəxslər isə ƏDV və fəaliyyətlərində istifadə olunan əmlak vergilərindən azad edilirlər. Eyni zamanda

---

[1] «Respublika» 10 iyun, 2010. səh.4

gön-dəri sənayesinin inkişafını sürətləndirmək məqsədilə xam dəri məhsullarının respublikaya idxalının gömrük rüsumundan azad edilməsi, əksinə ixracın gömrük rüsumuna cəlb edilməsi üçün respublika Nazirlər Kabineti müvafiq qərar layihəsi hazırlamış və qəbul etmişdir. Ölkə sahibkarlığının inkişafına əlverişli şəraitin yaradılması üçün idxalda vasitəli vergilərin dərəcəsi sabit saxlanılmışdır.

14. Aqrar-sənaye müəssisələrinə, fermer təsərrüfatlarına dövlətin maliyyə yardımı tədbirləri davam etdirilmiş, kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sisteminin təşkilində xeyli irəliləyişlər olmuşdur. Azərbaycan Respublikası Prezidentinin kənd təsərrufatı məhsul istehsalçılarının istehsal üçün sərf etdikləri yanacağın, motor yağının və mineral kübrələrin xərclərinin 50%-nin dövlət büdcəsi hesabına ödənilməsi haqqında 2007-ci il noyabr Fərmanına uyğun olaraq bu sahəyə 76.5 milyon manat vəsait sərf olunmuş, bundan başqa Aqrolizinq ASC-yə 37.5 mln. man. vəsait veril-mişdir. Naxçıvan MR-da bu məqsədlər üçün müvafiq olaraq 3.5 və 2.5 mln. manat vəsait ayrılmışdır. Bunlarla yanaşı, Prezidentin kənd təsərrüfatı istehsalçılarının toxum, kübrə və damazlıq heyvanlarla təchiz edilməsinə dəstək verilməsi haqqında 2008-ci il sərəncamına uyğun olaraq onun ehtiyat fondundan mineral kübrə, toxumluq buğda, damazlıq heyvan alınmasına, xüsusi anbarlar tikintisinə əlavə vəsait ayrılmışdır. Ərzaq proqramı tədbirlərinin maliyyələşməsi üçün 60 mln. manat, (dövlət taxıl fondunun yaradılmasına, elevator tikintisinə və i.a) 10 mln. manat Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə yeni vəsaitlər ayrılmışdır. Sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növlərinin və sığorta haqqının

büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyən edilməsi haqqında, «Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə buğda əkin sahələrinin məhsulunun yanğın, dolu, sel, daşqın və şaxta vurmasından sığorta müqaviləsi üzrə hesablanmış sığorta haqqının 25 faizinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi üçün 2005-ci ildən başlayaraq dövlət büdcəsindən müəyyən məbləğ vəsait ayrılması nəzərdə tutulmuşdur. Eyni zamanda Nazirlər Kabinetinin 2005-ci il 23 saylı qərarı ilə «Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına maliyyə yardımının ayrılması və ödənilməsi qaydaları haqqında əsasnamə» təsdiq edilmişdir. Bununla yanaşı «Heyvanların sığortası» qaydaları hazırlanmışdır. Həmin qərar və əsasnamə qəbul ediləndən sonra sığortaçılar öz fəaliyyətlərini onların tələbləri əsasında qururlar. Aqrar sahədə sığortanın könüllü növlərinin inkişaf etdirilməsi, sığortaya inam və marağın artırılması, sığortanın bazar prinsipləri əsasında qurulması kənd təsərrüfatının hər iki sahəsinin inkişafına, bu sahədə Dövlət Proqramının yerinə yetirilməsinə təsir göstərən mühüm amillər sırasındadır. 13 iyun 2008-ci ildən başlayaraq sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı bitkilərinin siyahısına meyvə, sitrus və üzüm bağlarının məhsulları əlavə edilmişdir.

15. Dünya Bankının «Kənd təsərrüfatının inkişafı və kredit layihəsi»nin icrası çərçivəsində «icraçı kredit agentliyi»nin dəstəyilə 2005-ci ildən regionlarda kredit ittifaqları fəaliyyətə başlamış, layihə çərçivəsində borc alanlar qrupuna və kredit ittifaqına kredit verilməsinə başlanmışdır.

Dünya Bankının Kənd təsərrüfatının inkişafı və kredit layihəsinin icrası çərçivəsində "İcraçı Kredit Agentiyi"nin dəstəyi ilə 01 yanvar 2009-cu il tarixinə 39 kredit ittifaqına

23.2 mln manat, 628 borc alanlar qrupuna 28.6 mln. man. kredit verlimişdir. Aqrar sahənin texniki təminatını yaxşılaşdırmaq üçün «Tərəfdaşlıq Fondu» yaradılmışdır. Bu fonda yığılmış vəsait hesabına alınmış texnikalar kənd təsərrüfatı işlərində səmərəli istifadə olunurlar. Bu texnikaların hesabına Qazax, Tovuz, Xanlar, Salyan, Kürdəmir, Goranboy, Ağcabədi, Yevlax, Cəlilabad, Şəki, Şamaxı və s. rayonlarda «Aqrotexservis» qurumları yaradılmışdır. Bu istiqamətdə işlər 2006-2008-ci illərdə davam etdirilmişdir.

16. Meliorasiya-irriqasiya sistemlərinin və qurğularının yenidən qurulması, suvarma-drenaj infrastrukturunun bərpasına və sahilbərkitmə işlərinə 1780 min AzN manat, Naxçıvan MR Vayxır hidroqovşağının tikintisinə 4260 min AzN manat vəsait ayrılmışdır.

17. Aqrar bölmənin müasir texnika ilə təchizatı məsələsinin çevik şəkildə tənzimlənməsini təmin etmək məqsədilə lizinq müqaviləsinin obyekti olan əsas vəsaitə aid daşınan əşyaların idxal gömrük rüsumundan və idxal zamanı əlavə dəyər vergisindən azad olunması üçün müvafiq tədbirlər görülmüşdür. Gələcəkdə gömrük dərəcələrinin beynəlxalq standartlara tam uyğunlaşması istiqamətində tədbirlər davam etdiriləcəkdir.

18. Üzümçülük və şərabçılıq sahəsində fəaliyyət göstərən müəssisələrdə istehsalın artırılmasını stimullaşdırmaq məqsədilə əkin üçün ölkəyə gətirilən üzüm tinglərinin idxalının gömrük rüsumundan azad edilməsi barədə təkliflər hazırlanaraq Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmişdir. Həmçinin ölkədə baramaçılığı inkişaf etdirmək və tut ipək qurdlarını lazımi həcmdə yem bazası ilə təmin etmək üçün əkin məqsədilə respublikaya gətirilən tut tinglərinin idxal gömrük rüsumundan azad edilməsi barədə təkliflər

hazırlanaraq təsdiq edilmişdir.

19. Yerlərdə sahibkarlığa dəstək vermək üçün onlara məsləhət xidmətinin, informasiya təminatı, marketinq xidməti və digər xidmətin sistemli və fasiləsiz həyata keçirilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyi yanında regionlarda bölmələri olan Bakı Biznes tədris mərkəzi (BBTM) yaradılmışdır. Bu mərkəzin Şəki, Gəncə, Lənkəran, Qazax, Mingəçevir, Göyçay regional tədris mərkəzləri yerlərdə sahibkarların maariflənməsi, onların ixtisasının yüksəlməsi, informasiya təminatının yaxşılaşması üçün tədbirlər görür, dəyirmi masalar, kurslar, seminarlar keçirir, metodik vəsaitlər hazırlayıb sahibkarlara paylamış, "İKT", «Sahibkarlığın əsasları və idarəetmə», ingilis dili kursları təşkil edilmiş, elektron ticarət, elektron idarəetmə sahəsində seminarlar keçirilmişdir. «Öz biznesini qur və yaxşılaşdır» mövzusunda 15 rayonda tədris həyata keçirilmiş və bu tədbirdən sonra 500 nəfər sertifikat almışdır. Rayonların əksəriyyətində sahibkarlar assosiasiyası yaradılmış, vergi ödəyicilərinin vergi məcəlləsinə edilmiş əlavə və dəyişikliklər haqqında təlimatlandırılması məqsədilə xüsusi bukletlər hazırlanıb onlara paylanmışdır. Xüsusi vergi orqanı olmayan şəhər və rayonlarda vergi ödəyiciləri üçün 15 kompüter terminalı yaradılmışdır. Vergilər nazirliyinin internet saytında vətəndaşları vergi ilə əlaqədar maraqlandıran suallara cavab vermək və onların rəylərini öyrənmək, kəndin və kənd təsərrüfatının inkişafı ilə bağlı digər tədbirlər də həyata keçirilmişdir. Məsələn: fermerlər pulsuz toxum, kübrə, kimyəvi preparatlarla təmin olunmuş, onlara pulsuz məsləhət xidmətləri göstərilmişdir. Kənd yerlərində yaşayan yoxsul qadınların və təsərrüfat başçıları qadın olan ailələrin vəziyyətini yaxşılaşdırmaq və həyat səviyyəsini yüksəlt-

mək üçün «Qəbələ rayonunda kənd qadınları üçün heyvandarlığın inkişafı qrant layihəsi» həyata keçirilir. Maliyyə Nazirliyi ilə mikromaliyyə təşkilatları arasında bağlanmış Agent sazişinə uyğun olaraq bu komponent çərçivəsində Qəbələ, Şahbuz, Gədəbəy, Lerik və Quba rayonlarında 779 birgə borcalanlar qrupu yaradılmış və ümumilikdə onlara 2,86 mln. Azn manat məbləğində kredit verilmişdir. Dağ rayonlarında rəqabətə davamlı peşələr üzrə (kompüter istifadəsi, avtomobillərin təmiri üzrə çilingər, traktorçu-maşınçı, xalçaçı, satıcı-nəzarətçi-kassir və s.) kurslar təşkil edilmiş və bu kurslara 1039 nəfər, eləcə də qəsəbə və kəndlərdə abadlıq və təmir-tikinti işləri üzrə haqqı ödənilən ictimai işlərə 1110 nəfər işsiz vətəndaşlar cəlb olunmuşdur.

20. Dünyanı maliyyə-iqtisadi böhran sarsıtdığı 2008-2009-cu illərdə böhranı qabaqlayıcı tədbirlər görülmüşdür. Prezidentin 23 noyabr 2007-ci il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalına dövlət dəstəyi haqqında" sərəncamına uyğun olaraq bu sahədə istifadə olunan yanacaq, toxum, motor yağı və kübrənin dəyərinin 50%-inin dövlət büdcəsi hesabına ödənilməsi davam etdirilmiş, " Aqrolzinq" xəttilə kənd təsərrüfatına böyük texniki yardım göstərilmişdir (7299 texnika, 27 dəst texnoloji avadanlıq). SKMF-dən verilən güzəştli kreditlər (indiyədək təqribən bir milyard ABŞ dolları həcmində), artırılmış (54% dövlət büdcəsi hesabına) vergi dərəcələri dəfələrlə aşağı salınmışdır. Azərbaycan Mərkəzi Bankı milli valyutamızın sabitliyini qorumaq üçün dövriyyə pul emissiyasını azaltdı, Respublikamızda olan digər banklara vergi güzəştləri tətbiq edildi və i.a.

21. Dövlət Proqramında sosial infrastrukturun inkişafı, əhalinin, xüsusilə kənd əhalisinin elektrik enerjisi, su, qaz,

istilik, rabitə, nəqliyyat xidmətilə təminatının yaxşılaşdırılması təxirəsalınmaz vəzifə kimi qarşıya qoyulmuşdur. Odur ki, Dövlət Proqramı qəbul edildikdən sonra bu sahələrin inkişafına aid tədbirlər görülməsi və bunun üçün maliyyə-kredit vəsaitlərinə yaranan ehtiyacın ödənilməsinə ölkə rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilmişdir.

Regionlarda, qəsəbələrdə nəqliyyatın, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi üçün tədbirlər nəzərdə tutulmuş və həyata keçirilir.

Beynəlxalq yüklərin daşınmasında Bakı-Qazax-Gürcüstanla dövlət sərhədi, şimal-cənub nəqliyyat dəhlizinə daxil olan Bakı-Quba-Dağıstanla dövlət sərhədi və Ələt-Astara, həmçinin rayonlar arası və rayon daxili (yerli əhəmiyyətli) avtomobil yollarının yenidən qurulması və əsaslı təmiri üçün tədbirlər planı hazırlanmışdır. Həmin tədbirlər planında ölkənin bütün şəhər və rayonlarının yollarının müəyyən hissəsinin (1200 km. uzunluğunda magistral, 3063 km. uzunluğunda rayonlararası və rayondaxili) yenidən qurulması, əsaslı təmiri nəzərdə tutulmuş və əsasən icra edilmişdir. Dövlət büdcəsində bu məqsəd üçün müvafiq tutulmuş, eləcə də beynəlxalq təşkilatlar tərəfindən ayrılan maliyyə resurslarından istifadə olunması nəzərdə tutulmuşdur. Respublikanın müxtəlif regionlarında avtomobil nəqliyyatının işinin tənzimlənməsini həyata keçirən 8 regional müəssisə yaradılmışdır.

Astara-Qazıməmməd qaz kəmərinin bərpası, yüksək təzyiqli qazın qəbulu üçün Astara dövlətlərarası qazölçmə qovşağının, laboratoriya və kompressor stansiyasının tikintisi, Naxçıvan MR qazpaylayıcı şəbəkəsinin, yenidən qurulmasına 7,0 mln AzN manat vəsait ayrılmışdır.

Regionların su və enerji təminatının yaxşılaşdırılması

istiqamətində həyata keçirilməsi nəzərdə tutulan bir sıra investisiya layihələrinin maliyyələşməsi üzrə beynəlxalq maliyyə-kredit təşkilatları ilə işgüzar danışıqlar aparılmış və Vəlvələçay-taxta körpü kanalının tikintisi, «Yevlax-Gəncə avtomobil yolunun yenidənqurulması», «Şimal qaz-trubin DRES-in tikintisi, «Bakı-Rusiya sərhədi avtomobil yolunun yenidən qurulması» layihələri üzrə ümumi məbləğ 454 milyon ABŞ dolları təşkil edən kredit sazişləri imzalanmışdır.

22. Dövlət Proqramına uyğun olaraq dağ rayonlarının inkişafına yönəlmiş kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Dağ rayonlarının şəraitinin çətinliyi nəzərə alınmaqla Azərbaycan respublikasının Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli qərarı ilə dəniz səviyyəsindən 1500-2000 metr hündürlükdə yerləşən müəssisə və təşkilatlarda əmək haqqında 1,2, 2000 metrdən yuxarı 1,3 artım əmsalları müəyyən edilmişdir. Eyni zamanda 2008-ci ildə 1200-1500 metr hündürlükdə yerləşən kəndlərin siyahısına (kəndlərin ərazisinin genişlənməsi ilə əlaqədar) bir sıra yeni kəndlər əlavə edilmişdir. Rəqabətə davamlı peşələr üzrə hazırlıq kursları təşkil edilmiş və bu kursları 290 nəfər bitirmiş, əhalinin məşğulluq səviyyəsinin monitorinqi keçirilmiş, işçilərin bir hissəsi haqqı ödənilən ictimai işlərə cəlb edilmişlər. Dünya Bankının «Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi» layihəsi çərçivəsində bu bank tərəfindən 2004-cü ildə "Kənd investisiyaları layihəsi" üzrə 10,2 mln. sdr, 2006-cı ildə "Kənd təsərrüfatının inkişafı və kreditləşməsi – 2 layihəsi" üzrə 20,1 mln. sdr, ətraf mühitlə bağlı 5,4 mln. sdr, Kənd təsərrüfatının inkişafı üzrə Beynəlxalq fond tərəfindən 10,9 mln. sdr kredit vəsaiti ayrılmışdır. 2004–2006-cı illərdə

Qəbələ, Şahbuz, Lerik, Gədəbəy rayonlarında 6 orta məktəb binası tikilmiş, 4 məktəb binası, 6 uşaq bağçası, 6 ambulatoriya, 2 klub əsaslı təmir olunmuş, Qəbələdə 2 artezian quyu qazılmış, bu rayonların hamısında içməli və suvarma su xəttləri çəkilmişdir.

23. Gömrük dərəcəsinin optimal səviyyədə saxlanılması siyasəti davam etdirilmiş, daxili bazarın qorunması, yerli istehsalın genişlənməsi və ixraca əlverişli şəraitin yaradılması məqsədilə, həmçinin beynəlxalq təşkilatların Azərbaycan Respublikasında tətbiq olunan gömrük idxal rüsumlarının çoxpilləli sistemindən (0%, 0.5%, 1%, 3%, 5%, 10%, 15%) az pilləli sistemə (0%, 0.5%, 1.5%) keçməsi ilə bağlı bir sıra mallar üzrə əlavə və dəyişikliklərin siyahısı Respublika Nazirlər Kabinetinə təqdim olunmuşdur.

-Bakı şəhərində "İpək yolu" terminalı, Astara Rayonunda "Azərcənub" terminalı təsis edilmiş və icarəyə verilmişdir. Bundan başqa, Qusar rayonu ərazisində "Şimal" terminalı istifadəyə verilmişdir. Tovuz Gömrük idarəsində Sınıq Körpu, Balakəndə Mazım çay, Astara, Biləsuvar sərhəd buraxılış məntəqələrinin tikintisi aparılmışdır.

-Tarif-qiymət siyasətində əhalinin həyat səviyyəsi və ödəmə qabiliyyətini nəzərə almaqla Tarif şurası tərəfindən müəyyən təkmilləşdirilmələr aparılmış, bu məqsədlə şuranın 16 iclası keçirilmiş və 52 qərar qəbul edilmişdir. Bu qərarlardan təbii qazın, elektirik enerjisinin (su, külək, yanacaq) neft məhsullarının topdan satış, pərakəndə və təchizat qiymətləri, su təchizatı, sərnişin daşımasının, səhiyyə, rabitə xidməti, reklam və b. tariflər nəzərdən keçirilmiş və həmin sahələrə çəkilən xərclərin ödənilməsi məqsədilə təkimlləşdirilmişdir.

2004-2008-ci illərdə gənclərin işlə təminatının yaxşılaş-

dırılması ilə əlaqədar tədbirlər görülməsinə xüsusi diqqət yetirilmişdir. "İş axtaran gənclər üçün yardım Proqramı" hazırlanmış, müvafiq dövlət qurumları və təşkilatlar tərəfindən "Gənclər üçün Karyera Mərkəzi" açılmışdır. Mərkəzin açılmasında başlıca məqsəd gənclərin bilik, praktiki bacarıq və vərdişlərinin artırılması, onların məşğulluq problemlərinin həll edilməsi sahəsində təşkilati, texniki, informatika, maarifləndirmə və digər tədbirlər kompleksinin həyata keçirilməsidir. Bu mərkəzin iştirakı ilə Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Şəki şəhərlərində müxtəlif tədbirlər, "Karyera məktəbləri", "Gələcəyə Körpü" ictimai birliklər tərəfindən göstərilən informasiya, bilik, ixtisasının artırılması və s. istiqamətində tədbirlər görülmüşdür.

Aztəminatlı sosial təbəqənin müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamı ilə minimum aylıq əmək haqqının və pensiyaların məbləği 85 manata qaldırılmışdır.

Təhsil müəssisələrinin tikintisi və təchizatının yaxşılaşması ilə bağlı proqram qəbul edilmiş, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsilə bağlı aidiyyatı mərkəzi icra hakimiyyət orqanları tərəfindən kompleks tədbirlər görülmüş və dövlət vəsaiti hesabına bu tədbirlərin bir hissəsinin maliyyələşməsi təmin edilmişdir. Azərbaycanın bütün rayonlarında müasir məktəb binalarının tikintisi və təmiri işi davam edir. Bu məqsəd üçün həm Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə maliyyə vəsaiti ayrılmış, həm də beynəlxalq və humanitar təşkilatların ayırdığı maliyyə vəsaitlərindən istifadə edilir.

Əlbəttə, regionların inkişafı üzrə Dövlət Proqramının yerinə yetirilməsi üçün görülmüş tədbirlər bizim göstərdik-

lərimizdən geniş və çoxsahəlidir. Lakin elə bu göstərilənlər də belə bir həqiqəti təsdiq etmək üçün kifayət edir ki, Dövlət Proqramını yerinə yetirmək üçün keçən 5 il ərzində müxtəlif istiqamətlərdə böyük təşkilati iş aparılmış və bunlar proqramın yerinə yetirilməsinə zəmin yaratmışdır.

***Bütün yuxarıda göstərilən tədbirlər, bir tərəfdən, 2004-2008-ci illərdə Dövlət Proqramının qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün etibarlı təməl olmuşdur, digər tərəfdən gələcək illərdə respublika miqyaslı yeni regional proqramların yerinə yetirilməsi üçün vacib olan tədbirləri və onların həyata keçirilməsi istiqamətlərini müəyyən etmək üçün əsas yaratmışdır.***

## 2.2. Dövlət Proqramının yerinə yetirilməsi yekunları: iqtisadi sahədə keçid dövrünün başa çatması

***Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirirlər. Müxtəlif hesablamalara görə Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır.***

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Dövlət Proqramının (2004-2008-ci illər) yerinə yetirilməsi yekunları Azərbaycanın sosial-iqtisadi həyatının bü-

tün sahələrində əsaslı dəyişikliklər baş verdiyini, Respublikanın öz inkişafında yeni mərhələyə daxil olduğunu göstərir.

Məlumdur ki, Azərbaycanın müasir sosial-iqtisadi inkişaf siyasəti xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hazırlanmış və həyata keçirilməsinə başlanmışdır.

Prezident İlham Əliyev «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 2003-cü il 24 noyabr tarixli Fərmanında Heydər Əliyev kursunu yaradıcılıqla davam etdirməyin və iqtisadiyyatın daha sürətlə inkişafının modelini hazırlamış, Azərbaycanın uzun müddətli sosial-iqtisadi inkişaf strategiyasını ***«Müstəqil Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi» formasında müəyyənləşdirmişdir*** və o, yalnız Respublikanın bütün regionlarının hərtərəfli inkişafı, iqtisadi potensialının artması və ondan səmərəli istifadə ilə tamamlandığı şəraitdə real ola bilər və yerinə yetirilə bilər.

Azərbaycan Respublikası Prezidentinin dəfələrlə qeyd etdiyi kimi "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu uzun müddətli strategiyanın həyata keçirilməsində çox mühüm mərhələdir.

Proqramda bazar iqtisadiyyatına keçid islahatlarını möhkəmlətmək, regionların istehsal potensialını artırmaq, ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etmək, işsizliyi və yoxsulluğu azaltmaq əsas məqsədlər kimi müəyyən edilmişdir. Azərbaycanın 2004/2008-ci illərdə sosial-iqtisadi inkişafının yekunlarını əks etdirən statistik məlumatlar Dövlət Proqramının bütün əsas sahələr və göstəricilər üzrə

müvəffəqiyyətlə yerinə yetirildiyini göstərir.

***Hər şeydən əvvəl bazar iqtisadiyyatının əsaslarının möhkəmləndirilməsi, islahatların davam etdirilməsi, həyata keçirilməsi və bazar münasibətlərinə keçidin təmin edilməsi istiqamətində böyük müvəffəqiyyətlər qazanılmışdır.***

Torpağın və müxtəlif xarakterli müəssisələrin özəlləşdirilməsi başa çatmaqdadır, özəl sektor həm bütövlükdə iqtisadiyyatda, həm də iqtisadiyyatın ayrı-ayrı sahələrində ÜDM istehsalında həlledici mövqe tutmuşdur. 2008-cı ildə ÜDM istehsalının 84,5%-i (2003-cü ildə 73%-i), məşğul əhalinin 71%-dən çoxu, investisiyanın 72%-i, dövlət büdcəsi gəlirlərinin 53%-i özəl sektorun payına düşmüşdür. Ayrı-ayrı inzibati rayon, şəhər və iqtisadiyyat sahələrində məhsul istehsalında qeyri-neft sektorunun xüsusi çəkisi daha yüksək olub 90-94%-ə, məşğul əhali üzrə 85-90%-ə çatır. İqtisadiyyatın aparıcı sahəsi olan sənaye sahəsində də özəl sektor həlledici mövqeyə malikdir. Sənaye məhsulunun 2005-ci ildə 67,9 %-i, 2008-cı ildə 80,9%-i, kənd təsərrüfatı məhsulunun 99,7%-i özəl bölmənin payına düşmüşdür. Dövlət iqtisadiyyatın bütün sahələrində özəl sektorda sahibkarlığın inkişafına həm mənəvi, həmdə təşkilati və iqtisadi baxımdan böyük dəstək verir.

***Beləliklə, Azərbaycan iqtisadiyyatının bütün sahələrinin bazar münasibətlərinə keçməsi əsasən təmin edilmiş və bazar münasibətləri hökmran xarakter almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu ilin noyabr ayında Bakı Dövlət Universitetinin yaradılmasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxışında Respublikamızda iqtisadi sahədə keçid dövrünün başa çatdığını rəsmən elan etmişdir. Ölkə-***

*miz iqtisadi sahədə bazar münasibətlərinin tədricən təkmilləşməsi və inkişafı mərhələsinə daxil olmuşdur. Bu Respublikada islahatların həyata keçirilməsi sahəsində nail olunmuş mühüm ümumi nəticə kimi qiymətləndirilə bilər.*

Dövlət Proqramı ÜDM istehsalı üzrə artıqlaması ilə yerinə yetirilmişdir. Dövlət Proqramında ÜDM istehsalının 2,2 dəfə artması nəzərdə tutulurdu. Həqiqətdə 2004-2008-ci illərdə ÜDM istehsalı 2,6 dəfə artaraq 2008-cı ildə 38,0 milyard manata çatmışdır. Belə hesab etmək olar ki, ÜDM istehsalında qiymət fərqlərini də nəzərə almaqla proqram qəbul edildiyi vaxta nisbətən sonrakı illərdə yanacaq-enerji, tikinti komplekslərində və digər sahələrdə qiymətlər az-çox dəyişəcək və bu da göstəricilərin miqdarına öz təsirini göstərir.

Həm də artım bütün illərdə yüksək olmuşdur. ÜDM istehsalının artımı 2004-cü ildəki 10,2%-ə qarşı 2005-ci ildə 26,4%, 2006-cı ildə 34,5%, 2007-ci ildə 11 və 2008-ci ildə 10,8% olmuşdur. 2008-ci ildə ÜDM istehsalının artımını qiymətləndirərkən dünya maliyyə böhranının iqtisadiyyatın inkişafına mənfi təsirini də nəzərə almaq vacibdir. ***Beləliklə, 2005-ci ildən başlayaraq Azərbaycan sabit sürətlə davamlı inkişafdan davamlı və sürətli inkişaf mərhələsinə daxil olmuşdur.***

ÜDM istehsalının artım sürətinə görə Azərbaycan 2004-cü ildə MDB üzvü olan ölkələr, 2005-2008-ci illərdə dünya ölkələri arasında lider dövlətə çevrilmişdir.

Adam başına ÜDM istehsalı 2003-cü ilə nisbətən 2008-cı ildə 5,0 dəfə artaraq 4440 manat olmuşdur. Azərbaycan adambaşına ÜDM istehsalına görə MDB ölkələri arasında 2004-cü ildə 8-ci, 2005-ci ildə dördüncü, 2008-cı ildə 2-ci

yeri tutmuşdur. ***Əgər adambaşına məhsul istehsalının ölkənin inkişaf səviyyəsini-iqtisadi qüdrətini əks etdirdiyini və yaxın illərdəki mümkün inkişaf sürətini nəzərə alsaq onda demək olar ki,*** Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi prosesi artıq 2008-ci ildə başlanmışdır və bu prosesin tam reallaşacağı vaxt çox da uzaq deyil.

İqtisadiyyatın aparıcı sahələri sürətlə inkişaf edir. 2004-2008-ci illərdə sənaye məhsulu istehsalı 2,5 dəfə, kənd təsərrüfatı məhsulu 25,2% artmışdır. Sənayenin ÜDM istehsalında xüsusi çəkisi artaraq 58,3%-ə çatmışdır.

ÜDM istehsalının artımında qeyri-neft sektorunun və burada onun aparıcı sahələrinin rolu artmaqdadır. 2003-cü ilə nisbətən qeyri-neft sektorunun məhsulu 1,8 dəfə artmışdır. İstehsal sahələri daha sürətlə inkişaf edir (2004-cü ildə 8,2, 2005-ci ildə 12,3 və 2006-cı ildə 7,8% artmışdır) və ÜDM istehsalında onların payı artır. ÜDM istehsalında onların xüsusi çəkisi 72,9% (2005-ci ildə 68,6%), xidmət sahələrinin, məhsula və idxala xalis vergilərin payı 27,1% (2005-ci ildə 31,4%) olmuşdur. Bu o deməkdir ki, Azərbaycan iqtisadiyyatının yaxın gələcəkdə inkişaf taleyi əsasən istehsal sahələrindən asılı olacaqdır. ***İqtisadiyyatın artım mərkəzi xidmət sahələrindən istehsal sahələrinin üzərinə keçmişdir.*** Son illərdə infrastrukturun sürətli inkişafı bu sahənin inkişafına əlverişli şərait yaradan mühüm amil olmuşdur. Sənaye potensialı 2004-cü ildəki 5,4%-ə qarşı 2005-ci ildə 33,5%, 2006-cı ildə 36,6%, 2007-ci və 2008-ci ildə artmışdır, o cümlədən metallurgiya, maşınqayırma, tikinti materialları istehsalı sürətlə artmaqdadır. Buna uyğun olaraq xarici ticarətdə qeyri-neft sektorunun məhsulunun xüsusi çəkisi və qeyri-neft məhsullarının

ixracı da artır. Azərbaycan 140 ölkə ilə ticarət əlaqələri yaratmışdır. Son illərdə bir qayda olaraq xarici ticarət dövriyyəsi müsbət saldo ilə başa çatır.

* * *

Respublikamızda iqtisadi sahədə keçid dövrünün başa çatması həm də onda ifadə olunur ki, burada demokratik cəmiyyətin keçid dövrünə xas olan bir çox problemləri də öz həllini tapmışdır: müvafiq maddi-texniki baza yaranmış, adətən keçid dövrünə xas olan kəskin işsizlik, yoxsulluq, ərzaq təhlükəsizliyi problemləri əsasən həll edilmiş, daxili maliyyə resursları artmış və xarici ölkələrdən maliyyə asılılığı tamamilə aradan qaldırılmışdır.

İqtisadiyyatın inkişafı və regional strukturunun təkmilləşməsinin ən vacib məsələlərindən biri ölkənin investisiya imkanlarını səfərbərliyə almaq və ondan səmərəli istifadə etməkdir. Bu sahədə bir çox yeni keyfiyyətlər özünü göstərir.

Əvvəla təsərrüfata investisiya qoyuluşu proqramda nəzərdə tutulduğuna nisbətən sürətlə artmışdır.

Proqramda beş il ərzində iqtisadiyyata 16,8 mlrd. dollar vəsait qoymaq nəzərdə tutulur. Bu vəzifə artıqlaması ilə yerinə yetirilmişdir. 2004-2008-cı illərdə iqtisadi və sosial sahələrin inkişafına 33,5 milyard manat vəsait qoyulmuşdur. Sosial sferaya investisiya qoyuluşu 2005-2006-cı illərdə daha sürətlə artmışdır. Burda həlledici yeri xarici investisiyalar tuturdu. Onun xüsusi çəkisi 1995-2003-cü illərdə fasiləsiz olaraq artmışdır (1995-ci ildə 34,5%, 2000-ci ildə 52, 2003-də 76,8% olmuşdur). Lakin 2004-cü ildən əks proseslər başlanır. 2004-2006-cı illərdə daxili investisiya

daha sürətlə artdığından ümumi investisiyada xarici investisiyanın xüsusi çəkisi azalmağa meylli olmuşdur. 2003-cü ildəki 76,8 %-dən 2004-cü ildə 74,2, 2005-ci ildə 69,7 və 2006-cı ildə 54,2%, 2008-ci ildə 21,4%-ə düşmüşdür.

2003-cü ildə ümumi investisiyaların həcmində daxili investisiya 24,8% olduğu halda, 2008-ci ildə bu göstərici 78,6% təşkil etmişdir. Ümumiyyətlə, 2004-2008-ci illərdə bütün investisiyanın 53 %-i daxili, 46,7%-i xarici investisiyanın payına düşmüşdür. 2008-ci ildə investisiya qoyuluşu 2003-cü ilə nisbətən 3 dəfə çox olmuşdur. Müxtəlif dövlət strukturları xəttilə iqtisadiyyata investisiya qoyuluşu və qeyri-dövlət mülkiyyətində olan müəssisə və təşkilatların investisiya qoyuluşunda rolu daha sürətlə artmışdır. Əsas kapitala investisiya qoyuluşunun 70%-i qeyri dövlət bölməsinin, 30%-i dövlət bölməsinin payına düşür. Əsas kapitala investisiyanın 82%-i istehsal təyinatlı obyektlərə, 18%-i qeyri istehsal təyinatlı obyektlərə qoyulmuşdur.

Önəmli məsələlərdən biri Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılmasıdır. Məhz bu məqsədlə 2008-ci ilin sentyabrında minimum əmək haqqı və pensiya artaraq 75 manata, orta aylıq əmək haqqı artaraq 2005-ci ildə 120 manata, 2006-cı ildə 143,3 manata və 2008-ci ildə 268 manata çatmışdır.

Digər mənbələrdən daxil olan müxtəlif gəlirlər hesabına da əhalinin həyat səviyyəsi yüksəlmiş, yoxsulluq səviyyəsi mütəmadi olaraq aşağı düşmüşdür. Ümumiyyətlə, əhalinin pul gəlirləri 2003-cü ilə nisbətən 2008-ci ildə 4 dəfə artmışdır ki, bu da əhalinin rifahının nisbətən sürətlə yaxşılaşdığını göstərir. Bütün əhali içərisində yoxsul əhalinin xüsusi çəkisi 2003-cü ildə 47%-dən, 2005-ci ilin əvvəlində 39%, 2006-cı ilin əvvəlində 29%, 2007-ci ilin əvvəlinə

20% və 2008-ci ilin axırına 13,2% olmuşdur. Beləliklə, beş il ərzində bütün əhali içərisində yoxsul əhalinin xüsusi çəkisi 31,5% azalaraq 13,2%-ə düşmüşdür. Qeyd etmək lazımdır ki, Sovet İttifaqının dağılması ərəfəsində respublikada yoxsul əhalinin xüsusi çəkisi 30% idi. İndi yoxsul əhalinin xüsusi çəkisi azalaraq məhz 80-ci illərin axırına olan vəziyyətdən 2,2 dəfə aşağı düşmüşdür.

Yoxsulluğa münasibətdə əsaslı dəyişikliklər baş vermişdir. 2002-ci ildə yoxsul və aşağı təminatlı əhali Respublika əhalisinin yarıdan çox hissəsini əhatə etməklə ölkədə kütləvi narazılığın, hakimiyyətə inamsızlığın, kütləvi ixtişaş mənbəyi idi. Lakin artıq 2005-ci ildə onların sayı və yoxsulluq dərəcəsi kifayət qədər azalmışdır. ***Yoxsulluq kütləvi xarakter daşımır, o, əhalinin xeyli hissəsinin həyat səviyyəsini yüksəltmək probleminin daxili tərkib hissəsi kimi diqqəti cəlb edir.***

Proqramda qarşıya qoyulan ən mühüm vəzifə beş il ərzində 600 min yeni iş yeri açmaq məsələsidir. Görülmüş tədbirlər nəticəsində elə 2004-cü ildə sübut olundu ki, bu vəzifə realdır və düzgün siyasət aparıldığı, qüvvələr səfərbərliyə alındığı şəraitdə yerinə yetirilə bilər. 2004-2008-cı illərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə 766 mindən çox yeni iş yeri, o cümlədən 547,5 min daimi iş yeri açılmışdır.

İş yerilə təminat, əsasən yeni müəssisələrin yaradılması hesabına baş vermişdir. Belə ki, 2004-2008-ci illərdə 27572 yeni müəssisə yaradılmışdır ki, bununda 40%-ə qədəri regionlarda fəaliyyət göstərir. Yeni yaradılmış müəssisələrin 88%-dən çoxunu xüsusi mülkiyyətdə olan müəssisələr təşkil edir. Bu bir daha onu göstərir ki, iqtisadiyyatın inkişafında özəl sektor həlledici yer tutur.

* * *

Dövlət Proqramına uyğun olaraq 2004-2008-cı illərdə Respublikada yaradılan müəssisələrin sayı ildən- ilə artmışdır. Belə ki, təkcə 2004-cü ildə 421, 2006-cı ildə 5123, 2007-ci ildə 5145, 2008-ci ildə 6817 müəssisə istifadəyə verilmişdir. Regionlarda daha çox istehsal və emal müəssisələri istifadəyə verilir. İldən-ilə tikilən müəssisələrin sayı daha sürətlə artır. 2004-2006-cı illərdə regionlarda 1227 istehsal və emal müəssisəsi istifadəyə verilmişdir. Bütün bunlar və digər tədbirlər Dövlət Proqramında 600 min yeni iş yerləri açmaq haqqında qarşıya qoyulan vəzifənin də müvəffəqiyyətlə yerinə yetirilməsinə şərait yaratmışdır.

Məlumdur ki, proqramda regionların inkişafına diferensial formada yanaşmaq, Bakı şəhərinə nisbətən digər regionları, bunların içərisində isə dağlıq və dağətəyi əraziləri daha sürətlə inkişaf etdirmək vəzifəsi qarşıya qoyulmuşdur. Bu vəzifə də müvəffəqiyyətlə yerinə yetirilir. 2004-2008-ci illərdə qeyri-neft sektoru Respublikanın əksər inzibati rayon və şəhərlərində orta Respublika göstəricisinə nisbətən sürətlə artmışdır. Başlıcası, ondan ibarətdir ki, investisiyanın 60%-dən az olmayaraq Bakı şəhərindən kənar şəhər və rayonlara qoyulması haqqında proqram göstərişləri də müvəffəqiyyətlə yerinə yetirilmişdir. Belə ki, 2004-2008-ci illərdə maliyyə layihələrinin 80%-dən çoxu, Sahibkarlığa Kömək Milli Fondu vəsaitinin 90%-ə qədəri Bakı şəhərindən kənar rayonların payına düşmüşdür. Dövlətin regionların inkişafına ayırdığı vəsaitin miqdarı sürətlə artır. Regionların inkişafına dövlət büdcəsindən 2004-cü ildə 52,8, 2005-ci ildə 85,2 və 2006-cı ildə 512 mln. manat vəsait ayrılmışdır. Bu da həmin rayonların Bakı şəhərinə nisbətən

sürətli inkişafına şərait yaradan mühüm maliyyə-iqtisadi xarakterli amildir.

Regionlarda 2005-ci ilə qədər ən çox infrastruktura sahələrinin inkişafına fikir verilirdi – yol, məktəb, idman kompleksləri və i.a. tikildi. 2005-ci ildə real sektorun inkişafına doğru güclü meyil başlandı. 2005-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin 90%-i regionların inkişafına, bunun 90,7%-i istehsal və emal müəssisələrinin tikintisinə ayrılmışdır. 2005-ci ildə 160 emal müəssisəsi, 300-dən çox tikinti, 200-ə yaxın kənd təsərrüfatı, 900-ə yaxın ticarət və xidmət müəssisələri tikilib istifadəyə verildi. ***Respublikanın rayonlarında ya ixtisaslaşmış sənaye sahələrinin, ya da istehsal infrastrukturun inkişafı ön plana çəkilib.*** 2005-2008-ci illərdə Sumqayıt şəhərində un məmulatı istehsalı «Bismak» müəssisəsi, Şamaxıda «Star LTD» televizor zavodu, Qəbələdə, Şəkidə, Astarada, Naxçıvanda, Oğuzda konserv zavodları, tikinti materialları istehsalı, dəmir-beton zavodu, Gəncədə «Oka» avtomobil zavodu, «Azbentonit», Zeytun emalı və qablaşdırılması zavodu, Sumqayıt tikinti materialları şirkəti («Maqnum-S»), Lənkəranda Pivə zavodu, Şəki şirə zavodu, kərpic zavodu, İmişlidə MDB məkanında ən böyük Şəkər zavodu istifadəyə verilmişdir. Şəkər zavodunu xam malla təchiz etmək üçün şəkər çuğundurunun əkin sahələri genişlənir, məhsul istehsalı artır. Misal üçün 2006-cı ildə əkin sahəsi 7,8 min hektar genişlənmiş, 169,3 min ton şəkər çuğunduru istehsal olunmuşdur. Bununla yanaşı, Naxçıvan MR Babək rayonunda saatda 3 min butulka araq istehsal gücü olan sex, Gəncədə şokolad fabriki, Mingəçevirdə kompüter istehsal müəssisəsi (sutkada 140 ədəd), Şamaxı şəhərində avtomobil zavodu tikilmişdir. Sənayedə olan əsas fondların

53,2%-i daxili, 46,8%-i xarici mülkiyyətində olan müəssisələrin payına düşür. Bu o deməkdir ki, əsas fondların mənimsənilməsi və işə salınmasında milli investisiyanın rolu həlledici xarakter almağa başlamışdır. Bunlarla bərabər bir sıra yeni istehsal müəssisələri, sexlər tikilmişdir. Oğuzda istehsal gücü sutkada 12 min ədəd, tutumu 300 qramdan 3 litrədək olan müxtəlif şüşə qablar istehsal edən zavod, Salyanda süd emalı zavodu, «Hacı Camalxan fermer təsərrüfatı»nın Pambıq təmizləmə zavodu tikilmişdir. Şüşə qablar zavodunda 200-300, Pambıq təmizləmə zavodunda orta hesabla 100 nəfər işləyəcəkdir. Bunlarla yanaşı, bir sıra emal, tikinti materialları istehsal müəssisələri, istehsal sexləri işə salınmışdır. Bunlara misal olaraq Lənkəran «Tikiş fabriki», «Süd emalı zavodu», Gəncədə «Şokolad fabriki», Sumqayıtda «Azkomport» boru istehsal zavodunu və i.a. göstərmək olar.

Sabirabaddakı «Texniki təmir zavodu» «Qafqaz MTZ-MMC» zavodu adı ilə bərpa olunub. Bu zavod kompleks xarakterli istehsal və xidmət funksiyasını yerinə yetirə bilər. Belə ki, zavodda 500 ton sement istehsalı ilə yanaşı, İtaliyadan gətirilmiş dəzgahlarla yüksək təzyiqə davamlı rezin borular istehsal edib Azərbaycanın tələbatını ödəməklə yanaşı, xarici ölkələrə də ixrac etmək, eyni zamanda müəssisədə kənd təsərrüfatı texnikasını təmir etmək, kənd təsərrüfatı maşınları üçün ehtiyat hissələri istehsal etmək nəzərdə tutulur.

Məlumdur ki, Dövlət Proqramında birinci növbədə istehsal və sosial infrastruktur sahələrinin inkişafına fikir verilməsi, əhaliyə mədəni-məişət xidmətinin, su, qaz, elektrik enerjisi təminatının, səhiyyə, nəqliyyat xidmətinin yaxşılaşması, müasir yol şəbəkəsinin, idman kompleksləri, isti-

rahət mərkəzlərinin, turizm bazalarının yaradılması qarşıya mühüm strateji əhəmiyyət kəsb edən vəzifələr kimi qoyulmuşdur. Bütün bunlarda məqsəd birinci növbədə əhalinin sosial sferada tələbatını yüksək səviyyədə ödəməkdir. Lakin istehsal və sosial infrastrukturanın inkişafının ön plana çəkilməsinin başqa bir mühüm səbəbi bu sahələrin əksəriyyətinin nisbətən az investisiya tələb etməsi, tikintinin tez başa gəlməsi, yaxın illərdə iqtisadiyyatın regionlarımız üçün xüsusi əhəmiyyət kəsb edən ixtisaslaşmış sahələrinin inkişafına şərait yaratmaqdır. Bu məsələlərin birinci növbədə həllinin siyasi əhəmiyyəti də böyükdür. Regionlarımıza, onlarda əlverişli investisiya mühitinin olmasına inam artır, onların investisiya cəlb etmək qabiliyyəti yüksəlir.

Bu baxımdan energetikanın inkişafı - istehsalın qalan sahələrinin, sosial infrastrukturun inkişafı və əhalinin mədəni-texniki səviyyəsinin yüksəlməsinin əsasıdır. Ona görə də Respublika Prezidentinin təşəbbüsü ilə energetikanın inkişafına böyük diqqət yetirilir. Respublika Prezidenti Şəki şəhərində modul tipli elektrik stansiyasının açılış mərasimində demişdir: «Elektrik enerjisi həyat deməkdir. Elektrik enerjisi olmadan ölkədə heç bir layihə həyata keçirilə bilməz, heç bir müəssisə, heç bir fabrik, zavod fəaliyyətə başlaya bilməz». Ona görə də «2005-2015-ci illərdə yanacaq-energetika kompleksinin inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq energetikada yeni istehsal və enerji təchizat güclərinin işə salınmasına xüsusi diqqət yetirilmişdir. Hər birinin gücü 87 min kilovat olan Astara, Şəki, Xaçmaz modul tipli istilik-elektrik stansiyaları Naxçıvan MR-də 3 elektrik stansiyası ***(biri modul tipli)*** istifadəyə verilmişdir. Ümumiyyətlə, 5 ildə (2003-cü ilin oktyabrından 2008-ci ilin oktyabr ayınadək) ölkəmizdə 9 elektrik

stansiyası tikilmişdir ki, bunun da 7-i regionların payına düşür. Modul tipli elektrik stansiyalarda qapalı soyutma sistemi qurulur, faydalı iş əmsalı 46 % olmaqla hər biri 600 mln. kvt. saat enerji istehsal etməklə müvafiq iqtisadi rayonların enerjiyə olan tələbatını ödəyəcək, yeni istehsal və xidmət obyektlərinin enerjiyə olan tələbatının ödənməsinə şərait yaradacaq. Bunlarla yanaşı 110 min kvt gücündə Bakı istilik elektrik stansiyası, Sumqayıtda yeni istilik elektrik stansiyası, Mingəçevir və Şirvan DRİES-də yenidənqurma işləri aparılmışdır. Qaradağ rayonunda 300 min kvt gücündə "Sanqaçal" modul tipli elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Ümumiyyətlə Azərbaycanda beş il ərzində təqribən 2400 min kvt gücündə enerji istehsal qurğuları işə salınmışdır. Nəticədə Azərbaycan nəinki özünün enerjiyə olan tələbatını tamamilə ödəyir, həm də xarici ölkələrə enerji ixracı üçün kifayət qədər imkana malikdır. Bunlarla yanaşı hazırda Şirvan şəhərində, Dəvəçi, Quba, Füzuli rayonlarında yeni elektrik stansiyaları tikilməkdədir. "Bakıelektrikşəbəkə" və "Sumqayıtelektrikşəbəkə" səhmdar cəmiyyətlərinin müstəqil fəaliyyəti bərpa edilmişdir.

Müxtəlif şəhər və rayonlara enerji ötürülməsini təmin etmək üçün yüksək gərginlikli yarımstansiyalar tikilir. Bunlara misal olaraq hər biri 220 min. kvat gücündə Salyan, İmişli, Şirvan (330 min. kvat), Masallı-Yardımlı yarımstansiyasını göstərmək olar. İran İslam Respublikası ilə enerji mübadiləsi 200 meqavatdan 700 meqavatadək artacaq və Naxçıvan Muxtar Respublikasının, Lənkəran-Astara iqtisadi rayonunun və İranın ona qonşu rayonlarının enerji təminatı yaxşılaşacaq.

Respublika daxilində əhalinin və təsərrüfatların təbii qazla təchizatının yaxşılaşması üçün tədbirlər görülmüşdür.

Naxçıvan MR-ə 13 illik fasilədən sonra təbii qaz verilməsi bərpa olunmuş, Füzuli rayonunda Horadiz şəhəri, Lerik və Yardımlı rayonları, Ağdam rayonunun Quzanlı qəsəbəsi ilk dəfə olaraq təbii qazla təmin edilmişdir.

Müstəqilliyin ilk illərində rayon və şəhərlərin istilik təchizat sistemi demək olar ki, tamamilə dağılmışdı. 2004-2008-ci illərdə istilik sisteminin yenidən qurulması ilə əlaqədar 75 qazanxana tikilmiş, 72 qazanxana əsaslı təmir olunmuşdur. Bakı şəhərinin Sabunçu, Binəqədi, Suraxanı, Səbail, Qaradağ, Nizami, Xətai, Əzizbəyov rayonlarının qəsəbələrinə yeni qaz kəmərləri (xəttlər) çəkilmiş, mövcud qaz kəmərlərində əsaslı təmir və yenidən qurma işləri aparılmışdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi (2006-cı ildə ) və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında əldə edilmiş çox mühüm nailiyyətdir. Neft kəməri Azərbaycanın sosial-iqtisadi inkişafında çox mühüm rol oynamağa başlamışdır. Qaz kəməri də öz növbəsində bu vəzifənin yerinə yetirilməsinə xidmət etməkdədir. Nəqliyyatın digər növlərinin inkişafına da böyük diqqət yetirilir. Həm respublika, həm də yerli əhəmiyyətli yollar çəkilir, mövcud olanlar əsaslı təmir olunur. Beynəlxalq Bankların və Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına Bakı-Gürcüstan, Bakı-Rusiya, Bakı-Astara beynəlxalq əhəmiyyətli yolların əsaslı təmiri və çəkilməsi davam etmiş, respublika əhəmiyyətli Quba-Xınalıq, Masallı-Yardımlı, Lənkəran-Lerik yolları çəkilmişdir. Kənd yollarının tikintisi və təmiri geniş vüsət almışdır.

***Bakı şəhərində nəqliyyat xidmətini yaxşılaşdırmaq üçün əsaslı işlər görülmüş, Xırdalan, Binəqədi-Balaxanı***

*dairəvi yolu (43,9 km) əsaslı təmir olunmuş, 21,5 km uzunluğunda Bakı dairəvi yolu,* ümumiyyətlə beş il ərzində 1000 km-dən çox magistral yol çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 km Respublika əhəmiyyətli və 2700 km yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 60 yeni körpü tikilmiş və 34 körpü təmir edilmişdir.

Regional-mədəni-iqtisadi mərkəz xarakterli Gəncə, Naxçıvan, Lənkəran və Zaqatala şəhərlərində müasir standartlara uyğun yeni hava limanları tikilib istifadəyə verilmişdir. Ölkəmizdə Dövlət Proqramına uyğun olaraq turizmin inkişafına böyük diqqət yetirilir, müasir mehmanxanalar, turizm kompleksləri tikilir. Xarici ölkələrlə turist mübadiləsi genişlənir, turizm şirkətlərinin sayı artır ki, bunlar da turizmin inkişafına şərait yaradır. Bütün bunlar turizm sektorunun dünya standartları səviyyəsinə çatdırılması, Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində ardıcıl aparılan işlərdir. Nəticədə, Azərbaycana turist axını ildən-ilə artır. Respublikaya gələn turistlərin sayı 1,0 milyon nəfərdən artıqdır. Dünya turizm təşkilatının məlumatına görə, turistlərin sayına görə Azərbaycan MDB ölkələri arasında 4-cü yer tutur.

Azərbaycan Respublikasında insan potensialının inkişafını və ondan səmərəli istifadəni təmin etmək üçün görülən tədbirlər içərisində təhsil ocaqlarının tikintisi, onların maddi-texniki bazasının müasir tələblər səviyyəsində yenidən qurulması mühüm yer tutur. Beş il ərzində Dövlət Proqramına uyğun olaraq 1600 təhsil müəssisəsi və ayrı-ayrı təhsil müəssisələri üçün əlavə korpuslar tikilib istifadəyə verilmişdir. Bunların 636-sı iqtisadi rayonların payına düşür. Bundan başqa rayonlarda 192 məktəb əsaslı təmir olunmuş, 243 yeni sinif otağı tikilib istifadəyə verilmişdir.

Yalnız Heydər Əliyev Fondunun vəsaiti hesabına "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 238 məktəb binası tikilmiş, 39 təhsil müəssisəsi, o cümlədən 28 internat məktəbi əsaslı təmir olunmuş, 8 uşaq baxçası bərpa edilmiş və müasir avadanlıqlarla təmin olunmuşdur.

Kəndlərin, şəhərlərin və iqtisadiyyatın müxtəlif sahələrinin su təchizatının yaxşılaşması üçün dövlət xərcləri və beynəlxalq maliyyə təşkilatlarının vəsaiti hesabına tədbirlər görülmüşdür. Bu məqsədlə suvarma və su kanalizasiya sistemləri bərpa olunur, yeniləri (Ağdaş, Naxçıvan, Gəncə, Göyçay və i.a.) çəkilmiş, yeni su anbarları tikilir (Vayxır, Şəmkir, Tovuzçay və ümummilli lider Heydər Əliyev adına su anbarları və i.a.), yeni körpülər salınır (Xanarx və Vəlvələ çay taxta körpüləri) Qəbələdən Bakıya təmiz su kəmərinin çəkilişinə başlanmışdır. Çoxsaylı kəndlərə, rayon mərkəzlərinə su kəməri çəkilmiş, mövcud su təchizat sistemi yenidən qurulmuşdur. Taxtakörpü su anbarı və su elektrik stansiyası inşa olunur. Onun başa çatması Abşeron yarımadasının texniki və içməli su təchizatını iki dəfə yaxşılaşdırmağa imkan verəcək.

İnsanların sağlamlığının qorunması, tibbi xidmətin əhalinin bütün təbəqələrini əhatə etməsi və keyfiyyətinin yüksəlməsi daim dövlətin diqqət mərkəzində olmuşdur. Son illər ölkənin maliyyə imkanlarının artması yeni səhiyyə müəssisələri tikməyə, mövcud olanları əsaslı surətdə təmir etməyə və maddi-texniki bazasını möhkəmlətməyə şərait yaratmışdır.

Lənkəran, Qazax, Zaqatala, Bərdə, Qəbələ rayonlarında, Gəncə, Naxçıvan və Şirvan şəhərlərində yeni müasir müalicə diaqnostika mərkəzləri istifadəyə verilmiş, Sumqayıt şə-

hərində "Real-Med" diaqnostika sağlamlıq mərkəzi, Xaçmazda "N-KAYM klinik" özəl klinikası, Sabirabadda "Muğan" klinikası, Naxçıvan MR-nin Culfa rayonunda Mərkəzi xəstəxana, Babək rayonunda «Duzdağ fizioterapiya mərkəzi» və i.a. səhiyyə müəssisələri tikilib istifadəyə verilmişdir. Bakı ətrafı qəsəbələrdə və kəndlərdə səhiyyənin inkişafı da diqqət mərkəzində olmuşdur. Xocasən, Əhmədli, Bülbülə qəsəbələrində poliklinikalar, Buzovna qəsəbəsində Vərəm əleyhinə dispanser üçün 125 çarpayılıq yeni korpus inşa edilmişdir. 2008-ci ilin əvvəlindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi müəssisələrində pullu xidmət ləğv edilmişdir. Bu tədbir insanların sağlamlığının qorunması üçün mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, 2004-2008-cı illərdə regional inkişaf üzrə Dövlət Proqramı bütün əsas sahələr və göstəricilər üzrə müvəffəqiyyətlə yerinə yetirilmiş, sosial-iqtisadi inkişafda yeni keyfiyyət dəyişiklikləri əmələ gəlmişdir. Bu keyfiyyət dəyişiklikləri öz ifadəsini iqtisadiyyatın inkişafında, ÜDM istehsalının çox böyük sürətlə artmasında, kütləvi yoxsulluğun və onun ictimai partlayış yaratmaq qorxusunun aradan qalxmasında, iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun və yerli investisiya mənbələrinin rolunun artmasında, real sektorun inkişafına yönələn investisiyanın xüsusi çəkisinin yüksəlməsində tapır. Bütün bunlar isə Respublikanın regional inkişaf siyasətinin təkmilləşməsini, investisiya siyasətinin dəyişən şəraitə uyğunlaşdırılmasını və bir çox digər problemlərin həllini tələb edir.

## 2.3. Sosial-iqtisadi inkişafın və investisiya siyasətinin yeni prioritetlərinin yaranması

2004-2008-ci illərdə regionların inkişafı üzrə Dövlət Proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi və ölkənin iqtisadi inkişafında baş vermiş keyfiyyət dəyişiklikləri sosial-iqtisadi inkişaf siyasətini və investisiya prioritetlərini xeyli dəyişməyi və təkmilləşdirməyi tələb edir. Ölkə Prezidenti cənab İlham Əliyev Yaponiya Forumundakı nitqində bu problem üzrə Azərbaycan Dövlətinin mövqeyini ifadə edərək demişdir: «Enerji kompleksində artıq məsələ həll olunmuşdur.... İndi prioritet sahə kimi əsas diqqət qeyri-neft sektorunda sahibkarlığın inkişafına, infrastruktur sahələrinə, regional inkişaf proqramlarına və yeni iş yerlərinin açılmasına veriləcək». Bakıda 2007-ci ilin fevral ayında Gülüstan sarayında regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının (2004-2008-ci illər) 2004-2006-cı illərdə yerinə yetirilməsi yekunlarına həsr olunmuş ümumrespublika konfransında Prezident bundan sonra da qeyri-neft sektorunda sahibkarlığın, informasiya texnologiyalarının prioritet sahə kimi inkişafına xüsusi qayğı göstərəcəyini bildirmişdir.

Bu konseptual xarakterli fikirlər Azərbaycanın müasir sosial-iqtisadi inkişaf və investisiya siyasətinin əsaslarını müəyyən edir. Bu fikirlərə istinad edərək demək olar: Əvvəla, 2006-cı ildən başlayaraq qeyri-neft sektoru prioritet sahəyə çevrilir və sosial-iqtisadi inkişafın ***ağırlığı yanacaq - enerji kompleksindən qeyri-neft sektorunun üzərinə keçirilir.***

İkinci, təkcə ölkə miqyasında deyil, iqtisadi rayonlar, şəhərlər və inzibati rayonlar miqyasında regional inkişaf

proqramlarının hazırlanması və icrası iqtisadiyyatın inkişafının və yeni iş yerlərinin açılmasının başlıca vasitəsinə çevrilir.

Üçüncü, Azərbaycanın investisiya siyasəti köklü dəyişikliyə uğrayır və təkmilləşir.

Azərbaycanın investisiya siyasəti 2006-cı ilə qədər obyektiv səbəblərə görə ölkə iqtisadiyyatının inkişafı üçün əsasən neft sənayesinə qoyulan xarici investisiyaya üstünlük verirdi. 2006-2007-ci illərdən daxili investisiya mənbələrinə ***və əsasən qeyri-neft sektoruna qoyulan xarici sərmayələrə üstünlük verilməli və daxili investisiya mənbələrinin daha geniş miqyasda səfərbərliyə alınması istiqamətinə yönəlməlidir.*** Bu siyasətin bir çox səbəbləri var:

Əvvəla, 2004-2006-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafında müsbət dəyişikliklər baş vermiş və neft sənayesində xarici investisiyaya olan tələbat azalmışdır. ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ifadəsilə desək Azərbaycanın «Enerji kompleksində artıq məsələ həll olunmuşdur». Yəni xarici investisiyaları cəlb etməklə Azərbaycanın zəngin neft-qaz ehtiyatlarından geniş miqyasda istifadə etmək və çıxarılan nefti xarici bazarda satmaqla gəlir əldə etmək və bunu iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yönəltmək kimi strateji problemin böyük xarici investisiya tələb edən hissəsi həll olunmuşdur.*** Neft sektoruna milyard dollarla xarici sərmayə cəlb olunmuşdur. Əsrin müqaviləsində nəzərdə tutulan «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının neft ehtiyatları geniş miqyasda istifadə olunur. Neft hasilatı 2005-ci ildə 22,2 və 2006-cı ildə daha çox 32,2 mln. ton və 2008-ci ildə 44,5 mln. ton, qaz hasilatı 16,3 mlrd. $m^3$ olmuşdur. Nefti ixrac etmək üçün Bakı - Tbilisi – Ceyhan əsas neft ixrac

boru kəməri və qazı ixrac etmək üçün Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi başa çatmışdır. Beləliklə, Əsrin müqaviləsindən irəli gələn neft hasilatı və ixracı ilə bağlı çoxlu xarici sərmayə tələb edən vəzifələr yerinə yetirilmişdir. Nəticədə neft sənayesində xarici investisiyalara ehtiyac azalır, həm də eyni zamanda iqtisadiyyatımıza yönəldilən xarici investisiyaların həcminə görə Azərbaycan MDB məkanında öncül yer tutur və buna görə də xarici investisiyaya olan ümumi və kəskin tələbat azalır.

Son illərdə xarici investisiya qoyuluşunun artımı başlıca olaraq 2004-2005-ci illərə, yəni Bakı - Tbilisi - Ceyhan əsas neft ixrac boru kəmərinin intensiv çəkildiyi illərə təsadüf edir. 2005-ci ildən sonra xarici investisiya qoyuluşunun azalma meyli olması müşahidə olunur. Belə ki, xarici investisiya qoyuluşu 2005-ci ildə 2004-cü ilə nisbətən çox az artmış, 2006-cı ildə isə 2005-ci ilə nisbətən 5,5% azalmışdır. ***Nəticədə əsas kapitala yönəlmiş investisiyaların içərisində xarici investisiyaların xüsusi çəkisi azalaraq 2005-ci ildəki 63,5%-dən 2006-cı ildə 53,5%-ə düşmüş, əksinə daxili sərmayələrin xüsusi çəkisi artaraq 46,5%-ə çatmışdır.*** Sonrakı illərdə də xarici investisiyanın azalması prosesi davam etmişdir. Belə ki, daxili investisiya qoyuluşunun sürətlə artması nəticəsində xarici investisiyanın ümumi investisiya qoyuluşunda xüsusi çəkisi 2008-ci ildə 22,5 %-ə düşmüşdür.

Proqnozlara görə yaxın illərdə xarici investisiya qoyuluşunun sürətlə artması gözlənilmir, əslində buna ehtiyac da yoxdur. Lakin ümumi investisiya qoyuluşu içərisində daxili mənbələr hesabına investisiya qoyuluşunun xüsusi çəkisinin sonrakı illərdə artması üçün əlverişli şərait yaranmışdır. Belə ki, 2007-2008-ci illərdə Respublikada kifayət qədər

investisiya imkanları yaranmışdır. Bunlar dövlət büdcəsindən, Dövlət Neft Fondunun vəsaitindən, Mərkəzi bankın valyuta ehtiyatından, Sahibkarlığa Kömək Milli Fondunun vəsaitindən, bələdiyyələrin, müəssisə və təşkilatların, əhalinin, özəl bankların və i.a. sərəncamında toplanmış vəsaitlərdən ibarətdir.

Azərbaycanın valyuta ehtiyatı və Neft Fondunun vəsaiti sürətlə artır. Neft sazişlərindən götürülən ümumi gəlir tədricən artmış və ölkənin valyuta ehtiyatının artmasının ən mühüm mənbəyinə çevrilmişdir. Valyuta ehtiyatı, xüsusilə Neft Fondu ölkənin strateji resursudur. ***O, bir tərəfdən gələcək nəsillər üçün saxlanılır, digər tərəfdən Azərbaycanın ən önəmli məsələlərinin həlli üçün istifadə olunmalıdır. 2005-ci ilin sonunda ölkənin xarici borcları cəmi 1650 milyon dollar olub ÜDM-in 12,8%-i təşkil edirdi, başqa sözlə valyuta ehtiyatı borcdan 744 mln. dollar çox idi ki, bu da ölkənin borc ödəmə qabiliyyətinin kifayət qədər yüksək olduğunu göstərirdi. Sonrakı illərdə də bu istiqamətdə mütərəqqi dəyişikliklər davam etmişdir.***

Dövlət büdcəsinin gəlirləri mütəmadi olaraq artır. Həm də dövlət büdcəsi sosial yönümlü olsa da onun gəlirlərinin və xərclərinin strukturunda real sektorun inkişafında rolunun artması istiqamətində mütərəqqi dəyişikliklər baş verir. Bunu belə bir fakt bir daha təsdiq edir ki, 2005-2006-ci illərdə qeyri-neft sektorundan büdcəyə vergi daxil olmaları artmışdır, eyni zamanda qeyri-neft sektorundan büdcəyə vergi gəlirləri tapşırıqları artıqlaması ilə yerinə yetirilmişdir, sənaye və tikintidən daxil olan vergilər daha sürətlə artır. Bunlar qeyri-neft sektorunda müəssisələrin maliyyə vəziyyətinin sabitləşdiyini və yaxşılaşdığını, istehsal və xidmət fəaliyyətini həyata keçirmək üçün onlarda əhəmiy-

yətli dərəcədə maliyyə resursu toplandığını göstərir.

2008-ci ildə əsas kapitala yönəlmiş sərmayənin 47,8%-i ***müəssisə və təşkilatların, 4,8%-i bank kreditlərinin, 38,8%-i büdcə vəsaitlərinin, 3,0%-i əhalinin şəxsi vəsaitlərinin payına düşmüşdür. Dövlət büdcəsindən əsas kapitala investisiya qoyuluşunun yaxın illərdə sürətlə artacağını gözləməyə tam əsas var. Belə ki, əsas kapitala dövlət büdcəsindən investisiya qoyuluşu 2005-ci ilə nisbətən 2006-cı ildə 1,9 dəfə artaraq 847,6 milyon manata çatmış, 2007-ci ildə 2,2 dəfə, 2008-ci ildə isə 1,6 dəfə artmışdır.***

Bütün yuxarıdakılardan belə qənaətə gəlmək olar ki, Azərbaycanın daxili investisiya mənbələri kifayət qədərdir və səmərəli, məqsədyönlü istifadə edildiyi şəraitdə milli iqtisadiyyatın investisiya problemlərinin həlli üçün müstəsna əhəmiyyət kəsb edə bilər.

Prezident İlham Əliyev bunu nəzərdə tutaraq hələ 2006-cı ilin mart ayında Yaponiya Forumundakı nitqində demişdir: «Azərbaycanın xarici sərmayələrdən asılı olduğu dövr artıq başa çatır. İndi bizim özümüzün sərmayə proqramlarımız artır (enerji, infrastruktur, yollar çəkilməsi, kommunikasiyalar, sosial infrastruktur, məktəb tikintisi və i.a.). Bu proqramlar əsasən özümüzün maliyyə resurslarımıza əsaslanacaq. Daxili mənbələrdən onlara milyonlarla dollar vəsait ayrılır. Lakin xarici sərmayədarların bu proqramlarda iştirakını dəstəkləyirik. Bu proqramlarımızın yerinə yetirilməsini sürətləndirər. Azərbaycan dövləti qeyri-neft sektorunun inkişafında xarici sərmayəçilərlə müqabil tərəf kimi birgə işləməyə hazırdır»[1].

***Beləliklə, bu mərhələnin əsas spesifik xüsusiyyətləri***

---

[1] «Respublika» qəzeti, 12.03.2006-cı il. səh.1.

***neft sənayesinə diqqəti azaltmadan iqtisadiyyatın inkişaf mərkəzinin qeyri-neft sektorunun, investisiya ağırlığının isə daxili investisiya mənbələrinin üzərinə keçirilməsidir. Xarici investisiyaların mənbələri isə xarici neft şirkətlərindən, xarici qeyri-neft sektoru şirkətlərinin üzərinə keçirilir. Azərbaycan hökuməti milli tərəfdaş kimi xarici sərmayədarlarla, şirkətlərlə işləməyə hazır olduğunu bildirir.***

İndi regionlarda infrastrukturun öyrənilməsi və inkişafı məsələlərinə hökumətin, iş adamlarının və alimlərin birgə səylərinin cəlb olunmasına tələbat artır.

Mühüm vəzifələrdən biri dövlət büdcəsi vəsaitindən iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə etməkdir. Dövlət büdcə vəsaiti sürətlə artır. 2006-cı ildə dövlət büdcəsinin gəlirləri 88,8% artaraq 3881,2 milyon manat olmuşdur. 2007-ci ildə büdcə gəlirləri 6,0, 2008-ci ildə 10,8 mlrd. manat olmuşdur. Büdcə sosial yönümlü olduğundan onun 50%-ə qədəri sosial tədbirlərə sərf olunmuşdur. Bununla belə keçən ilə nisbətən büdcədən istehsal sahələrinin inkişafına ayrılan hissə 1,8 dəfə artırılmışdır. Neft Fondundan büdcəyə transfertlər də artacaq (2009-cu ildə büdcə gəlirlərinin 50,3%-ə qədərini Neft Fondunun transfertləri təşkil edirdi). Belə şəraitdə hökumətin qeyri-neft sektorunun inkişafında xarici sahibkarla tərəfdaşlıq etməsinə real şərait yaranır. Sahibkarlığa Kömək Milli Fonduna büdcədən ayrılan vəsait 2006-cı ildən sonra daha sürətlə artmağa başlamışdır.

Neft Fondu təkcə indiki nəslin deyil, həm də gələcək nəsillərindir. Onu ən vacib məsələlərin həllinə yönəltmək lazımdır. Lakin bunun üçün Neft Fondunun idarə olunması təkmilləşdirilməli, bu fonddan yalnız sosial sferanın inkişa-

fı üçün deyil, həm də tədricən Respublika iqtisadiyyatının sənaye, kənd təsərrüfatı, nəqliyyat və real sektorun başqa sahələrində istifadə imkanları və ardıcıllığının müəyyən olunması istiqamətində təşkilatı işlər görülməsi məqsədəuyğundur.

Daxili investisiyada əhalinin əmanətlərinin səfərbərliyə alınması çox mühüm rol oynamalıdır.

Əhalinin bank əmanətlərinin həcmi 2006-cı ildə 2005-ci ilə nisbətən 65,7% artaraq 819,5 milyon manat olmuşdur. Bununla belə 2005-ci ilə nisbətən onun ümumi investisiyada xüsusi çəkisi azalmışdır. Bütün investisiyanın 2004-cü ildə 7,5%-i, 2005-ci ildə 9,1%, 2006-cı ildə 5,3%-i, 2008-ci ildə 3,0%-i əhalinin əmanətlərinin payına düşmüşdür. Bu MDB üzvü olan ölkələr içərisində aşağı göstəricilərdən biridir. Əhalinin əmanətləri onun pul gəlirlərinin cəmi 2,5%-i, Respublikada istehsal olunan ÜDM-in 4,0%-i təşkil edirdi.

Məlumat üçün deyək ki, Avropa ölkələrində əhalinin banklarda əmanətlərinin məbləği təqribən ölkədə istehsal olunan ÜDM-ə bərabər olur. Yaponiya, ABŞ kimi ölkələrdə isə ölkədə istehsal olunan ÜDM-dən bəzən iki dəfə çox olur. Əhalinin müvəqqəti sərbəstləşən pul vəsaitlərinin səfərbərliyə alınması və səmərəli istifadəsi respublika regionlarının investisiya imkanlarını xeyli artırar, regionların inkişafına müsbət təsir edərdi.

Respublikada 2004-2008-ci illərdə bank aktivlərinin ümumi həcmi ildən-ilə artmışdır. Lakin bu aktivlərin məbləği nisbətən az olub, ÜDM-in 12,1%-i, 13,3%-i təşkil etmişdir. Regionlarda bank aktivlərinin artmasına və əhalinin əmanətlərinin səfərbərliyə alınmasına daha ciddi fikir verilməlidir. Bunun üçün başqa tədbirlərlə yanaşı əsas bank-

ların rayon və şəhərlərdə filiallarının artırılması vacibdir.

Hələ 2006-cı ilin ortalarında ölkəmizdə 129 kredit təşkilatı, o cümlədən 44 bank vardı. Şübhəsiz ki, bunların sayı sonrakı illərdə artmışdır. Lakin onlar Respublikanın ərazisində qeyri münasib yerləşmişdir. Məlumdur ki, Respublikada 66 kənd rayonu, 69 şəhər, o cümlədən 9 respublika tabeliyində şəhər, 13 şəhər rayonu var. Kredit verən bankların sayı isə cəmi 44-dür. Bankların yerləşməsi üçün əhalinin sayı, pul gəlirləri, müəssisələrin sayı və yerləşməsi vəziyyəti əsas amildir. Bu baxımdan şəhərlərin və inzibati rayonların sayına nisbətən bankların sayı çox azdır, həm də təbii ki, onlar əsasən Bakı, Gəncə, Sumqayıt kimi şəhərlərdə cəmlənmişdir və əhalinin pul vəsaitlərini səfərbərliyə almaq üçün kifayət etmir. Görünür dövlətin pul-kredit siyasətində, bankların ərazi təşkili məsələsinə diqqət artırılmalıdır.

## III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009-2013-CÜ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI

### 3.1.Dövlət proqramının məqsəd və vəzifələri, birinci proqramla ümumi və fərqli cəhətləri

Əvvəlki proqramdan fərqli olaraq ikinci (regional inkişaf) proqramı (2009-2013-cü illər) işsizlik, yoxsulluq, ərzaq təhlükəsi problemləri öz kəskinliyini itirmiş olduğu, eyni zamanda dünya maliyyə böhranı davam etdiyi şəraitdə qəbul edilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi böhranın davam etdiyini nəzərə alaraq bu proqramda iqtisadiyyatın davamlı inkişafı və hər il ÜDM-in artmasının təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulmuşdu. Bununla yanaşı bu proqramın qarşısında əvvəlki proqramın yerinə yetirilməsi nəticəsində əldə olunmuş nailiyyətləri möhkəmlətmək üçün qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın strukturunun təkmilləşməsi, davamlı sosial-iqtisadi inkişafın və tarazlı regional inkişafın təmin edilməsi və bu əsaslarda əhalinin həyat səviyyəsinin yaxşılaşması məqsədləri qoyulmuş və müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Bu proqramın qəbulundan keçən 4 ilin nəticələri göstərir ki, birinci proqram kimi bu proqramda qarşıya qoyulan vəzifələr də müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) müvəffəqiyyətlə yerinə yetirilməsi Azərbaycanda iqtisadi sahədə keçid dövrünün başa çatmasını, işsizliyin, yoxsulluğun azalmasını, güclü infrastruktur şəbəkəsinin yaranmasını,

Azərbaycanın maliyyə imkanlarının genişlənməsini, neft strategiyasında qarşıya qoyulan vəzifələrin birinci mərhələsinin yerinə yetirlməsini və digər məsələlərin həllini təmin etdi. Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafına, işsizliyin və yoxsulluğun daha aşağı salınmasına, iqtisadiyyatın inkiaşfında daxili investisiyanın rolunun artmasına və ümumiyyətlə əvvəlki proqramın davamı olmaqla "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbul edilməsinə və qarşıya yeni vəzifələr qoyulmasına şərait yaratdı. Bu proqram Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq olunmuş və icrasına başlanmışdır.

Bu proqram Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında qarşıya qoyduğu uzun müddətli strateji vəzifənin –"Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi" vəzifəsinin mərhələ-mərhələ yerinə yetirilməsi mənafeyinə uyğun olaraq qəbul edilmişdir.

Bu sənəddə ölkəmizin, onun ayrı-ayrı regionlarının 2009-2013-cü illər sosial-iqtisadi inkişafının məqsəd və vəzifələri, əsas istiqamətləri öz əksini tapmışdır. Proqram haqqında geniş danışmazdan əvvəl onun Azərbaycan iqtisadiyyatının proqramlarla dövlət tənzim və idarə olunmasında yerini müəyyən etmək vacibdir.

Regional inkişaf üzrə hər bir Dövlət proqram strateji vəzifəyə uyğun olaraq qarşıya qoyulan konkret vəzifələrin yerinə yetirilməsində özünə məxsus xüsusiyyətləri olan xüsusi bir mərhələdir. Eyni zamanda bütün proqramlar

vahid strateji vəzifənin yerinə yetirilməsinə xidmət etdiyindən məqsəd və vəzifələrinə görə bir-birini tamamlayır. Onlar arasında sıx əlaqə, varislik və vəzifələrin qarşıya qoyulması və yerinə yetirilməsi baxımından ardıcıllıq var. Beləliklə proqramın təhlilinə iki istiqamətdə yanaşmaq doğru olar:

1) Əvvəlki proqramın davamı, nəticəsi və varisi kimi;
2) Uzun müddətli sosial-iqtisadi inkişaf strategiyasının yerinə yetirilməsində xüsusi bir mərhələni əks etdirən özünə məxsus xüsusiyyətləri, məqsəd və vəzifələri olan bir mərhələ kimi.

Beləliklə, regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı birinci növbədə əvvəlki proqramın yerinə yetirilməsi yekunlarına istinad edir, onun yerinə yetirilməsi gedişində qarşıya çıxan yeni problemlərin həllinə yönəlmişdir. Bu barədə yeni proqramın giriş hissəsində göstərilir: «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər)» və «Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı» çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtsiadi inkişafı Dövlət Proqramı» hazırlanmışdır. Buna görə də hər iki proqram arasında oxşar cəhətlər var: Hər iki proqram Prezident İlham Əliyevin müəyyən etdiyi strateji vəzifənin yerinə yetirilməsinə xidmət edir. Odur ki, 2009-2013-cü illər Dövlət Proqramının birinci bölməsində "Regionların sosial-iqtisadi inkişafı üzrə əvvəlki Dövlət Proqramının (2004-2008-ci illər)" yerinə yetirilməsi nəticələri geniş təhlil olunur və ümumiləşdirilir. Göstərilir ki, 2004-2008-ci illərdə Dövlət

proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində ölkəmizdə iqtisadi islahatlar həyata keçmiş, ölkənin makroiqtisadi inkişaf göstəriciləri sürətlə artmışdır, bazar iqtisadiyyatına keçid əsasən təmin edilmişdir: istehsal, mülkiyyət, bölgü və mübadilə prosesində bazar münasibətləri hökmran xarakter daşıyır, ölkənin investisiya imkanları genişlənmiş, o, kapital idxal edən ölkədən kapital ixrac edən ölkəyə çevrilmiş, işsizlik və yoxsulluq probleminin həllində ciddi addımlar atılmış, yoxsulluq özünün əvvəlki siyasi məzmununu itirmiş, əhalinin həyat səviyyəsinin yüksəlməsi probleminin tərkib hissəsinə çevrilmişdir. Ən mühüm nailiyyətlərdən biri neft strategiyasının müvəffəqiyyətlə həyata keçməsi, Neft fondunun vəsaitlərinin artması və regionlarda infrastruktur sahələrinin geniş və müasir şəbəkəsinin formalaşmasıdır.

Prezident İlham Əliyev Davos iqtisadi forumunda çıxışında və müsahibələrində Azərbaycanın maliyyə imkanlarının artmasını, enerji və maliyyə ehtiyatları baxımından özünü təmin etmiş olmasını, neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi və regionlarda infrastruktur sahələrinin geniş və müasir şəbəkəsinin formalaşmasını Dövlət proqramının yerinə yetirilməsinin respublika iqtisadiyyatının gələcək inkişafına təsir edən və dövlətin cari beşillikdə regional siyasətinin istiqamətlərini müəyyən edən ən mühüm uğurlar kimi qiymətləndirmişdir.

İndi əsas vəzifə ondan ibarətdir ki, yaranmış əlverişli şəraitdən – geniş maliyyə-investisiya imkanlarından, əlverişli sahibkarlıq mühitindən, güclü infrastrukturdan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafında, əhalinin həyat səviyyəsinin yüksəlməsində və işsizliyin aradan qaldırılmasında yeni daha mü-

hüm addımlar atılsın. Məhz "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" bu cəhətdən xarakterik olub, öz məqsəd və vəzifələrinin xarakterinə görə əvvəlki Proqramın davamıdır.

Proqramın əvvəlki proqramda başlanmış işlərin davam etdirilməsi forması olması hər iki proqramın hazırlanma metodologiyası və nəzərdə tutulan tədbirlərin qruplaşdırılması formasının eyni olmasından da aydın görünür. Belə ki, hər iki proqramda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər üç qrupa bölünür: Respublika miqyaslı, iqtisadi rayon miqyaslı və inzibati-ərazi vahidləri (inzibati rayon və şəhər, şəhər daxili rayonlar) miqyasında tədbirlər. Yerinə yetirilməsinə dövlətin münasibəti baxımından da hər iki prqramda tədbirlər iki qrupa bölünür:

1) Yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər və onlarla bağlı siyasət;

2) Yerinə yetirilməsi dövlət tərəfindən dəstəklənən tədbirlər və bununla bağlı siyasət. Bununla bağlı hər iki proqramın məqsədlərində də oxşar cəhətlər var. Belə ki, hər iki proqramda qeyri-neft sektorunun sürətli inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşması, ixrac yönümlü məhsulun artırılması, sahibkarlıq mühitinin yaxşılaşması mühüm vəzifə kimi qarşıya qoyulur.

Qeyd etməyi vacib bilirik ki, bu sonuncular onu göstərir ki, hər iki proqram əslində Azərbaycan hökumətinin cari beş ildə sosial-iqtsiadi inkişaf siyasətinin əsas istiqamətlərini əks etdirir və onun yerinə yetirilməsi gedişində əlavə tədbirlər görülməsinə ehtiyac yarana bilər.

Bunlarla yanaşı bu iki proqram arasında, hətta onların oxşar cəhətləri arasında əsaslı fərqlər də var. İkinci proq-

ram birinci proqramın yerinə yetirilməsi yekunlarına istinad edir, qarşıya çıxan yeni problemlərin həllinə yönəlmişdir və bu baxımdan əvvəlkindən tamamilə fərqlənir. *Bu baxımdan 2009-2013-cü illəri əhatə edən Dövlət proqramı (ikinci proqramı) prezident İlham Əliyevin müəyyən etdiyi strategiyanın yerinə yetirilməsində özünə məxsus xüsusiyyətləri olan xüsusi bir mərhələdir.* Bu iki proqram arasında olan fərqlər birinci növbədə onun məqsədlərində özünü göstərir.

Proqramda bir-birilə qarşılıqlı əlaqədə olan beş məqsəd qarşıya qoyulur və bu məqsədlərə çatmaq üçün beş qrup tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

1) qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi;
2) iqtisadiyyatın diversifikasiyası;
3) davamlı sosial-iqtisadi inkişaf;
4) tarazlı regional inkişaf;
5) əhalinin həyat səviyyəsinin yaxşılaşmsına nail olmaq.

Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün yerinə yetirilməsi vacib bilinən tədbirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İnfrastruktur sahələrinin inkişafı və xidmətin yaxşılaşdırılması ilə əlaqədar tədbirlər;
2. Ölkənin təbii və əmək potensialından səmərəli istifadə və qeyri neft sektorunun sürətli inkişafını təmin edən tədbirlər;
3. Maliyyə-investisiya resurslarından səmərəli istifadə və makroiqtisadi sabitliyi təmin edən tədbirlər;
4. sahibkarlığın inkişafı və sahibkarlıq mühitin yaxşılaşması ilə əlaqədar tədbirlər.

5. Sosial təminatın yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin aşağı salınması tədbirləri

Proqramda qarşıya qoyulan bu məqsədlər və görülən tədbirlər əvvəlki proqramda qarşıya qoyulanların davamıdır, lakin bu məqsədlərlə tədbirlərin xarakteri əvvəlkindən xeyli fərqlənir və onlara çatmaq üçün yerinə yetirmək lazım gələn vəzifələr də fərqlənir.

*Əvvəla, əvvəlki proqramda olduğu kimi, yeni proqramda da qeyri-neft sektorunun sürətli inkişafı ön plana çəkilir.* Lakin burada əsas fərq ondan ibarətdir ki, əvvəlki proqramda qeyri-neft sektorunun inkişafında üstünlük əsasən neft strategiyasının reallaşmasından ölkə büdcəsinə daxil olan gəlir hesabına infrastruktur və xidmət sahələrinin üstün inkişafına verilirdi. Xidmət sahələrinin, infrastruktur sahələrinin (məktəb, yol, körpü, enerji, su təchizatının yaxşılaşması, idman kompleksləri tikintisi, turizmin inkişafı) sürətli inkiaşfı regionların investisiya mühitini yaxşılaşdırmalı və bununla da iqtisadiyyatın real sektorunun gələcək inkişafına şərait yaratmalı idı. Bu proqramda isə iqtisadiyyatın inkişafının təmin edilməsi üçün ölkənin təbii əmək *rusurslarından səmərəli istifadə*, kənd təsərrüfat və emal sənaye sahələrinin inkişafı və makroiqtisadi sabitliyin davam etdirilməsi ön plana çəkilir. Kənd təsərrüfatında isə əsasən iqtisadi rayonun xüsusiyyətindən asılı olaraq keçmişdə inkişaf etmiş (ixtisaslaşmış) kənd təsərrüfatı sahələrinin (pambıqçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, tərəvəzçilik) inkişafı və müvafiq emal sənayesinin inkişafı dövlət tərəfindən dəstəklənir. Rayonların hamısında tikinti materialları istehsalının inkişafı nəzərdə tutulur və ya dəstəklənir. *Beləliklə, qeyri-neft sektorunun sürətli inkişafı üçün kənd təsərrüfatının bütün sahələrinin və emal sənaye-*

*sinin, tikinti materialları istehsalının inkişafı prioritet sahə hesab olunur. Bütün bunları təmin etmək üçün kənd təsərrüfatına dövlət qayğısının və bu sahəyə birbaşa subsidiyaların artırılması, emal müəssisələrinin yaradılmasına investisiyaların cəlb edilməsi, qeyri neft, qeyri-xammal sənaye sahələrinin, turizmin inkişafı prioritet istiqamət kimi müəyyən olunur.*

Beləliklə, bu proqramın əvvəlki proqramdan birinci və əsas fərqli xüsusiyyəti iqtisadiyyatın daha çox sahələrinin kompleks inkişafının diqqət mərkəzində durması, regionların istehsal potensialının hərəkətə gətirilməsində ağırlıq mərkəzinin qeyri-neft sektorunun kənd təsərrüfatı və onun xammalını emal edən sahələrinin üzərinə keçməsidir. Bunu həm Respublika miqyaslı tədbirlərin (58-46-ya qarşı) həm də region miqyaslı tədbirlərin ümumi sayının (1008-668-ə qarşı) əvvəlki proqramda olduğuna nisbətən çox olması da təsdiq edir. Eyni zamanda, regionlar üzrə tədbirlərin sayı da əvvəlki proqramda olduğuna nisbətən çoxdur. Bakı-40, Abşeron-55, Aran-278, Dağlıq Şirvan-69, Qəncə-Qazax-174, Quba-Xaçmaz-91, Lənkəran-Astara-96, Naxçıvan-46, Şəki-Zaqatala-107, Yuxarı Qarabağ-52. Tədbirlərin sayının belə çox olması bu tədbirlərin iqtisadiyyatın və təsərrüfat fəaliyyətinin daha çox sahəsini əhatə etməsilə, xüsusilə bu proqramda infrastruktura sahələrilə yanaşı real sektora aid sahələrin inkişafına, kənd təsərrüfatının ixtisaslaşmış sahələri və onların xammalını emal sahələrinin inkişafına daha geniş yer verilməsi, sahibkarlıq mühitinin yaxşılaşması ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı və emal sənayesinin inkişafı və sahibkarlığın inkişafının dəstəklənməsi həm region miqyasında, həm də ölkə əhəmiyyətli tədbirlərdə prioritet isti-

qamət təşkil edir. Belə ki, nəzərdə tutulan 58 ölkə miqyaslı tədbirdən 17-i kənd təsərrüfatı, digərləri vergi, kredit təminatının yaxşılaşdırılması, xidmət sahələrinin (enerji, su, yol, qaz) yaxşılaşdırılması ilə əlaqədardır. Regionlarda nəzərdə tutulan tədbirlərin strukturu da buna bənzərdir. Bu o deməkdir ki, siyasət kənd təsərrüfatı, emal sənaye və xidmət sahələrini kompleks inkişaf etdirməyə yönəldilmişdir. İqtisadiyyat həm sahə, həm də ərazi baxımından şaxələnməli, sahələr arası və regionlararası əlaqələrin inkişafına tədricən şərait yaradılmalıdır.

***İkinci*** mühüm xüsusiyyət regionlarda tarazlı inkişafın təmin edilməsidir. Əvvəlki proqramda da bütün regionlar sürətlə inkişaf etmişdir. Lakin neft-qaz hasilatının daim artması və onun da Bakı şəhəri və onun ətrafında cəmləşməsilə əlaqədar olaraq istehsal potensialının Bakı və onun ətrafında cəmlənməsi prosesi davam etmişdir. Nəticədə Bakı şəhərinin ümumi daxili məhsul istehsalında xüsusi çəkisi aşağı düşməmişdir. Lakin hazırda neft hasilatı sabitləşir, qeyri neft sektorunun isə inkişafının sürətlənməsi nəzərdə tutulur. Qeyri-neft sektoru, xüsusilə kənd təsərrüfatı və onun xammalını emal edən sahələr əsasən Bakı şəhərindən kənar iqtisadi rayonlarda cəmlənmişdir. Beləliklə, qeyri neft sektorunun sürətli inkişafı Bakı şəhərindən kənar iqtisadi rayonların sürətli inkişafı deməkdir ki, bu da onların Respublika daxili ümumi məhsul istehsalında xüsusi çəkisinin artmasına səbəb olacaq. Bakı şəhəri inkişaf edəcək. Lakin iqtsiadi rayonlar daha sürətlə inkişaf edəcək. Təsadüfi deyil ki, həyata keçirilməsi nəzərdə tutulan 1008 tədbirin yalnız 40-ı Bakı şəhərinin payına düşür. Nəticədə istehsal potensialında nisbətlər regionların xeyrinə dəyişməyə başlayır.

Beləliklə, yeni proqramın regionların istehsal potensialının hərəkətə gətirilməsində keyfiyyətcə yeni mərhələ olması bir daha təsdiqlənməkdədir. Regionların tarazlı inkişafının ikinci mühüm xüsusiyyəti əvvəlki proqram dövründə inkişaf sürəti nisbətən geri qalan və kənd təsərrüfatı və emal sənayesinin inkişafında mühüm yer tutan Aran, Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonlarının daha sürətlə inkişafının nəzərdə tutulmasıdır. Həyata keçirilməsi nəzərdə tutulan 1008 tədbirin 559-u və ya 55,5 %-i bu üç iqtisadi rayonun payına düşür. Bu rayonlarda həyata keçirilən tədbirlərin növləri də çoxdur.

***Üçüncü*** vacib xüsusiyyət davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məsələsidir. Bu məsələnin proqramın məqsədində ayrıca göstərilməsi heç də təsadüfi deyil. Əvvəla, birinci proqramın yerinə yetirilməsi nəticəsidir. İkincisi, dünyada gedən qlobal maliyyə-iqtisadi böhranla əlaqədardır. Real sektoru dünyada böhran bürüdüyü bir şəraitdə davamlı inkişafı qoruyub saxlamaq vacibdir və Azərbaycanda bunun üçün qabaqlayıcı tədbirlər görülmüşdür və lazım gələrsə yenə görüləcəkdir. Proqramın icra olunduğu bütün illərdə davamlı inkişaf təmin edilmişdir.

***Dördüncü*** fərqli prinsipial cəhət keçən proqramda son məqsəd kimi işlədilən işsizliyin və yoxsulluğun aradan qaldırılması əvəzinə əhalinin həyat səviyyəsinin yaxşılaşmasına nail olmaq ifadələrinin işlənməsidir. Əvvəlki proqramın yerinə yetirilməsi nəticəsində 746 min yeni iş yeri açılmış, yoxsulluq minimum səviyyəyə düşmüşdür. Bu o deməkdir ki, ölkəmiz yoxsulluq probleminin həllinin keyfiyyətcə yeni mərhələsinə daxil olubdur.

Yoxsulluq əvvəllər təkcə iqtisadi və sosial problem deyil, həm də kəskin siyasi problem idi, yəni siyasi partla-

yış, hakimiyyətə qarşı narazılıq mənbəyi idi. İndi bu kəskinlik aradan qalxmışdır. İndi əhalinin həyat səviyyəsini yüksəltmək probleminin daxili tərkib hissəsi kimi diqqəti cəlb edir. Proqramda həyat səviyyəsinin daha da yaxşılaşdırılması regionların tarazlı və davamlı sosial-iqtisadi inkişafının təmin edilməsinin son məqsədi kimi qarşıya qoyulur.

***Beşincisi,*** əvvəlki proqrama nisbətən yeni proqramın icrasına məsuliyyət daşıyan idarəetmə strukturları xeyli dəyişmiş, hökumətin yuxarı idarəetmə orqanlarının məsuliyyəti artırılmış, yerli idarəetmə orqanlarının məsuliyyəti məhdudlaşdırılmışdır. Belə ki, proqramda nəzərdə tutulan tədbirlərin icrası üçün məsuliyyət daşıyan təşkilatların siyahısında bələdiyyələr yoxdur, yerli icra hakimiyyəti orqanları isə yalnız xidmət sahələri üzrə, o da arabir, bir növ fasilələrlə məsuliyyət daşıyan təşkilatların siyahısına daxil edilib. Bunlar hər şeydən əvvəl onu göstərir ki, proqram birinci növbədə regionların inkişafı üzrə hökumətin sosial-iqtisadi inkişaf siyasətinin əsas istiqamətlərini əks etdirir. Bu istiqamətlərin icrası üçün birinci növbədə hökumət strukturları məsuliyyət daşıyırlar. İkincisi, cəmiyyətin idarə olunmasında demokratiyanın genişlənməsini, yerli hakimiyyət orqanlarının yerli əhəmiyyətli sosial-iqtisadi inkişaf məsələlərinin həllində müstəqilliyinin və məsuliyyətinin artırılmasını nəzərdə tutur, onların Dövlət Proqramlarını öz əsasnamələrini və mövcud qanunçuluğu əldə rəhbər tutaraq müstəqil fəaliyyət göstərmək imkanları genişlənir. Hər bir şəhər və ya inzibati rayonun özünün yerli əhəmiyyətli istehsal və xidmət sahələrinin inkişafı üzrə proqramı hazırlana bilər və ya hazırlanması vacibdir.

Nəhayət *altıncı*, əvvəlki proqramdan fərqli olaraq bu proqramda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin elmin inkişafı və ondan səmərəli istifadəsilə sıx əlaqələndirilmişdir. Proqramda göstərilir: elm sahəsində ən mühüm vəzifələrdən biri aparılan tədqiqatların praktiki əhəmiyyətinin artırılması, elmi tədqiqat və layihə institutları ilə təsərrüfat subyektləri arasında əlaqələrin daha sıx qurulmasının təmin edilməsindən ibarətdir. Proqramda elmi-texniki potensialın qorunub saxlanması və inkişaf etdirilməsi, kadr potensialının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və inkişaf etdirilməsi, ali məktəblərdə və elmi-tədqiqat müəssisələrində aparılan elmi tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi işinin gücləndirilməsi qarşıya mühüm vəzifələr kimi qoyulur. Proqramda elmin inkişafı istiqamətində müəyyən edilmiş vəzifələr aqrar-sənaye, iqtisadiyyatın dövlət tənzimlənməsi, yerlərdə dövlət və özünü idarəetmə sisteminin təkmilləşməsi istiqamətində praktiki əhəmiyyətli elmi-tədqiqat işlərinin genişlənməsi üçün yeni imkanlar açır.

Dövlət proqramında nəzərdə tutulan tədbirlər içərisində şübhəsiz ki, həlledici yeri **ölkə əhəmiyyətli tədbirlər tutur.** Bu tədbirlər, ölkə iqtisadiyyatının inkişafının istiqamətlərini və əhatə dairəsini müəyyən edir. Bu istiqamət müəyyən istisnalarla Respublikanın bütün regionlarına aiddir. Belə ki, həmin istiqaməti əldə rəhbər tutaraq hər bir regionun, şəhərin keçən illərdə formalaşmış istehsal potensialını nəzərə almaqla ayrı-ayrı sənaye sahələrinin (yüngül, yeyinti, kimya, metallurgiya, tikinti materialları və infrastruktura sahələrinin) inkişafı ya bir vəzifə kimi qarşıya qoyulur, ya dövlət tərəfindən dəstəklənir.

Ölkə əhəmiyyətli tədbirləri də iki qrupa ayırmaq olar:

1. Tənzimləyici xarakter daşıyan tədbirlər;
2. Respublikanın, o cümlədən regionların təsərrüfat və xidmət sahələrinin inkişafını bir vəzifə kimi qarşıya qoyan və reallaşmasını nəzərdə tutan tədbirlər.

Tənzimləyici xarakterli tədbirlər – vergi və pul-kredit siyasətinin təkmilləşməsilə əlaqədar olub sahibkarlıqda əlverişli rəqabət mühitinin formalaşması, vergi siyasətinin, onun əsas istiqamət, məqsəd və vəzifələrinin, eləcə də vergi dərəcələrinin sahələr və regionlar üzrə optimallaşdırılması tədbirləri nəzərdə tutur.

Azərbaycan regionlarının, xüsusilə dağlıq və aran regionlarının arasında təbii təsərrüfat şəraitində əsaslı fərqlər olduğundan vergi dərəcələrində regionlara diferensial yanaşmanın mühüm əhəmiyyəti olduğu məlumdur.

Bank-kredit əməliyyatlarının təkmilləşməsi, bank, sığorta, lizinq xidmətlərinin inkişaf etdirilməsi, bankların regionlarda yeni filiallarının açılması və filial şəbəkəsinin genişləndirilməsi, sahibkarların kredit resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi, poçt hesablaşmaları sisteminin yaradılması və buna müvafiq hüquqi-təşkilati və tənzimləmə prosedurlarının müəyyən olunması nəzərdə tutulur.

Sonrakı 8 qrup tədbirlər iqtisadiyyatın, infrastruktura sahələrinin inkişafı, əhalinin məşğulluq və həyat səviyyəsinin yüksəlməsi tədbirləridir. Bu tədbirlər bir qayda olaraq yerinə yetirilməsi nəzərdə tutulan və yerinə yetirilməsi dövlət tərəfindən dəstəklənən tədbirlərdir.

Qeyd etmək lazımdır ki, "qeyri-neft sektorunun inkişafının dəstəklənməsi" proqramda ayrıca qeyd olunur

(4.1-12).

Bu bütövlükdə respublika, sahə və region miqyasında qeyri-neft sektoruna aid olub proqramda qarşıya qoyulmuş qeyri neft sektorunun inkişafının sürətlənməsi məqsədinin reallaşmasına xidmət edir.

Bu tədbirlərin içərisində əsas yeri "sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi tədbirləri tutur. Bu tədbirləri də özlüyündə iki qrupa bölmək olar:

1. sənayeyə və kənd təsərrüfatına birlikdə aid olan tədbirlər
2. bu iki sahələrdən hər birinin ayrılıqda inkişafına aid olan tədbirlər.

Birinci qrupa sahibkarlığa göstərilən vergi xidmətlərinin yaxşılaşdırılması məqsədilə kompleks terminalların yaradılması, sahibkarlığın dəstəklənməsinin institusional mexanizminin yaradılması, aqrar sənaye kompleksi müəssisələrinə, fermer təsərrüatlarına dövlət maliyyə yardımının dəstəklənməsi aiddir.

Əgər bir qədər diqqətlə yanaşsaq sənayenin və kənd təsərrüfatının inkişafina aid tədbirlər böyük əksəriyyət etibarı ilə qeyri-neft sektoru ilə əlaqədardır.

Aqrar-sənaye müəssisələrinə, fermer təsərrüfatlarına dövlət maliyyə yardımını davam etdirmək, kənd təsərrüfatının texnikaya, mineral kübrələrə və pesdisidlərə olan tələbatının təminatının yaxşılaşdırılması bir vəzifə kimi qarşıya qoyulur:

- torpaqların texniki uçotunun elektron formatda aparılmasının, banitirovkanın, iqtisadi qiymətləndirilməsinin və xəritələşdirilməsinin təmin edilməsi;

- regionlarda kənd təsərrüfatı məhsullarının tədarükü üzrə infrastrukturun yaradılmasının və marketinq xidmət-

lərinin, kənd iəsərrüfatı məhsullarının daxili və xarici bazarlarda satılmasının, taxıl (xüsusilə, buğda) istehsalının, üzümçülüyün, meyvəçiliyin və digər çoxillik əkmələrin inkişafının, cins heyvandarlıq komplekslərinin inkişaf etdirilməsi və "aqrofermaların" yaradılmasının dəstəklənməsi;

- aqroemal müəssisələri şəbəkəsinin genişləndirilməsinin və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə mütərəqqi texnologiyanın tətbiqinin dəstəklənməsi;

- fermerlərin idarəetmə vərdişlərinin və biliklərinin artırılması məqsədilə təlimlərin, təcrübələrin yayımının və elmi-tədqiqatların həyata keçməsinin aqrar elmin maddi-texniki bazasının möhkəmlənməsi və aqrar sahə üçün müasir tələblərə cavab verən kadr hazırlığının dəstəklənməsi.

Bu baxımdan kənd təsərrüfatının ixtisaslaşmış və respublikanın tələbatını ödəyən sahələrinin inkişafının və bunların əsasında emal sənaye sahələrinin, xüsusilə, yüngül və yeyinti sənaye məhsulları istehsal müəssisələrinin inkişafı bütövlükdə kənd təsərrüfatı və sənayenin inkişafının ümumi istiqaməti kimi müəyyənləşdirilmişdir. Proqramda qeyri neft sektorunun inkişafının dövlət tərəfindən dəstəklənməsi ayrıca qeyd olunur və burda sənaye və kənd təsərrüfatının dəstəklənməsi tədbirlərinə daha çox diqqət verilir və inkişafın ağırlıq mərkəzi bu sahələrin üzərinə keçir. Ölkə miqyaslı tədbirin əksəriyyəti sənaye və kənd təsərrüfatında istehsalın genişləndirilməsilə əlaqədar tədbirlərdir. Bu onu göstərir ki, keçən proqramda olduğuna nisbətən yeni proqramda istehsalın bu iki mühüm sahəsinin inkişafına daha çox diqqət yetirilir.

Təbii fəlakət nəticəsində kənd təsərrüfatına dəyən zərərin aradan qaldırılması məqsədilə sığorta mexanizminin təkmilləşməsi, kənd təsərrüfatı məhsulunun istehsalı, tədarükü və emalı sahəsində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi xüsusi bənd kimi göstərilir. Bu da təsadüfi deyil. Əvvəlki proqramın yerinə yetirilməsi gedişi, son aylarda baş verən təbii fəlakətlər və kənd təsərrüaftının inkişafı mənafeyi yuxarıda göstərilən istiqamətlərdə tədbirlər görülməsini vacib vəzifə kimi qarşıya qoyur.

Dövlət Proqramının maliyyələşmə mənbələri öz tərkibi etibarı ilə əvvəlki proqramda olduğu kimi qalır. Bunlar dövlət büdcəsi, büdcədən kənar dövlət fondları, idarə, müəssisə və təşkilatların vəsaitləri, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun və Azərbaycan İnvestisiya Şirkəti ASC-nin vəsaitləri, yerli və xarici sahibkarların vəsaitləri, beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri, qanunvericiliklə qadağan olunmayan digər mənbələrdir. Lakin bunların arasındakı nisbətdə, xüsusilə daxili və xarici investisiya mənbələri arasındakı nisbətdə dəyişikliklər baş verəcəkdir. Ölkənin müasir investisiya yönümlü maliyyə siyasəti onun daxili maliyyə resurslarından səmərəli istifadəyə yönəlmişdir. Bu baxımdan Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində daxili maliyyə vəsaitlərinin xüsusi çəkisi məqsədyönlü formada artmağa meyilli olacaqdır.

Ekologiya və təbii sərvətlərdən istifadə tədbirləri 10 bənd üzrə göstərilmişdir: Bu tədbirlər şəhər və qəsəbələrin yaşıllaşdırılması materiallarının yetişdirilməsi, meşə salma və meşəbərpa tədbirləri, tez böyüyən ağac cinslərindən ibarət yeni meşə plantasiyalarının salınması, sel-daşqın təhlükəsi olan ərazilərdə meşə-bərpa tədbirlərinin davam etdi-

rilməsi, hidrometroloji tədbirlər əhalinin keyfiyyətli su ilə təminatının yaxşılaşdırılması məqsədilə modul tipli su təmizləyici qurğuların tikilməsi.

## 3.2. 2009-2012-ci illərdə Dövlət Proqramının yerinə yetirilməsinin ümumi sosial və iqtisadi yekunları

Artıq dörd ildən çoxdur ki, Azərbaycanda regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına aid ikinci Dövlət Proqramı icra olunmaqdadır. Əvvəlki proqramın icrası üçün həyata keçirilmiş bütün tədbirlər bu proqramın yerinə yetirlməsi üçün də bu və ya digər formada, mövcud tələbatdan, şəraitdən asılı olaraq az-çox həyata keçirilmişdir. Eyni zamanda əvvəlki proqram kimi bu proqramın icrası da daim Respublika Prezidentinin diqqət mərkəzində və nəzarətində saxlanmışdır. Prezident rayonlara mütəmadi səfərləri zamanı görülmüş işlərlə yerindəcə tanış olmuş, yerlərdə qarşıya çıxan problemləri həll etmək üçün 64 sərəncam imzalamış və 232,5 mln.manat əlavə vəsait ayırmışdır. Ayrı-ayrı müəssisələrin təməlqoyma və istifadəyə verilməsi mərasimlərində iştirak və çıxış etmiş, öz məsləhət və tapşırıqlarını vermişdir. Dövlət Proqramının yerinə yetirlməsi gedişi müxtəlif səviyyələrdə müzakirə olunmuş və müvafiq tədbirlər görülmüşdür.

Proqamın yerinə yetirilməsi gedişini şərh etməzdən əvvəl ümumiyyətlə, beşillik proqramlara münasibət haqqında bir neçə mülahizələrimizi bildirmək istəyirik.

Hər bir beşillik proqram birinci növbədə hökumətin ölkə daxilində beş il müddətində sosial-iqtisadi inkişaf siyasətinin əsas istiqamətlərini özündə əks etdirən çox

mühüm dövlət sənədidir. Sözün həqiqi mənasında hər bir beşillik proqramda bizim sərəncamımıza il ərzində regionlarımızın sosial-iqtisadi inkişaf istiqamətlərini aydın formada müəyyən etmiş, böyük səfərbəredici, təşkiledici və istiqamət verici qüvvəyə malik olan hərtərəfli əsaslandırılmış mükəmməl bir sənəd verilir və bu sənədlə bağlı bizim qarşımıza bir çox yeni vəzifələr çıxır.

*Əvvəla*, hər bir beşillik proqram bütün əhalinin, hər kəsin və bütün təşkilatların mənafeyilə bağlıdır. Deməli onun yerinə yetirilməsi bizim hər birimizin əlbir fəaliyyətimizdən asılı olacaqdır. Beləliklə, birinci vəzifə həmin proqramın öyrənilməsindən, dərk olunmasından ibarətdir. Bizim hər birimiz - elmi-tədqiqat işçiləri, müəllimlər, tələbələr, praktiki işçilər bu proqramı çox diqqətlə oxumalı və öyrənməliyik.

**İkincisi**, hər bir beşillik proqramdakı bütün məqsədlər, vəzifələr aydın dərk olunmaqla yanaşı, həm də təbliğ olunmalıdır. Çalışmaq lazımdır ki, bu proqramın əhəmiyyətini, qarşıya qoyduğu vəzifə və məqsədləri, onu yerinə yetirmək üçün hər kəsin nə etməli olduğunu bu proqramın yerinə yetirilməsində mənafeyi olan hər kəs aydın başa düşsün.

**Üçüncüsü**, ali məktəblərdə "Regional iqtisadiyyat", "Regional idarəetmə", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Maliyyə-kredit", "Büdcə-vergi sistemi", "Kənd təsərrüfatının iqtisadiyyatı" ilə əlaqədar fənnlərin habelə proqramla bağlılığı olan hər bir digər fənnin tədris proqramlarında, elmi-tədqiqat institutlarının yaxın bir neçə il üçün elmi-tədqiqat işi planlarında Dövlət Proqramında qarşıya qoyulan vəzifələri, görülməsi nəzərdə tutulan tədbirləri əldə rəhbər tutaraq müəyyən dəyişikliklər, təkmilləşdir-

mələr aparılması, əlavələr edilməsi vacibdir. Ali məktəblərdə Dövlət Proqramının öyrənilməsinə bir neçə mühazirə və seminar saatlarının ayrılması da məqsədəuyğun olar. Məhz birinci regional inkişaf proqramına nisbətən ikinci regional inkişaf proqramı həyata keçirildiyi illərdə (2009-2012-ci illər), proqramın öyrənilməsi, tədris olunması və təbliği məsələlərinə əvvəlki proqrama nisbətən daha çox diqqət yetirilmişdir. Şübhəsiz bunlar da proqramda qarşıya qoyulan vəzifələrin dərk olunması və yerinə yetirilməsinə müsbət təsir etmişdir. Fikrimizcə, yeni proqram qəbul edildən sonra bu məsələlərə diqqət daha da artırılmalıdır. Bütün bunlar keçən 4 il ərzində Dövlət Proqramına aid vəzifələrin yerinə yetirilməsində həlledici rol oynamışdır. 2009-2010-cu illərdə Proqramda qarşıya qoyulan bütün vəzifələr müvəffəqiyyətlə yerinə yetirilmişdir.[1] SKMF-dən 2009-cu ildə 130 və 2010-cu ildə 115 mln.manat güzəştli kredit verilmişdir, bunun da 2009-cu ildə 49%-i regionların payına düşüb. 2010-cu ildə fondun vəsaiti hesabına tikilməsi nəzərdə tutulan müəssisələrin 99%-i regionların payına düşmüşdür. Qeyri-neft sektorunun sürətli inkişafı baxımından 2011-2012-ci illər daha uğurlu olmuşdur. 2011-ci ildə isə ÜDM 0,1%, qeyri-neft sektoru 9,4%, kənd təsərrüfatı məhsulu 5,8%, informasiya-rabitə sahəsinin məhsulu 11,8% artmışdır[2]. Sənaye məhsulu 5% azaldığı halda, qeyri-neft sənaye məhsulu 11,1%, o cümlədən emal sənayesi 7,1% artmışdır. 2011-ci ildə

---

[1] Bu barədə ətraflı məlumat üçün bax: Ə.X.Nuriyev "Regional siyasət və idarəetmənin əsasları". Dəyişikliklər və əlavələr edilmiş II nəşr, Bakı, "Elm və təhsil", 2011, 515 səh.

[2] Bu və sonrakı rəqəmlər "Azərbaycanın statistik göstəriciləri -2011" statistik məcmuəsindən, 2010-2011-ci illərə aid rəsmi hesabat materiallarından götürülmüş, xüsusi çəki göstəriciləri əsasən müəllif tərəfindən hesablanmışdır.

ÜDM-in ümumi miqdarı 63,4 mlrd. dollar olmaqla Cənubi Qafqazda istehsal olunan ÜDM-in ¾ hissəsindən çoxu Azərbaycanın payına düşmüşdür, adambaşına ÜDM 7000 dollar olmuş, əhalinin ümumi gəlirləri 20% artaraq 36,6 mlrd. manata çatmışdır. 2011-ci ildə SKMF-dən 1643 sahibkara 138 mln. manat güzəştli kredit verilmişdir. Bunun hesabına 6500 yeni iş yeri açmaq nəzərdə tutulur. Verilmiş kreditin 75%-i regionların, 25%-i Bakı və onun ətraf qəsəbələrinin payına düşür. Verilmiş kreditin 118 mln. manatı və ya 85,5 %-i istehsal, infrastruktur layihələrinə verilmişdir və bunların hesabına 33 müəssisə istifadəyə verilməlidir. Əlverişli investisiya mühiti 2011-ci ildə iqtisadiyyata yatırılan investisiyanın artırılmasına səbəb olmuşdur. Iqtisadiyyata qoyulan 20 mlrd. dollar sərmayənin 13 mlrd. dolları və ya 65%-i daxili, 35%-i (7 mlrd.dollar) xarici sərmayənin payına düşmüşdür. Eyni zamanda bu sərmayələrin 15,7 mlrd. dolları və ya 78,5%-i qeyri-neft sektorunun, 4,3 mlrd. dolları və ya 21,5%-i neft sektorunun payına düşmüşdür. 2011-ci ildə Qaradağda yeni quru texnologiya sobası, Hacıqabulda kafel-metlax zavodu, Sumqayıtda Kağız emalı zavodu, Bitki yağı istehsalı zavodu, Xovlu iplik zavodu, Qaradağda müasir tikinti materialları, Abşeronda mebel və MDF istehsalı zavodları, Naxçıvanda biskivit-şokolad, Dam örtüyü və qarışıq yem fabrikləri, İmişlidə yem və bitki yağları istehsalı zavodu, Şamaxıda meyvə qurudulması və emalı, Oğuzda qlükoza istehsalı, Ağcabədi və Tovuzda süd emalı, Qəbələdə limonad istehsalı, Ağsuda və Şəkidə şirə və şərab istehsalı, Xaçmazda kondensator zavodu tikilib istifadəyə verilmişdir. 2012-ci ildə Respublikanın sənayeləşməsi siyasəti müvəffəqiyyətlə davam etdirilmiş,

maşınqayırma, aliminium, sement, meyvə-tərəvəz konservi, süd və ət emalı, çörək istehsalı müəssisələri istismara verilmişdir. Balaxanı sənaye, Sumqayıt kimya-sənaye və Sumqayıt yüksək texnologiyalar parklarının yaradılması istiqamətində aparılan tikinti quruculuq işləri sənaye potensialının mütərəqqi istiqamətdə artmasına, eləcə də məhsulun rəqabət qabiliyyətinin və keyfiyyətinin yüksəlməsinə və sahibkarlığın inkişafına müsbət təsir etmişdir. 2012-ci ildə iqtisadiyyata 22,1 mlrd.dollar sərmayə qoyulmuşdur ki, bunun da 76%-i qeyri-neft sektorunun payına düşür. Keçən il həm kənd təsərrüatı, həm də onun məhsullarını emal edən bir çox sahələr sürətlə inkişaf etmişdir. Misal üçün, quş əti istehsalı 24,7%, yumurta istehsalı 21,3%, ət istehsalı 8,3%, süd istehsalı 6% artmışdır ki, bu da Azərbaycanın ərzaq təhlükəsizliyi probleminin həlli istiqamətində də mühüm uğurlar qazanıldığını göstərir. 2012-ci ildə SKMF-dən 2419 sahibkrlıq subyektinə 218 mln. manat güzəştli kredi verilmişdir və bu kreditlər hesabına 9100 yeni iş yeri açmaq nəzərdə tutulmuşdur. Kreditin 83%-i regionların payına düşür. Keçən il tikintisi SKMF-dən maliyyələşdirilən 94 istehsal-emal müssisəsi fəaliyyətə başlamışdır. Bu müəssisələrin 84-ü aqrar-sənaye kompleksinə (üzüm, meyvə-tərəvəz məhsulları istehsalı və emalı, heyvandarlıq komplekslərinin tikintisi, ət emalı, kənd təsərrüfatı məhsullarının saxlanması və satışı obyektləri) aiddir. 2013-cü ildə də aqrar-sənaye komplekslərinə aid müəssisələrin tikintisi davam etdirilir. 2012-ci ildə əhalinin gəlirləri 13,8% artmış, 93 mini daimi olmaqla 117 min yeni iş yeri açılmış və 5,4 min yeni müəssisə fəaliyyətə başlamışdır. Ümumiyyətlə, 2009-2012-ci illərdə 20 min-

dən çox müəssisə fəaliyyətə başlamış, 310 minə yaxın iş yeri (270 mini daimi) açılmışdır. 2009-2012-ci illərdə regionların inkişafına 14,5 mlrd. manat dövlət vəsaiti xərclənmişdir. Bunun 75-80%-i regionların payına düşür. Keçən illərdə iki SES, 935 transformator, 29 yarımstansiya tikilmiş, bir çox elektrik stansiyalarının tikintisi müvəffəqiyyətlə davam etdirilmişdir. 3570 km elektrik ötürücü xətlər çəkilmiş və ya təmir edilmişdir. Bakıda böyük məişət tullantıları emalı zavodu, Sumqayıtda iri texnopark kompleksi, Gəncədə aliminium-polad istehsalı kompleksi istifadəyə verilmiş, Gəmiqayırma zavodunun (bu zavod 2013-cü ilin əvvələrində istifadəyə verilmişdir) Ələt beynəlxalq ticarət limanının tikintisi davam etdirilmişdir. Qazaxda böyük sement zavodu, konserv zavodu, Aqstafada süd emalı zavodu, aqroservis tikilməkdədir.

### 3.3. Keçid dövrünün başa çatmasının əsas əlamətləri

Müstəqillik illərində həyata keçirilən bu çoxsaylı əsaslı tədbirlər Azərbaycana nə vermişdir, müstəqilliyin bərpasından keçən 21 ildən çox müddətdə Azərbaycan xalqı nəyə nail olmuşdur?

- Hər şeydən əvvəl müstəqillik illərində Azərbaycan bütün dünyaya sübüt etdi ki, o nəinki müstəqil yaşaya bilər, hətta keçid dövrünün ən mühüm çətinliklərini müvəffəqiyyətlə aradan qaldıra bilər. Azərbaycan çətin maliyyə-iqtisadi böhran şəraitində öz çevik siyasətilə, dərin maliyyə

böhranının təsir dairəsini azaltmaq, müstəqil sürətli inkişafı təmin etmək qabiliyyətinə malik oturuşmuş dövlətdir.

- Respublikamızda müstəqillik illərində islahatların həyata keçirilməsi nəticəsində əldə olunmuş ən mühüm ümumi nəticə ölkəmizdə keçid dövrünün başa çatmasıdır. Bu öz ifadəsini aşağıdakılarda tapır: Respublikada Dövlət Mülkiyyətinin özəlləşdirilməsi Proqramı müvəffəqiyyətlə həyata keçirilmiş, çox mülkiyyət formalı təsərrüfatlar yaranmışdır. Azərbaycan iqtisadiyyatının bütün bölmələrinin (istehsal, bölgü, mübadilə və istehlak) bazar münasibətlərinə keçməsi təmin edilmişdir, xüsusi sektor iqtisadiyyatda hökmran mövqe qazanmış, kifayət qədər təcrübəyə malik, daxili və xarici bazarlarda həm öz mənafelərini, həm də ölkəmizin mənafeyini müdafiə və təmsil edə bilən güclü orta və iri sahibkarlar təbəqəsi formalaşmışdır. Son illərdə daxili ümumi məhsulun 81-83%-i, əhalinin gəlirlərinin, investisiya qoyuluşunun, məşğul əhalinin 72%-i, sənaye məhsulunun 80%-dən çoxu, kənd təsərrüfatı məhsulunun 99,7%-i özəl sektorun payına düşür.

- Azərbaycan regionlarında güclü infrastruktura sahələri formalaşmışdır. Təkcə 2004-2008-ci illərdə Bakı-Tibilisi-Ceyhan neft kəməri, Bakı-Tibilisi-Ərzurum qaz kəməri çəkilmiş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizi yaradılmışdır. Bakı-Tibilisi-Qars dəmir yolunun çəkilişi başa çatmaqdadır. Dörd şəhərdə müasir hava limanı (Naxçıvan, Gəncə, Zaqatala, Lənkəran) bir milyon kvt gücündə 9 elektrik stansiyası, çoxsaylı elektrik şəbəkələri tikilmiş, 1600 məktəb binası, 18 olimpiya idman mərkəzi istifadəyə verilmişdir. 2009-2012-ci illərdə bu proses davam etdirilmişdir. Ümumiyyətlə, 2004-2012-ci illərdə 35 olimpiya idman kompleksi tikilmiş və 2500-ə yaxın məktəb, 500-dən

çox tibb müəssisəsi tikilmiş və ya əsaslı surətdə yenidən qurulmuşdur.Azərbaycan-İran-Türkiyə-Gürcüstan-Rusiya energetika sistemi formalaşmaqdadır və burada Azərbaycan özünəməxsus əhəmiyyətli yer tutur. Şəhərlərin, rayon və kəndlərin təbii qaz, su və kanalizasiya xətii ilə təmin edilməsi prosesi müvəffəqiyyətlə davam edir və bu proses 2013-cü ilin axırına başa çatacaqdır.

- Təhlükəsizlik probleminin bütün formaları (iqtisadi, maliyyə, regional, enerji, ərzaq, ekoloji, yoxsulluq, işsizlik) əsasən həll edilmişdir. 2004-2012-ci illərdə 1,1 milyondan çox yeni iş yeri açılmışdır. Açılmış iş yerlərinin 80%-ə qədəri Bakıdan kənar regionların, o cümlədən 72,7%-i Abşeron iqtisadi rayonundan kənar iqtisadi rayonların payına düşür, bütün iş yerlərinin 73%-i daimidir.

- İqtisadiyyatın bütün sahələrində bazar münasibətlərinə və davamlı inkişafa keçid təmin olunmuşdur. 1996-cı ildən başlayaraq daxili ümumi məhsul, dövlət büdcəsinin gəlirləri və xərcləri, investisiya qoyuluşu, əhalinin pul gəlirləri və xərcləri və digər makroiqtisadi göstəricilər fasiləsiz olaraq artmış, ölkə iqtisadiyyatı davamlı inkişaf yoluna çıxmışdır.

- Hesablamalara görə ölkə normal şəraitdə özunu hər hansı ərzaq məhsulu ilə 80% səviyyəsində təmin edə bilirsə, o həmin məhsul üzrə ərzaq təhlükəsizliyini təmin etmiş olur. Azərbaycanda ərzaq təhlükəsizliyi probleminin həllində də ciddi uğurlar qazanılmışdır. 2003-cü ildə Azərbaycan istehlak olunan ərzaq məhsullarının 70-80 %-ni başqa ölkələrdən idxal edirdi. Xüsusilə son illərdə Dövlət Proqramında qarşıya qoyulan vəzifələrə uyğun olaraq qeyri-neft sektoru sahələri, o cümlədən aqrar sektorun ərzaq məhsulları istehsal edən sahələri sürətlə inkişaf etmişdir. 2011-ci

ilin məlumatına görə Azərbaycan özünü bir çox ərzaq məhsulları ilə artıqlaması ilə təmin edir və xaricə də ixrac olunur. 2012-ci ildə bu sahənin inkişafına diqqət daha da artmışdır. 2013-cü ildə əsas ərzaq məhsulları ilə əhalinin təminatı aşağıdakı kimi olacaqdır:

Beləliklə, bir çox məhsullar üzrə təminat 75-95% arasında olacaqdır. Hazırda təminatı nisbətən aşağı olan bitki və kərə yağları üzrə də xeyli yüksələcəkdir.

Dünyada maliyyə-iqtisadi böhranın davam etdiyi 2010-cu ildə Azərbaycan özünü adambaşına dənli bitkilərlə 76%, quş əti 74%, ət 94%, kərə yağı 83%, süd və süd məhsulları 85%, un 94%, şəkər 150, tərəvəz 102, meyvə 127 və kartofla 180% təmin etmişdir.Bu onu göstərir ki, Azərbaycanın ərzaq təhlükəsizliyi problemi əsasən həll edilmişdir.

- Yoxsulluq problemi də əsasən həll edilmişdir. Bütün əhali içərisində yoxsul əhalinin xüsusi çəkisi 2003-cü ildəki 44, 7%-dən 2010-cu ildə 9,1%-ə, 2011-ci ildə 7,6%-ə, 2012-ci ildə 6%-ə düşmüşdür.

Bu o deməkdir ki, yoxsulluq özünün siyasi təhlükə mənbəyi olmaq xarakterini itirmişdir. Həm də orta aylıq nominal əmək haqqının miqdarına görə Azərbaycan 2009-cu ildə MDB ölkələri arasında Rusiyadan (627,4 dol.) və Tacikistandan (451,3 dol.) sonra 3-cü yeri tuturdu (370,8 dollar). Sonrakı illərdə də Azərbaycanda əhalinin həyat səviyyəsi yüksəlmişdir. Orta aylıq əmək haqqı 366 man. (təqribən 470 dollar) olmuşdur. Yoxsulluğun minimum həddi göstəriciləri də 2011-ci ildə 2003-cü ildəkinə nisbətən 3,2-3,3 dəfə artmışdır. Yoxsulluq indi əhalinin həyat səviyyəsini yüksəltmək probleminin daxili tərkib hissəsinə çevrilmişdir.

- əhali bazar münasibətləri şəraitində yaşamağa və işləməyə vərdiş etmiş, bazar münasibətlərinin dönməzliyinə inanmış, buradan irəli gələn çətinliklərin, qiymət dəyişmələri, inflyasiyanın baş verməsinin mümkünlüyünü təbii hal kimi qəbul etməyə başlamışdır.
- əhali dövlətin bazar münasibətlərinin inkişafına yönəlmiş siyasətini və onun həyata keçməsi üçün görülən tədbirləri dəstəkləyir. Ölkəmizin inkişafında əldə olunmuş nailiyyətləri layiqincə qiymətləndirir və ölkəmizin daha böyük uğurlar qazanacağına inanır.
- Istehsal və xidmət prosesini təşkil etməyi və həyata keçirməyi bacaran fəhlə və mühəndis texniki işçilər ordusu formalaşmaqdadır. Onlar demokratik cəmiyyətin həyat və fəaliyyət prinsipləri əsasında yaşamağa vərdiş etmişdir. Azərbaycanda yeridilən müasir sənayeləşmə siyasəti, sənayenin qeyri-neft sektoru sahələrinin 2010-cu ildən başlayaraq daha sürətlə artması, yeni mütərəqqi sənaye sahələrinin yaradılması və inkişafı ölkəmizdə müasir dövrün tələblərinə cavab verən yüksək səviyyəli milli mühəndis-texniki işçilər ordusunun formalaşacağına inam yaradır.
- Dövlətimiz beynəlxalq miqyasda artıq oturuşmuş, öz inkişaf yolunu seçmiş və bu yolla irəliləmək imkanı olan dövlət kimi qəbul edilmişdir. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu zaman dünya ölkələrinin böyük əksəriyyətinin bunu dəstəkləməsi də real

faktordur, ölkənin beynəlxalq nüfuzunun artdığını göstərir.

- Ölkəmizin maliyyə imkanları genişlənmiş, o 1991-1996-cı illərdə kapital idxalına böyük ehtiyacı olan ölkədən kapital ixrac edən və öz gücü ilə müstəqil surətdə böyük investisiya tutumlu layihələr həyata keçirməyə qadir olan bir ölkəyə çevrilmişdir. Sahibkarlığın inkişafına himayədarlıq etmək və iqtisadiyyatın davamlı inkişafını təmin etmək (kreditlər vermək, birdəfəlik yardımlar göstərmək, ayrılıqda və ya şərikli müəssisələr tikmək, düzgün qiymət siyasəti yeritmək, məqsədli sosial-iqtisadi inkişaf proqramları hazırlamaq və onu maliyələşdirmək) üçün dövlətin maliyyə imkanları genişlənmişdir. Hazırda ölkə iqtisadiyyatının inkişafında dövlət büdcəsi ilə yanaşı Neft fondu, Sahibkarlığa kömək milli fondu, Heydər Əliyev fondu, Respublika Prezidentinin fondu, müəssisələrin özlərinin maliyə-yığım fondları və digər maliyə mənbələri mühüm rol oynayırlar. Respublikamızın icmal büdcəsi, valyuta ehtiyatı sürətlə artır. 2003-2012-ci illərdə Azərbaycan iqtisadiyyatına 128,3 mlrd. dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da 657 mlrd. dollar və ya 51,2%-i daxili sərmayənin payına düşür. Həm də investisiya qoyuluşunda daxili investisiyanın xüsusi çəkisi 2008-ci ildən sonrakı illərdə daha yüksək olmuşdur: 2009-cu ildə 79,3%, 2010-cu ildə 60%, 2011-c ildə 65%, 2012-ci ildə 70%-dən çox, olmuşdur. Ölkəmizin straeji valyuta ehtiyatı artaraq 2010-cu ildə 38, 2012-ci ildə 46 mlrd. dollara çatmışdır ki, bu da onun bütün borclarından təqribən 4,5 dəfə çoxdur.

2008-2009-cu illərdə dünyanın inkişaf etmiş ölkələri dərin maliyyə-iqtisadi böhrana məruz qaldığı, 2010-cu ildə iqtisadi sabitlik hələ tam bərpa olunmadığı halda, Respub-

likamızda düzgün iqtisadi siyasət yeridilməsi, qabaqlayıcı tədbirlər görülməsi, güclü valyuta ehtiyatının yaradılması, Neft fondundan öz təyinatına uyğun, düzgün istifadə edilməsi, qeyri-neft sektorunda sahibkarlara vergi, kredit güzəştlərinin edilməsi, dövlət büdcəsindən birdəfəlik maliyyə yardımlarının göstərilməsi, güzəştli qiymətlə toxum, kübrə, texnika və i.a. verilməsi nəticəsində böhranın Azərbaycan iqtisadiyyatına təsiri məhdudlaşdırılmış, davamlı və sürətli inkişaf təmin edilmişdir.

- Müstəqillik illərində ümummilli liderimiz Heydər Əliyevin neft strategiyası müvəffəqiyyətlə həyata keçirilmiş, bu sahədən daxil olan gəlirlərin bir hissəsinin indiki və gələcək nəsillərin mənafeyini nəzərə almaqla qeyri neft sektorunun inkişafına yönəldilməsi nəticəsində Respublikanın regionlarında güclü istehsal və sosial infrastrukutur (yollar, körpülər, məktəblər, idman kompleksləri, aeroportlar, xəstəxanalar tikilmiş, parklar salınmış, şəhər və rayonlara su, qaz çəkilmişdir və i.a.), o cümlədən energetika sistemi formalaşmışdır. Bu infrastruktur, o cümlədən enerji sistemi regionlarımızın investisiya mühitinin yaxşılaşması, iqtisadiyyatın bütün sahələrinin gələcək inkişafı və müasirləşməsi üçün etibarlı təməldir. Regionlarda formalaşmış güclü və müasir energetika sistemi nəinki Azərbaycanın enerjiyə olan tələbatını ödəyir, həm də Azərbaycanın İran, Türkiyə, Gürcüstan və Rusiyaya enerji ixracını artırmağa, həm də Cənubi Qafqazda regional energetika sisteminin formalaşmasında aparıcı rol oynamasın təmin edir.

Ümumiyyətlə, müstəqillik illərində düzgün iqtisadi siyasət yeridilməsi, görülmüş qabaqlayıcı tədbirlər nəticəsində 80-ci illərin axırları və 90-cı illərin birinci yarısında Azərbaycanın üzləşdiyi dərin iqtisadi və investisiya böh-

ranı aradan qaldırılmışdır. Prezident İlham Əliyevin "Sosial-iqtisadi inkişafın sürətlənməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il fərmanında qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilmiş və son 9 ildə iqtisadiyyatın bütün sahələrinin davamlı və sürətli inkişafı təmin edilmişdir. Azərbaycan makroiqtisadi göstricilərin artım sürtinə görə daim qabaqcıl dövlətlər sırasında olmuşdur.

2004-2012-ci illərdə ÜDM 3dəfə, sənaye məhsulu 2,6 dəfə, aqrar sektor 2,4 dəfə, heyvandarlıq məhsulu 3,4 dəfə, qeyri-neft sektoru 2,4 dəfə,büdcə xərcləri və gəlirləri 12-13 dəfə, əsas kapitala investisiya qoyuluşu 3,5 dəfə artmışdır. Bütün iqtisadi təhlükəsizlik formalarının təmin edilməsində nailiyyətlər qazanılmışdır. Azərbaycanda bütün makroiqtisadi göstəricilərin sürətli inkişafı təmin edilmişdir.

Respublikamız sosial-iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətlərindən biridir. Bu gün Azərbaycan Cənubi Qafqazın istehsal potensialının dörtdə üç hissəsindən çoxunu özündə birləşdirir. Azərbaycanın beynəlxalq imici sürətlə artır. Onun bütün sahələrdə sürətlə inkişaf etdiyini nüfuzlu beynəlxalq təşkilatlar da təsdiq edirlər.Davos iqtisadi forumunun 2012-ci ilə aid qlobal rəqabət qabiliyyətlilik hesabatında Azərbaycan 144 ölkə arasında 46-cı, MDB məkanında son dörd ildə birinci yeri tutur. Eyni zamanda makro iqtisadi sabitliyə görə dünyada 18-ci yeri tutur. Azərbaycan yüksək insan inkişafı və yuxarı orta gəlirli ölkələr qrupuna daxildir. 2012-ci ildə BMT-nin hesabatında ölkəmiz elektron hökümət yaradılmasında 192 ölkə arasında 83-cü yeri, elektron iştirak indeksnə görə 157 ölkə arasında 68-ci yeri tutmuşdu. 2013-cü il Respublikamızda informasiya-kommunikasiya ili elan edilmişdir. Bu

da informasiya-kommunikasiya texnologiyalarının daha da inkişafına səbəb olacaqdır.

Məhz bunların nəticəsində möhtərəm prezidentimiz cənab İlham Əliyevin göstərdiyi kimi Respublikamızda iqtisadi sahədə keçid dövrü başa çatmış, ölkəmiz öz inkişafının tamamilə yeni dövrünə, demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və modernləşməsi dövrünə daxil olmuşdur.

## 3.4. İstehsalın strukturunda və ərazi təşkilində yeni dövrün başlanmasını göstərən əsas əlamətlər

Bunlarla yanaşı son üç-dörd ildə Azərbaycan iqtisadiyyatının, xüsusilə sənayenin inkişaf istiqamətləri, strukturu və ərazi təşkilində bir sıra keyfiyyət dəyişiklikləri baş verir. Bu dəyişikliklər bir tərəfdən iqtisadiyyatımızın hansı inkişaf mərhələsində olduğunu müəyyən etmək, xüsusilə gələcək inkişafın strategiyasının elmi əsaslarını hazırlamaq üçün mühüm əhəmiyyət kəsb edir, digər tərəfdən Azərbaycan iqtisadiyyatının, xüsusilə sənayenin strukturu və ərazi təşkilində keçid dövrünə deyil, demokratik cəmiyyətin öz əsasları üzərində inkişafı dövrünə xas olan kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdiyini göstərir.

**Birincisi və başlıcası** son illərdə regionların inkişafı üzrə Dövlət Proqramlarına uyğun olaraq qeyri-neft sektoru sürətlə inkişaf etmiş və nəticədə 2010-cu ildən başlayaraq Respublika iqtisadiyyatının inkişafının ağırlıq mərkəzi həm artım sürətinə, həm də investisiya qoyuluşunun miqdarına görə neft sektorundan qeyri-neft sektorunun, o cümlədən neft sənayesindən qeyri-neft sənayesinin üzərinə keçmişdir.

2010-2012-ci illərdə iqtisadiyyata investisiya qoyuluşunun çox hissəsi qeyri-neft sektorunun payına düşmüşdür. Eyni zamanda qeyri-neft sektorunda və qeyri-neft sənayesində ÜDM istehsalı Respublikada ÜDM istehsalına, habelə neft sənayesində ÜDM istehsalına nisbətən daha sürətlə artmışdır. 2010-cu ildə ÜDM-in 5%, ümumi sənaye məhsulunun 2,6% artımına qarşı, qeyri-neft sektorunda 7,6%, qeyri-neft sənayesində 6,6% artım olmuşdur. Investisiya qoyuluşunun 60%-i daxili mənbələrin payına düşmüşdür. 2011-ci ildə ÜDM 0,1% artdığı, neft hasilatı və neft sənayesi obyektiv səbəblərə görə azaldığı halda qeyri-neft sektorunda artım 9,4%, o cümlədən qeyri-neft sənayesində 11, 1% olmuşdur. Eyni vəziyyət 2012-ci ildə də davam etmişdir. 2012-ci ildə sənaye məhsulunun 2,3% azalması, ÜDM-in 2,2% artımına qarşı bu artım qeyri-neft sektorunda 9,7%, qeyri-neft sənayesində 8% olmuşdur.

Eyni vəziyyət investisiya qoyuluşunda da özünü göstərir. Belə ki, 2011-cu ildə iqtisadiyyata yönəldilən 20 mlrd dollar investisiyanın 13 mlrd dollar və ya 65%-i qeyri neft sektorunun payına düşmüşdür. Həm də iqtisadiyyata yönəldilən investisiyanın miqdarı da sürətlə artır. 2010-2012-ci illərdə Azərbaycan iqtisadiyyatına 61 mlrd dollardan çox, o cümlədən 2012-ci ildə 22,1 mlrd. dollar sərmayə qoyulmuşdur. Bunun da əsas hissəsi qeyri-neft sektoruna yönəlmişdir. Qeyd etmək vacibdir ki, qeyri-neft sektorunun üstün sürətlə inkişafı və investisiya qoyuluşunun getdikcə daha çox hissəsini özünə cəlb etməsi ümumi xarakter daşıyır, iqtisadiyyatın bütün əsas sahələrini əhatə edir və bütün şəhər və rayonlarda qeyri-neft sektorunda ÜDM-in üstün sürətlə inkişaf etməsində özünü göstərir. Belə ki, 2011-ci ildə bütün rayon və şəhərlərdə ÜDM istehsalı

Respublikanın orta artım göstəricisindən sürətli olmuşdur. Bütün bunlar ona gətirib çıxarmışdır ki, artıq istehsal edilən ÜDM-in həcminə görə də qeyri-neft sektoru neft sektoruna çatmışdır. Belə ki, 2010-cu ildə ÜDM istehsalının 44,4%-i, 2011-ci ildə 48,2%-i və 2012-ci ildə 51,2%-i qeyri-neft sektorunun payına düşmüşdür. Bütün hallarda qeyri-neft sektorunun ÜDM istehsalının ümumi miqdarına görə neft sektorundan üstün olması uzaq gələcəkdə deyil, məhz 2012-ci ildə mümkün olmuşdur. ÜDM istehsalının ümumi həcminə görə də qeyri-neft sektorunun neft sektorunu ötməsi Heydər Əliyev neft strategiyasının tarixi qələbəsidir. Azərbaycanda neft sindromunun yaranacağı haqqında bütün yanlış mülahizələrin iflasa uğramasıdır. Bütün tarix boyu neft Azərbaycan iqtisadiyyatının bir çox sahələrinin inkişafını məhdudlaşdırmışdır. Müstəqillik illərində Heydər Əliyevin uğurlu neft strategiyasının həyata keçirilməsi sayəsində neft iqtisadiyyatın digər sahələrinin inkişafına güclü təkan verən bir mənbəyə çevrilmişdir.

Qeyri-neft sektoru isə başlıca olaraq Abşerondan kənar iqtisadi rayonlarda cəmləndiyinə görə demək olar ki, sənayenin ərazi təşkilində də ağırlıq Abşerondan kənar iqtisadi rayonların üzərinə keçir. Bu öz ifadəsini əsasən onda tapır ki, son illərdə qeyri neft sektoruna aid tikilən sənaye müəssisələri və istifadəyə verilən sənaye-istehsal sahələrinin 80%-dən çoxu Abşerondan kənar iqtisadi rayonların payına düşmüşdür.

İkincisi, məlumdur ki, bütün dünyada keçid dövrünün mühüm xüsusiyyətlərindən biri bu dövrdə başlıca olaraq kiçik və orta müəssisələrin tikilməsi və ölkə ərazisində səpələnməsi prosesinin baş verməsidir. Buna uyğun olaraq keçid dövründə Respublikanın demək olar ki, bütün

inzibati rayon və şəhərlərində ağac emalı, ərzaq məhsulları, tikinti materialları istehsalı, maşınqayırma, energetika və digər sənaye sahələrinə aid yeni kiçik və orta müəssisələr və ya sənaye istehsal sahələri istifadəyə verilmişdir. Həm də bu sənaye müəssisələri ən çox mövcud sənaye mərkəzlərində deyil, inzibati rayon mərkəzlərində, kiçik şəhər və qəsəbələrdə yerləşdirilmiş və ***beləliklə də Respublikada sənaye müəssisələrinin ərazi üzrə səpələnməsi prosesi getmişdir.*** Nəticədə bir çox rayon və kiçik şəhərlərin sənaye, aqrar-sənaye mərkəzlərinə çevrilməsi meyli güclənmişdir. Bu rayon və şəhərlərdə yeni müəssisələrin tikintisi üçün real şərait yaranmışdır. Bunlara misal olaraq Naxçıvan, Ağstafa, Zaqatala, Qəbələ, Şamaxı, Dəvəçi, Xaçmaz, Şəmkir, Sabirabad, Lənkəran, İmişli, Gədəbəy, Qaradağ rayon və şəhərlərini göstərmək olar. ***Lakin 2008-2009-cu illərdən başlayaraq bu proses başa çatır, yeni nisbətən iri müəssisələr, həm də bir sıra hallarda sənayenin mütərəqqi sahələrinə aid böyük müəssisələr tikilməyə başlanmışdır ki, bunlar da məlum olduğu kimi sənaye-istehsal kompleksləri və sənaye qovşaqlarının əsasını təşkil edir*** (1000 nəfər işçisi olan maşınqayırma müəssisəsi 10 min nəfər əhalisi olan şəhər formalaşdırır). Məhz böyük müəssisələr öz ətrafında onların tələbatını ödəyən, ya da onları tamamlayan müəssisələrin (işçi qüvvəsindən istifadə, xammal təminatında, köməkçi və xidmətedici işlərin görülməsində çətinlikləri aradan qaldırmaq üçün tikilən müəssisələr) tikilməsini tələb etməklə müəyyən bir şəhərdə həm istehsalın təmərküzləşməsinə, həm də əhalinin artmasına və müəssisənin ətraf ərazilərlə əlaqəsinin genişlənməsinə kömək edir. ***Bu baxımdan 2009-2012-cu illər yeni böyük sənaye müəssisələrinin tikilməsi hesa-***

*bına Azərbaycan sənayesinin ərazi təşkilində sənaye qovşaqları və ərazi-istehsal komplekslərinin yeni əsaslarda bərpası və formalaşmasına başlanması illəri kimi diqqəti cəlb edir.* 2009-cu ilin yekunlarına dair çıxışında Prezident İlham Əliyev bunu xatırladaraq demişdir: "2009-cu ildə Azərbaycanda bir neçə nəhəng layihənin təməli qoyuldu, yaxud da ki, o layihələrin müəyyən hissəsi icra edildi". 2010-2012-ci illərdə bu proses davam etdirilmiş və güclü sənayeləşmə siyasəti aparılmışdır. 2009-2012-ci illərdə tikintisinə başlanmış, yaxud tikintisi davam etdirilmiş sənaye istehsal kompleksi formalaşdıracaq müəssisələrə misal olaraq yenidən qurulmasına təqribən 40 mln. ABŞ dolları tələb olunan Qaradağ sement zavodunu, Sumqayıt şəhərində 10 zavodun tikintisini nəzərdə tutan və təqribən 100 mln. dollar tələb edən, əsasən istifadəyə verilmiş Texnoparkı, Daşkəsən-Gəncə-filiz-alüminium-polad istehsalı kompleksini, Bakı gəmiqayırma və Məişət tullantıları emalı zavodlarını, Surxanıda tikilməkdə olan Texnoparkı, Şirvan şəhərində 780 min kvt gücündə "Cənub" İstilik Elektirik stansiyasını və i.a. göstərmək olar. Bu müəssisələr yerləşdiyi şəhərin (rayonun) sənaye simasının mütərəqqi istiqamətdə tamamilə dəyişməsinə əlverişli şərait yaratmaqdadır.

***Üçüncüsü, qeyri neft sektoruna aid sənaye müəssisələrinin strukturunda mütərəqqi sənaye sahələrinə aid yeni müəssisələrin xüsusi çəkisi sürətlə artır və mütərəqqi sənaye sahələri bütövlükdə sənayeyə nisbətən daha sürətlə inkişaf edir*** ki, bu da keçid dövrünə deyil, inkişaf etməkdə olan cəmiyyətə xas olan xüsusiyyətdir. Əgər 2007-cı ilə qədər rayonlarda əsasən tikinti, meşə-ağac emalı, yüngül, yeyinti sənayesinə aid kiçik və orta müəs-

sisələr tikilirdisə, 2007-ci ildən, xüsusilə 2008-ci ildən başlayaraq sənayenin mütərəqqi sahəsi olan energetika, maşınqayırma, metal emalı, informasiya-kommunikasiya texnologiyaları və i.a. ilə əlaqədar yeni müəssisələr tikilməyə, mövcud müəssisələrdə istehsal gücü artırılmağa başladı. Sənayenin digər mütərəqqi sahələrinə aid müəssisələr də tikilib istifadəyə verilmişdir. Buna misal olaraq Naxçıvan və Gəncə avtomobil zavodlarını, Sumqayıt Texnoparkını, Mingəçevirdə Generator zavodunu, Naxçıvan əlvan metal emalı zavodunu, Gədəbəydə qızıl-mis emalı zavodunu, Bakıda kabel zavodunun, Cihaz istehsalat birliyinin yenidən qurulması və istifadəyə verilməsini, habelə çoxsaylı energetika müəssisələrini və i.a. göstərmək olar. Elə bu səbəblərdən 2010-2012-ci illərdə emal sənayesi və innovasiya yönümlü sənaye sahələri bütövlükdə sənayeyə nisbətən sürətlə inkişaf etmiş və bu sahələrdə məhsul istehsalı daha sürətlə artmışdır. Bunu aşağıdakı cədvəldən də görmək olar.

Cədvəl №2

**İqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri***

(əvvəlki ilə nisbətən %-lə)

| İllər | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| Bütün sənaye, o cümlədən | 108,6 | 102,6 | 95,0 |
| mədənçıxarma sənayesi | 112,5 | 101,2 | 91,6 |
| Emal sənayesi, o cümlədən | 92,3 | 109,4 | 107,1 |
| Neft məhsulları istehslı | 89,4 | 108,8 | 100,9 |

* Mənbə: Azərbaycanın statistik göstəriciləri 2009, 2010 və 2011-ci illər

| | | | |
|---|---|---|---|
| Kimya sənayesi | 63,0 | 134,6 | 122,4 |
| Metallurgiya sənayesi | 33,9 | 144,3 | 189,9 |
| Komputer və digər elektron avadanlıqların istehsalı | 87,4 | 119,6 | 128,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 87,6 | 108,1 | 108,4 |

Özündən əvvəlki ilə nisbətən bütün sənayedə məhsul istehsalı 2010-cu ildə 2,6% artmış, 2011-ci ildə 5%, 2012-ci ildə 2,3 % azalmışdır. Halbuki, innovasiya yönümlü sahələr olan kimya sənayesində bu artım müvafiq olaraq 34,6 və 22,4 %, metallurgiyada 44,3 və 89,4%, kompüter və elektron avadanlıqlar istehsalında 19,6 və 28,2% olmuşdur.

**Dördüncü**, məlumdur ki, energetika sənayenin çox mühüm sahəsidir. ***Müasir dövrdə bu sahə iqtisadiyyatın müasirləşməsi və inkişafının hərəkətverici qüvvəsidir.*** Məhz buna görə müstəqillik illərində bu sahənin inkişafına dövlət tərəfindən böyük diqqət verilmiş, Respublikamızda güclü energetika sistemi formalaşmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci ildə Yaponiyadakı forumda çıxışında güclü yanacaq-energetika kompleksinin yaradılması və infrastrukturun formalaşmasını Respublikamızın iqtisadiyyatının ən mühüm nailiyyətlərindən biri kimi qeyd etmişdir. Respublikamızın rayonlarında möhkəm enerji bazası yaradılmış, çoxsaylı elektrik stansiyaları tikilmiş və elektrik şəbəkələri yaradılmışdır.

Bunlara misal olaraq 2007-2008-cu illərdə istifadəyə verilmiş hər birinin gücü 87 min kvt olan Naxçıvan, Astara, Şəki, Xaçmaz, modul tipli istilik elektrik stansiyalarını, bir çox digər istilik və su elektrik stansiyalarını gös-

tərmək olar. 2009-2012-ci illərdə Respublikamızda güclü energetika sisteminin formalaşması prosesi davam etdirilmiş, yeni böyük enerji gücləri: 525mvt gücündə "Sumqayıt", 104 mvt gücündə"Şahdağ", 306 mvt gücündə Səngəçal istilik elektrik stansiyaları istifadəyə verilmiş, 780 meqavat gücündə "Cənub" İstilik Elektrik stansiyasının, 2013-cü ildə istifadəyə verilməsi nəzərdə tutulub, 2010-cu ildə Şüvəlan qəsəbəsində tikintisinə başlanmış 409 meqavat gücündə "Şimal-2" Elektrik staniyasının inşası davam etdirilir. Respublikamızda çayların, xüsusilə kiçik çayların enerji ehtiyatlarından istifadəyə xüsusi diqqət yetirilir. 2012-ci ilin dekabr ayında Füzuli rayonunda 25 min kv. gücündə SES, Qusar rayonunda 5 milyon kv/ saat elektrik enerjisi istehsal gücünə malik "Qusar-1" SES istifadəyə verilmişdir. Bundan başqa Taxta körpü su anbarında 25 min kv. gücündə SES-in 2013-cü ildə istismara verilməsi nəzərdə tutulmuşdur, 190 min kvt gücündə Şəmkir SES-in tikintisi müvəffəqiyyətlə davam etdirilməkdədir. Respublikamızda elektrik şəbəkələrinin və elektrik ötürücü xətlərinin yenidən qurulması, yenilərinin tikilməsi sahəsində də böyük işlər görülür. Qeyd etməyi vacib bilirik ki, Taxtakörpü və Şəmkirçayda elektrik stansiyalarının istifadəyə verilməsi, həm də müvafiq su anbarlarının istifadəyə verilməsidir ki, bu da onlara yaxın ərazilərdə həm təsərrüfat sahələrininin, həm də əhalinin suya olan tələbatının ödənilməsində mühüm rol oynayacaqdır.

Bunlarla yanaşı Respublikada əvvəllər tikilmiş elektrik stansiyalarında yenidənqurma, modernləşmə, əsaslı təmir aparılmaqla əlavə istehsal gücləri də işə salınmışdır. Respublikamızda yaranmış bu guclü energetika sistemi yaxın gələcəkdə yeni sənaye müəssisələrinin tikintisi, sənaye-

istehsal komplekslərinin formalaşmasına, çox enerji tutumlu istehsal və xidmət sahələrinin inkişafına əlverişli şərait yaradır. Ümumiyyətlə, 2004-2011-ci illərdə 11 yeni elektrik stansiyası tikilmişdir. Son beş ildə (2007-2011-ci illərdə) 1500 meqavat güc işə salınmış və ya bərpa edilmişdir. 2011-ci ilin sonuna Respublikamızda fəaliyyət göstərən elektrik stansiyalarının ümumi gücü 6,5 min meqavata çatmışdır.

Hazırda Azərbaycan öz istehsal gücləri hesabına enerjiyə olan tələbatını tamamilə ödəyə bilir. Lakin enerji ixrac etmək üçün də Respublikanın geniş imkanları vardır, bu imkanlardan da tədricən istifadə olunmağa başlanmışdır və yaxın gələcəkdə Azərbaycan böyük miqdarda elektrik enerjisi ixracatçısına çevrilə bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə demişdir: "Bizim enerji siyasətimiz ondan ibarətdir ki, çoxşaxəli ixrac imkanları yaradaq və əslində yaratmışıq. Enerji güclərimiz daxili istehlakdan azı 10% çox olmalıdır". Belə ki, Azərbaycan Rusiya, Gürcüstan, Türkiyə, İran İslam Respublikasının Regional Enerji sisteminin formalaşmasında mühüm yer tutur.Yaxın gələcəkdə qonşu ölkələrə verilən enerjinin miqdarının daha da artması nəzərdə tutulur. Mütəxəssislərin fikrincə, İran İslam Respublikasına verilən enerjinin miqdarını hazırkı təqribən 200 min kvt-dan 700 min kvt-a, Rusiyaya - hazırkı 250 min kvt-dan 500 min kvt-a çatdırmaq imkanı vardır. [1]

Bütün bunlarla bərabər bərpa olunan digər enerji növlərindən (külək, günəş və i.a.) istifadə etmək vacibdir. Əslin-

---

[1] İnkişafın Azərbaycan modeli. "Bakı-Oskar", NPM mətbəəsi-2010, səh.43. İdeya rəhbəri və ön sözün müəllifi Ramiz Mehdiyev. Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik.

də bərpa olunan və alternativ enerji mənbələrinin yaradılması Azərbaycanda energetikanın inkişafının prioritet istiqaməti kimi dəyərləndirilir. Bunun üçün investisiya proqramlarında vəsaitin nəzərdə tutulmasının vacibliyini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə xatırlatmışdır. Əvvəllər tikilmiş elektrik stansiyaları Respublikanın enerjiyə olan tələbatını ödəmək və enerji təhlükəsizliyini təmin etmək məqsədini güdürdü. İndi isə məsələ daha geniş formada qoyulur: Azərbaycanın bütün enerji mənbələrindən qarşılıqlı əlaqədə daha səmərəli istifadə etmək, möhkəm enerji bazası yaratmaq, Respublikanın enerjiyə olan daxili tələbatını ödəmək, enerji təhlükəsizliyini təmin etməklə bərabər onun Rusiya, İran, Türkiyə, Gürcüstan və lazım gələrsə digər ölkələrlə energetika sahəsində inteqrasiyasını gücləndirmək, qloballaşan dünyada regional enerji sistemlərinin formalaşmasında daha fəal iştirak etmək mümkün olacaq. Buna görə də bərpa olunan enerji növlərinin istifadəsinə də başlanmışdır. Qobustan rayonunda artıq 2011-ci ildə günəş və külək enerjisilə işləyən alternativ enerji üzrə təcrübə sınaq mərkəzi, 2012-ci il aprel ayının 24-də Sumqayıt şəhərində günəş modulları və LED lampaları istehsal edən "Azgüntex" zavodu istifadəyə verilmişdir. Bundan başqa günəş panelləri hazırlamaq və elektrik enerjisi istehsal edilən yüksək texnologiyalar parkı yaradılır. Bu parka alternativ və bərpa olunan enerji istehsalına, enerjidən səmərəli istifadə edilməsi texnologiyasına əsaslanan 15 zavod daxil olacaqdır. Bütün bunlara əsasən demək olar ki, Azərbaycanın yüksək texnologiya tətbiq edən dövlətə çevrilməsi və yaradıcı təfəkkürlü mütəxəssislər hazırlanması üçün lazım olan maddi-texniki baza yaradılmaqdadır.

Günəş enerjisindən istifadə etmək üçün Bakı şəhərində 300 meqavat gücündə yeni elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Bununla bərabər külək enerjisindən istifadəyə də diqqət artırılmaqdadır.

Azərbaycanda şəhər və kəndlərin təbii qazla təmin edilməsi prosesi sürətlə davam etdirilir. 2013-cü ilin sonuna qədər Azərbaycanda təbii qazla təminatın 95%-ə çatdırılması nəzərdə tutulmuşdur. 2013-cü ilin sonuna qədər əksər şəhər və rayonlarda içməli su təminatı, kanalizasiya çəkilməsi layihələri də başa çatmalıdır.

Sənayenin başqa sahələrində də sənaye kompleksinin formalaşması üçün əsas ola bilən böyük müəssisələrin tikintisinə başlanmışdır.

Sumqayıt şəhərində kimya sənaye kompleksi əsaslı surətdə yenidən qurulur və əslində yeni neft-kimya sənaye kompleksi yaradılır. Bu məqsəd üçün Sumqayıt şəhərində Texnoparkın tikintisinə iki ildir başlanmış və əsas hissəsi istifadəyə verilmişdir. Orada təqribən 10 zavodun tikilməsi və faktiki olaraq xüsusi bir sənaye qovşağının formalaşması gözlənilir və bütövlükdə bu texnoparkın tikintisinə 100 milyon dollar sərmayə qoyulacaqdır. Bu texnoparkın tikintisi Sumqayıtın sənayesinin strukturunu tamamilə dəyişəcək, qeyri-neft sektorunun digər sahələrinə aid yeni müəssisələrin tikintisinə şərait yaradacaq, şəhərin sənaye-istehsal heyətinin ixtisas tərkibi əsaslı surətdə, eyni zamanda mütərəqqi istiqamətdə dəyişiləcəkdir. Sənayenin sahə strukturunda elektrotexnika, maşınqayırma, yüngül və yeyinti sənayesinin, kommunikasiya qurğularının rolu əsaslı surətdə artacaqdır. Əsas vəzifələrdən biri özəl şirkətlərə xarici bazarlara çıxmaqda kömək göstərməkdir. ***Bununla yanaşı dövlət və özəl qurumların birgə fəaliyyət planının***

***hazırlanması, bütün maliyyə, texniki-texnoloji imkanların qarşılıqlı əlaqədə istifadə olunması vacibdir.***

"Qaradağ sement" ASC-də 14 aprel 2009-cu ildə xarici investorlar tərəfindən müəssisənin yenidən qurma layihəsinin təqdimatı və yeni texnologiya əsasında işləyəcək sobanın təməlqoyma mərasimi olmuşdur. Bütün maliyyə mənbələrindən bu zavoda təqribən 40 milyon ABŞ dolları miqdarında investisiya qoyulacaqdır. Bununla da yeni böyük Sement zavodunun tikintisinə başlanmış və hazırda onun tikintisi əsasən başa çatmışdır. Bundan başqa Qaradağ rayonunda 2013-cü ilin sonuna qədər ingils texnologiyası bazasında Metanol istehsalı üzrə kimya zavodu istifadəyə veriləcəkdir. Metanol neftin və qazın alternativi olacaqdır. Bakı və Sumqayıt şəhərlərində yerləşməsi çox da məqsədəuyğun olmayan bir neçə müəssisənin, habelə əhaliyə və istehsala xidmət edən bir çox müəssisələrin bu ərazidə yerləşəcəyini nəzərə alsaq yaxın 5-10 ildə Qaradağda böyük bir sənaye mərkəzinin formalaşacağını ehtimal etmək olar.

Azərbaycanda, xüsusilə də Bakı şəhərində ekoloji vəziyyətin sağlamlaşdırılmasına xidmət edəcək yeni nəhəng Məişət tullantıları emalı zavodunun tikintisi 2012-ci ilin dekabr ayında başa çatmışdır. Bu zavodun tikintisinə təqribən 44 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Respublikamızda kənd təsərrüfatının sürətlə inkişaf etdiyini və gübrəyə tələbatın artdığını nəzərə alaraq gübrə istehsalı üzrə yeni zavodun tikintisi nəzərdə tutulmuşdur. Bu zavodun məhsulu ölkəmizin gübrəyə olan tələbatını ödəməklə yanaşı, xarici ölkələrə də ixrac ediləcəkdir.

Sənaye kompleksinin formalaşması üçün əsas olacaq müəssisələr sırasında Gəncədə 2 böyük sənaye müəssisənin

təməli hələ 2008-ci ildə qoyulmuşdur. Gəncədə tikilən bu böyük sənaye müəssisələrinin mühüm əhəmiyyəti olacaq. Belə ki, bu müəssisələr və bu istiqamətdə görülən digər işlər Daşkəsən-Gəncə filiz-alüminium və polad istehsalı kompleksinin yaradılması ilə nəticələnməlidir ki, bu da Gəncə-Qazax iqtisadi rayonunda sənaye kompleksinin inkişafında xüsusi mərhələ olacaqdır. Hələlik Gəncə alüminium zavodunun açılışı olmuşdur, ilkin dövrdə 50 min ton alüminium istehsal edilə bilər. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi bu istehsalı 100-200 min tona da çatdırmaq olar. Hər şey tələbatdan asılı olacaqdır. Alüminiuma tələbat da çoxdur. Əsas vəzifə keyfiyyətli məhsul istehsal etmək və istehlakçılara çatdırmaqdır.

Bununla yanaşı Şamaxıda Məişət soyuducu zavodu (ildə 60 min soyuducu istehsalı nəzərdə tutulur), Sabirabadda sutqada 400 ton sement istehsal edə bilən zavod, Salyanda Biyan emalı zavodu (200 min ton gücündə), Mingəçevirdə illik istehsal gücü 30 min ədəd olan generator zavodu tikilmişdir ki, bunlar da sənaye komplekslərinin və ya qovşaqlarının formalaşması üçün mühüm başlanğıc rolunu oynaya bilər.

Bu fikirləri deyərkən biz həm də nəzərə alırıq ki, Respublikamızda kifayət qədər inkişaf etmiş 2009-cu ilin çətin sınaqlarından çıxmış güclü bank sektoru, böyük maliyyə-valyuta ehtiyatı, istehlak qiymətlərinə güclü nəzarət sistemi, əlverişli investisiya mühiti, kifayət qədər təcrübəsi olan sahibkarlar təbəqəsi formalaşmışdır və bunlar sürətli sosial-iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynaya bilər.

Beləliklə, ölkəmizin sosial-iqtisadi həyatında son 3-4 ildə baş verən əsaslı dəyişikliklər, xüsusilə daxili maliyyə-investisiya imkanlarının genişlənməsi, əlverişli investisiya mühitinin formalaşması, sənayenin sahə və ərazi strukturunda baş verən mütərəqqi meyillər və qeyri neft sektorunun sürətli inkişafının prioritet istiqamətə çevrilməsi Azərbaycanda iqtisadi sahədə keçid dövrünün başa çatdığını və cəmiyyətin inkişafında yeni dövrün başlandığını göstərir. Yeni dövrün başlanması Azərbaycanın öz neft strategiyasında ifadə olunan sosial-iqtisadi inkişaf strategiyasını xeyli təkmilləşdirməyə və yeni dövrün tələblərinə uyğunlaşdırmağa imkan verir.

Regionların investisiya mühiti yaxşılaşmış, onların investisiya cəlbetmək qabiliyyəti yüksəlmişdir. ***İndi əsas vəzifələrdən biri yaranmış bu əlverişli şəraitdən istifadə etməklə şəhərlərdə iqtisadiyyatın real sektorunun (sənaye, kənd təsərrüfatı, istehsal təyinatlı tikinti və i.a.) daha yüksək səviyyədə və səmərəli inkişafına nail olmaqdır.*** Bu vəzifə həm də ondan irəli gəlir ki, son illərdə şəhərlərin, inzibati rayonların inkişafında və əhalinin artım sürətində, müəssisələrin yerləşməsində müvəffəqiyyətlə yanaşı keçid dövrünə xas olan bir sıra mənfi meyillər də özünü göstərir. Diqqətlə fikir versək qeyri neft sektoruna aid yeni müəssisələr tikilən şəhərlərin siyahısında Dəvəçi, Şamaxı, Qəbələ, İmişli, Ağstafa, Şəmkir, Zaqatala, Masallı və başqa şəhərlərin adlarını da görə bilərik. Yəni Azərbaycanın sənaye xəritəsi dəyişilir. Mövcud sənaye mərkəzlərində (Gəncə, Sumqayıt, Əlibayramlı, Mingəçevir) sənayenin strukturu yeniləşir və modernləşdirilir. Respublika əhəmiyyətli müəssisələr bəzən bütövlükdə məhsuldar qüvvələrin səmərəli yerləşməsi mənafeyini, rayonların coğrafi şəraitini,

seysmsik vəziyyəti, əhalinin tələbatını nəzərə almadan sahibkarların iradəsi əsasında onların işlədiyi rayon və ya şəhərdə yerləşir. Müəssisələr Respublikanın ərazisində səpələnir. Nəticədə Bakı şəhərinə işçi qüvvəsi axıcılığı, səmərəsiz yük daşımalar yenə davam edir. Şəhərlərin inkişafında, şəhər əhalisinin ərazi təmərküzləşməsində mütənasiblik pozulur. Belə bir faktı göstərmək kifayətdir ki, 1999-2008-ci illərdə əhali Respublikada 10% Bakı şəhərində 14%, Şəmkirdə 91,9%, Qubada 41,9%, Qəbələdə 88,8% bir çox digər şəhərlərdə 21-38% artdığı halda bu göstərici inkişaf üçün yüksək potensialı olan şəhərlərdə nisbətən aşağıdır. Misal üçün Mingəçevir şəhərində 2,2%, Gəncədə 4,5, Göyçayda 2,9, Sabirabadda 3,2, Salyan şəhərində 5,4%, Qazaxda 11, Şirvanda 10,8% olmuşdur. Qeyd etməyi vacib bilirik ki, belə fərqlər bu və ya digər dərəcədə sənayenin inkişafında da özünü göstərir.

2000-ci ilə nisbətən 2008-ci ildə sənaye məhsulu Gəncə şəhərində 4,6, Sumqayıtda 3,0, Mingəçevirdə 1,03, Şirvanda 2,86, Göyçayda 3,4, Lənkəranda 1,9 dəfə, Yevlaxda 5,3, Qazaxda 6,5 dəfə artmışdır. Bu göstəricilər Azərbaycanın və Bakı şəhərinin orta artım göstəricilərinə nisbətən aşağıdır. Eyni zamanda bir çox rayon mərkəzlərində bu artım çox yüksəkdir.

Nəticədə ÜDM-in və sənaye məhsulunun xüsusi çəkisinə görə Bakı şəhərinin mövqeyində əsaslı dəyişiklik baş verməmişdir. 2008-ci ildə Respublikada istehsal olunan ÜDM-in 70,8%-i, sənaye məhsulunun 94%-i Bakı şəhərinin payına düşmüşdür. Son üç ildə bu xüsusi çəki bir az aşağı düşmüşdür. Lakin kəskin fərq yenə qalır. Nəticədə Bakı şəhərinə işçi qüvvəsi axıcılığı, səmərəsiz yükdaşımaları yenə davam edir.

# IV HİSSƏ. AZƏRBAYCANDA DEMOKRATİK CƏMİYYƏTİN YÜKSƏK SƏVİYYƏDƏ İNKİŞAFI VƏ MODERNLƏŞMƏSİ DÖVRÜNÜN SİYASƏTİ

## IV FƏSİL. Yeni dövrün strategiyası: mahiyyəti, reallaşdırılması şərtləri, mərhələləri və vasitələri

### 4.1. Yeni dövrün strategiyası və onun reallaşmasının ən mühüm şərtləri: sənayeləşmə və modernləşmə

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) müvəffəqiyyətlə yerinə yetirilmiş, 2-ci Dövlət Proqramının (2009-2013-cü illər) dörd ili də uğurla başa çatmışdır.

Bütün bunların ümumi nəticəsi ondan ibarətdir ki, Respublikamızın həyatının bütün sahələrində köklü dəyişikliklər baş vermiş, ***ən əsası isə keçid dövrü başa çatmışdır.*** Bu azı o deməkdir ki, artıq Azərbaycanda demokratik cəmiyyətin maddi-texniki bazası yaradılmış, iqtisadiyyatın bütün sahələrinin bazar münasibətlərinə keçməsi təmin edilmiş; mülkiyyət, istehsal, bölgü və mübadilə sahələrində bazar münasibətləri hökmran xarakter almışdır. Bununla yanaşı Respublikamızda kifayət qədər maliyyə imkanları olan kiçik və orta sahibkarlar təbəqəsi formalaşmış; dövlətin iqtisadi qüdrəti artmış, ölkəmiz kapital idxalına böyük ehtiyacı olan ölkədən onun ixracatçısına çevrilmiş, xalqımız bazar münasibətləri şəraitində yaşamağa və işləməyə alışmış, kəskin işsizlik və yoxsulluq problemi, iqtisadi təhlükəsizlik probleminin bütün əsas formaları (maliyyə, enerji, ərzaq, ekoloji, regional və i.a.) həll edilmişdir. Cəmiyyətdə,

siyasi sistemdə demokratik təsisatlar inkişaf etmiş, təhsil, elm sahələrində islahatlar həyata keçirilməkdədir.

Bütün bunlar müstəqillik illərində Respublikamızda islahatların həyata keçirilməsində əldə olunmuş ən mühüm iqtisadi nəticələrdir, həm də keçid dövrünün başa çatdığını əks etdirən mühüm amillərdir.

Keçid dövründə yeridilən sosial-iqtisadi inkişaf siyasəti bir tərəfdən Azərbaycanın mövcud milli maraqlarına xidmət etmiş və bununla da müsbət nəticələr vermişdir. Digər tərəfdən demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi üçün real zəmin yaratmışdır. Keçid dövrünün başa çatması ilə Respublikamız 2009-2010-cu illərdən başlayaraq sosial-iqtisadi inkişafın yeni dövrünə daxil olmuşdur.

Azərbaycanın daxil olduğu yeni dövrdə iqtisadiyyatın uzun müddətli inkişaf strategiyasını, onun məqsəd və vəzifələrini düzgün müəyyən etmək üçün bu dövrün mahiyyətini açmaq, özünə məxsus xüsusiyyətlərini aşkara çıxarmaq vacibdir.

Bunun üçün biz bir tərəfdən inkişaf etmiş demokratik dövlətlərin keçdiyi inkişaf dövrlərini, hər dövrdə yerinə yetirdiyi vəzifələri, həm də Azərbaycanın hazırki dövrə qədər inkişaf xüsusiyyətlərini nəzərə almalıyıq.

Birinci fəsildə göstərmişik ki, inkişaf etmiş demokratik dövlətlər öz inkişafında iki dövr keçmiş və təqribən XX əsrin 80-ci illərinin axırlarından üçüncü dövrə daxil olmuşlar.

Birinci dövr keçid dövrüdür.

Bu dövrün strateji vəzifəsi bütün ölkələrdə nisbətən oxşar olub, demokratik cəmiyyətin iqtisadi, siyasi, hüquqi əsaslarını yaratmaqdan, demokratik cəmiyyətə xas olan

mülkiyyət formalarını, istehsal, bölgü, mübadilə və istehlak münasibətlərini formalaşdırmaqdan, keçid dövrünə xas olan təhlükələri aradan qaldırmaqdan ibarətdir.

İkinici dövr demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi (sənaye dövrü) dövrüdür. Bu dövrdə mövcud olan qabaqcıl texnika-texnologiya tətbiq etmək və xalqın əvvəlki dövrdə əldə etdiyi istehsal təcrübəsini qoruyub saxlamaq, genişləndirmək əsasında zəngin təbii resursları (təbii sərvətləri) və milyonlarla insanı əmək fəaliyyətinə cəlb etməklə kapitalizm güclü sənaye potensialı yaratmış, məhsuldar qüvvələrin yüksək səviyyədə inkişafına nail olmuşdur.

XX əsrin 80-ci illərinin axırları və 90-cı illərin əvvəllərindən kapitalizm öz inkişafının yeni 3-cü qlobal informasiya cəmiyyətinin formalaşması dövrünə (postsənaye dövrünə) daxil olmuşdur. Yeni dövr təbii resursların nisbətən tükənməsi, sosial-iqtisadi inkişafda insanın yaradıcı, innovasiyalı fəaliyyətinin, informasiya-kommunikasiya texnologiyalarının rolunun artması, qloballaşmanın dünyanın inkişafına təsirinin güclənməsilə səciyyələnir.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin son illərdə və aylarda bir sıra fərman, sərəncam, çıxış və bəyanatlarında, bunların əsas məzmunundan asılı olaraq daxili və xarici şəraiti nəzərə almaqla Respublikanın daxil olduğu yeni dövrün xüsusiyyətləri və bu dövrdə sosial-iqtisadi inkişaf siyasəti, strategiyası və təsərrüfatçılıq modelinin ən mühüm cəhətləri bu və ya digər formada müəyyənləşdirilmişdir.

Prezident hələ "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında 2003-cü il 24 noyabr tarixli fərmanında özünün uzun

müddətli strateji məqsədini açıqlayaraq demişdir ki, bizim məqsədimiz Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirməkdir. 2007-ci il may ayının 30-da Qazax şəhərindəki çıxışında bir daha xatırlatmışdır ki, məqsədimiz müasir, iqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. Prezident 2009-cu il noyabr ayında Bakı Dövlət Universitetinin 90 illik yubileyindəki çıxışında, 26 aprel 2011-ci ildə AMEA-nın illik hesabatı zamanı giriş və yekun nitqində Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyası və təsərrüfatçılıq modeli ilə bağlı öz mövqeyini açıqlamış və bu sahələrdə alimlərin qarşısına mühüm vəzifələr qoymuşdur.

Prezident qeyd etmişdir ki, Biz uzun müddətli inkişaf strategiyamızı müəyyən edərkən güclü elmi bazaya arxalanmalıyıq. Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqnozlar verilməlidir. "Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq-20 ildən 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir". Prezident eyni zamanda Azərbaycanda elmin, ali təhsilin və iqtisadiyyatın birliyinin yaranmasının, elmi əsaslara söykənərək çoxşaxəli və dayanıqlı inkişaf modelinin qurulmasının, alimlərin müvafiq dövlət strukturları, təsərrüfat təşkilatları ilə sıx əlaqədə işləməsinin vacibliyini xüsusi vurğulamışdır. Bununla yanaşı Respublika Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev son illərdə nəşr olunmuş bir sıra əsərlərində Azərbaycanın müasirləşməsi, inkişafın Azərbaycan modeli ilə bağlı konseptual xarakterli fikirlər irəli sürülmüşdür. Həmçinin Akade-

mik Ramiz Mehdiyevin 2012-ci ildə nəşr olunmuş "XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində" əsərində Azərbaycanın hərtərəfli inkişafı və modernləşməsinin nəzəri və praktiki məsələlərinin geniş təhlilini vermişdir. Bunlar yeni dövrün inkişaf strategiyasının elmi əsaslarının yaradılması üçün çox mühüm istiqamətverici mənbələridir.

***İndi fikrimizcə, əsas məsələ Prezidentin çıxışlarında, nitqlərindəki əsas məqamları və qarşımıza qoyduğu vəzifələri və yuxarıda qeyd etdiklərimiz əldə rəhbər tutaraq ölkənin sosial-iqtisadi inkişaf*** strategiyasının, iqtisadiyyatın modernləşməsinin, sosial rifah cəmiyyətinə doğru inkişafın elmi əsaslarının işlənib hazırlanması ətrafında elmi ictimaiyyətin diqqətinin cəmləşdirilməsidir.

Bu dövrün əsas strateji inkişaf xətti Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsinə yönəlmişdir. Bu əsasda ölkəmizdə yüksək rifah cəmiyyətinin qurulması, insan potensialının bütün keyfiyyət göstəricilərinin yüksəlməsi, əmək fəallığının artmasına, əhalinin yüksək həyat və mədəni səviyyəsinə nail olunması təmin ediləcəkdir.

***Azərbaycanın daxil olduğu yeni dövrü demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və modernləşməsi dövrü adlandırmağı məqsədəuyğun hesab edirik.***

İnkişaf etmiş demokratik dövlətlərin təcrübəsinə və keçid dövründə Respublikamızda əldə olunmuşlara istinad edərək demək olar ki, inkişaf etmiş demokratik cəmiyyətin qurulmasını, təsərrüfat fəaliyyətinin bütün sahələrində bütün imkanların aşkara çıxarılması və səmərəli istifadəsini təmin etməli olan bu dövr keçid dövrünə nisbətən uzun olmaqla Respublikamızın həyatının bütün sahələrində kök-

lü kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsilə səciyyələnəcəkdir. Məhz bu dövrdə müstəqilliyimizin, demokratik cəmiyyətin iqtisadi əsaslarının yaradılması sahəsində əldə edilmiş nailiyyətlərin Respublikamız üçün nə kimi əhəmiyyət kəsb etdiyi daha geniş miqyasda aşkara çıxmalı, bütün daxili imkanları səfərbərliyə almaq və səmərəli istifadə etməklə iqtisadiyyatın hərtərəfli inkişafına nail olunmalı, cəmiyyətin intellektual və həyat səviyyəsi əsaslı surətdə yüksəlməlidir.

Demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və müasirləşməsi dövrünün başlıca strateji vəzifəsi dünyada gedən qloballaşma proseslərini, yerli şəraiti və milli mənafeni əldə rəhbər tutaraq Azərbaycanın inkişafı üçün mövcud olan bütün potensialı hərəkətə gətirmək, keçid dövründə yaranmış bütün müsbət keyfiyyətləri qoruyub saxlamaq, modernləşdirmək və cəmiyyətin inkişafının yeni dövründən irəli gələn keyfiyyətlərlə sıx əlaqədə istifadə etməklə Respublikamızın həyatının bütün sahələrinin (iqtisadiyyat, mədəniyyət, elm, təhsil, infrastruktur sahələri, sosial sfera) yüksək səviyyədə, hərtərəfli və səmərəli inkişafına nail olmaqdan ibarətdir.

***Əgər bu deyilənləri konkret iqtisadiyyat sahələrinə şamil etsək onda iqtisadi sahədə Azərbaycanın qarşısında duran uzun müddətli strateji vəzifə mahiyyətcə ondan ibarətdir ki, iqtisadiyyatın ixtisaslaşmış sahələri, ona köməkçi, xidmətedici sahələr və sosial infrastruktura sahələri bütövlükdə Azərbaycanın və onun hər bir regionunun potensial imkanlarına uyğun, qarşılıqlı əlaqədə kompleks inkişaf etsin, bir tərəfdən bütün Respublikadaxili regionların dünya bazarlarına çıxışı və dünya iqtisadiyyatına inteqrasiyası genişlənsin, digər tərəfdən onların***

***özləri arasında iqtisadi əlaqələr və inteqrasiya prosesləri o səviyyədə inkişaf etsin ki, Respublikamızda istər ərazi, istərsə də sahəvi baxımdan vahid təsərrüfat kompleksi formalaşsın. Nəticədə Azərbaycanın təsərrüfat sahələri dünyada gedən mütərəqqi yeniliklərə uyğunlaşsın və müasirləşsin, əhalinin mədəni-texniki və həyat səviyyəsinə görə dünya ölkələri arasında qabaqcıl mövqeyə çıxsın.***

Əgər bir qədər diqqətlə baxsaq bu vəzifənin yerinə yetirilməsini Azərbaycanın inkişaf səviyyəsinə görə dünyanın Yaponiya, ABŞ, İngiltərə, Almaniya, İsveçrə və i.a. kimi yüksək səviyyədə inkişaf etmiş dövlətlərinin hazırki səviyyəsinə çatması kimi təsəvvür etmək olar. Çünki məhz bu kimi dövlətlər kapitalizmin inkişafının iki böyük dövrünü keçmiş və nəticədə hərtərəfli inkişaf etmiş, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilmişlər.

Bunu xatırladaraq akademik Ramiz Mehdiyev haqlı olaraq yazır: "Şübhəsiz zəruri inkişaf nöqtəsinə çatmaq üçün biz hələ çox iş görməliyik: inkişaf vektorunu təkmilləşdirmək, iqtisadiyyatı neft ixracından asılılıqdan azad etmək və biliklər iqtisadiyyatının, elm tutumlu istehsalatların, yüksək texnologiya və innovasiyalar sahəsinin yaradılmasına keçmək lazımdır". Bu yolda Azərbaycan üçün vacib məsələlərdən biri 2004-cü ildən xarakterik olan inkişaf tempini qoruyub saxlamaqdır.

Bu strategiyaya uyğun olaraq Azərbaycanın təsərrüfatçılıq modeli müəyyənləşdirilə bilər. Bu modelin əsasında Prezidentin qeyd etdiyi kimi iqtisadiyyatın çoxşaxəli, davamlı inkişafı və modernləşməsi durur.

Respublikamızda çoxşaxəli iqtisadiyyatın yaranması və davamlı inkişafın təmin edilməsi, birinci növbədə onun hər bir regionunun iqtisadiyyatının hərtərəfli inkişafı, iqtisadi

potensialının artması və ondan səmərəli istifadə olunması, eyni zamanda iqtisadiyyatın bütün sahələrinin (ixtiaslaşmış sahələr, sosial və istehsal infrastruktur sahələri) qarşılıqlı əlaqədə kompleks və səmərəli inkişafı, onun strukturunun müasirləşməsi yolu ilə mümkün ola bilər.

Sovet dövründə sənayesi güclü inkişaf etmiş, hazırda isə potensialı xeyli köhnəlmiş və dağılmış Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan şəhərlərinin və müəyyən mənada Bakı şəhərinin sənayesinin müasirləşməsi və strukturunun mütərəqqi istiqamətdə təkmilləşməsinin davam etdirilməsi, texnoparkların yaradılmasının elmi əsaslarının işlənib hazırlanması da sosial-iqtisadi inkişaf strategiyasının mühüm daxili tərkib hissəsi kimi diqqətimizi cəlb etməlidir.

Respublikamızda məhsuldar qüvvələrin ərazi təşkilinin, istehsalın yerləşməsi, şəhər və kənd əhalisinin məskunlaşmasının təkmilləşməsinin əhəmiyyəti daha da artmaqdadır. Odur ki, Respublikanın sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi "Məhsuldar qüvvələrin səmərəli yerləşməsi və şəhərlərin inkişafının baş sxemi" və "Şəhər və kənd əhalisinin məskunlaşmasının regional sistemlərinin formalaşması və inkişafı konsepsiyası" işlənib hazırlanmalıdır. Söhbət məhsuldar qüvvələrin yerləşməsi və əhalinin məskunlaşmasının elə regional sistemlərinin formalaşmasından, region əhəmiyyətli mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin Respublika ərazisində elə vəziyyətdə bölüşdürülməsi və inkişafından gedir ki, son nəticədə kənd əhalisinin yaşayış yerini dəyişmədən belə şəhərlərdə işlə təmin olunmasına əlverişli şərait yaransın, inkişaf üçün əlverişli imkanı olan mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin regionda təşkiledici və tənzimləyici

rolu artsın, regional bazarlar formalaşsın, kənddə yaşayan əhali tələbatını ödəmək üçün başlıca olaraq paytaxta deyil, məhz yaxındakı şəhərə üz tutsun; Regional Sistemə daxil olan hər bir yaşayış məntəqəsinin, xüsusilə kəndin əmək qabiliyyətli əhalisi ehtiyac olan hallarda yaşayış yerini dəyişmədən yaxın şəhərdə və ya digər yaşayış məntəqəsində işlə təmin oluna bilsin.

Eyni zamanda akademik Ramiz Mehdiyevin göstərdiyi kimi, qarşıda duran innovativ strateji vəzifələrin yerinə yetirilməsi, iqtisadiyyatının innovativ inkişafı, millətin intellektual səviyyəsinin yüksəlməsi, dünyanın qabaqcıl dövlətlərində olduğu səviyyəyə çatması üçün Azərbaycanın nadir imkanları vardır: Azərbaycan kifayət qədər insan potensialına, təbii resurslara, inkişafın sosial-iqtisadi və ənənəvi bazasına, güclü maliyyə potensialına, əlverişli investisiya mühitinə, yerləşdiyi ərazinin əlverişli təbii-coğrafi şəraitinə, ildən-ilə artan beynəlxalq nüfuzuna güvənərək yeni eranın ruhuna uyğun informasiya cəmiyyəti formalaşdırmağa qadirdir. Dünyanın inkişafının ağırlıq mərkəzinin Qərbdən Şərqə doğru getməsi və Azərbaycanın bu iki məkan arasında aralıq mövqe tutması onun yeni dövrə uyğun cəmiyyət qurması imkanlarını daha da artırır. Buna görə də ölkəmiz milli inkişaf strategiyasında sivilizasiyaların təcrübəsindən bacarıqla istifadə etməlidir. Ramiz Mehdiyev Azərbaycanın belə bir strategiyasının mövcud olduğunu və onun ölkənin ərazi bütövlüyünün bərpasına, dövlət müstəqilliyinin və xalqın təhlükəsizliyinin möhkəmlənməsinə, müasir dövlət, müasir iqtisadiyyat və müasir cəmiyyət yaradılmasına yönəldiyini göstərir.

Bütün bu strateji məqsədlərə çatmaq, hərtərəfli inkişafa, güclü iqtisadiyyata nail olmaq qonşu böyük dövlətlərə

nisbətən keyfiyyət və texnologiya üstünlüyünə nail olmaqla mümkündür. Lakin bunun üçün cəmiyyətin hər bir üzvünün müasir inkişafın meyillərini və yollarını kifayət qədər aydın dərk etməsi və özünün tərəqqiyə nail olmağı istəməsi vacibdir. Inkişafı, tərəqqini kənardan gətirmirlər. O, cəmiyyət üzvlərinin istəkləri və bu istəklərə uyğun fəaliyyətilə mümkün olur. Millətin tərkibində kreativ və ağıllı insanların, yaradıcı enerjiyə malik olan intellektualların sayının və əhalinin içərisində xüsüsi çəkisinin artması Azərbaycanda müasir cəmiyyət qurmaq, ölkəni yeni dövrün tələblərinə və mövcud imkanlara uyğun modernləşdirmək üçün əsas amillər ola bilər.

Bütün bunların reallaşmasında isə müasir milli dövlətçilik ənənələrini yaşatmağa qadir olan fəal, əzmkar gənclər həlledici rol oynamalıdırlar. Beləliklə, XXI əsrdə postsənaye cəmiyyət konteksində millətin intellektual, yaradıcı qabiliyyətinin yüksəlməsi, onun tərkibində kreativ insanların xüsusi çəkisinin artması və burada gənclərin aparıcı mövqe tutması zamanın çağırışına çevrilir.

Cəmiyyətin yüksək səviyyədə inkişafı və innovativ modernləşməsi, yalnız sosial yönümlü güclü iqtisadiyyatın inkişafı, sosial ədalətə əməl olunması şəraitində mümkündür. Bu isə birinci növbədə güclü dövlət nəzarətinin və prezident hakimiyyətinin mövcudluğunu tələb edir.

Tarixdə çoxdan sübüt olunmuşdur ki, cəmiyyət çətin, taleyüklü vəzifələrlə qarşılaşanda onun dərin zəkalı, taleyini xalqın taleyilə bağlayan güclü liderə, onun təşkilatçı və istiqamətverici roluna tələbat yaranır. Yeni modernləşmə dövrünün də tələbi belədir. Yalnız güclü demokratik dövlət və cəmiyyəti öz arxasınca apara bilən, böyük təşkilatçılıq qabiliyyətinə malik olan siyasi liderin rəhbərliyi

altında cəmiyyətin hərtərəfli inkişafı və modernləşməsi vəzifələləri layiqincə yerinə yetirilə bilər. Ramiz Mehdiyev haqlı olaraq göstərir ki, bunlarsız ölkəni modernləşdirmək, inkişaf etmiş dövlətlər sırasına çıxarmaq üçün göstərilən bütün cəhdlər uğursuzluğa düçar ola bilər. Azərbaycanın keçən əsrin 70-80-ci illərində və müstəqillik illərində əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz güclü siyasi liderin, böyük təşkilatçılıq qabiliyyətinə malik dövlət xadiminin mövcudluğu durur.

Ümummilli liderimiz Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev məhz bu keyfiyyətləri özündə birləşdirən güclü siyasi lider və dövlət xadimi olduqlarını öz əməli fəaliyyətləri ilə sübut etmişlər. Heydər Əliyev 1993-cü ilin ortalarından başlayaraq 2003-cü ilin son aylarına qədər həyata keçirdiyi proqram xarakterli tədbirlərlə ölkəmizdə siyasi, iqtisadi və sosial sabitliyi, milli təhlükəsizliyi, demokratik dövlət quruculuğunu, islahatlar aparılmasını, bazar iqtisadiyyatına keçidi və iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etdi. 2003-cü ilin prezident seçkilərindən etibarən İlham Əliyevin innovativ siyasi lider olduğu onun hakimiyyətə sahib olan kimi qəbul etdiyi və müvəffəqiyyətlə icrasını təmin etdiyi taleyüklü fərman və sərəncamlarda, sahəmiqyaslı, xüsusilə də Region miqyaslı orijinal proqramlarda (2004-2008-ci illər və 2009-2013-cü illər) cəmiyyət həyatının bütün sahələrinə yenilik, müasirlik gətirən tədbirlərdə öz ifadəsini tapdı. Nəticədə ölkəmizdə demokratik cəmiyyət qurulmuş, sosial yönümlü bazar iqtisadiyyatı formalaşmış, Respublikamızın dünyada nüfuzu artmış, mövqeyi möhkəmlənmişdir. İlham Əliyev dünyanın inkişaf etmiş dövlətlərinin tarixi təcrübəsinə istinad edərək ölkəmizdə sosial yönümlü

liberal iqtisadiyyatın inkişafı, müasir çoxsahəli infrastrukturun yaradılması, kretiv insanın formalaşmasını, sosial ədalətin və güclü prezident hakimiyyətinin mövcudluğunu innovativ modernləşmənin, informasiya cəmiyyəti quruculuğunun əsas amilləri kimi müəyyən etdi və praktikada müvəffəqiyyətlə həyata keçirməkdədir. Bununla yanaşı ölkəmizin uzunmüddətli inkişaf strategiyasının, bu strategiyanın inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdan ibarət olan əsas hədəfinin müəyyənləşdirilməsi, millətin kreativliyinin artırılmasının vacibliyinin irəli sürülməsi də prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezidentin kreativ inkişafın məqsədi haqqında irəli sürdüyü aşağıdakı tezis bu gün elmi ictimaiyyətin əsas tədqiqat obyektlərindən birinə çevrilmişdir: "Kreativ insanlar millətin tərkibində nə qədər çox olarsa, kreativ zümrə nə qədər tez cəmiyyətin aparıcı qüvvəsinə çevrilərsə millətin birləşməsi və Azərbaycanın müasir dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə çıxması üçün baza olan innovativ iqtisadiyyatın yaradılması problemləri bir o qədər uğurlu həll olunacaqdır".

## 4.2. Yeni dövrün sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması mərhələləri

Azərbaycanın perspektiv sürətli, çoxşaxəli və innovasiya yönümlü inkişaf üçün böyük imkanlara malik olması şübhəsizdir. Bununla yanaşı qarşıya qoyulmuş strateji vəzifələrin xarakterini də nəzərə almaq lazımdır. Əgər bir qədər diqqətlə baxsaq Azərbaycanın hərtərəfli inkişafı, modernləşməsi, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi strateji vəzifəsinin çətin, çoxcəhətli olduğu-

nu və yerinə yetirilməsi üçün uzun müddət (təqribən 20-25 il), eyni zamanda dövlət tərəfindən çoxsaylı təşkilati, maliyyə, iqtisadi, normativ-hüquqi, idarəetmə xarakterli tədbirlər görülməsinin tələb olunduğunu aydın görmək olar. İqtisadiyyatı dağılan, tənəzzül dövrünü yaşayan və xüsusilə yeni cəmiyyət quruculuğuna keçid şəraitində olan dövlətlərin təcrübəsinə istinad edərək və Azərbaycanın yerli şəraitini, məhsuldar qüvvələrin inkişafı və ərazi təşkilinin mövcud vəziyyətini nəzərə almaqla belə hesab edirik ki, "Azərbaycanın hərtərəfli inkişafı, modernləşməsi zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi" strateji vəzifəsinin yerinə yetirilməsi müddətini iki mühüm mərhələyə və 4-5 proqram xarakterrli inkişaf mərhələsinə ayırmaq olar.

***Birinci mərhələdə əsas strateji vəzifələr–istehsal, bölgü, mübadilə və istehlak sahəsində bazar münasibətlərini təkmilləşdirmək; neft strategiyasının reallaşmasını başa çatdırmaq və onun həyata keçirilməsindən yaranan maliyyə-investisiya mənbələrindən səmərəli istifadə etmək; iqtisadiyyatın bütün sahələrində mövcud potensialı hərəkətə gətirmək və ondan səmərəli istifadə etməklə davamlı sosial-iqtisadi inkişafı təmin etmək; qeyri-neft iqtisadiyyatının bütün sahələrinin mənfəətlə işləməsinə və özünü maliyyələşdirmə sisteminə keçməsinə, ixtisaslaşmış sahələrinin məhsul istehsalı və ixracında xüsusi çəkisinin artmasına, respublika iqtisadiyyatının bütün sahələrinin yüksəlişinə, məhsulun rəqabət qabiliyyətinin və keyfiyyətinin yüksəlməsinə, mənfəətlə işləməsinə nail olmaq.***

Azərbaycanın hərtərəfli inkişafı, modernləşməsi, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi strategiyasının konseptual məsələlərini işləyib hazırlayarkən

yaşadığımız dünyanın inkişaf etmiş dövlətlərinin təcrübəsində mövcud olan reallıqları və Azərbaycan reallıqlarını nəzərə almaq vacibdir. Bu reallıq ondan ibarətdir ki, Azərbaycan (əslində MDB ölkələri də) demokratik cəmiyyətə keçid dövrünü (aqrar sənaye dövrünü) başa vurub ikinci dövrə (sənaye dövrünə) yaxud demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünə daxil olub. İkinci dövrdə demokratik cəmiyyətin inkişafı birinci növbədə bütün təbii imkanları təsərrüfat dövriyyəsinə cəlb etməklə iqtisadiyyatın bütün sahələrinin, xüsusilə də sənayenin güclü inkişafında öz ifadəsini tapırdı. Beləliklə, daha çox təbii resursların daha yüksək texnika və texnologiya əsasında istehsal dövriyyəsinə cəlb edilməsi inkişafın, tərəqqinin əsas mənbəyi idi. Bu inkişaf və tərəqqidə sənaye aparıcı rol oynayırdı.

Qlobal informasiya cəmiyyəti dövründə informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı, qlobal miqyaslı informasiyaya malik insan, insanın təsərrüfat fəaliyyətinin bütün sahələrinə yeni texnika-texnologiya tətbiqi, yeni mütərəqqi məhsul növləri istehsalının, əməyin təşkilinin və idarə edilməsinin yeni formalarının mənimsənilməsi və i.a. modernləşmə vasitələri inkişafın-tərəqqinin əsas mənbəyinə çevrilir. Təbiidir ki, üçüncü dövrün inkişaf mənbələri daha mütərəqqi və müasirdir. Bütün bəşəriyyət buna can atır. Lakin fikrimizcə, demokratik cəmiyyətin inkişafının qlobal informasiya cəmiyəti dövründə gec-tez o dövlətlər daha böyük nailiyyətlər qazanacaqlar, həm də o nailyyətlər uzunmüddətli və etibarlı olacaqdır ki, onlar demokratik cəmiyyətin ikinci inkişaf dövründə (sənaye dövründə) öz təbii imkanlarını daha geniş miqyasda və səmərəli formada təsərrüfat dövriyyəsinə cəlb etmiş, iqtisa-

diyyatın real sektoruna aid sahələrin yüksək səviyyədə inkişafına nail olmuşlar, yaxud bunu öz siyasətlərində həmişə diqqət mərkəzində saxlayırlar. Vaxtilə geniş müstəmləkə sahibləri olmuş, hazırda öz inhisarçı kapitalı ilə dünyanın bir çox ölkələrində iqtisadiyyatın aparıcı sahələrində hökmranlıq edən bir necə dövlət (məsələn, ABŞ, İngiltərə, Fransa və i.a.) müstəsnalıq təşkil etsə də bu müvəqqəti haldır, az-çox zaman keçəndən sonra bu cəhəti öz iqtisadiyyatında hiss edəcəkdir.

Kənar amilləri nəzərə almasaq, hər bir ölkədə təbii resursların (torpaq, su, bitki və heyvanat aləmi, yeraltı və yerüstü sərvətlər) hasilatı və emalına əsaslanan sahələrin (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyatın istehsala xidmət edən sahəsi və i.a.) inkişaf və səmərəlilik səviyyəsi bütövlükdə ölkə iqtisadiyyatının, infrastruktur sahələrinin inkişafının əsasıdır.

Əvvəla, bəşər cəmiyyəti tarixində hələ heç kim mayası təbiətin resurslarından olmayan heç bir məhsul, nemət yarada bilməmişdir. Bu gün də bu imkan yoxdur. İkincisi, xidmət, infrastruktur, informasiya-kommunikasiya sahələrində yaranan yeni məhsul, yeni dəyər məhz təbiətin bizə bəxş etdiyi nemətlərin, resursların hasilatı və emalının davamından, yaxud həmin resurslardan alınan məhsulların kombinasiyasından yaranır. Beləliklə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı təbii resursların hasilatı və emalının dərinləşməsinin sonrakı mərhələsi kimi meydana gəlir. Məhz buna görə də hər bir ölkənin, sənaye dövrünü necə keçməsi (təbii imkanlarını təsərrüfat dövriyyəsinə necə, hansı səviyyədə cəlb etməsi) müasir modernləşmə siyasətinin səmərəli reallaşmasında mühüm rol oynayır və qlobal informasiya cəmiyyətinin formalaşması,

informasiya-kommunikasiya texnologiyalarının səmərəli inkişafı üçün bir növ maddi və maliyyə bazasını təşkil edir.

Beləliklə, Azərbaycanda qlobal informasiya cəmiyyətinin formalaşması, modernləşmə, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi imkanları və nə dərəcədə səmərəli nəticələr verməsi demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünə (sənayeləşmə dövrünə) xas olan vəzifələri necə yerinə yetirməsindən asılı olacaqdır. Onda sual olunur, Azərbaycan sənayeləşmə dövrünü keçibmi, yaranmış istehsal potensialı, xüsusilə sənaye potensialı Azərbaycanın öz yerli, geniş imkanlarına uyğun qlobal informasiya cəmiyyəti qurmaq, informasiya-kommunikasiya texnologiyalarını inkişaf etdirmək, səmərli modernləşmə siyasəti yeritmək tələblərinə cavab verirmi?! Bu suala birmənalı cavab verməklə ya bəli, ya da xeyir demək çətindir. Əgər nəzərə alsaq ki, keçən əsrdə, xüsusilə Ümummili liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi 70-80-ci illərdə Respublikamızda sənayenin bütün sahələri, xüsusilə maşınqayırma, metallurgiya, kimya, neft-kimya, energetika, elektrotexnika, yüngül və yeyinti sənaye sahələri yüksək səviyyədə inkişaf etmişdi, bu sahələrdə böyük, hətta çox böyük müəssisələr, şirkətlər, kombinatlar fəaliyyət göstərirdi, aqrar sənaye kompleksinin üzümçülük-şərabçılıq, baramaçılıq-ipəkçilik, pambıqçılıq-pambıq emalı və toxuculuq, çayçılıq-çay emalı, tütün fermantasiya, meyvə-tərəvəz və meyvə-tərəvəz konservi istehsalı sahələri yüksək səviyyədə inkişaf etmişdi və bu sahələrdə Azərbaycan ittifaq əmək bölgüsündə çox mühüm yer tuturdu, onda demək olar ki, Azərbaycan demokratik cəmiyyətin sənaye dövrünü hələ Sovet dövründə keçmişdir. İndi o demokratik cəmiyyətin inkişa-

fının üçüncü dövrünün qlobal informasiya cəmiyyəti quruculuğu, modernləşmə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı vəzifələrini yerinə yetirməlidir. Strategiya da ancaq bu vəzifə və məqsədlərə nail olunmasına yönəldilməlidir.

Lakin bu da məlumdur ki, 80-ci illərin ortalarından başlayaraq 90-cı illərin ikinci yarısına qədər olan 10 ildən çox müddət ərzində Respublikamızda əvvəlki dövrlərdə yaranmış güclü iqtisadiyyat, xüsusilə sənaye və kənd təsərrüfatı potensialı tamamilə dağıldı.

Keçid dövründə Respublikamızda islahatlar aparılmış, xüsusilə regionlarda güclü infrastruktur sahələri, o cümlədən energetika sistemi yaradılmış, iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edilmiş, işsizlik, yoxsulluq problemlərinin həllində böyük müvəffəqiyyət qazanılmış, Respublikanın investisiya imkanları genişlənmiş, böyük maliyyə ehtiyatı yaranmışdır. Əlbəttə, sənayenin, kənd təsərrüfatının inkişafında da nailiyyətlərimiz var və bunlar inkar edilməzdir. Xüsusilə 2008-2009-cu illərdən başlayaraq sənayenin müxtəlif sahələrinə aid tikilmiş yeni müəssisələr Azərbaycanda sənayeləşmə prosesinin artıq bir neçə ildir başlamış olduğunu göstərir. Lakin bu da inkar edilməz həqiqətdir ki, Azərbaycan sənayesinin əsas sahələrinin, kənd təsərrüfatının, xüsusilə onun ixtisaslaşmış sahələrinin, emal sənayesinin və bütövlükdə aqrar-sənaye kompleksinin inkişafı, səmərəliliyi və rəqabət qabiliyyətliliyi Respublikanın geniş imkanları ilə müqayisədə, eləcə də 80-ci illərdəki səviyyəsi ilə müqayisədə hələ xeyli aşağıdır. Bu Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi tələblərinə hələ kifayət qədər cavab vermir. Beləliklə, öz təbii resurslarından (torpaq, heyvan və bitki

aləmi, yeraltı və yerüstü təbii resurslar) səmərəli istifadə etməklə güclü, çoxşaxəli, sənaye və aqrar-sənaye potensialı yaratmaq, məhsulun keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltmək Azərbaycan üçün gündəlikdə durur.

Bunlar isə əsasən demokratik cəmiyyətin inkişafının ikinci dövrünə-sənaye dövrünə xas olan vəzifələrdir. Beləliklə, biz Azərbaycan iqtisadiyyatının perspektiv, səmərəli inkişafına nəzər salarkən ikili vəzifə ilə rastlaşırıq.

1) Azərbaycanın təbii və əmək potensialından tam və səmərəli istifadə etməklə güclü iqtisadi potensialın yaradılması zərurəti. Bu zərurət Azərbaycan iqtisadiyyatının tarixi inkişaf xüsusiyyətlərindən (XX əsrin 70-ci illərinə qədər Regionlarda iqtisadiyyatın inkişafının nisbətən aşağı olması, 70-80-ci illərdə yaranmış potensialın dağılması və i.a.) və cari 20 illikdən sonrakı dövrdə iqtisadiyyatın güclü inkişafı üçün real maddi-texniki baza yaratmağın vacibliyi ilə əlaqədardır. Bunlar demokratik cəmiyyətin inkişafının əsasən sənayeləşmə dövrünə xas olan vəzifələrdir.

2) İqtisadiyyatın modernləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş inkişafı, insan amilinin inkişafda rolunun artırılması istehsal edilən məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin müasir dövrün tələblərinə uyğun yüksəldilməsi vacibdir. Bunlar əsasən qlobal informasiya cəmiyyətinə xas olan vəzifələrdir.

Beləliklə, Azərbaycan öz inkişafının ikinci dövrünə daxil olduğu vaxt inkişaf etmiş demokratik dövlətlər öz inkişafının yeni-qloballaşma və müasirləşmə, qlobal informasiya cəmiyətinin inkişafı dövrünə daxil olmuşdur. Deməli, Respublikamız irəliyə doğru inkişafda elə bir strateji xətt seçməlidir ki, demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövrünə

xas olan vəzifələri yeni dövrün (qlobal informasiya cəmiyyətinin və insan amilinin rolunun artması dövrünün) tələblərinə uyğun yerinə yetirə bilsin. Azərbaycan bir tərəfdən özünün zəngin təbii resurslarının, kənd təsərrüfatına yararlı torpaq sahələrinin istehsal dövriyyəsinə cəlb olunması qeydinə qalmalı, digər tərəfdən iqtisadiyyatını modernləşdirərək onun səmərəliliyinin, məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi qeydinə qalmalıdır. Yalnız bu yolla Azərbaycan qloballaşma dövrünün vəzifələrini müvəffəqiyyətlə yerinə yetirə bilər.

Azərbaycanda artıq birinci 10 illik mərhələnin vəzifələrinin yerinə yetirilməsinə başlanmışdır. Birinci 10 illik mərhələdə metallurgiya, maşınqayırma, yüngül sənaye sahələrinin, ixtisaslaşmış kənd təsərrüfatı sahələri və emal sənayesinin səmərəli inkişafı, iqtisadiyyatın neftdən asılılığının azaldılması və müəssisələrin mənfəətlə işləməsinin təmin edilməsi istiqamətində hələ çox iş görülməlidir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hazırlanmış "Azərbaycanın 2014-2023-cü illərdə sosial-iqtisadi inkişafı konsepsiyası" həmin vəzifələrin yerinə yetirilməsi istiqamətlərini və vasitələrini müəyyənləşdirmişdir.

İkinci 10 illik mərhələnin əsas məqsəd və vəzifələri:

1. iqtisadiyyatın bütün sahələrini yeni texniki, texnoloji baza üzərində daha səmərəli və kompleks inkişaf etdirmək, modernləşdirmək, strukturunda ixrac yönümlü məhsulların və elmi-texniki tərəqqinin istiqamətlərini özündə əks etdirən sahələrin xüsusi çəkisinin artması istiqamətində əsaslı dəyişikliklər etmək, kənd təsərrüfatı xammalının emalını dərinləşdirmək, Respublikanın iqtisadi rayonları arasında, istehsal əlaqələrini inkişaf etdirmək, ölkəmizdə bütün sahə-

ləri sıx əlaqədə olan vahid və yüksək səmərəli təsərrüfat kompleksinin formalaşmasına nail olmaqdan;

2. Məhsuldar qüvvələrin nisbətən səmərəli yerləşməsini, regionların istehsal potensialı arasında kəskin fərqlərin aradan qaldırılmasını, kiçik və orta şəhərlərin, xüsusilə regional mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərin yüksək səviyyədə inkişafını təmin etmək; Əmək potensialının, xüsusilə gənclərin yaradıcı, innovasiya yönümlü əməyə həvəsləndirilməsinin davam etdirilməsi, təhsilin, elmin, istehsal və xidmət sahələrinin sıx əlaqədə inkişafını təmin etməkdən ibarət ola bilər.

Azərbaycanın ***sürətli sosial-iqtisadi inkişafının mühüm məsələlərdən biri iqtisadiyyatda dövlət sektoru ilə özəl sektor arasında optimal nisbət yaratmaq,*** dövlət sektorunun idarə olunmasının təkmilləşməsi və onun cəmiyyətin həyatında rolunun müəyyənləşdirilməsidir. İndi istər nəzəri təhlil və ümumiləşdirmələr, istərsə də praktika üçün bu məsələlərin əhəmiyyəti artır. Müstəqillik illərində biz bazar iqtisadiyyatına keçid problemlərini həll etmək üçün islahatlar aparmış, iqtisadiyyatın bütün sahələrində özəl bölmənin xüsusi çəkisinin artmasına, bazar münasibətlərinin formalaşmasına çalışmışıq və yenə çalışırıq. Bu gün bu problemin həlli istiqamətində çox iş görülmüşdür. Nəticədə, ***mülkiyyətdə, bölgüdə, ictimai münasibətlər sistemində, əhalinin işlə təminatında, gəlir mənbələrində bazar münasibətlərinin prinsipləri hökmran xarakter daşıyır.***

***İndi qarşıya çıxan vəzifə bu münasibətlərin təkmilləşməsi, onların tənzim və idarə olunmasında dövlətin dünya təcrübəsinə və Azərbaycan reallığına uyğun gələn yerinin müəyyənləşdirilməsidir.*** Fikrimizcə, burda həlledici məsələlərdən biri dövlət sektorunun həcmilə qeyri-dövlət

sektoru arasında nisbət məsələsidir.

Məlumdur ki, ayrı-ayrı ölkələrdə bu nisbət həmin ölkənin obyektiv şəraitindən, tarixi inkişaf xüsusiyyətlərindən, iqtisadiyyatın inkişaf səviyyəsindən və i.a. amillərdən asılı olaraq müxtəlif olur. Lakin faktlar göstərir ki, dövlət iqtisadiyyatın strateji əhəmiyyət kəsb edən aparıcı sahələrini əsasən öz mülkiyyətində, yaxud da özünün birbaşa nəzarəti altında saxlayır, mülkiyyətdə dövlətin payı bir qayda olaraq 20%-dən yuxarı, bəzən bundan iki dəfə çox, investisiya qoyuluşunda 30%-dən yuxarı, əhalinin sosial təminatında daha yüksək xüsusi çəkiyə malik olur, ÜDM istehsalında da müəyyən maksimum və minimum hədləri, əsaslı dəyişiklikliyə uğramayan xüsusi çəki göstəriciləri vardır.

Bütün bu sahələrdə Azərbaycan şəraitində əlverişli nisbətlər necə olmalıdır? Bu sualın elmi cəhətdən əsaslandırılmış cavabları Azərbaycanın sosial-iqtisadi inkişaf problemlərinin müsbət həlli üçün mühüm əhəmiyyət kəsb edir. Biz belə hesab edirik ki, qeyri-dövlət bölməsi 75-80% səviyyəsində qərarlaşa bilər. Ümumi istehsalın, o cümlədən sənaye istehsalının mülkiyyət növlərinə görə strukturunda qeyri dövlət mülkiyyətinin xüsusi çəkisi yüksəkdir və bu sahədə demək olar ki, sabitləşmə prosesi başlanmışdır. Belə ki, ümumi istehsalın 2008-ci ildə 84,5%-i qeyri dövlət sektorunun payına düşdüyü halda, bu göstərici 2009-cu ildə 81,2, 2010-cu ildə 81,7 və 2011-ci ildə 81,5% olmuşdur. Beləliklə, ÜDM-də qeyri dövlət sektorunun xüsusi çəkisi 81-83% arasında sabitləşməkdədir. Bu yüksək xüsusi çəkidir. Eyni vəziyyət sənayedə qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisində də özünü göstərir. Belə ki, sənayedə qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi 2009-cu ildə 77,7%, 2010-cu ildə 80,1% və 2011-ci ildə 80,5% olmuşdur.

Beləliklə, sənayedə qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi artmağa meyillidir. Lakin bu meyil çox da güclü deyil, sabitləşmə meyli daha güclüdür. Bununla yanaşı mədənçıxarma, qida məhsulları istehsalı sənaye sahələrində qeyri dövlət bölməsinin xüsusi çəkisi 2005-ci ildəki 82,8%-dən 2011-ci ildə 92,3%-ə qalxmışdır. Hasilat sənayesi emal sənayesinin əsasını təşkil edir. Burada dövlət nəzarətinin, uçot və hesabatın güclü və dəqiq olmasına həmişə ehtiyac olmuşdur, bu gün də vardır. Həm də bunları insanlar yaratmamışdır, təbii resurslardır, tükənmək ehtimalı həmişə vardır. Bu sahədə dövlət mülkiyyətinin, yaxud dövlətlə şərikli mülkiyyətin mövcudluğu iqtisadiyyatın uzunmüddətli davamlı inkişafının və səmərəliliyinin xeyrinə olardı. Eyni fikirləri qida məhsulları istehsalı sənaye sahəsi haqqında da demək olar.

***Qeyri-dövlət bölməsinin xüsusi çəkisinin həddən artıq yüksək olması və getdikcə iqtisadiyyatın bütün sahələrində hökmran mövqe tutması, yəni «nə qədər mümkündürsə, o qədər iqtisadiyyatın bütün sahələri özəl sektorda cəmləşdirilsin» xətti müəyyən vaxtdan sonra onun dövlət tənzim və idarə olunmasında müəyyən çətinliklər doğura bilər. Bunu biz dünya maliyyə böhranı baş verdiyi son üç-dörd ildə yaranmış vəziyyətin timsalında aydın gördük. Metallurgiya, yanacaq-energetika, maşınqayırma, kimya, ixtisaslaşdırılmış iri həcmli aqrar-sənaye sahələrində*** nümunəvi dövlət müəssisələrinin, yaxud dövlətin iştirakı ilə şərikli müəssisələrin təşkili mümkündür. Bu istiqamətdə dövlətin fəaliyyəti genişlənə bilər. Dövlət bu tip müəssisələrdə işçilərin həyat və fəaliyyəti üçün lazımı şərait yaratmaqla özəl müəssisələrdə də həmin qayğıların həyata keçirilməsinə tələbat yaradır. Hazırda çoxsaylı özəl mü-

əssisələr nisbətən yüksək əmək haqqı versələr də bu müəssisələrdə əmək və istirahətin təşkilində nöqsanlar vardır. Mənzil tikintisinin təşkili və idarə olunmasında, habelə bu prosesə nəzarət olunmasında da dövlətin rolunu artırmaq əhəmiyyətli olardı. Bu məsələni yalnız müəssisə və idarə rəhbərlərinin, kollektivlərin təşəbbüskarlığının ixtiyarına vermək heç də həmişə müsbət nəticə vermir. Müşahidələr göstərir ki, məhz bu səbəbdən elm, təhsil, səhiyyə və digər xidmət müəssisələri arasında son 10-15 ildə işçilərin mənzillə təminatında kəskin fərqlər yaranmışdır.

Ölkəmizdə dövlət büdcəsinin vəsaiti artır və yəqin ki, gələn illərdə daha da artacaqdır. Büdcəmiz sosial yönümlü olduğuna görə onun vəsaitinin çox hissəsi yaxın gələcəkdə də sosial infrastrukturun inkişafına və sosial problemlərin həllinə yönələcəkdir. ***Bununla yanaşı dövlət büdcəsinin vəsaitinin real sektorla və sosial infrastruktur sahələri arasında bölünməsi nisbətinə, real sektorun inkişafında dövlət büdcəsinin rolunun artırılması məsələlərinə diqqət vermək lazımdır. Burda şərikli müəssisələrin təşkilini, qeyri-neft sektorunda bir çox ixtisaslaşmış sənaye və kənd təsərrüfatı sahələrində istehsal olunan məhsulların bir hissəsinin müqavilə əsasında tədarükü və satışını dövlət öz üzərinə götürə bilər.***

Əsas məsələlərdən biri, regional siyasətin mövcud normativ-hüquqi bazasını təkmilləşdirmək, inkişaf etmiş xarici ölkələrin təcrübəsində sınaqdan keçmiş, Azərbaycanın yerli şəraitinə uyğun gələn və yeni regional inkişaf proqramlarının yerinə yetirilməsini təmin edə bilən yeni qanunlar, fərmanlar və digər normativ-hüquqi sənədlər qəbul etməkdir. ***Bir daha xatırlatmağı vacib bilirik ki, Azərbaycanda regional siyasətin əsaslarını, şəhərlərin və kəndlərin inki-***

***şafını, şəhərlə kənd arasında münasibətlərin tənzimlənməsini, strateji planlaşdırma və məqsədli proqramların hazırlanmasının əsaslarını müəyyən edən qanunların işlənib hazırlanması və qəbuluna, bu sahədə görülən işlərin genişləndirilməsinə ehtiyac vardır.***

Eyni zamanda problemi həll etmək üçün əlavə tədbirlər görülməsi də vacibdir. Bunun üçün yaranmış şəraitə müvafiq olaraq mövcud regional siyasət təkmilləşdirilməlidir.

Belə şəraitdə dövlət regional siyasəti:

- Respublikanın bütün inzibati-ərazi vahidlərinin və iqtisadi rayonlarının daxili maddi ehtiyatlarından, elmi-texniki, əmək və maliyyə resurslarından səmərəli istifadəyə;
- Xarici maddi, maliyyə, kadr və elmi-texniki resursların inkişaf səviyyəsi nisbətən aşağı olan iqtisadi rayonlara daha çox cəlb edilməsinə;
- İmkan daxilində xarici sahibkarlarla milli sahibkarların birgə və müstəqil-ayrılıqda təsərrüfatçılıq formalarının və fəaliyyətinin təşkili və inkişafına yönəldilməlidir.

Məlumdur ki, Dövlət Proqramlarında regionların hər birinin inkişaf imkanları tam nəzərə alınmamışdır və alına da bilməz. Hər bir regionun özünəməxsus xüsusiyyətləri, əlavə inkişaf imkanları var ki, bu da hər bir region – inzibati rayon və şəhər üzrə xüsusi (alt) inkişaf proqramlarının işlənib hazırlanması və tətbiqini tələb edir. Bu proqramlar Dövlət Proqramını əldə rəhbər tutaraq və öncə onun şəhərlərdə, iqtisadi və inzibati rayonlarda yerinə yetirilməsi vasitəsi kimi işlənib hazırlanmalıdır. Dünya təcrübəsində çoxdan sübut olunmuşdur ki, xüsusi regional (iqtisadi, inzibati rayon, şəhər) inkişaf proqramlarının hazırlanması və tətbiqi regional inkişafın dövlət tənzim və idarə olunmasının ümumi vasitəsidir.

Bunun vacibliyini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regionlara səfərləri zamanı özünün çıxışlarında dəfələrlə qeyd etmişdir. Respublika Nazirlər Kabinetinin 2005-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında çıxışı zamanı bu məsələ barədə daha konkret formada qeyd etmişdir: «İki il bundan əvvəl qəbul edilmiş proqramda əsas istiqamətlər müəyyən edilibdir, bununla yanaşı orada konkret tədbirlər planı da var. Yenə deyirəm, eyni zamanda hər bir rayonun, hər bir kəndin öz proqramı, öz tədbirlər planı olmalıdır. Buradan, Bakıdan bütün bunları görmək, bunların hamısını idarə etmək mümkün deyildir». Bütün bunlar hazırda iqtisadi rayon, inzibati rayon və şəhər miqyaslı proqramların hazırlanması və tətbiqi məsələsinin çox vacib olduğunu göstərir. Keçən müddətdə bu sahədə bir neçə təşəbbüs göstərilmiş, müəyyən işlər görülmüşdür. İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar mərkəzində Lənkəran və Naxçıvan regionlarının, Quba-Xaçmaz iqtisadi rayonunun sosial-iqtisadi inkişaf proqramlarını hazırlamışlar, Avropa İqtisadi Birliyi Azərbaycanın bir neçə şəhərinin inkişaf proqramını təqdim etmişdir. Lakin bu proqramlar yerlərdə sosial-iqtisadi inkişafın hərtərəfli təhlilinə kifayət qədər əsaslanmadığından, bir sıra hallarda Sovetlər dövründə regional inkişaf proqnozlarının işlənib hazırlanması təcrübəsinə istinad etdiyindən, proqramın icrasında vahid rəhbərlik olmadığından, maliyyələşmə mənbələrinin kifayət qədər olmamasından və i.a. səbəblərdən öz həqiqi tətbiqini kifayət qədər tapa bilmir. Bununla yanaşı Qəbələ rayonunda, Gəncə, Sumqayıt şəhərlərində və ola bilsin ki digər inzibati rayon və şəhərlərdə də inzibati-ərazi vahidlərinin özünəməxsus inkişaf tədbirləri işlənib hazırlanmışdır.

Lakin bunlar hələ bütün rayon və şəhərləri əhatə etmir, kifayət qədər elmi və normativ-hüquqi əsasa malik deyil, dövlət tərəfindən hələ kifayət qədər dəstəklənmir.

***İnzibati rayon və şəhərlər üzrə regional məqsədli proqramların hazırlanması və tətbiqi üçün bu məsələ öncə dövlət regional siyasətinin başlıca forması kimi qəbul edilməli, müvafiq normativ-hüquqi baza yaradılmalı, qanun, fərman və sərəncamlar qəbul edilməlidir.***

***Fikrimizcə, respublikada «Regional siyasətin əsasları haqqında» və «strateji planlaşdırmanın, regional məqsədli proqramların əsasları haqqında» xüsusi qanunların qəbul edilməsi də vacibdir.***

Regional proqramların hazırlanması, tətbiqi qaydaları, maliyyələşmə mənbələri, icrasına məsuliyyət daşıyan və nəzarət edən təşkilatlar müəyyən edilməlidir. Sonra proqramın icrası üçün həyata keçirilməsi vacib olan tədbirlər müəyyənləşdirilir. Proqramın icrasının idarə edilməsi üçün hakimiyyət strukturlarının nümayəndələrindən və mütəxəssislərindən ibarət xüsusi şura, icranın təşkil qərargahları yaradıla bilər. Ümumiyyətlə hər bir regionda məqsədli proqramların idarə edilməsinin elə sistemi formalaşdırılmalıdır ki, burada bərabər hüquqlu üzv kimi yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının, biznes və qeyri hökumət təşkilatlarının və digər ictimai təşkilatların, hətta vətəndaşların iştirakı təmin olunsun.

Məlum olduğu kimi alt proqramlar adətən 9-10 bölmədən ibarət olur. Bu bölmələrdə regionun (inzibati rayonun, şəhərin) sosial-iqtisadi vəziyyəti, təbii resursları, ətraf mühitin mühafizəsi, demoqrafik vəziyyət, əmək bazarı ətraflı təhlil olunur və qiymətləndirilir. Sonra regionun sosial-iqtisadi inkişaf konsepsiyası işlənib hazırlanır, proqram

üçün vacib olan əsas məqsədlər müəyyən edilir, proqramın həyata keçirilməsi mexanizmi, tələb olunan maddi və maliyyə resurs təminatı, proqramın səmərəliliyi qiymətləndirilir. Daha sonra icra, təşkil və idarəetmə orqanları müəyyənləşdirilir. Bu istiqamətdə proqram məqsədli təşkilati işlər görmək üçün bütün rayon və şəhərlərdə kifayət qədər imkan vardır.

Əmək potensialının, xüsusilə gənclərin yaradıcı innovasiya yönümlü əməyə həvəsləndirilməsinin davam etdirilməsi, təhsilin, elmin, istehsal və xidmət sahələrinin sıx əlaqədə inkişafının təmin edilməsi də proqramlarda mühüm yer tutmalıdır.

Nəzərə alsaq ki, bu dövrlərin hər birində yerinə yetirilməli vəzifələr böyükdür və 10-15 illik müddəti əhatə edə bilər, onda həmin dövrləri də mərhələlərə ayırmağın vacibliyini qəbul etməliyik. Lakin hər mərhələdə yerinə yetirilməsi vacib olan vəzifələr əvvəlki mərhələnin vəzifələrinin necə, hansı səviyyədə yerinə yetirilmiş olmasından asılıdır. Odur ki, əvvəlcədən hər mərhələnin vəzifələrinin müəyyənləşdirilməsi çətindir. Bununla belə hər mərhələnin də vəzifələri haqqında müəyyən mülahizələr irəli sürmək olar.

**2004-2008.** Respublika iqtisadiyyatında bazar münasibətlərinin (mülkiyyət, istehsal, bölgü, mübadilə və istehlak sahəsində) hökmüranlığının təmin edilməsi, sənaye və kənd təsərrüfatında özəlləşdirmənin əsasən başa çatdırılması, kiçik və orta sahibkarlığın üstün sürətlə inkişafının, real sektorun gələcək inkişafına şərait yaradılmasının və sabit maliyyə sisteminin, kifayət qədər valyuta ehti-

yatının yaradılmasının dövlət tərəfindən dəstəklənməsi.

2004-2008-ci illərdə əldə olunmuş ən mühüm nəticələr, iqtisadi sahədə keçid dövrünün əsasən başa çatması, Heydər Əliyevin Neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi, regionlarda güclü infrastrukturun və gələcək inkişaf üçün əlverişli investisiya mühitinin formalaşması, güclü energetika bazasının, valyuta ehtiyatının yaradılması, işsizliyin, yoxsulluğun səviyyəsinin aşağı salınması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

**2009-2013.** Özəlləşdirmənin və bazar münasibətlərinə keçidin bütün sahələrdə başa çatması. İqtisadiyyatın davamlı, qeyri-neft sektorunun üstün sürətlə inkişafının təmin edilməsi, o cümlədən real sektorda iqtisadiyyatın ixtisaslaşmış sahələrinin (metallurgiya, elektro energetika, maşınqayırma, kimya, üzümçülük-şərabçılıq) yeni texnoloji baza üzərində bərpasının güclənməsi, ərazi istehsal komplekslərinin formlaşmasının və regionların tarazlı inkişafının əsasının qoyulması, emal sənaye sahələrinin üstün inkişafının təmin edilməsi, elmin və təhsilin modernləşməsinin təşkilinə və tədricən həyata keçirilməsinə başlanması. İstehsalın texniki-texnoloji bazasının müasirləşməsi vasitəsi kimi texnoparkların yaradılmasına başlanması,

investisiya mühitinin daha da yaxşılaşması və ölkənin maliyyə vəziyyətinin möhkəmlənməsi

**2014-2018.** İnfrastruktur sahələrinin inkişafına ziyan gətirmədən qeyri neft sektorunun keçmişdə ixtisaslaşmış sahələrinin (kimya, maşınqayırma, metallurgiya, üzümçülük, şərabçılıq, elektrik avadanlıqları, istehsal, informasiya-kommunikasiya texnologiyaları) innovasiya yönümlü inkişafının və müvafiq ərazi istehsal komplekslərinin formalaşmasının sürətlənməsi, vahid təsərrüfat komplekslərinin formalaşması və daxildə istehsal əlaqələrinin genişlənməyə başlaması hesabına istehsalın səmərəliliyinin, məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi, qeyri-neft sektorunun özünümaliyyələşdirmə imkanlarının genişlənməsi, Regional-mədəni-iqtisadi mərkəz xarakterli şəhərlərdə, iqtisadiyyatın ixtisaslaşmış sahələrinə aid nisbətən böyük müəssisələrin yerləşdirilməsi hesabına onların üstün sürətlə inkişafının təmin edilməsi, istehsalın iqtisadi səmərəliliyinin artırılması, Regional əmtəə bazarlarının formalaşması, Regionların şəhər və kəndlərində olan əmək qabiliyyətli əhalidən birlikdə istifadə olunması və idarə edilməsi təkmilləşməsi, əmək potensialından istifadənin səmərəliliyinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

**2019-2023.** İqtisadiyyatın ixtisaslaşmış, yerli tələbatı ödəyən sahələrinin, infrastrukturun və sosial sferanın kompleks və səmərəli inkişafının təmin edilməsi, sənaye sahələrində xammal emalının dərinləşməsi, qabaqcıl texnologiya, informasiya-kommunikasiya texnologiyaları və insan potensialının sosial-iqtisadi inkişafın əsas amilinə çevrilməsi istiqamətində hökumətin və özəl müəssisələrin fəaliyyətinin gücləndirilməsi. Qeyri-neft sektorunun səmərəliliyinin artması və bu sahələrin bütövlükdə və tamamilə özünümaliyyələşdirmə sisteminə keçməsi. Azərbaycanın iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinə görə dünyanın inkişaf etmiş dövlətləri qrupuna daxil olması.

**2024-2028.** Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə daxil olması. Elmin inkişafının, insan potensialından səmərəli istifadə və qabaqcıl texnika və texnologiyaların təbiqinin sosial-iqtisadi inkişafın həlledici amilinə çevrilməsi. Azərbaycanın inkişaf etmiş dövlətlər arasında layiqli yer tutmasının əsasən reallaşması.

Şübhsiz ki, hər iki dövrün vəzifələrinin yerinə yetirilməsi, cəmiyyətin və iqtisadiyyatın yüksək səviyyədə inkişafı və təkmilləşməsi minimum ikili istiqamətdə gedə bilər: 1)Dünyada gedən mütərəqqi inkişaf meyllərini nəzərə almaqla iqtisadi, sosial və siyasi sahələrdə qloballaşan

dünyaya daha sıx inteqrasiyası əsasında cəmiyyətin dünyəviləşməsi, müasirləşməsi

2) Milli mənafeni nəzərə almaqla yerli potensialın tamamilə hərəkətə gətirilməsi və istifadə olunması, başqa sözlə iqtisadiyyatın inkişafı və strukturunun təkmilləşməsi bir tərəfdən milli mənafeyimizə və daxili potensialdan səmərəli istifadəyə uyğunlaşdırılmalı, digər tərəfdən dünya iqtisadiyyatına inteqrasiyanın inkişafı tələblərinə cavab verməlidir.

Beləliklə, Azərbaycanda demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və təkmilləşməsi dövründə düzgün siyasət yeridildiyi şəraitdə Respublikamızın hərtərəfli inkişafı, zəngin və qüdrətli dövlətə çevrilməsi məqsədinə nail olunacaqdır. Bizim gələcək cəmiyyətimiz, onun iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi xüsusiyyətləri isə millilikla dünyəviliyin vəhdətinə əsaslanan keyfiyyətləri özündə birləşdirəcəkdir. Azərbaycan məhz bu səviyyəyə çatdıqda indiki inkişaf etməkdə olan ölkədən bütün sahələrdə hərtərəfli inkişaf etmiş, zəngin və iqtisadi sahədə qüdrətli dövlətə çevriləcəkdir.

## 4.3. İqtisadiyyatın çoxşaxəli, innovasiya yönümlü inkişafı və modernləşməsi istiqamətləri

Prezidentin müvafiq sərəncamı əsasında hazırlanmış "Azərbaycanın 2014-2023-cü illərdə sosial-iqtisadi inkişafı" konsepsiyası və Azərbaycanın 2014-2018-ci illərdə Sosial-İqtisadi inkişafı Dövlət Proqramı müəyyən edilmiş strategiyanın reallaşmasında mühüm və müəyyənedici mərhələdir. Konsepsiyanın əsas hədəfi yaxın 10 ildə Res-

publikada iqtisadiyyatın çoxşaxəli, davamlı, innovasiya yönümlü, səmərəli inikşafına nail olmaq, rəqabət qabiliyyətli, keyfiyyətli məhsul istehsal etmək və xidmət göstərməkdir. Daxili ümumi məhsulun həcmini azı iki dəfə artırmaq nəzərdə tutulur. Konsepsiyanın yerinə yetirilməsi nəticəsində Azərbaycan inkişaf etmiş dövlətlər sırasına daxil olacaqdır. Cəmiyyətin modernləşməsinə aid birinci fəsildə göstərilənləri, hər bir sahənin spesifik xüsusiyyətlərini əldə rəhbər tutaraq Respublikamızda ayrı-ayrı sahələrin modernləşməsi istiqamətləri müəyyənləşdirilmişdir. İqtisadiyyatın modernləşdirilməsi üçün ümumi prinsiplərlə yanaşı iqtisadiyyatın davamlı, qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi prinsiplərini də əldə rəhbər tutularaq Respublika hökuməti tərəfindən iqtisadiyyatın modernləşməsinin beş əsas istiqaməti müəyyənləşdirilmişdir.[1]

1. Azərbaycan iqtisadiyyatının innovativ inkişafıdır. Bu istiqamət Azərbaycan şirkətləri tərəfindən müasir texnologiyaların mənimsənilməsini, rəqabətə davamlı məhsul istehsalının təmin edilməsini və ixrac bazarlarının genişləndirilməsini nəzərdə tutur. Bu istiqamət artıq dörd-beş ildir ki, başlanmışdır. 2010-cu ildə müasir texnologiyaların tətbiqilə 2007-ci ildəkinə nisbətən beş dəfə çox məhsul istehsal edilmişdir.

2. Bazar təsisatlarının dinamik inkişafının davam etdirilməsi, möhkəmlənməsi və rəqabətinin təmin edilməsidir. Bu istiqamət sahibkarlığın inkişaf etdirilməsi və ölkə iqtisadiyyatına investisiyalar cəlb edilməsini nəzərdə tutur. Azərbaycanın iqtisadi siyasətinin mühüm elementlərindən

---

[1] Bax: Ramiz Mehdiyev. XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində. "Yeni Azərbaycan" qəzeti, 26 iyun 2012-ci il.

biri olmuşdur və yenə biri olaraq qalır.

3. Milli iqtisadiyyatın daha da şaxələnməsini, müasir texnologiyaların tətbiqilə məhsul istehsalının genişləndirilməsini, "emal sənayesinin" və biliklər iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasını nəzərdə tutur. İnnovativ inkişafın hüququ və iqtisadi əsaslarının təkmilləşməsi üzrə də işlər aparılır.

4. İnsan kapitalının yeni keyfiyyətinə nail olmaq, yaradıcı, düşünə bilən kadrlar yetişdirmək, onların hazırlıq səviyyəsini kreativ iqtisadiyyatın tələblərinə uyğunlaşdırmaqdır. Bu məqsədlə ölkədə təhsil sisteminin bütün formalarının keyfiyyətcə yeniləşməsi üzrə yaradıcı iş aparılır.

5. İqtisadi artımın yeni mənbələrinin yaradılması üzrə işi davam etdirməkdir. Bakı-Tibilisi-Qars dəmir yolunun, Beynəlxalq dəniz ticarət limanının tikintisi ölkənin tranzit yük daşımalarını artırmaqla bu məqsədə nail olunmasına xeyli kömək edəcək. İqtisadi artımın yeni mənbələrinə texnoparklar, yüksək texnologiya hazırlayan və tətbiq edən şirkətlər, sənaye şəhərcikləri, Gəmiqayırma zavodu, üç sement zavodu və digər bu tip müəssisələr aid edilə bilər. Şübhəsiz ki, iqtisadi artımın tədricən yeni digər mənbələri də yaranacaqdır.

Yuxarıda göstərilən modernləşmə və inkişaf istiqamətlərinə istinad edərək iqtisadiyyatın çoxşaxəli, innovasiya yönümlü inkişafı və modernləşməsi üçün yerinə yetirilməsi vacib olan bir çox vəzifələri nəzərdən keçirək:

Birincisi, qeyri neft sektorunun son üç ildə başlanmış sürətli inkişafını davam etdirməklə bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafının ağırlıq mərkəzini neft sektorundan qeyri neft sektorunun üzərinə keçirmək və ölkəmizin

iqtisadi potensialının artmasında qeyri neft sektorunun həlledici rolunu təmin etmək.

Əvvəlki fəsildə göstərdiyimiz kimi qeyri neft sektorunun üstün sürətlə inkişafı prosesi 2010-cu ildə başlanmış, 2011-2012-ci illərdə müvəffəqiyyətlə davam etdirilmişdir. Nəticədə 2010-cu ildən başlayaraq Respublika iqtisadiyyatının inkişafının ağırlıq mərkəzi artım sürətinə və investisiya qoyuluşunun həcminə görə neft sektorundan qeyri neft sektorunun üzərinə keçmişdir. Qeyri neft sektorunda investisiya qoyuluşu, ÜDM istehsalının artım sürəti ümumrespublika investisiya qoyuluşundan və ÜDM-in artımından, eləcə də neft sektorunun müvafiq göstəricilərindən yüksək olmuşdur. Nəticədə Respublikada ÜDM istehsalında qeyri neft sektorunun xüsusi çəkisi sürətlə artmağa başlamış və ikinci fəsildə göstərdiyimiz kimi 2012-ci ildən başlayaraq Respublikada istehsal edilən bütün ümumi daxili məhsulda onun xüsusi çəkisi 51%-dən çox olmuşdur. Bu proses gələcəkdə də davam etdiriləcək və ÜDM də qeyri neft sektorunun xüsusi çəkisi daha yüksək olacaqdır.

İnvestisiyanın çox hissəsini özünə cəlb etməsi və ÜDM-in çox hissəsinin də qeyri-neft sektorunda istehsal olunması Azərbaycanda qeyri-neft sektorunun inkişafında çox mühüm nailiyyət olmaqla yanaşı, onun inkişafı qarşısına yeni mühüm vəzifələr qoyur. Başqa sözlə qeyri-neft sektorunun Neft fondundan asılılığının azaldılmasını, səmərəliliyinin, dövlət büdcəsinin formalaşmasında rolunun artırılmasını, mənfəətlə işləməsini və özünü maliyyələşdirmə sisteminə keçməsini, məhsulun rəqabət qabiliyyətinin, keyfiyyətinin yüksəldilməsini və xarici bazarlara ixrac imkanlarının artırılmasını tələb edir.

İqtisadiyyatın neftdən, Neft Fondundan asılılığı azalmalı, dövlət büdcəsinin formalaşmasında, büdcəyə vergi toplanmasında qeyri neft sektorunun payı artmalıdır. ***Bu isə qeyri neft sektorunun səmərəliliyinin (mənfəətin), məhsulun keyfiyyətinin, rəqabət qabiliyyətinin artırılmasını və bütövlükdə qeyri neft sektorunun özünü maliyyələşdirmə sisteminə keçməsini tələb edir.***

Beləliklə, gələcək iqtisadi inkişafda diqqət çəkən ikinci mühüm istiqamət səmərəliliyin, məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılmasıdır.

Bütün bu problemlərin həllinin əsas yolu isə regionlarda məhsul və xidmətlər istehsalının innovasiya yönümlülüyünün gücləndirilməsi, başqa sözlə, innovasiya yönümlü iqtisadiyyatın formalaşması və innovasiya yönümlü inkişafın təmin edilməsidir. Bunun vacibliyi həm də ondan irəli gəlir ki, sənayedə innovasiya yönümlü məhsul istehsalı nisbətən az olub əsasən emal sənayesinə aiddir. Məhz bu səbəblərdən və qloballaşma şəraitinin tələblərini nəzərə almaqla Azərbaycanın 2014-2023-cü illərdə sosial-iqtisadi inkişafı konsepsiyasında innovasiya yönümlü inkişafa çox böyük diqqət yetirilir. Konsepsiyada ümumi daxili məhsulun iki dəfə artımına qarşı informasiya-kommunikasiya texnologiyaları məhsulunun 3-4 dəfə artımının nəzərdə tutulması da bunun əyani göstəricisidir.

İnnovasiyaya müxtəlif təriflər verirlər. Lakin bunların hamısının mahiyyəti cəmiyyət həyatının müxtəlif sahələrində, o cümlədən iqtisadi fəaliyyət sahələrində müxtəlif xarakterli mütərəqqi yeniliklərin yaradılması və təcrübədə istifadə olunmasını nəzərdə tutur. İqtisadiyyat sahəsində innovasiya yönümlü inkişaf başlıca olaraq müasir elmi-texniki-texnoloji yeniliklərin yaradılması və təsərrüfat fəa-

liyyəti sahələrinə tətbiqini, yeni mütərəqqi idarəetmə formalarının, yeni rəqabət qabiliyyətli məhsul istehsalının mənimsənilməsini, kadrların bilik, peşəkarlıq və ixtisas səviyyəsinin müasir tələblər səviyyəsində artırılmasını nəzərdə tutur. Lakin hər bir ölkənin tarixi inkişaf xüsusiyyətlərindən, iqtisadiyyatın inkişafı səviyyəsindən, maliyyə imkanlarından, elmi-texniki və kadr potensialının vəziyyətindən, ölkənin seçdiyi sosial-iqtisadi inkişaf strategiyasından asılı olaraq innovasiya yönümlülük müxtəlif səviyyələrdə və istiqamətlərdə həyata keçirilir.

Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun çoxşaxəli olması və onların hər birinin kifayət qədər inkişaf etməsinə baxmayaraq səmərəliliyinin aşağı olması, kifayət qədər elmi-texniki potensialın, maliyyə potensialının mövcudluğu innovasiya yönümlülüyün bütün iqtisadiyyat sahələrində həyata keçirilməsini tələb edir.

Burada başlıca problem Azərbaycanda elmi əsaslara istinad edən və Respublikanın iqtisadiyyatın inkişafı sahəsində tarixi təcrübəsini nəzərə alan regional innovasiya siyasətinin işlənib hazırlanmasıdır. Respublikamızda bütövlükdə iqtisadiyyatın inkişafı üçün innovasiya siyasəti əsasən formalaşmış olsa da, onun regional aspektləri haqqında bunu demək çətindir. Regional innovasiya siyasətində, bu siyasətin strateji məqsəd və vəzifələri, innovasiya fəaliyyətinə dövlət dəstəyinin metodları, formaları, dövlət büdcəsi hesabına elmi tədqiqatların və innovasiya layihələrinin maliyyələşməsi, kommersiya banklarından dövlət zəmanətilə kredit verilməsi, innovasiya tədqiqat mərkəzlərinin dövlət büdcəsindən subsidiyalaşdırılması, uzun müddətli riskli tədqiqatlara dövlət maliyyə köməyinin göstərilməsi, habelə innovasiya fəaliyətinə müxtəlif vergi güzəştlə-

rinin tətbiqi, ƏDV-nin azaldılması, əlavə gəlirlərin (dividentlərin) güzəştli vergiyə cəlb olunması, mənfəətdən verginin azaldılması və i.a. məsələlər öz əksini tapa bilər.

İnnovasiya fəaliyyəti iştirakçılarının qorunması, innovasiya proseslərinin tənzimlənməsi, dövlət patent-lisenziya sisteminin yaradılması, dövlət innovasiya infrastrukturu və innovasiya bazarının formalaşdırılması, innovasiya fəaliyyətinin dövlət tərəfindən mənəvi cəhətdən stimullaşdırılması (böyük ixtira və nailiyyətlərin müəlliflərinin, bu sahədə uzun müddət vicdanla işləyənlərin müxtəlif dövlət mükafatları ilə təltif olunması) da bu siyasətin vacib ünsürləri sırasında göstərilməlidir.

Dövlət regional innovasiya siyasətinin əsas istiqamətləri müəyyən edildikdən sonra innovasiya fəaliyyətinin digər məsələləri də öz həllini tapa bilər. Bununla yanaşı innovasiya fəaliyyətinin təşkili və idarə edilməsinin normativ-hüquqi bazasının təkmilləşməsi istiqamətində elmi-təşkilati iş aparılması vacibdir. Fikrimizcə, innovasiya fəaliyyətinin təşkili, tənzim və idarə edilməsinin normativ-hüquqi əsaslarını müəyyən edən qanunun qəbul edilməsi də məqsədəuyğun olardı.

Bu qanun və digər normativ-hüquqi aktlarda elmi-texniki sahədə sahibkarlığın inkişafı, müəssisələrin innovasiya fəaliyyətinin stimullaşdırılması qaydalarının öz əksini tapması vacibdir.

İqtisadiyyatın innovasiya yönümlü, səmərəli və rəqabət qabiliyyətli inkişafı mənafeyi birinci növbədə ali təhsilin, elmin və iqtisadiyyatın birliyinin yaranmasını, təhsildəki nailiyyətlərin elmdə, elmdəki nailiyyətlərin təhsildə və iqtisadiyyatda tətbiqini tələb edir. İqtisadiyyatda qabaqcıl təcrübənin ümumiləşdiril-məsi və təbliğinə, alimlərimizin

müvafiq dövlət strukturları, təsərrüfat təşkilatları ilə sıx əlaqədə işləməsinə, regional tədqiqatların güclənməsi və səmərəliliyinin artmasına ehtiyac vardır.

Eyni zamanda elmin və elmi-tədqiqatların inkişafının prioritet istiqamətlərilə iqtisadiyyatın inkişafının prioritet istiqamətlərinin düzgün əlaqələndirilməsi də vacibdir. İqtisad elmi dövlətin siyasətini qabaqlamalı, öz tədqiqatlarından əldə etdiyi nəticələr, verdiyi tövsiyyə və təkliflərlə dövlətin sosial-iqtisali inkişaf siyasətinin formalaşması və reallaşmasının etibarlı informasiya mənbəyinə çevrilməlidir.

Azərbaycan iqtisadiyyatının perspektiv innovasiya yönümlü inkişafının başqa bir mühüm məsələsi onda olan birtərəfliliyin (xammal yönümlülüyün) minimum həddədək azaldılması və ***çoxşaxəli, kompleks inkişafın*** – yəni iqtisadiyyatda ixtisaslaşmış sahələrin, köməkçi və xidmətedici sahələrin və sosial infrastrukturun kompleks inkişafının təmin edilməsidir. Bu zaman Respublikamızda iqtisadiyyatın inkişafında yaxın keçmişdə toplanmış təcrübəyə, ənənəyə istinad edilməsi vacibdir. Respublika Prezidenti gələcək inkişaf konsepsiyasını hazırlayarkən keçmişin mütərəqqi ənənələrindən istifadə olunmasının vacibliyini bir daha xatırladaraq demişdir:

"İqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində quran və hər zaman mütərəqqi ənənələrə istinad edən dövlətlər dinamik inkişafa nail olur, dünya arenasında layiqli yerlərini tuturlar". Bu baxımdan keçən əsrin 70-80-ci illərində öz inkişafının yüksək səviyyəsinə çatmış iqtisadiyyatımızın hər bir sahəsinin inkişaf imkanlarının hazırda mövcud olan şəraitə uyğun olaraq nəzərdən keçirilməsi vacibdir. İqtisadiyyatımızın o zaman inkişaf etmiş bütün əsas

sahələrinin, xüsusilə energetika, metallaurgiya, kimya, maşınqayırma, yüngül və yeyinti sənayesinin bir çox əsas sahələrinin inkişafı sahəsində zəngin ənənə və təcrübə toplanmışdır. Belə hesab edirik ki, bu sahələrin hamısının imkan daxilində yeni şəraitə uyğun dirçəldilməsi və inkişafı bütövlükdə iqtisadiy-yatımızın çoxşaxəli inkişafının əsas yoludur.

Iqtisadiyyatın innovasiya yönümlü və səmərəli inkişafının ən mühüm məsələlərindən biri də onun çoxşaxəli formalaşmasının prioritet istiqamətlərinin müəyyənləşdirilməsidir. Bu iqtisadiyyatın ixrac yönümlü, rəqabət qabiliyyətli strukturunun formalaşması üçün də mühüm əhəmiyyət kəsb edir.

Elmi əsaslara söykənmək, mütərəqqi ənənələrə istinad etmək və yeni mütərəqqi məhsullar istehsalını mənimsəmək və qloballaşmadan yaranan tələbləri nəzərə almaqla iqtisadiyyatın inkişafının prioritet istiqamətləri müəyyənləşdirilə bilər. Görünür, bu sahədə tədqiqatlar aparılmalı, müasir dövrün tələblərini, Respublikanın yerli şəraitini, imkanlarını, habelə bu sahədə dövlətin yeritdiyi siyasəti nəzərə almaqla iqtisadiyyatın inkişafının prioritet istiqamətləri ilə elmi-tədqiqat işlərinin prioritet istiqamətləri düzgün əlaqələndirilməlidir. Azərbaycan Respublikasının Prezidenti 2011-ci ildə AMEA-nın illik hesabatı zamanı çıxışında iqtisadiyyatın müasirləşməsinin prioritet istiqamətləri kimi bizim diqqətimizi elmi-texniki tərəqqi ilə bağlı gələcəyə yönəlmiş addımların atılmasına, kosmik sənayenin yaradılmasına, texnoparkların yaradılmasının davam etdirilməsinə, informasiya-kommunikasiya texnologiyalarının, rabitə ilə bağlı sənayenin sürətli inkişafına, beynəlxalq elmi mərkəzlərlə əməkdaşlığın inkişafına və i.a. cəlb etdi.

Azərbaycan sənayesinin çoxşaxəli inkişafının təmin edilməsində neft-kimya sənayesinin rolu getdikcə artır.

Belə ki, Azərbaycanda bu sahədə güclü elmi məktəb olduğunu, böyük təcrübə toplandığını, zəngin xammal olduğunu nəzərə almaqla hazırda Respublikada müasir kimya sənaye kompleksinin tikilməsi istiqamətində artıq xeyli iş görülmüşdür. Burada əsas vəzifə yeni müasir texnika və texnologiyalar tətbiq etməklə neft emalının dərinləşdirilməsi və yeni məhsulların alınması, istehsal olunan məhsulların keyfiyyətinin, rəqabət qabiliyyətinin yüksəldilməsindən, məhsulların satışı üçün yeni bazarlar əldə edilməsindən ibarətdir.

Kənd təsərrüfatında kooperativlərin yaradılması onun inkişafı üçün vacibdir. Respublika Prezidenti öz çıxışında 100 min hektaradək torpaq sahəsinin kənd təsərrüfatı üçün dövriyyəyə veriləcəyini bildirmişdir. Beyləqan, İmişli, Ağcabədi rayonlarında və digər rayonlarda kənd təsərrüfatında kooperativlərin yaradılması istiqamətində geniş miqyaslı iş aparılmasına başlanmışdır. 2011-ci ilin sonunda Respublikamızda üzümçülüyün inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Məqsəd üzümçülükdə sahibkarlara hər növ dəstək vermək və onun keçmiş şöhrətinin yeni dövrün tələblərinə uyğun bərpasına nail olmaqdır. Kənd təsərrüfatında qabaqcıl təcrübənin öyrənilməsinə, ən müasir texnologiyanın Respublikamıza gətirilməsi və tətbiqinə bundan sonra da böyük qayğı göstərilməlidir. Azərbaycanda kiçik və orta müəssisələrin ümumi sayı son 3-4 ildə nisbətən azalmışdır. Lakin hər müəssisəyə düşən məhsul istehsalı və xidmət göstərilməsi artmışdır. Bu həmin müəssisələrin maliyyə imkanlarının artdığını göstərir. Bu imkanı və hər il SKMF-dan verilən güzəştli kreditin həcminin artmasını

nəzərə alaraq bu müəssisələrdə yeni texnologiyanın tətbiqi başlanmış və bu prosesin güclənməsini diqqət mərkəzində saxlamaq vacibdir.

Azərbaycanda metallurgiya sənayesinin inkişafı üçün geniş imkanlar olduğu və bu imkanlar əsasında Sovet dövründə güclü metallurgiya sənayesi yaradılmış olduğu məlumdur. Lakin 80-ci illərin axırları və 90-cı illərin birinci yarısında bu mühüm sənaye sahəsi tamamilə dağıldı və öz fəaliyyətini demək olar ki dayandırdı. Lakin hazırda bu sahə yeni texnoloji baza üzərində inkişaf etməkdədir. Gəncə-Daşkəsən şəhərlərində keçmişdə yaranmış və sonradan dağılmış filiz-alüminium istehsalı kompleksi yeni texnoloji baza üzərində daha geniş həcmdə bərpa olunur və filiz-alüminium-polad istehsalı kompleksi yaradılır. 2011-ci ildə Gəncə Alüminium zavodu işə düşmüşdür və istifadəsi mümkün olan istehsal gücü 50 min tondur, başqa sözlə, 50 min ton aliminium istehsal olunmuşdur. Respublika Prezidentinin qeyd etdiyi kimi aliminium istehsalı həcmini 100-200 min tona da çatdırmaq imkanı vardır. Şübhəsiz hər iki müəssisə Azərbaycanın sənaye potensialını xeyli artıracaqdır. Lakin əsas məsələ istehlakçılara malik olmaq və hazır, texnoloji cəhətdən başa çatmış məhsul istehsalına nail olmaqdır. Digər tərəfdən bu növ əhəmiyyətli müəssisələr başlıca olaraq xarici investisiyaların və Azərbaycan dövlət büdcəsinin hesabına tikilir. Özəl sektor da belə strateji əhəmiyyətli müəssisələrin tikintisində iştirak etməli və real sektorda məhsul istehsalını artırmalıdır. Bunlarla yanaşı metallurgiya, maşınqayırma müəssisələrində texnoloji proseslərin dərinləşməsinə, yeni növ məhsulların, geniş istehlak əmtəələrinin (aliminium qutu-

lar, lentlər və digər geniş istehlak malları) istehsalına da diqqət artırılmalıdır.

Maşınqayırmanın innovasiya yönümlü inkişafı sənayenin, bir çox cəhətdən bütövlükdə iqtisadiyyatın innovasiya yönümlü inkişafının mühüm mənbəyidir. Sovet dövründə Azərbaycanda sənaye şəhərlərində və xüsusilə Bakı şəhərində maşınqayırma güclü surətdə inkişaf etmişdi, bir çox kiçik daha perspektivli şəhərlərimizdə böyük maşınqayırma müəssisələrinin filialları açılmışdır. Lakin maşınqayırma sənayesi də 80-ci illərin axırları və 90-cı illərin birinci yarısında dərin böhrana düşdü. Ancaq 1997-1998-ci illərdən başlayaraq bu sahə də tədricən dirçəliş yoluna düşdü. Əvvəlki fəsildə göstərildiyi kimi son 10-12 ildə Respublikada çox sayda maşınqayırma və metal emalı müəssisələri tikilmişdir.

Azərbaycanda kifayət qədər metal istehsalı, tarixən toplanmış kifayət qədər təcrübə və ixtisaslı kadrların mövcud olması burada maşınqayırmanın yaxın perspektivdə daha sürətlə və çoxsahəli inkişafına şərait yaradır. Maşınqayırma müəssisələri Bakı şəhəri ətrafı yaşayış məntəqələrində, Azərbaycanın orta və böyük şəhərlərində, inzibati rayon mərkəzlərində isə nisbətən böyük müəssisələrin filialları yerləşdirilə bilər.

Sənayenin modernləşdirilməsinin bütün dünyada olduğu kimi Azərbycanda da mühüm istiqamətlərindən biri də informasiya kommunikasiya texnologiyalarının inkişafıdır. Bu sahənin inkişafına dünyanın bütün ölkələrində həmin ölkənin ümumi inkişaf səviyyəsindən asılı olaraq böyük diqqət göstərilir. Bu sahəyə yönəldilən investisiya sürətlə artır. Məhsul istehsalının artım sürəti digər sahələrdə olduğuna nisbətən yüksəkdi. 2010-cu ildə dünyada İKT-yə

təqribən 3,5 trilyon dollar xərc çəkilmişdir. 2010-cu ildə bu sahəyə çəkilən xərclər 2009-cu ilə nisbətən 8% çoxdur. İKT-yə çəkilən xərclərin həcminə görə dünyada birinci yeri ABŞ tutur, Çin və Yaponiya 2-3-cü yerləri bölüşdürürlər. Belə ki, 2010-cu ildə İKT-yə ABŞ 200 mlrd dollar, Çin və Yaponiya hər biri 180 mlrd dollar xərcləmişdir.[1] Azərbaycanda İKT-nin inkişafına diqqət Heydər Əliyev hakimiyyətə gəldiyi ilk ildən başlanmışdır. Belə ki, 1993-cü ilin avqust ayında Heydər Əliyev Amerika qitəsilə Azərbaycan arasında birbaşa sputnik əlaqə sisteminin yaranmasına nail oldu. 1994-1996-cı illərdə Azərbaycan çoxsaylı beynəlxalq təşkilatların üzvü oldu. O cümlədən Beynəlxalq Telekommunikasiya ittifaqının və Beynəlxalq poçt ittifaqının üzvü oldu. "Bakcell" və "Azercell" birgə müəssisələrinin yaranması (1994 və 1996-cı illər) ilə mobil telefon əlaqəsinin əsasları qoyuldu. 1995-ci ildə Azərbaycanda ilk dəfə olaraq Beynəlxalq telefon stansiyası və Elektron ATS, sonrakı illərdə telekommunikasiya və internetin yaranması və inkişafı istiqamətində təşkilati, texniki-iqtisadi xarakterli işlər daha geniş miqyasda aparılmağa başlamışdır.[2] Sonrakı illərdə Azərbaycanda da İKT böyük sürətlə inkişaf etməyə başladı. Respublikamızda İKT-nin inkişafına dövlət xüsusi qayğı göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2003-cü ildə Cenevrədə İnformasiya cəmiyyəti quruculuğu problemlərinə həsr olunmuş dünya sammitindəki çıxışında bu sahədə özünün siyasətini açıq

---

[1] Roza Əliyeva. Azərbaycanın innovasiyalı iqtisadi inkişafının infrastruktur təminatı. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, №2 (38) 2012, səh.185-189

[2] Ətraflı məlumat üçün bax: Али Аббасов. Политика информационно-комминикационных технологии современного Азяербайджана. Украйна, Экономист №5 2013, стр.16-20

ifadə edərək qeyd etmişdir ki, Azərbaycanın əsas məqsədi özünün "qara qızılını" insan kapitalına çevirməkdir və bu işdə aparıcı rollardan biri informasiya-kommunikasiya texnologiyalarının inkişafına məxsusdur. 2010-cu ildə Respublikamızda informasiya-kommunikasiya texnologiyaları istehsal olunan ÜDM-in həcminə görə energetikadan sonra ikinci yeri tutmuşdu. 2004-2010-cu illərdə İKT sektorunda ÜDM-in həcmi 5 dəfə artmışdır. Bu sahədə məhsul istehsalı və xidmətlərin dəyəri 2010-cu ildə 27,1%, 2011-ci ildə 8,4% artmışdır. 2010-cu ildə 1,5 mlrd dollar məhsul istehsalına malik olan İKT, Respublikada istehsal olunan ÜDM-in 1,9%-ini (o cümlədən qeyri-neft sektorunda ÜDM-in 4,3%-i) vermişdi. Respublika iqtisadiyyatına investisiya qoyuluşunun 2010-cu ildə 1,8%-i, 2011-ci ildə 3%-i İKT-nin payına düşmüşdür.[1] İKT-nin inkişafında özəl sektor mühüm rol oynayır. Hazırda İKT-də ÜDM istehsalında onun xüsusi çəkisi 80%-ə çatmışdır. İKT-nin həm cəmiyyətdə mühüm xidmət sahəsi, həm də mənfəətlə işləyən istehsal sahəsi kimi rolu tədricən artmaqdadır. Qeyd etmək lazımdır ki, İKT infrastrukturun çox səmərəli sahəsidir və burada investisiya qoyuluşu nisbətən çox mənfəət verir. Ümumiyyətlə, 2003-2010-cu illərdə bu sahədə orta illik artım 30%-dən çox, dünyada orta hesabla 10% olmuşdur. Bunun əsas səbəbi bu sahənin inkişafına dövlətin və onun başçısı İlham Əliyevin göstərdiyi xüsusi qayğıdır. Belə ki, hər il bu sahənin inkişafına dövlət büdcəsindən 50-60 mln.dollar vəsait ayrılır. 2007-2010-cu illərdə isə bu sahəyə 600 mln dollardan çox sərmayə ayrılmışdır. Bu sərmayə ildən-ilə artır və onun Azərbaycan

---

[1] Ramiz Mehdiyev. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. №2(34) 2011, səh.47-48

regionlarında İKT-nin inkişafına yönəldilən hissəsi də buna müvafiq olaraq artır. Əgər 2007-ci ildə İKT-yə 196,1 mln.dollar vəsait qoyulmuşdusa, 2012-ci ildə 400 mln. dollara çatmışdır. Azərbaycan əhalisinin 70%-i internet istifadəçisidir. Respublika Prezidenti tərəfindən 2013-cü ilin informasiya-kommunikasiya texnologiyaları ili elan edilməsi bu sahənin inkişafına özünün müsbət təsirini göstərməkdədir. 2013-cü ilin fevral ayında Azərbaycanın ilk telekommunikasiya peykinin buraxılması elmimizin çox mühüm nailiyyətidir və gələcəkdə Respublikamızda informasiya-kommunikasiya texnologiyalarının daha sürətlə inkişaf edəcəyindən xəbər verir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müəyyən etdiyi strategiyaya uyğun olaraq Azərbaycanda yaxın 10-15 ildə İKT-dən gələn gəlirlərin neft ixracından əldə edilən gəlirlərə çatması planlaşdırılmışdır[1]. Bu məqsədə nail olunmasında ölkəmizdə yaradılan texnoparklar, təhsil xərclərinin artırılması mühüm rol oynamalıdır. 2011-ci ildə dövlət büdcəsi xərclərinin 8,2%-i, 2012-ci ildə 11-12%-i təhsil xərclərinin payına düşmüşdür.

Əlbəttə, qeyri-neft sektorunun prioritet sahəyə çevrilməsi, inkişafının sürətlənməsi və çoxşaxəli xarakterinin gücləndirilməsinin Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının reallaşmasının əsas istiqamətinə çevrilməsi heç də neft sənayesinin inkişafına diqqətin azalması demək deyil. Bu birinci növbədə qeyri-neft sektorunun inkişafına geniş imkanların olması və hazırda bu imkanlardan istifadə üçün real şəraitin yaranması ilə, eyni zamanda neft hasilatı-

---

[1] Yenə orada. səh.48

nın hazırki miqdarının sabit saxlanmasının məqbul və optimal olması ilə əlaqədardır.

Respublika Prezidentinin göstərdiyi kimi bu sahədə əsas məsələ uzunmüddətli hasilata, Azərbaycanın dünya enerji bazarında mövqeyinin möhkəmlənməsinə və qeyri neft sektorunun neftdən asılılığının tamamilə azalmasına nail olmaqdır. Elə etmək lazım gəlir ki, bundan sonra da uzun illər ərzində Azərbaycan nefti Respublikanın iqtisadiyyatının inkişafına xidmət göstərə bilsin. Əlbəttə, ölkəmizdə müstəqillik illərində iqtisadiyyat sahəsində başqa keyfiyyət dəyişiklikləri də baş vermiş və digər mühüm nailiyyətlər də əldə edilmişdir.

Respublikamızda neft hasilatından fərqli olaraq təbii qaz hasilatı inkişaf etdiriləcək. Bu zaman nəzərə alınır ki, Azərbaycanın kifayət qədər təbii qaz ehtiyatı var. Prezident bu haqda danışarkən qeyd etmişdir ki, Avropanın enerji təhlükəsizliyi müəyyən dərəcədə Azərbaycanın təbii qazı hesabına ödənilə bilər. Azərbaycan üçün yeni bazarlar, tərəfdaşlarımıza isə alternativ qaz mənbələri lazımdır. Azərbaycan özünün qaz hasilatı və ixracı siyasətini birinci növbədə özünün uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasına uyğunlaşdıracaqdır. Hələlik isə təbii qaz hasilatı və satışının hazırda olduğuna nisbətən artırılması həm Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması mənafeyinə, həm də Avropanın enerji təhlükəsizliyi mənafeyinə uyğundur. Ümumiyyətlə, müasir dövrdə qeyri neft sektorunun şaxələnmiş və sürətli inkişafı, neftdən asılılığının azaldılmasının Azərbaycanın hərtərəfli və davamlı inkişafının başlıca istiqamətinə çevrilməsi neft və qaz hasilatı sənayesinin əhəmiyyətini azaltmır, əksinə əvvəlkindən fərqli istiqamətlərdə onun əhəmiyyətini artırır.

Başqa bir istiqamət Azərbaycanın əlverişli coğrafi mövqeyinin yaratdığı geniş imkanlardan səmərəli istifadə etməklə ÜDM-in yeni artım mənbələrinin yaranmasına nail olmaqdır.Bakı-Tibilisi-Qars dəmir yolunun çəkilməsi, Bakı gəmiqayırma zavodunun, Bakı beynəlxalq dəniz ticarət limanının istifadəyə verilməsi bu sahədə də gəlirlərin artmasına səbəb olmaqdadır. Şübhəsiz ki, Azərbaycanın Avropa ilə Asiya arasında aralıq mövqe tutması gələcəkdə də belə mənbələrin yaranması və istifadəsinə şərait yaradacaqdır.

Azərbaycan iqtisadiyyatında innovasiya yönümlülüyün yüksəlməsi və innovasiya yönümlü yeni məhsullar istehsalının mənimsənilməsinə dövlətin texniki, kadr, maliyyə dəstəyinin gücləndirilməsinə də ehtiyac vardır. Son 10 ildə Azərbaycanda elmi tədqiqatla məşğul olan müəssisələrin sayı xeyli artmışdır (2001-ci ildəki 137-dən 2011-ci ildə 145-ə çatmışdır) və 2011-ci ildə bu sahədə 18 minə yaxın işçi çalışırdı. Elmi müəssisə və təşkilatların sayına görə Azərbaycan keçmiş SSRİ Respublikaları arasında beşinci yer tutur. Son 11 ildə dövlət büdcəsindən elmin inkişafına yönəldilən maliyyə vəsaitinin miqdarı təqribən 14 dəfə artmışdır. Lakin onun ümumi məbləği cəmi 120 milyon manata yaxın olmaqla ÜDM-də kifayət qədər xüsusi çəkiyə malik deyil. Belə ki, Azərbaycanda elmə çəkilən xərclərin ÜDM-də xüsusi çəkisi başqa müstəqil dövlətlərlə müqayisədə çox aşağıdır. Respublikamızda elmə çəkilən xərclərin ÜDM-də xüsusi çəkisi 2010-cu ildə (həm də 2011-ci ildə) 0,2% olduğu halda bu göstərici Rusiyada 1,4%, Ukraynada 1,1%, dünyanın inkişaf etmiş ölkələrində təqribən 2,4%, ümumilikdə dünya üzrə 2,2% təşkil edir. Beləliklə, dövlət büdcəsindən elmə çəkilən xərclərin xeyli artırılmasına da ehtiyac vardır. Eyni zamanda Respublika-

mızda kifayət qədər güclü elmi-texniki işçi potensialı yaranmışdır. 2010-cu ildə Respublikamızda tədqiqatçıların və texniki xidmət işçilərinin sayı 12,9 min nəfərə çatırdı ki, bu da keçmiş SSRİ məkanında Rusiya, Ukrayna və Belarusiyadan sonra dördüncü yer deməkdir.

Müəssisələrdə işçilərin innovasiya yönümlü fəaliyyəti üçün şərait yaradılmalı, kreativ fəaliyyət dəstəklənməli, innovasiya fəaliyyətinin tənzimlənməsinin normativ hüquqi bazası yeni hüquqi sənədlərlə zənginləşdirilməlidir.

Regionlarda innovasiya proseslərinə təsir göstərən mənfi və müsbət amilləri öyrənmək, mənfi amillərin təsirini azaltmaq, müsbət amillərin təsir gücünü innovasiya proseslərində yüksək nəticələr əldə olunmasına yönəltmək, gözlənilən risklərin mənfi təsir dərəcəsini aşağı salmaq həm yuxarı, həm də yerli idarəetmə təşkilatlarının əsas vəzifələri sırasında olması vacibdir.

Birinci növbədə bu sahələrin inkişafına mane olan amillər nəzərdən keçirilməli və imkan daxilində aradan qaldırılmalıdır. Bu sahələrin inkişafı Azərbaycanda toplanmış təcrübəyə hörmətlə yanaşmaq, onu qoruyub saxlamaq və nəsildən-nəslə ötürmək baxamından, xüsusilə də regionların tarazlı inkişafını təmin etmək baxımından vacibdir.

Regionlarda iqtisadiyyatın innovasiya yönümlü inkişafının ən vacib məsələlərindən biri onun Regional təşkilati infrastrukturunun (Texniki parklar, Elmi-texniki mərkəzlər, biznes inkubatorları, texnoparkların filialları və i.a) və idarə edilməsi formalarının müəyyənləşdirilməsidir.

Məlumdur ki, texnoparkların yaradılması və məqsədyönlü (yerli şəraiti, bütövlükdə Respublikanın, o cümlədən regional iqtisadiyyatın gələcək səmərəli inkişafı mənafeyini, qloballaşma proseslərinin qarşıya qoyduğu tələbləri,

məhsulun rəqabət qabiliyyətinin artması, yeni mütərəqqi məhsul növlərinin mənimsənilməsi imkanlarının nəzərə alınması və i.a.) istifadəsi iqtisadiyyatın innovasiya yönümlü və səmərəli inkişafının mühüm istiqaməti kimi diqqəti cəlb edir. İnkişaf etmiş demokratik dövlətlərin təcrübəsinə istinad edərək demək olar ki, texnoparklar regionlarda əhalinin məşğulluq və intellektual səviyyəsinin yüksəlməsinə müsbət təsir edər, yeni elm tutumlu texnologiyaların Respublikamıza cəlb olunmasını, elm, təhsil və istehsalın inteqrasiyasını gücləndirər. Çalışmaq lazımdır ki, texnoparklar birinci növbədə regionda sənayenin inkişaf perspektivlərini və nisbətən böyük sənaye-istehsal komplekslərinin formalaşması imkanlarını nəzərə almaqla yaradılsın. Texnoparklar çevik xarakter daşısın. Sənayenin bir sahəsində onun məhsuluna tələbat azaldığı şəraitdə başqa bir sahədə buna tələbat yaransın və texnopark öz innovativ fəaliyyətini yeni yaranan tələbata uyğunlaşdıra, xarici texnoparklarla əlaqə yarada bilsin. Hazırda Sumqayıt şəhərində əsasən kimya sənayesinin tələbatını ödəmək üçün tikilən texnoparkda alüminium təbəqəli etilen borular, Almaniya texnologiyası olan avadanlıqlar, sənaye qazlarını tutan cihazlar, kanalizasiya boruları istehsalı mənimsənilmiş, günəş panelləri istehsalı və xüsusi lampalar istehsalı zavodları tikilmişdir. Ümumiyyətlə, bir texnopark və orada olan 10 zavod bu və ya digər dərəcədə fəaliyyətdədir. Sumqayıt şəhər sənayesinin tələbatından asılı olaraq bu texnopark tikilib başa çatdırılacaq və öz fəaliyyət sahələrini genişləndirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-2013-cü illərdə Regional inkişaf proqramının yerinə yetirilməsinin 3-cü ilinin yekunlarına həsr olunmuş çıxı-

şında Gəncə alüminium zavodunun yanında texnoparkın yaradılmasının vacibliyini göstərmişdir. Bu dövlətin sənaye infrastrukturunun inkişafına göstərdiyi qayğının daha bir ifadəsi olacaqdır. Eyni zamanda Prezident Balaxanıda Məişət tullantıları emalı zavodunun yaxınlığında Texnoparkın təməlqoyma mərasimindəki çıxışında özəl sektorun da bu işə qoşulmasının vacibliyini bir daha vurğulamışdır. Dövlət texnoparklar, onların filialları, innovasiya mərkəzləri üçün torpaq sahəsi ayırmalı, infrastruktur sahələrinin yaranması və inkişafını təmin etməli, müəssisələr (o cümlədən özəl müəssisələr) innovasiya yönümlü məhsul istehsal etməlidirlər.Respublikamızda digər texnoparkların və ya mövcud olanların filiallarının harada, necə yaradılması, ixtsaslaşma istiqamətlərinin əsaslandırılması məsələləri qarşıya çıxır. Çalışmaq lazımdır ki, böyük texnoparkların filialları hər bir nisbətən inkişaf etmiş sənaye-istehsal kompleksində yaransın və bir çox texniki-texnoloji istiqamətlər üzrə ixtisaslaşdırılsın. Bu baxımdan yaxın gələcəkdə Naxçıvan şəhərində, eləcə də Mingəçevir və Şirvan şəhərlərində region əhəmiyyətli texnoparkların yaradılması mümkündür. Ümumiyyətlə, böyük texnoparkların filialları tədricən Respublikanın bütün iqtisadi rayonlarında, iqtisadiyyatın mövcud vəziyyətini, tələbatını, ən başlıcası perspektiv inkişaf istiqamətlərini nəzərə almaqla yaradıla bilər. Texnoparklar yuxarıdakı tələblərdən asılı olaraq çevik xarakter daşımalı, iqtisadiyyatda, onun strukturunda dəyişikliklər baş verdikcə öz fəaliyyət istiqamətini az-çox dəyişib yerli şəraitə uyğunlaşmalıdır. Bunlarla yanaşı innovasiyaların vahid mərkəzdən idarə olunmasının təşkili, regionun bir neçəsində bütün innovasiya infrastrukturlarını özündə birləşdirən innovasiya mərkəzlərinin təşkili məsələ-

ləri də meydana çıxır. Yalnız bu şərtlər daxilində (bir çox ümumi prinsip və şərtlərin təmin olunmuş olduğu şəraitdə) texnoparklar uzun ömürlü olub normal fəaliyyət göstərə bilər.

Texnoparkların səmərəli fəaliyyətinin mühüm şərtlərindən biri onların kadr təminatı, kadr hazırlığı məsələlərinin həlli, fəaliyyətinin təhsillə sıx əlaqələndirilməsidir. Texnoparkda olan mütəxəssislərin, alimlərin ali təhsil müəssisələrində tədris prosesinə cəlb olunması, eyni zamanda tələbələrin texnoparklarda təcrübə keçməsi, qabiliyyətli tələbələrin ali təhsil aldıqdan sonra müvafiq texnoparkda işləmək üçün dəvət olunması vacibdir. Eyni zamanda texnoparklar müvafiq ərazilərdə olan universitetlə yeni məhsulun, texnologiyanın, texnikanın hazırlanmasında əməkdaşlıq edə bilər.

Azərbaycan şəraitində vacib məsələlərdən biri innovasiyaların maliyyələşmə mənbələrinin müəyyənləşdirilməsidir. Məlumdur ki, bu mənbələr müxtəlifdir (büdcə, qeyri-büdcə fondları, elm fondu, bank kreditləri, müəssisələrin vəsaitləri və i.a). Regionlarda bu mənbələrdən hansına üstünlük verilməsi təbiidir ki, yerli şəraitdən asılı olacaqdır.

Fikrimizcə, iqtisadiyyatın prioritet sahəsi kimi kənd təsərrüfatının ixtisaslaşmış sahələrinin və emal sənayesinin rolu getdikcə artır. 80-ci illərin ortalarında Respublikamızda istehsal olunan bütün sənaye məhsulunun 46%-dən çoxu aqrar-sənaye kompleksinin payına düşürdü. Hazırda bu xüsusi çəki olduqca aşağıdır. Ölkənin sosial-iqtisadi inkişaf strategiyasının elmi əsaslarını işləyib hazırlayarkən aqrar-sənaye kompleksinin ənənəvi sahələrinin inkişafı və idarə olunmasının təkmilləşməsinə xüsusi diqqət verilməsi vacibdir.

Respublikamızda aqrar-sənaye kompleksinin meyvə-tərəvəz konservi, üzümçülük-şərabçılıq, baramaçılıq-ipəkçilik, pambıqçılıq-toxuculuq, yun istehsalı-yun təmizləmə, çayçılıq-çay emalı, sahəsində zəngin təcrübə toplanmış olduğu yaxşı məlumdur. Respublikamızda 800 min ton barama, 2126 min ton üzüm, 18 min ton çay, 80 mln.kv metr ipək parça istehsal olunan vaxtlar vardı. Toxuculuq-tikiş sənayesində 100 mindən artıq adam işləyirdi. Bütün parça növləri 190 mln. kv metrdən çox idi.

Lakin müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində bu sahələr kəskin dağıntıya məruz qaldı. Hazırda üzümçülük, meyvə-tərəvəz konserv istehsalı, bu sahələrdən götürülən məhsul ölkəmizin tələbatından və mövcud imkanlarından aşağıdır, ehtiyatlardan səmərəli istifadə olunmur. Əlbəttə, gözləmək olmaz ki, nə vaxtsa biz 80-ci illərdə olan səviyyəyə çatacağıq. Həmin dövrün göstəricilərini təkrar etmək mümkün deyil. Hər dövrün öz tələbi var. Lakin hazırki istehsalı bir neçə dəfə artırmaq ümkündür. Xüsusilə, üzümçülük-şərabçılıq, ipəkçilik, toxuculuq, çayçılıq sahəsində imkanların səfərbərliyə alınması və bu sahələrin inkişafında əsaslı dönüş yaradılması vacibdir. Əks təqdirdə Azərbaycan xalqı bu sahələrdə uzun illər ərzində əldə olunmuş təcrübəni itirə bilər. Bir də yaddan çıxarmaq olmazki, regionlarda sənayenin mütərəqqi sahələrini istənilən qədər inkişaf etdirmək mümkün deyil. Regionlarımızda iqtisadiyyatın gələcək inkişafı aqrar-sənaye kompleksinin inkişafından çox asılı olacaqdır. Odur ki, Respublikamızda pambıq, üzüm, meyvə, çay, tütün, barama istehsalı və onun emalının təşkilinə diqqət artırılmalıdır.

Rayonlarda kənd təsərrüfatının inkişafı üçün mövcud olan imkanlardan səmərəli istifadə etmək üçün hər rayonun

təbii iqlim şəraitini, əhalinin tarixən toplanmış təcrübəsini nəzərə almaqla ixtisaslaşma aparılması vacibdir. Azərbaycanda tarixi keçmişdə, xüsusilə, 70-80-ci illərdə aqrar sənaye kompleksinin ixtisaslaşması sahəsində zəngin təcrübə toplanmışdır. Respublika Prezidentinin tapşırığı ilə artıq müvafiq nazirliklərdə və digər təşkilati qurumlarda təkliflər hazırlanmasına başlanmışdır. Əsas vəzifə hansı rayonda hansı kənd təsərrüfatı məhsulu, nə qədər istehsal etmək olar və bunun üçün hansı tədbirlər görməyin vacib olduğunu müəyyənləşdirməkdir. Respublikamızda üzümçülük sahəsində əvvəlki şöhrətinin qaytarılması istiqamətində görülməkdə olan işlər davam etdiriləcək.

Azərbaycan ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində böyük uğurlar qazanmaşdır. Hazırda onun özünü əsas ərzaq məhsulları ilə tamamilə təmin etməsi dövrü yaxınlaşır. Bunu aşağıdakı cədvəldən də görmək olar.

| əsas ərzaq məhsulları | Tələbatın ödənilmə səviyyəsi %-lə | | |
|---|---|---|---|
| | 2011 | 2012 | 2013 (proqnoz) |
| ət və ət məhsulları | 88 | 92 | 95 |
| quş əti | 81 | 88 | 93 |
| yumurta | 77 | 96 | 100 |
| kərə yağı | 50 | 50 | 52 |
| süd məhsulları | 70 | 73 | 78 |
| bitki yağı | 65 | 70 | 75 |

| | | | |
|---|---|---|---|
| taxıl | 65 | 65 | 70 |
| üzüm | -[1] | 94 | 96 |
| kartof | 102 | 100 | 100 |
| bostan məhsulları | 100 | 100 | 104 |
| meyvə və giləmeyvə | 117 | 126 | 130 |
| tərəvəz | - | 99 | 108 |
| duz | 47 | 71 | 73 |
| şəkər və şəkərdən hazırlanan məhsullar | 160 | - | 180 |

Dünyanı ərzaq çatışmazlığı daim qorxu altında saxladığı bir zamanda Azərbaycanın yerli ərzaq məhsulları ilə təminatının hazırkı yüksək səviyyəsi müstəqillik illərində əldə olunmuş mühüm nailiyyətlərdən biridir. Azərbaycanın bir neçə ildən sonra özünü əsas ərzaq məhsulları ilə tamamilə təmin etməsi nəzərdə tutulur. Respublika Prezidentinin qeyd etdiyi kimi bu böyük tarixi nailiyyət olacaqdır. Lakin bunun üçün ərzxaq məhsulları istehsalı sahələrinin yüksək keyfiyyətli xammalla təminatına, bu sahələrdə ixrac imkanlarının artırılmasına, yeni xarici bazarlara çıxışın artırılmasına diqqət verilməlidir.

Prezident müasir dövrdə yerli ərzaq məhsullarının istehsalının artırılmasının vacibliyini bir daha diqqətə çatdıraraq qeyd etdi ki, bir tərəfdən müasir dövrdə taxılçılıqda

[1] Bizdə məlumat yoxdur.

inhisarçılığın mövcudluğu, başqa ölkələrdən ərzaq məhsulunun alınması imkanının məhdudluğu, müqavilə bağlanmış ölkədə quraqlıq olması və digər səbəblər, digər tərəfdən Respublikamızda taxılçılığın inkişafı üçün mövcud olan geniş imkanlar ərzaq probleminin həllinə böyük diqqət verilməsini tələb edir. Respublika Prezidenti taxılçılığın məhsuldarlığının artırılmasını mühüm vəzifə kimi qarşıya qoydu. Hazırda orta məhsuldarlıq 27 sentnerdir ki, bu da inkişaf etmiş ölkələrdəki məhsuldarlıqdan (50-60 sentner, bəzən 70 sentnerə çatır) çox aşağıdır. Odur ki, yaxın illərdə taxılçılıqda məhsuldarlığı 40-50 sentnerə çatdırmaq nəzərdə tutulur.

Keçən illərdə olduğu kimi kənd təsərrüfatında sahibkarlığın inkişafında SKMF-nin güzəştli kreditləri mühüm rol oynamalıdır. Prezident qeyd etmişdir ki, SKMF-dən sahibkarlara verilən kreditlər vaxtında qaytarılır. Sahibkarlığın inkişafı dövlət siyasətidir. Ona kənardan müdaxilələr olmamalıdır. Yerli icra hakimiyyəti orqanlarının başçıları yerlərdə dövlət siyasətini həyata keçirirlər və buna görə də bu siyasətin sahibkarlar tərəfindən icrasına mane olmamalı, əksinə, onun yerinə yetirilməsinə qanun çərçivəsində yardım göstərməlidirlər.

Bakı Biznes Mərkəzində keçirilən konfransda Prezident iri fermer təsərrüfatlarının yaradılmasının vacibliyini bir daha xatırlatdı. Məlumdur ki, artıq bu vacib proses başlamışdır. İri fermer təsərrüfatının yaradılması üçün 5000 hektar torpaq sahəsi ayrılmışdır. Bütövlükdə taxılçılıqda 50 fermer təsərrüfatının yaradılması, onlara əlavə torpaq sahələrinin ayrılması məqsədyönlü hesab olunur.

Məlumdur ki, məhz infrastruktur sahələrinin yaranması və güclü inkişafı 2004-2011-ci illərdə Azərbaycan re-

gionlarının inkişafında əldə olunmuş ən mühüm uğurlar sırasındadır. Bu sahənin inkişafını gələcək inkişafa möhkəm təməl yaradılmış olması kimi qiymətləndirmək olar. İnfrastruktura sahəsində yaxın 10-15 ildə mühüm vəzifə bu sahələri çoxşaxəli inkişaf etdirməklə yanaşı onun müasirləşməsi və azı Avropa standartları səviyyəsinə yüksəldilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2007-ci ildə Regional inkişaf üzrə I Dövlət Proqramının imzalanmasının dördüncü ildönümünə həsr olunmuş müşavirədə bu sahədə öz mövqeyini açıqlamışdır. O, xüsusi olaraq qeyd etmişdir ki, qarşıda duran vacib vəzifələrdən biri də məhz Azərbaycan regionlarında formalaşdırılan infrastrukturun Avropa Birliyi meyarlarına çatdırılmasıdır. Yaxın 10 ildə bu məsələ xüsusi aktuallıq kəsb edir. ***Bir tərəfdən infrastrukturun bütün sahələrinin qarşılıqlı əlaqədə kompleks inkişafına nail olmaq,*** digər tərəfdən həmin sahələrin maddi-texniki bazasını möhkəmləndirmək, xidmətin səviyyəsini yüksəltmək və səmərəliliyini artırmaq növbəti vəzifə kimi qarşıya çıxır. İnfrastruktur sahələrinin inkişafına kompleks yanaşılır, o bir tərəfdən regionların inkişafının ilkin şərti kimi, digər tərəfdən əhalinin mədəni tələbatının ödənilməsinin, rifah halının yaxşılaşmasının mühüm vasitəsi kimi diqqəti cəlb edir.

Yaxın illərdə infrastruktur sahələrinin inkişafına, xidmətin keyfiyyətinin yüksəldilməsinə yenə diqqət veriləcək, magistral yolların, kənd yollarının, xüsusilə çoxsaylı kəndləri birləşdirən yolların tikintisi və ya əsaslı təmiri davam etdiriləcəkdir. Bununla yanaşı rayonlarda otellər, istirahət komplekslərinin, Qusarda Şahdağ turizm kompleksinin ikinci növbəsinin tikintisi davam etdiriləcək. Bu işlər regionların investisiya mühitini daha da yaxşılaşdıracaq,

Respublikamızın turizm məkanına çevrilməsini sürətləndirəcək, Respublikamızda beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə daha əlverişli şərait yaradacaqdır.

Bu baxımdan infrastruktur sahələrinin inkişafı, xüsusilə yol, enerji təminatı məsələlərini həll edərkən yaşayış məntəqələrinin perspektivliyi, digər yaşayış məntəqələri arasında coğrafi mövqeyinin nə dərəcədə əlverişli olması nəzərə alınmalıdır. Bundan başqa hər regionun özünə məxsus coğrafi şəraiti, bu şəraitdə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin tələbatını ödəmək mənafeyi nəzərə alınmalıdır. İnfrastruktur sahələrinin yüksək səviyyədə inkişafı və müasirləşməsi mahiyyət etibarilə yaxın gələcəkdə regionların yüksək səviyyədə ümumi, sosial və iqtisadi inkişafının təməlidir. Çünki infrastruktur sahələri əhalinin regionlarda daimi məskunlaşması və yaşamasına, regionların investisiya cəlb etmə qabiliyyətinin yüksəlməsinə və beləliklə də sonrakı dövrdə sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyatın və istehsala xidmət edən digər sahələrin inkişafına güclü surətdə təsir edir. İnfrastruktur sahələrinin inkişafı həmin ərazilərdə həyat səviyyəsini yüksəldir, əhalinin yaşadığı regiona və bütövlükdə dövlətə münasibətini inkişaf etdirir, dünyagörüşünü dəyişir, mənəvi-intellektual yüksəlişə müsbət təsir edir.

Dövlət şübhəsiz ki, bundan sonra da çox mühüm infrastruktur sahələrinin inkişafını təmin edəcəkdir. Bununla yanaşı yerli əhəmiyyətli (rayon, şəhər, kənd əhəmiyyətli) infrastruktur sahələrinin inkişafında, yeni infrastruktur layihələrinin icrasında sahibkarların iştirakı artırılmalı və sahələri genişləndirilməlidir.

## 4.4. Dövlət büdcəsinə vergi daxilolmalarında başlanmış mütərəqqi meyillər və onların perspektiv inkişaf istiqamətləri*

Məlumdur ki, ölkənin vergi siyasəti, maliyyə-istehsal potensialı və dövlət büdcəsinin gəlirləri arasında sıx dialektik əlaqə var. Düzgün vergi siyasəti bir tərəfdən dövlət büdcəsi gəlirlərinin formalaşmasında, ölkənin maliyyə-iqtisadi potensialının artmasında, digər tərəfdən vergi ödəyən fiziki və hüquqi şəxslərin iqtisadiyyatın inkişafına maraqlarının və məsuliyyətinin artmasında çox mühüm rol oynayır. Dövlətin və təsərrüfat subyektlərinin mənafe və maraqlarının düzgün əlaqələndirilməsi və ödənilməsi bütün hallarda vergi siyasətinin əsas məsələsi, onun uğurlu olmasının əsas göstəricisidir.

Vergi sistemi işçilərindən öz peşəsini yaxşı bilməklə yanaşı vergi ödəyicilərilə işləmək, dövlət mənafeyini qorumaq, dövlət mənafeyilə vergi ödəyicilərinin mənafeyini düzgün əlaqələndirmək bacarığı tələb olunur. Yalnız bu şərtlər daxilində vergi siyasəti ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır.

Bazar iqtisadiyyatı şəraitində bu problemlərin həllində vergilərin rolu və vergi işçilərinin məsuliyyəti daha da artır. Təsadüfi deyil ki,ümummilli liderimiz Heydər Əliyev Respublikamızın iqtisadiyyatının vergilər vasitəsilə tənzimləndiyini xüsusi qeyd etmiş, öz sağlığında düzgün vergi sistemi və siyasətinin formalaşmasına xüsusi qayğı göstər-

---

* Bu paraqrafı yazmaq üçün əsasən Vergilər Nazirliyinin I və II forumunun (müvafiq olaraq 2012-ci il fevral ayının 9-da və 2013-cü il fevral ayının 8-də keçirilmişdir) materiallarından, "Vergilər" qəzetinin 9.02.2012-ci il və 8.02.2013-cü il nömrələrinin materiallarından istifadə olunmuşdur.

mişdir. Son illərdə Heydər Əliyevin siyasətini yaradıcılıqla davam və inkişaf etdirən prezident İlham Əliyev Azərbaycanda müasir dövrün tələblərinə uyğun vergi sisteminin formalaşmasına, həm sahibkarların, həm də dövlətin mənafeyini nəzərə alan vergi siyasətinin yeridilməsinə xüsusi diqqət yetirir. Onun vergi sistemini təkmilləşdirmək, vergi tutma bazasını genişləndirmək, vergi xidmətini müasir Avropa standartlarına çatdırmaq haqqında verdiyi tövsiyələr vergi sisteminin inkişafında xüsusi rol oynayır. Müxtəlif mənbələrdə verilmiş informasiyaya əsasən demək olar ki, Vergilər Nazirliyində son illərdə bu tövsiyələri və yaranmış real şəraiti əldə rəhbər tutaraq vergi siyasətinin strategiyasının, vergi qanunvericiliyinin təkmilləşməsi, vergi güzəştlərinin minimuma endirilməsi, azad rəqabətin formalaşması və inkişafı vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma hallarına qarşı səmərəli mübarizə, qanunvericiliyin iqtisadi inkişaf səviyyəsinə və beynəlxalq normalara uyğunlaşdırılması, vergi ödəyicilərinə bu normaların təlimi, vergilərin ödənilməsinə kənar müdaxilələrin təsirinin azalması, ərazi vergi idarələrinin (12 ərazi vergi idarəsi və Bakı şəhər vergilər departamenti) yaranması, vergi inzibatçılığının sadələşməsi, müəssisələrin sərəncamında qalan vəsaitlərin artırılması məqsədilə mənfəət vergisinin mərhələ-mərhələ aşağı salınması (35 dərəcədən 20 dərəcəyə) və digər istiqamətlərdə tədbirlər həyata keçirilmişdir. Vergi yükününü azaldılması, Vergi dərəcəsinin aşağı salınması müəssisələrin mənfəətlə işləməsinə müsbət təsir etmişdir. Ümumiyyətlə, 2003-cü ilə nisbətən 2012-ci ildə müəssisələrin mənfəəti 23 dəfə artmışdır. Əldə olunan mənfəətin 2012-ci ildə 40%-i qeyri-neft sektorunun payına düşmüşdür. 2013-cü ildə bu rəqəmin 60%-ə çatması proq-

nozlaşdırılır. Sahibkarlıq subyektlərinin bir pəncərə prinsipilə qeydiyyatı, elektron hesab fakturalarının tətbiqi təmin olunmuş, 195 №-li telefon məlumat sistemi genişləndirilmişdir.

Yeridilən düzgün vergi siyasəti və yaradılmış əlverişli şərait, görülmüş tədbirlər özünün müsbət nəticələrini birinci növbədə vergi ödəyicilərinin sayının və vergi daxil olmalarının miqdarının surətlə artmasında göstərir. Belə ki, 2000-ci ilə nisbətən vergi ödəyicilərinin sayı 3 dəfəyədək artaraq 2011-ci ilin sonuna 420 min nəfərə, 2013-cü il yanvarın birinə 481710 nəfərə çatmışdır. Vergi sisteminin yaratdığı əlverişli şərait nəticəsində vergi ödəyicilərinin maliyyə imkanları daha sürətlə artmışdır. Nəticədə son 12 ildə vergi daxilolmaları 12 dəfəyə qədər artmışdır. Son iki ildə artım daha yüksək olmuşdur. Belə ki, 2011-ci ildə Vergilər Nazirliyi xəttilə Dövlət büdcəsinə daxil olan gəlirlər 2010-cu ilə nisbətən 27,5% artaraq 5,5 mlrd. manata, 2012-ci ildə 2011-ci ilə nisbətən 10,1% artaraq 6024,5 mln.manata çatmışdır. Bu çox mühüm nailiyyətdir. Vergi inzibatçılığının sadələşdirilməsi özünün müsbət nəticələrini vermişdir. Onlardan ən mühümü vergi ödəmələrinə sərf olunan vaxtın azalmasıdır. Belə ki, Dünya Bankı koorporasiyasının Doinq Bizness hesabatına əsasən Azərbaycanda 2006-2011-ci illərdə vergilərə sərf olunan illik vaxt 4,4 dəfə və ödəmələrin sayı 2 dəfə azalmışdır.

2011-2012-ci illərdə keçən ildən borcu qalmış vergi ödəyicilərindən borcu almaq üçün görülmüş tədbirlər nəticəsində borclu vergi ödəyicilərinin sayı azalmışdır. Eyni zamanda 2011-ci ilin yanvar ayına nisbətən 2012-ci ilin yanvar ayına borc məbləği 19,7%, 2013-cü ilin yanvar ayına 16,2% azalmışdır.

Qeyri-dövlət sektorunun maliyyə vəziyyəti nisbətən yaxşılaşmış və nəticədə vergi ödənilməsində xüsusi çəkisi artmışdır. Belə ki, 2011-ci ildə Vergilər Nazirliyi üzrə toplanılan vergi məbləğinin 1657,4 milyon manatı və ya 30,3%-i dövlət sektorunun, 3817,6 milyon manatı və ya 69,7%-i özəl sektorun payına düşmüşdür. Qeyri-dövlət sektoru üzrə daxilolmaların həcmi 2010-cu ilə nisbətən 40,5% (1100,8 milyon manat) artmışdır. Nəticədə qeyri-dövlət sektorunun vergi ödənilməsində xüsusi çəkisi 2010-cu ildəki 63,3 %-dən 2011-ci ildə 69,7%-ə yüksəlmişdir. 2012-ci ildə qeyri-dövlət sektorunun vergi daxilolmalarında xüsusi çəkisi yüksələrək 71,7%-ə (4330,2 mln.manat) çatmış, dövlət setorunun xüsusi çəkisi daha da azalaraq 28,1%-ə (1695,1 mln.manat) düşmüşdür. Bu qeyri-dövlət sektorunda inkişafın, bu sektorun inkişafının dövlət tərəfindən dəstəklənməsinin qanuni nəticəsidir.

Diqqəti cəlb edən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, son illər Vergilər Nazirliyi dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozları həm bütövlükdə, həm də bütün sahələr üzrə artıqlaması ilə yerinə yetirmişdir.

Belə ki, 2011-ci ildə Vergilər Nazirliyi tərəfindən büdcəyə 5 milyard 160 milyon manat proqnoza qarşı 5 milyard 475,1 milyon manat vəsaitin daxil olması təmin edilib, proqnoza 106,1% əməl olunub. Bu 2010-cu ilə nisbətən 1 milyard 182,3 milyon manat və ya 27,5% çoxdur.

2012-ci ildə dövlət büdcəsinə 5911,6 mln.manat proqnoza qarşı 6026,4 mln.manat vəsait daxil olmuşdur ki, bu da proqnozdan 113,8 mln, manat və ya 1,9% çoxdur. Eyni zamanda proqnozlar bütün sektorlar (neft və qeyri-neft sektoru, dövlət və qeyri-dövlət sektoru), ayrı-ayrı tədiyyələr (ƏDV, aksislər, mənfəət vergisi və fiziki şəxslərdən gəlir

vergisi) və ərazi vergi idarələri üzrə artıqlaması ilə yerinə yetirilmişdir. Bunlar onu göstərir ki, Vergilər Nazirnliyi və onun müvafiq qurumları Respublika iqtisadiyyatında baş verən inkişaf proseslərini diqqətlə izləyir, onun inkişaf meyillərini, vergi daxilolmalarının mənbəyinin dəyişməsi meyillərini nəzarətdə saxlaya və real proqnozlar verə bilir.

Son illərdə qeyri-neft sektorunun sürətli inkişafı ilə büdcəyə vergi daxilolmalarının düzgün əlaqələndirilməsi sahəsində müsbət işlər görülmüşdür. Nəticədə dövlət büdcəsinə vergi daxilolmalarında qeyri-neft sektorunun xüsusi çəkisi mütəmadi olaraq artır. Bu proses 2011-2012-ci illərdə də davam etmişdir.

2011-ci ildə büdcəyə vergi daxilolmalarının 2873,9 milyon manatı və ya cəmi vergi daxilolmalarının 50,3%-i qeyri-neft sektorunun payına düşmüşdür. Eyni zamanda qeyri-neft sektorundan vergi daxilolmaları 2010-cu ilə nisbətən 518,4 milyon manat və ya 22% artmışdır. Nəzərə alsaq ki, 2011-ci ildə daxili ümumi məhsul 1,0%-dən də az artmışdır, onda qeyri-neft sektorunda vergi ödəmək imkanları olan təsərrüfat sahələrinin daha sürətlə inkişaf etməyə başladığını görə bilərik.

2012-ci ldə dövlət büdcəsinə vergi daxilolmalarının 3286,51 mln.manatı və ya 54,6%-i qeyri-neft sektorunun payına düşmüşdür. Neft sektoru 2738,9 mln.manat və ya 45,4% olmuşdur. Beləliklə, vergi daxilolmalarında qeyri-neft sektorunun xüsusi çəkisi 2012-ci ildə 2011-ci ildə olduğuna nisbətən 4,3% artmışdır.

Burada mühüm cəhətlərdən biri qeyri-neft sektorunda ÜDM-in artması ilə vergi daxilolmalarının artması arasında nisbət məsələsidir. 2012-ci ildə qeyri-neft sektorunda ÜDM 9,7%, vergi daxilolmaları 14,5% artmışdır. ƏVİ-də

nəzərdə tutulan proqnozları yerinə yetirir. 2012-ci ildə 414,4 mln. manat proqnoza qarşı 445,5 mln.manat vergi daxil olmuşdur ki, bu da proqnozdan 31,1 mln.manat və ya 7,5% çoxdur. Bununla belə daxil olan bütün vergi gəlirlərinin cəmi 7,4%-i ƏVİ-nin payına düşür ki, bu da nisbətən azdır. Əgər ƏVİ-nin əhatə etdiyi regionlarda qeyri-neft sektorunda istehsal olunan ÜDM-in 14%-nin istehsal olunduğunu nəzərə alsaq bu göstəricinin nisbətən aşağı olması qənaətinə gəlmək olar. ƏVİ üzrə vergi daxilolmalarına diqqət artırılmalıdır. Vergi daxilolmalarında mənfəətdən verginin xüsusi çəkisi 2009-2010-cu illərə nisbətən 2011-2012-ci illərdə artmışdır.

2012-ci ildə dövlət büdcəsinə vergi daxilolmalarının 24,6%-i ƏDV-nin, 13,5%-i fiziki şəxslərdən gəlir vergisinin, 37,43%-i mənfəət vergisinin payına düşmüşdür.

Beləliklə, mənfəətdən vergi dərəcələrinin aşağı salınması müəssisələrin mənfəətlə işləməsinə müsbət təsir etmiş, qeyri-neft sektorunda istehsalın səmərəliliyi yüksəlmiş, mənfəətlə işləyən müəssisələrin sayı artmışdır. Bu müsbət meylin böyük əhəmiyyəti həm də ondan ibarətdir ki, 2011-ci ilə qədər ÜDM-in artması ardıcıl xarakter daşısa da büdcəyə vergi daxilolmaları həm kəmiyyət, həm də xüsusi çəki etibarı ilə qeyri-sabit xarakter daşıyırdı.

**Cədvəl 3.**

**2000-2011-ci illərdə büdcəyə vergi daxilolmalarının ÜDM-də və dövlət büdcəsi gəlirlərində xüsusi çəkisi (məbləği milyon manatla, xüsusi çəkisi %-lə)***

| Göstəricilər | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM | 4718,1 | 12552,5 | 28360,5 | 40137,2 | 35601,5 | 41574,7 | 51157,5 |
| Dövlət büdcəsinin gəlirləri: miqdarı, ÜDM-də xüsusi çəkisi | 714,6<br>15,1 | 2055,2<br>16,4 | 6047,0<br>21,2 | 10762,7<br>26,8 | 10325,9<br>29,0 | 11403<br>26,9 | 15700,7<br>30,7 |
| Dövlət büdcəsinin xərcləri: miqdarı, ÜDM-də xüsusi çəkisi | 764,0<br>16,2 | 2140,7<br>17,1 | 6086,2<br>21,5 | 10774,2<br>26,8 | 10503,9<br>29,5 | 11765,9<br>27,7 | 15397,5<br>30,1 |
| Vergi daxilolmaları: Miqdarı | 510,4 | 1427,7 | 4550,3 | 5747,5 | 6024,5 | 4291,8 | 5475,1 |
| Vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi | 10,8 | 11,4 | 16,0 | 14,3 | 11,6 | 10,1 | 10,7 |
| büdcə gəlirlərində xüsusi çəkisi | 71,4 | 69,5 | 75,2 | 53,4 | 39,8 | 47,9 | 34,3 |

Hazırda ölkəmiz öz inkişafının yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələdə vergi işçilərinin qarşısına yeni mühüm vəzifələr çıxır. Əvvəla, Respublikamızda qeyri neft sektoru yüksək səviyyədə inkişaf etmiş, güclü infrastruktura sahələri formalaşmışdır. Nəticədə 2010 ildən başlayaraq iqtisadiyyatın inkişafının ağırlıq mərkəzi həm ÜDM-in artım sürətinə, həm də investisiya qoyuluşunun həcminə görə qeyri neft sektorunun üzərinə keçmişdir.

* Cədvəldə verilmiş statistik göstəricilər ADSK Azərbaycanın statistik göstəriciləri 2012, səh. 38-39, 396-397 əsasında tərtib olunmuşdur.

2010-cu ildə UDM-in 5 % artımına qarşı qeyri neft sektorunda artım 7,6%, 2011-ci ildə müvafiq olaraq 0,1%-ə qarşı 9,6%, 2012-ci ildə 2,2%-ə qarşı 9,7% olmuşdur. Eyni zamanda ölkə iqtisadiyyatına qoyulan bütün investisiyanın 2010-cu ildə 60%, 2011-ci ildə 70,9%-i, qeyri-neft sektorunun payına düşmüşdür.

Beləliklə, iqtisadi artımın və investisiya qoyuluşunun əksər hissəsinin qeyri neft sektorunun payına düşməsi bu sahənin daha sürətli inkişafı və səmərəliliyinin artmasını, bu hesaba dövlət büdcəsinə vergi gəlirlərinin artırılmasını da obyektiv zərurətə çevirir.

İkincisi, 2010-cu ildən neft hasilatı azalmağa başlamışdır. Buna müvafiq olaraq 2010-cu ildə sənaye məhsulunun artım sürəti azalaraq 2,6% olmuş, 2011-ci ildə isə 2010-cu ilə nisbətən qeyri-neft sənaye məhsulu 11,1% artdığı halda, bütövlükdə sənaye məhsulu 5%, 2012-ci ildə 2,3% azalmışdır. Belə vəziyyət istər-istəməz neft sektorundan dövlət büdcəsinə daxil olan gəlirlərin də azalmasına, xüsusilə Neft fondundan dövlət büdcəsinə ayırmaların məhdudlaşmasına səbəb olur. Həm də bu müvəqqəti proses deyil. Neft strategiyasının reallaşması başa çatdıqca Neft fondunun dövlət büdcəsinin formalaşmasında rolu azalacaqdır.

Beləliklə hər iki əsaslı dəyişiklik Respublikamızda iqtisadiyyatın inkişafının və dövlət büdcəsinin gəlirlərinin formalaşmasının neftdən asılı olmayan, yaxud az asılı olan yeni konsepsiyasının işlənib hazırlanması vəzifəsini qarşıya qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan 2020: Gələcəyə baxış" sərəncamı əsasında hazırlanmış sosial-iqtisadi inkişaf konsepsiyasında ya-

xın 10 il ərzində "çoxsahəli, innovasiya yönümlü, səmərəli və davamlı inkişaf edən güclü iqtisadiyyat yaratmağı ölkəmizin irəliyə doğru inkişafının əsas hədəfləri kimi müəyyənləşdirilmişdir. Beləliklə, inkişafın ağırlıq mərkəzi sadəcə olaraq qeyri-neft sektorunun üzərinə deyil, əsasən onun mütərəqqi texnika, texnologiya, elmi yeniliklər tətbiq edən sahələrinin üzərinə keçir. Respublikamızda istehsal, maliyyə və vergi potensialının artımı da birinci növbədə bu sahələrin hesabına təmin olunmalıdır. Bu hədəflərə uyğun olaraq demək olar ki, ***yaxın 10 ildə Respublikanın yeni büdcə-vergi siyasətində əsas məqsəd qeyri neft sektorundan, xüsusilə onun innovasiya yönümlü sahələrindən daxil olan vergilərin artması hesabına neftdən asılı olmayan güclü dövlət büdcəsinin formalaşmasına nail olmaqdır.*** Şübhəsiz ki, bunu vergi sistemi işçiləri çox yaxşı başa düşürlər. Belə ki, 2012-ci il fevral ayının 9-da və 2012-ci il fevral ayının 8-də Azərbaycanın vergi sisteminin inkişafına həsr edilmiş forum da bunun ifadəsidir.

Fikrimizcə, ***birinci*** növbədə, iqtisadiyyatın qeyri neft sektorunda vergi potensialının nəzərdən keçirilməsi və yaxın 10 ildə onun inkişaf istiqamətlərini nəzərə almaqla yenidən qiymətləndirilməsi faydalı olardı. ***İkincisi,*** büdcəyə vergi daxil olmaları proqnozlarının ÜDM-in artımına və sahə quruluşunda baş verən dəyişikliklərə uyğunlaşdırılması, innovasiya yönümlü qeyri neft sektoru sahələrində kiçik və orta sahibkarlığın inkişafına xüsusi diqqət verilməsi, vergi-büdcə siyasətinin bu sahələrin inkişafında rolunun artırılması, bu sahələrdə sahibkarlarda, vergi işçilərində yeniliyə həvəs və məsuliyyət hissi tərbiyə olunması, onlarda bu prosesə zəruri tələbat formalaşdırılmasıdır.

*Üçüncüsü*, yeni dövrün tələblərinə cavab verən regional vergi-büdcə siyasətinin yeridilməsi. Bu siyasətdə dövlət büdcəsinin gəlirlərinin artırılması mənafeyilə vergi ödəyicilərinin təsərrüfat sahələrinin inkişafına maraqlarının artırılması mənafeyinin düzgün əlaqələndirilməsi xüsusilə vacibdir.

Məlumdur ki, regionun maliyyə potensialı ilə vergi potensialı arasında sıx əlaqə var. Regionun maliyyə potensialının artması onun vergiyə cəlb olunan hissəsinin də artmasına şərait yaradır. Lakin bunlar arasındakı fərqi də nəzərə almaq lazımdır. Hazırda maliyyə potensialının vergiyə cəlb olunan hissəsinin artımı bütövlükdə maliyyə potensialının artımından geri qalır. Bu bələdiyyə təsərrüfatında, kənd təsərrüfat sahələrində xüsusilə özünü göstərir. Ona görə də regionlarda maliyyə potensialının artması ilə vergi potensialının artmasını düzgün əlaqələndirmək, vergi potensialının artmasına da müsbət təsir edən sahələrin inkişafına üstünlük vermək vacibdir. Bu nəticədə maliyyə potensialı içərisində vergi potensialının xüsusi çəkisinin artmasına şərait yaradır.

Məlumdur ki, Azərbaycanın Ağstafa-Qazax, Balakən-Zaqatala, Quba-Qusar, Şamaxı-Qobustan və Göyçay-Kürdəmir regionlarında iqtisadiyyatın əsasını vergi potensialı az olan xidmət sahələri və kənd təsərrüfatı təşkil edir. Əmək qabiliyyətli əhalinin, xüsusilə gənclərin əsas hissəsi digər rayonlara miqrasiya edir, nəticədə ümumi əhali içərisində vergi ödəyicilərinin xüsusi çəkisi aşağı düşür. Bütün əhali içərisində vergi ödəyicilərinin xüsusi çəkisinə görə regionlar arasında fərqlər yüksəkdir. Eyni zamanda Respublikanın regionlarında potensial vergi ödəyicilərinin xüsusi çəkisi həqiqi vergi ödəyənlərinin xüsusi çəkisindən 2-

2,3% dəfə çoxdur. Ona görə də bu potensial vergi ödəyicilərinin həqiqi vergi ödəyicilərinə çevrilməsi üçün qeyri neft sektorunun inkişafına, xüsusilə real sektorda sahikarlığın maliyyə və vergi resurslarının artırılması üçün qeyri-neft sektorunun çox vergi tutumlu sahələrinin inkişafına diqqət artırılmalıdır.

Lakin, bunun üçün verginin istehsalın inkişafını stimullaşdırıcı rolunun artırılması da vacibdir. Məlumdur ki, Azərbaycan regionlarının əksəriyyətində regional mədəni-iqtisadi mərkəz rolu oynaya bilən şəhərlərin (Qazax, Zaqatala, Şəki, Xaçmaz, Lənkəran, Salyan, Şirvan və i.a.) sənaye inkişafı hələlik aşağıdır, onlar ətraf yaşayış məntəqələrindən əmək qabiliyyətli əhalini özünə cəlb edə bilmir. Belə vəziyyət Bakı şəhərinə işçi qüvvəsi axıcılığının və Bakıda sosial-ekoloji problemlərin yaranmasının mühüm səbəblərindən biridir. Belə şəhərlərin üstün sürətlə inkişafını təmin etmək, istehsal potensialını artırmaq üçün burada mütərəqqi sənaye sahələrinə aid tikilən Respublika və iqtisadi rayon əhəmiyyətli müəssisələrə (həm tikintisi və həm də fəaliyyətinin ilk dövründə) vergi və kredit güzəştlərinin tətbiqi məsələsinin nəzərdən keçirilməsi və mümkün olan hallarda həlli də məqsədəuyğun olardı.

Vergi ödəyicilərinin maarifləndirilməsi, vergi ödəmələrinin vətəndaşlıq borcu olduğunu dərk edən könüllü vergi ödəyicilərinin sayının artması istiqamətində görülmüş işlərin davam etdirilməsi, fikrimizcə, yenə əsas vəzifələrdən biri olaraq qalır.

# V FƏSİL. ELMİN, TƏHSİLİN, TƏRBİYƏNİN İNKİŞAFI VƏ MİLLİ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏRİMİZİN MÜHAFİZƏSİ

## 5.1. Elmin inkişafı və elmi tədqiqatların nəticələrindən səmərəli istifadə*

Azərbaycan demokratik cəmiyyət quruculuğu, iqtisadi islahatlar və bazar iqtisadiyyatını inkişaf etdirmək istiqamətində sürətlə irəliləyir. Respublikamız öz həyatının bütün sahələrində yeni-yeni nailiyyətlərə imza atır. Heç şübhəsiz bu nailiyyətlərin əldə edilməsində elm və təhsil işçiləri də böyük rol oynamışlar. Cəmiyyətin inkişafının bütün mərhələlərində elmin, alimin fəaliyyətinə, təhsilin ölkənin inkişafı ilə sıx əlaqələndirilməsinə ciddi ehtiyac olmuşdur və bu ehtiyac indi daha da artmışdır. Buna görə də cəmiyyətin inkişafının bütün mərhələlərində elmin, təhsilin inkişafı və onun nəticələrindən səmərəli istifadə edilməsinə dövlət səviyyəsində böyük diqqət yetirilmişdir.

Lakin Respublikamızda iqtisadi sahədə, sonra isə bütün sahələrdə keçid dövrünün başa çatması iqtisadiyyatın innovasiya yönümlü inkişafı və səmərəliliyinin artırılması vəzifələrinin qarşıya qoyulması ilə elmin, təhsilin inkişafı və onun praktika ilə sıx əlaqələndirilməsi məsələsi xüsusi

---

* Bu paraqrafın yazılmasında başqa mənbələrlə yanaşı müəllifin aşağıdakı məqalələrindən də əsas mənbə kimi istifadə olunmuşdur:

1. İctimai, humanitar elmlərdə problemlər və onların həlli ətrafında düşüncələr. "Yeni Azərbaycan" qəzeti, 30 dekabr 2009-cu il;
2. Elmi dərəcəsi olan kadr hazırlığı, sahəsindəki nöqsanlar aradan qaldırılmalıdır. "Palitra" qəzeti, №40, 16 aprel 2010-cu il;
3. Dissertasiya mövzularında təkrarçılığa, aktual olmayan mövzuların işlənməsinə yol verilməməlidir. "Palitra" qəzeti №41, 20 aprel 2010-cu il.

aktuallıq kəsb etməyə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki tarixi nitqində müstəqillik illərində Respublikamızın iqtisadi islahatlar və bazar iqtisadiyyatına keçid istiqamətində keçdiyi yolu və əldə etdiyi nailiyyətləri ümumiləşdirərək demişdir: "Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır".

Prezidentin iqtisadi sahədə keçid dövrünün başa çatması haqqında elmi ictimaiyyət və xalq qarşısında açıq bəyanatından sonra akademik Ramiz Mehdiyev humanitar və ictimai elmlər sahəsində yaranmış vəziyyətə həsr olunmuş müşavirədəki məruzəsində, daha sonra "Modernləşmə xətti yenə də gündəlikdədir", "İctimai və humanitar elmlər: zaman kontekstində baxış", "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi", "XX-XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində" kimi proqram xarakterli əsərlərində ictimai və humanitar elmlər sahəsində çalışan alimlərin, elmi-tədqiqat institutları və ali məktəblərin elmi fəaliyyətindəki çatışmazlıqları yeni dövrün tələbləri baxımından aşkara çıxarmış, cəmiyyətin modernləşməsinin strateji istiqamətlərini, habelə elm, təhsil müəssisələrinin bu istiqamətlər üzrə gələcək fəaliyyətinin istiqamətini müəyyənləşdirmişdir. Həm də bütün bu məsələlərdə alimin, elm və təhsil müəssisələrinin rolunun, məsuliyyətinin artdığını ön plana çəkmişdir. Bu elm sahələri qarşısında duran vəzifələr və onu yerinə yetirmək üçün elmi-tədqiqat

işlərinin, kadr hazırlığının səviyyəsinin yüksəldilməsi, təhsilin təkmilləşməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması sahəsində alimlərimizin, ali məktəblərin və elmi-tədqiqat müəssisələrinin vəzifələri ətraflı şərh olunmuşdur.

Sonrakı illərdə Respublika Prezidenti öz çıxış və nitqlərində keçid dövrünün başa çatdığını, Azərbaycanın sürətlə inkişaf edən ölkə olduğunu, bununla əlaqədar elmin və təhslin qarşısına yeni vəzifələr çıxdığnı dəfələrlə qeyd etmişdir. Bu baxımdan Prezidentin 26 aprel 2011-ci ildə AMEA-nın illik ümumi yığıncağındakı giriş və yekun nitqləri xüsusi əhəmiyyət kəsb edir. Burada Prezident Respublikanın perspektiv sosial-iqtisadi inkişaf siyasətinin, strategiya və təsərrüfatçılıq modelinin hazırlanmasında alimlərin, elm və təhsil işçilərinin rolunun artırılmasının, gələcək inkişafımızın elmin inkişafı ilə sıx əlaqələndirilməsinin vacibliyini bir daha qeyd etmişdir:

"Biz elə etməliyik ki, Azərbaycan elmi inkişaf etsin, yaşasın və Azərbaycan dövlətinə, Azərbaycan milli maraqlarına həmişə olduğu kimi xidmət etsin".[1] Prezident İlham Əliyev "The World Business" jurnalının xüsusi buraxılışına müsahibəsində (30.01.2009-cu il) bu mövqeyini bir daha təkrar edərək demişdir: "Bizim məqsədimiz elmin və milli inkişafın səviyyəsi arasında əlaqə yaratmaq, elm, ali təhsil və iqtisadiyyat arasında ahəngdarlığı təmin etməkdir". [2]

---

[1] Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında Prezident İlham Əliyevin çıxışı. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. №2 (34), 2011, səh.76-82

[2] Respublika qəzeti. 31.01.2009-cu il.

Beləliklə, Prezident İlham Əliyevin iqtisadi sahədə keçid dövrünün başa çatması haqqında bəyanatını Azərbaycanın ən böyük elm və təhsil potensialının cəmləşdiyi, elm və təhsil sahəsində zəngin təcrübəyə malik Bakı Dövlət Universitetində səsləndirməsi, həm də AMEA-nın illik yığıncağında qarşıya qoyduğu vəzifələr, eyni zamanda Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin bəyanatından sonra ictimai və humanitar elmlərin rəhbərlərini, görkəmli alimləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında bir araya toplayıb onların fəaliyyətinin bütün sahələrinin yaxşılaşmasının vacibliyini göstərməsi heç də təsadüfi deyil, məhz keçid dövrünün iqtisadi sahədə başa çatması və alimlərin qarşısına yeni vəzifələrin çıxması ilə əlaqədardır.

Azərbaycan elminin dünya elminə inteqrasiyası, ölkəmizdən xaricdə kitablar, elmi məqalələr nəşr edilməsi, alimlərimizin xarici ölkələrdə keçirilən elmi-praktiki konfranslarda sanballı məruzələrlə iştirak etməsi, xüsusilə, texniki elmlərin, informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində əldə edilmiş böyük uğurlar inkar edilməzdir. Kosmosa ilk Azərbaycan peykinin buraxılması elmimizin çox böyük nailiyyətidir.

İqtisad elminin inkişafı, dünya elminə inteqrasiyası sahəsində də kifayət qədər nailiyyətlərimiz vardır.

Keçid dövrünün təkcə iqtisadi sahədə deyil, həm də cəmiyyət həyatının digər sahələrində (sosial, siyasi, mədəni, elmi, təhsil, mənəvi-əxlaqi, idarəetmə və i.a.) başa çatması ilə istər-istəməz qarşıya öz həllini gözləyən çoxsaylı yeni suallar çıxır: Ümumiyyətlə, keçid dövrü nədir? Demokratik cəmiyyətə, bazar iqtisadiyyatına keçid dövrü nədir,

bu dövr kapitalizmdən sosializmə, habelə feodalizmdən kapitalizmə keçid dövründən nə ilə fərqlənir? Əgər keçid dövrü başa çatıbsa ölkəmiz nəyə nail olub, başlıca yekunlar nədən ibarətdir? Həyatımızın başqa sahələrində keçid dövrü nə vəziyyətdədir? Bu sahələrdə keçid dövrü başa çatıbmı? Ümumiyyətlə, cəmiyyətimizin hazırkı vəziyyətini necə qiymətləndirmək olar? Neft kapitalının insan kapitalına çevrilməsi, cəmiyyətin, iqtisadiyyatın modernləşməsində daha fəal iştirak etmək üçün alimlər, təhsil işçiləri öz fəaliyyətlərinin hansı istiqamətlərinə daha çox diqqət verməlidirlər ? və i.a. Bütün bu və ya digər suallara kifayət qədər düzgün, elmi cəhətdən əsaslandırılmış cavablar vermək, birinci növbədə elmi-tədqiqat sahəsində çalışan biz alimlərin vəzifəsidir. Prezidentin iqtisadi sahədə keçid dövrünün başa çatması haqqında elmi ictimaiyyət və xalq qarşısında açıq bəyanatından sonra akademik Ramiz Mehdiyev humanitar və ictimai elmlər sahəsində yaranmış vəziyyətə həsr olunmuş müşavirədəki məruzəsində, daha sonra "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" proqram xarakterli məqaləsində ictimai və humanitar elmlər sahəsində çalışan alimlərin, elmi-tədqiqat institutları və ali məktəblərin elmi fəaliyyətindəki çatışmazlıqları aşkara çıxarmış cəmiyyətin modernləşməsi istiqamətində gələcək fəaliyyətinin strateji istiqamətlərini müəyyənləşdirmişdir. Həm də bütün bu məsələlərdə alimin, elm və təhsil işçilərinin rolunun, məsuliyyətinin artdığını ön plana çəkmişdir.

Qeyd etməyi vacib bilirik ki, keçid dövrünün başa çatması və cəmiyyətin keyfiyyətcə yeni inkişaf dövrünə daxil olması ilə əlaqədar alimlərin qarşısına çıxan suallara ətraflı cavab vermək geniş elmi-tədqiqat işlərinin aparılma-

sını tələb edir. ***Problemin tədqiqi bir alimin nisbətən qısa müddətli imkanı daxilində olmadığına görə bu əsərdə biz əsasən problemin qoyuluşu və yerinə yetirilməsi ilə əlaqədar əsas məsələlər haqqında öz mövqeyimizi, strateji istiqamətdə mülahizə və təkliflərimizi qısa formada ifadə etməyə çalışacağıq.***

Heç şübhəsiz, alimlərimiz həmişə olduğu kimi son illərdə də elmimizin, təhsilimizin inkişafına, ölkəmizdə aparılan daxili və xarici siyasətin informasiya təminatının yaxşılaşmasına kifayət qədər töhfələr vermişlər.

Prezidentin keçid dövrünün başa çatması haqqında bəyanatı, AMEA-da elmin inkişafına aid tövsiyələri əslində elm və təhsil müəssisələrinə, tədqiqatçı alimlərə ölkəmizin hazırkı inkişaf səviyyəsi və gələcək inkişaf istiqamətləri ətrafında daha ətraflı düşünmək və axtarış aparmaq üçün bir məsləhət, bir sifariş və tapşırıqdır. Bu bəyanat və çıxışlar, akademik Ramiz Mehdiyevin ictimai elmlərin inkişafı sahəsində qarşıya qoyduğu vəzifələr cəmiyyətin təşkilatçılıq missiyasını öz üzərinə götürən qüvvələrin və düşünən beyinlərinin qarşısına həllini gözləyən yeni suallar çıxarır və yerinə yetirilməsi vacib olan yeni vəzifələr qoyur.

Eyni zamanda "Azərbaycanın 2014-2023-cü illərdə sosial-iqtisadi inkişaf konsepsiyası" na uyğun olaraq yaxın 10 ildə Respublikamızda iqtisadiyyatın çoxşaxəli, davamlı, innovasiya yönümlü və səmərəli inkişafı, məhsulun və işin rəqabət qabiliyyətinin artırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi elmin, elmi tədqiqatların inkişafı və onun səmərəliliyinin artırılmasından çox asılı olacaqdır.

Əvvəla, gələcək inkişafımız elmin inkişafı ilə sıx əlaqələndirilməlidir. Prezident qeyd etmişdir ki, biz uzun-

müddətli inkişaf strategiyamızı müəyyən edərkən güclü elmi bazaya arxalanmalıyıq. Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqnozlar verilməlidir. "Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq-20-30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir". Prezident eyni zamanda Azərbaycanda elmin, ali təhsilin və iqtisadiyyatın birliyinin yaranmasının, elmi əsaslara söykənərək çoxşaxəli və dayanıqlı inkişaf modelinin qurulmasının, alimlərin müvafiq dövlət strukturları, təsərrüfat təşkilatları ilə sıx əlaqədə işləməsinin vacibliyini, xüsusi vurğulamışdır.

Baş verən qloballaşma prosesləri, informasiya-kommunikasiya texnologiyalarının inkişafın əsas amilinə çevrilməsi innovasiya yönümlü və səmərəli iqtisadiyyatın formalaşması tamamilə elmlə, elmi fəaliyyətlə, təhsillə əlaqədardır. Yeni dövr başqa elm sahələrində olduğu kimi iqtisad elminin, iqtisadçı alimlərin, elm və təhsil işçilərinin qarşısına da daha ciddi vəzifələr qoyur, alimlərin ölkəmiz qarşısında məsuliyyətinin artırılmasını tələb edir. Bu gün elmi-tədqiqat işlərinin təşkili və elmi dərəcəsi olan kadr hazırlığı məsələsinin açıq şəkildə elmi ictimaiyyətin müzakirə obyektinə çevrilməsi də bununla əlaqədardır. Burada, bir tərəfdən, cəmiyyətimizin inkişafından, tərəqqidən, yenidən qurulmasından obyektiv olaraq irəli gələn problemlər, digər tərəfdən bu işlərin təşkilində yol verdiyimiz nöqsanlardan qaynaqlanan problemlər yaranmışdır. Bunların bir neçəsi üzərində dayanaq. Əvvəla, yuxarıda göstərdiyimiz kimi Respublikamız tədricən öz inkişafının bir dövründən mahiyyətinə, məqsəd və vəzifələrinə görə ondan tamamilə

fərqlənən yeni dövrünə - elmi əsaslar üzərində bütün sahələrdə (iqtisadi, sosial, siyasi-mədəni, mənəvi-əxlaqi) modernləşdirilməsi dövrünə daxil olur. İnkişafdan, tərəqqidən həmişə cəmiyyət qarşısında yeni problemlər yaranmış və elm və təhsil işçiləri, xüsusilə alimlər həmin problemlərin həllində mühüm rol oynamışlar. Bu baxımdan daxil olduğumuz modernləşmə dövründə keçid dövründə olduğuna nisbətən cəmiyyətin qarşısına çıxan yeni problemləri görən və onun həlli istiqamətlərini verə bilən beyinlərə tələbat artır. Biz elm və təhsil işçiləri öz fəaliyyətimizi yaxşılaşdırmalı və bu tələbatı ödəməliyik. Akademik Ramiz Mehdiyev haqlı olaraq yazır: "Cəmiyyətin həyatında elmin rolunun artması alimin məsuliyyətini artırır".

İkincisi, müstəqillik illərində cəmiyyətimizin iqtisadi, sosial, siyasi, mədəni sahələri kimi elmin, təhsilin və elmi tədqiqat işlərinin demokratik əsaslarla təşkili və inkişafında da böyük nailiyyətlərimiz var, bunlar göz qabağındadır və inkar edilməzdir. Alimlərimizin aktual problemlərə həsr olunmuş çoxsaylı əsərləri ölkəmizdə və xarici ölkələrdə nəşr olunmuşdur. Elmi potensial 2002-ci ilə qədər azalsa da, 2002-2003-cü illərdə sabitləşmiş, 2004-cü ildən bütün sahələrdə artmağa başlamışdır. Elmi dərəcəsi olan kadr hazırlığında Respublikamız MDB məkanında birinci yer tutmasa da kifayət qədər artım göz qabağındadır. 2004-cü ilə nisbətən 2009-cu ilin əvvəlində elm və tədrisdə işləyənlərin sayı 1135 nəfər, o cümlədən elmi dərəcəsi olanların sayı 675 nəfər (elmlər doktoru 294 nəfər, elmlər namizədi 381 nəfər) artmışdır. Elmə çəkilən xərclər 2004-cü ilə nisbətən 2008-ci ildə 1,9 dəfə artmışdır. Göründüyü kimi, kifayət qədər artım və inkişaf var.

Akademik Ramiz Mehdiyev ictimai və humanitar elmlər sahəsində alimlərimizin böyük xidmətlərilə yanaşı, bu elm sahələrində elmi-tədqiqat işlərinin təşkilində, elmi dərəcəsi olan kadr hazırlığı sahəsində çoxsaylı nöqsan və çatışmazlıqlar olduğunu, yazılan dissertasiyaların, çap olunan monoqrafiya və elmi məqalələrin bir hissəsinin səviyyəsinin aşağı olduğunu, elmi dərəci olan kadr hazırlığında nöqsanlara yol verildiyini xüsusi qeyd etmişdir.

Elm və təhsil müəssisələri onları aradan qaldırmadan cəmiyyətin modernləşdirilməsi prosesində fəal iştirak edə bilməzlər.

***Üçüncüsü və başlıcası, modernləşmənin həyata keçirilməsində alimlərin rolunun və məsuliyyətinin artması onların cəmiyyətdə tutduğu mövqedən, alimliyin öz təbiətindən irəli gəlir.***

***Alimlər öz təbiətlərinə görə ümumxalq mənafeyinin təmsilçiləridirlər. Onlar ümumxalq mənafeyini əldə rəhbər tutaraq yaşadığı ölkənin daxili və xarici siyasətinin, sosial-iqtisadi inkişafın əsas müddəalarının, strateji plan və proqramların işlənib hazırlanmasında fəal iştirak edir, öz töhfələrini verirlər. Sonra bu siyasəti, dövlət sənədlərini onların reallaşdırılması prosesində iştirak etdiyi zaman öz düşüncə tərzilə zənginləşdirir, öz əsərləri, çıxışları, zəhmətkeşlərlə görüşləri vasitəsilə xalqa – bu proqramların, siyasətin həqiqi icraçılarına çatdırır. Beləliklə, alimlər dövlət siyasətinin, buradakı ideyaların, məqsəd və vəzifələrin, yerinə yetirilməsinə xalqın səfərbər edilməsində müstəsna rol oynayırlar.***

Eyni zamanda xalqla təmasda olan alim özü də zənginləşir. Onda siyasətin, proqramların əsas müddəalarının xalqın mənafeyinə nə dərəcədə uyğun olub olmamasına aid

yeni fikirlər, yeni münasibət əmələ gəlir. O bu münasibəti öz tədqiqatlarında nəzərə alır, çıxardığı nəticə və təklifləri öz əsərləri, çıxışları, siyasətin hazırlanmasında yaradıcı iştirakı yolu ilə siyasət adamlarına çatdırır. Bununla da yeni siyasi qərarların, proqramların düzgün hazırlanması və qəbuluna fəal surətdə təsir göstərirlər.

Beləliklə, dövlət siyasətinin, strateji plan və proqramların hazırlanma səviyyəsi və reallığı, həm də onların xalq tərəfindən nə dərəcədə düzgün başa düşülməsi və icra olunması alimlərin bu iştirak və vasitəçilik funksiyasını nə dərəcədə düzgün icra etməsindən çox asılıdır.

***Məhz bu səbəbdən akademik Ramiz Mehdiyev bizə xatırladır ki, alimlər dövlətin, cəmiyyətin maraq dairəsinə xidmət edən elmi araşdırmalar aparmalı, bu araşdırmalardan çıxan nəticələr, ideyalar dövlət siyasi qərarlarının qəbul edilməsinə qədər olmalı və bu qərarların elmi əsasına çevrilməlidir.***

Halbuki, bu gün dövlətin iqtisadi siyasətinin hazırlanmasında bu siyasətin olduğu kimi kütləyə çatdırılması və beləliklə də onun xalqı səfərbərliyə alan maddi qüvvəyə çevrilməsində alimlərin rolu kifayət qədər deyil. Alimlərin öz elmi tədqiqatlarının nəticələri ilə, verilmiş nəzəri ümumiləşdirmə və təkliflərlə dövlət siyasətinin hazırlanmasında, qərarların, proqramların qəbulunda iştirakı gücləndirilməlidir. Bütün bunların həyata keçirilməsi imkanları elmi-tədqiqat işlərinin və elmi dərəcəsi olan kadr hazırlığının səviyyəsindən asılı olduğuna görə birinci növbədə, bu sahədə mövcud olan nöqsan və çatışmazlıqların aradan qaldırılmasına diqqət verilməlidir.

Müasir dövrdə Respublikamızda aparılan əsaslı tədqiqatlarla tətbiqi xarakterli tədqiqatların düzgün əlaqələndi-

rilməsinin əhəmiyyəti artır. Şübhəsiz ki, Elm fondunun yaradılması elmi-tədqiqat işlərinin intensivləşməsinə müsbət təsir etmişdir. Lakin Elm fondu başlıca olaraq tədqiqi nisbətən az vaxt tələb edən tətbiqi xarakterli işləri maliyyələşdirir. Bu səbəbdən çox az vaxt tələb edən tətbiqi xarakterli elmi-tədqiqat işlərinə maraq artmışdır. Əsaslı tədqiqatların miqdarı nisbətən azalmışdır. Aydındır ki, cəmiyyətin uzun müddətli ideya istiqamətlərinin müəyyənləşdirilməsində obyektiv aparılmış əsaslı tədqiqatlardan alınan nəzəri-metodoloji ümumiləşdirmələr, ideyalar hazırlanmış konsepsiyalar çox mühüm rol oynayır. Fikrimizcə, Azərbaycanın daxil olduğu yeni inkişaf dövründə, xüsusilə iqtisadiyyatda, fəlsəfə elmlərində əsaslı tədqiqatlara tələbat artmışdır.

Respublikamızda elmi kadrların hazırlıq səviyyəsinin, elmi-tədqiqat işləri və elmi əsərlərin keyfiyyətinin yüksəlməsi bu fəaliyyət sahələrinə qarşılıqlı əlaqədə yanaşmağı və onun bütün mərhələlərində işi yaxşılaşdırmağı tələb edir. Burada elmi dərəcəsi olan kadr hazırlığı xüsusi yer tutur. Çünki, elmi-tədqiqat işlərinin və elmi əsərlərin səviyyəsi kadrlardan, onların hazırlıq səviyyəsindən, işə nə dərəcədə həvəs və məsuliyyətlə yanaşmasından asılıdır.

***Elmi dərəcəsi olan kadr hazırlığı elə prinsiplər üzərində qurulmalıdır ki, Respublikamızın bütün aparıcı, nüfuzlu alimlərinin biliyindən və təşkilatçılıq qabiliyyətindən elmimizin inkişafı üçün səmərəli istifadə olunsun. Elmin təşkili və elmi kadrlardan istifadədə demokratik prinsiplər güclənsin və aparıcı alimlərdə elmimizin taleyi üçün məsuliyyət hissi artırılsın.***

Əlbəttə, elmi tədqiqat işlərinin təşkili və kadr hazırlığında əsaslı dönüş yaratmağın ən mühüm ***şərtlərindən biri bu sahədə maddi maraq prinsipinin təmin edilməsi, elmi-***

*tədqiqat işçilərinin maaşlarının artırılmasıdır.* Təcrübə göstərir ki, bu məsələnin həlli həmişə elmi-tədqiqat işlərinin, kadr hazırlığı və elmi əsərlərin səviyyəsinin yüksəlməsinə, bu sahələrdə çalışan işçilərin məsuliyyətinin artmasına əsaslı sürətdə müsbət təsir edir. Məhz bu səbəbdən dövlətimiz elm və təhsil sistemində işləyənlərin maaşlarının artırılmasına həmişə qayğı ilə yanaşır. Fikrimizcə, indi bu sahədə əsas məsələlərdən biri elmi-tədqiqat müəssisələrində işləyənlərin vəzifə maaşlarının ali məktəblərdə işləyənlərin uyğun vəzifə maaşları səviyyəsinə çatdırılmasına, bu iki sahədə əsaslı fərqlərin aradan qaldırılmasına diqqətin artırılmasıdır. Uyğun vəzifə maaşlarında əsaslı fərq olmadıqda alim hansı fəaliyyət sahəsi onun istəyinə və yaradıcılıq imkanına uyğundursa, o sahəni seçməklə cəmiyyətə daha çox fayda verə bilər.

Son illər ali məktəb işçilərilə elmi-tədqiqat sahəsində çalışan işçilərin ümumi artım sürətində elə bir əsaslı fərq olmamışdır. Misal üçün 2001-ci ilə nisbətən 2012-ci ilin əvvəlinə Respublikamızda elmi-tədqiqat işçilərinin sayı 13,5%, ali məktəbdə elmi-pedaqoji fəaliyyət sahəsində məşğul olan işçilər 12,32% artmışdır.[1] Halbuki bu müddətdə elmi-tədqiqatla məşğul olan elmlər doktoru 255 nəfər, elmi-pedaqoji fəaliyyət sahəsində məşğul olanlar 73 nəfər, elmlər namizədi müvafiq olaraq 384 nəfər artmış və 85 nəfər azalmışdır. Beləliklə, elmi dərəcəsi olan kadrlar ali məktəbdə 2009-cu ilə qədər, elmi tədqiqat müəssisələrində 2009-cu ildən başlayaraq sürətlə artmışdır..

Elmi tədqiqat sahəsində işləyənlərin sayı 2001-ci ildəki 15809 nəfərdən 2012-ci ildə 18687 nəfərə çatmış,

---

[1] Bu və sonrakı müvafiq rəqəmlər ARDSK: Azərbaycanın statistik göstəriciləri. Bakı-2012, səh. 252-265 əsasında müəllif tərəfindən hesablanmışdır.

2978 nəfər və ya 18,2% artmışdır. Bilavasitə tədqiqatçıların sayı 10168 nəfərdən 11891 nəfərə çatmış və ya 16,1 % artmışdır. Elmi tədqiqat sahəsində çalışan elmlər doktoru (678 və 933 nəfər) 255 nəfər və ya 37,7%, fəlsəfə doktoru (müvafiq olaraq 3343 və 3727 nəfər) 383 nəfər və ya 11,5% artmışdır.

Buna bənzər vəziyyət dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində də müşahidə olunur. 2001-ci ilə nisbətən 2012-ci ildə ali təhsil müəssisələrində işləyənlərin ümumi sayı (12484 və 14650 nəfər) 2166 nəfər və ya 17,3% artmışdır.

Həmin müddət ərzində ali təhsil müəssisələrində elmlər doktorlarının sayı (1170 və 1243 nəfər) 73 və ya 6,25% artmış, fəlsəfə doktorlarının sayı (5954 və 5869 nəfər) 85 nəfər və ya 1,43% azalmışdır. Bunun əsas səbəbi 2008/2009-2011/2012-ci dərs illərində ali məktəblərdə işləyən işçilərin, o cümlədən fəlsəfə doktorlarının ümumi sayının azalması tədris sahəsində Avropa və dünya təhsil sisteminə inteqrasiyanın ilk illərdə yerli kadr potensialına mənfi təsirinin nəticəsidir.

Fikrimizcə, bu gün Respublikamızda elmi dərəcəsi olan kadr hazırlığı vəziyyətinin dövlətin dəstəyilə, tələb və təklifi düzgün qiymətləndirmək, uyğunsuzluqları aşkara çıxarmaq və aradan qaldırmaq məqsədilə hərtərəfli təhlilinə ehtiyac vardır.

Ləyaqətli, istedadlı, elmimiz və təhsilimiz üçün narahat olan, məsuliyyət daşımağı bacaran tədqiqatçı alim hazırlamaq, dövrün tələblərinə cavab verən əsərlər yazmaq üçün gənclərə münasibətə, onların biliyinin qiymətləndirilməsinə obyektiv yanaşmaq, kifayət qədər istedada, qabiliyyətə malik olanları və özünü elmə, təhsilə həsr etmək istə-

yənləri seçib bu sahəyə gətirmək lazımdır. Bu isə ali məktəblərdən başlanır. Məlumdur ki, dövlətimiz bu sahələrə həmişə diqqət və qayğı göstərmiş, son illər isə bu qayğını xüsusilə artırmışdır.

Dissertasiyaların müzakirə və müdafiəsinin təşkili forma və qaydalarını təkmilləşdirməyə ehtiyac yaranmışdır. Hazırda dissertasiyaların müzakirəsi və qiymətləndirilməsində şöbələrin, kafedraların rolu və məsuliyyəti aşağıdır, üstünlük seminarlara verilir. Bu qaydanın özünü tamamilə doğrultduğunu demək çətindir. ***Fikrimizcə dissertasiyaların hazırlanması və müdafiəyə təqdim olunmasında elmi-tədqiqat institutlarında şöbələrin, ali məktəblərdə kafedraların, hüquq və məsuliyyəti artırılmalıdır.*** Elmi-tədqiqat institutlarında şöbələrin sayının nisbətən azaldılması, lakin onların daxilində qruplar təşkil olunmaqla, şöbədə işləyən əsas işçilərin məsuliyyətinin artırılması da məqsədəuyğun olardı. Dissertasiyalar iki şöbənin birlikdə iclasında iki dəfə: ilkin və yekun müzakirə olunmalıdır. Avtoreferatda dissertasiya müzakirə olunub, müdafiəyə təqdim olunduğu şöbənin (əsas şöbə) və ona qoşulmuş şöbənin adı göstərilməlidir.

Dissertantlara qarşı tələbkarlıq artırılmalıdır. Yalnız ali məktəbi fərqlənmə diplomu ilə, yaxud da əla və yaxşı qiymətlərlə bitirənlərə, dissertant olana qədər məqaləsi nəşr edilmiş olanlara, müstəsna hal kimi, dissertant olmaq və dissertasiya yazmağa icazə verilməlidir. Dissertantların yalnız ali təhsil aldığı və ya işlədiyi sahəyə (ixtisasa) uyğun mövzu seçməyə və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etməyə icazə verilməlidir. Eyni zamanda dissertantların işlədiyi sahələrdə (işlədiyi sistemdə) təşkilatı işlər aparmağa, sanballı elmi təkliflər verməyə

ehtiyac olduğu hallarda mövzular götürüb tədqiq etmələri daha məqsədəuyğun olar.

Fikrimizcə, fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yazılan dissertasiyaların və doktorluq dissertasiyalarının müdafiəsinə hüquq verən elmi məqalə, kitab, konfransların tezislərinin və ya materiallarının nəşrinə qarşı tələbkarlığı artırmaq lazımdır. Əvvəla, məqalələr və monoqrafiyalar yalnız seminarlarda, yaxud elmi şuralarda müzakirə olunduqdan, həqiqətən oxunub rəy verildikdən və rəy verənlərin, redaktorun məsuliyyəti nəzərə alınmaqla nəşr olunmalıdır. Fikrimizcə, fəlsəfə doktoru, elmlər doktoru olandan sonra fərdi, müstəqil yaradıcılıqla məşğul olmaq, müstəqil əsərlər yazmaq və nəşr etdirməklə, elmi dərəcə almaq üçün yazılan kitabları, elmi məqalələri, plan üzrə elmi-tədqiqat işinin nəticəsi kimi nəşr olunan əsərləri bir-birilə eyniləşdirmək, onlara eyni məsuliyyətlə yanaşmaq düzgün deyil. Elmi dərəcə almaq üçün və plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işinin nəticəsi olmaqla yazılan elmi məqalə və kitablara daha məsuliyyətlə yanaşmaq və onların lazımi tələblərə cavab verməsini təmin etmək lazımdır.

Konfranslara, konfrans materiallarına və tezislərə də eyni dərəcədə məsuliyyətlə yanaşılmalıdır. Onlar yalnız konfrans keçirildikdən sonra, həm də yalnız konfransda iştirak və çıxış edənlərin tezis və ya materialı daxil olmaqla vaxt itirmədən, qısa müddətdə nəşr olunmalıdır. Bəzən elə hallar olur ki, bir konfransda çox az insan çıxış edir. Lakin, çıxış edənlərdən sayca dəfələrlə çox tezis və ya material çap olunur.

Məqalə yazıb istədiyimiz adamı öz yanımıza qoşmaqla, yaxud uzun illər özümüzün üzərində işlədiyimiz mövzunu verməklə, fəlsəfə doktoru , elmlər doktoru hazırlanması

hallarına qətiyyətlə son qoymalıyıq. Bu yolla materialı və tezisləri çap olunan doktorant və dissertantların hazırlıq səviyyəsi aşağı olur, onlar bəzən tez müdafiə etsələr də elmimizə əhəmiyyətli bir şey vermirlər.

Doktorant və dissertantların dissertasiyaların üzərində işi azı 3 il davam etdirməsi vacibdir. Müşahidələrimiz nəticəsində belə qənaətə gəlmişik ki, kənardan müdaxilə olmasa heç bir dissertant özü yeni mövzu üzərində işini 3 ildən tez hazırlayıb müdafiəyə təqdim edə bilməz. Əlbəttə məqalələrin çap olunmasını da nəzərə almaqla yalnız 3 ildən az olmayan müddətə bu işin öhdəsindən gəlmək, həm də dissertasiyanın yazılmasına vərdiş etmək olar. Fikrimizcə, əyani doktorantların azı 3 il müddətində, qiyabi doktorant və dissertantların isə, azı 4 il müddətində nəşr olunmuş əsərləri məqbul sayıla bilər. Bunlarla yanaşı, alimlərimizin yaradıcılığına, əsərlərinə qarşı tələbkarlıq da artırılmalıdır. İndi sözün həqiqi mənasında hər kəs çalışır ki, onun əsərlərinin sayı çox olsun, keyfiyyət məsələsi isə demək olar ki, unudulur.

Xarici ölkələrdə elmi əsərlərin nəşrinə göstərilən diqqət və qayğını alqışlamaq lazımdır. Onlar bizim elmimizin, təhsilimizin xarici ölkələrdə tanınmasında, elmimizin, təhsilimizin dünya elm, təhsil sisteminə inteqrasiyasında mühüm rol oynayır. Bu istiqamət elmdə, təhsildə öncül istiqamət olaraq qalır və yəqin ki, daim diqqət mərkəzində olmalıdır. Bununla belə ölkəmizin daxilində nəşr olunan əsərlərə qarşı da diqqət və tələbkarlıq artırılmalıdır. Yaddan çıxarmaq olmaz ki, sabah xaricdə bizim, elm və təhsilimizi təmsil etməli olan alimlərin elmi məfkurəsinin, hazırlıq səviyyəsinin formalaşmasında ölkənin daxilində ana dilimizdə yazılan əsərlər də mühüm rol oynayır. Bu əsərlər

sabah elmimizi, təhsilimizi xaricdə təmsil edəcək insanların öz ölkəsinin dilini, mədəniyyətini, iqtisadiyyatını bilməsi üçün də vacibdir.

Elmi-tədqiqat işlərinin səmərəli təşkilinin vacib məsələlərindən biri onların koordinasiyası, elmi-tədqiqat işlərində və dissertasiya mövzularında təkrara, aktual olmayan mövzuların işlənməsinə yol verməməkdir. Hazırda bunun qarşısını almaq üçün elmi-tədqiqat institutlarında Respublika Koordinasiya Şurasının bölmələri və onların sədrləri fəaliyyət göstərir. Bunlar müəyyən qədər müsbət rol oynasa da problemi həll etmək üçün kifayət etmir. Nəticədə dissertasiya mövzuları içərisində aktual olmayanlara, işlənmiş mövzunun təkrar işlənməsinə rast gəlinir. Koordinasiya Şurasının iclaslarında obyektiv səbəblərdən üzvlərin bir hissəsi heç də həmişə iştirak etmir, mövzuların seçilməsi əsasən elmi rəhbərin öz mülahizəsinə əsaslanır ki, bu da bir sıra hallarda kifayət etmir. Fikrimizcə, Koordinasiya Şurası nəzdində ali məktəblərdə və elmi-tədqiqat institutlarında işləyən təcrübəli alimlərdən bir qrup yaratmaq (onlara verilən əmək haqqı işlədikləri müəssisədən ödənilə bilər) və bu işlərlə daimi məşğul olmağı onlara həvalə etmək lazımdır.

Bu təşkilatı qurum avtoreferatları nəzərdən keçirmək və müşahidələrini ümumiləşdirməklə tədqiq olunmuş mövzuları və tədqiqi vacib olan mövzuları müəyyənləşdirə, tədqiqi vacib olan mövzular haqqında tabe olduqları yuxarı təşkilata və müvafiq elm və təhsil müəssisəsinə ildə bir dəfə öz tövsiyyələrini verə bilərlər. Belə olduqda aktual olmayan, təkrar olunan dissertasiya mövzularının seçilməsi aradan qalxar, mövzuların seçilməsində məsuliyyət hissi artar.

Məlumdur ki, dissertasiya işlərini müdafiə etmək üçün avtoreferatlar buraxırlar. Ayrı-ayrı elm və təhsil müəssisələrində buraxılan avtoreferatlar öz yazılış üslubuna və məzmununa görə bir-birindən fərqlənir. Xüsusilə ali məktəblərdə buraxılan avtoreferatlarla AMEA sistemində buraxılan avtoreferatlar özünün strukturuna və dissertasiyanın məzmununu əhatə etməsinə görə fərqlənirlər. Burada vahid qayda yaratmaq vacibdir.

Fikrimizcə, avtoreferat dissertasiyanın xülasəsi formasında olmalı və onu oxuyan dissertasiyanın məzmunu haqqında tam təsəvvürə malik ola bilməlidir. Bunun üçün avtoreferatda məsələlərin şərhi ardıcıllığı dissertasiyadakına tamamilə uyğun olmalıdır. Yəni hər fəslin, o cümlədən, hər yarımfəslin şərhi, oradakı elmi yeniliklər və əsas nəticələr ardıcıl olaraq öz əksini tapmalıdır. Avtoreferatın həcmi dissertasiyanın həcmindən və orada qoyulan məsələlərin sayından, mürəkkəbliyindən asılıdır. Hər halda elm sahələri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların avtoreferatlarının həcmi 1,5-1,6, doktorluq dissertsiyası 2,5 çap vərəqi həcmindən az olmamalı, dissertasiyada təhlil olunmuş bütün məsələlər orada öz qısa şərhini tapmalıdır.

Ən mühüm məsələlərdən biri dissertasiyanın müdafiəsindən sonra elmi dərəcə və elmi adların verilməsidir. Son illər bunu təkmilləşdirmək və daha ədalətli prinsiplərə əsaslanması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (fikrimizcə, bu qurumu komissiya deyil, Komitə adlandırmaq daha düzgün olardı) bir sıra tədbirlər görmüş, mövcud qaydaları xeyli təkmilləşdirmişdir. Lakin, nəticə istənilən səviyyədə deyil. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların

təsdiqi üçün nəzərdə tutulan 3 ay, doktorluq dissertasiyaları 6 ay əvəzinə bəzən bir il, hətta iki il çəkir. Bu da müdafiə etmiş tədqiqatçıların bəzi hallarda heç bir günahı olmadan böyük mənəvi, fiziki, maddi əziyyət çəkməsinə səbəb olur. Görəsən bunun günahı kimdədir? Bu suala hər kəs bir məzmunda cavab verir. Amma bizim hamımızın günahı var. Birimizin günahı ondadır ki, düzgün olmayan cəhətləri görə-görə susuruq, başqa birimiz elə bunun iştirakçısıyıq, digərimiz zəif işi müdafiə etdirməklə təsdiq işini çətinləşdiririk, başqa birimiz öz üzərinə düşən vəzifəni yerinə yetirməkdə səhlənkarlıq edir və i.a.

Hazırda Akademiyanın elmi-tədqiqat institutları sistemində professor elmi rütbəsini almaq üçün beş aspirant hazırlamaq, ali məktəb sistemində beş il keçməsini əsas tələb kimi qarşıya qoyurlar. Bizə elə gəlir ki, müdafiədən sonra hansı müddətə professor və ya dosent (böyük elmi işçi) rütbəsini almaq hüququnu öncə müdafiədən əvvəlki xidmətlər müəyyən etməlidir. Məsələn, deyək ki, bir nəfər 20 ildir elmi-tədqiqat müəssisəsində işləyir, kifayət qədər əsərləri nəşr olunub. Əsərlərində doktorluq dissertasiyasının məzmunu da kifayət qədər əhatə olunmuşdur. Onun işi təsdiq olunandan sonra elmi ad almaq üçün uzun müddət gözləməsinə ehtiyac yoxdur. Bir nəfər tamam başqa sahə ilə məşğuldur. İndi namizədlik dissertasiyası müdafiə edib. Məhz belə adamlara 5-10 il iş stajı tələb olunmalıdır. Dosent, professor rütbəsi almaq o deməkdir ki, həmin insan həmin sahədə uzun müddət xidmət göstərmişdir və müvafiq elmi adlar məhz bu xidmətin ifadəsidir.

Bir sıra jurnallar AAK-ın siyahısına daxil edilməyib və burda nəşr olunan məqalə elmi məqalə sayılmır.

Fikrimizcə, burada əsas məsələlərdən biri əsərin hansı jurnalda dərc edilməsində deyil, əsas məsələ ondan ibarətdir ki, elmi dərəcə almaq hüququ verən məqalələrə qarşı tələbkarlıq artırılsın, onlar ciddi rəylərdən keçsin. Bu baxımdan AMEA-nın "Elm" qəzetində nəşr olunan məqalələrə qarşı tələbkarlığın artırılması, eyni zamanda bu məqalələrin elmi əsər kimi qəbul edilməsi vacibdir. Bununla yanaşı, elmi-tədqiqat institutlarının, ali məktəblərin elmi nəşrlərinə qarşı tələbkarlıq artırılmalıdır.

İctimai elmlərdə, xüsusilə də iqtisad elmində tədqiqat obyektilə təmasda olmaq, onun bütün xüsusiyyətlərini müşahidə etmək və öyrənmək həqiqi tədqiqatçı üçün vacibdir. Müstəqillik illərində iqtisad elminin tədqiqat obyektləri-iqtisadiyat sahələri, müəssisələr, rayonlar, şəhərlər, sosial-iqtisadi münasibətlər, hətta insanların sosial strukturu, məfkurəsi, düşüncə tərzi tamamilə dəyişmişdir. Bu gün şəhərlər, rayonlar, kəndlər bizim əvvəllər gördüyümüzə nisbətən köklü surətdə dəyişmiş, xüsusilə infrastruktur sahələri yüksək səviyyədə inkişaf etmişdir. Bunları gözlərilə görmədən, yerlərdə müvəffəqiyyətlər və problemlərlə tanış olmadan regionşünas alim çətin ki, qiymətli əsər yaza bilər. Buna görə də elmi-tədqiqat işlərini düzgün aparmaq, düzgün nəticələr çıxarmaq üçün ezamiyyət məsələsi ortaya çıxır. Təəssüf ki, hələlik iqtisadiyyata, xüsusilə regional iqtisadiyyata aid dissertasiyalar əsasən şəhərdə-paytaxtda yazılır, bir çox hallarda tədqiqatçı obyektə kifayət qədər bələd olmadığına görə onun nəticələri, verdiyi təkliflər də kifayət qədər inandırıcı, tutarlı olmur. Odur ki, müvafiq elmi-tədqiqat institutlarının planlarında respublika daxili regionlara aid nəzərdə tutulan ezamiyyət xərcləri artırılmalıdır.

Elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqi məsələsinə diqqətin artırılması da faydalı ola bilər. Son illər bu sahəyə diqqət azalmışdır. Hazırda tətbiq olunub deyəndə əsasən aparıcı alimlərin tədqiqat işinin nəticələrinin deyil, əsasən hazırlanmış dissertasiyalardan alınmış nəticələrin tətbiqinə aid doktorantların aldıqları arayışlar əsas götürülür. Alimlərimiz müxtəlif dövlət strukturlarında yaradılan komissiyalara da kifayət qədər cəlb olunmamışlar.

Dissertasiya müdafiə edənlərin heç də hamısı elm və təhsildə çalışmır. Azərbaycanın elmi sahədə kadr hazırlığında problemi nə *qədər kadr hazırlanmasında deyil, **peşəkar kadr hazırlığı sahəsindədir.*** Elmə özünün gələcək həyat mənbəyi kimi baxaraq taleyini elmə bağlayan, özünü elmə həsr etmək istəyən peşəkar alimlərin sayı kifayət qədər sürətlə artmır.

Həqiqi elm peşəkarlıq sevir, bu isə çatışmır.

Bunun səbəbini yalnız maaşın az olması ilə izah etmək ədalətsizlik olardı. ***Əsas səbəblərdən biri elmə şöhrət mənbəyi, gələcəkdə hazırkı fəaliyyət sahəsində uğursuzluğa duçar olarsa ehtiyat dolanışıq mənbəyi kimi yanaşanlara yol açmağımızdır. Əgər biz son illər hətta doktoranturaya daxil olanların dissertasiya müdafiəsindən sonra harada işləməsilə maraqlansaq bu həqiqəti aydın görə bilərik.***

Məhz bu səbəblərdən alimlərimizin ümumi sayı çox ola-ola dissertasiya müdafiə etmək üçün şuraların təşkilində müvafiq ixtisaslı alimlərin tapılıb şuraya daxil edilməsində, elmi rəhbər və opponentlərin təyini zamanı elmi dərəcəsi olan kadr azlığı müşahidə olunur. Halbuki, bütövlükdə alimlərimizin sayı kifayət qədərdir.

Biz elmi-tədqiqat institutlarında, elm mərkəzlərində, ali məktəblərdə işləyənlərə onlar bu tələblərə cavab verdiyi hallarda dissertasiya müdafiə etmək üçün birinci növbədə şərait yaradılmasına diqqəti artırmalıyıq. Ali təhsil müəssisələrinin, elmi-tədqiqat institutları, elm mərkəzinin mövcud perspektiv tələbatı və elmi dərəcəsi olan kadr hazırlığının müqayisə olunması, kadr hazırlığının birbaşa bu tələbatın ödənilməsinə yönəldilməsi daha faydalı olar. Elmi-tədqiqat institutlarında, elmi Mərkəzlərdə işçilərin keyfiyyət tərkibinə, ixtisas baxımından strukturuna diqqətin artırılması, imkan daxilində optimallaşdırılması vacibdir. ***Yaşlı nəslin zəngin təcrübəsini və elmdə nüfuzunu, orta nəslin işgüzarlığı və məqsədyönlülüyünü gənc nəslin yaradıcılıq həvəsi və çalışqanlığı ilə birləşdirmədən elmi-tədqiqat institutlarında, elm mərkəzlərində fasiləsiz və əhəmiyyətli müvəffəqiyyət qazanmaq çətindir.*** Eyni zamanda elmi-tədqiqat institutlarında elmi işçilər, o cümlədən elmi dərəcəsi olan elmi işçilərlə xidmət edici heyət arasında optimal nisbət formalaşması da vacib məsələdir. Keçən illərin məlumatına görə Akademiyada ictimai və humanitar elmlər sahəsində elmi işçilər, 70%-ə qədər, bəzi institutlarda 60-80%-ə qədər təşkil edir. Bu nisbət optimal hesab oluna bilərmi? Bunu demək çətindir.

Təqribən hansı nisbət optimal hesab oluna bilər? Hələlik institutlarda bu problem necə deyərlər müəssisə rəhbərlərinin öz istək və mövqeyindən asılı olaraq həll edilir. Halbuki bu məsələnin optimal həlli elmin, elmi-tədqiqat işlərinin inkişafı üçün az əhəmiyyət kəsb etmir. Fikrimizcə, Akademiyada bu məsələni həll etmək üçün xüsusi bir komissiyanın yaradılması və elmi-tədqiqat institutlarında

ayrı-ayrı qrup işçilər arasında nisbət məsələsinin prinsipial əsaslarının işlənib hazırlanması əhəmiyyətli olardı.

Adətən, Ali Attestasiya Komissiyası dissertasiyanın müdafiəsinin lazımi tələblərə cavab verməsi üzərində nəzarəti öz əsasnaməsinə uyğun olaraq, dissertasiya həmin komissiyanın sərəncamına ya müdafiəsinə icazə vermək, ya da dissertasiya şurası tərəfindən verilmiş elmi dərəcənin təsdiqi üçün göndərildikdən sonra həyata keçirir. Fikrimizcə, AAK zəruri hallarda, öz nümayəndələrinin dissertasiyanın müzakirəsi və müdafiəsi prosesində iştirakı yolu ilə də nəzarəti gücləndirə bilər.

Elmi-tədqiqat institutları və ali məktəblərdə elmi-nəzəri və ya elmi-metodoloji xarakterli seminarların keçirilməsinə diqqət artırılmalıdır. Bu seminarlar elm və tədris sahəsində çalışanların hazırlıq səviyyəsini yüksəldir, kollektiv qarşısında məsuliyyətini artırır və kollektivlərdə obyektiv elmi mühitin formalaşmasına və sanballı əsərlər yazılmasına kömək edir. Təəssüf ki, belə hallar müşahidə olunur ki, bu seminarlar əsasən konkret dissertasiyaların müzakirəsinə həsr olunur. Ayrı-ayrı aktual problemlərin, əldə edilmiş ən mühüm elmi nəticələrin müzakirəsinə həsr olunmuş şöbələr və kafedralararası seminarlar, ümumi institut əhəmiyyətli seminarlar isə nisbətən az keçirilir. İnstitutların, şöbələrin rəhbərləri bu seminarlarda da sanballı məruzələrlə çıxış etməlidirlər. Fikrimizcə dissertasiyaların seminarlarda müzakirəsi praktikasından imtina etmək məqsədəuyğun olardı.

Əlbəttə, elmi dərəcəsi olan kadr hazırlığının, dissertasiyaların və elmi əsərlərin səviyyəsini yüksəltmək üçün həm təhsil, həm də elmi-tədqiqat institutlarında görülməli olan tədbirlər yalnız bunlarla məhdudlaşmır. Görülməsi

vacib olan çoxsaylı əlavə tədbirləri biz hamımız birlikdə düşünüb tapmalı və icrasını təmin etməliyik.

## 5.2. Gənc nəslin təhsilinin və yaradıcı fəallığının yüksəlməsi modernləşmənin mühüm vasitəsi kimi

Ölkənin modernləşməsinin aparıcı qüvvələri gənclərdir. Məhz gənclər özlərində əvvəlki nəsillərin həyatın bütün sahələrində (iqtisadiyyat, mədəniyyət, elm, təhsil, səhiyyə, idarəetmə və i.a.) toplanmış müsbət təcrübəsini öyrənməli, qoruyub saxlamalı, inkişaf etdirməli, Respublikamızın innovativ inkişafını və modernləşməsini təmin etməlidir. Bunun üçün gənclərin qarşısına əvvəlk dövrlərdə olduğundan əsaslı surətdə fərqlənən yeni vəzifələr çıxır. Gənclərimiz demokratik cəmiyyətin, bazar münasibətlərinin tələblərinə cavab verən mütəxəssis olmaqla yanaşı milləti mədəniyyətimizi dərindən bilən,onu qloballaşan dünyanın tələblərinə uyğun inkişaf etdirməyi bacaran elmli, yaradıcı, əsl vətəndaş və əsil ziyalı olmalıdırlar. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nda gənclərin inkişafının bütün bu məsələlərinə kompleks yanaşılır.

Gənclərin vətənpərvərliyi, biliyi, peşəkarlığı ölkəmizin innovasiya yönümlü inkişafı və modernləşməsi üçün mühüm əhəmiyyət kəsb edir. Respublika Prezidenti İlham Əliyev 2011-ci ilin aprel ayının 21-də müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gənci və tələbə gənclər təşkilatının nümayəndələrini qəbul etmiş və bu mövqeyini daha da açıqlayaraq demişdir: "Biz çox istərdik ki, gənclərimiz həm peşəkar, həm bilikli, həm də vətənə, dövlətə bağlı olsunlar. Vətəni sevsinlər. Haqlı olaraq fəxr etsinlər ki, onlar Azər-

baycan vətəndaşlarıdır. Biz çalışırıq ki, işimizlə ölkəmizi elə inkişaf etdirək ki, hər bir vətəndaş haqlı olaraq fəxr etsin ki, Azərbaycanın vətəndaşıdır".[1]

Bir qədər sonra 2011-ci il sentyabr ayının 15-də Bilik günündə Bakı şəhəri Səbail rayonunda 6 №li məktəbin əsaslı təmirdən sonra açılış mərasimindəki nitqində Respublika Prezidenti Azərbaycanın innovativ inkişafının və modernləşməsinin əsas yolunun təhsildən, müasir biliklərdən, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqindən, intellektual əməyin inkişafından keçdiyini bir daha qeyd etmiş və dövlətimizin siyasətində gənclərin təhsilinə, bilikli və vətənpərvər olmasına gələcək müvəffəqiyyətlərimizin mühüm şərti kimi böyük əhəmiyyət verdiyini bildirmişdir: "Hər bir ölkənin, dövlətin gələcəyi və bu günü onun intellektual potensialından asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salaraq görürük ki, o ölkələr inkişaf edir ki, orada elmi-texniki tərəqqi sürətlə inkişaf edir, orada təhsilə, elmə, intellektual məhsulların yaradılmasına böyük investisiya qoyulur. Azərbaycan da bu yolu seçibdir.[2] Prezident daha sonra sözünə davam edərək demişdir ki, inkişaf etmiş ölkə olmaq üçün təkcə gözəl infrastruktura və binalara malik olmaq kifayət deyil, inkişaf etmiş ölkə olmaq üçün gərək cəmiyyətin intellektual potensialı yüksək səviyyədə olsun. Burada isə gənclərin təhsili, hazırlıq səviyyəsi, peşəkarlığı çox mühüm rol oynayır. Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər. Ölkəmi-

---

[1] Dövlət İdarəçiliyi: nəzəriyyəvə təcrübə jurnalı. №2 (34) 2011, səh.73-75

[2] 2011-ci il sentyabrın 15-də Bilik günündə Bakının Səbail rayonundakı 6 saylı tam orta məktəbin yenidən qurulmasından sonra istifadəyə verilməsi mərasimində Respublika Prezidenti İlham Əliyevin çıxışından. Dövlət idarçiliyi: nəzəriyyə və təcrübə №3 (35) 2011, səh.87

zin necə inkişaf edəcəyi onlardan asılıdır.[1] Prezident Tərtər rayonunda Gənclər Mərkəzinin açılışında (7 oktyabr 2012-ci ildə) nitqində dövlətimizin gənclər siyasətinin əsas məğzini bir daha diqqətə çatdıraraq demişdir: "Dövlətin siyasəti ondan ibarətdir ki, Azərbaycan gəncləri bilikli, savadlı, vətənə bağlı olsunlar və ölkəmizin gələcək inkişafına töhfələrini versinlər. Gənclərin vətənpərvərlik ruhunda böyüməsi də çox mühüm əhəmiyyət daşıyır. Gənclərimiz müstəqil dövlətçilik ruhunda, milli ruhda böyüməlidirlər, xüsusilə qloballaşan dünyada buna böyük ehtiyac vardır. Gənclər hərtərəfli hazırlıqlı olmalıdırlar. Bunun üçün ilk növbədə bilikli olmalıdırlar. Hər bir gəncin fəaliyyəti, gələcəyi üçün ilk növbədə bilik çox vacibdir".[2] Beləliklə, Respublika Prezidentinin gənclərin innovativ inkişafı üçün müəyyən etdiyi əsas istiqamətlər bunlardır: bilik, savad, istedad, yenilik, müasirlik, vətənpərvərlik.

Lakin bütün bu keyfiyyətlər yalnız vətənpərvərliklə birləşdiyi şəraitdə özünün müsbət nəticələrini verə bilər. Çünki vətənpərvərlik olmasa, heç bir ölkə, millət inkişaf edə bilməz. Eyni zamanda təhsil olmadan insanlarda kifayət qədər savad, bilik, istedad, yenilik, müasirlik ola bilməz. Bütün insanların, xüsusilə gəncliyin müasir dövrün tələblərinə cavab verən yüksək insani keyfiyyətinin formalaşmasının təməlində təhsil durur. Modernləşmə birinci növbədə yüksək təhsil səviyyəsinin-təhsil səviyyəsi isə insan kapitalının formalaşmasının əsasında durur.

---

[1] Yenə orada, səh.87

[2] Azərbacyan Respublikasının Prezidenti İlham Əliyevin Tərtərdə Gənclər Mərkəzinin açılışında nitqi: 7 oktyabr 2012-ci il, Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə №4 (40), 2012, s. 65

Qlobal informasiya cəmiyyətində təhsil sistemini bu cəmiyyətin tələbləri səviyyəsində quran, gəncliyin innovativ potensialını, yaradıcı təşəbbüskarlığını inkişaf etdirən və ondan səmərəli istifadə etməyi bacaran dövlətlər daha sürətlə inkişaf etmək və insanlara daha əlverişli həyat şəraiti yaratmaq imkanlarına malik olurlar.

Beləliklə, cəmiyyətin hər bir üzvünün, xüsusilə gənclərin modernləşməsi, kreativliyinin artması birinci növbədə təhsilin modernləşməsi vasitəsilə hayata keçirilir.

Təhsil cəmiyyətin, fərdin hərtərəfli inkişafı və yaradıcı fəaliyyətinin əsasıdır. Təhsil özlüyündə məqsəd deyil, dövlətin modernləşmə strategiyasının reallaşmasının, ölkənin hərtərəfli inkişafının, həyat səviyyəsinin yüksəlməsinin əvəzedilməz və mütləq şərtidir.

Bütövlükdə cəmiyyətin modernləşməsi kimi, təhsil sisteminin inkişafı və insan kapitalının formalaşmasının da əsas təşəbbüskarı, təşkilatçısı və təminatçısı dövlətdir. Başqa sözlə, dövlət kreativ fəaliyyətin təşkilatçısı və təminatçısıdır. Lakin dövlətin bu rolu nə dərəcədə oynaması, onun nə dərəcədə demokratik, sosial yönümlü olmasından, maliyyə imkanlarından, dünyada, qonşu ölkələrdə və ölkənin öz daxilində siyasi sabitliyin vəziyyətindən və i.a. asılıdır. Dövlətlər bu imkanlara görə fərqləndiyindən müxtəlif ölkələrdə onlar bu rolu müxtəlif səviyyələrdə yerinə yetirirlər. Lakin bütün hallarda akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi dövlət siyasəti ali təhsil müəssisələrində yüksək səviyyəli biliklərin istehsalına və mütəmadi elmi-tədqiqat fəaliyyətini təmin edəcək şərait yaradılmasına yönəldilməlidir.[1]

---

[1] Ramiz Mehdiyev. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı №2 (38), 2012, səh.120

Cəmiyyətin modernləşməsi, millətin yaradıcı aktivliyinin artması onun hər bir üzvünün modernləşməsi, yaradıcılıq potensialının artması ilə, xüsusilə millətin içərisində kreativ fəaliyyət göstərən insanların xüsusi çəkisinin artması ilə mümkündür. Kreativ fəaliyyətlə məşğul olan insanların bütün aktiv əhali içərisində xüsusi çəkisinin artması isə birinci növbədə kreativ fəaliyyətlə məşğul olan gənclərdən asılıdır.

***Cəmiyyətin dəyişməsi təkcə yaşca cavan nəslin sayca artması, fəaliyyətilə deyil, həm də yeni, yaradıcı düşüncəsi, amalı olan insanların fəaliyyətilə əlaqədardır.*** Burada isə həlledici yeri gənclər tutur. Millətin yaradıcı təfəkkürü mədəniyyət, təhsil, elm və digər sahələrdə əldə etdiyi nailiyyətləri, yaşlı və orta nəsildən qəbul edib inkişaf etdirən gənclərdir. Bu baxımdan yeni, modern cəmiyyətin qurucuları da gənclərdir. Onlar öz kreativ fəaliyyətlərilə həm keçmiş təcrübəni, həm dünyada gedən müasirləşmənin, həm də bazarın tələblərini nəzərə alan yeni modern cəmiyyət qurmalıdırlar. Azərbaycan gəncləri (15-34 yaş arasında olan əhali) bütün əhalinin 36,8 faizini təşkil edir.[1] Deməli, millətin içərisində kreativ düşüncəli əhalinin xüsusi çəkisinin artması başlıca olaraq gənclərin kreativ fəaliyyətə hazırlıq səviyyəsindən asılıdır.

Son illərdə Azərbaycanda təhsil sisteminin yenidən qurulması ilə əlaqədar qəbul edilmiş bütün proqramlar, keçirilmiş islahatlar, görülmüş dövlət tədbirləri, o cümlədən "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə milli

---

[1] ARDSK Azərbaycanın statistik göstəriciləri. 2012, səh.78

strategiyanın hazırlanması" gənclərin təhsilinin, yaradıcı təfəkkürünün inkişafı və ondan səmərəli istifadə edilməsində çox mühüm mərhələdir. Təhsilin kreativ inkişafının çox mühüm şərtlərindən biri onun dünya təhsil sisteminə inteqrasiyasıdır. Azərbaycanın Avropa və dünya təhsil sisteminə inteqrasiyası sürətlə inkişaf edir. Bu, digər cəhətlərlə yanaşı, birinci növbədə öz ifadəsini xarici ölkələrin tanınmış universitetlərində təhsil alan azərbaycanlı tələbələrin sayının artmasında, eləcə də xarici ölkə vətəndaşlarından Azərbaycanda təhsil alan tələbələrin sayının artmasında tapır ki, bu da Bu dövlətin gənclər siyasətinin mühüm tərkib hissələrindən birdir. Akademik Ramiz Mehdiyev bu haqda yazır: "Ölkənin intellektual gələcəyinə sərmayə qoymaq və 15000 gəncin xaricdə təhsil alması yolu ilə intellektual mühitin formalaşması üçün bazis yaratmaq; ipoteka kreditləri verilməklə gənclərin mənzil probleminin həlli üçün şərait yaratmaq; 1200-dən çox məktəb tikmək, gənclərə arxalanmaqla demokratik rejim və vətəndaş cəmiyyəti formalaşmasının təsirli və səmərəli mexanizmini yaratmaq lazım idi".[1] Məhz "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbulundan sonra həm xarici ölkə vətəndaşlarından bizim ölkəmizdə ali təhsil alanların, həm də xarici ölkələrin ali məktəblərində təhsil alan azərbaycanlı gənclərin sayı artmışdır. Təhsil və elm sahəsində qarşılıqlı təcrübə mübadiləsi, elmi əməkdaşlıq formaları inkişaf etmişdir. Xaricdən ölkəmizə gəlib təhsil alanların sayı kifayət qədərdir. 2005//2006-cı dərs illində onların sayı 3073 nəfər, 2011// 2012-ci dərs ilində 4231 nəfər olmuşdur. 2011// 2012-ci

---

[1] Ramiz Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti, Bakı, "Şərq-Qərb", 2008, səh.61

dərs ilində Türkiyədən 2582 nəfər, İrandan 718, Türkmənistandan 161, Çindən 146, Gürcüstandan 113 nəfər tələbə Azərbaycan ali məktəblərində təhsil alırdı. Lakin onların sayı əvvəlki illərdə artmış, son iki-üç ildə azalmışdır. Belə ki, 2009//2010-cu dərs ilində xarici tələbələrin sayı 5285 nəfər olduğu halda, 2010//2011-ci dərs ilində 4231 nəfər olmuş və ya 1054 nəfər azalmış, lakin 2005//2006-cı dərs ilindəkinə nisbətən 1158 nəfər və ya 13,8% artmışdır.[1]

Təhsildə inteqrasiya prosesləri keçən əsrin 50-ci illərindən inkişaf etməyə başlamış və müasir dövrdə çox geniş xarakter almışdır. Hələ 70-80-ci illərdə ümummilli liderimiz Heydər Əliyev Respublikamızda yüksək ixtisaslı kadr hazırlığına böyük qayğı göstərərək azərbaycanlı gəncləri SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərirdi. 1969-cu ildə SSRİ şəhərlərinə cəmi 47 nəfər azərbaycan vətəndaşı göndərilmişdi, bunların da əksəriyyəti başqa millətlərin nümayəndəsi idi. 1981-ci ildə isə SSRİ-nin qabaqcıl ali məktəblərində 244 ixtisas üzrə 3600-dən çox azərbaycanlı təhsil alırdı. Bu tələbələrin bir hissəsi ali təhsil alandan sonra Azərbaycana qayıdıb xalq təsərrüfatının müxtəlif sahələrində müvəffəqiyyətlə çalışır və onun inkişafına öz töhfələrini verirdilər. Bir hissəsi xarici ölkələrdə qalıb müxtəlif müəssisə və təşkilatlarda müvəffəqiyyətlə işləmiş və yenə işləyirlər. Beləliklə, onlar Azərbaycan elminin, təhsilinin, iqtisadiyyatının xarici ölkələrlə inteqrasiyasında, Azərbaycan həqiqətlərinin xarici ölkələrə yayılmasında, xaricdə Azərbaycan diasporunun formalaşmasında və inkişafında müstəsna rol oynamışlar. Müstəqillik illərində və xüsusilə hazırkı dövrdə həmin proses daha geniş

---

[1] ARDSK. Azərbaycanın statistik göstəriciləri. Bakı, Səda, 2012, səh. 252

formada davam edir, azərbaycanlı tələbələrin təhsil aldığı xarici ölkələrin sayı və coğrafiyası genişlənmişdir.

Bu siyasətə uyğun olaraq son illərdə xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı və ixtisas tərkibi sürətlə artmaqdadır. Bunların bir hissəsi dövlət xəttilə təhsil alan tələbələrin payına düşür. 2005/2006-cı dərs ilində 1182 nəfər, 2011/2012-ci dərs ilində 2096 nəfər dövlət xəttilə xarici ölkələrdə təhsil alırdı. Dörd il ərzində onların sayı 914 nəfər və ya 70,74% artmışdır. Azərbaycanlı tələbələr dövlət xəttilə başlıca olaraq Rusiya və Türkiyədə təhsil alırlar.[1]

Rusiyada 2005/2006-ci dərs ilində 245 nəfər, 2011/2012-ci dərs ilində 335 nəfər azərbaycanlı tələbə dövlət xəttilə təhsil alırdı. Qardaş ölkə olan Türkiyədə belə tələbələrin sayı 2005/2006-cı dərs ilində 751 nəfər, 2011/2012-ci dərs ilində 842 nəfər olmuşdur. Bir çox digər ölkələrdə də (Böyük Britaniya, Ukrayna, Almaniya və i.a.) azərbaycanlı tələbələr dövlət xəttilə ali təhsil alırlar.

Bütün yüksək keyfiyyətlərin gənclərə aşılanmasında tədris olunan fənlərin düzgün seçilməsi, fənlərin sayının, tədris saatlarının həcminin düzgün müəyyən edilməsi, tədris metodikasının, müəllim-tələbə münasibətlərinin təkmilləşməsi mühüm rol oynayır. Müasir dövrdə bu rol xüsusilə artır. Fikrimizcə, məhz bu sahələrdə hazırda təhsil sistemində çatışmazlıqlar vardır.

Belə şərait bizim milli təhsilimiz qarşısına yeni vəzifələr qoyur, orta və ali məktəblərimizdə milli mənəvi-əxlaqi keyfiyyətlərimizin, vətənə, torpağa bağlılıq münasibətlərinin tədrisi və təbliği məsələsi ön plana keçir.

---

[1] Yenə orda, səh.253

Ali məktəblərdə tələbələrə qarşı diqqətli olmaq, onların biliyini, maraq dairəsini düzgün qiymətlərdirməyə çalışmaq lazımdır. İndi tədris prosesində yaranmış xoşa gəlməz hallardan biri ali məktəbi ***fərqlənmə diplomu ilə bitirənlərə qarşı tələbkarlığın azalmasıdır.*** Bu bizim nə elmimizə, nə də xalqımıza və gələcəyimizə müsbət mənada heç nə vermir, əksinə gənc istedadlı kadrların seçilib elmə gətirilməsində müəyyən çətinlik yaradır. Fərqlənmə diplomu yalnız öz bilik səviyyəsinə, öz biliyini müəllimə, tələbələrə çatdırmaq qabiliyyətinə görə başqalarından müsbət mənada seçilən, həqiqətən tələbələr arasında onun əlaçı olduğu etiraf olunan, ali məktəbin həyatında fəal iştirak edən tələbəyə verilməlidir. Belə kadrlara işləmək üçün ali məktəblərin və ya elmi-tədqiqat institutlarının qapısı açıq olmalıdır.

Təhsilin ümumiliyinə fikir verilməli, təhsilin və tərbiyənin qarşısına aydun məqsəd qoyulmalıdır. Çalışmaq lazımdır ki, heç kim təhsildən kənarda qalmasın, məktəbdə təhsil və tərbiyə əlaqələndirilsin. Müəllim tərbiyə etmirsə onun təhsildə rolu azalır.

Təhsildə azərbaycan dilinin tədrisinə, öyrənilməsinə xüsusi diqqət verilməlidir. Bu məsələ xarici dillərdə təhsil alan orta məktəb şagirdləri üçün xüsusilə vacibdir.

Məlumdur ki, dil mənəvi mədəniyyətin çox mühüm ünsürüdür, açarıdır. Tələbə hansı dildə danışırsa, o dildə yazılmış mənəvi-əxlaqi keyfiyyəti də mənimsəyir, hansı dildə oxuyursa, o dildə ifadə olunan elmi, mədəniyyəti, psixologiyanı, əxlaqi keyfiyyətləri mənimsəyir. Ona görə də, əcnəbi dildə təhsil alan tələbələrin azərbaycan dilini mütləq öyrənməsi, təhsildə buna xüsusi yer verilməsi vacibdir.

Gənclərimizə alimlərə, müəllimlərə, ziyalılara, elmimizə, təhsilimizə hörmət hissi təbliğ etməliyik. Bu keyfiyyətlər kifayət qədər hörmətə malik olmayan cəmiyyətdə meşşanlıq baş alıb gedər.

Eyni zamanda təhsil müəssisələrinin ən yaxşı insani keyfiyyətləri özündə birləşdirən müəllimlərlə təmin olunmasına çalışmalıyıq. Yaxşı şagird, mütəxəssis, vətəndaş yetişdirmək üçün əvvəlcə yaxşı valideyn və müəllim yetişdirmək vacibdir. Müəllim bilikli, yüksək əxlaqi keyfiyyətli və obyektiv olmaqla yüksək insani keyfiyyətləri öz yetişdirmələrinə aşılaya bilər.

Ali və orta ixtisas təhsil müəssisələrində tədris olunan fənnlərin sayı, saatların həcmi və çeşidi vahid prinsiplər əsasında müəyyənləşdirilməlidir. Bunun üçün, fikrimizcə, əvvəlcə belə bir suala cavab verilməlidir: ***Ali və orta ixtisas məktəblərində hazırlanan kadrlar hansı tələblərə cavab verməlidir? Fikrimizcə, ali təhsil müəssisələrində yetişdirilən kadrlar yüksək səviyyəli mütəxəssis olmaqla yanaşı, həm də əsil vətəndaş və hərtərəfli dünyagörüşünə malik insan olmalıdır. Yaxşı mütəxəssis olmaq demək olar ki, bütün ölkələrin təhsil sisteminə eyni dərəcədə aid olan ümumi-dünyəvi tələbdirsə, hərtərəfli dünyagörüşünə malik olmaq bütün ölkələrdə təhsil sisteminə bu və ya digər dərəcədə aid olan ortaq tələbdir. Burda millilikIə dünyəvilik birləşir. Vətəndaş yetişdirmək tələbi isə xüsusidir, təhsilin milli xüsusiyyətidir. Hər ölkədə özünəməxsus formada, öz dilini, mədəniyyətini, iqtisadiyyatını, ədəbiyyatını, tarixini, coğrafiyasını və i.a. tədris etməklə təmin olunur.*** Təəssüf ki, ali və orta ixtisas məktəblərində hansı fənnlərin keçilməsi zamanı bu prinsipial məsələlər kifayət qədər nəzərə alınmır. Ayrı-ayrı alimlərin, müəllimlərin nüfuzu bə-

zən keçilən fənnlərə təsir göstərir. Bəzən heç də lazım olmayan, başqa fənnlərlə birləşdirilməsi vacib olan fənnlər ayrılıqda keçilir, fənnlərin strukturu ali məktəblərin və ixtisasların qarşısına qoyulan tələblərlə kifayət qədər uyğunlaşdırılmır.

## 5.3. Tərbiyənin inkişafı və milli mənəvi-əxlaqi dəyərlərin mühafizəsi*

Milli mənəvi-əxlaqi dəyərlər, dil xalqın, millətin özünü təsdiqləməsinin, varlığının ifadəsidir. Ona görə də onun qorunub saxlanması və inkişafına ümummilli liderimiz Heydər Əliyev çox böyük qayğı göstərirdi. Müasir dünyada bu problem hər bir millət üçün xüsusi aktuallıq kəsb edir. Bu heç də təsadüfi olmayıb bir tərəfdən qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, qlobal informasiya cəmiyyətinin formalaşmasının milli dəyərləri təhlükə qarşısında qoyması ilə, əlaqədardır. Prezident İlham Əliyev bunu xatırladaraq demişdir: "Qloballaşmanın müsbət tərəfləri də, çox mənfi tərəfləri də vardır. Mənfi tərəflərindən biri də məhz milli duyğuların elə bil ki, müəyyən dərəcədə əriməsi, yaxud da ki, onların kənara qoyulması məsələləri vardır. Ona görə də gənclər milli ruhda tərbiyə olunmalıdır".[1] Başqa bir mühüm səbəb Prezident İlham Əliyevin milli mənəvi dəyərlərin qorunub saxlan-

---

* Bu paraqrafı yazmaq üçün başqa mənbələrlə yanaşı müəllifin "Ailə, təhsil və milli-mənəvi dəyərlər"// ("Azərbaycan bu gün və sabah" jurnalı №6, 2008, səh.4-7) məqaləsindən əsas mənbə kimi istifadə olunmuşdur.

[1] Masallıda Gənclər Mərkəzinin açılışında Prezident İlham Əliyevin çıxışından. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. №1 (37) 2012-ci il, səh.91

ması və inkişafına böyük diqqət yetirməsilə əlaqədardır. İlham Əliyev Dünya azərbaycanlılarının III qurultayındakı nitqində bu barədə demişdir: "Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda biz milli mənəvi dəyərlərimizə də sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli mənəvi dəyərlərini, ana dilini-Azərbacyan dilini qoruya bilmişdir. Bu gün Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilmişdir. Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin əlamətidir".[1] Müasir dünyada böyük sürətlə baş verən qloballaşma, ölkələrin hərtərəfli inteqrasiyası, təhsilin, dilin dünyəviləşməsi, vahid Avropa təhsil sisteminin formalaşması kimi obyektiv proseslər gedir. Bu qlobal proseslər çərçivəsində hər bir ölkədə milli mədəniyyət, dil, əxlaq, mənəviyyat digərlərilə üzləşir. Hər bir ölkə bu obyektiv prosesdən bəhrələnməyə, mütərəqqi bildiyini, inkişafa, tərəqqiyə uyğun gələni qəbul etməyə; yad, zərərli bildiyi meyillərdən uzaqlaşmağa, özünün tarixən yaratmış olduğu-onun bir dövlət, bir millət kimi mənəvi-mədəni varlığının simvoluna çevrilmiş milli mənəvi-əxlaqi dəyərləri qoruyub saxlamağa və inkişaf etdirməyə çalışır.

Qloballaşma, inteqrasiya şəraitində milli mənəvi-əxlaqi dəyərlərin qorunması və inkişafı məsələsinin ön plana çəkilməsinin başqa səbəbləri də var: Əvvəla, demokratik cəmiyyətdə inkişaf etmiş, iqtisadi cəhətdən güclü dövlətlər

---

[1] Dünya azərbaycanlılarının III qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı. №3 (35), 2011, səh.43

nisbətən geri qalmış dövlətlərlə elmi, texniki-texnoloji, maliyyə, kadr hazırlığı sahəsində əlaqələrə girir və bu istiqamətlərdə onlara yardım göstərirlər. Bununla yanaşı öz mənəvi-əxlaqi keyfiyyətlərini, onun mənfi tərəflərini təbliğ edir və nisbətən zəif inkişaf etmiş ölkəni bütövlükdə, bütün sahələrdə asılı vəziyyətdə saxlamağa çalışır, öz siyasi, iqtisadi və mənəvi-əxlaqi iradəsini qəbul etdirmək cəhdləri göstərirlər. Belə vəziyyətdə zəif inkişaf etmiş ölkələrdə və ya inkişaf etməkdə olan ölkələrdə milli mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması problemi ortaya çıxır.

Başqa bir səbəb ölkənin iqtisadi inkişafının, ayrı-ayrı sahibkarların, ayrı-ayrı insanların varlanması proseslərinin, ölkənin milli mənəvi-əxlaqi keyfiyyətlərinin qorunub saxlanması və inkişafı ilə kifayət qədər düzgün əlaqələndirilməməsidir. Bütün bunlar hər bir ölkədə mili mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanması və inkişafı məsələsinin dövlət siyasəti səviyyəsinə qaldırılmasını və həllini mühüm bir vəzifə kimi qarşıya qoyur.

Azərbaycanın da bu gün həmin problemlə az-çox üzləşməsi qanuna uyğun bir haldır.

Respublikamızda neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, innovasiyalı istehsal sahələrinin üstün sürətlə inkişafı, insan potensialının keyfiyyətinin yüksəlməsi, elmin-təhsilin inkişafı və Avropa təhsil sisteminə inteqrasiyası istiqamətində görülmüş tədbirlər, insan azadlığının genişlənməsi, cəmiyyətin idarə olunmasında demokratiyanın güclənməsi nəticə etibarı ilə ölkəmizin iqtisadi, siyasi və mədəni cəhətdən dünyaya inteqrasiyasını genişləndirmiş və gücləndirmişdir.

Həm də Respublikamız irəliyə doğru inkişaf edib iqtisadi qüdrəti artdıqca bu inteqrasiya prosesləri daha da artacaq, nəticədə mənəvi-əxlaqi meşşanlığa, əxlaqi düşkünlüyə, milli yadlaşmaya qarşı mübarizə, milli mənəvi - əxlaqi keyfiyyətlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi məsələsi daim bizim diqqətimizi cəlb edəcəkdir.

Buna görə də dövlətimiz, onun başçısı möhtərəm prezidentimiz cənab İlham Əliyev elm, təhsil və mədəniyyətimizin dünya elminə, təhsilinə, mədəniyyətinə inteqrasiyasına, insan potensialının keyfiyyətinin yüksəlməsinə böyük diqqət verməklə yanaşı, milli mədəniyyətimizin, mənəvi-əxlaqi dəyərlərimizin qorunub saxlanması və inkişafına da böyük qayğı göstərir, bu məqsəd üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu qayğıya istinad edərək milli mənəvi-əxlaqi dəyərlərimizin qorunub saxlanması və inkişafı ilə əlaqədar bəzi mülahizələrimizi bildirmək istərdik.

Əhalinin milli-mənəvi əxlaqi ruhda tərbiyyəsinin, bu dəyərlərin qorunub saxlanmasının çox mühüm şərti milli dildə təhsildir. Hansı dildə yazıb- oxuyursan, təhsil alırsansa, o dilin daşıyıcılarının mənəvi-əxlaqi dəyərlərinə sahiblənirsən. Odur ki, bu məsələ həmişə diqqət mərkəzində olmalıdır.

Mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və inkişafında meşşanlığa qarşı mübarizə mühüm rol oynayır. Adətən cəmiyyət öz inkişafının bir mərhələsindən digərinə keçid prosesində olanda, yaxud bir cəmiyyət formasından digərinə keçid prosesi dövründə əvvəlki dövrdə olduğuna nisbətən müvəffəqiyyət qazanmış insanların bir hissəsində meşşan əhval-ruhiyyəsi geniş yayılır. Misal üçün kapitalizmin ilkin inkişaf mərhələsində Rusiyada şəhər alverçilərini,

sənətkarları, aşağıvəzifəli qulluqçuları və həmin təbəqəyə mənsub olan digər adamları meşşan adlandırırdılar.

Dünyagörüş dairəsi nisbətən məhdud olan bu qrup insanlar fəaliyyətinin mənasını öz mülkiyyətini, gəlirlərini artırmaqda və buna uyğun həyat tərzi formalaşdırmaqda görürdü. Beləliklə, ictimai görüş dairəsi məhdud olan bu qrup insanları mənəvi-əxlaqi keyfiyyətlər (elmin, təhsilin, tərbiyənin inkişafı) əslində yalnız öz gəlirlərini artırmaq və həyatlarını zənginləşdirmək üçün maraqlandırır. Belə adamlar əksər hallarda fizioloji tələbatın qulu olur. Cismani varlığını yaşatmaq hərisliyi güclü olur. Mənəvi varlıq cismani varlıqdan asılı vəziyyətə düşür. Kamil insanlarda isə əksinə fiziki varlıq mənəvi varlığa tabe olur, ona xidmət edir.

Müstəqillik illərində ölkəmizdə xırda və orta sahibkarlığın inkişafına böyük qayğı göstərilmişdir. Ölkəmizin uzun müddətli sosial-iqtisadi inkişaf strategiyasında da xırda və orta sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir, sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının inkişafının başlıca vasitəsi kimi müəyyənləşdirilir. Bu strategiyanın müvəffəqiyyətlə inkişafı nəticəsində son illərdə Respublikamızda xırda ticarət, sənətkarlıq sürətlə inkişaf edir, əhalinin orta mülkiyyətçilər təbəqəsi formalaşıb, dövlətin də, onların da gəlirləri artır. Belə şəraitdə gündəliyə belə bir sual çıxır – nə etmək lazımdır ki, sahibkarların inkişafı, ölkəmizin gəlirlərinin artması mənəvi-əxlaqi keyfiyyətlərimizin inkişafına daha çox xidmət etsin, ölkənin sürətli iqtisadi inkişafı bütövlükdə cəmiyyətin intellektual səviyyəsinin yüksəlməsi, mənəvi-əxlaqi dəyərlərin qorunması və inkişafının mühüm amilinə çevrilsin.

***Qabaqcıl dövlətlərin tarixi təcrübəsi göstərir ki, bunun əsas yolu ölkənin iqtisadi inkişafının, gəlirlərin artmasının tərbiyənin və təhsilin inkişafı ilə düzgün əlaqələndirilməsidir, yəni tərbiyə və təhsilə vəsait qoyuluşunun və bu sahənin təşkilinə diqqətin artırılmasıdır.***

***Tərbiyə insanın fiziki və psixoloji dünyasını, intellektual səviyyəsini, ətraf aləmə, həyata münasibətini, həyat mövqeyini formalaşdıran və inkişaf etdirən tədbirlər və təsirlərin məcmuudur.*** Beləliklə, mənəvi-əxlaqi keyfiyyətləri qoruyub saxlamaq və inkişaf etdirmək üçün bütün dünyəvi və milli mənəvi-əxlaqi keyfiyyətləri öyrədən və təbliğ edən tərbiyə üslubu formalaşdırılmalıdır. Elmi, əqli tərbiyə kimi mənəvi-əxlaqi tərbiyə də uşaq vaxtından başlayıb ömrün sonuna qədər davam etməlidir. Çünki həyat göstərir ki, bütün ən yaxşı insani keyfiyyətlər (kəramətlilik, səxavətlilik, rəiyyətpərəstlik, vətənpərvərlik, sadə zəhmətkeş insanlara hörmət, mərdlik, sücaət, möhtəşəmlik, qəhrəmanlıq, ağıl, mənsəb və hörmət sahibi olmaq, insaflılıq, haqq ədalət sahibi olmaq) qismən nəslən keçsə də əsasən təhsilin və tərbiyənin, xüsusilə əmək tərbiyəsinin məhsulu kimi meydana gəlir.

Tərbiyə zamanı ümumbəşəri dəyərlərin dünya xalqları tərəfindən qəbul olunmuş, tarixin sınaqlarından keçmiş və sağlam ruhlu şəxsiyyətin formalaşmasına müsbət təsir edən, eyni zamanda bizim milli-mənəvi dəyərlərlə ziddiyət təşkil etməyən formalarını (şəxsiyyət azadlığı, iradə möhkəmliyi, nəfs saflığı, əməl paklığı, ürək genişliyi, niyyət xoşluğu, təmənnasız kömək) təbliğ etmək xüsusilə vacibdir.

Eyni zamanda bizim milli-əxlaqi dəyərlərimizi (məs: islam dəyərləri, dinimiz, mədəniyyətimiz, mənəviyyatımız,

elmimizə, elm adamlarına, böyüklərə, kiçiklərə hörmət və i.a.) geniş təbliğ edilməlidir. Tərbiyənin tarixin sınaqlarından keçmiş köhnə və yeni üsullarını birləşdirmək vacibdir. ***Belə bir mövqe insanlara aşılanmalıdır ki, insanlığın əsas göstəricisi insanın əməlləridir, cəmiyyətə göstərdiyi xeyirxah xidmətlərin məcmuudur. Bu baxımdan, bilavasitə cəmiyyətin yaşayış vasitələrini istehsal edən sadə, zəhmətkeş insanlara hörmət hissi bizim tərbiyənin mühüm tərkib hissəsi olmalıdır.*** Bu bir tərəfdən bəzən bir qrup insanlar arasında yaranmaqda olan meşşanlığa qarşı mübarizə vasitəsi, digər tərəfdən ən vacib istehsal sahələrinin inkişafının stimullaşdırılması vasitəsidir.

Mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasında tarixən ailə, ailə tərbiyəsi mühüm rol oynamış və bu gün də oynamaqdadır. ***Sağlam ailə sağlam cəmiyyətin, möhkəm dövlətin əsas dayaqlarından biri, bəlkə də birincisidir. Demokratik cəmiyyətdə insanlara qanun çərçivəsində həyat və fəaliyyət azadlığı verildiyindən insanın vətənə, torpağa bağlılıq, insanlığa, milliliyə, böyüyə, kiçiyə hörmət ruhunda ailə tərbiyəsinə ehtiyac artır.***

***Uşaqlar birinci növbədə vətənə və anaya hörmət ruhunda tərbiyə olunmalıdır. Bu hörmət birinci növbədə valideynlərin özlərinin qarşılıqlı münasibətindən asılıdır. Uşaq atasının böyüklüyünü, ailənin başçısı olduğunu anasının ona münasibətində, ona qayğıkeş xidmətində, anasının böyüklüyünü və əzizliyini atasının ona qayğısında, məhəbbət və nəvazişində görməlidir.***

Biz ata-anaya, dilimizə, vətənimizə sevgini birinci növbədə öz ata-anamızdan öyrənirik. Yaxşı övlad yetişdirmək üçün yaxşı valideyin yetişdirmək lazımdır. Ananın atanı ailə başçısı kimi qəbul etməsi, ataya qayğısı, atanın

övladlarında anaya qarşı hörmət hissi təbliğ etməsi, nəvazişi son nəticədə övladda ataya, anaya, vətənə qarşı hörmət hissi yaradır, övlad harda olursa-olsun, ata-anasını, vətəni unutmur, onları əməllərində yaşadır;

Milli mənəvi-əxlaqi keyfiyyətlərimizin qorunub saxlanması, inkişafı üçün maddi nemətlər istehsal edən sadə zəhmət adamlarının əməyini təbliğ etmək, onlara hörmətlə yanaşmaq lazımdır. Bu, meşşanlığa qarşı mübarizənin mühüm vasitəsi olardı. Radio, televiziya, mətbuat onların əməyini təbliğ etməlidir. Eyni zamanda təbliğatın formaları təkmilləşdirilməlidir. Bizim müvəffəqiyyətlərimiz radio, televiziya, mətbuatla yanaşı, dinləyicilərlə birbaşa təmasda olmaq, alimlərin, ziyalıların ictimai yerlərdə görüşlərini keçirmək, çıxışlarını təşkil etmək vasitəsilə daha geniş təbliğ olunmalıdır.

## Nəticə

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin siyasəti haqqında çox əsərlər yazılmış və hələ çox yazılacaqdır. Biz də bu kitabda Heydər Əliyev və İlham Əliyev siyasətini qarşılıqlı vəhdətdə olan, bir-birini tamamlayan ardıcıl həyata keçirilən bir siyasət kimi təhlil etdik. Onun Azərbaycan iqtisadiyyatının 60-cı illərdəki durğunluqdan, 90-cı illərdə düşdüyü dərin və hərtərəfli böhrandan çıxarılması, bazar iqtisadiyyatı yolu ilə hərtərəfli inkişafı və modernləşməsində oynadığı əvəzsiz rolu göstərməyə, bu istiqamətdə öz təklif və tövsiyyələrimizi verməyə; Eyni zamanda Heydər Əliyev və İlham Əliyev siyasətinin böyük müvəffəqiyyət qazanmasını təmin edib ona həmişəyaşarlıq bəxş edən əsas keyfiyyətləri (prinsipial cəhətləri) aşkara çıxarmağa çalışdıq.

Fikrimizcə, bu keyfiyyətlər (prinsipial cəhətlər) aşağıdakılardır:

- öz xalqını dərin məhəbbətlə sevmək və ona ləyaqətlə xidmət etmək,
- Respublikamızın inkişafı üçün geniş imkanların olmasına, xalqımızın gücünə və yaradıcı qabiliyyətinə möhkəm inam,
- öz siyasətində xalqın istək və arzularını nəzərə almaq və onu realladırmaq üçün fədakarcasına çalışmaq;
- siyasətinin düzgünlüyünə xalqı inandırmaq və onu bu siyasətin yerinə yetirilməsinə səfərbər etmək istəyi və qabiliyyəti;
- siyasətin icraçıları ilə, xüsusilə sadə zəhmət adamları ilə tez-tez görüşmək, fikir mübadiləsi etmək, rəylərini, siyasətə münasibətlərini öyrənmək və nəzərə almaq;

- hələ siyasətin başlanğıcında ölkədə yaranmış vəziyyəti hərtərəfli təhlil etmək, obyektiv qiymətləndirmək və düzgün qərarlar qəbul etmək;

- çevik siyasət yeritmək, şərait dəyişdikcə siyasəti də dəyişmək, mərhələ-mərhələ siyasətin qarşısına yeni yaranmış şəraitin tələblərinə uyğun yeni məqsəd və vəzifələr qoymaq;

- siyasətdə varislik prinsiplərinə əməl etmək;

- keçmişə hörmətlə yanaşmaq, keçmişdə müsbət nə yaranmışsa onu qoruyub saxlamaq və yeni şəraitin tələblərinə uyğun inkişaf etdirmək;

- yüksək nizam-intizam, tapşırılan işin icrası üçün yüksək tələbkarlıq və məsuliyyət;

- elmə əsaslanmaq, elmin, təhsilin və iqtisadiyyatın inkişafında vəhdətliyə nail olmaq;

- xarici və daxili siyasətin vəhdətliyini təmin etmək;

- iqtisadiyyatın inkişafında qabaqcıl həlqəni tapmaq və ondan istifadə edərək digər sahələrin də inkişafına nail olmaq;

- dünyada iqtisadiyyat, mədəniyyət, elm, təhsil, idarəetmə və digər sahələrdə baş verən mütərəqqi yenilikləri diqqətlə öyrənmək və yerli şəraiti nəzərə almaqla onların öz ölkəsində tətbiqinə çalışmaq və i.a.

Fikrimizcə, Heydər Əliyev siyasətinə xas olan bu keyfiyyətlərin (prinsipial cəhətlərin) hər birinin ayrılıqda geniş tədqiqi və kitab halında nəşr edilməsi yaxın illərdə onun zəngin irsinin ətraflı öyrənilməsi və təbliğinin mühüm istiqamətlərindən birinə (bəlkə də birincisinə) çevrilə bilər. Bu işin hər cəhətdən faydalı olacağına heç bir şübhə etmirik.

Qəti qənaətimiz belədir ki, Heydər Əliyevin öz siyasətində istifadə etdiyi təməl prinsiplər təkcə ona müvəffəqiyyət qazandırmaqla məhdudlaşmır, həm də müasir dövrdə düzgün siyasətin vacib prinsipləri kimi diqqəti cəlb edir. Bu baxımdan da Heydər Əliyev siyasətinin bu təməl prinsipləri ümumi xarakter daşıyır. Hər bir düzgün siyasət üçün əməl olunması vacib olan prinsiplərdir. Respublika prezidenti İlham Əliyev bugün Heydər Əliyev ***siyasəti yaşayır***, davam edir və yeni formalarda ***zənginləşir*** dedikdə, şübhə etmirik ki, birinci növbədə Azərbaycan xalqını sevdiyini, ona ləyaqətlə xidmət etdiyini və Heydər Əliyevin öz siyasətində istifadə etdiyi bütün əsas keyfiyyətlərə (prinsipial cəhətlərə) sadiq olduğunu nəzərdə tutur.

Məhz Heydər Əliyev amallarına sadiq olmaq, siyasətdə onun müəyyən etdiyi prinsiplərə yaradıcı yanaşmaq və əməl etməklə İlham Əliyev öz prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatının inkişafında, neft strategiyasının həyata keçirilməsində, regionlarda müasir infrastruktur sahələinin inkişafında əsaslı irəliləyişlərə nail olmuş, işsizlik, yoxsulluq və ərzaq təhlükəsi problemlərini müvəffəqiyyətlə həll etmişdir. Indi Respublikamız öz inkişafının yeni dövrünə daxil olmuşdur. İnanırıq ki, düzgün siyasət nəticəsində Azərbaycan xalqı yeni dövrün-qlobal informasiya cəmiyyəti və modernləşmə dövrünün vəzifələrini də müvəffəqiyyətlə yerinə yetirərək dünyanın inkişaf etmiş dövlətləri arasında özünün layiqli yerini tutacaqdır.

*Nəşriyyatın direktoru:* Şöhrət Səlimbəyli

**Əli Xudu oğlu Nuriyev**

**AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAF VƏ MODERNLƏŞMƏ SİYASƏTİNİN KONSEPTUAL ƏSASLARI**

Bakı-«AVROPA»-2013

Kitabın mətni Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik AkademiyasınınRegional İqtisadi və Sosial Araşdırmalar İnstitutunda yığılmış və korrektə edilmişdir. (N.Ə Qaybalıyeva, N.Ə Nuriyeva)

Yığılmağa verilib:27.02.2013
Çapa imzalanıb: 27.03.2013
Format:60x84. 1/16.
F.ç.v: 26
Tiraj: 500

«AVROPA» nəşriyyatı